AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

İSSN 2224-0829

# ELMİ ƏSƏRLƏR

*İctimai elmlər seriyası*

*№ 2 (111)*

- **Tarix, antropologiya və siyasi elmlər**
- **Fəlsəfə və hüquq elmləri**
- **İqtisad elmləri**

**Naxçıvan – 2021**

Naxçıvan Dövlət Universiteti. "Elmi əsərlər".
*İctimai elmlər seriyası. 2021, № 2 (111)*

*Jurnal 13 fevral 1997-ci il tarixdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. (Şəhadətnamə № 550*)

**BAŞ REDAKTOR:** ***ELBRUS İSAYEV***
*Naxçıvan Dövlət Universitetinin rektoru, tarix üzrə fəlsəfə doktoru, dosent*

**BAŞ REDAKTOR MÜAVİNİ:** ***MƏFTUN İSMAYILOV***
*Elmi katib, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent*

**REDAKTOR**: ***SAMİR TARVERDİYEV***
*Naxçıvan Dövlət Universiteti "Qeyrət" nəşriyyatının direktoru*

**REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ:**

***Tarix, antropologiya və siyasi elmlər üzrə:***

**İsmayıl Muxtar oğlu Hacıyev**
*tarix üzrə elmlər doktoru, professor AMEA-nın həqiqi üzvü*
**Zəhmət Əbülfət oğlu Şahverdiyev**
*tarix üzrə elmlər doktoru, professor AMEA-nın müxbir üzvü*
**Hacıfəxrəddin Səfərli**
*tarix elmləri doktoru, professor AMEA-nın müxbir üzvü*
**İbrahim Ethem Atnur**
*tarix üzrə elmlər doktoru, professor*
**Şahin Fazil oğlu Fərzəliyev**
*tarix elmləri doktoru, professor*
**Şamxal Şükür oğlu Məmmədov**
*tarix üzrə fəlsəfə doktoru, dosent*
**Elçin Dağbəyi oğlu Zamanov**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

***Fəlsəfə və hüquq elmləri üzrə:***

**Məmməd Hüseyn oğlu Rzayev**
*fəlsəfə üzrə elmlər doktoru, professor*
**Qərib Vəli oğlu Allahverdiyev**
*fəlsəfə üzrə elmlər doktoru, dosent*
**Yusif Hüseyn oğlu Hüseynov**
*fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*
**Novruzəli Həmzə oğlu Rəhimov**
*fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*
**Elman Yusif oğlu Cəfərli**
*tarix üzrə fəlsəfə doktoru, dosent*
**Qəhrəman Novruz oğlu Behbudov**
*hüquq üzrə fəlsəfə doktoru, dosent*
**Şükür Aloş oğlu Məmmədov**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

***İqtisad elmləri üzrə:***

**Ağarza Ağahəsən oğlu Rüstəmov**
*iqtisad üzrə elmlər doktoru, professor*
**Teymur Abbas oğlu Abbasov**
*iqtisad üzrə elmlər doktoru, professor*
**Nazim Hidayət oğlu Əhmədov**
*iqtisad üzrə elmlər doktoru, professor*
**Müslüm Əli oğlu Cabbarzadə**
*iqtisad üzrə fəlsəfə doktoru, dosent*
**Ceyhun İlham oğlu Mahmudov**
*iqtisad üzrə fəlsəfə doktoru, dosent*
**Yuliya Vasiliyevna Cutceva**
*(Rusiya Dövlət Aqrar Universiteti)*
*iqtisad üzrə fəlsəfə doktoru, dosent*

# MÜNDƏRİCAT
# TARİX

1. **ELBRUS İSAYEV.** Böyük ipək yolunun fəaliyyətinin xilafət dövrü (VII-X əsrlər)..............9
2. **ZƏHMƏT ŞAHVERDİYEV, NADİR HÜSEYNBƏYLİ.** Totalitar rejimin Şahtaxtılılar nəslinə qarşı həyata keçirdiyi siyasi avantura..........................................................................14
3. **ƏLƏKBƏR CABBARLI.** Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi müstəqil Azərbaycanın dövlətçilik tarixinin ən parlaq səhifələrindən biri kimi..........................................................................................21
4. **İSMAYIL ZEYNALOV.** XX əsrin 80-ci illərinə qədərki dövrdə toyla bağlı icra olunan adət və ənənələr (Naxçıvan materialları əsasında)..........................................................................26
5. **ABDULLA MUSTAFAYEV, RUHİYYƏ RZAYEVA.** Qərbi Azərbaycanda etno-siyasi proseslər və erməni ekspansianizminin başlanması...............................................................36
6. **ARZU ABDULLAYEV.** Bir əsrlik tarix: Qars müqaviləsi.................................................42
7. **FƏXRƏDDİN CƏFƏROV.** XX əsrin əvvəllərində Naxçıvanda sosial-siyasi vəziyyət....46
8. **RƏSUL BAĞIROV.** Naxçıvançay vadisinin tunc dövrü yaşayış yerləri............................53
9. **HACIFƏXRƏDDİN SƏFƏRLİ, SABİR XƏLİLOV.** Naxçıvanın epiqrafik abidələrinin tərtibi xüsusiyyətləri..........................................................................................57
10. **YAŞAR RƏHİMOV.** XIX-XX əsrin əvvəllərində Naxçıvanda duz istehsalı və ticarəti tarixindən (rus mənbələri əsasında)..........................................................................63
11. **EMİN HƏSƏNLİ.** Əbədi müstəqilliyimizin zəfər səhifəsi.................................................70

# SOSİAL ELMLƏR VƏ HÜQUQ

12. **QƏHRƏMAN BEHBUDOV.** Cümhuriyyət dövründə dövlət idarəçiliyinin və dövlət qulluğunun səciyyəvi cəhətləri..........................................................................74
13. **İSMAYIL QƏRİBLİ.** Mülki prosessual hüququn prinsipləri...............................................82
14. **BAYRAM ƏLİYEV.** ABŞ-dakı lobbilər: erməni lobbisinin abş xarici siyasətinə təsiri.......87
15. **SƏTTAR ZAMANOV.** Mübahisəli məsələlərin mediasiya prosesi çərçivəsində həlli.........96
16. **AYSEL ABBASOVA.** Azərbaycan-Türkiyə münasibətlərində qarşılıqlı strateji maraqlar..........................................................................................100
17. **FİRUZƏ QULİYEVA.** Naxçıvan Muxtar Respublikasında həyata keçirilən sosial siyasətin uğurları..........................................................................................104
18. **OĞUZHAN UZAR.** XX əsrin 90-ci illərinin əvvəllərində Azərbaycanda ictimai-siyasi və hüquqi dəyişikliklər..........................................................................................108
19. **SƏBİNƏ ƏLİYEVA.** Kipr münaqişəsinin həlli istiqamətində Makmillan planı................114
20. **AFƏT FƏRZULLAYEVA.** Azərbaycanda informasiya təhlükəsizliyinin konstitusion və hüquqi təminatinin aktual problemləri..........................................................................120

# İQTİSADİYYAT


**21. TEYMUR ABBASOV.** İmmovasıyalı iqtisadiyyatda davamlı və dayanıqlı inkişaf Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin olunmasında əsas şərtdir...............................126

**22. DİLSUZ QASIMOV.** Aqrar sahədə iqtisadi idarəetmə mexanizminin nəzəri metodoloji aspektləri.........................................................................................................................130

**23. CEYHUN MAHMUDOV, FƏRMAN RƏSULOV.** Dövlətin iqtisadiyyatdakı rolu: nəzəri-konseptual yanaşmalar və təkamül mərhələsi...................................................................136

**24. CAVADXAN QASIMOV, MUSTAFA MUSTAFAYEV.** Yeni iqtisadi şəraitdə idarəetmə xüsusiyyətlərinin öyrənilməsi məsələləri……………………………………………..143

**25. MÜSLÜM CABBARZADƏ.** Torpaq ehtiyatlarından səmərəli istifadə və davamlı inkişafın perspektivləri...........................................................................................................149

**26. FLORA KƏRIMOVA.** İşğaldan azad olan ərazilərdə qış turizminin inkişafı potensialı.....155

**27. ELŞƏN NƏSİROV, DİLRUBƏ QASIMOVA.** Sənaye inqilablarında transmilli korporasiyaların rolu.......................................................................................................159

**28. HAVVA ADIGÖZƏLOVA.** İnnovasiyaların idarə edilməsinin təşkili............................165

**29. ƏLİ CABBAROV.** Zəngəzur - İstanbul marşrutu üzərində Naxçıvanın tranzit imkanları...170

**30. HƏSƏN MƏMMƏDOV, MUXTAR HƏBİBLİ.** Davamlı inkişafda iqtisadi artım modellərinə nəzəri yanaşma………………………………………………………………..175

**31. İRADƏ BAĞIROVA, HÜSEYN MƏHƏRRƏMOV.** Azərbaycan Respublikasında ipoteka kreditinin üstünlükləri və verilməsi proseduraı……………………………………...…182

**32. BULQEYİS NOVRUZOVA.** Naxçıvan MR-in xarici iqtisadi əlaqələrinin genişlənməsi onun dünya iqtisadiyyatına inteqrasiyanı şərtləndirən amildir……………………………..189

**33. ƏBDÜLHÜSEYN ZAMANOV.** Naxçıvan MR-də ixracyönümlü sahibkarlıq sahələrinə dövlət dəstəyi…………………..…………………………………………………………..196

**34. HƏBİB ZEYNALOV.** Ekstremal idman turizminin növ müxtəlifliyi və xüsusiyyətləri.....203

**35. ÜLKƏR HƏSƏNZADƏ.** Naxçıvan Muxtar Respublikasında ekoloji turizm: əsas ehtiyatlar və inkişaf istiqamətləri...........................................................................................209

**36. NƏCƏF ƏLİYEV**. Qlobal inteqrasiyada logistik strategiya məsələləri…………………..213

**37. NƏSRİN ƏLİYEVA.** İstehsalın təşkili və idarə edilməsi………………………………...220

**38. ALTUN YASİNLİ.** Kiçik və orta müəssisələrin iqtisadi potensialının artırılmasının əsas istiqamətləri…………………………………………………………………………..225

**39. SAMİDDİN QASIMOV**. Naxçıvan Muxtar Respublikasında ev (ailə) təsərrüfatlarına dövlət dəstəyinin forma və mexanizmləri…………………………………………………232

**40. NATİQ HUSEYNOV.** İstehsal şirkətlərində resurs səmərəliliyinin artırılması üçün süni intellekt tətbiqləri……………………………………………………………………….238

# CONTENTS

## HISTORY


1. **ELBRUS ISAYEV.** Caliphate period of the great silk road (VII-X centuries)…………..….9
2. **ZEHMET SHAHVERDIYEV, NADIR HUSSEINBAYLI.** The political adventure of the totalitarian regime against the Shahtakhti dynasty……………………………………..…14
3. **ELEKBER JABBARLI.** Election of Heydar Aliyev as chairman of the supreme assembly of the Nakhchivan Autonomous Republic one of the brightest pages in the history of statehood in Azerbaijan..................................................................................................................21
4. **ISMAYIL ZEYNALOV.** Until the 80s of the XX century wedding traditions and traditions (Based on Nakhchivan materials)…………………………………………………………...26
5. **ABDULLA MUSTAFAYEV, RUHIYYA RZAYEVA.** Ethno-political processes in western Azerbaijan and the beginning of armenian expansionism……………………….…36
6. **ARZU ABDULLAYEV.** A century history: Kars contract…………………………..……..42
7. **FAKHRADDIN JAFAROV.** Socio-economic situation in Nakhchivan at the beginning of XX century...................................................................................................................46
8. **RASUL BAGIROV.** Bronze age of Nakhchivanchay valley residences…………………..53
9. **HAJIFAKHRADDIN SAFARLI, SABIR KHALILOV.** Features of compilation of epigraphic monuments of Nakhchivan……………………………………………………57
10. **YASHAR RAHIMOV.** From the history of salt production and trade in Nakhchyvan in XIX-early XX centuries (based on russian sources)……………………………….……..63
11. **EMIN HASANLI.** The victory page of our eternal independence………………………...70


## SOCIAL SCIENCES AND LAW


12. **GAHRAMAN BEHBUDOV.** Characteristics of public administration and civil service in the republican period……………………………………………………………………74
13. **ISMAYIL GARIBLI**. Principles of civil procedure law……………………………………82
14. **BAYRAM ALIYEV**. Lobbies in the US: influence of armenian lobby on the us foreign policy…………………………………………………………………...87
15. **SATTAR ZAMANOV.** Solution of controversial issues within the mediation process……96
16. **AYSEL ABBASOVA.** Mutual strategic interests in Azerbaijan-Turkey relations……..…100
17. **FIRUZA GULIYEVA.** Successes of social policy implemented in Nakhchivan Autonomous Republic……..…………………………………………………………..………104
18. **OĞUZHAN UZAR.** Socio-political and legal changes in Azerbaijan in the early 1990s….108
19. **SABINA ALIYEVA.** Macmillan plan of the settlement of the Cyprus conflict….………114
20. **AFAT FARZULLAYEVA.** Actual problems of constitutional and legal provision of information security in Azerbaijan……………………………………………...……120

# ECONOMY

**21. TEYMUR ABBASOV.** Resistant and sustainable in an innovative economy development is the main condition for ensuring food security in Azerbaijan……………..…126

**22. DILSUZ KASSUMOV.** Theoretical and methodological aspects of economic management mechanisms in agriculture……………………………………………………………130

**23. JEYHUN MAHMUDOV, FARMAN RASULOV.** The role of the state in the economy: theoretical-conceptual approaches and evolutionary stage………………………...……136

**24. JAVADKHAN GASIMOV, MUSTAFA MUSTAFAYEV.** Issues of studying the features of management in the new economic conditions…………………………………...…143

**25. MUSLUM JABBARZADEH.** Prospects for efficient use of land resources and sustainable development……………………………………………………….………...........149

**26. FLORA KARIMOVA.** The potential for the development of winter tourism in the territories liberated from occupation…………………………………………………….…155

**27. ELSHAN NASIROV, DILRUBA GASIMOVA**. The role of transnational corporations in industrial revolutions………………………………………………………………159

**28. HAVVA ADIGOZALOVA.** Organization of innovation management…………………..165

**29. ALI JABBAROV.** Transit opportunities of nakhchivan on the Zangazur-Istanbul route….170

**30. HASAN MAMMADOV, MUKHTAR HABIBLI**. Theoretical approach to economic growth models in sustainable development..........................................................................175

**31. IRADA BAGIROVA, HUSEYN MAHARRAMOV.** Mortgage credit in the republic of Azerbaijan advantages and procedure of provisionsummary………………………………182

**32. BULGEYIS NOVRUZOVA.** Expansion of foreign economic relations of Nakhchivan Autonomous Republic is a factor contributing to its integration into the world economy......189

**33. ABDULGUSEIN ZAMANOV.** State support for export-business entrepreneurs in Nakhchivan AR………………………………………………………………………196

**34. HABIB ZEYNALOV.** Diversity and features of external sports tourism…………………203

**35. ULKAR HASANZADEH.** Ecological tourism in Nakhchivan Autonomous Republic: main resources and development directions……………………………………..…………209

**36. NAJAF ALIYEV.** Issues of logistics strategy in global integration…………………..…213

**37. NASRIN ALIYEVA.** Organization and management of production.................................220

**38. ALTUN YASINLI.** The main directions of increasing the economic potential of small and medıum-sızed enterprıses…………………………………………………….225

**39. SAMIDDIN KASUMOV.** Forms and mechanisms of state support of household (family) agricultural economies in the Nakhchivan Autonomous Republic…………………………232

**40. NATIQ HUSEYNOV.** Artificial intelligence applications to increase resource efficiency in manufacturing companies………………………………………………………….238

# ОГЛАВЛЕНИЕ
# ИСТОРИЯ


1. **ЭЛЬБРУС ИСАЕВ**. Халифатский период великого шелкового пути (VII-X вв.)..........9
2. **ЗАХМАТ ШАХВЕРДИЕВ, НАДИР ГУСЕЙНБЕЙЛИ.** Политическая авантюра тоталитарного режима против потомков шахтахтинских..............................................14
3. **АЛЕКПЕР ДЖАББАРЛЫ.** Избрание Гейдара Алиева председателем верховного собрания Нахчыванской Автономной Республики одна из самых ярких страниц в истории государственности в Азербайджане.................................................................21
4. **ИСМАИЛ ЗЕЙНАЛОВ.** До 80-х ГГ. XX века свадебные традиции и традиции (По материалам Нахчывана)..........................................................................................26
5. **АБДУЛЛА МУСТАФАЕВ, РУХИЯ РЗАЕВА.** Этнополитические процессы в западном Азербайджане и начало армянского экспансионизма социальные науки и право........................................................................................................................36
6. **АРЗУ АБДУЛЛАЕВ.** Вековая история: Kars contract..................................................42
7. **ФАХРАДДИН ДЖАФАРОВ.** Социально-политическая ситуация в Нахчыване в начале XX века..........................................................................................................46
8. **РАСУЛ БАГИРОВ.** Бронзовый век Нахчиванчайской долины резиденции...............53
9. **ГАДЖИФАХРЕДДИН САФАРЛИ, САБИР ХАЛИЛОВ.** Особенности оформления эпиграфических памятников Нахчывана.....................................................................57
10. **ЯШАР РАГИМОВ.** Из истории торговли и солевое производство Нахчывана в XIX-начале XX веков (на основе русских источников)........................................................63
11. **ЭМИН ГАСАНЛЫ.** Страница победы нашей вечной независимости.......................70


# СОЦИАЛЬНЫЕ НАУКИ И ПРАВО


12. **ГАХРАМАН БЕХБУДОВ.** Характеристика государственного управления и государственной службы в республиканский период....................................................74
13. **ИСМАИЛ ГАРИБЛИ.** Принципы гражданского процессуального права..................82
14. **БАЙРАМ АЛИЕВ.** Лобби в США: воздействие армянского лобби на внешнюю политику США..................................................................................................................87
15. **САТТАР ЗАМАНОВ.** Решение спорных вопросов в рамках процесса медиации........96
16. **АЙСЕЛЬ АББАСОВА.** Взаимные стратегические интересы в Азербайджанско-Турецких отношениях.........................................................................................100
17. **ФИРУЗА ГУЛИЕВА.** Роль исследований в социальной работе в решении проблем социальной жизни..................................................................................................104
18. **ОГУЗХАН УЗАР.** Культурно-политические и правовые изменения в Азербайджане в начале 90-х годов XX века....................................................................................108
19. **САБИНА АЛИЕВА.** План макмиллана по урегулированию кипрского конфликта...114
20. **АФАТ ФАРЗУЛЛАЕВА.** Актуальные проблемы конституционно-правового обеспечения информационной безопасности Азербайджана..........................................120

# ЭКОНОМИКА


21. **ТЕЙМУР АББАСОВ.** Основное условие обеспечения продовольственной безопасности в Азербайджане – устойчивое и длительное развитие в инновационной экономике........126

22. **ДИЛСУЗ КАСУМОВ.** Теоретико-методологические аспекты механизмов экономического управления в сельском хозяйстве........130

23. **ДЖЕЙХУН МАХМУДОВ, ФАРМАН РАСУЛОВ.** Роль государства в экономике: теоретико-концептуальные подходы и этап эволюции........136

24. **ДЖАВАДХАН ГАСЫМОВ, МУСТАФА МУСТАФАЕВ.** Изучение особенностей управления в новых экономических условиях........143

25. **МУСЛИМ ДЖАББАРЗАДЕ.** Рациональное использование земельных ресурсов и перспективы устойчивого развития........149

26. **ФЛОРА КАРИМОВА.** Потенциал развития зимнего туризма на освобожденных от оккупации территориях........155

27. **ЭЛЬШАН НАСИРОВ, ДИЛРУБА ГАСЫМОВА.** Роль транснациональных корпораций в промышленных революциях........159

28. **ХАВВА АДЫГЕЗАЛОВА.** Организация управления инновациями........165

29. **АЛИ ДЖАББАРОВ.** Транзитные возможности Нахчивана на маршруте Зангазур-Стамбул........170

30. **ГАСАН МАМЕДОВ, МУХТАР ХАБИБЛИ.** Теоретический подход к моделям экономического роста в устойчивом развитии........175

31. **ИРАДА БАГИРОВА, ГУСЕЙН МАГЕРРАМОВ.** Ипотечный кредит в Азербайджанской Республике преимущества и порядок предоставления........182

32. **БУЛГЕИС НОВРУЗОВА.** Расширение внешнеэкономических связей Нахчыванской АР является фактором, способствующим ее интеграции в мировую экономику........189

33. **АБДУЛГУСЕЙН ЗАМАНОВ.** государственная поддержка отраслей предпринимательства ориентированных на экспорт в Нахчиванской АР........196

34. **ХАБИБ ЗЕЙНАЛОВ.** Разнообразие и особенности экстремального спортивного туризма........203

35. **УЛЬКЕР ГАСАНЗАДЕ.** Экологический туризм в Нахчыванской Автономной Республике: основные ресурсы и направления развития........209

36. **НАДЖАФ АЛИЕВ.** Вопросы логистической стратегии в глобальной интеграции....213

37. **НАСРИН АЛИЕВА.** Организация и управление производством........220

38. **АЛТУН ЯСИНЛИ.** Основные направления повышения экономического потенциала малых и средних предприятий........225

39. **САМИДДИН КАСУМОВ.** Формы и механизмы государственной поддержки домашних (семейных) сельских хозяйств в Нахчыванской Автономной Республике........232

40. **НАТИК ГУСЕЙНОВ.** Приложения искусственного интеллекта для повышения эффективности использования ресурсов в производственных компаниях........238

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2021, № 2 (111), 9-13
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2021, № 2 (1), 9-13
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2021, № 2 (111), 9-13

# TARİX

**ELBRUS İSAYEV**
*Naxçıvan Dövlət Universiteti*
*i_elbrus@yahoo.com*

**UOT: 94(479.24)**

## BÖYÜK İPƏK YOLUNUN FƏALİYYƏTİNİN XİLAFƏT DÖVRÜ (VII-X əsrlər)

*Beynəlxalq karvan yollarını birləşdirən qədim İpək yolu VII-X əsrlərdə də mühüm əhəmiyyət kəsb edərək Çin və Hindistandan tutmuş İspaniyayadək ərazini əhatə edən ərəb-müsəlman dünyasının vahid ərazi birliyində ticarətin inkişafı ilə xarakterizə olunmuşdur. Xilafətin digər ölkələrlə ticarətində fəal bölgələrdən biri də Azərbaycan idi. Azərbaycan şəhərləri Xilafətlə Şimal-Şərqi Avropa və Asiya ölkələri arasındakı ticarətdə vasitəçilik edirdilər. Azərbaycan ərazisindən keçən ticarət yollarının ən işlək dövrlərindən biri Xilafətin hökmranlığı dövrünə təsadüf edir. Erkən orta çağ dövründə Böyük İpək yolunun ən mühüm marşrutlarına bu dövrün görkəmli coğrafiyaşünas-səyyahlarının "yol və məmləkətlər"ə həsr olunmuş əsərlərində rast gəlinir. Qeyd edək ki, bu əsərlərin yazılması xilafətin nabələd yollarını öyrənmək zərurətindən irəli gəlmişdir. Şübhəsiz ki, ərəb işğalı, əvvəlki yol və marşrutlarda da müəyyən dəyişikliklər törətdi. Bəzi inzibati məmləkətlərin, yaşayış məskənlərinin dağılması onların yanından keçən yollara da təsir etdi. Lakin bununla belə, bir çox yerlərdə köhnə yollar əvvəlki gücündə fəaliyyət göstərirdi. Bu amil VIII əsrin əvvəllərindən başlayaraq dünyanın ticarət yollarının istiqamətində dəyişiklik etdi. Belə ki, xilafətin beynəlxalq ticarət əlaqələri şimala və şərqə meyllənmişdi. Xilafətin mövcudluğunun ilk əsrlərində Qırmızı dəniz vilayəti və Misir öz mövqeyini İran körfəzi vilayətə və Bağdada vermiş, beynəlxalq ticarət Kür çayı hövzəsinə köçmüşdü.*

***Açar sözlər:*** *İpək yolu, xilafət dövrü, Azərbaycan şəhərləri, karvan yolları, beynəlxalq ticarət*

Beynəlxalq karvan yollarını birləşdirən qədim İpək yolu VII-X əsrlərdə də mühüm əhəmiyyət kəsb edərək Çin və Hindistandan tutmuş İspaniyayadək ərazini əhatə edən ərəb-müsəlman dünyasının vahid ərazi birliyində ticarətin inkişafı ilə xarakterizə olunmuşdur. Qeyri-müsəlman dünyası, o cümlədən Cənub-Şərqi və Mərkəzi Asiya, eləcə də Qərbi və Şərqi Avropa ölkələri ilə dövlət əhəmiyyətli müntəzəm əlaqələri saxlamaq marağı ərəbləri Böyük İpək Yolunun Xilafət ərazisindən keçən qollarını nəzarət altında saxlamağa məcbur edirdi.

Orta əsr qaynaqları təsdiq edirlər ki, tarixən mühüm ticarət yolları uğrunda müxtəlif dövlətlər kəskin mübarizə aparmış, bu məqsədlə qanlı müharibələr baş vermişdir. Aralıq dənizi sahillərindən Yəmənə doğru uzanan, oradan isə dəniz yolu ilə Hindistanla əlaqələnən qədim "ətir yolu" üzərində İranla Bizansın mənafeləri toqquşurdu. Bu yol vasitəsilə Bizansa hind ədviyyatı, fil sümüyü, müxtəlif rənglər, parçalar, Yəmən buxuru, qızıl qum və külçələri, Afrika qulları və s. gətirilirdi. Bu ticarət yolunda ağalıq etməyə çalışan rəqib dövlətlər Yəmənin Bizans təəssübkeşli xristian və İran təəsübkeşli yəhudi icmaları arasındakı ədavətindən istifadə etdilər. On illər boyu davam edən və neçə-neçə müharibəyə səbəb olan bu mübarizə Suriyaya və oradan Qərbi Avropaya aparan ticarət karvan yolunun əsas hissəsinin iranlıların əlinə keçməsinə səbəb oldu (1, s.98).

Aralıq dənizi sahillərindən Yəmənə gedən ticarət karvan yolu üzərində əsas yükboşaltma və yükdaşıma bazası Məkkədə yerləşirdi. Buradakı xüsusi anbarlar gətirilən yükləri qəbul edir və

paylaşdırırdı. Məkkə tacirləri ildə iki dəfə Yəməndən gələn tranzit karvanlara qoşulur, özləri ilə Suriyada satmaq üçün aşılanmış dəri, Ərəbistan mədənlərindən əldə edilən gümüş külçələri, yüksək qiymətləndirilən Taif kişmişi aparırdılar. Onların bu ticarətdən əldə etdikləri gəlir 50, hətta 100%-dən aşağı olmurdu. Karvanları yaxşı silahlanmış yüzlərlə muzdlu keşikçi müşayiət edirdi. Lakin Yəmənin Sasani imperiyasının tərkibinə daxil edilməsi Cənubi Ərəbistan vasitəsi ilə dəniz yolu ilə edilən ticarəti azaltdı. Belə ki, Sasani dövləti Bizansa gedən hind malları tranzitinin Yəməndən deyil, bilavasitə İran ərazisindən keçməsinə cəhd göstərirdi (1, s.98).

Abbasilər xilafəti Asiya, Avropa və Afrikanın bir sıra dövlətləri ilə geniş ticarət edirdi. Dövrün mənbələrində quru yolları bir-birinə bağlayan mərkəz kimi Abbasilər xilafətinin əsas şəhəri olan Bağdadın əhəmiyyəti xüsusi qeyd olunur. Bağdaddan müxtəlif istiqamətdə ayrılan yollar mərkəzi imperiyanın ən ucqar bölgələrini birləşdirməklə yanaşı, Şərqə və Qərbə doğru davam edərək, qədim İpək yolunu yaşadırdı. Bu yolun üstündə yerləşən Dəməşq, Antakiya, Rey, Təbriz, Nişapur, Mərv, Buxara, Səmərqənd və b. şəhərlər xeyli genişlənmiş, inkişaf etmiş, xilafətin mədəniyyət və əmtəə istehsalı mərkəzləri kimi şöhrətlənmişdi. Erkən orta çağ coğrafiyaşünas – səyyahlarından olan İbn Xordadbeh, əl-İstəxri, İbn Havqəl, əl-Müqəddəsi və başqaları Xilafət ərazisindən keçən ticarət yollarına yüksək önəm vermiş və “yol və məmləkətlər”ə həsr olunmuş əsərlər yazmışlar (2, s.115).

Xilafətin digər ölkələrlə ticarətində fəal bölgələrdən biri də Azərbaycan idi. Azərbaycan şəhərləri Xilafətlə Şimal-Şərqi Avropa və Asiya ölkələri arasındakı ticarətdə vasitəçilik edirdilər. Azərbaycan zərbxanalarında kəsilən sikkələrdən Rusiya, Almaniya, Skandinaviya və Pribaltika ölkələri ilə, habelə Şərq ölkələri ilə ticarətdə istifadə olunurdu. Xəzər sahillərindəki Dərbənd, Bakı, Abaskun, Astrabad və başqa limanlar Xilafətin Şimal və Şərq ölkələri ilə ticarətində başlıca mərkəzlər idilər. Dərbənd bazarı şimaldan Xəzərlə mal gətirən əcnəbi və yerli tacirlərin yığnaq yeri idi. Volqa boyundan gələn tacirlər samur, dələ, tülkü xəzi, ox, yapışqan, qılınc, zirehli geyim, mis, mum və başqa mallar gətirirdilər (3, s.271).

Azərbaycan ərazisindən keçən ticarət yollarının ən işlək dövrlərindən biri Xilafətin hökmranlığı dövrünə təsadüf edir. Erkən orta çağ dövründə Böyük İpək yolunun ən mühüm marşrutlarına bu dövrün görkəmli coğrafiyaşünas-səyyahlarının “yol və məmləkətlər”ə həsr olunmuş əsərlərində rast gəlinir. Qeyd edək ki, bu əsərlərin yazılması xilafətin nabələd yollarını öyrənmək zərurətindən irəli gəlmişdir. Şübhəsiz ki, ərəb işğalı, əvvəlki yol və marşrutlarda da müəyyən dəyişikliklər törətdi. Bəzi inzibati məmləkətlərin, yaşayış məskənlərinin dağılması onların yanından keçən yollara da təsir etdi. Lakin bununla belə, bir çox yerlərdə köhnə yollar əvvəlki gücündə fəaliyyət göstərirdi (2, s.115). Bu amil VIII əsrin əvvəllərindən başlayaraq dünyanın ticarət yollarının istiqamətində dəyişiklik etdi. Belə ki, xilafətin beynəlxalq ticarət əlaqələri şimala və şərqə meyllənmişdi. Xilafətin mövcudluğunun ilk əsrlərində Qırmızı dəniz vilayəti və Misir öz mövqeyini İran körfəzi vilayətə və Bağdada vermiş, beynəlxalq ticarət Kür çayı hövzəsinə köçmüşdü. IX əsrin ərəb tarixçısı əl-Bəlazuri bu haqda yazır: “Ərəblər Azərbaycana gələndə Kufə, Bəsrə və Şamdan öz qəbilələrini bu əraziyə köçürtdülər; bunlardan hər qəbilə özləri üçün torpaq götürdü; bəziləri əcəmlərdən torpaq satın aldı; kəndlər də təhlükəsizlik üçün müsəlmanlara verildi; buraların xalqı da ərəblərin əkinçiləri oldu (4, s.473).

Abbasilər dövründə isə Ərəb xilafəti üçün Bağdad çox mühüm şəhər idi. Çünki şəhərin qurulduğu yer, Dəcləni Fərata bağlayan və gəmilərin keçməsi üçün əlverişli bir kanalın yaxınlığında olmuş və bütün istiqamətlərə gedən yolların birləşdiyi bir düyün nöqtəsini əhatə edirdi. Hətta Hindistan yolu da buradan keçirdi. Şəhərin quruluşunu izah edən tarixçi və coğrafiyaşünas Yaqubi, Abbasi Xəlifəsi Mənsurun (747-ci ildə) Bağdad kəndi yaxınlığında dayanaraq belə dediyini yazırdı: “Şərqdə Dəclə, qərbdə Fərat arasında yerləşən bu ada dünyanın ticarət mərkəzidir. Vasit, Bəsrə, Ubulla, Əhvaz, Far, Oman, Yemame, Bəhreyn və bunların ətrafından Dəcləyə üzən bütün gəmilər burada dayanarlar: Mosul, Diyar Rəbiə, Azərbaycan və Ərməniyədən Dəclə yoluyla, Diyar Mudar, Rakka, Suriya və digər bölgələrdən Fərat yoluyla, Misir və Şimali Afrikadan gələcək gəmilərdəki ticarət malları buraya gətiriləcək və boşaldılacaqdır. Cəbəl, İsfəhan və Xorasan şəhərləri xalqı üçün bura bir keçid yeri olacaqdır. Mənim üçün bu yeri saxlayan Allaha şükür olsun. İnşallah bu şəhəri

inşa etdirəcəm və ömrümün sonuna qədər burada oturacağam. Xələflərim də burada yaşayacaqlar" (5, s.115).

Xilafətin şimalla (bulqarlarla və slavyanlarla) Cənub-şərqi Avropa ilə, Hindistan və Çin ilə ticarətində Kür çayı hövzəsinin şəhərlərindən keçən marşrutlar (bunların isə böyük əksəriyyəti Azərbaycan şəhərləri idi) dünya ticarəti sistemindəki əsas yeniliklər idi. Azərbaycan ərazisindən keçən həmin marşrutları, əsasən, 4 qrupda birləşdirmək mümkündür:

1. Azərbaycanı və xilafətin şimal-qərb vilayətini Əl-Cəzirə, Suriya və İraq ilə birləşdirən və sonuncunun vasitəsilə Hind okeanı vilayətlərilə əlaqələndirən (əsasən, İraqın limanları vasitəsilə) marşrut;
2. Kiçik Asiya, o cümlədən Trapezunda gedən ticarət yolları;
3. Şimal-şərqi və cənub-şərqi Avropaya gedən marşrut;
4. İrana, Orta Asiyaya və sonuncunun vasitəsilə Hindistana gedən yollar.

Xilafətin şimal vilayətlərinə aparan yollar içərisində ən mühümü məşhur Xorasan yolunun Bisitun dağı zirvələrindən birinin yanında başlayan şimal yolu idi. Bu yol xilafətin ucqar vilayətlərini, o cümlədən Arranı və Azərbaycanı mərkəzlə birləşdirir. Bu yol vasitəsilə mərkəz uzaq şimal və qərb ölkələri ilə əlaqələnirdi.

İkinci yol Azərbaycanın cənub hüdudlarında yerləşən Sisərdən keçərək cənubdakı Beyləqana doğru istiqamətlənirdi.

Xilafətin hakimiyyəti illərində ərazidə yerləşən ən mühüm nəqliyyat qovşağı Marağa idi. Buradan müxtəlif istiqamətlərə aparan bir neçə karvan yolu keçirdi. Marağadan şərqə doğru gedən yol Ərdəbilə çatırdı. Ərdəbil özü də müxtəlif istiqamətlərə gedən yollar qovşağında idi. Ərdəbildən şimala doğru gedən yol Bərdə, Xuşş, Bərzənd və Varsandan keçərək Arran ərazisinə daxil olurdu. Qeyd edək ki, şimali Azərbaycan ərazisindən keçən tranzit karvan yolları Arranın paytaxtı Bərdədə qovuşur, xilafətin Qafqazdakı bu inzibati-idarə mərkəzini məhəlli mərkəzlər – Tiflis, Dəbil, Ərdəbil və onlar vasitəsilə şərq və şimal ölkələri ilə birləşdirirdi (2, s.116-117).

X əsrin görkəmli ərəb tarixçisi Əl-İstəxrinin məlumatına görə, tacirlər Bərdədən çoxlu ipək və barama qurdları aparırdılar. Bərdə eyni zamanda Fars və Xuzistanı çoxlu ipəklə təchiz edir. Əl-İstəxri göstərir ki, Bərdənin 1/3 fərsəxliyindən Kür çayı keçir. Kürdə surmahı balığı var, bu balıq duzlandırılmış halda başqa yerlərə aparılır (6, s.112). Qeyd etdiyimiz kimi, Bərdə şimal ticarətinin əsas mərkəzlərindən sayılırdı. Xəzərin şimalından Dərbənd-Şabran-Şamaxı-Qəbələ-Bərdə-Ağdam-Füzuli-Ərdəbil istiqamətində, eyni zamanda Bərdə-Beyləqan-Atropatena-Parfiya istiqamətində Yaxın Şərqə, Bərdə-Gəncə-Şəmkir oradan İveriya vasitəsilə Qərbə gedən ticarət yolları "Böyük İpək yolu"nun fəaliyyətində mühüm rol oynamışdır. Bərdə şəhərində "əl-Kurkiy" adlı məşhur bazar var idi ki, bazar günləri camaat buraya yığışır, hər yerdən, hətta İraqdan belə buraya adamlar axışır və alver edirdilər (7, s.112). Təsadüfi deyil ki, akademik B.B.Bartold Bərdənin Qafqazdakı bütün ticarət yollarının və ərəblərin buradan keçirdikləri ticarət əməliyyatlarının əsas mərkəzi və qovşağı, şimalla tranzit ticarətinin mərkəzi olduğunu göstərir (Bax: 7, s.268). Bərdə şəhərində ipəkçilik qədim təsərrüfat və sənətkarlıq növü kimi inkişaf etmiş, ipək məhsullarının dünyanın bir çox yerlərinə yayılması ilə məşhurlaşmışdır. Hətta Bərdə şəhərinin adı "İpək sapı" mənası verən "berdi" türk sözü ilə əlaqələndirilir.

Əvvəlcədən qeyd etdiyimiz kimi, əfsanəvi Böyük İpək yolunun sanki qızğın və durğun dövrləri olmuşdur. Avropa, Asiya və Afrikanın müxtəlif yerlərində aşkar olunmuş çoxsaylı pul dəfinələri xilafət hökmranlığı dövründə ticarətin geniş miqyas aldığını, Azərbaycanın o dövrün bütün məşhur ölkələri ilə ticarət əlaqələri saxladığını göstərir. Lakin ərəblərin Bizansla apardığı aramsız müharibələr Böyük İpək yolunun fəaliyyətinə əsaslı surətdə təsir etmiş və bir müddət Şərq ölkələrinin Kiçik Asiya ilə ticarət əlaqələrinə son qoymuşdu. Lakin Bizansın dünya ticarətində öz aparıcı rolunu itirməsindən sonra xilafətin qonşu ölkələrlə ticarət münasibətləri gücləndi.

Zəngin bazarları və yerli sənətkarların istehsal etdikləri müxtəlif çeşidli məhsulları olan Azərbaycan və Arran şəhərləri ticarət əməliyyatlarında iştirak edərək xilafətin Avropa və Asiya ölkələri ilə ticarət əlaqələrinin artmasına səbəb olurdular. Azərbaycan ərazisində aparılan arxeoloji

qazıntılar nəticəsində Orta Asiya, Rusiya, Bizans, İran, Çin, Suriya, Fələstin, Misir və başqa ölkələrə məxsus maddi-mədəniyyət nümunələri aşkar edilmişdir. Bu nümunələr təsdiq edir ki, həmin ölkələrdən Azərbaycana daha çox şüşə, zərgərlik və toxuculuq məmulatı, gümüş qablar, bəzək əşyaları və s. gətirilirmiş. Qeyd edək ki, X-XI əsrlərə kimi Böyük İpək yolunda daşınan mallar içərisində Çin ipəyi və ipəkçilik məmulatı mühüm rol oynamışdır. Sonrakı əsrlərdə Azərbaycandan aparılan yüksək keyfiyyətli ipək Çin ipəyini sıxışdırıb bazardan çıxarmışdı. İndi də Avropanın, Venesiyanın, Genuyanın arxivlərində XIII əsrə aid Azərbaycan ipək növləri – Şəki, Şirvan, Gəncə ipəyi saxlanılır (8).

Lakin ərəb xilafətinin süqutu və parçalanmış imperiyanın ərazisində yeni dövlətlərin yaranması, beynəlxalq ticarətin fəaliyyətinə öz mənfi təsirini göstərdi. Çünki IX-XII əsrin əvvəllərində bütün Azərbaycan torpaqlarını əhatə edən qüdrətli vahid dövlət yaranmadığı üçün Azərbaycan şəhərlərindən heç biri ölkənin bütün ərazisini iqtisadi və siyasi baxımdan əlaqələndirən vahid mərkəzə çevirə bilmədi (9, s.53).

IX əsrin sonu - X əsrin əvvəllərində vaxtilə vahid məkan daxilində varlanmış və iqtisadi gücə malik olmuş Xilafət zəiflədikdən sonra onun tərkibində olan vilayətlərin öz müstəqilliklərini elan etməsi Böyük İpək yolunun tədricən parçalanmasına və ayrı-ayrı dövlətlər tərəfindən idarə olunmasına şərait yaratdı. Lakin XI əsrdə "Şərq və qərbin sultanı və hökmdarı" ləqəbini alan səlcuq imperatorları Böyük İpək yolunun çox hissəsinə rəhbərlik etməyə başladılar. XI yüzilliyin ortalarında artıq Böyük Səlcuq imperatorluğu Orta Asiyadan Aralıq dənizi sahillərinə və Dərbənd keçidindən İran körfəzinə qədər uzanan geniş bir ərazini əhatə etməklə Yaxın və Orta Şərqin ictimai-iqtisadi və hərbi-siyasi həyatına güclü təsir göstərdi.

## ƏDƏBİYYAT


1. Vəlixanlı N. Böyük İpək yolu və orta əsr imperiyaları // İpək Yolu jurnalı, 1998, №4, s.97-101
2. Vəlixanlı N. Ərəb xilafəti və Azərbaycan. Bakı: Azərnəşr, 1993, 157 s.
3. Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). Z.M.Bünyadov və Y.B. Yusifovun redaktəsi ilə. Bakı: Azərnəşr, 1994, 680 s.
4. el-Belazuri. Fütuhul-Büldan. Çeviren: Mustafa Fayda. Ankara: Türk Tarih kurumu Basımevi, 2002, 804 s.
5. Levis B. Tarihte araplar. Çeviren Hakk Dursun Yıldız. İstanbul: ANKA yayınları, 2003, 271 s.
6. Əl-İstəxri. Kitab məsalik əl-məmalik. Azərbaycan tarixi üzrə qaynaqlar. S.Əliyarovun və Y.Mahmudovun redaktəsi ilə. Bakı: Azərnəşr, 1989, 328 s.
7. Hacıyev Q.Ə. Böyük İpək yolu və qədim Bərdə şəhəri / Beynəlxalq Elmi konfransın materialları. Bakı: 2003, s.266-273
8. Mahmudlu Y. Böyük İpək yolu. "Azadlıq" qəz., Bakı: 1998, 15 avqust
9. Mahmudov Y. Azərbaycan tarixi intihab dövrü (IX əsrin ikinci yarısı-XIII əsrin əvvələri). Bakı: 1996, 84 s.


## SUMMARY

**Elbrus Isayev**

### CALIPHATE PERIOD OF THE GREAT SILK ROAD (VII-X CENTURIES)

Connecting the international caravan routes, the ancient Silk Road was characterized by the development of trade in a single regional unit of the Arab-Muslim world, covering the region from China and India to Spain, maintaining its importance in the 7th and 10th centuries. At that time, Azerbaijan was one of the active regions of the Caliphate in trade with other countries. The cities of Azerbaijan mediated the trade between the Caliphate and Northeast Europe and Asia. One of the busiest periods of trade routes passing through Azerbaijan's lands dates back to the Caliphate period. The most important routes of the Great Silk Road in the early Middle Ages are found in the works of

the leading geographers and travelers of this period, entitled "Roads and Countries". It should not be forgotten that the writing of these works stemmed from the need to examine the ways of the caliphate. Undoubtedly, the Arab occupation made some changes in previous roads and routes. The collapse of some administrative lands and settlements also affected the roads passing by, but in many places the old roads were still in working condition. This factor has changed the direction of world trade routes since the beginning of the 18th century. Thus, the international trade relations of the caliphate were directed to the north and east. During the first centuries of the caliphate, the Red Sea province and Egypt gave way to the Persian Gulf province and Baghdad, and international trade moved into the Kur River basin.

***Key words:*** *Silk Road, Caliphate period, Azerbaijani cities, caravan routes, international trade*

**РЕЗЮМЕ**

**Елбрусь Исаев**

**ХАЛИФАТСКИЙ ПЕРИОД ВЕЛИКОГО ШЕЛКОВОГО ПУТИ (VII-X ВВ.)**

Соединяя международные караванные пути, древний Шелковый путь характеризовался развитием торговли в единой региональной единице арабо-мусульманского мира, охватывающей регион от Китая и Индии до Испании, сохраняя свое значение в VII-X вв. В то время Азербайджан был одним из активных регионов Халифата в торговле с другими странами. Города Азербайджана были посредниками в торговле между Халифатом и Северо-Восточной Европой и Азией. Один из самых оживленных периодов торговых путей, проходящих через земли Азербайджана, относится к периоду Халифата. Важнейшие маршруты Великого Шелкового пути в раннем средневековье встречаются в трудах ведущих географов и путешественников этого периода под названием "Дороги и страны". Не следует забывать, что написание этих работ было вызвано необходимостью исследовать пути халифата. Несомненно, арабская оккупация внесла некоторые изменения в прежние дороги и маршруты. Развал некоторых административных земель и населенных пунктов затронул и проходящие мимо дороги, но во многих местах старые дороги еще оставались в рабочем состоянии. Этот фактор изменил направление мировых торговых путей с начала 18 века. Таким образом, международные торговые связи халифата были направлены на север и восток. В первые века существования халифата провинция Красного моря и Египет уступили место провинции Персидского залива и Багдаду, а международная торговля переместилась в бассейн реки Куры.

***Ключевые слова:*** *Шелковый путь, период Халифата, азербайджанские города, караванные пути, международная торговля*

---

***Məqalə daxil olmuşdur:*** *4 noyabr 2021-ci il*
***Çapa qəbul edilmişdir:*** *2 dekabr 2021-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2021, № 2 (111), 14-20
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2021, № 2 (111), 14-20
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2021, № 2 (111), 14-20

**ZƏHMƏT ŞAHVERDİYEV**
**NADİR HÜSEYNBƏYLİ**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 94(479.24)**

# TOTALİTAR REJİMİN ŞAHTAXTILILAR NƏSLİNƏ QARŞI HƏYATA KEÇİRDİYİ SİYASİ AVANTÜRA

*Azərbaycanda bolşevik totalitar rejimin idarəetmə aləti və iş üslubu olan repressiyaları həyata keçirməkdə məqsədi beynəlmiləlçilik adı altında bütövlükdə ölkədə, o cümlədən Naxçıvanın ictimai-siyasi həyatında mühüm rol oynayan milli düşüncəyə malik ziyalıların, müxtəlif peşə və sənət adamlarının, eləcə də Şaxtaxtılıların türkçülük məfkurəsinin, onlardakı milli istiqlal düşüncüsinin, müstəqil olmaq idealının dəyişdirilməsinə, ümumilikdə milli genefondun sıradan çıxarılmasına nail olmaq idi. Məqalədə milliliyə qarşı yönəldilmiş total siyasi aksiyaların, hüquq-mühafizə orqanlarının həyata keçirdiyi məhv etmək siyasətinin əsas mahiyyətini aşkarlamaq üçün istintaq və digər arxiv materiallarından geniş istifadə edilmişdir.*

***Açar sözlər:*** *qazi, şəhid, pantürkist, həbs, sürgün, türk, mübariz, totalitar rejim, repressiya, milli düşücə*

Bolşeviklər ictimai şüurun bütün formaları üzərində marksist-leninçi kommunist ideologiyası inhisarını təmin etmək məqsədilə ictimai həyatın bütün sahələrində mədəni inqilab adı altında milli ideologiyaları və milli düşüncəyə malik olan ziyalıları, xalqın ictimai-siyasi fikir tarixində mühüm rol oynayan və hər yerdə tanınan Şahtaxtılılar nəslini, beynəlmiləlçilik adı altında türkçülük məfkurəsini,, onlardakı milli istiqlal düşüncəsini, müstəqil olmaq idealını məhv etmək idi.

Bütöv bir nəslin repressiyalara məruz qalması hər şeydən əvvəl yalnız həmin nəslin deyil, həm də Azərbaycan xalqının ziyalılarına vurulan zərbə idi. Həmin nəslin ən böyük günahı bəy, mülkədar, zadəgan təbəqəsindən olması idi. Bəyliyin, mülkədarlığın, zadəganlığın məhvi 20-30-cu illərdə günün ən aktual məsələsi idi. Belə bəy nəslinin nümayəndələrindən olan Nəcəf Əbülfət oğlu Şahtaxtinski 20-30-cu illərdə bir neçə dəfə həbs olundu. Belə ki, N.Şahtaxtinski bəy oğlu olduğuna və müsavat ordusunda xidmət etdiyinə görə ilk dəfə 1924-cü ildə Azərbaycan Fövqəladə Komissiyası tərəfindən məsuliyyətə cəlb olunmuşdu. Dindirmə zamanı əməllərində heç bir cinayət tərkibi olmadığına görə azadlığa buraxıldı. Lakin bir neçə ildən sonra - 1931-ci ildə Azərbaycan Dövlət Siyasi İdarəsi (DSİ) onu əksinqilabi iş aparmaqda və Azərbaycan Milli Mərkəzi hərbi təşkilatının üzvü olmaqda ittiham edərək 3 il müddətinə azadlıqdan məhrum etdi.

Nəcəf Şahtaxtinski üçüncü dəfə 15 noyabr 1937-ci ildə həbs edildi. Arxiv materiallarından aydın görünür ki, onun həbsinə səbəb sürgündən qayıtdıqdan sonra sovet rejimi əleyhinə yenə də antisovet çıxışlar etməsi, sovet ordusunun müdafiə qüdrətinin zəif olması, eləcə də Azərbaycanda aparılan kütləvi repressiyalara öz etirazını bildirməsi olmuşdur.

Göründüyü kimi, totalitar rejim yalnız bir şeyi diktə edirdi. Mövcud quruluşu müdafiə etmək, cəmiyyətdəki neqativ hallara göz yummaq və onu tərifləmək. N.Şahtaxtinskinin dedikləri həqiqətlər antisovet təbliğatı kimi yozulurdu. Ona görə də Azərbaycan Xalq Daxili İşlər Komissarlığının xüsusi üçlüyünün 12 dekabr 1937-ci ildə çıxardığı qərara əsasən N.Şahtaxtinskinin əmlakı müsadirə edilmiş, özü isə dekabrın 19-dan 20-nə keçən gecə güllələnmişdi. Onun ailə üzvləri cinayət məsuliyyətinə cəlb edilməsələr də olmazın müsibətləri, təqibləri ilə üz-üzə dayanmışdılar. Həmin dövrdə elə bir mühit yaradılmışdı ki, “vətən xaini”, “xalq düşməni” və s. adlar altında cinayət məsuliyyətinə cəlb edilənlərin ailə üzvləri ilə qorxudan

heç kim ünsiyyətdə olmurdu. Bəzən elə olurdu ki, eyni nəslin nümayəndələri də başsız qalan ailəyə yardım etməkdən imtina edirdi. Həmin ailəyə köməklik göstərənlər isə "xalq düşməni"ni müdafiə etməkdə günahlandırılır və cəzalandırılırdı. Cinayət məsuliyyətinə cəlb edilən adamların ailə üzvləri işdən çıxarılır, məktəb yaşında olanlar isə dərslərə buraxılmır, komsomol və ya pioner təşkilatlarından qovulurdular. Bu mənəvi sarsıntılara tab gətirməyərək intihar edənlər və ya başqa yerlərdə bu cür soyuq münasibət görməyəcəyini zənn edib köçənlər də az olmurdu. Lakin hara köçməsinə baxmayaraq, həmin soyuq münasibət, etinasızlıq, təhqir, təqib və təzyiqlər də onlarla gedirdi. Cəmiyyətdən təcrid olunmuş bu insanlar arasında aclıqdan və şaxtadan ölənlər də az olmurdu.

Elə bir mühit yaradılmışdır ki, adamlar evlərində olan ən nadir kitabları, hətta həbs olunanlarla çəkdirdikləri şəkilləri məhv etmək məcburiyyətində idilər. Kitabların yandırılması hər şeydən əvvəl klassik ədəbi-mədəni irsin məhvi ilə nəticələnirdi. Tarixçi alim Əli Əliyev həmin hadisələrlə bağlı öz xatirələrini belə ifadə edirdi: 1936-cı ilin iyunun axırlarında Naxçıvana qayıdıb kitabxanama əl gəzdirməyə məcbur oldum. Yandırdığım kitablar üçün bu gün də xəcalət təri axıdıram.

"1935-36-cı illərdə çoxlu dostlarla birlikdə çəkdirdiyim şəkilləri bütöv halda ürəyimdə gəzdirirəm, yarısı cırılmış boz şəkillərə hər dəfə baxanda xəcalət çəkirəm. Sözün qısası, yandırdığım kitablar, cırdığım şəkillər qarşısında əzab çəkirəm".

Ümummilli liderimiz Heydər Əliyev bu məsələyə öz münasibətini bildirərək deyirdi: "Vaxtilə Hüseyn Cavidi, Mikayıl Müşfiqi, Əhməd Cavadı, Yusif Vəzir Çəmənzəminlini, Seyid Hüseyni, Salman Mümtazı danışdıran, istintaq edən adamlar onların kim olduğunu anlamırdılar. Xatirimdədir, mən Bakıda Təhlükəsizlik Nazirliyində işə başlayanda, o vaxtlar Salman Mümtazın bir neçə materiallarını axtarırdım, - 38-ci ildə işləyən adamlardan biri gördü ki, mən bu işlərə maraq göstərirəm, dedi ki, bilirsiniz, bu həyətdə, - binanın da həyəti var, həbsxana da orada yerləşirdi, - Hüseyn Cavidin, Salman Mümtazın kitabxanasından qiymətli-qiymətli kitabları ermənilərin və başqa millətə mənsub olan adamların, çox savadsız adamların gətirib burada vəhşicəsinə yandırdıqlarını gördüm. Mane olmaq istədim, ancaq bacarmadım.

Əlbəttə, o insanlar nə bilirdilər ki, Salman Mümtazda olan nadir kitablar nədir? Əgər bilsəydilər ki, o kitablar Azərbaycan üçün dəyərlidir, onsuz da yandıracaqdılar, çünki onlar Azərbaycanı dağıtmaq istəyirdilər. Hüseyn Cavidin, Əhməd Cavadın, Mikayıl Müşfiqin istintaqını aparanlar onların səviyyəsinə çata bilərdilərmi? Yox! Çünki onların əksəriyyəti savadsız adamlar idi. O vaxtlar, 37-38-ci illərdə NKVD-də, yəni daxili işlər komissarlığında ali savadlı bir-iki adam tapa bilərdin, bəlkə də yox idi. Çoxunun heç orta savadı da yox idi".

Azərbaycanda ziyalılar nəsli kimi tanınan Şahtaxtinskilər nəsli də özlərində olan əlyazma və kitabları məhv etmək məcburiyyətində qalmış, məhv edilməyənləri isə axtarış zamanı götürüb yandırmışlar.

Heç bir günahı olmadan "vətən xaini" kimi güllələnmiş Nəcəf Şahtaxtınskinin işinə Azərbaycan SSRİ Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyası 15 avqust 1957-ci ildə yenidən baxmış, əməllərində cinayət tərkibi olmadığına görə ona xitam vermişdi.

Bu nəslin nümayəndələrindən olan 1876-cı ildə Şahtaxtı kəndində doğulan Məhəmmədhüseyn Əliqulu oğlu Şahtaxtinski də bəy nəslindən olduğuna görə 1932-ci ildə həbs olunmuş və 10 il müddətinə azadlıqdan məhrum edilmişdir. Cəzasını Gəncə şəhərindəki 3 saylı həbsxanada çəkən M.Şahtaxtinski öz haqlı etirazlarını həbsxanada da bildirməkdən çəkinməmişdir. O, həbsxanada kapitalist quruluşunu tərifləadiyinə, antisovet təbliğatı apardığına, sovet qoşunları, eləcə də sovet rəhbərləri haqqında həqiqətləri söylədiyinə görə həbsxana rəisinin müavini Bədəlyanın təqdimatı ilə həbsxanada əlavə 8 il iş almışdı.

Yeri gəlmişkən qeyd edək ki, həbsxanaya düşənlərə müxtəlif işgəncələr verilirdi. Bu işgəncələr iki metodan istifadə etməklə yerinə yetirilirdi: a) Psixoloji metod, b) Fiziki metod.

"Vətən xaini", "xalq düşməni", millətçi, pantürkist, panislamist, zinovyevçi və s. adlarla ittiham edilən məhbuslara aşağıdakı psixoloji metodlar tətbiq olunurdu; yuxusuz saxlamaq, xüsusi qurğulardan istifadə etməklə kameraya soyuq hava üfürmək, döşəməyə soyuq su buraxmaq, ironiyalı danışıqlardan istifadə edərək ələ salmaq, doğma adamlarının həbsi ilə

hədələmək, gözlərinə güclü işıq salmaq, söymək və sair vasitələrdən istifadə olunurdu.

Bəzən müttəhimə iki metodun ikisi də eyni anda tətbiq olunurdu. Belə ki, müttəhimə əvvəlcə fiziki işgəncə verilir, sonra isə başqa bir müstəntiq guya humanistlik göstərərək ona öz "doğması" kimi yanaşaraq onu döyülməkdən "xilas edir" və istintaqı özü aparırdı. O, artistlik məharəti ilə müttəhimi inandırırdı ki, barəsində qaldırılmış cinayətlərdə özünü müqəssir hesab etsə və protokollara imza atsa, sovet hökuməti və hüquq-mühafizə orqanları onu bağışlayacaqdır. İstintaqa cəlb olunan bu müstəntiqdəki "xeyirxahlığı" gördüyündən ona inanır və əvvəlcədən hazırlanmış dindirmə protokollarına imza atırdı. Bu metod da keçmədikdə onda sərt tədbirlərə, fiziki işgəncələrə üstünlük verilirdi.

Fiziki işgəncələr zamanı rezin dubinka, təyyarə trosu, dəmir çubuqla döyməkdən, bədənində siqaret söndürməkdən, 48 saata qədər dizləri üstə və ya stoyka, eləcə də ac və ya susuz saxlamaqdan və s. metodlardan istifadə olunurdu. Bu metodların hər ikisi həm istintaq, həm də islah əmək düşərgələrində tətbiq olunurdu. İslah əmək düşərgələrində fiziki işgəncələr daha çox məhbusların özləri vasitəsi ilə həyata keçirilirdi. Həbsxana rəislərinə və ya nəzarətçilərə yaxın olan bir neçə qolu zorlu adamlar saxlanılırdı ki, onlar da bu işi icra edirdilər. Bir çox hallarda məhbuslar ölənə qədər döyülür və ya elə şəraitdə saxlanılırdılar ki, sağalmaz xəstəliklərə düçar olurdular. Həbsxanada ölənlər barədə müxtəlif xəstəliklərin diaqnozu qoyulur və iş dayandırılır, çox vaxt isə mərhumun ailə üzvlərinə məlumat verilmirdi. Təsadüfi hallarda ağır xəstələri həbsdən azad edirdilər. Məhəmmədhüseyn Şahtaxtinski də 1954-cü il 23 iyulda xəstəliyi ilə əlaqədar həbsxanadan azad edilsə də, psixoloji və fiziki işgəncələr nəticəsində 2 dekabr 1954-cü ildə dünyasını dəyişmişdi.

Məlumdur ki, sovet hökumətinin dinə, dini dəyərlərə, eləcə də din xadimlərinə qarşı apardığı mübarizəyə əks qütbdə dayanan müqavimət hərəkatı da güclü idi. Yuxarıda da deyildiyi kimi, bu müqavimət hərəkatı həm açıq, həm də gizli şəkildə aparılırdı. Belə gizli mübarizəyə qoşulmuş təşkilatlardan biri də "İttihad" partiyası idi. 1920-ci ilin iyul ayından etibarən "İttihad" partiyası üç - "Vətən və ya ölüm", "Mərkəzi ittihad", "Quranın əmin-amanlığı" qrupuna bölünmüşdü.

MTN-in arxiv materiallarından aydın olur ki, ittihadçılar öz təbliğatlarını mühacirətdə olanlar və Azərbaycanda yaşayan dindarlar, eləcə də bolşeviklərdən narazı qüvvələr vasitəsi ilə aparırdılar. "İttihad"ın apardığı təbliğat Qurana əsaslanır və bolşevikləri devirib islami dəyərləri bərpa etmək, ümumiyyətlə, islamı daha da dirçəltmək məqsədi güdürdü. İttihadçılar məqsədlərinə çatmaq üçün bolşevikləri üsyan yolu ilə devirmək istəyirdi. Üsyan isə böyük bir ərazini əhatə etməli idi. Azərbaycan təhlükəsizlik orqanları ittihadçıların 155 üzvünü həbs edərək onlara müxtəlif cəzalar verdi. Buna baxmayaraq ittihadçılar öz mübarizələrini dayandırmadı. Sonrakı illərdə müsavatçılarla birləşərək gizli fəaliyyətə başladılar. Eyni zamanda ittihadçılar Azərbaycanın müxtəlif bölgələrində baş verən üsyanlarda sayca az olsalar da təmsil olundular.

Sovet hökuməti belə hesab edirdi ki, "İttihad" yaxud "İttihadi-islam" partiyası iri mülkiyyətçilərin, qolçomaqların və müsəlman ruhanilərinin partiyasıdır. O, panislamçı ideyalara qulluq edir və bütün islam, yəni müsəlman millətlərinin bir dövlətdə, bir dini bayraq altında birləşməsi ideyasını qarşısına məqsəd kimi qoymuşdu.

Bu partiyanın nümayəndələrindən biri də, Azərbaycanın dini dəyərləri ilə yanaşı, onun müstəqilliyi uğrunda mübarizəyə qoşulan, görkəmli alim və ictimai-siyasi xadim Həmidbəy Şahtaxtılı idi. Onda olan bu milli keyfiyyətlər və dini dəyərlərimizin qorunması uğrunda mübarizə əzmi onu XDİK həbsxanasına sürükləyirdi. XDİK əməkdaşları 1940-cı ildə Həmidbəy Şahtaxtılını müxtəlif maddələr üzrə günahkar hesab etdikləri kimi, həm də "İttihad" partiyasının üzvü olmaqda ittiham edirdilər:

"Sual: Siz əksinqilabi "İttihad" partiyasının üzvü idiniz?

Cavab: Bəli, mən bu partiyanın üzvü idim.

Sual: Nə vaxtdan bu partiyanın üzvü idiniz?

Cavab: Müsavat hökumətinin tərkibindən ilk dəfə çıxdıqdan sonra, 1919-cu ilin iyul ayında mən "İttihad" partiyasına daxil oldum. Mən ikinci dəfə hökumətin tərkibinə xalq maarif naziri kimi daxil olanda "İttihad" partiyasında idim".

Fikrimizcə, hər hansı bir şəxsi partiya mənsubiyyətinə görə ittiham etmək artıq həmin recimin diktatorluğundan xəbər verirdi.

Azərbaycanda sosialist inqilabının qələbəsindən sonra respublikada dövlət təhlükəsizliyi orqanları tərəfindən ittihadçıların mərkəzləşdirilmiş təşkilati dağıdıcı fəaliyyəti aşkar edilməmişdi. Lakin 1920-30-cu illərin əvvəllərində Azərbaycanın Fövqəladə Komissiyası və Dövlət Siyasi İdarəsi tərəfindən Bakıda və respublikanın qəzalarında bir sıra iri ittihadçı təşkilatları ifşa edilmiş və dağıdılmışdır.

Bu təşkilatların hər birinin onlarla və yüzlərlə üzvü, rəhbərlik edən mərkəzi, rayonlarda özəkləri var idi. Onlar fəal antisovet işi aparır, əhalini öz tərəflərinə çəkməyə çalışır, sovet hakimiyyətinə qarşı hərbi çıxışlar hazırlayırdılar .

Sovet hüquq-mühafizə orqanlarının qənaətinə görə, ittihadçıların məqsəd və vəzifələri, bəzi hallarda isə iş metodları müsavatçılarla eyni idi. Fərq isə "Müsavat"a nisbətən "İttihad" partiyasında müsəlman ruhanilərin çox olmasında idi. İttihad partiyası üzvlərinin əksəriyyətini tacirlər, qolçomaqlar və mollalar təşkil edirdi. Buraya ortabab və yoxsul kəndlilər də cəlb olunmuşdular. İttihad partiyasına AK(b)P və Kommunist Gənclər İttifaqı üzvlərinin daxil olması hallarına da təsadüf edilir.

Həmidbəy Şahtaxtılı müxtəlif "cinayətlər" törətməkdə ittiham edilsə də, o, özünü müqəssir bilməmişdir. Bütün bunlara baxmayaraq, SSRİ XDİK-in xüsusi müşavirəsinin 11 iyun 1940-cı ildə çıxardığı qərara əsasən o, 8 il müddətinə azadlıqdan məhrum edilmiş və 1943-cü ildə Arxangelsk vilayətində vəfat etmişdir.

Şahtaxtinskilər nəslinin növbəti qurbanı 1904-cü ildə Şahtaxtı kəndində anadan olan 1933-cü ilədək vzvod komandiri işləyən Mahmud Hüseynqulu oğlu Şahtaxtinski 30 aprel 1933-cü ildə casusluqda ittiham edilərək həbs edildi. Lakin əməllərində heç bir cinayət tərkibi olmadığından 16 iyul 1933-cü ildə o azadlığa buraxıldıqdan sonra da dəfələrlə təqib və təzyiqlərə məruz qalmasına baxmayaraq Azərbaycan Tibb Universitetini bitirən və bir müddət orada müəllim işləyən M.Şahtaxtinski təqiblərdən yaxa qurtarmaq üçün Moskvada yaşamağa və işləməyə məcbur olmuşdur. O, 1942-ci ildə Bakıya qayıtmışdır. 21 iyul 1943-cü ildə onu və Məmmədtağı Novruzovu antisovet təbliğatı aparmaqda, eləcə də ziyalılar arasında əksinqilabi qrup yaratmaqda ittiham edərək əmlaklarını müsadirə etmiş və güllələnmiəsi haqqında hökm çıxarılmışdır.

Lakin SSRİ Ali Məhkəməsinin hərbi kollegiyası 31 iyul 1943-cü ildə güllələnmə hökmünü ləğv etmiş və onlar on il müddətinə azadlıqdan məhrum edilmişdir.

15 sentyabr 1956-cı ildə SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası onlara bəraət vermişdir.

Azərbaycan Xalq Daxili İşlər Komissarlığının sədri Sumbatovun təsdiq etdiyi arayışa əsasən 1882-ci ildə Şahtaxtı kəndində anadan olan Əhmədbəy Əli oğlu Şahtaxtinski 1937-ci ilin sentyabrında həbs edildi. Əhmədbəy Şahtaxtinski "Müsavat" partiyasının tədbirlərində yaxından iştirak etməkdə, Fransada mühacirətdə olan qardaşı ilə əlaqə yaratmaqda, antisovet təbliğatı aparmaqda günahlandırıldı. Cəmi 1 ay çəkən istintaq 20 oktyabr 1937-ci ildə başa çatdı və Azərbaycan SSR XDİK üçlüyünün qərarı ilə səsi 5 il müddətinə alınmaqla 10 il azadlıqdan məhrum edildi.

16 oktyabr 1957-ci ildə Əhmədbəy Şahtaxtinskiyə bəraət verildi.

Güllələnmiş və xüsusi düşərgələrə sürgün edilmiş "xalq düşmənləri"nin təkcə özlərinin deyil, ailə üzvlərinin də taleyi çox acınacaqlı olub. Onlar da repressiyalardan yaxa qurtara bilməyiblər. Belə ki, "xalq düşmənləri"nin ailələri də həbs edilərək müxtəlif cəzalara məruz qalıb. Tarixin müxtəlif dövrlərində qadınlar da törətdiyi cinayətlərə uyğun olaraq, cinayət məsuliyyətinə cəlb edilmiş, hətta daşqalaq da edilmişdir. Lakin dünyanın heç bir yerində sovet totalitar recimində olduğu qədər qadın repressiyaya məruz qalmamışdır.Təhlükəsizlik xidmətinin əməkdaşı Şəfiqə xanımın "Soyqırım analardan başlanır" kitabında 3022 nəfər qadının XDİK orqanları tərəfindən repressiyalara məruz qaldığı göstərilir. Qadının, ananın repressiyası millətin soyqırımına yönəldilmiş bir aksiya kimi səciyyələndirilməlidir. Bu qadınların böyük əksəriyyəti həyat yoldaşları "xalq düşməni" olduğuna görə təhqirlərə,

məhrumiyyətlərə, sürgünlərə məruz qalmışdır. Bu faciəyəyə düçar olan qadınlar arasında Şahtaxtinskilər nəslinin nümayəndələri də var idi.

Həbs olunan Şahtaxtinskilərin içərisində Azərbaycanın görkəmli ziyalılarından olan Adilə və Ziba Şahtaxtinskayalar da var idi. Yuxarıda da deyildiyi kimi istər Adilə Şahtaxtinskaya, istərsə də Ziba Şahtaxtinskaya həyat yoldaşlarına görə ittiham edilmiş və olmazın bəlalarını çəkmişlər.

Adilə Şahtaxtinskayanın həyat yoldaşı Qulam Sultanov Mircəfər Bağırova qarşı hazırlanmış sui-qəsddə ittiham edilərək, 1937-ci ildə vətən xaini kimi güllələnmişdi. Onun həyat yoldaşı Adilə xanım da "vətən xaini"nin arvadı olmaqda suçlandırılaraq 4 sentyabr 1937-ci ildə həbs olunmuşdur.

O nədə ittiham edilirdi? Koqanın imzaladığı sənəddə buna belə aydınlıq gətirilirdi: "Şahtaxtinskaya Adilə xanım İsayevna aktiv əksinqilabçı terrorçu təşkilatının milli ziyanvericisi olan vətən xaini Sultanov Qulam Həmid oğlunun həyat yoldaşıdır. O, 1938-ci il yanvarın 2-də SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının sessiyasında ittiham edilmişdir. O, 1931-ci ildən həbs gününə qədər Adilə Şahtaxtinskaya ilə yaşamışdır. Adilə Şahtaxtinskaya öz həyat yoldaşının, əksinqilabçı, terrorçu təşkilatın üzvü olduğunu bildiyi halda bu barədə sovet hakimiyyəti orqanlarına xəbər verməmişdir" .

Az.SSR XDİK-in 8-ci şöbəsinin rəisi Koqan belə bir qərar qəbul etdi ki, vətən xaininin ailə üzvü olduğuna görə Adilə Şahtaxtinskaya həbs edilsin və evində silah, qiymətli şeylər, eləcə də əksinqilabi ədəbiyyat götürmək məqsədi ilə axtarış aparılsın. Qalan şeyləri isə müsadirə edilərək dövlətə təhvil verilsin.

Adilə Şahtaxtinskaya cəmi bir dəfə dindirilmiş və dindirmə zamanı həyat yoldaşının, eləcə də özünün müqəssir olmadığını bildirmişdir. Yalnız bir dindirmədən sonra 9 aprel 1938-ci ildə 5 il müddətinə azadlıqdan məhrum edilərək islah əmək düşərgəsinə göndərilməsi barədə hökm çıxarılmışdır.

1894-cü ildə Tiflis şəhərində anadan olan, Azərbaycan Tibb İnstitutunun ginekologiya kafedrasının müdiri işləyən belə bir tanınmış professorun həbs edilməsi onun həyata, cəmiyyətə bütövlükdə isə "kommunizm cənnətinə" inamını xeyli azaltdı.

Ziba Mustafa qızı Şahtaxtinskaya da həyat yoldaşı Ataulla Şahtaxtinskinin həbsindən bir qədər sonra vətən xainin arvadı kimi 10 noyabr 1937-ci ildə həbs edildi və SSRİ XDİK-i yanında xüsusi müşavirənin qərarı ilə 9 aprel 1938-ci ildə 2 il müddətinə azadlıqdan məhrum edildi.

2 fevral 1957-ci ildə Adilə Şahtaxtinskayaya, 15 iyun 1990-cı ildə isə Ziba Şahtaxtinskiyə bəraət verildi.

Hadisələr göstərir ki, "Azərbaycan qadını imperiya üçün yalnız pambıqçı və sağıcı olmayıb, o, Sovet reciminə qarşı mübarizədə, ana dilimizin, milli adət-ənənələrimizin qorunmasında, çox hallarda isə milli oyanış, müstəqillik uğrunda mübarizədə əhəmiyyətli və əlaqələndirici rol oynayıb, bir sıra gizli təşkilatların işində fəal iştirak edib".

Atulla Baxşəli oğlu Şahtaxtinski 13 fevral 1937-ci ildə torpaq komissarlığında plan şöbəsinin rəis müavini işlədiyi vaxt həbs edilmişdi.

A.Şahtaxtinski əksinqilabi trotskiçi, millətçi, terrorçu təşkilatın üzvü olmaqda, Azərbaycanı SSRİ-dən silahlı yolla ayırmaqda, dövlət rəhbərlərinə qarşı terror aktları hazırlamaqda ittiham edilərək 9 yanvar 1938-ci ildə 10 il müddətinə azadlıqdan məhrum edilmişdir. 6 aprel 1945-ci ildə onun işinə yenidən baxılmış və bəraət verilmişdi.

Biz yuxarıda məsuliyyətə cəlb edilmiş şəxslərin nə zaman reablitasiya olunmaları barədə də məlumat verdik. Həqiqətən də, Stalinin ölümündən sonra ictimai-siyasi həyatda bir qədər yumuşalma müşayiət olundu. Bu illərdə 20-50-ci illərin cinayət işlərinə yenidən baxıldı və minlərlə adam bəraət aldı. Bu işin icrası SSRİ Ali Soveti Rəyasət Heyətinin 19 avqust 1955-ci il tarixli Fərmanında əvvəllər SSRİ ərazisində XDİK, DİN orqanlarının xüsusi müşavirələri və üçlükləri, habelə xüsusi məhkəmələri tərəfindən məhkum olunmuş şəxslərin işlərinə yenidən baxılması məsələsi öz təsbitini tapmışdır. Fərmandan irəli gələn məsələlərin icrası əyalətlərdə aidiyyatı orqanlara həvalə edilmişdir.

Azərbaycan SSR Ali Məhkəməsi Rəyasət Heyəti və Məhkəmə Kollegiyası həmin illərdə cinayət məsuliyyətinə cəlb edilmiş şəxsləri müxtəlif çalarlar üzrə müəyyənləşdirmiş və onların bir çoxunu reablitasiya etmişdir.

1955-ci ilin avqustundan dekabrına qədərki dövrdə Azərbaycan SSR Ali Məhkəməsi Rəyasət Heyəti və Məhkəmə Kollegiyası tərəfindən "Əksinqilabi iş" adı altında 2024 nəfərə qarşı 918 işə yenidən baxılmışdır. Onlardan: 1829 nəfərə qarşı 770 işə xitam verilmiş, 127 iş üzrə 171 adamı cəzası azaldılaraq və məhkumluğu üzərindən götürülərək azad edilmişdir, 21 iş üzrə 24 adamın cəzası azaldılmış, lakin məhkumluqları üzərlərindən götürülməmişdir.

Eyni zamanda Azərbaycan SSR Ali Məhkəməsi Rəyasət Heyəti və Məhkəmə Kollegiyası tərəfindən müəyyən edilmişdir ki, əksinqilabi-millətçi, pantürkist, panislamist cinayətlərə görə ittiham edilmiş şəxslərə qarşı qaldırılmış cinayət işlərinin çoxuna Azərbaycan SSR XDİK-in xüsusi müşavirələri və üçlükləri tərəfindən qeyri-məhkəmə qaydasında baxılmış və çoxlu qanun pozuntularına yol verilmişdir.

Reablitasiya tədbirləri sonrakı illərdə də aparılmış və minlərlə adamın günahsız olduğu sübuta yetirilmişdir. Reablitasiya sənədlərinin özü də göstərir ki, repressiya qurbanlarına verilmiş bu bəraətlər formal xarakter daşımışdır. Daha doğrusu, 50-ci illərdə Sovet hökuməti repressiyaya məruz qalanların günahını İ.V.Stalində və ona yaxın dairələrdə axtardığına görə əsil həqiqətləri yenə də pərdələmiş və həmin sənədləri xalqdan gizlətmişdir. Digər bir tərəfdən isə hakimiyyəti qoruyub saxlamaq üçün totalitar rejimin özünə də bəraət qazandırmış və müəyyən islahatlar aparmaqla onun ömrünü bir qədər də uzatmışlar. Maraqlıdır ki, Azərbaycan Xalq Cümhuriyyətinin bərpası, milli-mənəvi və dini dəyərlərin müdafiəsi, bir sözlə, Azərbaycanın müstəqilliyi uğrunda mübarizəyə qoşulanların repressiyaya məruz qalan nümayəndələrinin demək olar ki, bir çoxuna bəraət verilməmiş və onların adları heç yerdə çəkilməmişdir.

Repressiyaları həyata keçirməkdə məqsəd sosializmin əyalətlərdə dayaqlarını daha da bərkitmək, onun tam və qəti qələbəsini təmin etmək, əhalidə, eləcə də milli ruha və milli düşüncəyə malik olan ziyalılarda beynəlmiləlçilik adı altında türkçülük məfkurəsini, onlardakı milli istiqlal düşüncəsini, müstəqil olmaq idealını məhv etmək idi. Aparılmış total siyasət nəticəsində türkçülük məfkurəsinə, müstəqilləşmək ideyasının həyata keçirilməsinə, milli istiqlal savaşına, islami dəyərlərə, milli adət-ənənələrə müəyyən zərbələr dəydi. Lakin bolşevik totalitar rejimi özünün 70 illik tarixində bunları tamamilə məhv edə bilmədi, xalq böyük ideyalar uğrunda mübarizəsini axıradək davam etdirərək öz müstəqilliyini yenidən bərpa edə bildi. Müstəqilliyin bərpasından sonra onun islami dəyərləri və türkçülük ənənələri də yaşamaq səlahiyyəti qazandı. Məhz müstəqillikdən sonra repressiyaya məruz qalmış şəxslərin hamısına bəraət verildi.

## ƏDƏBİYYAT

1..Əliyev Ə. Əlincə yaddaşı: Naxçıvan: 1914-1992, Bakı: Gənclik, 1997, 303 s.
2.Xalqa, vətənə, dövlətə sədaqət. Bakı: "Gənclik" nəşriyyatı, 1997, 87 s.
3.MTXA arxivi: PR-7335
4.MTXA arxivi: PR-28507
5."Sov.İKP qurultayları, konfransları və MK plenumlarının qətnamə və qərarları". II hissə, Bakı: Azərnəşr, 1954, 748 s.
6.MTXA arxivi: PR-26070
7.MTXA arxivi: PR-22150
8.MTXA arxivi: PR-23252
9.Azərbaycan Respublikası DA: f. 1, siy. 85
10.İ.V.Stalinin mart plenumundakı nitqi // "Şərq qadını" jurnalı, 1937, № 1 11.MTXA arxivi: PS-148
12.MTXA arxivi: PR-25547

13.MTXA arxivi: PS-12467
14.Azərbaycan Respublikası SPİHDA: f. 1, siy. 231, iş 29
15.Azərbaycan Respublikası NMRMDA: f. 1, siy. 43, iş 181

## SUMMARY

**Zehmet Shahverdiyev**
**Nadir Husseinbayli**

**THE POLITICAL ADVENTURE OF THE TOTALITARIAN REGIME AGAINST THE SHAHTAKHTI DYNASTY**

The article reveals that the Bolshevik totalitarian regime's repressions were their management and work style in Azerbaijan. The aim of this repressions was to change the ideology of Turkism under the name of internationalism of the generation of intellectuals, people of various professions and arts, as well as Shahtakhtinski generation who had an important role in the socio-political life of Nakhchivan. The regime also aimed to destroy their idea of national independence, the ideal of independence, as well as the essence of total political actions against the nation, the policy of destruction before law enforcement agencies. All these were investigated on the basis of investigative materials.

***Key words:*** *gazi, martyr, panturkist, imprisonment, exile, Turkish, struggle, totalitarian regiment, repression, national falls*

## РЕЗЮМЕ

**Захмат Шахвердиев**
**Надир Гусейнбейли**

**ПОЛИТИЧЕСКАЯ АВАНТЮРА ТОТАЛИТАРНОГО РЕЖИМА ПРОТИВ ПОТОМКОВ ШАХТАХТИНСКИХ**

Целью осуществления репрессий, являющихся рычагом управления и стилем работы большевистского тоталитарного режима в Азербайджане, было под видом интернационализма добиться искоренения национального генефонда в целом, изменения идеологии тюркизма, идеи национальной независимости, идеала быть свободным у интеллигенции, людей различных профессий и искусств, в частности у Шахтахтинских, играющих важную роль в общественно-политической жизни страны в целом, в том числе Нахчывана. В статье широко использованы следственные и другие архивные материалы для выяснения основной сути тотальных политических акций, направленных против национализма, также политики уничтожения, осуществляемой правоохранительными органами.

***Ключевые слова:*** *гази, мученик, пантюркист, тюремное заключение, изгнание, турецкий, борьба, тоталитарный полк, репрессии, национальный водопад*

---

***Məqalə daxil olmuşdur:*** *4 noyabr 2021-ci il*
***Çapa qəbul edilmişdir:*** *2 dekabr 2021-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2021, № 2 (111), 21-25
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2021, № 2 (111), 21-25
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2021, № 2 (111), 21-25

**ƏLƏKBƏR CABBARLI**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 94(479.242)**

# HEYDƏR ƏLİYEVİN NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN SƏDRİ SEÇİLMƏSİ MÜSTƏQİL AZƏRBAYCANIN DÖVLƏTÇİLİK TARİXİNİN ƏN PARLAQ SƏHİFƏLƏRİNDƏN BİRİ KİMİ

*Heydər Əliyev bir milli lider kimi, bütün həyatını və siyasi fəaliyyətini məxsus olduğu xalqa xidmətə həsr etmiş və özünün Azərbaycan rəhbərliyinin hər iki dövründə ölkəmizi çətin sınaqlardan çıxararaq tərəqqiyə doğru aparmağa nail olmuşdur.*

*1990-ci il iyulun 20-də o, Bakıya gəldi. Lakin Heydər Əliyevin Bakıda yaşamasına o zamankı respublika rəhbərliyi səviyyəsində ciddi maneələr və təhlükəsizliyinə təhdidlər olduğundan iki gün sonra, iyulun 22-də Heydər Əliyev Bakıdan Naxçıvana gəldi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il sentyabrın 3-də fövqəladə sessiyası keçirildi, Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildi.*

*Bu dövrdə Ali Məclisin Sədri Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanın müdafiəsi, sosial-iqtisadi və ictimai-siyasi vəziyyətinin yaxşılaşdırılması sahəsində bir sıra mühüm addımlar atıldı. Bir çox tarixi qərarlar qəbul edildi.*

*Məqalədə də məhz bu məsələlər geniş şəkildə şərh edilmişdir.*

***Açar sözlər:*** *Heydər Əliyev, lider, Azərbaycan, Naxçıvan qurucusu, siyasi fəaliyyət*

XX əsrin ikinci yarısı - XXI əsrin əvvəli Azərbaycan tarixinə Heydər Əliyev epoxası kimi daxil olub. Ölkənin ən mürəkkəb, gərgin vəziyyətində xalqına dayaq olan, liderliyi ilə çıxış yolu tapa bilən, insanların həm bugünkü, həm də gələcək xoşbəxtliyini təmin edən dahi insan - Heydər Əliyev...

Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, türk dünyasının böyük oğlu, ümummilli lider Heydər Əliyev bütün şüurlu həyatını canından artıq sevdiyi xalqının xoşbəxt yaşamasına, Azərbaycanın tərəqqisinə həsr etmişdir. O, bir milli lider kimi, bütün həyatını və siyasi fəaliyyətini məxsus olduğu xalqa xidmətə həsr etmiş və özünün Azərbaycan rəhbərliyinin hər iki dövründə ölkəmizi çətin sınaqlardan çıxararaq tərəqqiyə doğru aparmağa nail olmuşdur. Onun respublikada böyük siyasi əzmlə, qətiyyətlə həyata keçirdiyi tədbirlər bütün Azərbaycanda olduğu kimi, Naxçıvan MSSR-in də iqtisadi və ictimai-siyasi həyatına öz müsbət təsirini göstərdi, muxtar respublika qısa zaman kəsiyində bir əsrə bərabər inkişaf yolu keçdi .

Hələ Heydər Əliyevin hakimiyyətinin birinci dövründə, 1969-1982-ci illərdə, onun diqqət və qayğısı nəticəsində muxtar respublikanın ictimai-siyasi, mədəni həyatında irəliləyiş hiss olunmağa başlanmışdı. Əldə edilmiş uğurlar ali dövlət orqanları tərəfindən yüksək qiymətləndirilmiş, “Sovet xalqlarının mehriban dostluğunun möhkəmləndirilməsində böyük müvəffəqiyyətlərinə görə” və SSRİ-nin 50 illiyi münasibətilə Naxçıvan MSSR “Xalqlar Dostluğu” ordeni ilə təltif edilmişdi. 1974-cü il fevralın 21-də Heydər Əliyev özü bu ordeni Naxçıvan MSSR-in bayrağına sancaraq nitq söyləmişdi [1, s. 126].

1978-ci ilin oktyabrında Naxçıvanda üçüncü dəfə səfərdə olan Heydər Əliyev buradakı ictimai-siyasi və sosial iqtisadi vəziyyətlə tanış olmuş, respublika rəhbərliyi qarşısında konkret vəzifələr qoymuşdu. Həmin vəzifələr 1978-ci il oktyabrın 28-də keçirilmiş Azərbaycan KP Naxçıvan VPK plenumunda geniş müzakirə edilərək müvafiq qərarlar qəbul edilmişdi. Nəticədə, muxtar respublikada kadr ehtiyatının yaradılması, onların düzgün yerləşdirilməsi istiqamətində ciddi

addımlar atılmış, bir çox məsul vəzifələrdə çalışanlar işdə yol verdikləri nöqsanlara görə vəzifələrindən azad edilmişdi [2, v. 4].

1980-ci ilin may ayında Heydər Əliyevin Naxçıvana dördüncü gəlişi muxtar respublikanın həyatında ictimai-siyasi hadisəyə çevrildi. Həmin səfərində Naxçıvan şəhərində partiya, əmək və müharibə veteranları ilə əl tutaraq bir-bir görüşmüş, onların xidmətlərini yüksək qiymətləndirmiş, problemləri ilə yaxından tanış olmuşdu [1, s. 137]. Heydər Əliyev Azərbaycan MK-nın birinci katibi kimi Naxçıvan MSSR-ə son səfərini 1982-ci ilin oktyabr ayında etmişdi [3, v. 29-56].

SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini təyin edilməsi ilə əlaqədar olaraq 1982-ci il dekabr ayının 2-də Azərbaycan KP MK-nın plenumunda Heydər Əliyev birinci katib və MK bürosunun üzvülüyündən azad edildi. Beləliklə, Heydər Əliyevin Azərbaycana bilavasitə rəhbərlik fəaliyyətində fasilə yarandı. Lakin keçmiş SSRİ rəhbərliyindəki məsul vəzifədə işlədiyi 1982-1987-ci illərdə də o, Azərbaycanı diqqətdə saxlayır, problemlərini həll edir, respublikanın hərtərəfli tərəqqisinə daim qayğı göstərirdi.

Ümummilli liderin SSRİ rəhbərliyində tutduğu vəzifələrdən istefasından dərhal sonra, 1987-ci il noyabr ayının əvvəllərindən başlayaraq ermənilər Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə mübarizəyə başladılar. Həmin günlərdə, Azərbaycanın əsas hissəsi ilə coğrafi baxımdan ayrı düşmüş Naxçıvanda da vəziyyət olduqca gərgin idi. Bu gərginlik 19 yanvar 1990-cı ildə Naxçıvanda xalqın tələbi və təzyiqi ilə Naxçıvan MSSR Ali Sovetinin növbədənkənar sessiyası çağırılmasına və ”Naxçıvan MSSR-də yaranmış ictimai-siyasi vəziyyət haqqında” qərarın qəbul edilməsinə səbəb oldu. Bu qərarla “muxtar respublikanın ərazi bütövlüyü və vətəndaşların həyatı təhlükə qarşısında” qaldığından Naxçıvan MSSR-in SSRİ-nin tərkibindən çıxaraq özünü müstəqil respublika elan etdi”yi bəyan edildi. Azərbaycan rəhbərliyi muxtar respublikanın bu qərarına mənfi münasibət bəsləyərək onun konstitusiyaya zidd olduğunu elan etsə də, müstəqillik uğrunda mübarizənin genişləndiyi bir dövrdə “Naxçıvanın SSRİ-nin tərkibindən çıxıb özünü müstəqil respublika elan etməsi qərarı böyük tarixi əhəmiyyətə malik idi” [4, s. 33].

20 yanvar faciəsi, habelə faciədən sonra Azərbaycanın ictimai-siyasi həyatında yaranan yeni tarixi situasiya Heydər Əliyevin Moskvadan vətənə qayıdışı prosesini sürətləndirdi. 1990-ci il iyulun 20-də o, Bakıya gəldi. Lakin Heydər Əliyevin Bakıda yaşamasına o zamankı respublika rəhbərliyi səviyyəsində ciddi maneələr və təhlükəsizliyinə təhdidlər olduğundan iki gün sonra, iyulun 22-də Heydər Əliyev Bakıdan Naxçıvana gəldi. Həmin gün Naxçıvan şəhərinin mərkəzi meydanında böyük dövlət xadiminin vətənə qayıdışı ilə əlaqədar toplaşan 80 mindən artıq insanla izdihamlı görüşündə ulu öndər qısa çıxışında öz xalqı ilə birlikdə olmaq üçün gəldiyini və başlıca məramının bu ağır günlərdə Vətənində olmaq istəyi olduğunu bəyan etdi.

Naxçıvan MSSR Ali Sovetinin yeni çağırışının 1990-cı il noyabrın 17-də keçirilən birinci sessiyasına sədrlik deputatlar tərəfindən Heydər Əliyevə həvalə edildi. Sessiyada Azərbaycan milli dövlətçiliyinin dirçəlişi prosesinin həyata keçirilməsi ilə bağlı məsələlər geniş müzakirə olundu. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından “Sovet Sosialist” sözləri çıxarıldı və Naxçıvan Muxtar Respublikası adlandırıldı. Naxçıvan MSSR Ali Sovetinin adı dəyişdirilərək Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırıldı [5, s. 20]. Ali Məclisin birinci sessiyası Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzi olan üçrəngli, ay-ulduzlu bayrağın Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar qəbul etdi. Heydər Əliyev sessiyada Azərbaycan Ali Soveti qarşısında qanunvericilik təşəbbüsü qaydasında irəli sürülən təşəbbüsü də elan etdi: “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə Azərbaycan Demokratik Respublikasının üçrəngli milli bayrağını Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul edirik və Azərbaycanın ali hakimiyyət orqanına bunu çatdırırıq. Eyni zamanda Azərbaycanın ali hakimiyyət orqanı qarşısında məsələ qoyuruq ki, Azərbaycan Respublikasının dövlət rəmzləri haqqında qərar qəbul etsin” [6, s. 68].

Naxçıvan MR Ali Məclisinin 1991-ci il sentyabrın 3-də fövqəladə sessiyası keçirildi. Həmin gün deputatların təkidli xahişi və parlament binası önündə mitinq keçirən xalq kütlələrinin tələbi ilə Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin Sədri seçilməyə razılıq verdi. Ali Məclisin sessiyasında

bu barədə qərar qəbul olundu: "Heydər Əlirza oğlu Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilsin" [7, iş 0-05, v. 8].

Heydər Əliyevin Ali Məclisə Sədr seçilməsindən dərhal sonra gərgin ictimai-siyasi şəraitdə bir sıra çevik və ciddi qərarlar qəbul olundu. Ali Məclisin 1991-ci il 4 sentyabr tarixli qərarı ilə sentyabrın 8-ə təyin olunmuş Azərbaycan Respublikası Prezidentinin seçkilərinin keçirilməsi Naxçıvan MR ərazisində dayandırıldı [6, 130]. O zamankı kommunist rejimi bu seçkiləri keçirməklə yalnız öz hakimiyyətini legitimləşdirmək kimi şəxsi və dar mənafeyini güdürdü.

Belə bir mərhələdə Heydər Əliyev özünün milli birlik və həmrəyliklə bağlı ideyalarını da inkişaf etdirir və bu birliyin yalnız ölkə hüdudları daxilində deyil, habelə bütün dünyada yaşayan milyonlarla azərbaycanlının simasında təcəssüm etdirilməsini zəruri sayırdı. Bu məqsədlə onun təşəbbüsü ilə 1991-ci il dekabrın 16-da Naxçıvan MR Ali Məclisi "31 dekabr Dünya Azəri Türklərinin Həmrəylik və Birlik Günü" haqqında qərar qəbul etdi [8, s. 271-274]. Bu qərarla "sərhəd hərəkatı" adı ilə tarixə düşmüş 1989-cu il dekabr ayının sonlarında Azərbaycanın İranla dövlət sərhədlərinin sökülməsi prosesinin milli mənafelərə uyğun uğurlu şəkildə tarixiləşdirilməsi həyata keçirildi.

1992-ci il Naxçıvan MR üçün çox mürəkkəb və məsuliyyətli il idi. Bu dövrdə Ali Məclisin Sədri Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanın müdafiəsi, sosial-iqtisadi və ictimai-siyasi vəziyyətinin yaxşılaşdırılması sahəsində bir sıra mühüm addımlar atılmışdı. Qonşu Türkiyə və İrana olan səfərləri, həmin səfərlər zamanı imzalanan iqtisadi-mədəni əməkdaşlıq barədə protokollar, Araz çayı üzərində Azərbaycanla (Naxçıvanla) Türkiyə arasında Sədərək-Dilucu "Ümid körpüsü"nün açılması, iki qardaş ölkə arasında əlaqələrin uzun illərdən sonra bərpa edilməsi sonrakı mərhələdə Naxçıvanın yalnız iqtisadi həyatında deyil, həmçinin siyasi həyatında da müstəsna rol oynayır.

1993-cü ilin may-iyun aylarında Gəncə hadisələri Azərbaycan dövlətçiliyini məhvolma təhlükəsi, cəmiyyəti isə vətəndaş müharibəsi ilə üz-üzə qoydu. Belə bir vəziyyətdə xalq bütün ümidini Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevə bağladı. Prezident Ə.Elçibəyin xahişi və dəvəti ilə 1993-cü il iyunun 9-da ümummilli lider Naxçıvandan Bakıya getdi [6, s. 777].

Heydər Əliyev 1993-cü il iyun ayının 15-də Azərbaycan parlamentinin iclasında böyük səs çoxluğu ilə Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. 1993-cü il iyun ayının 24-də Milli Məclis 630 №-li qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin icrasını Ali Sovetin Sədrinə həvalə etdi. 1993-cü il oktyabrın 3-ə təyin olunan növbədənkənar prezident seçkilərində 98,8% səslə Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Bununla da milli dövlətçiliyimizin xilası, müstəqilliyimizin möhkəmləndirilməsi və inkişafı prosesi başlandı.

1997-ci il iyun ayının 27-də Milli Məclis xalqın müxtəlif zümrələrinin, minlərlə seçicinin müraciətlərini, arzu və istəklərini nəzərə alaraq görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin respublikada hakimiyyətə qayıtdığı 15 iyun gününün Azərbaycan xalqının Milli Qurtuluş Günü elan edilməsi barədə qərar qəbul etdi [9, 5-6]. Bu qərar Azərbaycanın böyük oğlu, görkəmli siyasi xadim Heydər Əliyevə ümumxalq məhəbbətinin parlaq təzahürü idi.

90-cı illərin ortalarında Azərbaycan Respublikası, habelə onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan dövlət quruculuğu sahəsində keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Prezident Heydər Əliyevin sədrliyi ilə 1995-ci il iyun ayının 2-də Konstitusiya Komissiyası yaradıldı. Komissiya Azərbaycan Respublikasının Konstitusiyasının layihəsini hazırlayıb 1995-ci il oktyabrın 15-də ümumxalq müzakirəsinə verdi. Müstəqil Azərbaycan dövlətinin ilk Konstitusiyası 1995-ci il noyabr ayının 12-də referendum yolu ilə qəbul olundu. Azərbaycan Respublikası Konstitusiyası Naxçıvan Muxtar Respublikasına Azərbaycanın tərkibində muxtar dövlət statusu verdi [4, s. 54].

Azərbaycan Respublikasının Prezidenti olduğu illərdə Heydər Əliyev Naxçıvana xüsusi münasibət bəsləyir və muxtar respublikanın hərtərəfli inkişafı üçün zəruri diqqət və qayğı göstərirdi. Onun dövlət başçısı kimi Naxçıvana ilk səfəri 1996-cı ilin oktyabrında həyata keçirildi. Naxçıvanda həmişəki kimi böyük məhəbbət və hərarətlə qarşılanan Heydər Əliyev Naxçıvana olan münasibətini belə açıqlamışdı: "Məni naxçıvanlılara bağlayan təkcə bu torpaqda doğulmağım, böyüyüb həyata atılmam deyil, həm də muxtar respublika üçün ağır dövrdə – 1990-1993-cü illərdə onlarla bir yerdə

yaşamam, Naxçıvanı birgə qorumam idi" [10, VII c., s. 477].

Səfər zamanı böyük Azərbaycan şairi və dramaturqu H.Cavidin qəbri üzərində tikilmiş məqbərənin açılışında iştirak edən Prezident Heydər Əliyev ictimaiyyətin nümayəndələri, əsgər və zabitlərlə, Ali Məclisin üzvləri ilə görüşlər keçirdi.

Naxçıvanın muxtariyyət statusuna həmişə böyük əhəmiyyət verən Prezident Heydər Əliyev 1999-cu il fevralın 4-də "Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında" Fərman, fevralın 12-də isə "Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi üzrə dövlət komissiyasının tədbirlər planı haqqında" Sərəncam imzaladı [11, 1999, 13 fevral]. 1999-cu ildə Naxçıvan Muxtar Respublikasının təşkil edilməsinin 75 illiyi ilə əlaqədar Bakı şəhərində, müxtəlif rayonlarda tədbirlər, elmi konfranslar keçirildi. Heydər Əliyev Naxçıvan MR-in 75 illiyi münasibətilə keçirilən dövlət tədbirlərində iştirak etmək üçün 1999-cu il oktyabr ayının 10-da Naxçıvana gəldi, yeni müəssisələrin açılışında iştirak edən ulu öndər muxtariyyətin yubileyinə həsr edilmiş təntənəli mərasimdə geniş və əhatəli nitq söylədi.

Prezident Heydər Əliyevin Naxçıvana növbəti səfəri 2002-ci il iyunun 15-də oldu. O, Naxçıvanda Olimpiya-İdman Kompleksinin açılışında, "N" saylı hərbi hissədə keçirilən tədbirdə, görkəmli Azərbaycan rəssamı Bəhruz Kəngərlinin xatirəsinə yaradılmış muzeyin açılış mərasimində iştirak və çıxış etdi.

Heydər Əliyev 2002-ci il avqust ayının 10-da Naxçıvana həmin ildə ikinci, ümumiyyətlə isə, prezident kimi dördüncü dəfə səfər etdi. Ümumiyyətlə, Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti olduğu 1993-2003-cü illərdə Naxçıvana böyük qayğı ilə yanaşmış, muxtar respublikanın siyasi-hüquqi, sosial-iqtisadi, elmi-mədəni cəhətdən yüksəlişi və tərəqqisi yolunda mühüm qərarlar qəbul etmiş, ardıcıl tədbirlər həyata keçirmişdir. Bu gün də muxtar respublika Heydər Əliyev ideyalarını rəhbər tutmaqla ardıcıl inkişaf etdirilir.

## ƏDƏBİYYAT

1. Qasımov Ə.Q. Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi (1969-2003-cü illər): Tarix elmləri doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya, Naxçıvan: 2011, 327 s.
2. ARPİİSSA: f. 1, siy. 66, iş 124
3. NMRDA: f. 7, siy. 12, iş 39
4. Hacıyev İ.M. Naxçıvan Muxtar Respublikasında siyasi proseslər (1988-2007-ci illər) / Naxçıvan bu gün: islahatlar, perspektivlər (5-6 oktyabr 2007-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Bakı: Nurlan, 2008, s. 31-45
5. Həmzəyev S. Mədəniyyətin inkişafına Heydər Əliyev qayğısı. "Şərq qapısı" qəzeti, 2004, 8 dekabr.
6. Qayıdış (1990-1993). Sənədlər toplusu. B.:, Azərbaycan, 1996, 780 s.
7. Naxçıvan MR Ali Məclisinin Arxivi: f. 1, siy. 1, iş 0-05.
8. Qayıdış (1990-1993). Sənədlər toplusu. Təkmilləşdirilmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı: Azərbaycan, 2008, 840 s.
10. Mahmudov Y.M. Yeni Azərbaycanın qurucusu // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, 1998, №1, s. 5-16
11. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 43 cilddə, Bakı: Azərnəşr, VII c., 1998, 520 s.;
12. Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. "Respublika" qəzeti, 1999, 13 fevral.

**SUMMARY**

**Alakbar Jabbarli**

**ELECTION OF HEYDAR ALIYEV AS CHAIRMAN OF THE SUPREME ASSEMBLY OF THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC ONE OF THE BRIGHTEST PAGES IN THE HISTORY OF STATEHOOD IN AZERBAIJAN**

As a national leader, Heydar Aliyev devoted his entire life and political activity to serving the people to whom he belonged, and during both periods of his leadership in Azerbaijan, he managed to lead our country from hardships to progress.

On July 20, 1990, he arrived in Baku. However, two days after Heydar Aliyev's residence in Baku was seriously hampered by threats and security threats at the level of the then republican leadership, Heydar Aliyev arrived in Nakhchivan from Baku on July 22. An extraordinary session of the Supreme Assembly of the Nakhchivan Autonomous Republic was held on September 3, 1991, and Heydar Aliyev was elected Chairman of the Supreme Assembly of the Nakhchivan Autonomous Republic.

During this period, under the leadership of Chairman of the Supreme Assembly Heydar Aliyev, a number of important steps were taken to protect Nakhchivan and improve its socio-economic and socio-political situation. Many historic decisions have been made.

These issues are also widely commented in the article.

***Keywords**: Heydar Aliyev, leader, Azerbaijan, founder of Nakhchivan, political activity*

**РЕЗЮМЕ**

**Алекпер Джаббарлы**

**ИЗБРАНИЕ ГЕЙДАРА АЛИЕВА ПРЕДСЕДАТЕЛЕМ ВЕРХОВНОГО СОБРАНИЯ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ ОДНА ИЗ САМЫХ ЯРКИХ СТРАНИЦ В ИСТОРИИ ГОСУДАРСТВЕННОСТИ В АЗЕРБАЙДЖАНЕ**

Как общенациональный лидер Гейдар Алиев посвятил всю свою жизнь и политическую деятельность служению народу, к которому принадлежал, и за оба периода своего руководства в Азербайджане сумел вести нашу страну от невзгод к прогрессу.

20 июля 1990 года он прибыл в Баку. Однако спустя два дня после того, как резиденция Гейдара Алиева в Баку была серьезно затруднена угрозами и угрозами безопасности на уровне тогдашнего республиканского руководства, Гейдар Алиев 22 июля прибыл в Нахчыван из Баку. 3 сентября 1991 года состоялась внеочередная сессия Верховного Собрания Нахчыванской Автономной Республики, и Гейдар Алиев был избран Председателем Верховного Собрания Нахчыванской Автономной Республики.

В этот период под руководством Председателя Меджлиса Гейдара Алиева был предпринят ряд важных шагов по защите Нахчывана и улучшению его социально-экономического и общественно-политического положения. Было принято много исторических решений. Эти вопросы также широко комментируются в статье.

***Ключевые слова:** Гейдар Алиев, лидер, Азербайджан, основатель Нахчывана, политическая деятельность.*

***Məqaləni çapa təqdim etdi:** AMEA-nın müxbir üzvü Zəhmət Şahverdiyev*
***Məqalə daxil olmuşdur:** 4 noyabr 2021-ci il*
***Çapa qəbul edilmişdir:** 2 dekabr 2021-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2021, № 2 (111), 26-35
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2021, № 2 (111), 26-35
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2021, № 2 (111), 26-35

**İSMAYIL ZEYNALOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 94(479.242)**

# XX ƏSRİN 80-Cİ İLLƏRİNƏ QƏDƏRKİ DÖVRDƏ TOYLA BAĞLI İCRA OLUNAN ADƏT VƏ ƏNƏNƏLƏR

***(Naxçıvan materialları əsasında)***

*İnsanın istər ictimai, istərsə də şəxsi həyatının elə bir sahəsi yoxdur ki, ailə-məişət adət-ənənələri ilə bağlı olmasın. Çünki insan dünyaya gəldikdə cəmiyyətin təşkili formasından biri olan ailədə böyüyür və bilik, bacarıq və vərdişlərə yiyələnir.*

*Məhz elə bu baxımdan Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsində XX əsrin 20-80-ci illərində də ailə məişət adət-ənənələrindən biri olan toyla bağlı adətləri diqqəti cəlb edir və onun etnoqrafik baxımdan araşdırılması xüsusi əhəmiyyət kəsb edir.*

*Elə məhz bu baxımdan da məqalədə evlənmə ilə bağlı toy adətlərinin başlanğıcı olan "qızbəyənmə"dən başlayaraq, "sözalma", "elçilik", "nişantaxma" kimi toya qədərki və toyun gedişi ilə bağlı məsələlərə həm mövcud ədəbiyyatlara, həm də etnoqrafik araşdırmalara söykənərək aydınlıq gətirilməsinə səy göstərilmişdir.*

***Açar sözlər:*** *adət, ənənə, qız bəyənmə, elçilik, nisan taxma, toy, şadlıq sarayı, zurna-balaban*

Hələ qədim dövrdən xalqımızın özünəməxsus adətləri olmuşdur. Həmin adət-ənənələri qoruyub saxlayan xalqımız bu gün də öz adət-ənənələri ilə fərqlənir. İki gəncin xoşbəxt günlərinin aynası olan toy mərəasimi və adətləri isə xüsusilə böyük əhəmiyyət kəsb edir. Amma qeyd etmək olar ki, toy adətlərimiz eyni olsa da, ölkəmizin müxtəlif bölgələrində fərqli tərzdə həyata keçirilməsinin də şahidi oluruq.

Toy hər şeydən əvvəl qız bəyənmədən başlayır, gəlinin oğlan evinə köçürülməsilə başa çatır. Tarixin bütün dövrlərində, o cümlədən, XIX və XX əsrlərdə də Azərbaycanın bütün bölgələrində olduğu kimi, Naxçıvanda da bu işdə maraqlı məsələlərdən biri oğlanın qızı harda görüb bəyənməsi məsələsidir, yəni ilk tanışlıqdır. Bu məsələ əslində toya hazırlığın birinci mərhələsi hesab olunur.

Naxçıvanın rayon və kəndlərində infarmatorlardan, o cümlədən Ordubad rayonundan Pakizə Əkbərovadan. Tivi kəndindən Novruz Cəfərovdan, Şahbuz rayonunun Keçili kənd sakini Dilsuz müəllimdən, Bulud Cəfərovdan, Şərur rayonundan Muğanlı kənd sakini Şərəbanı Tağıyevadan, Babək rayonunun Sirab kənd sakini Əli Fərzəliyevdən, Culfa rayonunun Milax kənd sakini Qaraş kişidən aldığımız məlumatlardan aydın olur ki, oğlanlar qızlarla əsasən bulaq başında tanış olardılar. Çünki qızlar bulaq başına gəlib su bardaqlarını doldurub söhbət edərdilər. Bu vaxt qız bəyənəcək oğlanlar bulaq başına gələrək, su içmək bəhanəsi ilə hərəsi ayrı-ayrılıqda tanış olmaq istədikləri qızdan su istərdilər. Əgər qız mehribançılıq göstərib su verirdisə, demək tanış olmaq üçün razılıq alınması həll olunmuş hesab olunurdu, əgər su verməkdən imtina edilib bulaqdan iç deyilirdisə, bu isə etiraz əlaməti sayılırdı.

Qızla eyni zamanda toyda və bayram şənliyində də bir-birinə baxmaq, göz-qaş etməklə də tanış olmaq imkanı əldə olunurdu. Xüsusən axır çərşənbə günü oğlan qıza tanış olan öz şalını baca və ya qapıdan atardı, qız əgər oğlanla tanış olmaq istəsə idi, razılıq əlaməti olaraq həmin şala alma, ya da öz dəsmalını qoyub bağlayardı. Digər tərəfdən oğlan və qız bir-birlərinə dəsmal verməklə də tanış olurdular. Beləliklə, "Dəsmal vermə" adəti də geniş yayılmaqla qızın razılığını bildirən əsas əlamət idi. Eyni zamanda bəzən qız yolla gədərkən də könül vermək istədiyi oğlanın arxadan gəldiyini görüb gizlicə əl yaylığını yerə salaraq, özünü bilməməzliyə vurub çıxıb gedirdi. Arxadan gəln oğlan isə

dəsmalı yerdən götürüb, qıza özünü çatdıraraq, dəsmalınız düşdü deyərdi. Oğlanla tanış olmağa razılıq vermə əlaməti olaraq qız gülümsəyib gedərdi.

Oğlanın razılığından sonra valideyninə bildirdi. Onlar isə başlayırdılar gizli şəkildə qız haqqında məlumat toplamağa. Bu zaman qızın hansı ailədən olması (bu işdə ailənin namuslu olması ön plana çəkilirdi). Ata və ananın kimliyi və əqidələrinin necə olmasına diqqət yetirilirdi. El arasında belə atalar sözləridə işlədilir: "Ot kökü üstə bitər", "Qırağına bax bezini al, anasına bax qızını al", "Anası gəzən ağacı, balası budaq-budaq gəzər". Bütün bunlar o deməkidi ki, qız və ya oğlan valideyn tərbiyəsi əsasında özünü biruzə verir. Valideynlər qızın valideyinə də onların xarici görkəminə, tərbiyəsinə, sağlamlığına da fikir verirdilər, çünki valideynin sağlamlığına olması övladlarının da sağlam olmalarına ehimal olunurdu.

Eyni zamanda qızın özü barədə də məlumat toplanırdı. Onun ailədə davranışına, iş bacarığına, sağlamlığına ciddi fikir verilirdi. El arasında olan atalar sözlərinə, o cümlədən "Maya budlu arvad al ki, nər budlu oğul doğsun" və yaxud "Bablı babın tapmasa, günü ax vayla keçər" və s. kimi deyimlərə daha çox diqqət yetirilirdi. Bu barədə Babək rayonunun Sirab kənd sakini Hacı Ataxan müəllim də el arasında olan nəğmələrə də rast gəlindiyini qeyd etmişdi.

Məsələn:

Ay gəlin, fərə qurban,
Dolan keç dərə qurban.
Özün maya buludsan,
Doğduğun nərə qurban.

Elə ki, oğlan tərəfi qızın valideynləri və qızın özü barədə istədiyi məlumatı topladıqdan sonra, altdan-altdan qızın valideynlərinin fikrini öyrənməyə çalışırdılar. Elə ki, qızın valideynləri məsələni bildikdən sonra onlar da oğlan və onun ailəsi haqqında bilgi toplamağa başlayırlar. Qız tərəfi, əsasən, oğlanın peşəsini, düzgünlüyünü, içkiyə meyilli olub-olmaması ailənin gəlinə münasibəti, xüsusən oğlanın anasının xasiyyətini öyrənməyə xüsusi fikir verirdilər.

Əgər qız tərəfi razı olmurdusa, onda oğlan evinə xəbər verilirdi ki, qız hələ balacadı, deyiklisi var və sairə kimi bəhanələrlə, oğlan evini bu fikirdən çəkindirirdilər, əgər qız razı olardısa, qızın özü bilər kəlməsi deyilirdi. Bu kəlimə isə elə razılıq əlamətinə işarə idi.

"Qızbəyənmədən" sonra "elçilik" adəti başlayır. Xalqımız bu adəti cüzi dəyişikliklərlə günümüzə qədər qoruyub saxlamışlar.

Etnoqrafik araşdırmalardan aydın olur ki, elçilik, əvvəldə olduğu kimi Naxçıvanda XX əsrin 30-cu illərində də əsas iki mərhələdə həyata keçirilirdi.

Birinci mərhələ "sözalma" adlanır. Buna "ağızarama" və ya "hə alma" da deyilir. Sözalmada oğlanın atası və anası xəbər vermədən qız evinə gəlib fikirlərini bildirirlər. Qohumluğun baş tutmasını biləndən sonra elçiliyə gəlirdilər. əgər qız tərəfi razılıq verməsə idilər, bu iş qapalı saxlanılırdı. Elçiliyin ikinci mərhələsi isə geniş və ya böyük elçilik hesab edilirdi. Bu zaman elçiliyə gəlmək barədə oğlan evi əvvəlcədən qız evinə xəbər verirdilər və elçilik zamanı oğlan və qızın ata-anaları, dayı və əmiləri, ağsaqqalları bir araya gələrək, gənclərin evlənmələri barədə razılığa gəlirdilər. Naxçıvanda adətə görə, qız evinə elçiliyə yalnız Məhərrəm ayı ilə Ramazan ayından başqa, qalan aylarda müqəddəs hesab edilən həftənin ikinci, dördüncü və beşinci günləri, axşam üstü qaranlıq düşəndən sonra gəlirdilər. Çünki bu vaxt ailənin bütün üzvlərinin evdə olması ehtimal olunurdu. Şahbuz rayonunun Biçənək və Yuxarı Qışlaq kəndlərindən tolanmış materiallarından aydın olur ki, razılıq əldə olunduqdan sonra oğlan evindən gələnlərə şirin çay verərdilər. Çay isə razılıq əlaməti hesab olunurdu.

Bir qayda olaraq, şirinlikdən sonra "nişançılıq" başlayırdı. Bu zaman kişi və qadın məclisləri ayrı keçirilirdi. Oğlan tərəfinin gətirdiyi şirinliyi süfrəəyə düzərdilər və şənlikdə iştirak edənlərə xidmət olunardı. Adətə uyğun olaraq, qız və oğlan tərəfindən iştirak edən ağsaqqallara stəkanda iki rəngli (ağ və qırmızı) çay verib hədiyyə alardılar.

Qadın məclisində isə oğlan evindən gəlmiş bir nəfər yaxın qohumu qıza gətirilmiş paltarı göstərər və oğlanın böyük bacısı isə qızın barmağına üzük taxardı, əvəzindən qız evindən hədiyyə

alardılar. Şirinlikdə yemək-içmək verilməsinə az-az hallarda rast gəlinirdi. Əsasən, meyvə və çay verilərdi. Beləliklə, nişanlanma mərasimi başa çatmış olurdu. Qeyd etmək lazımdır ki, bu adətlərə müasir dövrdə də müəyyən dəyişikliklərə əməl olunmaqdadır.

Nişanlılıq müddətində oğlan evi tez-tez qız evinə gedər və hədiyyələr aparardılar. Eləcə də, bu müddətdə hər iki tərəf müəyyan çatışmamazlığı aradan qaldırıb və toya hazırlıq işinə başlayardılar. Qız evi xüsusən cehiz hazırlığına, oğlan evi isə gəlin paltarı və ziynət əşyaları almağa başlayardılar. Qıza veriləcək cehizin alınmasında razılıq əsasında qohumlarda köməklik göstərirdilər.

Nişanlılıq dövründə bayramlar olanda (Novruz, Qurban, Oruc bayramları və s.) eləcədə fəsillərlə əlaqədar günlərdə (çillələrdə, xıdır Nəbidə) qız evinə pay (hər cürə meyvə, çillə qarpızı) aparılırdı. Bu adət indi də əməl edilməkdədir. Çillə qarpızı payı barədə mahnıda deyili:

Bu qarpız çillə qarpız,
Düşübdür dilə, qarpız.
Yığılıb xurcunlara,
Gedir yargilə qarpız.

Nişanlanandan sonra əgər nişanlılıq uzun müddət çəkirdisə, onda bəy və ona yaxın adamların qız evinə dəvət olunması adəti icra olunurdu. Bu adət bəyin qız evinə ilk dəfə gəlişi olduğu üçün "ayaqaçdı" adlanırdı. Oğlanın qaynanası xoş gəldin deyib, evə dəvət edərdi. Gedəndə isə hədiyyə verərdi. Adətə görə, həmin gün qızla oğlan görüşməzdi, amma sonrakı günlərdə görüşə bilərdilər. Belə görüşlər "adxlıbazlıq" adlanardı.

Oğlan və qız tərəfin hazırlıq işləri başa çatdıqdan sonra oğlan tərəfi toyun vaxtını müəyyənləşdirmək və veriləcək başlıq haqqında məsləhətləşmə üçün bir neçə ağsaqqallarla qız evinə gedərdilər. Naxçıvanda XIX əsrin sonu XX əsrin əvvəllərində qız evinə veriləcək toy xərci imkana görə idi. Adətə görə 16 kq qənd, bir kisə un, 16 kq yağ, 15 kq düyü, 15 ədəd çay, qızın qardaşına kostyum, 10 kq ət və ya bir quzu, imkana görə pul da nəzərdə tutulurdu. Nəzərdə tutulan bütün bu toy xərci isə bir qoyunun dəyəri miqdarında olurdu. Bundan sonra toya bir neçə gün qalmış "parça biçimi" başlayırdı. Parça biçiminə qonşular və oğlan evinin yaxın adamları dəvət olunurdular, həm də qız evinə parça biçimi üçün nə vaxt gedəcəkləri barədə xəbər də verilirdi. Dəvət olunanlar oğlan evinə toplaşıb xonça tutur, qız evinə gedərdilər və qız evində şənlik düzəldib "parça biçdi" başlanardı. Dərzi parça biçimi zamanı qayçı kəsmir deməklə xələt alardı. Toya qədər əməl edilən yəni adələt dən biri də "toy çörəyinin" bişirilməsidir.

Adətə görə, toya bir həftə qalmış, oğlan və qız tərəfləri yığışıb toy üçün çörək bişirərdilər. Çörək bişirilərkən, təndir başına qohum əqraba və qonşular hədiyyələr gətirərdilər. "Allah mübərək eləsin", "həmişə toy çörəyi bişirəsiniz" dəyərdilər və bəzən də oturub çörək bişirməsinə kömək də edərdilər.

Qeyd edək ki, bu adətlər indi də qalmaqdadır. Bu adət "çörək üstə getmə" adlanırdı. Toya bir neçə gün qalmış nigah kəsmə, yəni kəbin kəsmə adəti həyata keçirilirdi. Naxçıvanda dölət kəbini ilə yanaşı, dini kəbinin kəsilməsinə də xüsusi diqqət verilirdi. əgər dini kəbin olmasa idi, qızı verməzdilər. Kəbin kəsdirmədə hər iki tərəfin ağsaqqalları iştirak edirdilər.

Kəbin kəsmədə "kəbin haqqı" məsələsinə xüsusi diqqət yetirilirdi. El arasında bu "möhr pulu" adlanır. Kəbin pulu kağıza yazılırdı, əgər oğlan arvadı boşasa idi onda kağıza yazılmış möhr pulunu arvada verməli idi. Yox əgər qadın boşansa idi möhr pulu verilmirdi. Kəbin pulunun dəyəri kağıza qızılla, pulla, mal-qara ilə də yazıla bilərdi. Kəbin pulu bir milyona yaxın olurdu. Bu hal, əsasən, boşanmanın qarşısının alınması məqsədini daşıyırdı. Digər tərəfdən boşanan qadına maddi yardım sayılırdı. Beləliklə, toyaqədərki adətlər başaçatdıqdan sonra "toy günü" müəyyən olunardı.

Evlənmə prosesinin son mərhələsində yəni toyda icra olunan qonaqlıq-şənlik məclisi isə "Kitabi-Dədə Qorqud" da "toy-düyün" adlandırılır (1, s.16). Odur ki, bütövlükdə evlənmə prosesi, etnoqrafik anlayış kimi "toy düyün" ifadəsinin işlədilməsi məqsədəuyğun sayıla bilər. Toy dedikdə musiqi sədaları altında qonaqpərvərlikdən tutmuş çoxtəbəqəli mürəkkəb mərasimlər nəzərdə tutulsa da əsasən Azərbaycan türklərində toy deyərkən evlənmə mərasimi məclisi kimi başa düşülür.

Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvan bölgəsində də zəngin adətlər və

inamlara əsaslanan toy mərasimləri bir qayda olaraq payız mövsümündə həyata keçirilir. Bu isə daha çox-tarla işlərinin qurtarması, məhsul yığımının başa çatması, digər tərəfdən heyvanların ət tutması ilə bağlıdır. Ona görə də Naxçıvanda hər kəsdən soruşulsa deyər ki, payız fəsli toy-düyün fəslidir. Lakin bir məsələni də qeyd etmək lazımdır ki, əgər hicr ayları sayılan Məhərrəm, Ramazan və səfər ayları payız fəslinə düşərsə, onda toy edilməz.

Digər tərəfdən əgər toy sahibinin yaxın cavanı və qohumu vəfat etmiş olarsa məhrumun "ili", yaşlı adamı ölərdisə "qırxı" çıxmayınca toy edilməsi təxirə salınar.

Qeyd etmək lazımdır ki, toy şənliyinin keçirilməsi üçün əvvələcədən müəyyən işlər görülməlidir. Belə ki, ilkin olaraq qonşu və qohumlarda il və qırx çıxmamış məhrumlar olarsa, bundan əlavə, toya bir neçə gün qalmış kimsə kənddə və ya qonşuluqda vəfat edərsə, oğlan və qızın ağsaqqalları gedib mərhumun qohumlarına başsağlığı verir, Allahdan rəhmət diləyib, Quran oxutdurub toy hazırlığını gördüklərini və qonaqların dəvət edildiyini bildirməklə toy etmək üçün icazə alarlar. Yas sahibləri isə bir qayda olaraq, Allah mübərək etsin, xeyir-şər qardaşdırlar, gedin toyunuzu edin deyərlər.

Toydan bir gün əvvəl axşamüstü ətlik heyvanlar kəsilər və axşama yaxın qohumlar və qonşular bəy oğlanın evinə məsləhət üçün yığışarlar. Burada sabahkı toy üçün kəsilmiş heyvanların bir-iki nəfər tərəfindən əti doğrayar, qadınlar isə lüləkabablıq əti döyərdilər (hazırda isə ət çəkən maşınla çəkib hazırlayırlar).

Qadınlar Naxçıvanın Şahbuz və Ordubad rayonlarında bu ənənəyə "ətdöydü" deyərdilər. Kəsilmiş ətdən həm də axşam yığışan qohum əqrəbəyə yemək hazırlanar və yemək verəndən sonra vəzifə bölgüsü də aparılırdı.

Bu bölgüdə toyxana quranlar. Toyu idarə edəcək admlar. Xörək bişirənlər, xörək paylayanlar, çay paylayanlar, qonaq qarşılayanlar, gəlin gətirmək üçün gedəcək adamlar, çalğıçıların dalınca gedənlər müəyyənləşdirilirdi.

Hazırda dağ kəndlərini çıxmaqla, toylar əsasən şadlıq sarayında keçirildiyindən göstərilən vəzifə bölgüsünün coxu sıradan çıxmaqdadır.

Toy şənliyi üçün əgər şadlıq evləri yoxdursa bəy oğlanın  həyətində və ya münasib bir yerdə böyük çadır qurulur. Bu yer "toyxana" və ya "mağar" adlanır. Toy, adətən, Naxçıvanda XX əsrin 80-ci illərinə qədər qara zurna ilə başlayardı. Zurna səsini eşidən kənd əhalisi təzə paltar (toy paltarı) geyərək toyxanaya axışırdı.

Toya varlı ailələr xanəndə. Sazandlar və aşıqlardan ibarət bir neçə müsiqiçi dəstəsi dəvət edirdilər. Yoxsul ailələrin toyunda isə musiqiçilər zurna-balaban və nağara-qaval çalanlardan ibarət olurdu.

Onu da qeyd etmək lazımdırki, ölkəmiz müstəqillik qazandıqdan sonra, şadlıq sraylarının inşa olunması bu ayrı-seçkiliyi, əsasən, aradan qaldırmışdır.

Naxçıvan kəndlərində toyun keçirilməsi ilə bağlı kəndlər üzrə özünə məxsus xüsusiyyətləri vardır. Belə ki. Kiçik kəndlərdə bütün kəndin əhalisi toyda iştirak edir, böyük kəndlərdə isə, məslən Nehrəmdə, Cəhridə, Qarabağlarda, Şahtaxtında isə toya dəvət olunanlar iştirak edirdilər.

İnfarmatorlardan Şahbuz rayonunun Keçili kənd sakini 1938-ci il təvəllüdlü Əsgərov Hüseynalının məlumatına görə oğlan evinə adamları keçmişdə dəllək çağırardı. O, ya kənd mərkəzində, ya da bir evin üstünə çıxıb ucadan car çəkərdi ki, ay kənd əhli filan vaxt, filankəsin oğlunun toyudur, hamı toya dəvət olunursunuz deyərdi. Dəlləyin camaatı toya dəvət etməsi isə onunla əlaqədar  idi ki, o, oğlanın başını və üzünü taraş edən idi və bununla bağlı olaraq toyda da onun üzün, başın təmizləməklə xələt alardı və bəyin yanında ona dəstək olardı.

Naxçıvanın bəzi kəndlərində aparılan etnoqrafik araşdırmalardan aydın olur ki, o cümlədən Şərur bölgəsinin Qarxun, Siyaqut, Dərəkənd və sairə kimi kəndlərində bir nəfər cavan oğlan toya dəvət ediləcək adamların qapısına gedərək, xurcunda apardığı almadan birini ona verib toya dəvət edərmiş.

Bizim bu məlumatımızı infarmator Şərur rayonunun Xok kənd sakini 1964-cü il təvəllüdlü Həsənov Xəlil də təsdiq edir. Alma ona görə verilirdi ki, Şərq aləmində inama görə həyat simvolu,

şəfaverici övladverici, cavanlaşdırıcı, meyvə kimi təsvir edilir.

Əski inanclara görə övladı olmayanlara da dərviş həyat simvolu olan alma verirdi ki, bir üzünü özü yesin bir üzünü həyat yoldaşına verməklə onların övladı olmasını müjdələyərdi, eyni zamanda Məlikməmməd nağılında alma ağacını qoruyub atasına vermək onun cavanlaşmasına nail olmaq məqsədi ilə dev tərəfindən oğurlanması əhvalatı da bu inanca sübut ola bilər.

Qeyd etmək lazımdır ki, kəndlərdə xüsusən kiçik kəndlərdə toylar növbələşdirilirdi. Ümumiyyətlə, toylar şinlikli olsun deyə çalışırdılar ki, eyni həftədə iki toy olmasın. Eyni zamanda böyük kəndlərdə də məhəllə və qohumlar arasında bu məsləyə ciddi diqqət verilirdi. Toylarda əsasən zurna-balabandan istifadə olunurdu. Toyun zurna-balabanla keçməsi adəti XX əsrin 70-ci illərinə qədər davam etmişdir.

Naxçıvan toyları, adətləri, inamlar, ənənələr baxımından çox zəngin olmaqla diqqəti cəlb edir. Belə ki, toylar müxtəlif rəqslər, oyunlar, güləş, at çapmaq, bəyin təşkil edildiyi məclislər, xına gecəsi və s. kimi adətlərlə zəngindir. Eyni zamanda Naxçıvan toyları üçün xarakterik olan kəndin məhəllənin, həyətin geniş meydanında bir qayda olaraq günorta yemeyindən sonra "yallı getmək" xüsusi yer tutur.

Yallılar çox qədim tarixə malik olmaqla, bütün türk xalqları arasında geniş yayılmışdır. Azərbaycan ərazisində bu rəqsin qədim izlərinə Qobustan və Naxçıvanda Ordubad rayonunda Gəmiqaya qayaüstü rəsmlərdə də rast gəlinir.

Yallılardan Naxçıvanda ən çox sevilən və oynalılan yallı "Şərur yallısı", "Tello", "Qurdun ağrı" el arasında ona (Kürdün ağırıda deyirlər) "qoşa ayağı", "Tənzərə" və s. kimi yallıların adların çəkmək olar.

Etnoqrafik araşdırmalardan aydın olur ki, toylarda xalq mahnılarının ifası da geniş yer tutmuşdur. Toyda musiqi ilə rəqs əkiz olmuş və xalqın əylənməsinə yönəldilmişdir. Toyda xüsusən cavanlar daha çox iştirak edirlər. Onlar toyda "yallı" gedir, güləşir, eləcədə oyun havaları olan "uzundərə", "tərəkəmə", "Ceyran", "qazağı", "Nazeləmə", "Heyvagülü" və s. kimi rəqsləri oynamağa üstünlük verirlər.

Toyxananı idarə etmək üçün bir nəfər adam müəyyənləşdirilirdi, o bütün toyun şinlikli keçməsinə və nizam-intiam qaydalarına ciddi nəzarət edilməsinə cavabdeh olurdu. Ona "toybəyi" deyilirdi.

İnfarmatorlardan Babək rayonunun Nehrəm kənd sakini 1942-ci il təvəllüdlü Əliyev Heydər, Şahbuz rayonunun Badamlı kənd sakini 1950-ci il təvəllüdlü Əliyeva Zərifənin, Ordubad rayonunun Düylün kənd sakini 1950-ci il təvəllüdlü Əliyeva Tofiqənin, Şərur rayonunun İbadulla kənd sakini 1947-ci il təvəllüdlü Həsənov Həsənin verdikləri məlumata görə Naxçıvan kəndlərinin əksəriyyətində toy zamanı bir sıra adətlər də həyata keçirilirdi. Belə adətlərdən biri də təzə toyu olmuş gəlini, öz toyundan sonra olan birinci toya dəvət olunmasını misal göstərmək olar.

Oğlan evində toy olduğu kimi qız evindı dı toy olur. Bu məclisdə isə çalğıçılar qadınlardan ibarət olardı. Gəlin qızı bəzəyərək yuxarı başda oturdardılar, gəlinin rəfiqələri də onun yanında oturardılar. Cavan gəlin və qızlar qiyafətlərini düzəldib məclisi şənləndirərdilər. Toyda qadın müğənnilər el bayatılarından oxuyub qızlar oynayır və "haxışta" gedərdilər (bu adət indi də qalmaqdadır).

Haxıştalar müxtəlif formalarda, yəni müxtəlif istiqamətlərlə məsələn o cümlədən qohumla nigah düzgün sayılmadığından, eləcədə sosial vəziyyətlə bağlı qızlar tərəfindən ifa edilirdi:

Baydada qaymaq gərək, haxışta
Qablara qoymaq gərək, haxışta,
Qohuma qız verənin, haxışta,
Gözlərin oymaq gərək, haxışta.

Pəncərənin millini çək, haxışta.
Yandır onun külünü çək, haxışta,
Qohuma qız verənin, haxışta,

Əngini ayır, dilini çək, haxışta.

Haxışta gedə bilmirəm, haxışta,
Belimi əyə bilmirəm, haxışta,
Özüm dövlətli qızı, haxışa?
Kasıba gedə bilmərəm, haxışta

Oğlanın bacısı isə oğlanı tərif edərərk, qız üçün oxuduğu haxışta daha gözəl səslənir. Belə haxıştalardan biri isə aşağıdakı kimidir.

Çıxdım aya baxmağa, haxışta,
Qapıya qıfıl taxmağa, haxışta,
Qardaşım xına göndərib, haxışta,
Gəlin əlinə yaxmağa, haxışta.

Naxçıvanın əksəriyyət kəndlərində "xına gecəsi" qız evinə toyla oğlan evindən musiqi sədaları altında xına tabağı aparılır və orada bir neçə saat çalınardı. "Xınayaxdı" şənliyi keçirilərdi. Qız evində "xınayaxdıdan" əvvəl "şilə" gecəsi keçirilib yemək verilib pul salınardı.

Xına ilə bağlı inamlar Naxçıvanda xüsusi yer tutur. Araşdırmalardan və İnfarmator Babək rayonunun Sirab kənd sakini mərhum Mehdiyev Hümbət kişinin və Qahab kənd sakini 1965-ci il təvəllüdlü Mamedova Xuramanın fikirlərinə görə xına sıxıntıdan və yasdan çıxarma rəmzidir. Yasda olan qadınlar xına yaxmazlar, yalnız qohum-əqərblər qohumu ölənləri yasdan çıxarmaq üçün yığışıb gedərək başlarına, əllərinə xına yaxmaqla yasdan çıxarardılar.

Bizim üçün ən mötəbər mənbə sayılan "Kitabi-Dədə Qorqud" dastanında da göstərilir ki, yasla bağlı olaraq, qız-gəlinlər gülməz oldu, qızıl xına ağ əlinə yaxmaz oldu (1, s. 57).

Oğlu, qızı, deyihlisi qəriblikdə olanlar da əllərinə xına yaxmazdılar. Xına gecəsi qız evində cavan qız-gəlin səhərə qədər yatmazdılar, çalıb-oynayardılar. əgər kim yatardısa, onun paltarını və özünü yatdığı yorğan-döşəyə tikərdilər, toyun ən şinlikli günü 3-cü gün sayılırdı. Əgər əvvəlki iki gündə ancaq günbatana yaxın toy başlayıb gecə yarısına qədər çalınırdısa. Həmin gün səhərdən axşama qədər. Yəni gəlin gətirilənə qədər toyun çalınması davam edirdi.

Toyun 3-cü günü oğlan evində dəvət olunanlara yemək verilər və pul yığılardı. Yeməklər əsasən bozbaş, şorba və ya plovdan ibarət olurdu. XX əsrin 80-ci illərinə qədər isə islamla bağlı toyda spirtli içgilər verilməzdi. Yemək vaxtı dəqiq müəyyən edilməzdi, hər kəs nə vaxt gəlsə idi yeməyini yeyib pul yazdırıb toya baxardı. Axşamüstü musiqiçilər xonça gətirmək üçün qız evinə gedər, orada bir saata qədər çalıb-oynadıqdan sonra hazırlanmış xonçaları bəy evinə gətirərdilər. Xonçaların içində ayrıca olaraq "bəy xonçası" və ya ona "bəy tabağı" olurdu. Tabağın içində isə bəyə corab, dəsmal, köynək, kastiyum qoyulurdu. Xonçanı gətirdikdən sonra, gəlin gətirilməya gedincəyə qədər oğlan evində güləş, yallı, rəqs etmək xüsusi yer tuturdu.

Toy müddətində bəyin sağdış və soldışı olardı. Onlar toy zamanı bəyə diqqəti artırır, onun oğurlanmasının, ona məxsus əşyaların qorunması adətinə xüsusi diqqət verdilər. Formalaşmış adətə görə sağdış və soldışın başları qarışan kimi əsasən bəyə münasib adamlar. Bəyin əlindən yapışıb özləri ilə münasib bir yerəaprıb gizlədb. bəyin qaytarılması və üzə çıxması üçün müəyyən miqdarda pul və ya qonaqlıq alardılar. Bəzən isə bəyin ayaqqabısın, papağın oğurlayıb onun geri qaytarılmsı üçün xələt alınırdı. Oğurlanmış bəyə, papaq və ayaqqabının xərci ilə toy sahibi yox, bəyin sağdış və soldışın üzərinə düşürdü.

Toyun üçüncü günü gəlini gətirməzdən əvvəl bəyin üzünün qırxılması, saçının düzəldilməsi adətinə də əməl olunurdu. El arasında buna "bəyin başının qırxılması" deyirdilər.

İnformatorlardan Ordubad rayonunun Gənzə kənd sakini 1949-cu il təvəllüdlü Rzayev Rzanın verdiyi məlumata görə, toyxanadan bir az aralı dəlləyin (bərbərin) təntənəli şəkildə bəyin başının qırxılması adəti həyata keçirilirdi. Bərbər əvvəlcə "ülgüc kəsmədi" deyə bəydən müəyyən hədiyyə və ya pul alırdı. Sonra bəyin başını ordan-burdan qırxıb qalanların saxlayıb, car çəkirdi ki, bostan əkmişəm, dilim-dilim yemiş satıram, kim istəyir pulunu verib alsın. Beləliklə, ilk öncə sağdış-soldış pul verib talayerləri qırxdırardılar.

Toyun axırıncı günü gəlini gətirməzdən əvvəl qız evində də “gəlin bəzəmə” adətinə əməl olunurdu. Bu isə bəzək işini bilən cavan gəlinlərdən biri yerinə yetirirdi. Gəlini bəzəyən onun geyim və bəzəklərinə xüsusi diqqət yetirirdi. Bunun əvəzindən isə bəzək pulu alırdı. Bəzək pulunu isə oğlan evi gəlini gətirməyə gedəndə oğlanın qardaşı və ya atsı verirdi.

Qeyd etmək lazımdır ki, Naxçıvanın əksər kəndlərində gəlin bir qayda olaraq, bəy evinə gün batana yaxın gətirilərdi. Gəlini gətirməyə gedərkən yol boyu musiqi çalınar, “halla-halla” sədaları altında rəqs edilərdi. Qız həyətinə daxil olarkən oğlanın bacısı və ya əgər bacısı olmasa qohumları mahnılar oxuyar, “haxışta” deyərdilər. Belə haxıştalardan biri də oğlan adamı tərəfindən deyiləni haxıştalar idi:

Al almağa gəlmişik, haxışta,
Şal almağa gəlmişik, haxışta,
Oğlanın adamıyıq, haxışta
Aparmağa gəlmişik, haxışta.
Qız tərəfidə buna cavab olaraq haxışta deyərdilər:
Al almağın vaxtı var, haxışta,
Şal almağın vaxtı var, haxışta,
Oğlanın adamısız, haxışta,
Aparmağın vaxtı var, haxışta.

Beləliklə, qız evi toyu bir qədər yubadıb gəlini oynadar, qohum əqrabalar da şadyanalıq edərək, qız və oğlan evi adamları ilə birlikdə rəqs edirdilər. Bundan sonra gılin evi qayıdar, gəlini evdən çıxarmağa hazırlaşan atası, anası, əmisi, dayısı, xeyir-dua verirdilər. Gəlin evinə gələn oğlanın böyük qardaşı, gəlinin belini qayış və ya gümüş kəmərlə bağlayardı. Gəlinin belini bağlayarkən belə deyərdilər.

Anam, bacım qız gəlin,
Əli, ayağı düz gəlin!
Yeddi oğul istərəm,
Bircə dənə qız gəlin.

Bel bağlamada qırmızı lenti və ya adətən gümüş kəməri 3 dəfə gəlinin başından salıb, ayağından çıxarıb, axırıncı dəfə bağlanardı. Bunula gəlin sanki ovsunlanırdı.

Gəlin evdən çıxarkən oğlan evi adətə görə çalışır ki, qız evindən bir şey oğurluyub aparsın. Bu adətə Naxçıvanın dağ kəndlərində daha çox əməl olunurdu. Qız evi isə oğurluğun qarşısını almaq məqsədi ilə gəlinin qoltuğuna çörək verib çörəklə yola salardı. Ona görə ki, qız evindən gəlinlə birlikdə çörək aparıldığından, oğlan evi oğurluq etməzdi.

Gəlin evdən çıxarılanda “qapı kəsmə” adətinə əməl olunurdu. Adətə görə qızın kiçik qardaşı və ya qohumu gəlini qapıdan çıxarmağa icazə vermirdi. Oğlan evi isə qapını kəsənə hədiyyə verib, qapıdan şıxmaq icazəsini alırdı.

Beləliklə, gəlinin üzünə ağ yaylıq “duvax” salıb 2 nəfər yengə ilə oğlan evinə musiqi sədaları altında “Qurani-Kərim”in altından keçirərərk yola salınardı. Gəlinin yanında yengələrdən birinə isə yağ-bal dürməyi də verirdilər ki, bəyə versin, bəy isə həmin dürməyi gəlinlə bölüb yeməli idilər. Gəlin evdən çıxarılanda adətə görə qız tərəfindən oğlanlardan birinə, boğazına qırmızı lenta bağlanmış toyuq verilirdi. Digər bir oğlana isə “bəxt aynası” adlanan ayna verirdilər ki, gəlinin üzünə tutsun: “Həmçinin bir də bir çıraq yandırıb cavan qızlardan birinə və ya yengəyə verilirdi”. Bu adətlərin hər birinin ayrıca mənaları vardır.

Toyuq artıb çoxalmaq, yəni cücəli, uşaqlı olmaq arzusu idi. Çıraq aydınlıq, od-alov simvolu idi. Ayna isə mifik qüvvələrlə mübarizə rəmzi sayılırdı, həm də oğlan uşağının doğulması istəyi idi.

Bəxt aynasını gətirən oğlana oğlan evində hədiyə də verilirdi. Qeyd etmək lazımdır ki, gəlin XX əsrin 80-ci illərinə qədər oğlan evinə yol yaxın olardısa piyada, uzaq olardısa at və ya faytonla aparılardı. Gəlin hansı qapıdan keçirdisə onun başına şirniyyat və arxasınca su atardılar.

Uzaq yerdən gəlin gətiriləndə isə bir dəstə cavan oğlan evinə xəbər vemək üçün at çapardılar (buna el arasında papaq aparma) deyilirdi. Hər kəs oğlan evinə tez çatıb gəlnin gətirilməsini xəbər

versə idi o adma xələt verilərdi.

Gəlin oğlan evinə çatanda bəy dama çıxardı, gəlin qapıdan içəri keçəndə bəy gəlinin başına alma və şirniyyat atardı. Gəlin evə daxil olanda qaynata və qaynana ona xoşgəldin edirdilər. Qohum əqrəba isə gəlinə hədiyyə verərdilər. Verilmiş hədiyyələr siyahıya alınırdı. Bununla toy şənliyi başa çatmış olur. Sevgililər bir-birinə qovuşur, yengələr oğlan evindən hədiyyə alaraq qız evinə qayıdır. Bundan sonra toydan sonrakı adətlər icra olunur.

Beləliklə, yuxarıda qeyd olunanlarla yanaşı, qeyd etmək lazımdır ki, Azərbaycanda müstəqilliyin yaradılmasından sonra, yəni XX əsrin 90-cı illərindən sonra keçmişdən fərqli olaraq, toy adət-ənənələrində bir çox dəyişikliklər olmuşdur. O cümlədən dəlləyin (bərbərin) oğlan evində bəyin üz qırxması, gəlnin ata evindən yola salarkən ata ocağının və ya təndirinin başına üç dəfə dolanması, onun at və ya araba ilə aparılması, gəlnin özü ilə bardaqda su aparması, gəlin bəy evinə yola salınarkən cavanlar at çaparaq papaq aparması, bəyin damın üstünə çıxıb gəlin evə daxil olarkən başına alma atılması və s. kimi adətlər aradan çıxmış, sadələşdirilmişdir. Belə ki, müasir toylarımız öz məzmunu, icra edilən mərasim və adətlərin saxlanılması baxımından ənənəsi toylardan müəyyən dərəcədə fərqlənir belə ki, ənənəvi toylarımıza xas olan cəhətlərdən biri olan toy şənliyində kişilərlə bərabər qadınların da iştirak etməsidir. Kişilərin qohum, qız və qadınlarla birlikdə rəqs etməsidir. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvanda da müasir tələblərə cavab verən yeni toy adətlərimiz günüdən-günə artır, formalaşır və inkişaf edir.

Məsələn əvvəllər toy üç gün, bəzən varlılarda yeddi gün çəkirdisə, hazırda kənd və şəhər yerlərində şadlıq saraylarının tikilməsi ilə əlaqədar bir gündə başa çatır. Burada xalq artistlərinin iştirakı, onların musiqi sədaları altında oxuması diqqətəlayiq sayılır və bununla yanaşı gələcəkdə toylarımızın daha da məzmunlu olması üçün günün tələblərinə uyğun formada icra edilməsinə əməl olunması məqsədə uyğun sayılması, keçmişin yaxşı adət-ənənələri saxlamaqla, yeni adət-ənənələr formalaşdırılması diqqət mərkəzində olmalıdır.

İNFORMATORLARIN SİYAHISI

| № | Adı və soy adı | Təvəllüd | Kənd | Bölgə |
|---|---|---|---|---|
| 1 | Babayev Vaqif | 1929 | Aralıq | Şərur |
| 2 | Babayev Hüseyn | 1956 | Cuğa | Culfa |
| 3 | Bağırov İsmayıl | 1932 | Yaycı | Şərur |
| 4 | Baxşəliyev Baxşəli | 1933 | Böyükdüz | Babək |
| 5 | Ələsgərov Ələsgər | 1941 | Türkeş | Şahbuz |
| 6 | Əsgərov Hüseynalı | 1938 | Xanağa | Culfa |
| 7 | Əsgərov Musa | 1936 | Çalxanqala | Babək |
| 8 | Əliyev Əsgər | 1934 | Zeynəddin | Babək |
| 9 | Əliyev Bəhlul | 1929 | Sədərək | Sədərək |
| 10 | Əliyev Heydər | 1942 | Nehrəm | Babək |
| 11 | Əmirov Vəli | 1930 | Buzqov | Babək |
| 12 | Fərəcov Yaşar | 1959 | Gilançay | Ordubad |
| 13 | Fərzəliyev Əli | 1927 | Sirab | Babək |
| 14 | Həsənəliyev Ataxan | 1941 | Sirab | Babək |
| 15 | Həsənov Həsən | 1937 | Tivi | Ordubad |
| 16 | Qasımova Sona | 1927 | Sirab | Babək |
| 17 | Qasımova Zeynəb | 1939 | Kükü | Şahbuz |
| 18 | Qoçəliyeva Məleykə | 1955 | Göynük | Culfa |
| 19 | Qələnədrov Aman | 1935 | Ərəfsə | Culfa |
| 20 | Cəfərov Bulud | 1934 | Keçili | Şahbuz |
| 21 | Dünyamalıyev | 1935 | Keçili | Şahbuz |

| | | | | |
|---|---|---|---|---|
| 22 | Muradov Seyyub | 1932 | Vərməziyar | Kəngərli |
| 23 | Səyavuş Hüseynov | 1939 | Nəhəcir | Culfa |
| 24 | Şərəbanı Tağıyeva | 1948 | Muğanlı | Şərur |
| 25 | Novruz Cəfərov | 1948 | Tivi | Ordubad |
| 26 | Mamedova Küsün | 1936 | Qahab | Babək |
| 27 | Hacı Qasım | 1950 | Qahab | Babək |
| 28 | Məşədi Bəhlul | 1948 | Qahab | Babək |

## ƏDƏBİYYAT


1. "Kitabi-Dədə Qorqud". Bakı: Yazıçı, 1988
2. Azərbaycan etnoqrafiyası. II cild. Şərq-Qərb, Bakı: 2007, 381 s.
3. Hacı Qadir Qədirzadə. "Ailə və məişətlə bağlı adətlər, inamlar, etnogenetik əlaqələr". Bakı: Elm, 2003, 367 s.
4. Cavadov Qəmərşah, Hüseynov Rauf. Udinlər (tarixi etnoqrafik tədqiqat). II nəşr. Bakı: Elm, 1999, 256 s.
5. H.A.Quliyev. Azərbaycanda ailə məişətinin bəzi məsələləri. Bakı: 1986
6. F.Xəlilov. Adət və ənənələr. Bakı: 1986,95 s.
7. М.Атакишиев. Семейный быть азербайджанцев в прошлом и настояшем. М.: 1953
8. Г.Гейбуллайев. Семейный быть азербайджанцев. Баку: 1964
9. Q.Qeybullayev. Azərbyacanda endaqom nigahlar haqqında. Azərbaycan etnoqrafik məcmuəsi. Bakı: 1977
10. М.Г.Косвен. Этнография и история Кафказа. М.: 1964
11. Muxtar Respublikada rayon və kəndlərində 2018-2020-ci illərdə aparılan şəxsi etnoqrafik tədqiqat


## SUMMARY

**Ismayıl Zeynalov**

### UNTIL THE 80S OF THE XX CENTURY WEDDING TRADITIONS AND TRADITIONS (Based on Nakhchivan materials)


There is no area of one's life, whether public or private, that is not connected with family and household traditions. Because when a person is born, he grows up in a family, which is one of the forms of organization of society, and acquires knowledge, skills and habits.

From this point of view, in the Nakhchivan region, which is an integral part of Azerbaijan, in the 20s and 80s of the XX century, the wedding customs, one of the family traditions, attracts attention and its ethnographic study is of special importance.

It is from this point of view that the article clarifies the issues related to the wedding process, from the beginning of wedding customs, such as "engagement", to "preaching", "embassy", "engagement" and the course of the wedding, based on both existing literature and ethnographic research. effort has been shown.


***Key words:*** *custom, tradition, girl liking, embassy, April wedding, wedding, wedding palace, trumpet-balaban*

## РЕЗЮМЕ

**Исмаил Зейналов**

### ДО 80-Х ГГ. XX ВЕКА СВАДЕБНЫЕ ТРАДИЦИИ И ТРАДИЦИИ (По материалам Нахчывана)


Нет сферы жизни человека, общественной или частной, которая не была бы связана с семейно-бытовыми традициями. Потому что когда человек рождается, он растет в семье, которая является одной из форм организации общества, и приобретает знания, умения и навыки.

С этой точки зрения, в Нахчыванском крае, являющемся неотъемлемой частью Азербайджана, в 20-х и 80-х годах XX века свадебные обычаи, одна из семейных традиций, привлекают внимание и особое значение имеет их этнографическое изучение.

Именно с этой точки зрения в статье разъясняются вопросы, связанные со свадебным процессом, от начала свадебных обычаев, таких как «помолвка», до «проповеди», «посольства», «помолвки» и хода свадьбы, основанные как на существующей литературе, так и на этнографических исследованиях.

***Ключевые слова:*** *обычай, традиция, девичья симпатия, посольство, апрельская свадьба, свадьба, дворец бракосочетания, труба-балабан*

---

***Məqaləni çapa təqdim etdi:*** *AMEA-nın müxbir üzvü Zəhmət Şahverdiyev*
***Məqalə daxil olmuşdur:*** *4 noyabr 2021-ci il*
***Çapa qəbul edilmişdir:*** *2 dekabr 2021-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2021, № 2 (111), 36-41
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2021, № 2 (111), 36-41
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2021, № 2 (111), 36-41

**ABDULLA MUSTAFAYEV**
*mustafayevabdulla78@gmail.com*
**RUHİYYƏ RZAYEVA**
*ruhiya.rzayeva@mail.ru*
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 94(479.24)**

# QƏRBİ AZƏRBAYCANDA ETNO-SİYASİ PROSESLƏR VƏ ERMƏNİ EKSPANSİANİZMİNİN BAŞLANMASI

*Məqalədə çar Rusiyası tərəfindən İran və Türkiyə ərazisindən ermənilərin məqsədli şəkildə köçürülərək qədim Azərbaycan torpaqlarında yerləşdirilmələrindən sonra xalqımıza qarşı həyata keçirdikləri soyqırım siyasətindən bəhs edilir. Qeyd olunur ki, I Pyotrun hakimiyyəti dövründən başlayaraq ermənilərin Azərbaycan torpaqlarında yerləşdirilməsi prosesinə başlanılmış, bu iş sonralar daha da geniş xarakter almışdır. Məqalədə haqlı olaraq göstərilmişdir ki, çar hökuməti erməniləri qədim Azərbaycan torpaqlarında kompakt şəkildə yerləşdirməklə özünün müstəmləkə siyasətinin əsas məqsədini, yəni dil, din, etnik-mədəni cəhətdən ona yad olan bir ölkədə öz gələcək hökmranlığını təmin etmək üçün etno-konfissional dayaq yaratmaq məqsədini reallaşdırmağa çalışmış və buna nail ola bilmişdi. Məqalədə rus müəlliflərinin əsərlərinə istinad edilərək ermənilərin Azərbaycan torpaqlarında yerləşdirilməsi dinamikası araşdırılmışdır.*

***Açar sözlər:*** *Cənubi Qafqaz, etnik təmizləmə, Azərbaycanlıların soyqırımı, Rusiya-İran müharibəsi, Rusiya-Türkiyə müharibəsi, İrəvan vilayəti, köçürmə komitəsi, Türkmənçay sülhü*

XX əsrin əvvəllərində Azərbaycan xalqının sonrakı taleyinə təsir göstərmiş mühüm hadisələr baş verdi. Məhz bu dövrdə Cənubi Qafqaz bölgəsində gələcək millətlərarası münaqişələrin birinci mərhələsi başlandı. Apogeyin 1905-1907-ci illərə təsadüf edən etnik təmizləmə və soyqırımı zamanı Cənubi Qafqazda siyasi hakimiyyəti ələ almaq və hegemonluğa nail olmaq niyyətini güdən silahlı erməni quldurları minlərlə Azərbaycan türkünə divan tutmuş, onları öz doğma torpaqlarından qovmağa cəhd göstərmişdilər. “Azərbaycanlıların soyqırımı haqqında” Azərbaycan Respublikası Prezidentinin 26 mart 1998-ci il tarixli fərmanında qeyd edildiyi kimi, “Böyük Ermənistan” yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki azərbaycanlılar yaşayan kəndləri əhatə etdi” (1, 1998, 27 mart).

Aydındır ki, Azərbaycan xalqının həmin dövrdə rastlaşdığı fəlakətlər yalnız bir neçə ay, hətta bir-iki ilin ərzində cərəyan edən hadisələrin nəticəsi deyildi. Bu qanlı hadisələrin arxasında onilliklər boyu ermənilərin Azərbaycanın tarixi torpaqlarına, zəngin təbii sərvətlərinə hakim olmaq, ərazilərimizi işğal etmək istəkləri dayanırdı.

Cənubi Qafqazın, o cümlədən Azərbaycanın işğalına başlayarkən Rusiya imperiyası ermənilərə böyük ümidlər bəsliyirdi. Ermənilərin Qafqazda müsəlman torpaqlarında yerləşdirilməsi xətti I Pyotrun vaxtında götürülmüşdü və onun Qafqaz siyasətinin əsas tərkib hissələrindən biri idi. 1724-cü ildə Bakıya general Matyuşkinə və Levaşevə göndərilən fərmanda deyilirdi: “Bütün vasitələrlə ermənilər və başqa xristianları Rusiya qoşunlarının tutduqları İran vilayətlərinə: Gilan, Mazandaran, Bakı, Dərbənd və digər əlverişli yerlərə köçməyə çağırmaq lazımdır, onları nəvazişlə qəbul etmək, lütfkarlıqla saxlayıb qorumaq, onlara yaxşı yerlərdə əlverişli torpaq ayırmaq, şəhər və kəndlərdə boş olan evləri və avadanlıqları onlara vermək lazımdır. Düşmənçilik edən, yaxud şübhə doğuran

müsəlmanları qovub rədd edin, onların yerini xristianlar tutsun" (2, I hissə, 67-68).

XIX əsrin əvvəllərində rusların Türkiyə və İranla apardığı uğurlu müharibələr I Pyotrun strateji planlarını reallaşdırmağa şərait yaratdı. Cənubi Qafqazı xristian əhali ilə məskunlaşdırmaq üçün ruslar hələ əsrin ilk illərində köçürmə kompaniyasına başlamışdılar. Köçürülmə işinə bilavasitə Qafqazdakı rus qoşunlarının baş komandanı general P.Sisyanov başçılıq edirdi. 1803-cü ildə çar hökumətinin Rusiyaya köçmək təklifinə cavab olaraq Bəyazit erməniləri yazırdılar: İrəvan rus ordusu tərəfindən tutulduqdan sonra bütün ermənilər Rusiyanın himayəsi altına keçərək İrəvan əyalətinə köçməyə hazırdılar (3, t 111, 631, dok. 1265).

Rusiya-İran (1826-1828) və Rusiya-Türkiyə (1828-1929) müharibələrinin uğurla başa çatması ilə ermənilərin Cənubi Qafqaza köçürülməsi üçün geniş imkanlar açıldı.

Rusların Azərbaycan torpaqlarının, xüsusən İrəvan və Naxçıvan xanlıqlarını işğal etməsində ermənilər xüsusi fəallıq göstərmişdilər. Erməni kilsəsi, arxiyepiskop Nerses rus qoşunlarının canlı qüvvə, ərzaq və silahla təchiz edilməsində bilavasitə iştirak edirdi. (4, XIX-XXIII).

Erməni silahlı dəstələri hərbi əməliyyatlarda rus qoşunlarının tərkibində çıxış edirdilər.

1828-ci ilin fevralın 29-da general Paskeviç göstəriş verdi ki, ermənilər başlıca olaraq İrəvan və Naxçıvan vilayətlərində və qismən Qarabağda yerləşdirilsin, bir sıra müsəlman kəndləri dindaşlarının ən çox məskunlaşdığı yerlərə köçürülsün və həmin yerlər ermənilərə verilsin (5, 103). Əslində bu azərbaycanlıları öz doğma torpaqlarında deportasiya edilməsinə istiqamət verilməsi demək idi. Veliçkonun yazdığı kimi bu göstəriş, Zaqafqaziyanın bəzi hissələrinin ermənilər tərəfindən müstəmləkələşdirilməsinin başlanması idi (6,123). Paskeviçin başqa bir direktivi belə idi: Xristianları Naxçıvan və İrəvan vilayətlərinə getməyə razı salmaq lazımdır. Bu vilayətlərdə xristian əhalisini nə qədər mümkündürsə, çoxaltmaq lazımdır (5, 103). Erməniləri Azərbaycan torpaqlarında kompakt şəkildə yerləşdirməklə, Rusiya özünün müstəmləkə, imperiya siyasətinin əsas məqsədini-işğal edilmiş, din, dil, etnik-mədəni cəhətdən ona yad bir ölkədə öz gələcək hökmranlığı üçün etno-konfissional dayaq yaratmaq məqsədini reallaşdırmağa çalışırdı. Qarşıya qoyulmuş məqsədi həyata keçirmək üçün xüsusi köçürmə komitəsi təşkil edilmiş, bu komitəyə ermənilərdən ibarət "ayrıca dairələr və mahallar yaratmaq" tapşırığı verilmişdi (7, 159).

Ermənilərin Cənubi Qafqaza köçürülməsinin əsas təşəbbüskarı A.S.Qriboyedov, bu işə bilavasitə rəhbərlik edən isə erməni əsilli rus polkovniki X.E.Lazarev idi (3, t. VII, s.603, sənəd 501).

1828-ci ilin fevralın 10-da Türkmənçay sülhünün bağlanması ilə 1826-1828-ci illər Rusiya-İran müharibəsinə son qoyuldu. Bu müqavilə ilə İrəvan və Naxçıvan xanlıqları Rusiyanın ərazisinə qatıldı. Martın 20-də çar I Nikolay bu müqaviləni təsdiq etdi və ertəsi gün həmin ərazilərdə "Erməni vilayəti"nin yaradılması haqqında fərman verdi (3, I hissə, 178-179). Yeni yaradılmış inzibati ərazi İrəvan və Naxçıvan əyalətlərindən və Ordubad dairəsindən ibarət idi.

1829-cu ildə Paskeviçin göstərişi ilə İ.Şopen yeni yaradılmış vilayətdə kameral siyahıyaalma keçirdi. Siyahıyaalmaya görə İrəvan vilayətində 521 kənd (Naxçıvanda 179, Ordubad dairəsində 52) mövcud idi. Müharibə nəticəsində vilayətin ərazisində 359 kənd, o cümlədən İrəvan əyalətində 310, Naxçıvan əyalətində 42, Ordubad dairəsində isə 6 kənd dağıdılmış, əhalisi qaçqın düşmüşdü (8, 442-446). Siyahıyaalmanın nəticələrinə görə, vilayətdə 81.749 müsəlman və 25.131 erməni qeydə alınmışdı. Siyahıyaalmanın üstün cəhəti onda idi ki, İrandan və Türkiyədən köçürülən ermənilərin sayı və onların hansı yaşayış məntəqələrində məskunlaşdırılması dəqiq göstərilmişdi. Belə ki, 1828-1829-cu illər ərzində İrandan Şimali Azərbaycana köçürülmüş ermənilər 6.946 ailə və 35.560 miqrant təşkil edirdi. (8, 539). Köçürülən ermənilərdən 23.568 nəfər (8599 ailə) İrəvan əyalətinin 129 kəndində, 10.562 nəfər (2137 ailə) Naxçıvan əyalətinin 61 kəndində, 1340 nəfər isə (250 ailə) Ordubad dairəsinin 12 kəndində yerləşdirildi. 1828-1829-cu illər Rusiya-Türkiyə müharibəsindən sonra vilayətin ərazisinə 21.666 nəfər erməni, 324 nəfər yezidi kürdü köçürüldü və onlar vilayətin 129 kəndində yerləşdirildi (8, 636-642).

Ermənilərin İrəvan vilayətinə köçürülməsi sonrakı illərdə də davam etdirilirdi.

Ümumiyyətlə, Türkmənçay və Ədirnə müqavilələrinin bağlanmasından sonra Erməni vilayətinə (İrəvan və Naxçıvan xanlıqlarına) 57.266 nəfər erməni köçürülmüşdü. Halbuki

köçürülmədən əvvəl həmin ərazidə cəmi 25.151 erməni yaşayırdı. Qalan əhalinin 81.749-u türk, 324-ü kürdlərdən ibarət idi (9, t.VIII, № I, 92). Kütləvi köçürmələrdən sonra ermənilər 82.397, müsəlmanlar isə 81.749 nəfər təşkil edirdi (8, 642). Beləliklə, keçmiş İrəvan quberniyası ərazisində ermənilər ilk dəfə olaraq sayca üstünlük qazanmışdılar. Göstərilən ərazilərdə türk-müsəlman əhalisinin üstünlük təşkil etdiyini erməni müəllifləri də təsdiq edirlər. V.A.Parsamyan rus işğalına qədər Qafqaz Ermənistanının etnik tərkibindən danışarkən göstərirdi ki, oradakı 169 min əhalinin 57.368 (34 %) ermənilər, 84.500 (50 %) türklər, 27.040 (16%) kürdlər təşkil edirdi (10, 12). Q.Qaloyan isə XIX əsrin əvvəllərində İrandan Rusiya sərhədləri daxilinə 40 min, Türkiyədən 90 min erməninin köçürüldüyünü qeyd edir (11,12). Göründüyü kimi, erməni müəllifləri də Cənubi Qafqazda erməni əhalisinin sayının mexaniki hərəkət (köçürülmə) sayəsində artdığını etiraf edirlər.

İlk mənbələrdə ermənilərin Naxçıvan əyalətində və Ordubad dairəsində məskunlaşdırılması haqqında da dəyərli məlumatlar vardır. Yuxarıda qeyd edildiyi kimi oraya İrandan 13.632 erməni (2.558 ailə) köçürülmüşdü (12, 125-127). Rusiyanın işğalına qədər Naxçıvan və Ordubadda cəmi 434 erməni ailəsinin yaşadığını nəzərə alsaq (12, 31), nəticədə Naxçıvan əyalətində ermənilərin xüsusi çəkisinin 7 dəfə artdığını (2.992 ailə) (590 %) görərik.

Bütün bunlar ermənilərin Cənubi Qafqaza, ilk növbədə Azərbaycana kütləvi və məqsədəuyğun şəkildə köçürülməsinin başlanğıcı idi. Bölgədə etnik-dini şəraitin dəyişdirilməsinə yönəldilmiş rus müstəmləkə siyasətinin praktik surətdə həyata keçirilməsi prosesi fasiləsiz olaraq XX əsrin əvvələrinə qədər getmiş, Sovet dövründə bu siyasət daha incə formada davam etdirilmişdi. Bunu rus müəllifləri Dubrovin, Ezov, Qriqoryev, Veliçko, Qriboyedov, Şavrov və başqaları da təsdiq edirdilər.

N.Şavrov Rusiyanın Cənub Qafqazdakı müstəmləkəçilik siyasəti haqqında yazırdı: "Biz müstəmləkəçilik fəaliyyətimizə Zaqafqaziyada rusların deyil, bizə yad olan xalqların yerləşdirilməsindən başladıq. 1828-ci ildən 1830-cu ilədək Zaqafqaziyaya 40 min İran və 84 min Türkiyə ermənilərini köçürmüş və onları Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı dövlət torpaqlarında yerləşdirmişdik ki, orada erməni əhalisi cüzi idi….Nəzərə almaq lazımdır ki, 124 min rəsmi köçürülən ermənilərlə yanaşı, qeyri-rəsmi köçənlər də çoxdur və ümumiyyətlə, köçənlərin sayı 200 min nəfərdən artıqdır". (13,63).

XIX əsrin II yarısında ermənilərin Cənubi Qafqaza miqrasiyası daha da sürətləndi. 1853-56-cı illər Krım, 1877-1878-ci illər rus-türk müharibələri bu prosesə təkan verdi. 1873-cü ilin göstəricilərinə görə, İrəvan quberniyasında 221.191 erməni, 1886-cı ildə 375.700, 1897-ci ildə 439.926 erməni var idi. XX əsrin əvvəllərində də quberniyada onların sayı artmaqda davam etmiş və 1917-ci ildə 669.871 nəfər təşkil etmişdi (14, T.2, 160-170; 15, 533; 16, 58-59; 17, s.1, iş.232, v.9-10).

Y.Veydenbaumun məlumatına görə XIX əsrin II yarısında quberniyanın əhalisinin 67,4%-ni artıq ermənilər təşkil edirdi (18, 78).

Azərbaycanın digər bölgələrində də ermənilərin sayı mexaniki surətdə artmış, süni xarakterli "demoqrafik partlayış" baş vermişdi. N.Şavrov yazır ki, ermənilərin köçməsi 1893-1894-cü illərdə Türkiyədəki erməni ixtişaşlarından sonra daha da genişlənmiş və Q.Qolitsinin 1897-ci ildə Qafqaza canişin təyin olunmasına qədər gəlmə ermənilərin sayı artıq 1884-cü ildəki kimi 100 min deyil, 900 minə yaxın idi. Onların hamısı rus təbəəliyini qəbul etmiş və əvvəllər buraya köçürülmüş erməni əhalisinin içində itib-batmışdılar. N.Şavrov qeyd edir ki, XX əsrin əvvəllərində Zaqafqaziyada yaşayan 1.300 min erməninin 1 mln-dan çoxu yerli ermənilər deyil, rusların vasitəsilə məskunlaşmış ermənilərdir. (13, 63-64).

Beləliklə, rusların simasında möhkəm arxa tapan ermənilər hər vasitə ilə Cənubi Qafqazda hakim millətə çevrilmək üçün çalışırdılar. Rus ordusunda və Qafqaz administrasiyasında çalışan Lazerev, Loris-Melikov, Qukasov, Mədətov, Behbudov, Ter-Qukasov və başqa erməni generalların və məmurların sayəsində onlar istədiklərinin çoxusuna nail ola bilmişdilər. Ermənilərin kütləvi sürətdə Azərbaycan torpaqlarına köçürülməsi, İrəvan və Naxçıvan xanlıqlarının ərazilərində qondarma erməni vilayətinin yaradılması və Rusiya çarının çoxsaylı titullarına onun erməni vilayətinin hakimi titulunun də əlavə edilməsi artıq Qafqazda güclü bir erməni ekspansiyasının

başlanmasının ilk əlamətləri idi.

V.Veliçkonun qeyd etdiyi kimi, ermənilər diyarda real qüvvəyə çevrilmiş, ermənilərin tuzları (nüfuzlu adamları-M. A.) maneəsiz olaraq bütün həyat mənbələrini-bazarları, bankları hətta qulluqçu insanların taleyini öz əllərinə keçirmiş və tam cəzasızlıqdan sui-istifadə edirlər. Ermənilərin Qafqazda azğınlığı o dərəcəyə çatmışdı ki, hətta V.Veliçko "Qafqazın erməniləşdirilməsinə qarşı radikal ölçülər götürmək zəruriliyindən" bəhs etmişdi. (19, 59).

Çar hakimiyyət orqanlarının bilavasitə havadarlığı ilə köçmə ermənilər yerli azərbaycanlıları sıxışdırmağa başladılar. Qriboyedovun özü etiraf edirdi ki, "müsəlman mülkədarlarının torpaqlarında yerləşdirilmiş" erməni köçkünləri müsəlmanları sıxıntılı vəziyyətə salır və müsəlmanlar ehtiyat edirlər ki, ermənilər bir dəfə buraxıldıqları torpaqlara həmişəlik yiyələnəcəklər (20, 54).

Onun dedikləri həqiqət oldu. Gəlmə ermənilərin məskunlaşdırıldığı ərazilərdən azərbaycanlı əhalinin sistematik şəkildə sıxışdırılıb çıxarılmasına başlanıldı.

İndiki Ermənistan ərazisindən Azərbaycan türklərinin ilkin deportasiyası XIX əsrin ilk əvvəllərində - Rusiyanın Cənubi Qafqazı ilhaqına başlaması ilə üst-üstə düşür.

Ruslara tabe olmaqdan imtina edən Pəmbək türkləri Rəhimbəy və Səid bəyin başçılığı ilə bölgəni tərk edərək Qars paşalığına sığınmağa məcbur olmuşdular (**3**, II cild, 1867-1869 sənədlər).

Rus qoşunları Şörəyeli tutduqdan sonra həmin ərazidə yaşayan yerli qarapapaq tayfasının bir hissəsi (təqribən 26 ailə) də Qarsa mühacirət etməli olur (3, III cild, 437-ci sənəd). I Rusiya-İran müharibəsi nəticəsində Şörəyelin kəndləri dağıdılmış, əhalisi isə qaçqın düşmüşdü. Sonralar həmin kəndlərdə Türkiyədən gələn ermənilər məskunlaşmışdı (3, IV cild 1442 və 681-ci sənədlər). Müharibə dövründə 500 ailəlik İrəvan azərbaycanlılarının Qarsa köçməsi haqqında məlumat mövcuddur (3, III cild, sənəd 917).

Rus ordusu İrəvan xanlığını zəbt etdikdən sonra həmin ərazidə yaşayan köklü türk əhalisinin bir hissəsi məcburi olaraq öz doğma torpaqlarını tərk edərək Türkiyə və İrana köçməli oldular. Paskeviçin Qraf Nesselorda göndərdiyi 27 iyul 1828-ci il tarixli məktubunda qeyd edilirdi ki, Qarapapaq tayfasından 100 ailə, ayrımlardan 300 ailə Qarsa, Uluxanlı tayfasından 600 ailə Bəyazidə, müsəlman cəlalı kürdləri Muşa qaçmışdır. Qarapapaqlardan digər 800 ailə isə Arazı keçərək Həsən xanın (İrəvan xanı Hüseyn xanın qardaşı) dəstəsinə qoşulmuşlar. Onlarla birgə 700 ailədən ibarət Cəmədinli kürdləri, 400 ailə birukilər, 400 ailə dovmanlılar, 200 ailə çobankərəlilər, 1000 ailə zilanlı kürdü Türkiyəyə keçmişdilər. (3, VII cild, sənəd 512.)

Ümumiyyətlə, 1826-1828-ci illər Rus-İran və 1828-29-cu illər Rus-Türk müharibələri nəticəsində İrəvan və Naxçıvan xanlıqlarının ərazisindən yerli müsəlman əhalisinin xeyli hissəsi qaçqın düşmüş, orada yalnız 81.749 nəfər (17078 ailə) müsəlman qalmışdı (8, 642).

Ermənilər Azərbaycan torpaqlarına köçürüldükdən sonra əhalinin 80 %-ni təşkil edən yerli azərbaycanlıların İrəvan quberniyasında (1849-cu ildən) sayı getdikcə azalır və onlar burada azlığa çevrilirlər. Məsələn, təmiz Azərbaycan türklərindən ibarət Kavar kəndi 1830-cu ildən sonra Bəyaziddən gəlmiş ermənilərin hesabına məskunlaşdırılır və o Yeni Bəyazid adını alır. XIX əsrin 50-ci illərində burada 2.560 erməni yaşayırdı. Yeni yaradılmış Yeni Bəyazid qəzasında 23.038 erməni, 8.207 (36 %) azərbaycanlı yaşayırdı (15, na 1855 q., otd. III, 412-413). Oxşar şərait Aleksandropol qəzasının Pəmbək, Şorayel sahələrində də yaranmışdı. Beləliklə, keçmiş İrəvan xanlığının ərazisində yerli azərbaycanlılarla gəlmə ermənilərin nisbəti sonuncuların xeyrinə dəyişməyə başlamışdı.

İ.Şopenin göstərdiyinə görə, İrəvan əyalətində 2.984 müsəlman ailəsindən cəmi 847 (28%) qalmış, onların sayı təqribən 3 dəfə azalmışdı. Onlar, əsasən, qonşu dövlətlərə-Türkiyə və İrana köçmüşdülər (8,541). Əlbəttə, müsəlmanların İrəvan quberniyasından mühacirəti təkcə qonşu dövlətlərə deyildi. Ermənilərin üstünlük təşkil etdiyi ərazilərdən köçən azərbaycanlılar, əsasən, müsəlmanların çoxluq təşkil etdiyi qonşu vilayətlərə-Yelizavetpol, Bakı quberniyalarına köçməli olurdular (21, 224).

## ƏDƏBİYYAT


1. “Azərbaycanlıların soyqırımı haqqında” Azərbaycan Respublikası Prezidentinin 26 mart 1998-ci il tarixli Fərmanı / “Azərbaycan” qəzeti, 27 mart 1998- ci il.
2. Butkov P.Q. Materialı dlya novoy istorii Kavkaza s 1722 po 1803 qod, I çast, SPb, 1869. 620 s.
3. Aktı, sobrannıe Kavkazskoy Arxeoloqiçeskoy Komissey (AKAK), Tiflis: 1867-1888 qq.
4. Ezov Q. Snoşenie Petra Velikoqo s armyanskim narodom. Dokumentı, SPb., 1898, 509 s.
5. Qlinka S. Opisanie pereselenie armyan azerbaydjanskix v predelı Rossii. M., 1831, Baku: Elm, 1990, 144 s.
6. Veliçko V. Kavkaz. Russkoe delo i mejduplemennıe voprosı.Baku: Elm, 1990, 244, s.
7. Sobranie aktov, otnoşenie k obozrenie istorii armyanskoqo naroda, t.II, M., 1832, 504 s.
8. Şopen İ. İstoriçeskiy pamyatnik sostoyanie armyanskoy oblasti v epoxu ee prisoedinenie k Rossiyskoy imperii, SPb., 1852, 1231 s.
9. Eriçov A. Dannıe ob armyanskom naselenii v Rossii. İzvestiya KOİRQO, tom VII, Tiflis: 1881, 62-71 s.
10. Parsamyan V. İstoriya armyanskoqo naroda. Erevan: 1972, 393 s.
11. Qaloyan Q. İstoriçeskie korni russkoy orientaçii armyanskoqo naroda i proqressivnoe znaçenie prisoedineniya Vostoçnoy Armenii k Rossii. Voprosı istorii, M.: 1972, №8. s. 47-66.
12. Qriqorğev V. Statistiçeskoe opisanie Naxiçevanskoy provinçii. SPb., 1833, 204 s.
13. Şavrov N. Novaya uqroza russkomu delu v Zakavkazye, predstoyaşaya rasprodaja Muqani inostranşam. SPb., Baku: 1990, 156 s.
14. Svod statistiçeskix dannıx o naselenii Zakavkazskoqo kraya, izvestnıe iz posemeynıx spiskov 1886 qoda. Tiflis: 1893, 277 s.
15. Kavkazskiy kalendar. 1855-1906 qq., Tiflis: 1905 q.
16. Daşnaki. İz materialov departamenta poliçii. Baku: 1990, 39 s.
17. Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi, f.1009.
18. Nəsiman Y. Məmməd Əmin Rəsulzadə. Bakı: Gənclik 1991, 308 s.
19. Veliçko V. Kavkaz. Russkoe delo i mejduplemennıe voprosı. Baku: Elm, 1990, 244, s.
20. Qriboedov A. Zapiska o pereselenii armyan iz Persii v naşi oblasti. İstoriya Azerbaydjana po dokumentam i publikaçiyam. Baku: Elm, 1990, s. 56-59.
21. Obozrenie russkix vladeniy za Kavkazom, ç.1 Spb. 1903, 401 s.


## SUMMARY


**Abdulla Mustafayev**
**Ruhiyya Rzayeva**


### ETHNO-POLITICAL PROCESSES IN WESTERN AZERBAIJAN AND THE BEGINNING OF ARMENIAN EXPANSIONISM


The article discusses the policy of genocide pursued by Tsarist Russia against our people after the deliberate deportation of Armenians from Iran and Turkey to the lands of ancient Azerbaijan.

It is noted that the process of resettlement of Armenians in the Azerbaijani lands began during the reign of Peter I, and later this work became even more widespread.

The article rightly states that the tsarist government, by compactly settling Armenians in the lands of ancient Azerbaijan, sought to achieve the ultimate goal of its colonial policy to ensure its future domination in a country that was foreign to it in terms of language, religion, ethnicity and culture.

The article studies the dynamics of the settlement of Armenians in Azerbaijan with reference to the works of Russian authors.

**Key words:** *South Caucasus, ethnic cleansing, genocide of Azerbaijanis, Russian-Iranian war, Russian-Turkish war, Irevan region, Resettlement Committee, Turkmenchay world*

**РЕЗЮМЕ**

**Абдулла Мустафаев**
**Рухия Рзаева**

**ЭТНОПОЛИТИЧЕСКИЕ ПРОЦЕССЫ В ЗАПАДНОМ АЗЕРБАЙДЖАНЕ И НАЧАЛО АРМЯНСКОГО ЭКСПАНСИОНИЗМА**

В статье говорится о политике геноцида, проводимой царской Россией против нашего народа после целенаправленного переселения армян с территории Ирана и Турции и их размещения на землях древнего Азербайджана. Отмечается, что со времен правления Петра I начался процесс расселения армян на азербайджанских землях, который впоследствии приобрел еще более широкий характер. В статье справедливо указано, что, компактно поселив армян на землях древнего Азербайджана, царское правительство стремилось и смогло реализовать малую цель своей колониальной политики, то есть создать этноконфессиональную опору для обеспечения своего будущего господства в чуждой ему в языковом, религиозном, этнокультурном отношении стране. В статье исследована динамика расселения армян на азербайджанских землях со ссылкой на произведения русских авторов.

**Ключевые слова:** *Южный Кавказ, этническая чистка, геноцид азербайджанцев, русско-иранская война, Русско-турецкая война, Иреванская область, Комитет по переселению, Туркменчайский мир*

---

***Məqaləni çapa təqdim etdi:*** *AMEA-nın müxbir üzvü Zəhmət Şahverdiyev*
***Məqalə daxil olmuşdur:*** *4 noyabr 2021-ci il*
***Çapa qəbul edilmişdir:*** *2 dekabr 2021-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2021, № 2 (111), 42-45
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2021, № 2 (111), 42-45
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2021, № 2 (111), 42-45

**ARZU ABDULLAYEV**
*Naxçıvan Dövlət Universiteti*
*a.ordubadi@yahoo.com*

**UOT: 94(479.24)**

# BİR ƏSRLİK TARİX: QARS MÜQAVİLƏSİ

*Böyük güclərin hərbi-siyasi müdaxilələri və erməni təcavüzü nəticəsində 1918-1920-ci illərdən etibarən Azərbaycanın əsas ərazisindən ayrı salınması Naxçıvanın muxtariyyəti uğrunda mübarizənin əsasını təşkil edir. Sovet Rusiyası ilə Türkiyə arasında bağlanmış Moskva və Sovet Rusiyası nümayəndəsinin iştirakı ilə Türkiyə ilə üç Cənubi Qafqaz respublikası arasında bağlanmış Qars müqaviləsi Naxçıvanın Azərbaycanın tərkibində saxlanması və muxtariyyət verilməsi məsələsini təsbit etmişdir. Beləliklə, Moskva və Qars müqavilələri Naxçıvanın statusu və tabeçiliyi məsələsini beynəlxalq müqavilələrlə tam şəkildə həll etdi. Qars beynəlxalq müqaviləsi ilə Naxçıvan vilayəti Azərbaycanın tərkibində muxtar ərazi statusu əldə etdi.*

***Açar sözlər:*** *Qars müqaviləsi, ərazi, vilayət, status, Cənubi Qafqaz, muxtariyyət, Sovet Rusiyası.*

Tarix boyu həmişə Naxçıvan – Azərbaycan dövlətçiliyinin əsas mərkəzlərindən biri olmuşdur. Burada dövlətçilik ənənəsinin çoxəsirlik tarixi vardır. Atabəylər dövləti – Naxçıvan bəylərbəyliyi, Naxçıvan sancağı, Naxçıvan xanlığı, Naxçıvan mahalı, Araz-Türk Respublikası, Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, nəhayət, Naxçıvan Muxtar Respublikası kimi dövlət qurumlarının mövcud olması Azərbaycanın bu qədim diyarında dövlətçilik təfəkkürünün həmişə qüvvətli olmasını şərtləndirmişdir (Red. H. Hacıyev, Həbibbəyli və s. 2015, 16).

Böyük dağıdıcı proseslərin getdiyi, milyonlarla insanın məhv edildiyi Birinci Dünya müharibəsindən sonra Cənubi Qafqazda da mürəkkəb vəziyyət yaranmışdı. Güc mərkəzlərinin bir-birinə güzəştə getməmək şərti ilə daha çox nüfuz dairəsinə malik olması, gələcək planlarını reallaşdırmaq üçün daha çox strateji əraziləri ələ keçirmək planları üz-üzə gəlmişdi. Belə taleyüklü hadisələrdən biri də indi öz əhəmiyyətini hər zamankından daha artıq şəkildə göstərən, bir zamanlar əlçatmaz xəyal kimi görünən, amma Azərbaycanın işğalçı Ermənistan üzərində şanlı Qələbəsi ilə gündəmə gələn Qars müqaviləsinin 1921-ci ildə imzalanması olmuşdu.

Uzun əsrlər boyu Naxçıvan Azərbaycanın əsas ərazisindən ayırmaq, torpaqlarını ələ keçirmək uğrunda müxtəlif cəhdlər olmuşdur. Bu cəhdlər XIX əsrdən etibarən daha da fəllaşmış nəhayət XX əsrin əvvəllərindən real təhlükəyə çevrilmişdir. Böyük güclərin hərbi-siyasi müdaxilələri və erməni təcavüzü nəticəsində 1918-1920-ci illərdən etibarən Azərbaycanın əsas ərazisindən ayrı salınması Naxçıvanın muxtariyyəti uğrunda mübarizənin əsasını təşkil edir. Qafqazda suni şəkildə Ermənistan dövləti yaratmaq ideyası da bu regionda Naxçıvanı, Azərbaycan torpağı kimi qoruyub saxlamaq üçün muxtariyyət statusuna malik olmağı ön mövqeyə çıxarmışdır (Atnur 2013,8-9). Naxçıvanın muxtariyyət statusu qazanmağı bu regionun Azərbaycanın tərkibində qalmasının qarantı idi. XX əsrin əvvəllərinin mürəkkəb ictimai-siyasi şəraitində yerli əhalinin təşəbbüsü ilə 1918-ci ildə Araz-Türk Respublikasının yaradılması və fəaliyyəti Naxçıvanın muxtariyyətinə doğru atılmış tarixi addımdır. Qısa müddətdə fəaliyyət göstərməsinə baxmayaraq, Araz –Türk Respublikası yerli əhalini öz ətrafında birləşdirmiş, erməni işğalının qarşısını almaq üçün möhkəm müdafiə cəbhəsi yaratmağa müvəffəq olmuşdur. 1919-1920-ci illərin bir çox gərgin təcavüzündən özünü qoruya bilmiş Naxçıvan Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından sonra da yenidən Ermənistan təhlükəsi ilə üzləşmişdir (Hacıyev 1994,19-21).

Sovet Rusiyası ilə Türkiyə arasında bağlanmış Moskva müqaviləsi ilə Cənubi Qafqaz respublikaları arasında mübahisəli olan bir çox məsələlər öz hüquqi həllini tapdı. Bundan sonra Rusiya çalışırdı ki, Cənubi Qafqaz respublikaları ilə Türkiyə arasında vahid müqavilə imzalansın. Lakin Türkiyə

istəyirdi ki, üç Cənubi Qafqaz respublikası ilə ayrı-ayrılıqda müqavilə imzalasın. Aparılan diplomatik danışıqlar və yazışmalardan sonra Türkiyə ilə üç Cənub Qafqaz respublikası arasında Rusiya nümayəndəsinin iştirakı ilə konfransın 1921-ci il sentyabrın 26-da Qars şəhərində keçirilməsi razılaşdırıldı. Qars konfransı 1921-ci il sentyabrın 26-dan oktyabrın 13-dək keçirildi (Musayev 1996,314). Qars danışıqları çox gərgin və prinsipial keçdi, tərəflər çoxlu mülahizə və təkliflərlə çıxış etdilər. Türkiyə nümayəndə heyəti üç Cənubi Qafqaz respublikası ilə ayrı-ayrılıqda müqavilə bağlamağı təklif etdi. RSFSR-in nümayəndəsi Y.Qanetski bir ümumi müqavilənin bağlanmasında israr edirdi və xeyli sayda dəlillər gətirirdi. Əslində isə Y.Qanetskinin gətirdiyi dəlillər Rusiyanın bu respublikaların xarici siyasətini ləğv etmək, özünə birləşdirmək, gələcəkdə isə vahid dövlət yaratmaq niyyətlərinə xidmət edirdi.

Sovet Rusiyası nümayəndəsinin iştirakı ilə Türkiyə üç Cənubi Qafqaz respublikası arasında 13 oktyabr 1921-ci ildə Qarsda müqavilə imzaladı. Müqavilə 20 maddə və 3 əlavədən ibarət idi. Bu müqavilənin bir sıra müddəaları Moskva müqaviləsinin müvafiq maddələri ilə uyğun idi. Ümumilikdə isə bu sənəddə qeyri-bərabər hüquqlu müqavilələr, zorla qəbul etdirilən müqavilələr və Sevr müqaviləsi rədd edilirdi. Müqavilə Qars və Batumun ərazi məsələləri üzrə bütün müddəalar kompleksini, nəqliyyat kommunikasiyalarının fəaliyyətini və vətəndaşların azad hərəkətinin təmin edilməsi, milli və dini mənsubiyyətindən asılı olmayaraq vətəndaş hüquqları məsələlərinin sarsılmazlığı kimi məsələləri əhatə edirdi. Onun xeyli hissəsi qaçqınlar probleminin nizamlanması və hərbi ərazilərin dəyişdirilməsi, razılığa gələn tərəflər arasında iqtisadi, mədəni və konsulluq əlaqələrinin əsas inkişaf istiqamətlərinin müəyyənləşdirilməsinə həsr edilmişdi (Hacıyev 2018,177-178).

Müqavilənin 5-ci maddəsi bilavasitə Naxçıvanın taleyi ilə bağlı idi. Burada yenə də Naxçıvanın Azərbaycanın tərkibində saxlanması və muxtariyyət verilməsi məsələsi təsbit olunmuşdu. Moskva müqaviləsindən fərqli olaraq, Qars müqaviləsinin 5-ci maddəsində Naxçıvanın statusu məsələsində razılığa gələn tərəflər müəyyən edilmişdi. Bunlar Türkiyə, Azərbaycan və Ermənistan hökumətləri olmuşdular. Müqavilənin bu maddəsində göstərilirdi ki, "Türkiyə hökuməti, Azərbaycan və Ermənistan Sovet Respublikaları müqavilənin III əlavəsində göstərilən sərhədlər daxilində Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsi haqqında razılığa gəlirlər" (Tər.ed. Hacıyev 1999,17). Naxçıvanın ərazisi müqavilənin III əlavəsində göstərilən sərhədlər daxilində müəyyən edilirdi: "(Naxçıvan ərazisi) Urmiya kəndindən (başlayır), oradan düz xətt ilə Arazdəyən stansiyasına (bu stansiya Ermənistan SSR-ə qalacaq), sonra düz xətt ilə Daşburun dağının (3142) qərbinə, oradan Daşburun dağının suayırıcısını (4108), Cəhənnəmdərəsi çayını, Bağırsaq dağının suayırıcısını (6607 və ya 6587) keçərək, "Rod." (Bulaq) yazısının cənubundan keçmiş İrəvan və Şərur-Dərələyəz qəzalarının inzibati sərhədləri ilə gedərək, 6629 yüksəkliyindən Kömürlüdağa (6839 və ya 6930), oradan 3080 yüksəkliyinə, Sayatdağa (7868), Qurdqulaq kəndinə, Həməsür dağına (8160), 8022 yüksəkliyinə, Kükü dağa (10282) və [nəhayət] keçmiş Naxçıvan qəzasının şərqi inzibati sərhəddində qurtarır" (Qafarov 2011,413-414).

Beləliklə, Moskva və Qars müqavilələri Naxçıvanın statusu və tabeçiliyi məsələsini beynəlxalq müqavilələrlə tam şəkildə həll etdi. Qars müqaviləsi müddətsiz imzalanmış və bu müqaviləni imzalayan dövlətlərdən hər hansı biri onu birtərəfli qaydada ləğv edə bilməz. Qars müqaviləsi 1922-ci ilin mart-iyun aylarında müqaviləni imzalayan ölkələrin qanunverici orqanlarında təsdiq edilmiş və həmin ilin sentyabrın 11-dən qüvvəyə minib (10).

Qars beynəlxalq müqaviləsi ilə Naxçıvan vilayəti Azərbaycanın tərkibində muxtar ərazi statusu əldə etmişdir. Bu müqavilə ilə Türkiyə və Cənubi Qafqaz respublikaları Moskva müqaviləsini qəbul etmiş, Rusiya da Naxçıvanı Azərbaycanın tərkibində muxtar qurum kimi tanımış və ona beynəlxalq hüquqi təminat vermişdir ( Tər.ed Məmmədov 2004,18).

Müstəqil Azərbaycan dövlətinin yaradıcısı, ümummilli lider Heydər Əliyev bununla əlaqədar demişdir ki, Azərbaycanın o vaxtkı hökuməti çox ciddi mövqe göstərərək həmin Qars müqaviləsində Naxçıvanın statusunu müəyyən etmiş və Naxçıvana muxtariyyət verilməsi haqqında qərar qəbul edilmişdir. Ümummilli lider Heydər Əliyevin Qars müqaviləsinin əhəmiyyətinin qiymətləndirməsinə gəldikdə isə, bunu dəfələrlə qeyd etmişdir. Ulu öndər Heydər Əliyev Naxçıvanın ərazi bütövlüyünü və muxtariyyət statusunun qorunub saxlanılmasında Qars müqaviləsinin əhəmiyyətini daim yüksək qiymətləndirərək demişdir: *"Naxçıvanın statusunu qoruyub saxlamaq üçün Moskva müqaviləsinin və*

*xüsusən Qars müqaviləsinin böyük əhəmiyyəti olub. Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir*" (Hacıyev 2018,179).

1991-ci il yanvarın 11-də Ulu Öndərin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Moskva və Qars müqavilələrinin iştirakçısı olan dövlətlərə bəyanat verərək həmin ölkələri muxtar respublikanın ərazi bütövlüyünün erməni təcavüzü nəticəsində kobud şəkildə pozulması faktlarına münasibət bildirməyə çağırıb. Bu, Naxçıvanın muxtariyyət statusunun beynəlxalq müqavilələrlə qorunması faktının aktuallaşdırılması ilə yanaşı, muxtar respublikanın məruz qaldığı hərbi müdaxilə təhlükəsindən diplomatik yolla qorunmasına şərait yaradıb.

Bu gün Naxçıvan Muxtar Respublikası özünün sürətli inkişaf dövrünü yaşayır. Dahi şəxsiyyət Heydər Əliyevin parlaq ideyaları qədim diyarımızda uğurla həyata keçirilərək blokada şəraitində inkişafın yeni nümunəsini ortaya qoyub. Ötən dövrdə ərzaq təhlükəsizliyi ilə bərabər, enerji və müdafiə təhlükəsizliyi sahələrində də böyük nailiyyətlər əldə olunub. Ən əsası isə bu gün Naxçıvan tarixin heç bir dövründə bu qədər güclü orduya və inkişafa nail olmayıb. İndi Naxçıvan öz ərazi bütövlüyünə qarşı yönəlmiş istənilən təhdidi layiqincə dəf etməyə qadirdir. Müxtəlif zamanlarda, elə bu günümüzdə də Naxçıvana qarşı davam etdirilən erməni iddialarının isə heç bir hüquqi əsası yoxdur və bu iddialar beynəlxalq hüquq normalarına ziddir. Həm Moskva, həm də Qars müqavilələri Naxçıvanın toxunulmazlıq hüququnun əsasıdır.

Məlum olduğu kimi, Qars müqaviləsinin bağlanmasının 100 illiyi bu il 13 oktyabrda tamam olur. Bununla əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Cənab Vasif Talıbovun "Qars müqaviləsinin 100 illiyinin keçirilməsi haqqında" 2021-ci il 8 fevral tarixli Sərəncamı bu taleyüklü möhtəşəm müqavilənin böyük əhəmiyyətini bir daha ortaya qoyur.

Həmin sərəncamda deyilir: "Qars müqaviləsi Naxçıvanın muxtariyyət statusuna təminat verən çox mühüm hüquqi, siyasi və beynəlxalq sənəddir. Qars müqaviləsinin imzalanması və Naxçıvanın muxtariyyət statusunun təsbit olunması dövlətçilik tariximizdə mühüm mərhələdir. Bu tarixin öyrənilməsi və gələcək nəsillərə çatdırılması isə bütün dövrlər üçün aktual və vacibdir"(9).

Bir əsr bundan əvvəl olduğu kimi, bu gün də Azərbaycan və Türkiyə arasında əlaqələrin yüksək səviyyədə inkişafı ümumilikdə regionun tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir. 44 günlük Vətən müharibəsi zamanı dünya bir daha bunun şahidi oldu. Müharibənin ilk günlərindən qardaş Türkiyə Azərbaycana siyasi-mənəvi dəstək verdi. Türkiyə Prezidenti Cənab Rəcəb Tayyib Ərdoğan açıq və birmənalı bəyanatlar səsləndirərək, bu müharibədə Azərbaycanın tək olmadığını, Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu bildirdi. Bu, gücümüzə güc qatdı, Qarabağ Zəfərində mühüm rol oynadı. Xüsusən Cənab Rəcəb Tayyib Ərdoğanın Bakıda Azadlıq meydanında keçirilən Zəfər paradında Prezident İlham Əliyevlə yan-yana dayanması ölkələrimizin birliyini, xalqlarımızın qardaşlığını bir daha bütün dünyaya nümayiş etdirdi. İki qardaş ölkə liderlərinin 15 iyun 2021-ci il tarixdə imzaladığı Şuşa Bəyannaməsi tarixi Qars müqaviləsi kimi artıq yeni bir mərhələyə və regionun sabitliyinin beynəlxalq hüquqi təminatına çevrildi. Qars müqaviləsindən sonra Şuşa Bəyannaməsi də Azərbaycanın ərazi bütövlüyünün qarantı kimi çıxış edir (11). Bu tarixi sənəd iki qardaş ölkənin ümumi maraqlarının qorunmasında, imkanlarının birləşdirilməsində, eləcə də ortaq maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə ölkələrimizin regional və beynəlxalq rolunu genişləndirəcək.

## ƏDƏBİYYAT


1. Gümrü, Moskva və Qars müqavilələri və Naxçıvanın taleyi. Tərtib edən və ön sözün müəllifi İ.Hacıyev. Bakı: Elm, 1999, 36 s.
2. Hacıyev, A. Qars və Araz-Türk Respublikalarının tarixindən. Bakı: Azərnəşr, 1994, 124 s.
3. Hacıyev, İ. Naxçıvan Azərbaycanın dövlətçilik tarixində. Bakı: Elm, 2018, 372 s.
4. Atnur, İ. E. Osmanlı idarəçiliyindən sovet idarəçiliyinə qədər Naxçıvan (1918-1921). Naxçıvan: Əcəmi, 2013, 496 s.

5. Qafarov, V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı: Azərnəşr, 2011, 474 s.
6. Qars müqaviləsi. Azərbaycan, rus, türk və fransız dillərində. Tərtib edəni və ön sözün müəllifi Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı: AzAtaM, 2004, 84 s.
7. Musayev, İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti. Bakı: BDU nəşriyyatı, 1996, 328 s.
8. Naxçıvan Muxtariyyəti tarixi nailiyyətdir. Naxçıvan: Əcəmi, 2015, 328 s.
9. https://science.gov.az/ru/news/open/16456
10. http://www.90il.nmr.az/muxtariyat%2090/meqaleler/meqale/meqale6.pdf
11. https://apa.az/az/xeber/siyasi/susa-beyannamesinin-tarixi-ehemiyyeti-tehlil-648256

## SUMMARY

**Arzu Abdullayev**

## A CENTURY HISTORY: KARS CONTRACT

These attempts have intensified since the 19th century and have become a real threat since the early 20th century. The separation of the main territory of Azerbaijan from 1918-1920 as a result of military-political interventions of the great powers and the Armenian aggression is the basis of the struggle for the autonomy of Nakhchivan. The Treaty of Kars between Turkey and the three South Caucasus republics, signed between Soviet Russia and Turkey with the participation of a representative of Moscow and Soviet Russia, established the issue of keeping Nakhchivan within Azerbaijan and granting it autonomy. Thus, the Moscow and Kars agreements fully resolved the issue of the status and subordination of Nakhchivan with international agreements. With the international agreement of Kars, Nakhchivan region gained the status of an autonomous territory within Azerbaijan.

***Key words***: *Kars agreement, area, province, status, South Caucasus, autonomy, Soviet Russia.*

## РЕЗЮМЕ

**Арзу Абдуллаев**

## ВЕКОВАЯ ИСТОРИЯ: KARS CONTRACT

Эти попытки усилились с 19 века и стали реальной угрозой с начала 20 века. Разделение основной территории Азербайджана в 1918-1920 годах в результате военно-политического вмешательства великих держав и агрессии Армении является основой борьбы за автономию Нахчывана. Карсский договор между Турцией и тремя республиками Южного Кавказа, подписанный между Советской Россией и Турцией при участии представителей Москвы и Советской России, установил вопрос о сохранении Нахчывана в составе Азербайджана и предоставлении ему автономии. Таким образом, Московское и Карсское соглашения полностью решили вопрос о статусе и подчинении Нахчывана международным соглашениям. По международному соглашению Карса Нахчыванский район получил статус автономной территории в составе Азербайджана.

***Ключевые слова:*** *Карсский договор, плошадь, провинция, статус, Южный Кавказ, автономия, Советская Россия.*

---

***Məqaləni çapa təqdim etdi:*** *AMEA-nın müxbir üzvü Zəhmət Şahverdiyev*
***Məqalə daxil olmuşdur:*** *4 noyabr 2021-ci il*
***Çapa qəbul edilmişdir:*** *2 dekabr 2021-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2021, № 2 (111), 46-52

NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2021, № 2 (111), 46-52

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2021, № 2 (111), 46-52

**FƏXRƏDDİN CƏFƏROV**
*Naxçıvan Dövlət Universiteti*
*cəfərov@gmail.com*

**UOT: 94(479.242)**

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ NAXÇIVANDA SOSİAL-SİYASİ VƏZİYYƏT

*Məqalədə XX əsrin əvvəllərində bütün Rusiya imperiyasında olduğu kimi, Naxçıvanda da zəhmətkeş kütlələrin vəziyyəti həddindən artıq ağır idi. Bir tərəfdən ağır mülkədar istismarı, digər tərəfindən alınan çox miqdarlı vergilər kəndliləri yoxsullaşdırıb dilənçi halına salmışdır. Bu yoxsullaşmanın nəticəsidir ki, kəndlilər xəzinə vergilərini ödəyə bilmirdilər.*

*Naxçıvan, Ordubad və Şərur qəzalarının kəndləri təhkimçilik qalıqlarına, bəylərin, xanların insafsızcasına istismarına qarşı mübarizəyə qoşulur, torpaq əldə etmək üçün kəndlilər müxtəlif vasitələrə əl atırdılar.*

***Açar sözləri:*** *Çeşməbasar, Ordubad məntəqəsində Behrud, Cəfər Bayram oğlu, Cəfərqulu xan, Rəhim xan, Şahhüseyin, Qafqaz, Zahar Canpoladov, Vorontsov- Daşkov, Zəngəzur.*

XX əsrin əvvəllərində bütün Rusiya imperiyasında olduğu kimi, Naxçıvanda da zəhmətkeş kütlələrin vəziyyəti həddindən artıq ağır idi. Onlar bir tərəfdən yerli xanların, bəylərin, ruhanilərin, digər tərəfdən isə çarizmin və onun məmurlarının milli müstəmləkəçilik zülmünə məruz qalmışlar.

Əldə olunan arxiv sənədlərində göstərilir ki, Naxçıvan və Şərur qəzalarında olan 240-dək kənddən 124-ü mülkədar mülkiyyəti idi. Təkcə bunu qeyd edək ki, adları çəkilən qəzalarda torpağın 53,8 faizi mülkədarın, 35,5 faizi xəzinənin, 2,8 faizi məscidlərin, 7,9 faizi kəndlilərin istifadəsində idi. Aydın məsələdir ki, kəndlilər göstərilən torpaqlardan icarədarlıq, bəhrəgirlik və başqa ağır şərtlərlə istifadə edirdilər. "Pay" torpaq almağın şərtləri o qədər ağır idi ki, hətta Qafqaz canişini Vorontsov-Daşkov etiraf edib bildirmişdir ki, Şərur qəzasının Keşdaz kəndləri 34 il ondan istifadə edə bilməmişlər.

Torpaqların xəzinə və mülkədar mülkiyyəti olmasına daha xarakterik dəlillərdən biri də kəndin bir neçə mülkədar mülkiyyəti olmasından ibarətdir. Belə ki, Naxçıvan qəzasında Şəkərəbad 8, Sələsuz 11, Baş Anzur 11, Çeşməbasar 16, Ordubad məntəqəsində Behrud 4, Tivi 8, Nəsirvaz 75 mülkədarın malikanəsi idi. Beləliklə, bütün torpaqlar bəylərin, xanların və xəzinənin əlində olmuşdur. Torpaqsız kəndlilər mülkədarın hər bir ağır şərtlərinə razı olmağa məcbur idilər [1.v. 103-104].

Torpaq üzərində olduğu kimi, su üzərində də mülkədar mülkiyyəti mövcud idi. Kəhriz sahibləri kəndlilərə həyətyanı sahələrini suvarmaq üçün su verib, əvəzində bərps vergisi (məhsulun müəyyən hissəsi) alırdılar. Məsələn, Arpa çayın sol kənarındakı bütün kəndlər sudan istifadə üçün mülkədarlar Şahin gireyə və Egizarova bəhrə verirdilər. Bir tərəfdən ağır mülkədar istismarı, digər tərəfdən alınan çox miqdarlı vergilər kəndliləri yoxsullaşdırıb dilənçi halına salmışdır. Bu yoxsullaşmanın nəticəsidir ki, kəndlilər xəzinə vergilərini ödəyə bilmirdilər. Onların üzərində vergilərin qalıqları ildən-ilə artırdı. Naxçıvanın qəza rəisi 1906-cı ildə qubernatora göndərdiyi məlumatında yazırdı: "Xan, bəy və mülkədarlarla nəinki ayrı-ayrı adamlar, hətta bütöv kəndlər düşmənçilik aparır, bu da təsadüfi deyil, hər yeri əhatə etmiş, həmin düşmənçiliyin yarısından çoxu torpaq və vergi münaqişələri üstündə baş verir [2.v.8].

Əhali sosial-vəziyyətdən torpaqsızlıqdan, ağır istismardan, çarizmin milli müstəmləkə zülmündən cana gəlmişdir. Ağır yaşayışa dözməyən kəndlilər çar və dövlət orqanlarına ərizələr yazır, vəkillər seçib göndərirdilər. Lakin çar məmurları kəndlilərə kifayətləndirici cavablar vermirdilər.

Kəndlilərin çar orqanlarına verdikləri ərizələr illərlə cavabsız qalırdı və bu baxımdan çar üsul-idarəsinə qarşı narazılıq get-gedə artırdı.Kəndlilər acından ölməmək üçün dəstələr düzəldib dağlara qaçanda da, onlar " soyğunçu", "quldur", " qaçaq" elan edilib, onlara qarşı nizami qoşun göndərilir, kəndlilərə ağır işgəncələr verilirdi. Hökumətin və mülkədarların bu vəhşi hərəkətlərinə qarşı çıxış edib dəstə düzəldənlərdən Ordubad mahalında Cəfər Bayram oğlu, Əlicəfər İbrahim oğlu, Məmiş Dadaş oğlu, Nəsir Kəlbalı oğlu, Əlimərdan Əhməd oğlu, Sibir katorqasından qaçan Muxtar Abbas olu, Əbrəqunus məntəqəsində Şahhüseyin, Ağahüseyn, Gülhüseyn və başqalarının adlarını qeyd etmək olar.

Naxçıvan, Ordubad və Şərur kəndləri təhkimçilik qalıqlarına, bəylərin, xanların insafsızcasına istismarına qarşı mübarizəyə qoşulur, torpaq əldə etmək üçün kəndlilər müxtəlif vasitələrə əl atırdılar. Çarın mərhəmətinə inanan sadəlövhlər çara, canişinə, qubernatora ərizələr yazaraq onlara torpaq verilməsini xahiş edirlər. Badamlı və Yuxarı Rəmeşin kəndlərinin "Bostan çuxuru" adlanan sahədən əkin yeri istəmələrinə qubernator qətiyyətlə belə bir cavab vermişdir: "Bostan çuxuru" sahəsindən yalnız oraya köçürüləcək rus kəndləri üçün əkin sahəsi ayrılması nəzərdə tutulmuşdur [3.1978,28 aprel].

1905-ci ilin ikinci yarısından kəndli çıxışlarının xarakteri xeyli dəyişir, silahlı çıxışlara çevrilir. Naxçıvan qəzası Şahbuz məntəqəsinin Keçili kəndliləri silahlanaraq Külüs kəndində Rəhim xana məxsus olan yaylağı tutmuşlar. Rəhim xanın xahişi ilə gələn qəza polisi dəstəsi kəndlərin çox ciddi müqavimətinə rast gəldiyindən 40 nəfər silahlı kəndli dəstəsinin müqaviməti ilə geri qayıtmışdır [4,v.34].

Şahbuz məntəqəsinin Badamlı və Yuxarı Rəmeşin sakinlərinin ərizə və şikayətlə torpaq sahəsi ala bilmədiklərini görən Keçili və Külüs kəndləri 1905- ci ilin yazından Rəhim xan və Cəfərqulu xan qardaşlarına məxsus " Hüseyn yurd" və "Güney yurd" yaylaqlarını zəbt edib orada yurd salırlar. Mülkədarlar isə polis gücünə yurdları geri almağa səy göstərirlər. Kəndlilərin vəkilləri Qəhrəman İsmayıl oğlu və Fətəli Qulu oğlu polis rəisinə bildirirlər ki, " Onlar heç vəchlə yurdu tərk etməyəcəklər" [3.1978,28 aprel]. Naxçıvan qəza rəisi İrəvan qubernatorluğuna belə bir məlumat verir: " Polis tərəfindən külüslülərə təklif edilir ki, mülk sahibkarları Naxçıvandakılar ilə razılığa gələnədək sahə tərk edilsin". Lakin kəndlilər bu təklifi rədd edir, otlaqdan çıxmırlar. Keçili, Külüs əhalisinin mütəşəkkil hərəkatından ruhlanan Tivi kəndliləri də bəylərin tutmaq istədikləri " And-top" sahəsindəki 150 desyatin icma torpağında yurd salırlar və silaha əl atırlar. Ordubad pristavı Tivi kəndlilərinin həyacanlı çıxışları barədə İrəvan quberniya idarəsinə xəbər verib kömək istəyir. Quberniya idarəsi 19 may 1905- ci il tarixdə Ordubad yerli komanda rəisinə bildirir ki, qəza xalqlarının iğtişaşını yatırmaq üçün qubernatorun sərəncamı ilə bu gün ona tabe olan komandanı Tivi kənd pristavının köməyinə göndərir [5,v.95]. Tivi kəndinin əhalisi komanda gələnədək yaylaqları tərk etmir və qəza hökumətini də saymır. Bu kənd tarixən üsyankar kənd idi. Qaçaq Nəbinin, Şahhüseyn qardaşlarının düşərgəsi idi. Nəbiyə qoşulan Telli Qara qızı bu kənddən idi. Qaçaq Ağahüseynin arvadı bu kənddə yaşayırdı və s. Böyük xalq həyəcanları ilə əlaqədar olaraq 1905-ci ilin may ayında Kutaisi qubernatoru general Əlixanov Avarski Naxçıvana gəlir. Qəzanın dağ yerlərindəki kəndli çıxışlarının getdikcə gücləndiyini görüb 5-ci qəza kazak komandasından yüzbaşı Mironovu Şahbuz dairəsindəki üsyanı yatırmağa göndərir və Şahbuz üsyanını yatırdıqdan sonra Tivi kəndlərinə divan tutmağı tapşırır. Bundan əlavə qubernatorun sərəncamı ilə Kənəkir hərbi düşərgəsndən Naxçıvana tələb olunan hərbi qüvvələr göndərilir[3.1978,28 aprel].

Naxçıvan qəzasının dağlıq yerlərindəki xalq həyəcanları ilə əlaqədar olaraq "Qafqaz" qəzeti 17 may 1905- ci il tarixli nömrəsində yazırdı: "Qara vəng" malikanəsinin qarət olunması ilə əlaqədar olaraq İrəvan qubernatorundan may ayının 14- də daha iki batalyon piyada, 300 nəfər kazak və artileriya göndərilməsi tələb olunur. Doğrudan da, qubernatorun sərəncamı ilə Kənəkir hərbi düşərgəsindən Naxçıvana istənilən hərbi qüvvə göndərilir [6,1905,17 may].

Belə vəziyyət bütün qəzanın hər yerində mövcud idi. Naxçıvan, Culfa və Ordubad şəhərlərində də, həmçinin Şahtaxtı stansiyasında xeyli miqdarda nizami qoşun saxlanılırdı.

Keçili və Tivi kəndlərinin hökumətə qarşı mübarizəsi birinci rus inqilabından sonrakı illərdə

də davam edir. 1906- cı ilin iyul ayında Qafqaz polis idarəsinə verilən məlumatda yazılırdı: " Tatarlar (azərbaycanlılar) üç verstədək məsafədə hündür təpələri tutmuşlar. Qoşunla atışma başlayır. Kazaklar tərəfindən 1000 patron atılmışdır". Beləliklə, Keçili-Külüs kəndlərinin otlaq-yaylaq torpaqları uğurunda mübarizəsi hökumət hərbi qüvvəsi ilə silahlı toqquşmalarla nəticələndi [7,v.34-41].

1906- ci ilin sentyabr ayında Ordubad məntəqəsinin Üstüpü kəndində çoxlu torpaq və meyvə bağına malik Qafar bəy və Xosrov bəy kəndlilər tərəfindən öldürülmüş, həmin ilin oktyabr ayında böyük mülk və Süst kəndindəki duz mədəninin sahibi, icarədar, sələmçi Zaxar Canpoladov Naxçıvan məntəqəsinin Kültəpə kəndində kəndlilər tərəfindən qətlə yetirilmişdir [8,v.99-101].

Qaçqınlıq formasında olan kəndli çıxışları 1906-1907- ci illərdə xeyli genişlənmiş və partizan hərəkatı formasını almışdır. Əbrəqunus məntəqəsinin Haçaparax kəndindən olub mülkədar və hökumət əleyhinə hərəkətlərinə görə Sibirə sürgün edilmiş qaçaq Heydər Kərbəlayi İsmayıl oğlu, həmin məntəqənin Ərəfsə kəndindən olan Həsən Hüseyn oğlu 1905-ci ildə Kutaisi Quberniyasında kəndli üsyanlarında iştirak etdiyinə görə həbs edilmiş, Naxçıvan həbsxanasına göndərilmiş və burdan qaçaraq yerli qaçaq dəstəsinə qoşulmuşdur.

İrəvan qubernatoru Qafqaz canişininə 27 iyun 1907-ci il tarixdə göndərdiyi məlumatında etiraf edir ki, qaçaq dəstələrinin kökünü kəsmək baxımından Naxçıvan qəzası ən çətin yerlərdəndir. Bu faktlar Naxçıvan bölgəsndə azadlıq düşüncəsinin, gerçəklik duyğusunun tarixən üstünlük təşkil etdiyini göstərir.

Partizan mübarizəsi xarakteri daşıyan qaçaq dəstələri ilə mübarizənin çətinliyini görən çar hökumətinin yrli inzibati orqanları Naxçıvan və Şərur qəzalarında daha ciddi tədbirlər görür və ali orqanlardan hərbi qüvvə istəyirdilər. Bu barədə İrəvan qubernatoru 1907-ci il 27 sentyabrda qafqaz canişini Vorontsov-Daşkova göndərdiyi hesabatında yazmışdır ki, qaçaq dəstələrinin məhv edilməsi işində ən çətin bölgə Naxçıvan qəzasıdır. Qubernator yazmışdır ki, Naxçıvan qəzasındakı qaçaqlar, əsasən, azərbaycanlılardan ibarətdir [8,v.99].

Qafqaz canişini Vorontsov-Daşkov İrəvanın müvəqqəti general qubernatoru, qofmeystr İ.D.Şirinkina (Rjevuskidən sonra, İrəvanın general qubernatoru) xüsusi göstəriş vermişdir ki, Şərur və Naxçıvan qəzalarında sərhəd boyu mühafizə dəstələri möhkəmləndirilsin, kəndli iğtişaşlarının qarşısı alınsın, onların Cənubi Azərbaycana, Səttarxanın köməyinə getmələrinə yol verilməsin. Canişin özü 25 noyabr 1908-ci ildə Naxçıvan qəza rəisinə tapşırmışdır ki, Culfa körpüsündən etibarsız adamlar buraxılmasın, ziyarət adı ilə İrana gedən gənclərə pasport verilməsin. İcazə ilə Cənubi Azərbaycana gedən şəxslər üzərində ciddi nəzarət qoyulsun [8,v.101].

Naxçıvan qəza rəisinin müavini, sonra Novabəyazid qəza rəisi Karqanov Qafqaz canişini Vorontsov-Daşkova göndərdiyi məktubda Naxçıvan qəzasındakı vəziyyətdən bəhs edərək yazmışdır ki, Naxçıvan qəzasında nəinki ayrı-ayrı şəxslər, bütün kəndlər düşmənçilik edirlər, bu təsadüfi deyil, ümimi hadisədir. O, göstərir ki, mövcud düşmənçiliyin əsas hissəsi torpaq mübahisələrindən, hüquqsuzluqdan, qayda-qanunsuzluqdan, yerli idarə qaydasızlığından meydana çıxır.

Bu illər ərzində Naxçıvan dağlarında hökumət və onun polis və hərbi qüvvələri ilə vuruşan qaçaqlardan Keçili kənd sakini Kalba Teymur və Zəngəzurdan gəlmiş Kalba Murtuz xüsusi ilə qeyd edilməlidir. Üsyankar Keçili əhalisinin başında duran Kalba Teymur çar hökumət orqanlarının ədalətsiz hərəkətlərinə qarşı barışmaz mübarizəsini davam etdirərək 1908-ci ildə 12 nəfərlik kiçik, lakin cəsur dəstəsi ilə xanların obalarına basqın edir. Bu dəstə Şərurdan Həmzə Tarverdi oğlunun, Zəngəzurdan Murtuz və Mirzə Tağı oğlunun dəstələri ilə birləşib çar inzibati orqanlarını və xanları bərk lərzəyə salır. Kalba Teymur və ona qoşulan Zəngəzur qaçaqlarına qarşı yalnız Naxçıvan polisi deyil, Şərur-Dərələyəz, Zəngəzur qəzalarının polis dəstələri, kazak dəstələri, eləcə də İran-Qaradağ sərhəd mühafizəçiləri də mübarizə aparırdılar.Bütün bu təqiblərə baxmayaraq, qaçaqlar döyüşlərdən salamat çıxıb İrana keçirlər. İrəvan qubernatorunun 1908- ci il 22 dekabr tarixli məlumatnda göstərilir ki, qaçaq Kalba Teymur Hacı Xudakərim oğlu və Külüslü Heydər Pirkətan oğlu İranda öldürülmüşlər [9,v.9].

1907-1909- cu illərdə çar hökuməti orqanları və mülkədarlar üçün qorxulu rəqib Murtuz Kərbəlayi Nuru oğlunun başçılıq etdiyi kəndli qaçaq dəstəsi sayılırdı. Naxçıvan qəza polis idarəsinin

məlumatından aydın olur ki, Murtuz Kərbəlayi Nuru oğlu Zəngəzur qəzasının Ərikli və Mirzə Tağı oğlu Marağa-Qışlaq kəndlərindən idilər. Bunlar da kəndlilər üçün ağır olan həyatdan, çar polis xəfiyyə orqanlarının təqiblərindən yaxa qurtarmaq üçün dağlara çəkilmişlər.

Naxçıvan qəza polis idarəsi İrəvan qubernatoruna xəbər verərək bildirmişdir ki, Murtuz 20 ildən artıqdır ki, axtarışdadır. Onun təqib olunmasında 200 nəfərlik kazak polis dəstəsi iştirak etmişdir [10,1988. noyabr.10].Naxçıvan pristavı Navitski 50 nəfər yerlinin və strajnikin köməyi ilə iki gün qaçaq Murtuzla vuruşsa da bir nəticə verməmişdir. Murtuzun dəstəsinin Zəngəzurdan Naxçıvan qəzasına keçməsi xəbəri alınan kimi Naxçıvan birinci nahiyyə polis pristavı Navitskiyə qəza polis rəisi tərəfindən əmr verilir ki, Kükü-Zərnətün dağlarında Murtuzun dəstəsinin qarşısını kəssin. Eyni zamanda, pristav Duşinskiyə əmr verilir ki, vuruşma yerinə 12 nəfər kazak polis dəstəsi göndərilsin. Uryadnik Çermakovu da onlara qoşsun [9,v.10-12].

Qarababa polis starşinası başda olmaqla 1- ci yerli kazak polis dəstəsi Payız Qarabağlar tərəfə göndərilir. Pristav Novitski başda olmaqla ikinci dəstə Məmmədrza (indiki Babək rayonu) kəndinə istiqamət alır. Çünki Murtuz öz dəstəsi ilə Qaraçuğ kəndi yaxınlığında Arazdan keçib Təbrizə getmək istəyirdi. Murtuz gecədən gəlib Məmmədrza kəndinə Fərrux bəy və Hacı Sübhanverdi Allahverdiyevlərin evində gecələyir. Bu xəbər yerli polis agenti vasitəsi ilə pristav Novitskiyə çatdırılır. Mühasirəyə düşən qaçaq dəstəsi ilə kazaklar arasında qızğın atışma başlayır. Murtuz bir neçə kazakı sıradan çıxarır. Vuruşma səhər saat 3- dək davam edir. Kazak polis dəstələri tez-tez dəyişilir və gücləndirilir. Qaçaqlar döyüş taktikasını dəyişir, gah bu, gah da başqa yerdən kazaklara həmlə edir, mühasirədən çıxmağa can atırdılar. Lakin kazakların gücünün qat-qat artdığını və qaçaqların vuruşmada yorulub əldən düşdüyünü görən Murtuz silahı yerə qoyub təslim olmağı qərara alır.

Qaçaqların təslim olması barədə Naxçıvan qəza polis rəisi İrəvan qubernatoruna, eyni zamanda, canişinliyə yazdığı raportunda göstərirdi ki, tutulmuş qaçaqlar Naxçıvan həbsxanasında saxlanılır və çox çəkmədən məhkəmə tərəfindən ən ağır cəzaya mahkum ediləcəklər [9,v.7-9]. Bununla bir vaxta Həmzənin başçılıq etdiyi Şərur qaçaqları da Dərələyəz nahiyəsinin Qayalı kəndində güclü kazak və yerli polis dəstələri tərəfindən mühasirəyə alınıb dağıdılır.

Keçili kəndliləri ilə torpaq sahibkarları arasında baş verən torpaq münaqişələri ilə bağlı Naxçıvan qəza rəisinin İrəvan qubernatoruna göndərdiyi18 may 1914-cü il tarixli ikinci raportunda yazırdı: “24 mart 1913-cü il tarixli 1461 №-li məktubla mənə İrəvan quberniya barışdırıcı münsiflərinin adına olan məxfi tapşırığın surəti göndərilmişdir. Bu tapşırıqda göstərilir ki, sahibkarlarla kəndlilər arasında baş verən torpaq münaqişələri zamanı barışdırıcı münsiflər həmin münaqişələri yoluna qoymaq və həll etmək üçün dərhal hadisə yerinə getməlidirlər. Polis məmurlarının iştirakına gəldikdə isə barışdırıcı münsiflərin adına olan həmin tapşırıqlarda deyilir: “Qəza rəislərinə tapşırılır ki, torpaq istifadəsi zəminində sahibkarlarla kəndlilər arasında hər hansı bir münaqişə baş verdikdə bu barədə dərhal Barışdırıcı Münsiflərə məlumat versinlər”.

Züvələ kəndinin və Keçili əhalisinin məskunlaşdığı 5 müxtəlif yerdə 40-a yaxın çadır onlara məxsus 3000-ə yaxın iri və xırda buynuzlu heyvanların otladığını gördükdə pristav keçillilərə elan edib ki, özbaşınalığa yol vermək olmaz və təklif edib ki, “Vələver” torpağını tərk etsinlər.

Keçili kəndinin sakinləri adından çıxış edən Kərbalayi Xudakərim Əliməmməd oğlu, Hacı Abbas Hacı Məmməd oğlu, Hacı Kərim Əliməmməd oğlu, Kərbalayi Cabbar Kərbəlayi Məmməd oğlu, Qasıməli Eyvaz oğlu, Qafar Əsəd oğlu, Kərbəlayi ağa Kərbəlayi Qulam oğlu, Əhmədəli Səfərəli oğlu bildiriblər ki, onlar heç kimin torpağını işğal etməyib, ancaq alqı hüququ ilə onlara məxsus olan torpaqda yaylaqlayırlar və həmin torpaq alqı hüququna əsasən onlara məxsusdur.

Mübahisə edən tərəflərin çox gərgin vəziyyətdə olduqlarını, buna görə də kiçik bir səbəbdən zorakılığa, hücumlara və qətillərə səbəb olacağını nəzərə alaraq qeyd etmək istəyirəm ki, 4-cü şöbənin Barışdırıcı Münsifinin, pristavların onu kəndliləri mülkədarlara qarşı qızışdırmaqda haqsız ittihamı barədə qeydinin heç bir əsası yoxdur və buna görə də əgər kəndlilər torpaqlarının sərhədlərini səhv göstərdiyinə görə öz hüquqlarını elan edərkən ona istinad edirlərsə, polislər bu barədə Barışdırıcı Münsifə xəbər veriblər, işin məğzinə isə toxunmayıblar.

Bunları Sizə çatdıraraq bildirmək istəyirəm ki, keçililərin bir hissəsi 4-cü gün işğal etdikləri ərazini tərk ediblər, daha çox inadkarlıq edənlər isə bir neçə gündən sonra polislər tərəfindən qovulublar. Keçililərin yenidən torpağı zəbt edəcəyindən qorxaraq xahiş edirəm "And-top" torpaqlarının sərhədlərinin onlara izah edilməsi üçün 4-cü şöbənin Barışdırıcı Münsifi hadisə yerinə ezam olunsun. Həmçinin xahiş edirəm ki, hadisəni törədənlərdən, raportumda adları çəkilmiş Keçili kənd sakinləri inzibati qaydada cəzalandırılsınlar, çünki kəndlərin sakinləri də qonşularının cəzasız qaldığını görərək həmin şeyi təkrar edə bilərlər. "Vələver" torpağının sahibkarlarının iddialarına gəldikdə isə onlara dəymiş zərər barəsində akt tərtib edərək həmin sahələrin sahibkarlarına təqdim olunub. Naxçıvan qəza rəisi, polkovnik: (imza) [10,v.64-69].

Naxçıvan qəza polis rəisi polkovnik Platon Nikolayeviç Zençenko tivililərin Biləv kənd sakinlərinə məxsus olan "And-top" adlanan torpaqları tutması ilə əlaqədar toqquşmalar və polislərlə tivililər arasında baş vermiş vuruşmalar haqqında 18 iyun 1914-cü il tarixdə İrəvan qubernatorunun adına göndərdiyi raportunda qeyd edir ki, iyun ayının 10-da Biləv kəndində yaşayan Fərəc ağa və Əli Murad ağa Kəngərlilər 4-cü polis sahəsinin pristavı Vəzirovun yanına gələrək bildiriblər ki, Tivi kənd sakinləri Biləv kəndlilərinə və bəylərinə məxsus olan "And-top" otlağını tutublar, oradan çobanları və mal-qaranı qovaraq öz mal-qaralarını ötürüblar. Piristav bu ərizəyə əsaslanaraq Aza keşik dəstəsinin polis pristavı Fedot Sayenkonu 3 keşikçi ilə birlikdə ədalətin bərqərar edilməsi, günahkarların üzə çıxarılması və protokol tərtib olunması üçün hadisə yerinə ezam edib. Ertəsi gün, yəni 13-ü iyun tarixində saat 9-da hadisə yerinə 7 nəfər polis keşikçisi ilə birlikdə pristav gəlib, həmin sahədə uryadniklər Sayenko, Tokarev, keşikçilər və bir neçə Biləv sakinləri ilə qarşılaşıb. Atlarla onların yanına qalxmaq mümkün olmadığından pristav bir neçə keşikçi ilə birlikdə tivililərin yanına gedib. O gəlişinin məqsədini izah edərək və gələcəkdə onlara müqavimət göstərməməyi məsləhət görərək pristav "And-top" otlağının Biləv bəyləri və kəndlilərinə məxsus olduğunu sübut etməyə çalışıb. Bununla bərabər, o, Biləv sakinlərinin əlində olan nizamnamə fərmanında həmin kəndin sərhədlərini tanıdıb. Təklif edib ki, qonşu kəndlərin sakinləri ilə birlikdə sərhədlərə baxılsın. Ancaq tivililər pristavın üstünə qışqıraraq bildiriblər ki, bütün bunlar onlara lazım deyil və onlar bu torpağı özlərininki hesab edirlər. Pristavı hədələyən adamlar saxlanılaraq müstəntiqin ixtiyarına verilmişdir. Bununla yanaşı, tivililərdən Kərbəlayi Şirəlibəy oğlu dava salmaq məqsədi ilə Əli Murad ağa Kəngərlinin üzərinə hücum çəkib, lakin vaxtında saxlanılıb. Pristav Sayenko onu həbs edərkən Kərbəlayi Şirəlibəyi onu da vurmaq istəyib ancaq zərbə keşikçi Cahangir Sarkisova dəyib. Bundan sonra o, qaçaraq tivililərin arasında gizlənib. Tivililər keşikçilərin Kərbəlayi Şirəli bəyi tutmaq istədiklərini görəndə "nə durmusuz , atəş açın" qışqırıblar. Onların bu əmri dərhal yerinə yetirildi, dağın başından 3 tərəfdən dərhal atəş açıldı. Güllələr pristav, keşikçilər və onların yanında olan 10-12 nəfər biləvlinin başlarının üstündən keçdi. Güman etmək olar ki, tivililər öz adamlarını yaralamaqdan qorxurdular. Odur ki, tivililər geri çəkilən kimi tüfənglər pristava, Biləv kənd sakinlərinə, keşikçilərə yönəldi. Biləv kənd sakini Ağayar Ağayar oğlu ayağından yaralandı. Şahidlərin ifadələrinə görə, tivililərin atəşlərinin sayı 150-dən az olmayıb. Tivi kənd sakinlərindən atəş əmri verənlərin əksəriyyəti və silahı olan tivililərdən bəziləri saxlanılıblar. Digərlərinin şəxsiyyətləri müəyyən olunub və onlar 35-40 verst aralıdan yaylaqda gizləndiyindən onları yaxalamaq üçün tədbirlər görülüb. Ərazi dağlıq olduğundan atəş açanlara hücum etmək mümkün olmayıb. Buna görə də pristav mənasız insan itkisinin qarşısını almaq üçün yaralı biləvlini götürərək geri çəkilməyi əmr edib. İmzaladı: Naxçıvan qəza rəisi polkovnik Zençenko" [10,v.69-70].

Bu çarpışmada çoxlu adam yaralanır və ölür. Əhalinin hücumuna davam gətirə bilməyən xanlar və pristav müavini Cabbar ağa Vəzirov başda olmaqla polis kazak dəstələri "And-top" yaylağı ərazisindən qovulur.

Naxçıvan qəza polis rəisinin İrəvan qubernatoruna yazdığı kimi, xan və polis kazak dəstəsinə qarşı vuruşmada təkcə kişilər deyil, qadınlar və uşaqlar da iştirak edirdilər. Qadınlardan Şərəbanı Tağı qızı (Qulamalı Şirin oğlunun arvadı) Xanımcan Budaqova, Ölkə Hüseynxan qızı və başqaları çox fəallıq göstərmiş və polis kazak dəstəsini daşa basmaqla onları geri oturtmuşdur.

Bu hadisədən 3 gün sonra, yəni 1914-cü ilin iyun ayının 16-da Tivi əhalisinə qarşı Ordubad

polis pristavının müavini Cabbar ağa Vəzirov, Çənnəb, Aza və Vənənd yüzbaşıları və uryadnikləri başda olmaqla 300-dən artıq kazak polis dəstəsi və xanlardan ibarət silahlı qüvvə göndərilir. Bu güclü qüvvəyə müqavimət göstərə bilməyən əhali kəndi tərk edib dağlara, ətrafdakı Bist, Nəsirvaz və başqa kəndlərə üz tutur. Ordubad polis piristavının müavini Cabbar ağa Vəzirov başda olmaqla hücumla kəndə girən polis kazak dəstələri kəndi talayır, mal-qaranı qırır, meyvə ağaclarını balta ilə doğrayıb yerə tökür və kənddə qalan 22 nəfər ağsaqqalı Pirim Qulaməli oğlu başda olmaqla həbs edirlər. [11,v.5]. Həbsə alınanlardan biri də kəndin yüzbaşısı Şahvələd Bağırov idi. O hələ 1909-cu ildə kəndin iribuynuzlu mallarını kəndlilərin xeyirinə hökumətdən gizlətdiyinə görə məhkəməyə verilmişdir. [12, v.27].

Tivi kəndli çıxışlarının təşkilatçılarından Şirin Qulaməli oğlu başda olmaqla 22 nəfər məhbus Ordubad şəhər həbsxanasına salınır. Həbs olunanların istintaqı məhkəmə tərəfindən müstəntiq, yarımliberal Mirzəliqulu Rəsulbəyova tapşırılır. Müstəntiq belə məsləhət görür ki, şahidlər həm çox sayda, həm də uzaq yerlərdən gətirilsin. Bu o deməkdir ki, müharibə şəraitində (1914-cü il) istintaq yubandıqca, iş uzandıqca məhbusların müqəssirliyi öz əhəmiyyətini itirə bilər.

Bu belə də oldu. İstintaq işi 1915-ci ilə kimi uzandı. Şahidləri bir yerə yığıb danışdırmaq mümkün olmurdu. Camaat tərəfindən İrəvandan 800 manata tutulan vəkil Karapert Yalaq oğlu iş ilə tanış olduqda demişdir ki, bu ittiham işinə baxmaq üçün iki-üç il lazımdır. O vaxta qədər də dünya bir tərəflik olar. Ona görə də mahbuslar zamına verilməlidir. Polis idarəsi Şahvələd Bağırovadan başqa qalan mahbusları zamına verir. Bu işdən halı olan mahbuslar zamından imtina edirlər. Bu zaman polis idarəsi xəyanətə əl ataraq Şahvələdi zəhərləyir.Ordubaddan həkim Hacı Mir Həsən ağa xəstənin müalicəsini öhdəsinə götürür. Ordubad ictimaiyyətinin təkidi ilə Şahvələd zamına verilir, lakin 3 aydan sonra vəfat edir. [13,v 129-130 ]. 21 məhbusun istintaqı 1917-ci ilin yazına kimi uzanır. Bu zaman çar hakimiyyəti yıxılır. Bütün siyasi məhbuslar kimi onlar da cəzadan yaxa qurtarırlar.

Artıq Birinci Dünya müharibəsində vəziyyət daha da gərginləşdi. Naxçıvandan Qafqaz cəbhəsinə, mal-qara və ərzaq göndərildi. Bu zaman Tivi kəndliləri əleyhinə qaldırılan siyasi ittihamlar da, demək olar ki, öz əhəmiyyətini itirmişdir.

Naxçıvanın başqa kəndlərində olduğu kimi, Tivi kəndində yaşayan kəndlilərin də vəziyyətləri ağır keçirdi. Kəndlilər öz uşaqlarını dolandırmaq məqsədi ilə ən ağır işlər görməyə məcbur idilər.

Yuxarıda qeyd edildiyi kimi, XX əsrin əvvəllərində Naxçıvanın sosial-iqtisadi və siyasi həyatında çar üsul-idarəsinin və mülkədarların tüğyan etməsinə baxmayaraq, ölkənin iqtisadi həyatındakı ictimai münasibətlərlə qarşılıqlı əlaqələrin vəhdəti və ziddiyətləri nəticəsində nə kimi dəyişikliklər olduğunun, ölkədə sinfi mübarizənin kəskinləşməsinin səbəblərini və xüsusiyyətlərini bizə məlum olduğu kimi deyil, müxtəlif forma və üsullarla kəndli çıxışlarının kəskin xarakter aldığını qeyd edirik.

## ƏDƏBİYYAT


1. Cəfərov F.A.Naxçıvan "Qəza polisi" Bakı: "Nurlan" nəşriyyatı, 2008, 192.s
2. Mədətov Q.Ə. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-nin təşkili. Bakı: Azərnəşri: 1958.164.s
3. Əliyev Ə.İ.Naxçıvan kəndlilərinin mübarizə tarixindən."Şərq qapısı" qəzeti 1978, 28 aprel.
4. Nax MRDA .f.582.s.1.iş.26.v.99-101
5. Nax.MRDA.f.22m.s.1.iş.59,v.95
6. "Qafqaz" qəzeti 1905, 17 may
7. Nax.MRDA.f.23m.s.1.iş.2652.v.34-41
8. Nax.MRDA.f582.s1.iş.26.v.99-101
9. Nax.MRDA.fond 23 m.s.1. iş.1267.v.9-12
10. ARDA.f.807,s.2.iş.3848.v.63-70

11. Əliyev Ə.İ.Naxçıvanda Sovet hakimiyyətinin qurulması və möhkəmləndirilməsi uğrunda mübarizə (1920-1921-ci illər). Bakı: "Azərbaycan SSR siyasi və elmi bilikləri yayan cəmiyyət"in nəşriyyatı, 1960, 38 s.
12. Nax.MRDA.f.314.s.5[a],iş 46.v.27
13. Cəfərov.F.A. Naxçıvan polisi: fəaliyyətin əsas istiqamətləri və mərhələləri. Bakı: "Nurlan" nəşriyyatı, 2011, 386 s.

## SUMMARY

**Fakhraddin Jafarov**

**SOCIO-ECONOMIC SITUATION IN NAKHCHIVAN AT THE BEGINNING OF XX CENTURY**

In the article it has been stated that at the beginning of the XX century, as in the entire Russian Empire, the situation of workers in Nakhchivan was extremely difficult. On the one hand, the exploitation of the landowners, and on the other- the large amount of taxes impoverished the peasants and turned them into beggars.

As a result of poverty, the peasants were unable to pay taxes to treasury. The amount of taxes received from them increased from year to year.

In the villages of Nakhchivan, Ordubad and Sharur counties, the peasants joined the fight against the oppresive tyranny, unfair exploitation of beys and khans to obtain land.

***Key words:*** *Cheshmabasar Behrud, Jafar Bayram oglu, Jafargulu Khan, Rahim Khan, Shahhusseyn, Caucasus, Zakhar Kanpolov, Vorontsov-Dashkov, Zangezur.*

## РЕЗЮМЕ

**Фахраддин Джафаров**

**СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКАЯ СИТУАЦИЯ В НАХЧЫВАНЕ В НАЧАЛЕ XX ВЕКА**

В начале XX века, как и во всей Российской империи, положение трудящихся в Нахчыване было крайне тяжелым. Тяжелая помещичья эксплуатация, с одной стороны, и огромные налоги, взимаемые с другой, обнищали и превращали крестьян в нищих. Результатом этого обнищания стало то, что крестьяне не могли платить налоги в казну.

Селения Нахчыванского, Ордубадского и Шарурского уездов включаются в борьбу против остатков самодержавия, нечестной эксплуатации беев, ханов, для приобретения земли крестьяне прибегали к различным средствам.

***Ключевые слова****: Бехруд, Джафар Байрам оглу, Джафаргулу Хан, Рагим Хан, Шахгусейн, Кавказ, Захар Канполов, Воронцов - Дашков, Зангезур.*

---

***Məqaləni çapa təqdim etdi:*** *AMEA-nın müxbir üzvü Zəhmət Şahverdiyev*
***Məqalə daxil olmuşdur:*** *4 noyabr 2021-ci il*
***Çapa qəbul edilmişdir:*** *2 dekabr 2021-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2021, № 2 (111), 53-56
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2021, № 2 (111), 53-56
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2021, № 2 (111), 53-56

**RƏSUL BAĞIROV**
*Naxçıvan Dövlət Universiteti*
*bagirovresul@gmail.com*

**UOT: 94(479.242)**

# NAXÇIVANÇAY VADİSİNİN TUNC DÖVRÜ YAŞAYIŞ YERLƏRİ

*Məqalədə Naxçıvançayı vadisində yerləşən yaşayış yerləri haqqında məlumat verilir. Naxçıvançay vadisində abidələr bir sıra xüsusiyyətlərinə görə mədəni təbəqənin qalınlığına görə fərqlənir. Bu abidələr sırasına Qızılburun I – II Kültəpələr birinci qrupa, Sarıdərə, Kükü, Quyuludağ, Didivar abidələri II qrupa daxildir. Arxeoloqlar tunc dövrü mədəniyyətinin Naxçıvançay vadisində yerləşən abidələrin ətraflı təhlilini vermişlər.*

***Açar sözlər**: qala, yaşayış yeri, mədəni təbəqə, boyalı qablar, daş alətlər*

Naxçıvançay vadisində tunc dövr abidələrinin tədqiqi O.H.Həbibullayev, V.H.Əliyev ilk tunc dövrü abidələrindən əldə olunmuş tunc məmulatı elmi dövriyyəyə daxil edilməsi V.Baxşəliyevin problemə həsr edilmiş tədqiqatları ilə bağlıdır.

Naxçıvan ərazisində yaşayan tayfaların ictimai, siyasi, sosial və təsərrüfat həyatında nəzərə çarpacaq dəyişikliklər e. ə. III minilliyin II yarısında baş verir.

Naxçıvan vadisində tunc dövrü yaşayış yerlərinin əksəriyyəti Naxçıvançay vadisində izlənilmişdir. Naxçıvanın tunc dövrü abidələrindən aşkar olunan arxeoloji material Azərbaycan və Qafqazın digər həmdövr abidələrindən aşkar olunan materiallardan regional xüsusiyyətlərinə görə fərqlənir.

Tunc dövrü abidələrinin bir sıra xüsusiyyətlərinə görə iki qrupa ayırmaq olar. Birinci qrupa mədəni təbəqənin daha qalın olması ilə fərqlənən abidələr daxildir. Bu qrup boyalı qablarla xarakterizə olunur. İkinci qrup isə qara cilalı naxışlı keramika ilə xarakterizə olunur.

Naxçıvanda tunc dövrünə aid abidələrin hər iki qrupu Naxçıvançay vadisində öyrənilmişdir. Birinci qrup abidələri sırasına – I Kültəpə, II Kültəpə, Qızılıburun yaşayış yerləri daxildir. İkinci qrupa daxil olan abidələrə - Sarıdərə, Kükü, Quyuludağ, Didivar abidələri daxildir.

Naxçıvan ərazisində tunc dövrü mədəniyyətini dolğun əks etdirən iki yaşayış yeri – I, II Kültəpə geniş şəkildə öyrənilmişdir.

Ümumiyyətlə, hər iki abidələrin arxeoloji materialları təkcə orta tunc dövrünün yox, Azərbaycan tarixində uzun müddət qaranlıq qalmış ibtidai icma quruluşunun neolit, eneolit, tunc və ilk dəmir dövrü problemlərini ardıcıl öyrənməyə imkan verir (5, s. 19).

Naxçıvançay vadisində yerləşən I Kültəpənin üçüncü təbəqəsi orta və son tunc dövrünə aiddir. Təbəqənin qalınlığı 2 metr qalınlığındadır. Təbəqə abidənin üzərindən 1,5 – 2,5 – 3,5 – 4,5 m dərinlikdə yerləşir. Üçüncü təbəqənin azlığını bir neçə səbəblə izah etmək olar. Ehtimal ki, bu dövrdə tikinti texnikası təkmilləşmiş, bundan əvvəlkinə nisbətən daha möhkəm tikildiyi üçün uzun müddət davam etmiş və nəticədə layların sürətlə təbəqələşməsinə yardım göstərən tikinti qalıqları azalmışdır (7, s. 176).

Təbəqədə qalınlığı 50-60 sm çatan müxtəlif böyüklükdə aşkar daşlardan döşənmiş lay saman qarışığı olan möhrə gəcə oxşar bərkidici material və kərpic parçlar aşkar edilmişdir. Təpənin şimal-şərq qurtaracağında uzunluğu 60-140, eni 45-100, qalınlığı 10-14 sm olan sal daşlardan düzəldilmiş döşəmə qalığı tapılmışdır. Döşəmənin şərq tərəfində bəzi yerlərdə eni 22 m, qalınlığı 12 sm olan çiy kərpicdən hörülmüş divar qalıqları vardır (7, s. 128).

Üçüncü təbəqə çox kiçik sahədə qaldığından burada iri bina qalıqlarına təsadüf edilməmişdir. Eneolit və ilk tunc dövründən fərqli olaraq, orta tunc dövründə tikintidə müəyyən inkişaf nəzərə çarpır. Orta və son tunc dövründə binalar eneolit və ilk tunc dövründəki kimi dairəvi deyil, dördkünc formada tikilmişdir.

Arxeoloji tədqiqatlar zamanı yaşayış yerindən daş, sümük və tuncdan hazırlanmış müxtəlif əmək alətləri tapılmışdır. Gil məmulatı başlıca olaraq çəhrayı, bəzən isə boz və qara rəngdə olub, yaxşı bişirilmişdir. Çəhrayı rəngdə bişirilmiş gil məmulatları içərisində monoxrom və polixrom boyalı qablar üstünlük təşkil edir. Onlar küpə, kasa, badya, çaynik və başqa tip qırıqlardan ibarətdir (9, s. 156). O.H.Həbibullayev I kültəpənin orta, son tunc dövrünə aid boyalı qabları üç tipə bölmüşdür: o, birinci tipə monoxrom boyalı, ikinci tipə polixrom boyalı, üçüncü tipi isə formasına və hazırlanma texnikasına görə əvvəlkilərdən fərqlənən həm monoxrom, həm də polixrom boyalı qabları daxil etmişdir.

Naxçıvançay vadisində II Kültəpədə orta tunc dövrü abidəsi geniş şəkildə öyrənilmişdir. II Kültəpə Cəhriçay Naxçıvançayın birləşdiyi ərazidə yerləşir. Bu abidə 1960-cı ildə aşkar edilmişdir. II Kültəpədə geniş qazıntı işlərinə 1968-ci ildə başlanılmışdır.

II Kültəpə yaşayış yerinin orta tunc dövrü təbəqəsi abidənin müxtəlif yerlərində dörd qazıntı sahəsində öyrənilmişdir. Birinci qazıntı sahəsində dörd tikinti qatı aşkar edilmişdir. Bu dövrə aid mədəni təbəqə abidənin üzərindən 0,5-4,5 m dərinlikdə yerləşir. Tikinti qalıqları V.H.Əliyev tərəfindən aşağıdan yuxarıya doğru sıralanmışdır (9, s. 128).

Birinci tikinti qatı 1-1,2 m qalınlığındadır. Aşkar olunan müdafiə divarının uzunluğu 3.5 m, eni 2,25 m, uzunluğu 1,4 metrdir. Bu qatdan aşkar olunan materiallar başlıca olaraq keramika oraq dişləri, daş, kəkic, dən daşları, həvənglər, dəstələr və s. maddi-mədəniyyət qalıqlarından ibarətdir. Materialların əksəriyyəti boz, qara, çəhrayı rəngdədir. Keramika məmulatı Kür-Araz mədəniyyətinin xüsusiyyətlərini daşımaqdadır. Çəhrayı rəngli gil məmulatlarının bir qismi monoxrom boyalı qablardan ibarətdir. İkinci tikinti qatından Narinqalaya aid divar yaşayış evləri, təsərrüfat binalarının və dulus kürəsinin qalıqları aşkar olunmuşdur. Dördkünc formalı dörd bina qalıqları aşkar olunmuşdur. Üçüncü tikinti qatında monoxrom boyalı qablar sayca azalır. Heyvan şəkilləri ilə bəzədilmiş boyalı qablara isə daha çox rastlanır (6, s. 28).

Dördüncü tikinti qatı 70-80 sm qalınlığındadır. Bu təbəqədə müxtəlif yaşayış binalarının və dulus emalatxanaların qalıqları, heyvan sümükləri, əmək alətləri aşkar olunmuşdur.

II Kültəpənin dəqiq stratiqrafiyası yalnız Azərbaycanın deyil, bütün Cənubi Qafqazın orta tunc dövrü mədəniyyətinin öyrənilməsi üçün əhəmiyyətlidir. Naçxıvançay vadisinin arxeoloji abidələrindən biri də Qızılburun yaşayış yeridir. Abidə Naxçıvan şəhərindən 18 km cənubda Araz çayının sol sahilində Qızılburun adlanan ərazidə yerləşir. 1969-cu ildə iki sahədə qazıntı işləri aparılmışdır. Qazıntılar zamanı 1,6 m dərinlikdən orta tunc dövrünə aid dördkünc və oval formalı bina qalıqları aşkar edilmişdir. Dairəvi formalı binaların divarları çay daşlarından hörülərək gil məhlulla bərkidilmişdir. Binanın divarları çay daşları və möhrədən tikilmişdir.

Arxeoloji materiallara əsasən demək olar ki, Qızılburun yaşayış yeri orta tunc dövründə Azərbaycanın başlıca istehsal mərkəzlərindən biri olmuşdur. Yaşayış yerinin yaxınlığında Qızılburun nekroloqu yerləşir. Nekropol 1985-ci ildə daş qutu tipli qəbirlərin təsadüf nəticəsində dağılması qeydə alınmışdır. Orta tunc dövrünə aid bir neçə qəbir abidəsi N.F.Fyodorov və İ.İ.Meşşaninov tərəfindən öyrənilmişdir (6, s. 30).

Arxeoloji ədəbiyyatda Qızılburun daş qutularının tarixləndirilməsi ilə bağlı müxtəlif fikirlər mövcuddur. V.H.Əliyev qızılburun nekropolunun orta tunc dövrü materiallarını e. ə. XVII-XIX əsrlərə aid edir.

Naxçıvançay vadisində ikinci qrupa daxil olan yaşayış yerlərində mədəni təbəqə az yığılmışdır. Materiallar arasında boyalı qablar – dən daşları, süzgəclər üstünlük təşkil edir. Bu abidələrdən bir qisminə Şahbuz rayonu ərazisində rast gəlinmişdir. Naxçıvançayın qolu Kükü çayının sağ sahilində Kükü yaşayış yeri yerləşir. Yaşayış yerində divar qalıqlarına rast gəlinmişdir. Yerüstü materiallar içərisində çəhrayı və boz rəngli keramikaya, daşdan hazırlanmış müxtəlif əmək alətlərinə

rast gəlinmişdir.

Kükü nekropolu Kükü kəndinin içərisində yerləşir. Bu nekropol V.B.Baxşəliyev tərəfindən tədqiq edilmişdir. Tədqiq olunmuş hər iki qəbrdən bir böyük monoxrom boyalı küpə, xeyli miqdarda boz, qara rəngdə bişirilmiş, cilalanmış və cızma ornamentlə naxışlanmış gil qablar aşkar edilmişdir (3, s. 17).

Küküçay vadisində yerləşən abidələrdən biri də Sarıdərə yaşayış yeridir. Bu abidə Qızıl Qışlaq kəndindən cənub-qərbdə, Küküçayın sağ sahilində yerləşir. Mədəni təbəqə qeydə alınmamışdır. Yerüstü materialları dən daşları, həvənglər, dəstələr, monoxrom boyalı qablardan ibarətdir. Sarıdərə yaşayış yerinin yaxınlığında qeydə alınmışdır. Bu nekropol orta tunc dövrünə aiddir.

Naxçıvançay vadisində tunc dövrünə aid abidələrdən biri də Quyuludağ yaşayış yeridir. Quyuludağ yaşayış yeri Məzrə kəndindən (Babək rayonu) şimalda salınmışdır. 1999-cu ildə burada V.B.Baxşəliyev tərəfindən kəşfiyyat qazıntısı zamanı xeyli miqdarda monoxrom boyalı gil qablar, həvənglər və dəstələr əldə edilmişdir. Yaşayış yerində mədəni təbəqə aşkar olunmamışdır.

Naxçıvançay vadisində tunc dövrünə aid abidələrdən biri də Didivar yaşayış yeridir. Mədəni təbəqənin qalınlığı 3 metrdir. Yaşayış yerində tikinti qalıqlarına rast gəlinmişdir. Yaşayış yerindən xeyli miqdarda həndəsi naxışlarla bəzədilmiş gil qab, boyalı qab qırıqları, çaxmaq daşından hazırlanmış dən daşları, süzgəclər, həvəngdəstələr aşkar olunmuşdur (1, s. 126).

Naxçıvanın tunc dövrü abidələrinin tədqiqi göstərir ki, bu abidələr daha aydın stratiqrafiyaya malikdir. Bu dövrün bütün mərhələləri Naxçıvan abidələrində ardıcıllıqla əks olunmuşdur. Bu isə regionda əhalinin uzun müddət məskunlaşması, şübhəsiz ki, ərazinin əkinçilik və maldarlıq üçün əlverişli olması, həmçinin Yaxın Şərqin qədim yaşayış mərkəzlərinə yaxınlığı ilə bağlı olmuşdur.

## ƏDƏBİYYAT


1. Baxşəliyev, V.B. Naxçıvanın arxeoloji abidələri. Bakı: Elm, 2008, 304 s.
2. Baxşəliyev, V.B. Azərbaycan arxeologiyası (Ali məktəb tələbələri üçün vəsait). Bakı: Elm, 2007, 240 s.
3. Baxşəliyev, V.B. Naxçıvanın erkən dəmir dövrü mədəniyyəti. Bakı: Elm, 2002, 128 s.
4. Əliyev, V.H. Azərbaycanda tunc dövrünün boyalı qablar mədəniyyəti. Bakı: Elm, 1977, 164 s.
5. Əliyev, V.H. Naxçıvan Azərbaycanın qədim diyarıdır. Bakı: XXI Yeni Nəşrlər Evi, 2002, 230 s.
6. Əliyev, V.H. Qədim Naxçıvan. Bakı, Elm,1979, 76 s.
7. Həbibullayev, O.H. Kültəpədə arxeoloji qazıntılar. Azərbaycan SSRİ EA nəşriyyatı. Bakı: 1959, 134 s.
8. Naxçıvan abidələri. Ensiklopediya. Naxçıvan: 2008, 519 s.
9. Seyidov, A.Q. Naxçıvan e. ə. VII-II minillikdə. Bakı: Elm, 2003, 339 s.
10. Seyidov, A.Q., Baxşəliyev V.B., Novruzlu Ə.İ., Babayev V.M. Naxçıvanın və Babək bölgəsinin arxeoloji abidələri. Bakı: Azərbaycan, 1995, 96 s.

## SUMMARY

**Rasul Bagirov**

## BRONZE AGE OF NAKHCHIVANCHAY VALLEY RESIDENCES

The article provides information about the settlements located in the Nakhchivan river valley. Monuments in the Nakhchivan river valley differ in a number of features due to the thickness of the cultural layer. hese monuments include the first group of Gizilburun I-II Kultapa, the monuments of Saridare, Kuku, Quyuludagh, Didivar belong to the second group. Archaeologists have given a detailed analysis of the monuments of the Bronze Age culture located in the Nakhchivan river valley.

***Key words:*** *fortress, place of residence, cultural layer, painted pottery, stone tools.*



## РЕЗЮМЕ

**Расул Багиров**

## БРОНЗОВЫЙ ВЕК НАХЧИВАНЧАЙСКОЙ ДОЛИНЫ РЕЗИДЕНЦИИ

В статье представлена информация о населенных пунктах, расположенных в долине реки Нахчыван. Памятники в долине реки Нахчыван отличаются рядом особенностей из-за толщины культурного слоя. К этим памятникам относится первая группа Гызылбурун I-II Култапа, памятники Саридаре, Куку, Куюлудаг, Дидивар относятся ко второй группе. Археологи подробно проанализировали памятники культуры бронзового века, расположенные в долине реки Нахчыван.

***Ключевые слова:*** *крепость, место жительства, культурный слой, расписная керамика, каменные орудия труда.*



***Məqaləni çapa təqdim etdi:*** *AMEA-nın müxbir üzvü Zəhmət Şahverdiyev*
***Məqalə daxil olmuşdur:*** *4 noyabr 2021-ci il*
***Çapa qəbul edilmişdir:*** *2 dekabr 2021-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2021, № 2 (111), 57-62
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2021, № 2 (111), 57-62
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2021, № 2 (111), 57-62

**HACIFƏXRƏDDİN SƏFƏRLİ**
*AMEA Naxçıvan Bölməsi*
**SABİR XƏLİLOV**
*Naxçıvan Universiteti*

**UOT: 94(479.24)**

# NAXÇIVANIN EPİQRAFİK ABİDƏLƏRİNİN TƏRTİBİ XÜSUSİYYƏTLƏRİ

*Məqalədə Naxçıvan ərazisində indiyədək qalan epiqrafik abidələrin tərtibatı qaydalarından bəhs olunur. Qeyd edilir ki, bütün müsəlman dünyasında olduğu kimi, Naxçıvan ərazisində də kitabələrin tərtibatında, əsasən, şablon formalardan istifadə olunmuşdur. Belə ki, istər inşaat, istərsə də məzar kitabələri hazırlanarkən mətnin xarakterinə uyğun olaraq, orada dini xarakterli kəlamlardan, Quran ayələrindən, insana güclü psixoloji təsir edən dini mətnlərdən, mənzum parçalardan və s. istifadə edilmişdir. Sonra isə kitabənin əsas mətni həkk edilmişdir. Həmçinin bu zaman ərəb əlifbasının elastikliyindən və yuvarlaqlığından istifadə edilərək abidələrin dekorativ bəzəyi zənginləşdirilmiş, xəttat və həkkaklar bu məqsədlə hərflərarası boşluqları doldurmaq üçün həndəsi ornamentlərdən və nəbati təsvirlərdən yararlanmışlar. Beləliklə, nəfis şəkildə tərtib olunmuş tarix-mədəniyyət abidələri yaradılmışdır.*

***Açar sözlər:*** *Azərbaycan, Naxçıvan, epiqrafik abidə, kitabə, Qurani-Kərim, surə, ayə, dini mətn, yazı.*

Azərbaycan və onun qədim mədəniyyət mərkəzlərindən olan Naxçıvan ərazisində zəmanəmizədək çoxlu sayda epiqrafik abidələr gəlib çatmışdır. Ərəb əlifbasının müxtəlif xətləri ilə həkk edilmiş bu abidələr həm obyektivliyi ilə seçilən sanballı tarixi mənbə kimi, həm də nəfis şəkildə hazırlanmış mədəniyyət abidəsi kimi diqqəti cəlb edir. Bu isə həmin abidələrin tərtibi xüsusiyyətlərindən irəli gəlmişdir. Tədqiqatlarımız, müşahidələrimiz və digər müsəlman epiqrafikası abidələrinin tədqiqatçılarının əsərləri təsdiq edir ki, bütün müsəlman Şərqi ölkələrinin ərazisində olduğu kimi Naxçıvan ərazisində də orta əsrlər zamanı yaradılan epiqrafik abidələrin tərtibatında çox vaxt şablon formalardan istifadə olunmuşdur. Kitabələrin mətni tərtib olunarkən onun məzmununa və xarakterinə uyğun olaraq, əsas mətnlə birlikdə Allahın adlarından, Allaha aid kəlamlardan, İslamın müqəddəs kitabı Qurani-Kərimin surə və ayələrindən, dini xarakterli sözlərdən geniş şəkildə istifadə olunmuşdur. Həm də bu qəbil mətnlər Allahla, Quranla, dinlə bağlı olduğundan kitabənin mətninin əvvəlində verilmişdir. Çünki orta əsr memarlıq nümunələri və qəbirüstü xatirə abidələri üzərində həkk edilən, Allahın vahidliyini təbliğ edən, insanlara yüksək dini-əxlaqi keyfiyyətlər aşılayan islami dəyərlərin, xüsusilə Quran ayələrinin və dini xarakterli kəlamların psixoloji və həyəcanlandırıcı təsiri digər mətnlərə nisbətən daha güclüdür. Bu qəbildən olan kitabələr insanlara böyük estetik zövq bəxş edir, güclü psixoloji təsir göstərirdi. Beləliklə, onlar insanlara vahid Allahın adı ilə insanpərvərlik, xeyirxahlıq, rəhmdillik, ədalət, bir-birinə hörmət və inam hissləri aşılayırdı (9, s. 4). Bu qəbil mətnlərdən sonra isə əsas məqsədə keçilir və əgər inşaat kitabəsidirsə, orada abidənin təyinatı, sifarişçisi, nə məqsədlə tikildiyi, inşa tarixi, memarı və s., məzar kitabəsidirsə, mərhum haqqında məlumatlar (adı, atasının adı, titulları, vəfat tarixi və s.) qeyd olunurdu.

Orta əsrlər zamanı kitabələrdə həkk olunan, insanlara Allaha inamı, onun mərhəmətinə ümid etməyi, axirət dünyasına, cənnət və cəhənnəmə inam aşılayan Quran ayələri və dini xarakterli kəlamlardan islam ideyalarının təbliği üçün istifadə edildiyindən Qurani-Kərimdən ayələr və dini kəlamlar bütün növ epiqrafik abidələrdə – inşaat və məzar kitabələrinin mətnində yerləşdirilirdi (11,

s. 110). Kitabələr hazırlanarkən xəttatlıq baxımından da çox yüksək səviyyədə yazılır, bu vasitə ilə abidələrin bədii tərtibatını zənginləşdirmək üçün canlı təsvirlərindən istifadə olunması təqdir olunmayan orta əsrlər dövründə abidənin gözəlliyi artırılırdı. Çünki orta əsr sənətkarları ərsəyə gətirdikləri abidələrin gözəl olması, görənlərin diqqətini cəlb etməsi üçün səy göstərir, çalışır, bunun üçün müxtəlif vasitələrdən və üsullardan istifadə edirdilər. Belə üsullardan biri kitabələrin yazıldığı ərəb əlifbasına məxsus xətlərin bəzək ünsürünə çevrilməsi idi. Xəttat və həkkaklar ərəb əlifbasının müxtəlif xətlərindən, onun yuvarlaq və elastikliyindən məharətlə istifadə edərək kitabələri bəzək ünsürünə çevirir və gözəl sənət əsərləri yaradırdılar. Bu məqsədlə onlar mətndə sözlərarası boşluqları doldurmaq üçün həndəsi ornamentlərdən, nəbati təsvirlərdən də bacarıqla istifadə edir, onları bir-biri ilə əlaqələndirir, uyğunlaşdırır, nəticədə gözəl sənət əsərləri yaradırdılar. Belə bəzək ünsürlərinin ən parlaq nümunələrini biz Naxçıvan memarlıq məktəbinə məxsus memarlıq abidələri və orta əsrlərə aid qəbirüstü sənduqə və başdaşı tipli xatirə abidələri üzərində görürük.

Naxçıvan ərazisində indiyədək gəlib çatan kitabələrin mətnində müqəddəs Qurani-Kərimdən bütöv surələrə, böyük və kiçik ayələrə, dini xarakterli mətnlərə rast gəlinir. Məsələn, Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən 1162-ci ildə Naxçıvan şəhərində ucaldılan Yusif Küseyr oğlu türbəsinin qurşağında (frizində) Qurani-Kərimin 3-cü surəsindən 17-19-cu ayələr və 112-ci surə yazılmışdır. 1186-cı ildə Naxçıvan şəhərində inşa edilən Möminə xatın türbəsinin on tağının kənarları boyunca Qurani-Kərimin 83 ayədən ibarət olan “Yasin” surəsi 2 dəfə (7, s. 377), türbənin tağlarının hamısının baş tərəfində isə 40-cı surənin 16-cı ayəsinin son hissəsi yazılmışdır (5, s. 63; 7, s. 377).

Kəngərli rayonunun Qarabağlar kəndindəki Türbə Kompleksinə daxil olan qoşa minarənin və türbənin üzərində də biz Qurani-Kərimdən bir neçə ayənin yazılmasının şahidi oluruq. Kompleksə daxil olan qoşa minarələrin baş tərəfində Qurani-Kərimin “əl-Həcc” surəsindən 28-29-cu ayələr (3, s. 22), türbənin portallarının dördünün də baş tərəfində isə 40-cı surənin 16-cı ayəsinin son hissəsi yazılmışdır. Türbənin frizində isə “əl-Mülk” surəsindən I-VI ayələr qeyd olunmuşdur (3, s. 25). Əlincəçay xanəgahı kompleksinə daxil olan əsas türbənin daxilindəki iki ədəd mehrabdan birinin çərçivəsində müqəddəs kitabın 3-cü surəsindən 16-17-ci ayələr, 112-ci surə və 40-cı surənin 16-cı ayəsindən bir hissə, ikinci mehrabın çərçivəsində isə I surədən I-V ayələr və “Allahdan başqa Allah yoxdur, Məhəmməd Allahın elçisidir!” doktrinası özünə yer almışdır (7, s. 382).

Naxçıvanın epiqrafik abidələri içərisində məzar kitabələri daha geniş yayılmışdır. Məzar kitabələrinin mətni tərtib olunarkən Quran ayələrindən və dini xarakterli sözlərdən geniş istifadə edilirdi. Bu ayələr və dini kəlamlar insanlara bu dünyanın fani, axirət dünyasının əbədi olmasını, ölümün labüdlüyünü çatdırmaqla bərabər, bir növ mərhumun ailə üzvlərinə, qohumlarına və yaxınlarına təsəlli vermək məqsədi daşımışdır. Naxçıvan ərazisində tədqiq etdiyimiz məzar kitabələrinin çoxunda Qurani-Kərimin 55-ci surəsinin 26-cı ayəsi həkk edilmişdir: “(Yer) üzündə olan hər kəs (hər canlı) fanidir (ölümə məhkumdur)!”. Bu ayə bir qayda olaraq bütün növ qəbirüstü xatirə abidələrinin (başdaşıların, sənduqələrin, daş qoç və qoyun fiqurlarının) yuxarı, baş tərəfində, epitafiyanın birinci sətrində yazılırdı. Ancaq bəzən birinci sətirdə Allahın əbədiliyi, böyüklüyü, mərhəmətli, rəhmli, bağışlayan olması və s. ilə əlaqədar sözlər yazıldığı üçün həmin ayə sonrakı sətirə keçirilirdi. Məzar kitabələrinin çoxunda həmin ayə ilə birlikdə ondan sonrakı 27-ci ayə də həkk edilmişdir: “(Yer) üzündə olan hər kəs (hər canlı) fanidir (ölümə məhkumdur). Ancaq, əzəmət və kərəm sahibi olan Rəbbinin zatı baqidir!” (1, s. 531).

Məzar kitabələrində rast gəldiyimiz Quran ayələrindən biri də 29-cu surənin 57-ci ayəsidir: “Hər bir kəs (hər bir canlı) ölümü dadacaqdır!”. Qurani-Kərimin bu ayəsi yazılmış abidələr ən çox Ordubad şəhərində qeydə alınaraq tədqiq olunmuşdur. Digər müsəlman ölkələrində də məzar kitabələri tərtib olunarkən bu ayədən geniş istifadə olunmuşdur. Azərbaycan epiqrafik abidələrində çox da geniç təsadüf edilməyən bu ayə Kuxistan məzar kitabələrinin əksəriyyətində qeyd olunmuşdur (8). Hətta tacikistanlı alim A.M.Muxtarov bu ayəni Kuxistan məzar kitabələrinin “mütləq ünsürü” kimi səciyyələndirmişdir (8, s. 9).

Məzar kitabələri üzərində həkk edilən Quran ayələrindən biri də 2-ci surənin 255-ci ayəsidir: “Allahdan başqa heç bir tanrı yoxdur. (Diri, Zatı ilə qaim olan, kainatı yaradıb idarə edən) əbədi, əzəli

varlıq Odur. O nə mürgü, nə də yuxu bilər. Göylərdə və yerdə nə varsa (hamısı) Onundur. Allahın izni olmadan (qiyamətdə) Onun yanında kim şəfaət (bu və ya digər şəxsin günahlarının bağışlanmasını xahiş) edə bilər? O, bütün yaranmışların keçmişini və gələcəyini (bütün olmuş və olacaq şeyləri) bilir. Onlar Allahın elmindən Onun Özünün istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun kürsüsü (elmi, qüdrət və səltənəti) göyləri və yeri əhatə etmişdir. Bunları mühafizə etmək Onun üçün heç də çətin deyildir. O, ucadır, böyükdür!" (1, s. 41). Naxçıvan ərazisində tədqiqata cəlb etdiyimiz sənduqələr üzərində bu ayə adətən sənduqənin səthinin kənarlarında və yanında lentvari haşiyə şəklində yazılırdı. Az da olsa, bu ayənin başdaşılar üzərində yazılmasına da təsadüf edilir. Naxçıvan şəhərində, Ordubad rayonunun Düylün kənd qəbiristanlığında (11, s. 45) və s. tədqiq olunan bir neçə başdaşı üzərində də bu ayə həkk edilmişdir. Əsasən, sənduqələr üçün xarakterik olan bu ayə yazılmış başdaşıya Azərbaycan xatirə abidələri içərisində çox geniş şəkildə təsadüf edilmir. İslam dininin banisi Məhəmməd peyğəmbərin "Qurani-Kərimin ən əzəmətli ayəsi" (2, s. 224) adlandırdığı, dindarlar arasında "Ayətəl-Kürsü" adı ilə tanınan bu ayənin qəbirüstü abidələr üzərində həkk edilməsi islam ehkamlarına görə mərhumun axirət dünyasında sorğu-sual zamanı vəziyyətinin yüngülləşdirilməsi inamından irəli gəlmişdir.

Naxçıvan ərazisində tədqiq etdiyimiz məzar kitabələrində Qurani-Kərimin 28-ci surəsindən 88-ci ayənin mətninə də rast gəlinir: "Allahdan başqa hər şey məhvə məhkumdur!" (1, s. 395). Göründüyü kimi, bu ayə də insanlara ölümün labüdlüyünü, yalnız Allahın əbədi olmasını təlqin edir. Naxçıvanın məzar kitabələrində nadir hallarda Qurani-Kərimin 2-ci surəsinin 156-cı ayəsi də yazılırdı: "Biz Allaha məxsusuq və (vaxtı gələndə) Onun yanına (Onun hüzuruna) qayıdacağıq!" (1, s. 23). Bu ayə insanların Allah tərəfindən yaradılması və ölüb yenidən ona doğru qayıtması fikrini aşılayır. Ona görə də, bu ayəyə xalq arasında "Qayıtma duası" da deyirlər. Şahbuz rayonunun Aşağı Qışlaq kənd qəbiristanlığında tədqiq olunan bir ədəd başdaşı üzərində yazılmış kitabə (11, s. 61) istisna olmaqla, bu ayə yazılmış başqa bir qəbirüstü abidəyə Naxçıvan ərazisində hələlik təsadüf edilməmişdir.

Xatirə abidələrindən əlavə inşaat kitabələrində də Qurani-Kərimdən götürülmüş ayələrə və dini mətnlərə rast gəlinir. Bu tip kitabələrdə rast gəlinən dini mətnlər və Qurani-Kərimdən ayələr tikintinin hansı məqsədə tikilməsi və xarakterinə uyğun olaraq yazılırdı. Naxçıvan ərazisində öyrəndiyimiz inşaat kitabələrinin bir hissəsini məscid kitabələri təşkil edir. Naxçıvan bölgəsində tədqiq olunan məscid kitabələrində əsasən Qurani-Kərimin IX surəsinin 18-ci və 72-ci surəsinin 18-ci ayələri həkk edilmişdir. Ordubad rayonunun Dəstə kənd məscidində giriş qapısının baş tərəfində qoyulan kitabədə Qurani-Kərimin 72-ci surəsindən 18-ci ayə həkk edilmişdir: "Şübhəsiz ki, (bütün) məscidlər Allaha məxsusdur. Allahla yanaşı, heç kəsə ibadət etməyin, (Allahdan) savayı heç kəsi çağırmayın, heç kəsə dua etməyin!" (1, s. 572). Bu ayə məscidlərin Allaha məxsus olduğunu elan etməklə onların toxunulmazlığını təmin edir. Dəstə məscidinin digər kitabəsində isə IX surənin 18-ci ayəsi həkk edilmişdir. Tədqiq etdiyimiz digər məscid kitabələrində, o cümlədən Ordubad şəhərindəki Mingis, Naxçıvan şəhərindəki Came (Cəfəriyyə) məscidlərində də Qurani-Kərimin həmin ayəsi həkk edilmişdir: "Allahın məscidlərini yalnız Allaha və qiyamət gününə iman gətirən, namaz qılıb zəkat verən və Allahdan başqa heç kəsdən qorxmayanlar təmir edə (abadlaşdıra, tikə) bilərlər!" (1, s. 188). Bu ayə ilə məscidlərin təmiri və bərpası təqdir olunur. Buna görə də orta əsrlər zamanı bir sıra məscidlər ayrı-ayrı imkanlı şəxslər və ya bütün camaat tərəfindən təmir etdirilir, yaxud tikdirilirdi. Bunu Azərbaycan ərazisində indiyədək qalan məscid kitabələri də təsdiq edir.

Epiqrafik abidələrdə Qurani-Kərimin ayələrindən başqa çoxlu sayda dini xarakterli yazılar da həkk edilmişdir. Bu yazılar əsasən Allahın əbədi, mərhəmətli, rəhmli, bağışlayan olmasını, ölümün labüdlüyünü və s. vurğulayan fikirlərdən ibarətdir. Kitabələrin, xüsusi ilə xatirə abidələri üzərindəki epitafiyaların bir çoxunun baş tərəfində: "O əbədidir!", "Allah əbədidir!", "O bağışlayandır!", "Ey rəhmli!", "Ey mərhəmətli!", "Ey bağışlayan!", "Ey Allah!", "Ey rəhmli!", "Ey mərhəmətli!", "Ey günahkarları bağışlayan!" və s. bu kimi Allahın əbədiliyini, rəhmliliyini, bağışlayan olmasını təbliğ edən dini xarakterli sözlər həkk edilmişdir. Bir neçə məzar kitabəsində "Tövbə" surəsi istisna olmaqla Qurani-Kərimin bütün surələrinin başlandığı "Bismilləhir-rahmənir-rahim!" sözləri həkk edilmişdir.

Müsəlman dünyasında bütün sənədlər, hətta dövlət fərmanları, dərman nüsxələri, məktublar və s. bu sözlərlə başlandığı, ümumiyyətlə hər bir işə başlanan zaman bu sözlər xatırlandığı üçün bəzən kitabələrin yazılmasında da bu üsuldan istifadə edilmişdir.

Naxçıvan epiqrafik abidələrində islam dininin doktrinasına da rast gəlinir. Qarabağlar Türbə Kompleksinə daxil olan türbənin gövdəsində firuzəyi kaşılı və qırmızımtıl rəngli kərpiclərin ustalıqla hörülməsi ilə əmələ gətirilən rombların içərisində eyni üsulla dəfələrlə təkrarlanan “Allahdan başqa Allah yoxdur, Məhəmməd – Allahın ona salavatı olsun – Allahın elçisidir!” (3, s. 25) doktrinası yazılmışdır. Bu məzmunlu kitabələrə qəbirüstü xatirə abidələri üzərində də rast gəlinir. Bəzən həmin sözlərin ardınca şiəliyin doktrinası – “Əli Allahın dostudur!” fikri də vurğulanırdı.

Bir sıra qəbirüstü xatirə abidələri üzərində şiə dünyasında 14 məsum (Məhəmməd peyğəmbər, qızı Həzrəti Fatimə və 12 imam) kimi tanınan müqəddəslərin adları qeyd edilmişdir. Bu mətnə Naxçıvan və Ordubad şəhərlərində tədqiq etdiyimiz qəbirüstü xatirə abidələri üzərində rast gəlinmişdir. Məsələn, kitabələrin birində 14 məsumun adı belə ifadə olunmuşdur: “Allahın salamı olsun peyğəmbərə və vəsisinə (Məhəmməd peyğəmbərin əmisi oğlu, kürəkəni, şiələrin I imamı, 656-661-ci illərdə xilafətə rəhbərlik etmiş IV xəlifə Həzrəti Əli nəzərdə tutulur-H.S.), Bətula (Məhəmməd peyğəmbərin qızı Həzrəti Fatimə nəzərdə tutulur-H.S.), nəvələrinə (Həsən və Hüseynə-H.S.) və əs-Səccada və əl-Baqirə və əs-Sadiqə və əl-Kazimə və ər-Rzaya və ət-Təqiyə və ən-Nəqiyə və əl-Əsgəriyə və əl-Mehdi əs-Sahib əz-Zamana – salavat” (5, s. 105-106). Bu da yerli əhalinin şiə olmasından irəli gəlmişdir. Bu mətn ayrı-ayrı abidələrdə cüzi fərqlərlə verilmişdir.

Şiəlik ideologiyası əsasında yaradılmış Səfəvilər dövlətinə rəhbərlik edən hökmdarlar sonrakı vaxtlarda da hakimiyyətlərini möhkəmləndirmək və genişləndirmək üçün şiəlikdən məharətlə istifadə edirdilər. Şiəliyi ardıcıl təbliğ edən Səfəvi şahları, “Səfəviyyə” sufi cəmiyyətinin şeyxləri və onların tərəfdarları şiəliyin yayılması üçün bütün vasitələrdən, o cümlədən abidələr üzərində yazılan kitabə motivlərindən də geniş şəkildə istifadə edirdilər. Ona görə də təsadüfi deyildir ki, XVI əsrdən etibarən kitabələrin mətninə tez-tez şiə aləmində çox böyük hörmətə və nüfuza malik olan 14 məsumun adları da daxil edilirdi (10, s. 53).

Naxçıvan ərazisində tədqiq olunan çoxsaylı kitabələrin təhlili göstərir ki, kitabələrin tərtibatında orta əsr şairlərinin yaradıcılığından, yaxud da xalq yaradıcılığı nümunələrindən götürülmüş kiçik həcmli şeir parçalarından, mənzum parçalardan da istifadə olunmuşdur. Bu mənzum parçaların içərisində sırf dini xarakterli şeirlərə rast gəlinsə də, əsasən ölümün labüdlüyü, ölümdən şikayət, dünyanın faniliyi, axirət dünyasının əbədiliyi və s. fikirləri təlqin edən mənzum parçalar daha çoxdur. Ordubad bölgəsində bir neçə məscidin divarında XVI əsrdə, Səfəvilər dövründə yaşamış İran şairi Möhtəşəm Kaşaninin şiələrin III imamı Hüseynə həsr etdiyi

“Bu Hüseyn kimdir ki, dünya onun divanəsidir?
Bu necə şamdır ki, ürəklər onun pərvanəsidir?”

beyti ilə başlanan şeirindən bir neçə sətir yazılmışdır (4, s. 64).

Bir neçə məzar kitabəsində ölümün labüdlüyünü, bütün yaranmışların mütləq öləcəyini təlqin edən “Ölüm kasasını (şərbətini) hər kəs içəcəkdir!” misrası həkk edilmişdir. Bəzi kitabələrdə mətnin başqa bir variantına rast gəlinir: “Ölüm qapısına hər bir kəsin daxil olması şübhəsizdir!”. Bu qəbil şeirlər həkk edilmiş kitabələr əsasən daha çox Ordubad şəhərində qeydə alınmışdır. Şəhərdə tədqiq olunan sənduqə tipli bir qəbirüstü xatirə abidəsi üzərində fars dilində yazılmış şeir parçası ölümdən şikayət baxımından diqqəti cəlb edir:

Ey ölüm, minlərlə ev viran etdin,
Vücud mülkündə can qarət etdin.
Dünyada gördüyün hər qiymətli gövhəri,
Apardın, torpaq altında pünhan etdin! (4, s. 68).

Kitabələri tərtib edən sənətkarlar onların daha maraqlı və cəlbedici olması üçün müxtəlif mətnlərdən, obrazlı ifadələrdən istifadə edirdilər. Hətta bəzi kitabələrdə əks olunan məlumatları anlamaq oxucudan yüksək dini bilik tələb edir. Məsələn, bir məscidin kitabəsində Məhəmməd peyğəmbər və dördüncü xəlifə, şiələrin birinci imamı Həzrəti Əli və imamlar haqqında geniş kitabə

yazılmışdır (5, s. 82). Mətni belədir: "Yaranışın əvvəlindən sonunadək bəxşişkar olan Allaha sitayiş. Sitayişdən sonra Rəfrəfə minən axırıncı peyğəmbərə salavat və salam. Məhəmməd və ardınca gələni (vəsisi) Heydər ləqəbli Əlini çağır. Əlini axtar. Həqiqətən o, zövci (xanımı) və 11 övladı yaranmışların ən yaxşısıdır (seçilmişidir)" (5, s. 82).

Naxçıvan ərazisində tədqiq etdiyimiz inşaat və məzar kitabələrinin təhlili göstərir ki, Naxçıvan ərazisində orta əsrlər zamanı yaradılmış epiqrafik abidələr digər müsəlman ölkələrində yaradılan kitabələrlə oxşar şəkildə tərtib olunmuşlar. Orta əsr Azərbaycan sənətkarlarının əməyinin məhsulu olan bu kitabələr onları yaradan xəttat və həkkakların öz işlərinin mahir ustası olmasını nümayiş etdirən sənət nümunələri olmaqla bərabər, həm də orta əsrlər zamanı Naxçıvanın, bütövlükdə Azərbaycanın digər müsəlman ölkələri ilə elmi-mədəni, iqtisadi əlaqələrinin olduğunu göstərən faktlar kimi də diqqəti cəlb edir.

## ƏDƏBİYYAT

1. Qurani-Kərimin Azərbaycan dilinə tərcüməsi. Yenidən işlənmiş XVII nəşr. Ərəb dilindən tərcümə edənlər Z.Bünyadov, V.Məmmədəliyev. Bakı: Nurlar, 2015, 632 s.
2. Seyyid Məhəmməd Rza Hüseyni. İstək duaları (Məfatihul-hacat). Mütərcim: Mayis Ağaverdiyev. Naşir: "Əhli-Beyt" məktəbi nəşriyyatı, 325 s.
3. Səfərli F. Qarabağlar Türbə Kompleksi və onun kitabələri. Qarabağlar Türbə Kompleksi. Naxçıvan: "Əcəmi" NPB, 2018, s. 19-27.
4. Səfərli H. Ordubad şəhərinin müsəlman epiqrafikası abidələri. Bakı: "MBM", 2009, 192 s.
5. Səfərli H. Naxçıvan şəhərinin epiqrafik abidələri. Naxçıvan: "Əcəmi" NPB, 2019,152 s.
6. Səfərli H. Əlincəçay mahalının epiqrafik abidələri. Naxçıvan: "Əcəmi" NPB, 2020, 200 s.
7. Алескерзаде А.А. Надписи архитектурных памятников Азербайджана эпохи Низами. В кн.: Архитектура Азербайджана. Эпоха Низами. Москва-Баку, 1947, с. 369-390.
8. Мухтаров А.М. Эпиграфические памятники Кухистана. Кн. II. Душанбе: Дониш, 1979, 152 с.
9. Неймат М. Корпус эпиграфических памятников Азербайджана. Том III. Баку: XXI–Yeni nəşrlər evi, 2001, 216 с.
10. Нейматова М.С. Эпиграфические памятники и их значение в изучении социально-экономической истории Азербайджана (XIV-XIX вв.). Автореф. дис. … докт. ист. наук. Баку, 1968, 96 с.
11. Сафарли Ф.Я. Эпиграфические памятники Нахчывана. Нахчыван: ИПО «Аджеми», 2017, 200 с.

## SUMMARY

**Hajifakhraddin Safarli**
**Sabir Khalilov**

## FEATURES OF COMPILATION OF EPIGRAPHIC MONUMENTS OF NAKHCHIVAN

The article discusses the rules of design of epigraphic monuments remaining in the territory of Nakhchivan. It is noted that in the territory of Nakhchivan, as well as in the whole Muslim world, mainly template forms were used in the design of the inscriptions. Thus, in accordance with the nature of the text, both construction and tomb inscriptions are made of religious sayings, verses of the Qur'an, religious texts that have a strong psychological effect on people, verse pieces and so on. were used. Then the main text of the inscription was engraved. Also, using the elasticity and roundness of the Arabic alphabet, the decorative decoration of the monuments was enriched, and calligraphers and engravers used geometric ornaments and floral drawings to fill the gaps between the letters. Thus,

elegantly designed historical and cultural monuments were created.

***Key words:*** *Azerbaijan, Nakhchivan, epigraphic monument, inscription, Holy Quran, surah, verse, religious text, writing.*

**РЕЗЮМЕ**

**Гаджифахреддин Сафарли**
**Сабир Халилов**

**ОСОБЕННОСТИ ОФОРМЛЕНИЯ ЭПИГРАФИЧЕСКИХ ПАМЯТНИКОВ НАХЧЫВАНА**

В статье рассказывается о правилах оформления эпиграфических памятников, оставшихся до сих пор на территории Нахчывана. Отмечается, что, как и во всем мусульманском мире, на территории Нахчывана при оформлении надписей использовались в основном шаблонные формы. Так, при изготовлении как строительных, так и надгробных надписей, в соответствии с характером текста, там использовались высказывания религиозного характера, аяты Корана, религиозные тексты, оказывающие сильное психологическое воздействие на человека, стихотворные отрывки и другие элементы. Затем был вырезан основной текст надписи. Также в это время, используя гибкость и округлость арабского алфавита, было обогащено декоративное оформление памятников, с этой целью каллиграфы и резчики использовали геометрические орнаменты и набатейские рисунки для заполнения межбуквенных пространств. Таким образом, были созданы изящно оформленные историко-культурные памятники.

***Ключевые слова:*** *Азербайджан, Нахчыван, эпиграфический памятник, книга, Коран, сура, аят, религиозный текст, письмо.*

***Məqalə daxil olmuşdur:*** *4 noyabr 2021-ci il*
***Çapa qəbul edilmişdir:*** *2 dekabr 2021-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2021, № 2 (111), 63-69
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2021, № 2 (111), 63-69
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2021, № 2 (111), 63-69

**YAŞAR RƏHİMOV**
*AMEA Naxçıvan Bölməsi*
*yasarrahimov@yahoo.com*

**UOT: 94 (479.24)**

# XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ NAXÇIVANDA DUZ İSTEHSALI VƏ TİCARƏTİ TARİXİNDƏN (RUS MƏNBƏLƏRİ ƏSASINDA)

*XIX əsrin əvvəllərində Naxçıvan daş duz yataqları rus tədqiqatçılarının, səyyahların və sənayeçilərin diqqətini daha çox cəlb etmişdir. XIX və XX əsrin ilk onilliklərinə dair Naxçıvan tarixinə aid olan bir neçə rus mənbəsində bu dövrdə diyarımızda hasil edilən duzun keyfiyyəti, ixracı, qiyməti, miqdarı və s. məsələlər haqqında maraqlı məlumatlar əldə etmək mümkündür. Məqalədə müxtəlif rus müəlliflərinin - A.Marqolusun, P.Şeremetyevskinin, V.Qriqoryevin, S.Zelinskinin, K.Nikitinin, N.Nikiforovun, İ.Şopenin əsərləri tədqiqata cəlb edilmişdir. Tədqiqatın metodu tarixi-müqayisəli matoddur. Sonda belə bir nəticəyə gəlinmişdir ki, Naxçıvanda duz çıxarılması və ticarəti qədim zamanlardan - daş dövründən meydana gəlmiş, Duzdağ mədənlərinin, ümumiyyətlə, Naxçıvan tarixinin tədqiqi zamanı istifadə edilən rus mənbələrinin demək olar ki, hamısında göstərilən fakt və rəqəmləri olduğu kimi qəbul etmək düzgün olmaz: yəni bu əsərləri tədqiq edərkən onlar tənqid süzgəcindən keçirilməli, diqqətlə və hərtərəfli araşdırılmalıdır. Müəyyən çatışmazlıqlara baxmayaraq, rus mənbələrinin böyük əksəriyyəti Naxçıvan tarixi üçün əvəzsiz və qiymətli mənbələrdir.*

***Açar sözlər:*** *Naxçıvan, duz, mədən, Duzdağ, XIX-XX əsrin əvvəlləri*

Azərbaycan tarixşünaslığında yeni istiqamət alan Naxçıvan tarixinin öyrənilməsi tarix elmi qarşısında duran mühüm problemlərdəndir. Xalqımızın tarixində özünəməxsus mövqeyi olan bu diyarın tarixi haqqında mənbələrdə geniş məlumat vardır. Hələ XIX əsrin əvvəllərində Naxçıvanda olmuş rus tədqiqatçıları, səyyahları və sənayeçiləri diyarın təbii sərvətləti ilə də maraqlanmış, Naxçıvan daş duz yataqları onların diqqətini daha çox cəlb etmişdir. XIX əsr Naxçıvan tarixinə aid olan bir neçə rus mənbəsində bu dövrdə diyarımızda hasil edilən duzun keyfiyyəti, ixracı, qiyməti, miqdarı və s. məsələlər haqqında maraqlı məlumatlar əldə etmək mümkündür.

Qeyd edək ki, diyarımızdakı daş duz yataqları XIX əsr rus mənbələrində "Naxçıvan duz sənayesi" də adlandırılır. Naxçıvan şəhər məktəbinin müəllim-inspektoru olmuş K.A.Nikitinin 1882-ci ildə dərc olunan "Naxçıvan şəhəri və Naxçıvan qəzası" adlı məqaləsi (Qafqaz ölkəsi və tayfalarının təsviri üçün materiallar məcmuəsinin 109-142-ci səhifələri) diyarımızda duz yataqlarının yerləşdiyi ərazi, onun çıxarılma texnologiyası, miqdarı, qiyməti və satışı məsələlərinə həsr edilmişdir. Naxçıvan bölgəsində Nuh peyğəmbərlə əlaqədar yayılan rəvayətlərə əsaslanan K.A.Nikitin yazırdı ki, Nuh Naxçıvan və Kulp duz mədənlərində ilk işçi olmuşdur (16, s. 110). Müəllif duz yataqlarının yerləşdiyi ərazini belə təsvir edir: "İrəvandan Naxçıvana gedən yolda təpələr, yüksəkliklər və bitki örtüyündən məhrum olmuş ərazi ilə qarşılaşırıq. İnsan yaşamayan və susuz olan bu ərazi çox kədərli və acı təəssürat yaradır. Naxçıvana 12-15 verst qalmış yolun sol tərəfində Naxçıvan duz sənayesi adlandırılan daş duz yataqları vardır. Su olmadığına görə bu ətrafda heç bir sakin və kənd yoxdur…" (16, s.137-138).

Fikrimizcə, Naxçıvanda duz çıxarılması çox qədim dövrdən-hələ daş dövründən mövcud olmuşdur. Bunu 1870-ci ildə Naxçıvan duz mədənlərindən tapılmış tarixi çox qədimlərə gedib çıxan daş balta və külünglər də təsdiq edir. Buradakı duz mədəninin nəzarətçisi olan Beyer həmin

baltalardan 2 ədədini Naxçıvan şəhər məktəbinə bağışlamış, qalanlarını isə Peterburq və Tiflis muzeylərinə göndərmişdir. Bu baltalardan duz çıxarılmasında istifadə olunmuşdur (16, s.115).

Mənbələrin təhlilindən aydın olur ki, burada çalışan məmurlar, fəhlələr və duzqıranlar torpaq qazmalarda yerləşirmişlər, suyu isə Naxçıvandan 12 verst (verst-1,0668 km) kənar olan bir ərazidən gətirirmişlər. Rus müəllifi duz hissələrinin və parçalarının ən çox gilli dağların tərkibində olduğunu və duz qatlarının qalınlığı və kipliyinin heç də hər yerdə eyni olmadığını qeyd edir. O yazır ki, duz mədənində çalışan hər bir işçi gün ərzində 40 pud (pud-16, 38 kq) duz çıxarır. Çıxarılan duz kütləsinin miqdarına və qiymətinə gəlincə, burada müəyyən fərqlər olduğu nəzərə çarpır. Araşdırmalar göstərir ki, XIX əsrdə Naxçıvan duz mədənlərindən çıxarılan duz həm iri həcmli (sal duz-Y.R.) daş duz hissələrindən, həm də üyüdülmüş narın duzdan ibarət idi. Çıxarılmış daş duzun hər pudu üçün 1,5 qəpik, narın duzun hər pudu üçün 0,5 qəpik ödənilirdi (16, s.138). Başqa sözlə, daş duzun çıxarılmasına ödənilən məbləğ narın duza nisbətən 1 qəpik artıq idi. Bu da daş duzun heyvandarlıqda geniş istifadəsi ilə bağlıdır. Etnoqrafik materiallarda heyvanlara duz verilməsi haqda geniş məlumatlar vardır. Bu məqsədlə sal və narın duzdan istifadə edilir. Yaylaqların əksəriyyətində xüsusi duz daşları olmuşdur. Duz həmin daşların üstünə tökülürdü ki, heyvanlar yalasınlar.

Məlumatlardan aydın olur ki, Naxçıvanda hər il 200.000 pud (120.000 pud daş duz, 80.000 pud narın duz) duz çıxarılırmış. S.Zelinski vaxtilə duz mədənlərinin rəisi işləmiş Beyerin ona verdiyi və 1857-1866-cı illərdə Duzdağda hasil olunmuş və iltizamçılara (XIX əsrdə Rusiyada dövlətə müəyyən miqdarda pul vermək müqabilində xüsusi şəxslərə verilən vergi toplamaq hüququ olan şəxslərə) verilmiş məhsulun miqdarını əks etdirən aşağıdakı cədvəli öz məqaləsinə daxil etmişdir (11, s. 215).

| | Hasil olunmuşdur | | | İltizamçılara verilmişdir | | |
|---|---|---|---|---|---|---|
| İllər | Sal duz | Narın duz | Cəmi | Sal duz | Narın duz | Cəmi |
| 1857...... | 135 421 | 19 250 | 154 671 | 135 421 | 19 250 | 154 671 |
| 1858...... | 230 500 | 43 400 | 273 900 | 212 441 | 35 820 | 248 261 |
| 1859...... | 312 521 | 23 600 | 236 121 | 283 421 | 24 400 | 307 821 |
| 1860...... | 164 927 | 38 860 | 203 787 | 164 927 | 38 860 | 203 787 |
| 1861...... | 209 753$^1/_2$ | 23 204 | 232 957$^1/_2$ | 209 753$^1/_2$ | 23 204 | 232 957$^1/_2$ |
| 1862...... | 307 383 | 32 800 | 340 183 | 307 383 | 32 800 | 340 183 |
| 1863...... | 298 779 | 59 750 | 358 529 | 132 068 | 36 550 | 168 618 |
| 1864...... | 122 851$^1/_2$ | 43 225 | 166 076$^1/_2$ | 44 271 | 37 225 | 81 496 |
| 1865...... | 95 820 | 24 791 | 120 611 | 141 097 | 63 385 | 204 482 |
| 1866...... | 153 091$^1/_2$ | 239 992 | 393 083$^1/_2$ | 276 986 | 47 301 | 324 287 |
| Cəmi | 2 031 047$^1/_2$ | 548 872 | 2 579 919 | 1 907 768$^1/_2$ | 358 795 | 2 266 563$^1/_2$ |
| | 2 579 919$^1/_2$ pud | | | 2 266 563$^1/_2$ pud | | |

Cədvəldən aydın olur ki, XIX yüzilliyin 1857-1866-cı illərində (10 ildə) Duzdağda 2.579.919,5 pud duz hasil olunmuşdur. Cədvəldən o da məlum olur ki, həmin onillikdə hər il orta hesabla 203.105 pud sal duz, 54.887 pud narın duz çıxarılırmış. Bir ildə orta hesabla iltizamçıya 190.577 pud sal duz, 35.875 pud narın duz verilirdi. İl ərzində istehsal edilən duzun ümumi çəkisi 257.992 pud olmuşdur ki, onun da 226.656 pudu iltizamçıya verilmişdir. Əgər hər iki növ üzrə (sal və narın duz) çıxarılmış duzun hər pudunu 10 qəpikdən hesablasaq, onda duzun gətirdiyi illik gəlirin 25.799 manat 19 qəpik yarım olduğu, onun 22.655 manat 63 qəpik yarımının iltizamçıya çatdığı aydın olur (11, s. 216).

Duzun çıxarıldığı yerdəki satış qiyməti ilə onun Naxçıvandan kənardakı ərazilərdə satış qiymətində müəyyən fərqlər olduğunu müşahidə edirik. Çıxarıldığı yerdə bir pud duz 10 qəpiyə satılırdısa, Naxçıvandan kənarda 18-25 qəpik, Şuşada isə 60-75 qəpik idi (12, s.139). Bundan başqa, çıxarılmış duz yerli əhalinin tələbatını ödəməklə yanaşı, Ordubada, Yenibəyazitə, Şuşaya, İrana və b. yerlərə göndərilirdi.

K.A.Nikitin duz çıxarılan ərazidəki 2 mağaranın daha çox diqqəti cəlb etdiyini göstərir: “Yolun lap kənarında yerləşən birinci mağaranın yarısı dağıldığı üçün o yararsızdır. Dağların mərkəzində yerləşən və indi duz çıxarılan ikinci mağara isə çox dərində olduğu üçün orada işıqsız işləmək mümkün deyil. Heç bir işçidən duzun müəyyən edilmiş həcmdə və miqdarda çıxarılması tələb edilmir...” (12, s.138).

Maraq doğuran məsələlərdən biri də çıxarılan duzun hansı üsul və vasitələrlə daşınmsı məsələsidir. Naxçıvan duzunun müxtəlf ərazilərə daşınmasında qoşqu vasitəsi kimi uzunqulaq və qatırlardan istifadə edirdilər. Naxçıvandan Azərbaycanın və Zaqafqaziyanın əksər zonalarına qatırla duz daşınması barədə istənilən qədər dəlil-sübut göstərmək olar. Belə ki, rus müəllifi V.Qriqoryevin “Naxçıvan əyalətinin statistik təsviri” kitabında XIX əsrin I yarısında Naxçıvandan Azərbaycanın bir sıra yerlərinə qatırla yük aparıldığı barədə məlumat verilir (10, s.93).

Tarixi mənbələrdə Naxçıvanda-Sust və Cəhri kəndləri ərazisində yerləşən duz mədənləri haqqında məlumat vardır. İstehsal edilən duzu Şərura, Yelizavetpola, Naxçıvan dairəsinin bütün kəndlərinə, o cümlədən Qarabağa ixrac edirdilər. Ordubad sakinləri duzu Arazın o tayından yaxın olan Herherdən alırdılıar ki, bura da onlara Naxçıvan duz mədənlərindən daha yaxın idi (10, s.115).

Müəyyən vaxtlarda İrandan gətirilən duzun qiyməti artırıldı. Bu zaman ordubadlılar Naxçıvan duzunu almağa daha çox üstünlük verirdilər. Əgər İrandan gətirilən duzun xərci artırılsa, o zaman bütün Ordubad əhalisi Naxçıvan duzuna müraciət edir (10, s.115). Bu isə duz mədənlərinin sayının çoxalmasına və Naxçıvan mədənlərindən çıxarılan duzun alıcılıq qabiliyyətinin yüksəlməsinə şərait yaradırdı.

Yuxarıda göstərilən məsələlərə Naxçıvan diyarının tarixi üçün ilk mənbə xarakteri daşıyan 1833-cü ildə V.Qriqoryev tərəfindən tərtib edilmiş “Naxçıvan əyalətinin statistik təsviri” kitabında da rast gəlirik. Naxçıvan duzunun özünəməxsus tamını və şöhrətini göstərən müəllif yazır: “Bu duz keyfiyyətinə görə bütün Zaqafqaziyada məşhurdur. Qarabağdan, Yelizavetpol dairəsindən, Şərurdan və Naxçıvanın bütün kəndlərindən bura karvanlar gəlir. Aprel ayından oktyabr ayınadək duz istehsalının əhatə dairəsi daha da genişlənir” (10, s.17).

Məlum olduğu kimi, yay ayları Qarabağın elat əhalisi Naxçıvanın dağlıq zonasındakı yay otlaqlarına gəlirdilər. Bu vaxt duz almaq üçün gələn karvanların sayı daha da artırdı. Yay ayları duz yataqlarında çalışan işçilərin sayı 10-20 nəfər olurdusa, payız mövsümündə (oktyabr-noyabr ayları) bu rəqəmlər azalaraq 4-8 nəfərə çatırdı (10, s.18). Fikrimizcə, bu azalmanın əsas səbəbi fəsil dəyişməsi və havaların soyuması ilə əlaqədar idi. Tarixi mənbələr də duz istehsalının azalmasında əsas amil kimi onun mövsümi xarakter daşıdığını təsdiqləyirlər.

Bəhs edilən dövrdə Naxçıvan sənayesinin, o cümlədən duz sənayesinin əhatə dairəsi o qədər də geniş olmamışdır. İbtidai üsulla işləyən duz mədənlərində daha çox primitiv texnikadan-dəmir lomdan, külüngdən, barıtdan və s. istifadə edirdilər. Hər bir işçidən yüksək ustalıq tələb edilirdi. K.A.Nikitindən fərqli olaraq “Statistik təsvir”in müəllifi gün ərzində duz yataqlarından 5.400 xalvar və ya 100 tondan çox duz hasil edilyini bildirir. Duz qırılması barıtın vasitəsilə tez və asan olurdu; dəmir lom ilə deşik açır və oraya barıt qoyub partladırlar (10, s.17). Vasili Qriqoryev bir batman duzun qiymətinin bir Naxçıvan abbasısına və ya səkkiz gümüş qəpiyə satıldığını qeyd edir.

Məlumata görə, duz mədəni satış yolu ilə xərcini ödəyəndən sonra ildə 1000 tümən, gümüş pulla 4000 manat gəlir gətirirdi. Buna əsasən satıcı duzun hər batmanından 8 qəpik alırdı, bundan əlavə bir o qədər də onu ixrac edərkən hər yükdən alırdı (10, s.114). Duzun satışı və ixracından götürülən mənfəətin müəyyən hissəsi mədəndə çalışan işçilərə ödənilirdi. Bu barədə rus mənbəsində belə yazılıb: “Sahibkar gəlirin 4-cü hissəsini duz çıxaran işçilərə ödəməli idi; bu ödəmə pul əvəzinə müəyyən edilmiş qiymətə duzla da ödənilirdi” (10, s.114).

Fikrimizcə, V.Qriqoryev hələ qədim zamanlardan duz çıxarılan Duzdağ mədənindən bəhs edir. Çünki bu kitab nəşr edilən vaxt-1833-cü ildə ikinci mədəndə hələ duz istehsalına başlanmamışdı. Sust kəndi yaxınlığında yerləşən (onun şimal-qərbindən 3-4 kilometrlik məsafədə) duz yatağında istehsal 1837-ci ildə başlanmışdı.

Məlum olduğu kimi, XIX əsrin 70-ci illərində duz sənayesinin inkişafına mane olan aksiz

vergisi tətbiq olunmuşdu. Kulpin duz yataqları ilə birlikdə icarəyə götürülən Naxçıvan duz mədənləri XIX əsrin sonlarına qədər ayrı-ayrı şəxslərə verilmişdir. Mənbələrdə XIX əsrin sonlarında azərbaycanlı sahibkarların duz hasilatındakı mövqelərinin xeyli azaldığı haqqında məlumatlar vardır. Bu dövrdə rusların köməyilə Naxçıvan duz mədənləri Azərbaycan sahibkarlarının əlindən alınaraq erməni, yəhudi və b. əcnəbi sahibkarlara verilirdi. 1876-cı ildə duz mədənlərinin və duz göllərinin icarəyə verilməsi barədə "Qaydalar" verilir ki, bu da duz istehsalında əvvəlki illərə nisbətən müəyyən tənzimləmə işlərinə imkan verdi. 1881-ci ildə duzdan alınan aksiz vergisi ləğv edildi.

Duzdağ mədənləri təbii ki, bədbəxt hadisələrsiz də ötüşmürdü. İ.Şopen yazırdı ki, mədənlərdə tez-tez bədbəxt hadisələr baş verirdi; 1831-ci ildə burada uçqun nəticəsində 100 nəfərdən çox insan dünyasını dəyişmişdir (18, s.835). Duz mədənində baş vermiş bu cür faciəvi hadisələrdən sonra mədənlərdə işlər dayandırılırdı.

Qədim zamanlardan başlayaraq bölgənin həyatında ciddi rol oynayan Naxçıvan duzuna XIX əsrdə də böyük tələbat olmuşdur. Lakin regiondakı sosial-siyasi və hərbi vəziyyət onun hasilatına mənfi təsir göstərmişdir. XIX əsrin əvvəllərində Rusiya ilə İran arasında aparılan dağıdıcı müharibələr Naxçıvan sənayesinə, o cümlədən duz sənayesinə ağır zərbə vurmuşdur. Bu məsələdə texniki təhcizat və nəqliyyat məsələsi də xüsusi rol oynamışdır. Göstərilən çətinliklərə baxmayaraq, XIX əsrin sonlarına doğru sənaye sahəsində, məişətdə və təsərrüfatdakı böyük tələbata görə duz istehsalı xeyli artırılmışdı. Bəhs edilən dövrdə Naxçıvan duzu Cənubi Qafqazın bütün regionlarına aparılırdı. Qeyd edək ki, diyarımızdakı daş duz yataqlarından çıxarılan duz soda istehsalı ilə yanaşı, müxtəlif sənaye sahələri üçün əvəzolunmaz xammal idi.

Naxçıvan duz mədənlərinin XX əsrin əvvəllərində fəaliyyətinin və duz hasilatının maraq qoğurduğunu nəzərə alıb, qısa məlumat verməyi məqsədəuyğun hesab edirik.

İlk öncə qeyd edək ki, bölgədə fəaliyyət göstərən bu sənaye müəssisələri artıq XX əsrin əvvəllərindən başlayaraq təkcə yerli deyil, Cənubi Qafqaz əhəmiyyətli müəssisələrə çevrilirdi.

Tarixən Azərbaycan ərazisində duz hasilatının əsas xammal mənbəyi Naxçıvandakı duz mədənləri və Abşerondakı duz yataqları olmuşdur. Naxçıvan bölgəsində olan duz yataqlarının çox çətin, ziddiyyətli və mürəkkəb inkişaf yolu keçdiyini göstərən N. Sokolski yazırdı ki, bunlardan ikisi: I-Naxçıvan şəhərindən 13-14 km şimal-qərbdə yerləşən V.İ.Lenin adına duz yataqları, II-Sust kəndindən 24 km şimalda yerləşən 26 kommunar adına duz yataqları daha çox istismar edilirdi (15, s.84). Duz yataqlarında olan duz ehtiyatları da maraq doğuran məsələlərdən biridir. Yeri gəlmişkən bu yataqlarda olan duz ehtiyatları haqqında müxtəlif rəqəmlər verilir. XX əsrin əvvəllərinə aid olan bir rus mənbəsində Lenin adına olan Naxçıvan duz mədənlərində 55 milyon ton, Sust duz mədənlərində isə 45 milyon ton daş duz ehtiyatları olduğu bildirilir (15, s.85).

Regiondakı sosial-siyasi və hərbi vəziyyət (1918-20-ci illər) iqtisadiyyatın bütün sahələrinə, o cümlədən duz hasilatına mənfi təsir göstərmişdir. Bu dövrdə bütün Qafqaz ölkələri kimi Azərbaycan da Krımdan və Türkmənistandan (Kullin duzu) gətirilən duzla təhciz edilmişdi. Məlumata görə 1921/1922-ci illərdə yaradılmış Xüsusi Qafqaz Ordusu Naxçıvan duz mədənlərinin yenidən qurulması və istismarı sahəsində başlıca rol oynamışdır. XX əsrin əvvəllərindən başlayaraq Naxçıvan duz yataqları müxtəlif trest, komitə, təşkilat və cəmiyyətlərin tərkibinə qatılmışdır. N.Sokolski yazırdı ki, bölgədəki duz istismarı duz sənaye cəmiyyətlərinin (məs; "Solprom"), daha sonra xalq sənaye-ticarət komitəsinin əlində cəmlənmişdi. Xüsusi Qafqaz Ordusunun xəttilə müxtəlif vaxtlarda ayrıca "duz ekspedisiyaları" təşkil edilmişdi (15, s.86).

Bölgədəki duz mədənləri uzun müddət erməni, yəhudi və b. əcnəbi sahibkarların ixtiyarında olmuşdur. Rus mühəndisi V.Q.Yudoviç soyadlı şəxsin xeyli müddət Naxçıvan duz mədənlərinin direktoru vəzifəsində çalışmasını tarixi mənbə də təsdiqləyir. Bu siyahını uzatmaq olar. Erməni ekstremistlərinin hələ ötən əsrin 50-60-cı illərində bölgənin duz mədənlərində yaratdığı münaqişələr və törətdiyi təxribatlar bütövlükdə muxtar respublika iqtisadiyyatının bütün sahələrinə ciddi ziyan vurmuşdur. O zamankı sovet rəhbərliyinin bütün bunlara göz yumması nəticəsində bölgədəki duz mədənləri çox acınacaqlı və yararsız vəziyyətə düşmüşdür. Müasir dövrdə mühüm uğurlar və nailiyyətlər əldə edilən Naxçıvan duz sənayesi çox çətin, mürəkkəb və ziddiyyətli inkişaf yolu

keçmişdir.

Əldə olan məlumata görə, 1903-1913-cü illərdə Naxçıvan duz mədənlərindən 1.755.086 pud, Sust mədənindən 806.488 pud duz çıxarılmışdı. Naxçıvan duz yataqlarında istehsal olunan məhsulun daşınması uzun müddət problem məsələ olaraq qalmışdı. XX əsrin əvvəllərində çətinlik törədən əsas məsələlərdən biri də nəqliyyat çatışmazlığı ilə bağlı olmuşdu. Məişətdə və təsərrüfatdakı tələbata görə artan duz istehsalının ixracını təmin etmək üçün mədənlərə yeni və əlverişli yol çəkmək məsələsi həll edilməli idi. Duz mədənlərinin yaxınlığındakı dəmiryol stansiyasına kanat yolun çəkilməsi ilə bu problem öz uğurlu həllini tapdı. Baş-Başı dəmiryol stansiyasınadək uzanan bu kanat yolun tikintisinə 1926-cı ildə başlanmış və qısa bir vaxtda-1929-cu ildə o, istismara verilmişdi. Bütün bunlar nəticə etibarilə istehsalın artmasına və daşıma xərclərinin azalmasına səbəb oldu.

Naxçıvan duzunun keyfiyyəti məsələsi uzun müddət mübahisəli olmuşdur. Mütəxəssislər bu barədə müxtəlif fikirlər irəli sürmüşlər. Onların bir qismi Naxçıvan mədənlərində istehsal olunan duzun keyfiyyətinə görə Ukrayna və Türkmənistan duzundan aşağı səviyyədə olduğunu, bəziləri isə əksinə Naxçıvan duzunun Cənubi Qafqaza gətirilən duzlardan keyfiyyətcə üstün olduğunu iddia edirlər. Bölgəmizdə çıxarılan duz əsasən mal-qaranın yemlənməsində, sənaye və texnikanın müxtəlif sahələrində, habelə təsərrüfat məqsədilə-dəri və sabun istehsalında da istifadə edilirdi.

Bölgəmizdəki duz yataqlarının yerləşdiyi ərazi, çıxarılan duzun həcmi, miqdarı və qiyməti haqqında müxtəlif mənbələrdə-A.M.Marqolusun (8), A.U-nun (1), İ.Lenanın (7), R.İvanovun (5), akademik İ.Həbibbəylinin (4), P.Şeremetyevskinin (10), Vosboynikovun (12), H.Sultanovun (20, s.27-28), N.Sokolskinin (19) və b. əsərlərində, toplu və arxiv sənədlərində zəngin məlumatlar vardır. Mənbələrin təhlilindən aydın olur ki, əvvəlki dövrlərdə olduğu kimi, XX əsrin ilk onilliyində də ərazidəki duz mədənlərində istehsal primitiv texnikaya əsaslanmış və məhdud xarakter daşımışdır. Suyun olmaması çətinlik törədən məsələlərdən olmuşdur.

XX əsrin əvvəllərində vəziyyət bir qədər yaxşılaşmışdı. Duz sənayeçisi əvvəllər icra müqabilində xəzinəyə 1600 manat ödəyirdisə, son hərracın şərtlərinə görə icarə haqqı 4800 manata qaldırılmışdı. Sustun duz mədənləri əvvəlki illərdə başqa icarədarın istifadəsində olsa da, 1907-ci ildən mədənlər onların sahiblərinin özlərinə qaytarıldı. Elə həmin ildə Hacı Xudadad xan Kərbalıxanov qardaşları ilə birlikdə "Kərbalıxanov və Ko" ticarət evini təşkil etdilər. Ticarət evi Qafqaz dağ-mədən departamentinin şərtinə görə mədənlərdən ildə 100 min puddan çox duz çıxarmamalı idi. Sahibkarların bir neçə il ərzində yuxarı dairələrə yazmalarından sonra Sənaye və Ticarət nazirliyi bu şərti ləğv etdi. Həm xəzinə mədənlərindən, həm də sahibkarlara məxsus mədənlərdən qeyri-məhdud miqdarda duz çıxarılmasına icazə verildi.

Ümumiyyətlə, XX əsrin əvvəllərində Naxçıvan qəzasında konkret rəqəmlərin göstərildiyi cədvəlin təhlilindən görünür ki, daş duz istehsalında sabit inkişaf olmamışdır. Ayrı-ayrı illər üzrə artıb-azalmalar diqqəti cəlb edir. Bəzi illərdə çıxarılan duzun həcmi çox olmuşdur. Məs; xəzinə mədənlərindən 1902-1903 və 1905-ci ildə orta hesabla 400-500 min pud daş duz istehsal edilmişdi. Bu baxımdan 1909, 1912 və 1914-cü illəri də xəzinə üçün uğurlu hesab etmək olar.

Nəticə

Beləliklə, Duzdağ mədənlərinin, ümumiyyətlə, Naxçıvan tarixinin tədqiqi zamanı istifadə edilən rus mənbələrinin demək olar ki, hamısında göstərilən fakt və rəqəmləri olduğu kimi qəbul etmək düzgün olmaz. Çünki bu mənbələrdə bəzən səhv və Rusiya hökumətinin himayə etdiyi ermənilərin mənafeyi baxımından yazılan fikirlər özünə yer almışdır. Ona görə də bu əsərləri tədqiq edərkən onlar tənqid süzgəcindən keçirilməli, diqqətlə və hərtərəfli araşdırılmalıdır. Bu mənbələrdə demoqrafik məsələlər, bölgənin əhalisi və ərazisi barəsində verilən yanlış məlumatlar özünü qabarıq şəkildə göstərir. Deyilənlər belə bir fikir söyləməyə əsas verir ki, ermənipərəstliyi, müəyyən təhrif və çatışmazlıqları istisna etməklə, rus mənbələrinin böyük əksəriyyəti Naxçıvan tarixi üçün əvəzsiz və qiymətli mənbələrdir.

## ƏDƏBİYYAT


1. A.U. (1851) Naxçıvan duz mədənləri. Qafqaz təqvimi. Tiflis.
2. Birinci Kalbalı xanın Şıxmahmud əhalisini Duzdağdan istifadə etməkdə istisna hüquqlarla təmin etməsi haqqında. (1851) Qafqaz təqvimi. Tiflis.
3. Daş baltalar. General-mayor Skalonun Qafqazın Baş komandanı general Qolovinə raportu. (29 iyun,1842-ci il). Tiflis, № 345.
4. Həbibbəyli İ. (2017). Duzdağ mozaikası. Bakı: Elm və təhsil, 308 s.
5. İvanov R. (2009). Basqın. Bolşeviklərin sovet torpağı qədim Naxçıvanda azğınlıqları haqda acı həqiqətlər. Naxçıvan: "Əcəmi" Nəşriyyat Poliqrafiya Birliyi, 463 s.
6. .Lena İ. (1831-ci il). Naxçıvan duz karxanası
7. Marqolus A.M. (1909). Naxçıvan-Sust daş duz yataqları. "Qafqaz geologiyası üçün materiallar". Тифлись, стр.150-172.
8. Şeremetyevski P. (9-12 mart, 16 may 1855-ci il). Naxçıvan duz yataqları. "Qafqaz" qəzeti № 20-21-22, Tiflis şəhəri, 4 yanvar 1853-cü il.
9. Vosboynikov. (1829). Naxçıvan duz yatağı haqqında məlumat. AKAK, №10, cild 7, Tiflis: № 95, s.92-95.
10. Григорев В.Г. (1833). Статистическое описание Нахичеванской провинции. СПб, 263 с.
11. Зелинский С. (1880). Три магала: Нахичеванский, Ордубадский и Даралагезский, Географическо-статистическое и сельско-хозяйственное описание. Сборник сведений о Кавказе. Том VII. Тифлис: с. 209-275.
12. Никитин К.А. (1882). Город Нахичевань и Нахичеванской уезд // Сборник материалов для местностей и племен Кавказа. Тифлис: вып.2, с.109-142.
13. Никифоров Н.Ф. (1885). Экономический быт государственных крестьян западной части Нахичеванского уезда Эриванской губернии // Материалы для экономического быта государственных крестьян Закавказского края. Том 1, вып. V, Тифлис: с. 559-640.
14. Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях (1836). Часть IV, СПб, 339 с.
15. Соколски Н.А. (1933). Материалы по изучению Нахичеванской ССР. ЗакГИЗ, Тифлис: 184 с.
16. Султанов Г. (1927). Нахкрай и его экономика. Баку: 249 с.
17. Смирнов К.Н. (1999). Материалы по истории и этнографии Нахичеванского края. Баку: Озан, 156 с.
18. Шопен И. (1852). Исторический памятник состояния Армянской области в эпоху ее присоединение к Российской империи. СПб.: Типография Императорской Академии Наук, 1231 с.


## SUMMARY

**Yashar Rahimov**

**FROM THE HISTORY OF SALT PRODUCTION AND TRADE IN NAKHCHYVAN IN XIX- EARLY XX CENTURIES (BASED ON RUSSIAN SOURCES)**

In the early 19th century, Nakhchivan's rock salt deposits attracted the attention of Russian researchers, travelers, and industrialists. Several Russian sources on the history of Nakhchivan in the first decades of the XIX and XX centuries describe the quality, export, price, quantity, etc. of salt produced in our country during this period. It is possible to get interesting information about the issues. The article includes works of various Russian authors-A. Margolus, P. Sheremetyevsky, V. Grigoriev, S. Zelinsky, K. Nikiti, N. Nikiforov, I. Chopin. The research method is a historical-comparative method. In the end, it was concluded that the production and trade of salt in Nakhchivan dates to Stone Age, and in the process of investigating Duzdagh mines and Nachkhivan's history in

general, the facts and figures taken from the Russian sources should not be accepted as they are. That is, in the process of study those sources need to be thoroughly studied. Despite certain shortcomings, most Russian sources are invaluable and valuable sources for the history of Nakhchivan.

***Key words**: Nakhchivan, salt, mining, Duzdag, early XIX-XX centuries.*

## РЕЗЮМЕ

**Яшар Рагимов**

## ИЗ ИСТОРИИ ТОРГОВЛИ И СОЛЕВОЕ ПРОИЗВОДСТВО НАХЧЫВАНА В XIX- НАЧАЛЕ XX ВЕКОВ (НА ОСНОВЕ РУССКИХ ИСТОЧНИКОВ)

Еще в начале XIX века месторождения каменной соли Нахчывана привлекали внимание российских исследователей, путешественников и промышленников. Несколько русских источников, относящихся к истории Нахчывана в XIX-нач. XIX вв., описывают качество, экспорт, цену, количество и т. д. Соли, произведенной в нашей стране в этот период по вопросам можно получить интересную информацию.

Следует отметить, что месторождения каменной соли в нашей стране в русских источниках XIX- нач. XIX вв.еще называют “Нахчыванской соляной промышленностью”. В статью включены произведения различных русских авторов-А. Марголуса, П. Шереметьевского, В. Григорьева, С. Зелинского, К. Никити, Н. Никифорова, И. Шопена. Добыча соли в Нахчыване существовала с древних времен, еще в каменном веке. Неверно принимать факты и цифры, представленные практически во всех русских источниках, используемых при изучении рудников Дуздага в целом по истории Нахчывана. То есть при изучении этих работ их необходимо критически, тщательно и основательно фильтровать. Несмотря на определенные недостатки, подавляющее большинство русских источников являются бесценными и ценными источниками по истории Нахчывана.

***Ключевые слова:** Нахчыван, соль, рудник, Дуздаг, русских источников, в XIX-нач. XIX вв., солевое производство.*

---

***Məqaləni çapa təqdim etdi:** AMEA-nın həqiqi üzvü İsmayıl Hacıyev*
***Məqalə daxil olmuşdur:** 4 noyabr 2021-ci il*
***Çapa qəbul edilmişdir:** 2 dekabr 2021-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2021, № 2 (111), 70-73
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2021, № 2 (111), 70-73
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2021, № 2 (111), 70-73

**EMİN HƏSƏNLİ**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*

**UOT: 32**

# ƏBƏDİ MÜSTƏQİLLİYİMİZİN ZƏFƏR SƏHİFƏSİ

*Məqalədə Azərbaycan Respublikasının uğurlu siyasəti nəticəsində əldə edilmiş zəfər tariximizin mühüm aspektləri araşdırılır. Sosial-iqtisadi, hərbi-siyası inkişaf prioritetlərinə diqqət yetirilir. Milli birliyin müasir ideoloji əsasları təhlil olunur. Regionda ölkəmizin artan rolu müqayisə edilir. Xalqımız dövlətçilik və milli birliyin qorunmasının, milli kimliyin təhlilinin yeni tarixi mərhələsinə qədəm qoydu. Azərbaycan öz ordusu ilə böyük uğurlara imza atdı və ərazilərimizi işğaldan azad etdi. Təbii ki, bütün bunlar həm də Azərbaycan Respublikası prezidentinin böyük diplomatiyaya, uzaqgörən siyasi strategiyaya, əsaslanan ideoloji uğurlarının nəticəsində mümkün oldu. Bu gün ölkəmizin artan dinamik rolu, qoşulduğu sosial-iqtisadi layihələr regionun təhlükəsizliyi üçün də əhəmiyyətli və vacibdir.*

***Açar sözlər:*** *sosial, milli birlik, qələbə, ordu, hərbi, dövlət*

Bu gün Azərbaycan öz inkişafının yüksək mərhələsindədir. Ölkəmizin uğurlu sosial inkişaf prioritetləri məqsədyönlü və düzgün istiqamətlərə səfərbər olunmuşdur. Digər bir tərəfdən isə Azərbaycan bu sosial layihələrlə bərabər, ordu quruculuğunu da müvəffəqiyyətlə gücləndirmişdir ki, məhz bu gün həmin siyasət zərər çəkən vətəndaşların öz ata-baba yurdlarına qayıtması istiqamətindəki işlərin praktiki reallaşmasını ön plana çıxarmışdır. Qeyd etdiyimiz bu istiqamətləri Azərbaycan dövləti uğurla davam etdirmiş, ölkə başçısı cənab İlham Əliyev həyata keçirdiyi xarici siyasət platformalarında, bütün tədbirlərin preambulasını məhz Dağlıq Qarabağın azad edilməsi, işğalçıların ərazilərimizdən qovulması, məcburi köçkünlərin doğma torpaqlarına qaytarılması prinsipi üzərində qurmuşdur. Hətta neft erasının davam etdiyi dövrdə belə, neftin dünya siyasətində ən ümdə prioritetə çevrildiyi bir dövrdə belə ölkə başçımız neft gəlirlərini, enerji məsələlərini Dağlıq Qarabağ məsələsindən sonra ikinci prioritet məsələ elan etmişdir, bununla da bütün problemlərin fövqündə məhz Dağlıq Qarabağ probleminin dayandığını vurğulamışdır. Bu müdddət ərzində Azərbaycan sosial-iqtisadi layihələrin əhatəli strategiyası ilə regionda ən güclü dövlətə çevrilmişdir.

Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində aparılan danısıqlar prosesi ilə yanaşı, ölkəmizdə ordu quruculuğu prosesləri də müvəffəqiyyətlə davam etdirilmiş, böyük tarixi əhəmiyyətli sosial-iqtisadi layihələr reallaşmışdır. Həmçinin ölkəmiz uzun illər ərzində müharibənin sülh yolu ilə həll istiqamətində uzun bir yol qət etmişdir. Uzunmüddətli atəşkəs əldə edildikdən sonra Azərbaycanda bir sıra islahatlar aparılmağa başlandı. Qaçqınların və məcburi köçkünlərin işlə təmin olunması məqsədilə dövlət tərəfindən bir sıra tədbirlər həyata keçirilir. Belə ki, onların bir qisminə işsizlik statusu və işsizlik müavinəti verilib, bir qismi ünvanlı sosial yardım alır, digər qismi haqqı ödənilən ictimai işlərə cəlb edildi, yaxud peşə-hazırlıq kurslarına göndərildi [7, s.3]. Bununla bərabər, beynəlxalq ictimaiyyətin diqqətini ölkəmizə yönəltmək, cəmiyyətin demokratik əsaslarla idarəçiliyi sisteminin qurulması, həyat tərzinin yeni inkişaf meyarlarına uyğun qanunvericiliyin təkmilləşdirilməsi də bu dövrdə həll ediləsi məsələlər idi. Məhz Ulu Öndərin böyük sərkərdəlik bacarığı, siyasi dühası belə bir dövrün çətin paradiqmalarını səfərbər etməyə zəmin yaratdı.

Digər tərəfdən Azərbaycanın müharibə şəraitində olması bu sistemin birdəfəlik dəyişikliyinin çox böyük bir risk olduğunu göz önünə çıxarırdı. Ümummilli Lider Heydər Əliyev öz böyük sərkərdəlik qabiliyyətini nümayiş etdirərək, bu prosesin tədricən həyata keçirilməsini qərara aldı. Öz

ordusunun hazırlıq səviyyəsinə görə, dünyada qabaqcıl dövlətlərdən hesab olunan, NATO-nun tam üzvü olan Türkiyə ilə geniş hərbi əməkdaşlığa başlandı [5, s.12]. Bu hərbi əməkdaşlıq özünü hərbi təhsil sahəsində daha qabarıq göstərir. Belə ki, Azərbaycan Ali Hərbi Məktəbinin 1997-ci ildən NATO hərbi sisteminə keçidi bunun çox bariz nümunəsidir [4, s.45). Bu gün ölkəmiz tarixi qələbədən sonra ordu quruculuğuna daha geniş önəm verməkdədir. Çünki Azərbaycan artıq regionun təhlükəsizliyi sistemində əsas dövlətə çevrilmişdir. Eyni zamanda, xarici dövlətlərlə, xüsusən strateji müttəfiqimiz olan İsrail dövləti ilə aparılan hərbi əməkdaşlığın nəticəsində ordumuzun silah ehtiyatı daimi müasirləşdirilərək bu günkü tarixi qələbəni təmin etdi. Artıq Azərbaycan regionun dünya düzənini müəyyən edən ölkədir. Bu gün Azərbaycan Qarabağda yaşayan ermənilərin gələcək taleyini öz qanunvericilik bazası ilə təkmilləşdirmək ərəfəsinə qədəm qoymuşdur. Hərbi xunta ərazilərimizdən məhv edilərək çıxarılmışdır. Bütün Qarabağın idarəçiliyinin yeni mexanizmləri formalaşır. Bu proses isə ilk növbədə işğaldan azad edilmiş ərazilərimizin yüksək səviyyədə bərbası ilə başlanaraq reallaşacaqdır. Bu qəbildən ölkə başçımızın ağıllı kənd layihəsi istiqamətində ideya təklifi regionun gələcəkdə dünya üçün nümunəvi diyara çevriləcəyindən xəbər verir.

Azərbaycanı bir dövlət kimi daim möhkəmlənməsini şərtləndirən faktorlardan biri də hərbi müdafiə strategiyasının olmasıdır. Müdafiə sisteminin yaradılmasında ordu quruuluğu başlıca yer tutur. Azərbaycanın hərbi strategiyasının hazırlanmasının əsasları Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş, müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən özünün yüksək zirvəsinə yüksəlmişdir. Bütün güclü dövlətlərin maraq dairəsində olan Azərbaycanın çoxtərəfli mürəkkəb bir hərbi strategiyaya sahib olmasına, bütün dövlətlərlə yüksək səviyyəli münasibətlərin yaradılmasına nail olan Ulu Öndər Heydər Əliyev dünya dövlətləri ilə hərbi əməkdaşlığın və yaranan beynəlxalq təşkilatlar daxilində Azərbaycanın təmsil olunmasının vacibliyinə xüsusi önəm verirdi. Azərbaycan beynəlxalq hüquqi normalar və milli mənafe əsasında öz xarici siyasət strategiyasını müəyyən edib. Belə ki, ölkə konstitusiyasında qeyd olunduğu kimi, Azərbaycanın xarici siyasəti sülh siyasətidir. Azərbaycan silahlı qüvvələri heç bir dövlətə qarşı çevrilməmişdir. Onun məqsədi sülh məramıdır. Azərbaycan Respublikasının hərbi strategiyasının əsas prinsipləri bunlardan ibarətdir: müstəqilliyinin və suverenliyinin qorunması, ölkənin ərazi bütövlüyünün qorunması, beynəlxalq və regional təşkilatlarda təmsil olunmaqla ölkənin təhlükəsizliyinin təmin edilməsi, daxili və xarici siyasətin vəhdətinin qorunub saxlanılması, xarici siyasətdə humanizm prinsiplərinin həyata keçirilməsi. Ötən dövrlər ərzində müharibə şəraitində beləİnsan kapitalının inkişaf etdirilməsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qarşıya qoyduğu başlıca prioritet istiqamətlərdəndir. Ölkə başçımız hələ, 2003-cü ildə ilk öz seçki platformasında Azərbaycan regionlarının inkişaf proqramlarının həyata keçirilməsi ideyasını irəli sürərək hökumətin fəaliyyətini bu istiqamətdə səfərbər etmiş oldu. Bunun ardınca mərhələli şəkildə Azərbaycan Regionların sosial –iqtisadi inkişaf proqramlarının icra olunması ölkədə həyat səviyyəsinin yüksəldilməsinə, insan kapitalının formlaşmasına və möhkəmlənməsinə böyük zəmin yaratdı. Dövlət proqramlarının icra olunduğu 2004–2018-ci illər ərzində ümumi daxili məhsul 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artdı. Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə yaradılmış, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə enmişdir [6,s.3]. Bu siyasətin fəlsəfəsini sözügedən proseslərin mərkəzində insan amilinin dayanması prinsipləri təşkil edirdi. Regionlar üzrə Azərbaycan vətəndaşlarının sosial-mədəni inkişaf səviyyəsi, dəyişən dünya reallıqları zəminində asan idarəetmə və xidmət vərdişlərindən istifadəsi, insan potensialı göstəricilərini yüksəltməyə xidmət məqsədi daşıyıraq insan kapitalının formalaşmasını sürətləndirmiş oldu. Ölkə başçısının inteqrasiya, dialoq mədəniyyəti, tolerantlıq, multikulturalizm kimi müasir dünyanın aktual paradiqmalarını praktiki gündəmə gətirməsi isə ölkəmizin insan kapitalı sisteminin mədəni-ideoloji zəmində qurulmasına və təminatına hesablanış oldu. 2019-cu il ərzində cənab İlham Əliyevin həyata keçirdiyi islahatlar kursu adekvat olaraq idarəetmədə insan kapitalının yeni əsaslarla qurulmasını şərtləndirdi. Həmçinin bu islahatlar insan potensialının insan kapitalına çevrilməsi zamanı mövcud problemlərin də həllini təmin etməyə əsas verdi. Bu xüsusda qarşıdan

gələn bələdiyyə və parlament seçkiləri ölkənin modernləşmə və sosial dəyişiklik indikatorlarını müəyyən etməyə istiqamətlənmişdir. Azərbaycanın regionlarının inkişafı ölkədə elektron hökumətin qurulması və möhkəmlənməsi baxımından da aktualdır.

Ölkədə keçirilən seçkilərin (prezident, parlament, bələdiyyə) demokratikliyinin və şəffaflığının artması, bazar iqtisadiyyatında dayanıqlığın təmin olunması (insan inkişafı indeksində Azərbaycanın ön sıralara çıxması), neftdən sonra informasiya – kommunikasiya texnologiyalarının tətbiqi və inkişafının ikinci prioritet istiqamət elan edilməsi (elektron hökumətin bazisinin yaradılması), tolerantlıq paradiqmasını "xalqımızın düşüncə tərzinə" çevirmək tezisi bu fundamental dəyişikliklərin əsasında dayanır (10). Bu baxımdan formalaşan yeni bazis modeli müasir üstqurum təsisatlarının da yeni əsaslarla formalaşdırılmasını – yeni çevik islahatları və idarəetmə aparatında ixtisarları zəruri etmişdir. Bu gün biz Ermənistan Azərbaycan münasibətlərinin yeni mərhələsinə qədəm qoyuruq. Xalqımız dövlətçilik və milli birliyin qorunmasının, milli kimliyin təhlilinin yeni tarixi mərhələsinə qədəm qoydu. Azərbaycan öz ordusu ilə böyük uğurlara imza atdı və ərazilərimizi işğaldan azad etdi. Təbii ki, bütün bunlar həm də Azərbaycan Respublikası prezidentinin böyük diplomatiyaya, uzaqgörən siyasi strategiyaya əsaslanan ideoloji uğurlarının nəticəsində mümkün oldu. Bu gün ölkəmizin artan dinamik rolu, qoşulduğu sosial-iqtisadi layihələr regionun təhlükəsizliyi üçün də əhəmiyyətli və vacibdir.

## ƏDƏBİYYAT

1. Müasir dövrdə Azərbaycan Türkiyə münasibətləri, Monoqrafiya, Bakı: Araz, 2006, (Elmi redaktoru: t.e.d., prof. A.NAbbasbəyli, rəyçi: t.e.d., prof. P.Q.Darabadi), 214 səh.
2. Azərbaycan Türkiyə əməkdaşlığının gələcək perspektivləri. // Tarix və onun problemləri – nəzəri, elmi, metodik jurnalı, №3, (1997-033), ISSN 1047, Bakı: 2005, s. 156-161
3. Müasir dövrdə Azərbaycan Türkiyə əməkdaşlığı. //Azərbaycan-Avropa əlaqələri: mövcud problemlər və əməkdaşlığın əsas istiqamətləri (elmi konfransın materialları), Bakı: Şirvannəşr, 2005, s. 179-189.
4. Azərbaycanın Avropa Şurasına üzv olması və ilkin qarşılıqlı münasibətlər. // Tarix və onun problemləri nəzəri, elmi, metodik jurnalı, əlavə № 3, (1997-02), ISSN 1047, Bakı: 2006, s. 23-26
5. Qarabağ gündəliyi, Bakı: 2011, 4 saylı bülleten. 103 səh.
6. "Məcburi köçkünlərin və onlara bərabər tutulan sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu. 21 may 1999-cu il, N 669-İQ Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, N 7,37
7. İsmayılov Ə. Erməniliyin və erməni faşizminin ideologiyası, fəlsəfəsi və cinayəti. Bakı:2018, 403 s.

## SUMMARY

**Emin Hasanli**

### THE VICTORY PAGE OF OUR ETERNAL INDEPENDENCE

The article examines the important aspects of the history of our victory, achieved as a result of the successful policy of the Republic of Azerbaijan. Attention is paid to the priorities of socio-economic, military-political development. The modern ideological foundations of national unity are analyzed and the growing role of our country in the region is emphasized. Our people have entered a new historical stage of preserving of statehood, national unity, and analysis of national identity. Azerbaijan has achieved great success with its army and liberated our territories from occupation. Of course, all this was possible thanks to the great diplomacy, far-sighted political strategy and ideological successes of the President of the Republic of Azerbaijan. Today, the growing dynamic

role of our country, the socio-economic projects it joins, are also important for the security of the region.

***Key words:*** *social, national unity, victory, army, military, state*

## РЕЗЮМЕ

**Эмин Гасанлы**

## СТРАНИЦА ПОБЕДЫ НАШЕЙ ВЕЧНОЙ НЕЗАВИСИМОСТИ

В статье рассматриваются важные аспекты нашей победоносной истории, достигнутые в результате успешной политики Азербайджанской Республики. Уделяется внимание приоритетам социально-экономического, военно-политического развития. Проанализированы современные идеологические основы национального единства. Обсуждается растущая роль нашей страны в регионе. Наш народ вступил в новый исторический этап сохранения государственности и национального единства, анализа национальной идентичности. Азербайджан со своей армией добился больших успехов и освободил наши территории от оккупации. Естественно, все это стало возможным благодаря большой дипломатии, дальновидной политической стратегии, идеологическим успехам Президента Азербайджанской Республики. Сегодня растущая динамичная роль нашей страны, социально-экономические проекты, к которым она присоединилась, важны и важны для безопасности региона.

***Ключевые слова:*** *социальное, национальное единство, победа, армия, военные, государство*

---

***Məqaləni çapa təqdim etdi:*** *AMEA-nın müxbir üzvü Zəhmət Şahverdiyev*
***Məqalə daxil olmuşdur:*** *4 noyabr 2021-ci il*
***Çapa qəbul edilmişdir:*** *2 dekabr 2021-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2021, № 2 (111), 74-81
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2021, № 2 (111), 74-81
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2021, № 2 (111), 74-81

# SOSİAL ELMLƏR VƏ HÜQUQ

**QƏHRƏMAN BEHBUDOV**
*Naxçıvan Dövlət Univeristeti*
*qehremanbehbudov@gmail.com*

**UOT: 321(091)**

## CÜMHURİYYƏT DÖVRÜNDƏ DÖVLƏT İDARƏÇİLİYİNİN VƏ DÖVLƏT QULLUĞUNUN SƏCİYYƏVİ CƏHƏTLƏRİ

*Məqalədə Azərbaycan Xalq Cümhuriyyətində müstəqil dövlət quruculuğu prosesi, demokratik cəmiyyətin əsaslarının yaradılması, hüquqi islahatlar sahəsində atılmış addımlar təhlil edilir.*

*Əsərdə əksini tapmış məsələlərin aktuallığı siyasi və ideoloji amillərlə şərtlənir. Burada demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahəsində atılan mühüm addımlar, qısa müddətdə həyata keçirilən tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır.*

*Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət idarəçiliyinin mühüm həlqəsi olan nazirliklərin aparatının formalaşdırılması üçün geniş tədbirlər görülməkdədir. Hökumətin bu qərarları dövlət qulluğunun təşəkkül tapması üçün ilkin zəmin yaratmışdır.*

*AXC-nin Azərbaycan dövlətçilik tarixində rolu bu gündə öz aktuallığını saxlayır və hörmətlə xatırlanır.*

***Açar sözlər:*** *Cümhuriyyət, nazirlik, dövlət qulluğu, sosial əmək münasibətləri, hakimiyyət strukturu, idarəetmə sistemi, qərar, parlament demokratik cəmiyyət, kadr problemi*

Azərbaycan xalqının milli dövlətçilik və özünüdərkinin inkişafı tarixində misilsiz bir hadisə olan ilk Cümhuriyyətin yaranması və onun mövcudluğu millətin bütün sosial qatlarında sevinclə duyulmuş, fəaliyyəti cəmiyyətin bütün təbəqə və qurumlarına, milli həyatın hər sahəsinə nüfuz etmişdi. Azərbaycan cəmiyyətinin və xalqının sosial-siyasi və hüquqi həyatının kökündən yeniləşdirilməsi istiqamətində geniş miqyaslı işlərin həyata keçirilməsinə başlanılmışdı.

Azərbaycan Xalq Cümhurtiyyətinin yarandığı ilk dövrdən başlayaraq dövlət quruculuğu yolunda ilkin addımlarını atmağa – ali hakimiyyət və idarəetmə orqanlarının təşkili işinə başlamışdı. “İstiqlal Bəyannaməsi”nin sonuncu maddəsində göstərildiyi kimi, Müəssislər Məclisi çağırılana qədər Azərbaycanda ilkin dövrdə ali hakimiyyətin Cümhuriyyətin Milli Şurası və onun qarşısında hesabatlı olan Azərbaycan hökuməti təmsil edirdi (8,107s.).

Dövlət qulluğunun hüquqi statusu hər bir dövlət və tarixi dövr üçün cəmiyyətlə dövlət aparatı nümayəndələri arasında münasibətləri tənzimləyən hüquqi norma və qaydalarla müəyyənləşir. Bu qanunlar və qaydalar öz növbəsində dövlət qulluğu sistemi, dövlət idarəçiliyi modelinin tarixi təşəkkülü xüsusiyyətləri ilə şərtlənir. AXC özünün milli dövlət idarəçiliyi və dövlət qulluğu sistemini yaratmağa macal tapmadığından Çar Rusiyası və müvəqqəti hökumətdən qalma qanunlara istinad etməli olmuşdu. 1917-ci il Oktyabr çevrilişindən sonra bolşeviklər “Silklərin və mülki rütbələrin ləğvi haqqında” dekret qəbul etmiş, həmin dekretlə dövlət qulluğu haqqında bütün inqilaba qədərki qanunlar ləğv edilmişdi. AXC hökuməti bolşevik hakimiyyətini tanımadığından bu dekreti də tanımamış, müvəqqəti olaraq keçmiş Rusiya imperiyasının qanunvericiliyinə istinad edəcəyini bəyan etmişdi.

Dövlət qulluğunun normativ hüquqi bazasının müəyyənləşdirilməsi baxımından “Azərbaycan

Cümhuriyyətinin təəbəliyi haqqında" Əsasnamə mühüm əhəmiyyət kəsb edirdi. Əsasnamə ikili təəbəliyi qadağan edir, yalnız cümhuriyyət təəbələrinin bütün siyasi hüquqlardan istifadə etmək hüquqularını tanıyırdı. Bununla yanaşı, xarici dövlət təəbələrinin Azərbaycanda dövlət qulluğunda çalışmaq üçün dəvət edilməsinə icarə verilirdi. Sonradan bu əsasnamə Azərbaycan Cümhuriyyətinin vətəndaşlıqı haqqında Qanunla ləğv edilmişdi (5, 63s.).

Azərbaycan Xalq Cümhuriyyəti dövlət idarəçiliyi və dövlət qulluğu sahəsində müəyyən spesifik xüsusiyyətlərə malik idi.

Dövlət qulluqçularının işdən azad olmaları üçün digər əsas dövlət zərurəti ola bilərdi. Beləliklə, yeni dövlətin yaranması, hakimiyyət dəyişikliyi ilə dövlət qulluqçularının yeniləri ilə kütləvi əvəzlənməsinə yol verilmirdi. Hökumət dövlət zərurətinə görə işçinin işdən azad olunması zamanı sivil formalardan istifadə edirdi. Belə ki, "İşdən azad edilmiş dövlət qulluqçularına vəsaitin verilməsi qaydaları haqqında" hökumət qərarında dövlət zərurəti ilə bağlı işdən azad edilmiş hərbi və mülki qulluqçulara əlavə pul müavimətlərinin verilməsi nəzərdə tutulmuşdu.

Dövlət idarəçiliyinin mühüm həlqəsi olan nazirliklərin aparatının formalaşdırılması üçün tədbirlər görülmüşdü. 1918-ci il iyunun 23-də Azərbaycan hökuməti hər nazirlikdə bir nazir müavini vəzifəsinin yaradılması ilə bağlı qərar qəbul etdi.. Digər qərarla nazirliklərdə katibdən, kargüzardan, iki mirzədən və bir kuryerdən ibarət dəftərxana yaradılırdı. Bundan bir qədər əvvəl, 19 iyun 1918-ci ildə quberniyalarda dövlət qulluğu ilə bağlı xüsusi qərar qəbul olunmuşdu.Həmin qərarla quberniyalarda ayrı-ayrı sahə rəislərinin təyinatını hökumət, digər məmurların təyinatını öz tabeçiliyində olan idarələr üzrə nazirlər verirdilər. İyunun 27-də hökumət dövlət dili ilə bağlı mühüm qərar da qəbul etdi. Qərar "Türk dilinin dövlət dili kimi qəbul edilməsi və dövlət idarələrində müvəqqəti olaraq rus dilindən istifadə olunması" adlanırdı (4, 124 s.). Qərarla Türk dilinə dövlət dili statusu verilirdi. Qərarda həmçinin nəzərdə tutulmuşdu ki, bütün məhkəmə, inzibati və digər vəzifəlilər bu dili bilən şəxslərlə əvəz olunana qədər, hökumət idarələrində rus dilinin işlədilməsinə icazə verilsin. Həmin tarixdə həftəlik bayramın bazar günündən cümə gününə keçirilməsi haqda da qərar qəbul olundu.

Hökumətin bu qərarları Azərbaycanda dövlət qulluğunun təşəkkül tapması üçün ilkin zəmin yaratdı. Ancaq bəlli idi ki, həmin mürəkkəb şəraitdə idarəçilik və dövlət qulluğu ilə bağlı yeni hüquqi normalar sistemi yaratmaq mümkün deyildi. Buna görə də Azərbaycan hökuməti 23 iyun 1918-ci ildə Rusiya və Zaqafqaziya qanunlarının qüvvədə saxlanılması haqqında qərar qəbul etdi. Qanuna uyğun olaraq bütün idarəetmə sahələri və məhkəmələrə dair mövcud qanunlar hökumətin onları dəyişdirməsinə və ləğvinə qədər qüvvədə qalırdı. Əlbəttə, bu şəraitdən doğan bir zərurət idi və zaman keçdikcə bu qərarın düzgünlüyü hamı tərəfindən etiraf edilirdi.

Cümhuriyyət dövründə ən mühüm məsələlərdən biri sosial-əmək münasibətlərinin tənzimlənməsi idi. AXC yarandığı ilk aylarda əmək qanunvericiliyinin düzgün tətbiqinə nəzarəti fəhlələrin sığortalanması işlərinə dair şura və fabrik müfəttifliyi həyata keçirirdi. 1919-cu il yanvarın 21-də Əmək Nazirliyi yarandıqdan sonra bu orqan əmək qanunvericiliyinin icrası üzrə ali nəzarət orqanı oldu. Nazirlik həmçinin sahibkarlarla fəhlə və qulluqçular arasında vasitəçilik fəaliyyəti ilə də məşğul olurdu. Sahibkarlarla işçilər arasında münasibətlərin tənzimlənməsi sahəsində hökumətin ilk addımlarından biri əmək nazirinin 26 yanvar 1919-cu il tarixli dekreti ilə bərpa olunmuş kollektiv müqavilə idi ki, bu müqavilə hələ 2 oktyabr 1917-ci ildə bağlanmışdı (4, 36 s.). Dekretə uyğun olaraq, işə qəbul və işdən azad edilmə hüququndan başqa kollektiv müqavilənin bütün normaları tam həcmdə dəyişilməz qalmışdı. Müqavilənin 4-cü bəndinə əsasən kollektiv müqaviləyə qoşulmuş müəssisələrdə bütün fəhlə, usta və qulluqçular üçün 8 saatlıq iş günü müəyyənləşdirilmişdi. Kollektiv müqavilə, həmçinin iş günü və istirahət vaxtı ilə bağlı məsələləri də tənzimləyirdi. Bir sıra işçi kateqoriyaları üçün qısaldılmış iş günü müəyyən edilmişdi. Sonrakı aylarda əməyin təhlükəsizliyinə nəzarəti nazirlik tamamilə öz əlində cəmləşdirməyə çalışırdı. Məsələn, nazirliyin təşəbbüsü ilə Azərbaycan Parlamenti 1919-cu il martın 10-da Əmək Nazirliyi nəzdində fəhlə məsələləri üzrə Xüsusi Müşavirənin təsis edilməsi haqqında Qanun qəbul etdi.

Bir qədər sonra, 1919-cu il avqustun 5-də, nazirliyin yenidən təşkili ilə əlaqədar olaraq nazirlik

nəzdində əmək müfəttişliyi şöbəsi təşkil olundu. Şöbənin yaradılması ilə əmək mühafizəsinə nəzarət bu orqanın əlində cəmləşdi, Ticarət və Sənayə Nazirliyi nəzdində fəaliyyət göstərən Fabrik Müfəttişliyi İdarəsinin səlahiyyətləri də ona verilirdi. Azərbaycan Cümhuriyyətinin baş əmək müfəttişi cümhuriyyət ərazisindəki bütün əmək müfəttişliyi idarələrinin işinə rəhbərlik edirdi.

Dövlət idarəçiliyinin effektiv həyata keçirilməsi üçün sonrakı dövrlərdə hökumət və parlament tərəfindən müəyyən addımlar atılmışdı.

Hüquqi dövlətin ən mühüm prinsiplərindən biri icra hakimiyyətinin qanunverici hakimiyyətdən ayrılmasıdır. Bu baxımdan 25 yanvar 1919-cu ildə Parlamentin qəbul etdiyi "Məbusluq və məmuruq haqqında" qanun xüsusi qeyd edilməlidir (1, 324,s). Qanuna görə parlamentin üzvü nazirlər müstəsna olmaqla dövlət qulluqçusu funksiyalarını yerinə yetirə bilməzdilər. İstisnalıq inzibati funksiyalar daşımayan professorlara, müəllimlərə, həkimlərə, vəkillərə aid edilirdi. Dövlət qulluqçuları parlamentə üzv seçildikdə ya qulluğu buraxmalı, ya da deputatlıqdan imtina etməli idilər. Bunun üçün onlara konkret müddət ayrılmışdı. Bu qanunun müddəalarına ümumən əməl edilirdi. Belə ki, Xalq Maarif Nazirliyində işləyən S.M.Qənizadə öz vəzifəsindən istefa verərək parlamentin üzvü qalmışdı. Görkəmli Azərbaycan yazıçısı F.Köçərli isə əksinə parlament üzvlüyündən istefa verərək dövlət qulluğunda qalmışdı.

Dövlət idarəçiliyində və qulluğunda ən ciddi problemlərdən biri korrupsiya və rüşvətxorluğun geniş yayılmnası idi. Bu cür qanun pozmalarla mübarizə parlamentin və hökumətin daim diqqət mərkəzində idi. Rüşvətxorluğa qarşı həm qanunvericilik səviyyəsində, həm də hökumət səviyyəsində ciddi mübarizə aparılırdı. Rüşvətxorluq ən təhlükəli vəzifə cinayətlər hesab edildiyindən hökumətin ölkədə sabitlik, qayda-qanun yaratmaq vəzifələrinə ciddi əngəl idi, bütün hakimiyyət qollarının nüfuzuna xələl gətirirdi.

Lakin hökumət başa düşürdü ki, təkcə qanunlar qəbul etməklə, ağır cəzalar tətbiq etməklə dövlət qulluğunda baş verən neqativ hallarla effektiv mübarizə aparmaq mümkün deyildir. Bunu üçün daha təsirli addımlar atmaq, qulluqçu və işçilərin sosial vəziyyətini yaxşılaşdırmaq istiqamətində ciddi tədbirlər görmək lazımdır. Bu məqsədlə hökumət dövlətin maliyyə imkanları daxilində dövlət qulluqçularının maddi vəziyyətini yaxşılaşdırmaq üçün müəyyən tədbirlər görürdü.

Bu baxımdan hökumətin bir sıra qərarları diqqəti cəlb edir. 1918-ci il iyulun 12-də hökümıətin qulluqçulara əlavə müavinətlərin verilməsi haqqında qərarında həm hərbi, həm də mülki idarələrin vəzifəli şəxslərinə qulluqda xidmətlərinə və çoxillik qulluğuna görə müavinətlərin verilməsi müvafiq nazirin təqdimatı ilə ayrılıqda müzakirə olunurdu. 1918-cu il 26 avqustda hökumət ədliyyə nazirinə xidmət müddəti bitdiyinə görə istefaya çıxan şəxslərə, pensiya təyin etmək üçün komissiya yaradılmasını ədliyyəyə tapşırdı.

1919-cu il fevralın 10-da hökumət bütün idarələrdə dövlət qulluqçularının maaşlarının artırılması və razılaşdırılması üçün bütün idarələrin nümayəndələrindən ibarət idarələrarası komissiya təşkil etmək barədə maliyyə nazinə tapşırıq verərək, iki həftə ərzində hökumətə öz təkliflərini verməyə tələb etmişdi. Komissiya öz işini tamamlayaraq dövlət qulluqçularının əmək haqqlarının artırılması və razılaşdırılması haqqında layihəni Maliyyə-iqtisadiyyat Komitəsinə təqdim etmişdi (2, 89 s.).

1920-ci il yanvarın 5-də dövlət idarələri qulluqçularına birdəfəlik müavinət verilməsi haqqında hökumətin növbəti qərarı qəbul edildi. Müavinət nazir və onların müavinlərindən başqa bütün qulluqçulara şamil edilirdi. 7 fevralda isə dövlət qulluqçularının maddi vəziyyətinin yaxşılaşdırılması və onların ucuz mallarla təhciz edilməsi ilə bağlı sərəncam verilirdi.

Parlamentin yaradılmasından sonra dövlət qulluqçularının statusu, soail vəziyyəti ilə bağlı məsələlər qanunverici orqanın diqqət yetirdiyi sahələrdən biri oldu. Parlamentin qəbul etdiyi ilk qanunlardan biri 4 fevral 1919-cu uildə qəbul etdiyi dəmiryol qulluqçularının vəziyyətinin yaxşılaşdırılması haqqında qanun oldu. 17 mart 1919-cu ildə Novruz bayramı münasibətilə hökumət qulluqçularına müavinətin verilməsi ilə bağlı da qanun, 7 apreldə Daxili İşlər Nazirliyi qulluqçularının maaşının artırılması və nazirlik üzrə yeni vəzifələrin təsdiq edilməsi haqqında Qanun qəbul edilmişdi. 12 mayda qulluqçuların maaşına müvəqqəti faiz əlavələri haqqında Qanun da bu

qəbildən idi. Parlament ali mərkəzi orqanların rəhbərlərini də yaddan çıxarmamış, onların maaşının həcminin müəyyənləşdirilməsi və artırılması haqqında bir neçə dəfə qanun qəbul etmişdi.

Parlament ölkədə, hakimiyyət strukrurlarında mövcud olan qanunsuzluqlarla mübarizə ilə bağlı öz səlahiyyətlər daxilində müəyyən addımlar atır, müvafiq qanun layihələri hazırlayırdı. Bu qanunlardan biri də 1919-cu il 27 iyulda qərarda qəbul edilmiş "Qulluq cinayətləri və vəzifədən sui-istifadə hallarının təhqiqi üzrə Xüsusi təftiş-təhqiqat komissiyasının təsis edilməsi haqqında" Qanun oldu. Qanun komissiyaya bütün hökumət təşkilatlarından və vəzifəli şəxslərdən bütün məlumatları və işləri hökumət, ictimai, özəl kredit məsələlərinə dair məlumatları tələb etmək, bütün vəzifəli şəxsləri izahat vermək üçün gəlməyi tələb etmək, onlara qarşı cinayət təhqiqatı aparmaq, poçt və teleqrafı açmaq və müsadirə etmək hüquqi verilmişdi. Komissiya təhqiqat dövründə vəzifəli şəxsləri vəzifədən kənarlaşdırmaq səlahiyyətinə də malik idi. Maraqlıdır ki, məhkəmə idarələrinin vəzifəli şəxslərinin, hakimlərin, natariusların, müstəntiqlərin təhqiqata cəlb edilməsi yalnız Nazirlər Şurasının qərarı ilə baş tuta bilərdi (5, 67.s.).

1919-cu il sentyabrın 29-da Parlament Cinayət və islah cəzaları haqqında Məcəlləyə və Cinayət məhkəməsinin aparılması haqqında Nizamnamənin bəzi maddələrinə dəyişikliklər etmək haqqında Qanun qəbul etdi. Dəyişikliklər məhz dövlət qulluğundakı qanunsuzluqlarla mübarizənin sərtləşdirilməsi məqsədi daşıyırdı. Dəyişikliklər məmurun və dövlət qulluğunda işləyən başqa şəxsin qulluq fəaliyyəti ilə bağlı öz vəzifəsini pozaraq hədiyyə, pul və başqa şey alarkən həbs edilməsini nəzərdə tuturdu. Həbs cəzasından əlavə rüşvət alan aldığı hədiyyənin on qat həcmində və ya 10 min manata qədər cəza alırdı. Bu cəza həmçinin rüşvət verməkdə vasitəçi olana, rüşvət alanın qohumlarını da hədiyyə aldığı zaman şamil olunurdu. Qanun qulluqda törədilmiş digər cinayətlərə görə də cəza növlərini müəyyənləşdirdi.

Dövlət qulluğu ilə bağlı AXC-nin dövründə qəbul edilmiş qanunvericilik aktları arasında 1919-cu il 27 sentyabr tarixli Azərbaycan Cümhuriyyətində mülki idarələrinin dövlət qulluçularının maaşlarının artırılması və razılaşdırılması haqqında Qanun xüsusi qeyd edilməlidir. Qanun dövlət qulluqçularının vəzifə cədvəlini və rütbələrini, onların maaşlarını təsdiq etmiş, bir sıra hallara görə əlavə ödənişləri müəyyənləşdirmişdi. Qanunun 5-ci bəndi bu günün praktikası baxımından maraq doğurur. Həmin bənd qulluqçuya dövlət qulluğunda iki və ikidən artıq daimi vəzifə tutmağı qadağan edir, qulluqçuya öz vəzifələrini yerinə yetirməsinə görə əlavə mükafatlandırmanı ləğv edirdi. Həmin bəndə əlavə edilmiş müddəaya görə dövlət tədris müəssisələrində qulluq vaxtından əlavə vaxtda dərs tədrisi əvəzçilik hesab edilmirdi.

Bəyan etdiyi demokratik cəmiyyət quruculuğu prinsiplərinə sadiqliyini nümayiş etdirərək, Azərbaycan hökuməti özünün 30 yanvar 1920-ci il tarixli qərarı ilə dövlət idarələrdə bütün titulları ləğv etdi. Nazirlərə və məmurlara vahid müraciət forması müəyyənləşdirildi. İndi onlara vəzifəsinin adını çəkməklə əfəndi deyə müraciət edilməsi qərara alınmışdı. Həmçinin Ədliyyə nazirinə tapşırılmışdı ki, dövlət idarələri üçün geyim formasının, eləcə də hökumət üzvləri üçün fərqlənmə nişanlarının layihələrini hazırlamaq üçün idarələrarası komissiyaya yaratsın.

Bakı Əmək Birjasının fəaliyyəti də bərpa edilmişdi. Birja işverənlərlə işçilər və qulluqçular arasında vasitəçi rolunu oynayırdı. Birja Şəhər Dumasının 13 yanvar 1918-ci il tarixdə qəbul etdiyi Nizamnamə əsasında fəaliyyət göstərirdi. Birja işsizləri qeydiyyata alır və onların işə düzəldilməsi məsələsini həll edirdi.

Əmək nazirinin 1919-cu il 26 yanvar tarixli dekreti ilə müəssisələrdə olan fəhlə komitələri qanuniləşdirilmiş və müəssisənin inzibati-təsərrüfat fəaliyyətinə qarışmamaq şərti ilə onlara fəhlələrin maraqlarını müdafiə etmək hüququ verilmişdi.

Cümhuriyyət hökumətinin qarşısında qoyduğu əsas məsələlərdən biri-hökumət idarələrinin, məktəblərin, məhkəmələrin milliləşdirilməsi idi. Bunun üçün əsas şərt milli kadr potensialının olması idi. Lakin kifayət qədər milli kadrların olmaması hökuməti milliləşdirmə siyasətini tədricən həyata keçirməyə, köhnə kadrlardan istifadə etməyə vadar edirdi. Dövlət idarələrində türk dilini bilən kadrların az olması da kargüzarlığın tamamilə bu dildə aparılmasına mane olurdu. Çünki məhkəmə, inzibati və digər vəzifələrdə əsasən qeyri-azərbaycanlılar xidmət edirdi. Onların xidmətindən kütləvi

imtina edilməsi dövlət aparatının tamamilə iflic vəziyyətinə düşməsinə gətirib çıxardı. Buna görə də hökumət idarələrində rus dilinin işlədilməsində icazə verilmiş, inzibati idarəçilikdə ikidillilik cümhuriyyətin bütün dövründə norma olmuşdur. Hətta Parlamentin iclasları belə iki dildə aparılır, sənədlər Azərbaycan dilində və rus dilində tərtib olunurdu. Xidməti yerlərini tərk etmiş qulluqçuların öz yerlərinə qayıtmaları üçün Hökumət xüsusi müraciətlə çıxış etmişdi. Bu isə kadr siyasətində hər hansı milli, sinfi ayrı-seçkiliyə yol verilmədiyinə dəlalət edirdi.

Parlamentdə və hökumətdə milli-demokratik əhval-ruhiyyəli ziyalılar üstünlük təşkil etsə də, hakimiyyətin aşağı səviyyələrində milli kadrların çatışmazlığı öz mənfi təsirini göstərirdi. Milli qüvvələrin idarəçilik təcrübəsinin olmaması, ölkədə destruktiv proseslərin inkişafına şərait yaradırdı (4, 321s.).

Hakimiyyət orqanlarındakı bir çox qeyri-müsəlman kadrlar sabotaj və xəyanətlə məşğul olurdular. Kadr çatışmazlığı ədliyyə və məhkəmə sistemində xüsusilə hiss olunurdu. Cümhuriyyətin ilk aylarında, anarxiyanın nəticəsində məhkəmə orqanlarında işləyənlərin əksəriyyətinin ölkəni tərk etməsi ilə əlaqədar məhkəmə aparatı fəaliyyətsiz vəziyyətdə idi. Hətta Gəncə dairə məhkəməsi bütün cəhdlərə baxmayaraq, səmərəli fəaliyyət göstərə bilmirdi. Yerlərdə sülh məhkəmələri fəaliyyətlərini dayandırmışdı. Təhqiqat orqanlarında da eyni vəziyyət mövcud idi. Bu isə cinayətkarlığın artmasına, hakimiyyətsizliyə şərait yaradırdı. Ədliyyə Nazirliyi Bakıya köçməzdən üç gün əvvəl, 1918-ci il 14 sentyabrda Azərbaycanda barışıq məhkəmələrin bərpası məqsədi ilə xüsusi vəsait ayrılması barədə qərar vermişdi.

Hazırlıqlı, peşəkar kadrların çatışmamasının əsas səbəbi çarizm dövründə müsəlmanların ədalət məhkəmələrin keçirilməsində iştirakına qoyulan qadağalar idi. Rusiya qanunlarına görə hətta hüquq fakültəsini qurtarmış müsəlmanlar belə ədliyyə nazirinin icazəsi olmadan məhkəmələrdə andlı vəkillər kimi iştirak edə bilməzdilər. Məhkəmə rus dilində aparılırdı. Əsasən, qeyri-müsəlmanlardan olan hakimlər bizim dilimizi bilmirdilər, bizimkiləri isə hakim işləməyə qoymurdular.

Kadr problemini qismən də olsa həll etmək məqsədi ilə Ədliyyə Nazirliyi hakim və müstəntiq vəzifələrini sülh məhkəməsi şöbələrinin katibləri və katib müavinləri, məhkəmə pristavları və müstəntiqlərin yanında tərcüməci işləyən şəxslərin tutmasına icazə vermişdi. Baxmayaraq ki, bu şəxslərin hüquqi təhsiləri yox idi, onlar müəyyən dərəcədə məhkəmə təcrübəsi və biliynə malik idilər. Bakıda müəyyən dərəcədə problemi həll etmək mümkün olsa da, ölkənin inzibati-ərazi vahidlərində, qəzalarda şəhərlərdə, sahələrdə hakim və müstəntiq vəzifələrini çox çətinliklə kadrlarla təmin etmək mümkün olurdu, baxmayaraq ki, bu vəzifələr üçün təhsil senzi aşağı salınmış və ən minimal tələblər qoyulmuşdu. Məhkəmə sisteminin bərpasına bu orqanın işçilərinin maddi ehtiyacları, bina və şəraitin olmaması da, mənfi təsir göstərirdi. Buna baxmayaraq hökumətin həyata keçirdiyi tədbirlər nəticəsində yerlərdə məhkəmələrin işinin təşkilinə nail olunmuşdu.

Qeyd edildiyi kimi, Cümhuriyyətin siyasi sisteminin özünəməxsusluğu tez-tez hökumət böhranına səbəb olurdu ki, bu da hakimiyyət strukturlarının sabit fəaliyyətinə öz mənfi təsirini göstərirdi. Müxalif qüvvələr parlamentin tərkibindəki və iş rejimindəki boşluqlardan istifadə edərək tez-tez bu və digər nazirliyin fəaliyyətindəki nöqsanlarla bağlı məsələlər qaldırır və hökumətə etimad məsələsini ortaya atırdılar. Əksər hallarda bu sorğular, F.X.Xoyskinin təbirincə desək, zəhərli, qərəzli xarakter daşıyır, siyasi böhrana gətirib çıxarırdı. Məsələn, 1919-cu il fevralın 4-də parlamentdə daxili işlər, ticarət və sənaye, ərzaq nazirliklərinin fəaliyyəti ilə bağlı hökumətə sorğu verilmişdi. Sorğuya cavab verən X.Xasməmmədov bildirmişdi ki, üç ay müddətinə hökumət daxili idarəçilik mexanizmlərini tənzimləmək və nöqsanları tam aradan qaldırmaq iqtidarında deyildir. Hərcənd ki, bu istiqamətdə çox işlər görülmüşdür. Parlamentin həmin iclasında baş nazir F.X.Xoyski özü çıxış edərək göstərmişdi ki, Azərbaycanın hər an təhlükələrlə üzləşdiyi bir zamanda hökumətə etimad məsələsini qaldırmaq, onu yıxmaq deməkdir. Həmin iclasda hökumətə etimad göstərilsə də, hökumət fevralın 7-də Ədliyyə nazirinə müxtəlif idarələrdə mövcud olan qanunsuzluqların təhqiqatı üzrə fövqəladə təhqiqat komissiyasının yaradılması barədə tapşırıq vermişdi (2, 35 s.).

Lakin parlamentdəki mövcud qüvvələr nisbəti, Azərbaycanın siyasi həyatının xüsusiyyəti hökumətin taleyinə öz təsirini göstərirdi. Təsadüfü deyildir ki, parlamentin fəaliyyəti dövründə dörd

dəfə kabinə dəyişikliyi baş vermişdi. Bütün bunlar dövlətin kadr siyasətinə, sabit kadr heyətinin formalaşdırıılmasına mənfi təsir göstərirdi. Ölkənin siyasi və iqtisadi vəziyyəti hökumət strukturları ilə parlament fraksiyaları arasında tam qarşılıqlı anlaşma olmasını şərtləndirirdi. Lakin bu anlaşmanı əldə etmək mümkün olmadığından, ictimai həyatın bütün sahələrində böhran meylləri dərinləşirdi.

Hüquqi-inzibati islahatların həyata keçirilməsi zəruriliyinin dərk edilməməsi ona gətirib çıxarmışdı ki, öz mövcudluğu dövründə parlament ölkənin hüquqi əsasını köklü şəkildə dəyişdirə biləcək bir qanun qəbul edə bilməmişdi. Doğrudur, hökumətdə bu istiqamətdə bir sıra layihələr, proqramlar, ideyalar var idi. Baxmayaraq ki, təqdim edilmiş qanun layihələrinin sayına görə Ədliyyə Nazirliyi yalnız Maliyyə Nazirliyindən geri qalırdı, bu qanun layihələri, əsasən, keçmiş Çar Rusiyasının qanunlarına və kodekslərinə müvafiq dəyişikliklər edilməklə məhdudlaşırdı.

Kadr problemi hakimiyyətin aşağı pillələrində xüsusilə özünü göstərirdi. Dövlətin qarşısında duran mühüm vəzifələrdən biri də keçmiş çar rejiminin bürokratik aparatının islahatı, yeni demokratik idarəçilik formalarının yaradılması və hakimiyyət idarələrinin milliləşdirilməsi idi. Bu məqsədlə köhnə inzibati-ərazi sisteminin - quberniya və qəzaların ləğv edilməsi və yeni milli inzibati vahidlərin yaradılması haqqında proqram hazırlanmışdı. Proqramın əsasını, gələcək dövlət quruluşunu və konstitusiyanı müəyyənləşdirəcək Müəssislər Məclisinin formalaşdırılması təşkil edirdi. İnzibati islahatlar sahəsində Azərbaycan qonşu Gürcüstandan çox geri qalırdı. Orada Müəssislər Məclisi təşkil olunmuş, özünüidarə orqanları tətbiq olunmuşdu.

Azərbaycanda mövcud olan inzibati-ərazi bölgüsü də dövrün ruhuna cavab vermirdi. Ərazicə kiçik ölkə olsa da, Azərbaycan dörd quberniya, 17 qəzadan ibarət idi. Daxili idarəçilikdə vahid yanaşmalar da yox idi. İdarəetmə strukturlarında işləyən kadrların nə savadı, nə də təfəkkürü yeni tələblərə uyğun gəlmirdi. Ölkəni general-qubernatorlarla yanaşı, nazirliklər, Dövlət Müdafiə Komitəsi, qəza rəisləri, polis rəisləri, inspektorlar, xüsusi səlahiyyətli müvəkkillər, xəfiyyələr və b. idarə edirdilər. Rüşvət, süründürməçilik, ədalətsizlik kütləvi xarakter daşıyırdı. Yerlərdə qəza rəisləri, pristavlar özlərini hakimi-mütləq hesab edirdilər (5, 71s.).

İdarəetmə sistemində ən ciddi qüsurlardan biri, hakimiyyətin müxtəlif strukturlarında geniş yayılmış rüşvətxorluq idi. Dövrün qəzetlərində, xüsusən müxavifət qəzetlərində müxtəlif idarələrdə mövcud olan qanunsuzluqlar haqqında çoxlu faktlar göstərilirdi. Xüsusən 1920-ci ilin əvvəllərində Azərbaycan ətrafında gərginləşən proseslər fonunda, daxili siyasəti vəziyyətin mürəkkəbləşməsi bir sıra antihökumət qüvvələrin canlanmasına gətirib çıxardı. Daxili işlər naziri vəzifəsinə M.H.Hacınskinin gətirilməsi, Dövlət Nəzarətçisi postunun "İttihad" partiyasının nümayəndəsinə verilməsi ilə rüşvətxorluğa və qanunsuzluğa qarşı geniş kampaniya başlanıldı. Əslində, bu kompaniyanın əsas hədəfi iqtidar partiyası "Müsavat" idi. Ən çox tənqid olunan isə Ticarət və Sənaye Nazirliyi idi. Nəticədə nazir müavini, müsavatçı Y.Əliyev vəzifədən getməli olmuşdu. Bütün digər sahələrdə də təftiş aparılırdı (3, 42.s.).

Müxalifət, xüsusən ittihadcılar Müsavatı ittiham edirdilər ki, bütün məmurlar məcburi sürətdə Musavata üzv yazdırılır, bu partiyanın üzvü olan, qanunsuzluqda ittiham olunan məmurlar məsuliyyətdən kənarda saxlanılırlar, bu isə rüşvətxorluğun və qanunsuzluğun inkişafına gətirib çıxarır. Müsavata qarşı irəli sürülən ittihamlardan biri də kadrların siyasətə cəlb edilməsi, digər partiyalara mənsub məmurların təqib edilməsi idi.Bu ittihamların bir çox həqiqətə uyğun olsa da, günahsız şəkildə işdən çıxarılanların da sayı xeyli çox idi. Bütün bunlar isə dövlət idarəciliyində sabitsizliyə şərait yaradır, hakimiyyət strukturlarına inamsızlığı artırırdı. Ən dözülməz hal isə dövlət aparatnda, idarəçilik kadrları arasında antidövlət təbliğatı və təxribatı ilə məşğul olan ünsürlərin fəaliyyətinin güclənməsi idi. Bir çox dövlət idarələrində birbaşa dövlət əleyhinə fəaliyyət göstərən qruplar mövcud idi. Hərbi nazir S.Mehmandarovun etirafına görə, hətta orduda belə bolşevizm böyük təsirə malik idi, buna görə də hökumətdən orduda təbliğat aparanları zərərsizləşdirmək üçün tədbirlər görməyi xahiş etmişdi. Bolşevik təbliğatına məruz qalmayan yeganə orqan Daxili İşlər Nazirliyi idi ki, hökumət bu nazirliyi gücləndirmək üçün 1920-ci ilin fevralında ən gənc kadrlardan biri, sərt mövqeyi ilə seçilən M.Vəkilovu, onun müavini isə "Azərbaycan" qəzetinin redaktoru Ş.Rüstəmbəyovu təyin etmişdi. Onların səyi ilə antidövlət ünsürlərə qarşı mübarizə gücləndirilmişdi.

Lakin bütün bu tədbirlər ölkədə siyasi vəziyyəti daha da mürəkkəbləşdirilmiş, idarəetmə böhranı yaratmışdı. Nəticədə 1920-ci ilin aprel işğalı ərəfəsində ölkədə aşkar hakimiyyətsizlik hökm sürürdü (7, 359 s.).

İlk respublika dövründə milli dövlət quruculuğunun əsasında duran ideya və prinsiplər, eləcə də dövlətçiliyin təşəkkülü prosesində keçirilən müsbət təcrübə, habelə yol verilən yanlışlıqlar sonralar Azərbycan xalqının müstəqil dövlətçiliyin bərpası uğurundakı mübarizəsinə mühüm təsir göstərmişdir. Müasir dövrdə Azərbaycanın dövlət müstəqilliyinin bərpasının ilk dövrlərinə nəzər saldıqda 1918-1920-ci illərdə fəaliyyət göstərmiş cümhuriyyətlə indiki respublikamızın dövlət quruculuğu yolunda adladığı təşəkkül prosesi arasında oxşar problemlərin olduğu açıq-aydın görünür.

## ƏDƏBİYYAT


1. Azərbaycan Cümhuriyyəti (1918-1920).-Bakı: Elm, 1998, 336 s
2. Azərbaycan Demokratik Respublikası: Azərbaycan hökuməti (1918-1920). – Bakı: Elm, 1990 74 s
3. Azərbaycan Demokratik Respublikası (1918-1920)., Məqalələr toplusu-Bakı: Elm, 1992 56 s.
4. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920), Parlament. 2 cilddə, I cild.-Bakı: Azərbaycan, 1998, 974 s.
5. Azərbaycan Xalq Cümhuriyyətində hüquqi dövlət quruculuğu məsələləri və siyasi-hüquqi fikrin inkişafı. Q.Behbudov. Naxçıvan, NDU “Qeyrət” nəşriyyat, 2018, 198 s.
6. Ələkbərov R., Səlimov S. Azərbaycanın dövlət və hüquq tarixi. Bakı: “Hüquq ədəbiyyatı” nəşriyyatı, 2003, 488 s.
7. Süleymanova S. Azərbaycanda ictimai-siyasi hərakat. Bakı: 1999, 419 s.
8. X.İsmayılov. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət və hüququ. Bakı: 2018, 327 s.


## SUMMARY

**Gahraman Behbudov**

## CHARACTERISTICS OF PUBLIC ADMINISTRATION AND CIVIL SERVICE IN THE REPUBLICAN PERIOD


The article analyzes the process of building an independent state in the Azerbaijan Democratic Republic, the establishment of a democratic society, the steps taken in the field of legal reform.

The urgency of the issues reflected in the work is conditioned by political and ideological factors. Although he could not complete the important steps he took in the field of democratic state-building, economy, culture, education, military construction, his measures in a short time left an indelible mark on the history of our people and played a major role in restoring our national statehood traditions.

Extensive measures are being taken to form the apparatus of ministries, which is an important link in public administration during the Azerbaijan Democratic Republic. These decisions of the government laid the foundation for the formation of the civil service.

The role of the Popular Front in the history of Azerbaijani statehood remains relevant today and is remembered with respect.


***Key words:*** *Republic, ministry, civil service, social labor relations, power structure, management system, decision, parliamentary democratic society, personnel problem*

## РЕЗЮМЕ

**Гахраман Бехбудов**

**ХАРАКТЕРИСТИКА ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ И ГОСУДАРСТВЕННОЙ СЛУЖБЫ В РЕСПУБЛИКАНСКИЙ ПЕРИОД**

В статье анализируется процесс построения независимого государства в Азербайджанской Демократической республике, создание основ демократического общества, предпринятые шаги в области правовых реформ. Актуальность вопросов, отраженных в работе, обусловлена политическими и идеологическими факторами. Несмотря на то,что он не смог завершить важные шаги в области демократического государственного строительства, экономики, культуры, образования, военного строительства, осуществленные им за короткий срок меры оставили неизгладимый след в истории нашего народа, сыграли большую роль в деле восстановления традиций национальной государственности. В период Азербайджанской Демократической республики принимаются широкие меры для формирования аппарата министерств,являющихся важным звеном государственного управления. Эти решения правительства создали предпосылки для формирования государственной службы. Роль АХЧ в истории государственности Азербайджана по сей день сохраняет свою актуальность и с уважением вспоминается.


***Ключевые слова:*** *республика, министерство, государственная служба, социально-трудовые отношения, структура власти, система управления, решение, парламентское демократическое общество, кадровая проблема.*

***Məqalə daxil olmuşdur:*** *4 noyabr 2021-ci il*
***Çapa qəbul edilmişdir:*** *2 dekabr 2021-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2021, № 2 (111), 82-86
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2021, № 2 (111), 82-86
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2021, № 2 (111), 82-86

**İSMAYIL QƏRİBLİ**
*Naxçıvan Dövlət Universiteti*
*ismayilqaribli@hotmail.com*

**UOT: 347**

# MÜLKİ PROSESSUAL HÜQUQUN PRİNSİPLƏRİ

*Müəyyən hüquq sahəsinin xüsusiyyətləri onun prinsiplərində ən aydın şəkildə ifadə olunur. Latın mənşəli olan "prinsip" sözü "əsas" və ya "başlanğıc" kimi tərcümə olunur. Hüquq nəzəriyyəsində prinsiplər dedikdə, qanunda ifadə olunan, onun məzmununu, əsaslarını və ictimai həyatın qanunauyğunluqlarını xarakterizə edən ilkin normativ-rəhbər başlanğıclar başa düşülür.*

***Açar sözlər:*** *mülki prosessual hüquq, prinsip, təşkilati prinsiplər, funksional prinsiplər, çəkişmə, dispozitivlik, şifahilik*

Prinsiplər hüquqa uyğun olmaqla onun məzmununu açır. Prinsiplər həm hüququn, həm də müvafiq sahənin xarakterik xüsusiyyətlərini cəmləşdirir. Hüququn prinsipləri konkret hüquqi göstərişlərdə aydın şəkildə ifadə olunur.

Beləliklə, mülki prosessual hüququn prinsipləri həmin hüquq sahəsinin spesifikliyini və məzmununu əks etdirən əsas müddəalardır. Mülki prosessual hüququn prinsipləri qanun, həqiqət və ədalət ideyalarına uyğun olaraq mülki işlərdə məhkəmə baxışının necə olacağını müəyyənləşdirir. Onlar bu hüquq sahəsinin spesifik və ən vacib keyfiyyət xüsusiyyətlərini əks etdirməklə mülki prosessual hüququn predmetinin və tənzimləmə metodunun cəmlənmiş ifadəsidir.

Əsas normativ müddəalar kimi prinsiplər mülki prosessual hüququn quruluşunu və zəruri xüsusiyyətlərini, ümumi müddəalarını müəyyən edir. Onlar ümumilikdə prosessual qanunun məzmununu müəyyənləşdirir, onun bütün norma və institutlarını əhatə edir, prosesin məqsədini və bu məqsədə çatma üsullarını göstərir. Mülki prosessual hüququn prinsipləri hüquq sahəsinin subyektlərinin fəaliyyətinin xarakterini və məzmununu, bu sahənin ümumi və gələcək inkişaf istiqamətlərini təyin edir. Mülki prosessual qanunvericiliyə edilən bütün əlavə və dəyişikliklər ilk növbədə sahənin prinsipləri əsasında formalaşdırılmalıdır.

Məhkəmənin praktiki hüquqtətbiqetmə fəaliyyətində prinsiplərin əhəmiyyəti böyükdür. Əvvəla, mülki prosessual hüququn bütün prinsipləri mülki işlər üzrə ədalət mühakiməsinin vacib demokratik təminatıdır. Mülki işlərə baxılarkən və həll edilərkən məhkəmə təkcə konkret mülki prosessual hüquq normasına deyil, həm də prosessual hüququn prinsiplərinə əsaslanmalıdır. Mülki prosessual hüququn bütün normaları prinsiplər baxımından şərh olunur. Bu, məhkəməyə müvafiq normaların həqiqi mənasını öyrənməyə və düzgün tətbiq etməyə, nəticədə işlərin nəticələrinə görə qanuni, əsaslı və ədalətli məhkəmə qərarlarını qəbul etməyə imkan verir [3, s.56].

Mülki prosessual hüququn prinsipləri yalnız nəzəri deyil, həm də praktik əhəmiyyətə malikdir, çünki:

- məhkəmə icraatının mahiyyətini, onun demokratik prosessual və təşkilati prinsiplərini əks etdirir;
- mülki prosesin keyfiyyət xüsusiyyətlərini formalaşdırır;
- ədalət mühakiməsinin qanuni, ədalətli və əsaslı həyata keçirilməsinin qarantı kimi çıxış edir;
- həm prosesin əsas məqamlarını, həm də bütövlükdə mülki prosessual hüququ xarakterizə edir [4, s.12].

Mülki prosessual hüququn prinsipləri bir neçə meyara əsasən təsnifləşdirilir. Əksər hallarda

bu prinsiplər ifadə olunduğu aktların səviyyəsinə görə (Konstitusion prinsiplər, mülki prosessual qanunvericilikdə əks olunmuş prinsiplər), əhatə dairəsinə görə (ümumhüquqi, sahələrarası, sahəvi və hüquq institutlarında əks olunmuş prinsiplər), hüquqi tənzimetmənin obyektinə görə (təşkilati prinsiplər, funksional prinsiplər) sinifləşdirilir.

Hüquq ədəbiyyatında Mülki prosessual hüququn prinsiplərinin hüquqi tənzimetmənin obyektinə görə bölünməsi daha geniş yayılmışdır:

*1- Təşkilati (Təşkilati-funksional) prinsiplər* məhkəmə quruluşuna, yəni ədalət mühakiməsinin təşkilinə aid prinsiplərdir.

*2- Funksional prinsiplər* məhkəmə və iştirakçıların prosessual fəaliyyətini tənzimləyən prinsiplərdir.

**Təşkilati prinsiplərə** daxildir:

***1-Mülki işlər üzrə ədalət mühakiməsinin yalnız məhkəmələr tərəfindən həyata keçirilməsi prinsipi:*** Ədalət mühakiməsinin yalnız məhkəmələr tərəfindən həyata keçirilməsi prinsipi heç bir başqa səlahiyyətli orqan və ya təşkilatın, hətta hüquq və qanuni mənafelərin müdafiəsi üçün fəaliyyət göstərənlərin də ədalət mühakiməsini icra edə bilməməsi deməkdir. Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər. Heç bir digər orqan və şəxs ədalət mühakiməsini həyata keçirmək hüququna malik deyil. Nə münsiflər məhkəmələrinin fəaliyyəti, nə də əmək mübahisələrinin komissiya tərəfindən həll olunması ədalət mühakiməsinin həyata keçirilməsi demək deyil. Yalnız ədalət mühakiməsi orqanı, yəni məhkəmə dövlətin adından fəaliyyət göstərir, dövlətin adından çıxarılan və qüvvəyə minən məhkəmə qərarını qəbul edir.

Bu prinsipin köməyi ilə müəyyən olunur ki, dövlət xüsusi səlahiyyətli dövlət hakimiyyəti orqanının - məhkəmənin şəxsində hüquq, azadlıq və qanuni mənafelərin lazımi qaydada həyata keçirilməsini dövlət məcburetmə tədbirlərinin gücü ilə təmin edir. Ədalət mühakiməsinin yalnız məhkəmələr tərəfindən həyata keçirilməsi prinsipi ilə dövlət vətəndaşlar və təşkilatlar qarşısında məhkəmə müdafiəsini təmin etmək öhdəliyini yerinə yetirir [5, s.114].

***2-Hakimlərin müstəqilliyi prinsipi:*** Ədalət mühakiməsini həyata keçirərkən hakimlər müstəqildirlər və yalnız Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına tabedirlər. Heç bir orqan və ya vəzifəli şəxs hər hansı mülki işin necə həll olunması barədə hakimə əvvəlcədən göstəriş verə bilməz.

Bu prinsipə uyğun olaraq hakimlər mülki işlərə kənar təsirləri istisna edən şəraitdə baxmalı və həll etməlidirlər. Hər hansı bir şəxs tərəfindən bilavasitə və ya dolayı yolla məhkəmə icraatına məhdudiyyət qoyulması, qanunsuz təsir, hədə-qorxu, müdaxilə yolverilməzdir və qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur. Hakimlərin müstəqilliyinin təminatları Konstitusiya və qanunlarla müəyyən edilir.

***3-Qanun və məhkəmə qarşısında bərabərlik prinsipi:*** Mülki Prosessual Məcəllənin 8.1-ci maddəsinə əsasən, mülki işlər və kommersiya mübahisələri üzrə ədalət mühakiməsi hamının qanun və məhkəmə qarşısında bərabərliyi prinsipi əsasında həyata keçirilir.

Məhkəmə irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən, hüquqi şəxsin olduğu yerdən, tabeliyindən, mülkiyyət formasından və qanunda nəzərdə tutulmayan başqa fərqlərdən asılı olmayaraq işdə iştirak edən bütün şəxslərə eyni cür yanaşır.

Eyni zamanda, hamının qanun və məhkəmə qarşısında bərabərliyi prinsipi prosessual qanunvericilikdə bəzi vətəndaşlara və hüquqi şəxslərə əlavə təminatların müəyyən edilməsini istisna etmir. Xüsusilə aidiyyət, məhkəmə xərcləri və bir sıra digər məsələlərə münasibətdə imtiyazlar Mülki Prosessual Məcəllə ilə bəzi şəxslər və təşkilatlar üçün ailə və maddi vəziyyətləri, sağlamlıq vəziyyətləri, fəaliyyət məqsədləri və s. nəzərə alınmaqla müəyyən edilir. Məsələn, dövlət rüsumundan azadetmələr, alimentlərin alınması haqqında qətnamənin dərhal icra edilməsi və s.

***4-Çəkişmə prinsipi:*** Bu prinsip tərəflərin sübutetmə fəaliyyətini, həmçinin mülki məhkəmə

icraatının mübahisəli formasını müəyyənləşdirir. Çəkişmə prinsipi tərəflərin maddi-hüquqi maraqları arasındakı ziddiyyətə əsaslanır. Bu prinsip mülki işlərin tam və düzgün baxılması və həlli üçün zəruri olan faktiki və sübutedici materialların təqdim olunmasının tamlığını, habelə işin hallarının ətraflı və hərtərəfli öyrənilməsini təmin etmək məqsədi daşıyır.

Çəkişmə prinsipi özündə iki vacib komponenti birləşdirir. *Birincisi*, tərəflərin və işdə iştirak edən digər şəxslərin, habelə məhkəmənin sübutların təqdim edilməsi, toplanması və araşdırılması ilə bağlı hərəkətlərini tənzimləyir. Cinayət prosesindən fərqli olaraq mülki prosesdə məhkəmədə işə baxılmazdan əvvəl sübutların toplanması və araşdırılması ilə məşğul olan orqan və ya vəzifəli şəxs yoxdur. Maraqlı tərəflərin özləri hüquq haqqında mübahisə olduqda müqavilənin bağlanması, öhdəliyin icrası və s. barədə zəruri sübutlara malik olduqlarına əmin olmalıdırlar.

Mübahisəli prinsipin *ikinci* vacib komponenti mülki prosesin mübahisəli formasıdır. Mübahisəli maddi hüquq münasibətlərinin iştirakçılarının maraqları bir-birinə ziddir və bütün mülki məhkəmə icraatı başladıqdan bitənədək prosessual qarşıdurma şəklində davam edir. Prosesdə tərəflər, eləcə də işdə iştirak edən digər şəxslər qanunla müəyyən edilmiş prosessual qaydalara riayət edərək və onlara verilmiş səlahiyyət və imkanlardan istifadə edərək məhkəmədə mövqelərini müdafiə etməyə çalışırlar. Məhkəmə istənilən prosessual və ya maddi-hüquqi məsələni yalnız işə cəlb olunan bütün şəxslərin hərtərəfli müzakirəsi əsasında həll edə bilər [3, s.82].

***5-Məhkəmə baxışının aşkarlığı prinsipi:*** Aşkarlıq məhkəmə icraatının demokratik prosessual formasının zəruri komponentlərindən biri olmaqla ədalət mühakiməsində qanunçuluq prinsipinin həyata keçirilməsi və prosesdə iştirak edənlərin hüquqlarının reallaşdırılması üçün vacib hüquqi təminatdır. Aşkarlıq prinsipi o deməkdir ki, məhkəmə iclasında mülki işə baxılarkən istənilən şəxs, o cümlədən mətbuat nümayəndələri iştirak edə bilər. Məhkəmə icraatının aşkarlığı prinsipi baxımından mülki işlərin materiallarını mətbuatda işıqlandırmaq və radio və televiziyada müvafiq verilişlərin təşkili mümkündür. Məhkəmə icraatlarının aşkarlığı ədalətli məhkəmə araşdırmasının qarantıdır və məhkəmə sisteminin fəaliyyətinə ictimai nəzarəti də təmin edir. Açıq məhkəmə prosesi xalqın məhkəməyə etimadını qoruyan vasitələrdən biridir.

Məhkəmə prosesində aşkarlığın əhəmiyyəti müxtəlifdir. Əvvəla, aşkarlıq hakimlərin müstəqilliyi prinsipinin və onların yalnız qanuna tabe olmasının ciddi təminatlarından biridir, mülki işlərin həqiqi hallarının müəyyənləşdirilməsi üçün optimal şərait yaradan vacib prosessual vasitədir. Aşkarlıq prinsipi ədalət mühakiməsinin düzgün həyata keçirilməsinə ictimai nəzarətin çox ciddi vasitəsidir. Hər hansı bir vətəndaşın məhkəmə salonunda iştirak etmək imkanına malik olduğu hallarda məhkəmə iclası məhkəmənin nüfuzunu, rolunu və məsuliyyətini artırır.

İşlərə qapalı məhkəmə iclasında baxılmasının 2 forması var:

*I-Məcburi forma:* Dövlət, peşə, kommersiya, şəxsi və ailə həyatı sirrinin qorunması, yetkinlik yaşına çatmayan şəxslərin mənafelərinin gözlənilməsi hallarında məhkəmə iclasının qapalı keçirilməsi məcburidir.

*II-Fakültativ forma:* Məhkəmə iclasının açıq keçirilməsi əxlaq, ictimai qayda, dövlət təhlükəsizliyi baxımından ədalət mühakiməsinin maraqlarına ziddirsə iclas qapalı keçirilə bilər.

Mübahisələrin məhkəmədən fərqli olaraq mediasiya prosesində baxılmasının bir neçə üstün cəhətlərini qeyd edək. Belə ki, mübahisənin mediasiyada həlli mübahisə edən tərəflərin mənafeyinə hesablanmışdır. Təcrübə göstərir ki, mübahisələrin bu qaydada həlli daha mütərəqqi və səmərəlidir. Çünki mediasiya prosesində işlərə daha tez baxılaraq qərar qəbul olunur və tərəflərin əldə etdiyi barışıq sazişi dərhal tərəflər üçün məcburi xarakter alır. Lakin, məhkəmə mübahisələri uzun müddət vaxt aparır, uzun müddət məhkəmələrə gedib gəlirlər. Ama qanunla mediasiya prosesi 30 gün ərzində başa çatmalıdır. Bu prosesdə tərəflər sərbəstdirlər, barələrində məcburi qərar qəbul edilməsinin psixoloji təsirindən kənardırlar, qərarı onlar qəbul edirlər və onlara kömək edən bir təcrübəli mediatorlar var. Mediasiyanın məhkəmədən daha bir fərqi isə bu prosesdə qəbul edilən qərarların xarakterindədir. Məhkəmə Azərbaycan dövlətinin adından tərəflər üçün məcburi olan bir qərar qəbul edir. Həmin qərarla mübahisə həll edilsə də, digər tərəf istər-istəməz narazı qalır. Mediasiya prosesində mübahisə ilə bağlı qərarı tərəflər özləri qəbul edirlər. Prosesi aparan mediator qərar qəbul etməkdə tərəflərə ancaq köməklik edir. Mediator hər hansı qərarın qəbul edilməsini tərəflərə göstəriş verə bilməz. Çünki mediasiya könüllü bir prosesdir. Tərəflər istənilən an mediasiyanı dayandıra bilərlər. Eləcə də məhkəmədən fərqli olaraq bu prosesdə mediatoru tərəflər özləri seçirlər. Tərəflər onların işlərinə istənilən mediatorun baxması ilə bağlı razılığa gələ bilərlər. Əgər mediatorun peşəkarlığı tərəflərdən hər hansı birini qane etməzsə, və yaxud mediatorun qərəzsizliyinə şübhə yaranarsa hər hansı bir tərəf ondan imtina edə bilər, mediasiya sessiyasını tərk edə bilər. Çünki mediatorun fəaliyyəti tərəflərin etimadı əsasında həyata keçirilir.

Medasiya prosesində mediatorun tərəflərə daha yaxın olaraq etimad qazanması əsas şərtlərdən biridir. Mediator məhz həmin vasitələrdən istifadə etməklə tərəfləri barışığa gətirməlidir. Çünki mediasiya prosesində tərəflərin mediatora etimad göstərərək hər hansı məlumatı verməsinin heç bir təhlükəsi yoxdur. İlk növbədə mediasiya prosesində səsləndirilən bütün fikirlər, məlumatlar məxfi saxlanılır. Həm tərəflər, həm də mediator həmin məlumatların məxfiliyinə, onların yayılmamasına görə məsuliyyət daşıyır, digər proseslərdə onlardan istifadə edə bilməzlər. Bu qaydalara riayət edilməməsi məsuliyyətə səbəb olur.

Ölkə qanunvericiliyi müəyyən kateqoriya işlər üzrə məcburi mediasiyanın tətbiqinin çox böyük üstünlükləri var. Çünki bu qanun mübahisə edən tərəfləri məhkəməyədək bir masa ətrafında əyləşməyə dəvət edir. Məcburi mediasiya sessiyasında iştirak etməkdən yayınma qanunla məsuliyyətə səbəb olur. Əsas məqsəd ondan ibarətdir ki, tərəflərin münasibətlərinin sonadək pozulmadığı, münasibətlərin daha aqressiv olmadığı, bütün şansların tükənmədiyi bir məqamda tərəflər bir-birini dinləsinlər. Bir çox hallarda insanların mübahisə tərəfi ilə danışmağa ehtiyacı var. Tərəflərin danışıqlarının barışıqla bitməsində mediatorların peşəkarlığının müstəsna rolu olur. Hal-

hazırda fəaliyyət göstərən mediatorlar əksəriyyəti insanlarla yüksək danışıq aparmaq qabiliyyəti olan, insanların mənəvi psixoloji vəziyyətini, yaşam tərzini başa düşən, milli-adət ənənələri yaxşı bilən, təcrübəli, peşəkar şəxslərdən ibarətdirlər. Çünki mübahisə ilə bağlı tərəfləri barışığa gətirmək üçün mediatorun istifadə etdiyi vasitələr həmin bacarıqlardan asılıdır. Mediatorun mediasiya prosesində hər iki tərəflə birgə və ya ayrı-ayrılıqda görüşlər keçirmək, əməkdaşlıq etmək, onlara şifahi və yazılı tövsiyələr vermək, gizliliyi gözləməklə ictimaiyyəti öz fəaliyyəti haqqında məlumatlandırmaq hüquqları var.

Qanunvericilkdə mediasiyanın iki cür tətbiqi əsasları var. Tərəflərin öz təşəbbüsü ilə, müqavilə bağlamaq yolu ilə müəyyən kateqoriya işlər üzrə icbari mediasiya sessiyasında iştirak etməklə. İstənilən mülki, ailə, əmək və kommersiya mübahisələri  üzrə işə mediasiyada baxılması üçün tərəflər əvvəlcədən, mübahisə başlamamışdan əvvəl, mübahisə başlayanda, hətda işə məhkəmənin baxış prosesində belə razılıq əldə edə bilərlər ki, həmin mübahisəyə mediasiyada baxılsın. Bu halda isə tərəflər işin mediasiyaya verilməsi barədə müqavilə bağlayacaqlar. Qeyd olunanlardan belə nəticəyə gəlmək olur ki, məhkəmə prosesinin istənilən mərhələsində məhkəmə işin hallarını nəzərə alaraq öz təşəbbüsü ilə, yaxud tərəflərdən birinin müraciəti əsasında onlara mübahisənin mediasiya vasitəsilə həllini təklif edə bilər. Tərəflər arasında “Mediasiya prosesinin tətbiqi barədə müqavilə” bağlanarsa, məhkəmə icraatı barışıq sazişi və mediasiya prosesinin nəticələri barədə protokol təqdim edilənədək dayandırılır.

Ölkəmizin son dövrlər əldə etdiyi nailiyyətlər şəffaflığın dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilməsi ilə bağlıdır. Mediasiya institutu ölkəmiz üçün yenilik olduğu üçün mediasiya prosesində ilkin olaraq kommersiya, ailə və əmək münasibətlərindən irəli gələn mübahisələrə məcburi olaraq mediasiya sessiyalarında baxılır. Yəni qeyd olunan işlər üzrə müraciətlər artıq məhkəmə proseslərindən öncə  mediasiyada baxılır. Bu cür işlər üzrə tərəflərin ilkin mediasiya sessiyasında iştirak etdiyi andan mediasiya prosesi başlanmış sayılır. Tərəflərə ilk mediasiya sessiyası barədə məlumat verilir və onlar mediasiya prosesində bilavasitə və ya nümayəndələri vasitəsilə iştirak edə bilər, vəkillərin, tərcüməçilərin, müvafiq sahədə ekspert və mütəxəssislərin köməyindən istifadə edə bilərlər. Tərəflərin razılaşması ilə onlara qərar qəbul etməyə kömək edə biləcək digər şəxslər də mediasiya prosesində iştirak edə bilər. Tərəflər öz mövqelərinə və mübahisənin həlli şərtlərinə dair təkliflərini yazılı və ya şifahi şəkildə bildirirlər. Mediasiya prosesində tərəflər mübahisənin həlli şərtlərinə dair razılığa gələ bilərlər. Mediasiya prosesinin hər hansı mərhələsində mediator mübahisənin həlli məqsədilə tərəflər üçün öhdəlik nəzərdə tutmayan şifahi və ya yazılı təklifi irəli sürə bilər. Mediasiyanın uğurlu nəticəsi olaraq tərəflər arasında barışıq sazişi bağlanır. Barışıq sazişi ilə tərəflər mübahisənin həlli ilə bağlı müəyyən şərtlər əsasında razılığa gəlirlər və sazişin şərtlərini özləri müəyyənləşdirirlər. Barışıq sazişi imzalandığı gündən tərəflər üçün məcburi xarakter daşıyır. Barışıq sazişində tərəflər başqa müddət müəyyən etməsələr, saziş imzalandığı gündən 10 gün müddətində könüllü şəkildə icra olunmalıdır. Barışıq sazişinin könüllü icrasından boyun qaçırma Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq barışıq sazişində müəyyən olunan məsuliyyətə səbəb olur. Əgər barışıq sazişinin könüllü icrasından imtina olunsa, tərəf barışıq sazişinin məcburi icrası üçün məhkəməyə müraciət edə bilər. Barışıq sazişi məcburi icra edilməsi üçün məhkəmə tərəfindən müvafiq qaydada təsdiq olunur. Mediasiya prosesi barışıq sazişinin bağlanması ilə nəticələnmədiyi hallarda mediator mediasiyaya xitam verir və bu barədə tərtib edilmiş müvafiq sənədi tərəflərə təqdim edir. Məhz bundan sonra tərəflər həmin sənədi əlavə etməklə ümumi qaydada məhkəməyə müraciət edə bilərlər.

Bir daha qeyd etməliyəm ki, mediasiya yalnız mübahisələrin alternativ yollarından biridir. Burada tərəflər mübahisəli məsələləri danışıqlar yolu ilə üçüncü neytral şəxsin yəni peşəkar mediatorun vasitəsilə həllinə çalışılan bir prosesdir.Əlbətdə ki, uzun-uzadı məhkəmə çəkişmələrini bir kənara qoyub müəyyən güzəştlərlə barışıq sazişi ilə əldə edilməsindən daha qiymətli və dəyərli nə ola bilər. Bu proses zamanı mübahisələrin həllində güzəşt etməklə ürəyimizdəki ədavət və kini bir kənara qoymalı, sağlamlığımızın qaydına qalmalıyıq.

## ƏDƏBİYYAT

1. Ruslan Mirzəyev. Mediasiya-Nəzəriyyə və Azərbaycan təcrübəsi. Bakı: 2020
2.“Mediasiya haqqında”Azərbaycan Respublikasının Qanunu. Bakı: 29 mart 2019-cu il № 1555-VQ
3. Vidadi Mirkamal, Natiq Abdullayev. Müqavilələrin alternativ həlli üsulları, beynəlxalq sənədlər, şərhlər və qanunvericilik. Bakı: 2009.

## SUMMARY

**Sattar Zamanov**

### SOLUTION OF CONTROVERSIAL ISSUES WITHIN THE MEDIATION PROCESS

The system of public relations in modern society necessitates the creation of more flexible and modern mechanisms for the protection of hum an rights. In such a condition, along with traditional means of protecting the rights and legitimate interests of an individual in the legal system of our country, one of the important issues is the identification of new models and the possibility of choosing alternative means of protection in conditions of transparent relations of people whose rights have been violated.

***Key words:*** *mediation, mediation participants, mediators, parties, mediation process*

## РЕЗЮМЕ

**Саттар Заманов**

### РЕШЕНИЕ СПОРНЫХ ВОПРОСОВ В РАМКАХ ПРОЦЕССА МЕДИАЦИИ

Система общественных отношений в современном обществе требует создания более гибких и современных механизмов защиты прав человека. В таких условиях наряду с традиционными средствами защиты прав и законных интересов личности в правовой системе нашей страны одним из важных вопросов становится выявление новых моделей и возможность выбора альтернативных средств защиты в условиях прозрачных отношений лиц, права которых нарушены.

***Ключевые слова:*** *медиаци, участники медиации, медиатор, стороны, процесс медиатормтва.*

---

***Məqaləni çapa təqdim etdi:*** *hüquq üzrə fəlsəfə doktoru, dosent Qəhrəman Behbudov*
***Məqalə daxil olmuşdur:*** *4 noyabr 2021-ci il*
***Çapa qəbul edilmişdir:*** *2 dekabr 2021-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2021, № 2 (111), 100-103

NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2021, № 2 (111), 100-103

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2021, № 2 (111), 100-103

**AYSEL ABBASOVA**
*Naxçıvan Dövlət Universiteti*
*aycel.abbasova@gmail.com*

**UOT: 327**

# AZƏRBAYCAN-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNDƏ QARŞILIQLI STRATEJİ MARAQLAR

*Məqalədə Azərbaycan-Türkiyə münasibətlərinin tarixi kökləri haqqında məlumat verilir, dövlətləri bir-birinə yaxınlaşdıran faktorlardan bəhs edilir. Həmçinin qarşılıqlı münasibətlərdə hər bir ölkənin öz strateji maraqları ayrı-ayrılıqda tədqiq edilmişdir. Türkiyənin Azərbaycan üçün və Azərbaycanın Türkiyə üçün əhəmiyyətindən bəhs edilir.*

***Açar sözlər:*** *Azərbaycan, Türkiyə, əlaqə, maraq, strateji, enerji, dostluq*

Azərbayacan ilə Türkiyə arasında olan əlaqələr böyük tarixi köklərə sahibdir. Azərbaycan 1918-ci ildə öz mütəqil cümhuriyyətini yaratdıqda Bakı onların nəzarətində deyildi. Azərbaycan hökuməti ciddi maddi və hərbi təchizatlarla bağlı problemlərlə qarşı-qarşıya qaldığı bir vaxtda Türkiyə Bakını bolşeviklərdən azad etmək üçün Nuru paşanın başçılığı altında öz ordusunu Azərbaycanın köməyinə göndərdi. Azərbaycan öz müstəqilliyini elan etdikdən sonra ilk müqaviləni Türkiyə ilə imzalamışdı və bu müqavilə lazım gələrsə tərəflərinin bir-birinə yardım göstərəcəklərini nəzərdə tuturdu. Həmçinin Türkiyənin Qazi Mustafa Kamal paşanın öndərliyi ilə apardığı milli mücadiləyə azərbaycanlılar maddi və mənəvi köməklik göstərmişdilər.

Hələ Sovet hakimiyyəti altında olarkən belə Azərbaycanla Türkiyə arasında rəsmi münasibətlər mövcud olmuşdur. 1967-ci ildə Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəlin və 1969-cu ildə Türkiyə Cümhuriyyətinin prezidenti Cövdət Sunayın Bakıya səfərləri bu əlaqələrin mövcudluğunu izah etməyə imkan yaradır.

Türkiyə Qafqazda təsir imkanları olan 3 əsas ölkədən biridir (İran və Rusiya). Lakin Türkiyənin Azərbaycanla birbaşa quru əlaqəsi yoxdur (təcrid olunmuş Naxçıvan ərazisi istisna olmaqla). Türkiyə Azərbaycanla əlaqələrinin əsasən Gürcüstan üzərindən həyata keçirir. Azərbaycan Türkiyə üçün həm Qafqazda əhəmiyyətlidir, həm də Orta Asiyaya və Xəzər dənizinə çıxış, digər türkdilli ölkələrlə əlaqədə əsas halqadır.

Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri isə bizim kədərimizdir" və Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" fikirləri həm Türkiyədə, həm də Azərbaycanda iki ölkə arasındakı münasibətlərin tarixini, bu gününü və perspektivlərini özündə dəqiq ifadə edən ən mükəmməl formul kimi qəbul edilməkdədir (6).

Türkiyənin Mərkəzi Asiya və Qafqaz ölkələri ilə əlaqələri SSRİ-nin dağılmasına qədər SSRİ-nin yürütdüyü qapalı siyasət nəticəsində çox çətinləşmişdi. SSRİ-nin dağılmasından sonra isə bu regionda Türkiyə öz nüfuzunu yaymaq üçün yeni imkanlar qazandı. Türkiyə siyasətçiləri xüsusən də, keçmiş prezident Turqut Özal Mərkəzi Asiyanı Türkiyənin təsirinin və qərb ölkələri üçün əhəmiyyətinin artması üçün yeni bir region olaraq görürdü. Eyni zamanda Orta Asiyaya və Qafqaza açılma Türkiyənin Avropa ilə olan çətinliklərini dəf etmək üçün bir yol olaraq görünürdü (4, səh. 99).

Azərbaycan 1991-ci 18 oktyabrda müstəqilliyini yenidən bərpa etdikdən sonra, Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkə Türkiyə Cümhuriyyəti olmuşdur. Diplomatik əlaqələr 1992-ci ildə qurulmuş və qarşılıqlı olaraq səfirlik və konsulluqlar açılmışdır. Azərbaycanda ayrıca Naxçıvan və Gəncə şəhərlərində Türkiyənin konsulluqları açılmış, Türkiyədə isə səfirliklə bərabər, İstanbul və Qarsda da konsulluqlar yaradılmışdır ki, bu da qarşılıqlı əlaqələrin genişliyindən xəbər verir ( 8 ).

SSRİ-nin parçalanmasından sonra Azərbaycanla Türkiyə arasındakı münasibətlərin yeni mərhələsi başlandı. SSRİ-nin dağılması bütün dünyada həmçinin Cənubi Qafqazda da qüvvələr nisbətinin dəyişməsinə səbəb oldu. Artıq bu regiona Türkiyə də daxil ola bildi. Azərbaycanla Türkiyəni həm tarixi bağlar bir-birinə bağlayırdı, həm də qarşılıqlı ümumi maraqlar ölkələri bir-birinə daha da yaxınlaşdırırdı. Eyni zamanda, yeni dünya nizamında ədalətin əsas meyar kimi qəbul edilməsi, hər iki dövlətin siyasi fəaliyyətinin nail olmaq istədiyi əsas məqsədlərdən birinə çevrilib (3, səh. 6).

Azərbaycan yenidən müstəqilliyini qazandıqdan sonra Türkiyənin Cənubi Qafqaz siyasəti Bakı mərkəzli olmuşdur. Türkiyənin keçmiş xarici işlər və daha sonra baş naziri olmuş professor Əhməd Davudoğlu Cənubi Qafqazın Türkiyənin xarici siyasəti üçün əhəmiyyətini Orta Asiyaya çıxışın əldə edilməsi, Qərbi Asiya, Xəzər hövzəsi və Şimal– Cənub dəhlizində geosiyasi məkan olaraq təsvir etmişdir. Davudoğlu eyni zamanda "Azərbaycan güclü olmadan Türkiyənin bu regionda güclü olmayacağını" da qeyd etmişdir (2, səh. 100 ).

Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər dostluq, qardaşlıq şüarına söykəndiyi qədər qarşılıqlı münasibətlərdə hər iki ölkənin də öz strateji maraqları vardır və bu heç də təəccüb doğurmamalıdır. Belə bir klassik deyim var ki, "siyasətdə daimi dostluq və daimi düşmənçilik yoxdur, daimi maraqlar var". Düzdür, bəzən dövlətlər öz maraqlarına tam cavab verməsə də, dini, milli amilləri nəzərə alaraq siyasət yürüdürlər, lakin bu hallar çox nadir baş versə də, biz bunu Azərbaycan-Türkiyə münasibətlərində müşahidə edə bilərik. Məsələn, Türkiyənin özü Birinci Dünya müharibəsindən sonra çox çətin vəziyyətdə olsa da, Azərbaycana yardım əlini uzatdı və Bakı bolşeviklərdən azad edildi. Buna daha bir neçə misal da əlavə etmək olar.

Son dövr münasibətlərə baxsaq, biz burada həm qarşılıqlı maraq, həm də dostluq-qardaşlıq münasibətlərini görə bilərik. Azərbaycanın Türkiyə üçün əsas əhəmiyyəti Orta Asiyaya, Xəzər dənizinə və digər Türk dövlətlərinə çıxışı olması, həmçinin Qafqaz regionunda Türkiyə üçün etibarlı müttəfiq olmasıdır. İqtisadi cəhətdən isə birgə həyata keçirilən enerji layihələri, bunlara misal olaraq Bakı-Tiblisi-Ceyhan neft kəməri, Bakı-Tiblisi Ərzurum qaz kəməri, son dövrlərdə isə XXl əsrin müqaviləsi adlandırılan TANAP və TAP layihələrini misal göstərmək olar ki, bu layihələr hər iki ölkəyə külli miqdarda gəlir gətirir və eyni zamanda Türkiyə etibarlı mənbədən və sərfəli qiymətə öz enerji ehtiyacını təmin edir.

Qafqaz tarixən Türkiyənin maraq dairəsində olmuşdur və bu hal hazırda da davam edir. Qafqaz bölgəsinin Türkiyə üçün nə dərəcədə əhəmiyyətli olduğunu Ahmet Davudoğlu öz "Stratejik dərinlik" adlı kitabında da qeyd etmişdir. Müəllif qeyd edir ki, "Türkiyənin beynəlxalq münasibətlərin siyasi, iqtisadi və mədəni sahələrindəki çəkisi onun bu bölgələrdəki fəaliyyətindən və mövqeyindən asılı olaraq qalacaqdır. Türkiyənin daxili bütövlüyü belə bu bölgələrdəki fatorlarla birbaşa bağlıdır. Balkanlar, Qafqaz və Orta Asiya üzərində təsiri olmayan bir Anadolu ölkəsi nə bu həssas geosiyasi ərazi üzərində bütünlüyünü qoruya bilər, nə də dünyaya açıla bilər" (1, səh. 133).

Türkiyə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində daim Azərbaycanı dəstəkləmişdir. Kəlbəcər rayonunun işğalından sonra isə Erməsintanla sərhədlərini bağlamışdır. Əlbəttə, burda dostluq münasibətləri ilə yanaşı, siyasi maraqlar da öz yerini tutmuşdur. Balkanlarda Albaniya Türkiyə üçün nə qədər önəmlidirsə, Cənubi Qafqazda Azərbaycan da Türkiyə üçün bir o qədər əhəmiyyətlidir. Həm Albaniyada, həm də Azərbaycanda istiqrar bərpa edilməyincə Türkiyənin Adriyatik və Xəzər dənizi ilə bağlı siyasətini inkişaf etdirə bilməsi mümkün olmayacaqdır (1, səh. 141). İkinci Qarabağ müharibəsində isə Türkiyənin siyasi maraqları bu siyasətlə bağlı idi. Türkiyə bölgədə istiqrarın bərpa edilməsində maraqlıdır çünki nəticədə o, Azərbaycanla quru əlaqələrini bərpa edəcək və Orta Asiyaya çıxış qazanacaqdır.

Türkiyənin Azərbaycan üçün əhəmiyyətindən bəhs edərkən burada bir neçə vacib faktora toxunmaq lazım gəlir. Azərbaycan hər nə qədər şərq-qərb, şimal-cənubun kəsişdiyi nöqtədə yerləşsə də, ölkəmizin açıq dənizlərə birbaşa çıxışı yoxdur. Türkiyənin isə Aralıq dənizinə və birbaşa Avropa ölkələrinə çıxışı vardır. Yarandığı ilk illərdə ölkəmizin Türkiyəni müttəfiq kimi seçməsində də müəyyən səbəblər var idi. Əvvəla iki ölkəni tarixi bağlar, milli və dini birlik bir birinə bağlayırdı.

Digər tərəfdən isə mütəqilliyin ilk illərində qarşıya çıxan iqtisadi problemləri həll etmək üçün etibarlı müttəfiqə ehtiyac duyulurdu (2, səh. 103). Azərbaycan isə seçimini çox düzgün etdi. "Əsrin müqaviləsi" imzalanarkən və imzalandıqdan sonra Azərbaycan Rusiyanı qıcıqlandıramamaq üçün ona müqavilədə müəyyən qədər pay təklif etdi və neftimiz ilk olaraq Bakı-Novorossiysk boru xətti ilə dünya bazarına çıxarıldı. İrəliləyən zamanlarda isə neftin dünya bazarına alternativ və əlverişli yollarla çıxarılması üçün 1999-cu ildə Türkiyə və Gürcüstanla, Bakı-Tiblisi-Ceyhan əsas ixrac neft boru kəmərinin çəkilməsi barədə müqavilə imzalandı. Kəmərin inşasına 2002-ci ildə başlanıldı və kəmər 2006-cı ildə fəaliyyətə başladı. Daha sonra isə ölkələr arasında Bakı-Tiblisi-Ərzurum qaz boru kəmərinin inşasına dair razılıq əldə olundu və kəmər BTC-ə paralel çəkildi. 2007-ci ildən fəaliyyət göstərən kəmər Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm əhəmiyyət daşıyır.

Son dövrlərin ən uğurlu layihələri isə TANAP və TAP layihələri oldu, Azərbaycan və region üçün mühüm əhəmiyyətə malik olan bu layihələr nahaq yerə XXI Əsrin Müqaviləsi adlandırılmadı. Bu layihələrin həyata keçirilməsi iqtisadi gəlirlər gətirdiyi qədər, ölkəmizin siyasi mövqeyinin də güclənməsinə və Türkiyə ilə olan münasibətlərin daha da yaxınlaşmasına şərait yaratdı. Bunu Cənab Prezident İlham Əliyevin Qarsda Trans-Anadolu qaz boru kəmərinin açılış mərasimindəki niqtindən də açıq başa düşmək olar: "Bu gün tarixi bir gündür – TANAP layihəsinə start verilir, təməl daşı qoyulur. Bu layihə enerji layihəsidir. Bu layihə enerji təhlükəsizliyi layihəsidir. Amma ilk növbədə, bu layihə Türkiyə-Azərbaycan birliyi, qardaşlığı layihəsidir. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra bizi müstəqil dövlət kimi ilk tanıyan məhz qardaş Türkiyə olmuşdur. O gündən bu günə qədər biz bərabər irəliyə gedirik, bir-birimizi dəstəkləyirik, bir-birimizin uğurlarına sevinirik, hər zaman bir-birimizə arxa, dayaq oluruq" (7).

Müstəqilliyini yeni qazandığı illərdə Azərbaycan informasiya sahəsində blokada ilə üzləşmişdi. Ölkəmizdə baş verən hadisələr dünya ictimaiyyətinə düzgün çatdırıla bilmir və Azərbaycan kritik bir dövrdə informasiya müharibəsində Ermənistana uduzurdu. Bu kimi halların nəticəsi idi ki, ABŞ konqresi tərəfindən Azədlığı dəstək aktına 907 saylı düzəliş edildi. Azərbaycana bu blokadanı yarmaqda və dünyaya düzgün məlumatlar çatdırmaqda Türkiyə yaxından köməklik göstərmiş və türk mediası Azərbaycanda baş verən hadisələri işıqlandırmışdır. Müstəqilliyini uzun müddətdir qazanmış və qoruyub saxlaya bilmiş Türkiyədə xarici ölkələrin səfirlikləri yerləşirdi ki, Azərbaycan bu ölkələrin səfirləri ilə görüşlər keçirir Azərbaycanla bağlı həqiqətləri onların diqqətinə çatdıra bilirdi. Azərbaycanın xarici ölkələrdə səfirlikləri açılana qədər Azərbaycan səfirlikləri həmin ölkədə yerləşən türk səfirliklərinin binalarında fəaliyyət göstərirdilər.

Bütün bunlarla yanaşı, Azərbaycan üçün Türkiyənin ən böyük əhəmiyyəti Dağlıq Qarabağ münaqişəsində Azərbaycanı dəstəkləməsidir. 1993-cü ildə Kəlbəcər rayonunun işğalından sonra Türkiyə Ermənistanla sərhədlərini bağlamış və bütün təzyiqlərə baxmayaraq hələ də açmamışdır. R.T.Ərdoğanın jurnalistlərin Türkiyə ilə Ermənistan arasında sərhədlərin açılmasına dair yayılan məlumatla bağlı sualının cavabında bildirib ki, "Türkiyə ilə Ermənistan arasında baza prinsipləri ilə bağlı danışıqlar aparıla bilər: Lakin bu, Dağlıq Qarabağ münaqişəsinin həllindən asılıdır. Azərbaycanla Ermənistan arasında Dağlıq Qarabağ münaqişəsinin həllinə dair razılaşma əldə olunmayana qədər bizim Ermənistanla hər hansı yekun saziş imzalamağımız mümkün deyil" (5).

Nəticə olaraq deyə bilərik ki, Türkiyə Azərbaycan münasibətləri müxtəlif sahələrdən analiz edilə bilər. Ölkələri bir-birlərinə milli və dini amillər daha çox yaxınlaşdırır və tarixən ölkələr arası sıx münasibətlər mövcud olmuşdur. Bütün bu sadalananlarla yanaşı münasibətlərdə qarşılıqlı maraqların olması da istisna deyil. Hər bir ölkə öz xarici siyasətində ilk öncə öz ölkəsinin milli maraqlarını düşünür və bu heç də təccüblü deyil. Münasibətlərin mövcud səviyyəsi hər iki tərəfi qane edir və bu gün münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə qədər yüksəlmişdir.

## ƏDƏBİYYAT


1. Ahmet Davudoğlu. "Stratejik derinlik". Küre yayınları: 2001
2. Cavid Vəliyev. "Azərbaycan Türkiyə münasibətlərinin əsas istiqamətləri: 1991-2016". "Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri". Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi. Bakı, 2017
3. Elnur Aslanov. Azərbaycan-Türkiyə: dostluq, qardaşlıq və strateji tərəfdaşlıq. "Azərbaycan-Türkiyə əlaqələri son 20 ildə, uğurlar və imkanlar". Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi. Bakı: 2011, səh. 5
4. Larrabee F. Stephen and Lesser, Ian O. Turkish Foreign Policy in an Age of Uncertainty. RAND Corporation: 2003
5. https://apa.az/az/xeber/xarici-siyaset/-151472 Ərdoğan: "Dağlıq Qarabağ münaqişəsi həll olunmayana qədər Ermənistanla sərhədləri açmayacağıq"
6. https://lib.aliyev-heritage.org/az/4610295.html Azərbaycan-Türkiyə münasibətləri
7. https://president.az/articles/14566 İlham Əliyev Qarsda Trans-Anadolu qaz boru kəmərinin təməlinin qoyulması münasibətilə təntənəli mərasimdə iştirak edib
8. https://www.mfa.gov.tr/turkiye-azerbaycan-siyasi-iliskileri.tr.mfa Türkiye-Azerbaycan siyasi ilişkileri


## SUMMARY

**Aysel Abbasova**

### MUTUAL STRATEGIC INTERESTS IN AZERBAIJAN-TURKEY RELATIONS

The article provides information about the historical roots of Azerbaijani-Turkish relations, discusses the factors bringing states closer. The strategic interests of each country in mutual relations have also been separately studied. The importance of Turkey for Azerbaijan and Azerbaijan for Turkey is discussed.

***Key words:*** *Azerbaijan, Turkey, relation, interest, strategy, energy, friendship*

## РЕЗЮМЕ

**Айсель Аббасова**

### ВЗАИМНЫЕ СТРАТЕГИЧЕСКИЕ ИНТЕРЕСЫ В АЗЕРБАЙДЖАНСКО-ТУРЕЦКИХ ОТНОШЕНИЯХ

В статье представлена информация об исторических корнях азербайджано-турецких отношений, рассматриваются факторы, сближающие государства. Также отдельно изучены стратегические интересы каждой страны во взаимоотношениях. Речь идет о значении Турции для Азербайджана и Азербайджана для Турции.

***Ключевые слова:*** *Азербайджан, Турция, связь, интерес, стратегический, энергия, дружба*

---

***Məqaləni çapa təqdim etdi:*** *tarix üzrə fəlsəfə doktoru, dosent Şamxal Məmmədov*
***Məqalə daxil olmuşdur:*** *4 noyabr 2021-ci il*
***Çapa qəbul edilmişdir:*** *2 dekabr 2021-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2021, № 2 (111), 104-107
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2021, № 2 (111), 104-107
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2021, № 2 (111), 104-107

**FİRUZƏ QULİYEVA**
*Naxçıvan Dövlət Universiteti*
*firuzaguliyeva97@gmail.com*

**UOT: 349.3**

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA HƏYATA KEÇİRİLƏN SOSİAL SİYASƏTİN UĞURLARI

*Məqalədə ölkəmizin sürətli sosial-iqtisadi inkişafının dinamikliyi və davamlılığı zəminində Naxçıvan Muxtar Respublikasında həyata keçirilən uğurlu sosial siyasət təhlil olunur və bu sahənin inkişafını xarakterizə edən faktlar və rəqəmlərə istinad edilməklə sosial siyasət sahəsində qazanılan nailiyyətlər nəzərə çatdırılır.*

***Açar sözlər:*** *sosial siyasət, sosial quruculuq, təhsil, elm, səhiyyə, məşğulluq, ünvanlı dövlət sosial yardımı*

Respublikamıza əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş irimiqyaslı inkişaf strategiyasının nə dərəcədə fundamental və elmi əsaslara söykəndiyini, uzaqgörən siyasi düşüncə xətti olaraq gələcəyə istiqamətləndiyini və inkişafın bütün sferalarında sosial yönünün üstünlük təşkil etdiyini görürük.

Ümumimilli liderin inkişaf strategiyasını dövrün və zamanın tələbinə uyğun dünya siyasətinin mövcud tələbləri istiqamətində, yeni-yeni siyasi çalarlarla zənginləşdirib uğurla irəli aparan möhtərəm prezidentimiz İlham Əliyev sayəsində Azərbaycan Respublikası Cənubi Qafqazın söz sahibi olan qüdrətli və hərbi cəhətdən güclü bir dövlətinə çevrildi.

Bütün bu qazanılan iqtisadi-sosial nailiyyətlər siyasi müstəvidəki uğurlar və yaradılan yenilməz hərbi qüdrət Ali Baş Komandamız üçün itirilən torpaqlarımızın geri qaytarılması üçün zəmin yaratdı.

Yenilməz və vətənsevər ordu formalaşdıran və onu ən müasir silahlarla təmin edən Ali Baş Komandan 44 günlük müharibənin həm hərb meydanında, həm də siyasi müstəvidə qələbəsini təmin etdi. İtirilən torpaqlarımız geri qaytarıldı, düşmən darmadağın edildi.

Bu böyük qələbini həm də Azərbaycan Respublikasının gələcəkdə sosial-siyası, iqtisadi və hərbi cəhətdən dünyanın ən qüdrətli dövlətlərindən birinə çevriləcəyinin müjdəsi saymaq olar.

Bu gün ölkəmizdə çox uğurla inkişaf etdirilən sosial siyasətin əsas fəlsəfəsi inkişafın bütün sferaları üzrə qazanılan nailiyyətləri əhalinin rifah halının yüksəldilməsinə yönəlməkdən ibarətdir. Ölkə əhalisinin sosial-mənəvi tələbatlarının ödənilməsi ölkə prezidenti cənab İlham Əliyevin sosial siyasətinin məğzini təşkil edən əsas prinsipdir. Bunu cənab İlham Əliyev Azərbaycan Respublikasına Prezident seçildikdən sonra 11 oktyabr 2003 ci ildə tarixdə Andiçmə mərasimində söylədiyi nitqində aşağıdakı sözlərlə ifadə etmişdir:- " Azərbaycanda digər sosial məsələlərdə öz həllini tapır. Bilirsiniz ki, bu yaxınlarda cənab Prezidentin Sərəncamları ilə səhiyyə, təhsil, mədəniyyət işçilərinin əmək haqqı 50 faiz artırılmışdır. Pensiyalar 40 faiz artırılmışdır. Bu bir daha onu göstərir ki, sosial məsələlər Prezidentimizin həmişə diqqət mərkəzində olmuşdur. Bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Ölkənin bütün imkanları buna xidmət edəcəkdir. Təsadüf deyil ki, gələn ilin büdcəsinin 60 faizi sosial məsələlərə sərf olunacaqdır (1-9). Sosial məsələlərin dövrün tələblərinə uyğun həlli Azərbaycan Respublikasının 1995 ci ildə qəbul olunmuş Konstitusiyasında təsbit olunduğu kimi, dövlət mənşəyindən, irqindən, milliyətindən, dinindən və dilindən asılı olmayaraq, hər kəsin hüququna və azadlıqlarına hörməti və sosial bərabərliyini təmin edir (Maddə-25). (2).

Azərbaycancılıq ideologiyası "...Azərbaycanda vahid birlik, vahid sosium formalaşdırır. Azərbaycançılığın mahiyyəti müxtəlif xalqların mədəniyyətlərin, ənənələrin, konfessiyaların vəhdətidir". (3)

Sosial siyasət çoxcəhətli və mürəkkəb bir proses olaraq bütövlükdə cəmiyyəin bütün

sferalarının inkişafı ilə şərtlənir və əhalinin həyati mənafeyinin təmin olunmasına yönəldilmiş konkret tədbirlər sistemi olaraq sosial sferada mövcud olan sosial münasibətlərin tənzimlənməsi, sosial siyasətin yaxşılaşdırılması, sosial sahədə əlaqələrin təkmilləşdirilməsinin təmin edilməsinə imkan yaradır.

Azərbaycan dövlət müstəqilliyinin bərpasından sonra iqtisadi və sosial həyatın bütün sferaları üzrə yüksək tərəqiyyə nail olmuş və Cənubi Qafqazın lider dövlətinə çevrilmişdir. Azərbaycan Respublikasının ayrılmas hissəsi olan Naxçıvan Muxtar Respublikası da müstəqillik dövrünün bu tərəqqi və inkişaf marafonunun uğurlu iştirakçısı olaraq , Azərbaycanın milli dövlətcilik ənənələrinə və müstəqillik dövrünün davamlı tərəqqisinə mühüm töhfələr vermişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasında gedən davamlı inkişafı və müsbət dəyişiklikləri belə dəyərləndirmişdir:" Son illər ərzində muxtar respublikada böyük abadlıq-quruculuq işləri görülmüşdür. Naxçıvan Muxtar Respublikası bütün iqtisadi göstəricilərinə görə çox sürətlə inkişaf edən bir respublikadır" (4).

Naxçıvanın iqtisadi və sosial inkişafı, çiçəklənməsi əhalinin rifahının xeyli dərəcədə yaxşılaşması və bu işin davamlı xarakter alması artıq bir reallıqdır. Bu həm də Ulu Öndər Heydər Əliyevin Naxçıvanın tərəqqisi sahəsindəki arzularının reallığı və bu dahi insanın xatirəsinin uca tutulmasıdır.

Bütün bunlar Naxçıvan Muxtar Respublikası Ali Məclisin Sədri Cənab Vasif Talıbovun çətin blokada şəraitində belə uğurla həyata keçirdiyi islahatların və tərəqqi siyasətinin bütün sferalar üzrə daim irəliyə, yüksəkliklərə doğru istiqamətləndirdiyi güclü əzmi və sarsılmaz iradəsinin ifadəsidir. Muxtar respublikada aparılam məqsədyönlü sosial siyasət - elm, maarif, səhiyyə, əhalinin sosial təminatının və sosial rifahının daha da yaxşılaşdırılması, ehtiyacı olan əhali təbəqəsinə hər cür köməklik göstərilməsi, şəhid ailələrinin sosial ehtiyaclarının daim diqqət mərkəzində saxlanılması, sosialyönümlü quruculuq işləri və s. bu kimi sahələri əsaslı şəkildə əhatə edir.

Muxtar respublikada elmin inkişafı sahəsində ardıcıl tədbirlər həyata keçirilir. Elmin inkişafı büdcədən səmərəli şəkildə istifadə və elm tədqiqatlarının aparılması üçün ən son texnoloji avadanlıqların tətbiqi sayəsində həyata keçirilir.

Təhsilin inkişafı muxtar respublikanın dövlət siyasətində prioritet istiqamətlərdəndir. Təhsilin keyfiyyətinin və məzmununun ilbəil yüksəlməsi ali məktəblərə qəbul zamanı yüksək bal toplayan abituriyentlərin hər qarşıdakı il daha da artması ilə şərtlənir.

"Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 30 iyun tarixli Sərəncamı təhsil prosesi ilə yanaşı, milli-mənəvi sərvətlərimizin öyrənilməsinə də marağı artırdı .

Təhsil sahəsi üzrə infrastruktur quruculuğuna xüsusi diqqət yetirilir. "...Muxtar respublikamızda təhsil sahəsində islahatların bir istiqaməti olan - yeni təhsil obyektlərinin inkişası prosesinin yüksək dinamikası ümumilikdə cəmiyyətimizin tərəqqisi ilə bağlı pozitiv meyilləri konkret faktlarla xarakterizə etməyə imkan verir. (5-154).

Naxçıvan Dövlət Universitetinin Xarici dillər fakültəsi yenidən qurulub. Müasir tələblərə cavab verəcək səviyyəyə çatdırılmış, tibb sahəsi üzrə təhsil alan tələbələrin təcrübəli peşə bacarıqlarının artırılması məqsədilə əczaçılıq və simulyasiya kabinnəsi istifadəyə verilmiş, universitet ərazisində külək və günəş hibrit qida qurğusu quraşdırılmışdır (6).

Naxçıvan Muxtar Respublikası Ali Məclisin Sədri 2020-ci il dekabrın 14-də Texnologiyalar Parkının yaradılması haqqında Sərəncam imzalamış, müvafiq dövlət qurumları qarşısında sərəncamdan irəli gələn vəzifələrin icrası ilə bağlı tapşırıqlar qoyulmuşdur.

İyunun 16-da Naxçıvan Dövlət Universietində Texnologiyalar Parkının təməlatma mərasimi keçirilmişdir.

Naxçıvan Muxtar Respublikasi Ali Məclisin Sədri cənab Vasif Talıbov tədbirdə iştirak etmişdir (7).

Muxtar respublikada əhaliyə göstərilən səhiyyə xidmətinin daha da yaxşılaşdırılması məqsədilə səhiyyə quruculuğu sahəsində mühüm addımlar atılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisin Sədri tərəfindən muxtar respublikada icbari tibbi sığorta tətbiqinin təmin olunması və əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin daha da yaxşılaşdırılması məqsədilə 5 fevral 2020-ci il tarixində müvafiq sərəncam imzalanmış və icbari tibbi sığorta sahəsində iradəetmənin təkmilləşdirilməsi sahəsində 9 fevral 2020-ci il tarixli xüsusi fərman verilmişdir (8). Muxtar respublikada həyata keçirilən sosial siyasətin prioritet tərəflərindən biri də əhalinin sosial müdafiəsinin təşkilidir. Bu istiqamətdə pensiya təminatına, müharibə əlillərinin, şəhid ailələrinin və əhalinin aztəminatlı hissəsinin sosial müdafiəsinə xüsusi diqqət yetirilir. 2019-cu ildə əhalinin qeyd olunan təbəqəsinin sosial müdafiəsi üçün 3447 min manatdan çox ünvanlı dövlət sosial yardımı ödənilmişdir.

2006-cı ildən 2013-cü ilədək olan dövr ərzində muxtar respublikada hər bir nəfərə düşən aylıq gəlirləri ehtiyac meyarından az olan ailələrə 22 milyon 331 min manatdan çox ünvanlı dövlət sosial yardım ödənilmişdir (9-101).

Əhalinin sosial rifah halının yüksəldilməsi və sosial müdafiəsinin təşkili muxtar respublikada daim diqqət mərkəzində saxlanılır .Ölkəmizdə, eləcə də muxtar respublikada sosial-iqtisadi inkişafın dinamikliyinin öz davamlılığının yüksək səviyyədə təmin olunması bütün sahələrdə uğurların və nailiyyətlərin qazanılması ilə şərtlənir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədri olduğu Caspian European Clubun 2018-ci ildə ölkəmizin regionları üzrə hazırladığı illik investisiyasında Naxçıvan Muxtar Respublikası ikinci dəfə ən yüksək bal toplayaraq lider olmuşdur (10-114). 2020-ci ildə aylıq gəliri ehtiyac meyarından az olan 442 ailəyə ünvanlı dövlət sosial yardımı verilmişdir. İki şəhid ailəsinə, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda sağlamlığını itirmiş 6 nəfərə, hərbi xidmət vəzifəsini yerinə yetirərkən sağlamlığını itirmiş 2 nəfərə, ümumiyyətlə, 10 ailə fərdi yaşayış mənzili ilə təmin olunmuşdur .

Ölkəmizin suverənliyi uğrunda sağlamlığını itirmiş 8 nəfər, hərbi xidmət zamanı sağlamlığını itirmiş 11 nəfər və Çernobil qəzasının aradan qaldırılmağa çalıçmalarında sağlamlığını itirmiş 6 nəfər şəxsi minik avtomobilləri ilə təmin olunmuşdur.

Ümumilikdə 2020-ci ildə 1289 nəfər ailə üzvi olan 291 aztəminatlı ailə özünəməşğulluqla təmin edilmişdir. Hələ 17 noyabr 2003-cü ildə Nazrirlər Kabinetinin iclasında ölkə başçısı cənab İlham Əliyev demişdir:-“ Azərbaycan üçün ən böyük problem işsizlik problemidir. Bu istiqamətdə görüləcək tədbirlərin nəticəsində əminəm ki, bu problem də aradan qaldırılacaqdır . Bəyan etmişdim ki, məqsədimiz odur ki, növbəti 5 ildə Azərbaycanda 600 min yeni iş yeri açılsın . ...Yəni mən əminəm ki, həm dövlət tərəfindən, eyni zamanda özəl sektor tərəfindən görüləcək tədbirlərin nəticəsində biz buna nail olacağıq (11). 2020-ci ildə 305 tənha ahıl və sağlamlıq imkanları məhdud vətəndaşa evlərində sosial xidmət göstərilmiş, Naxçıvan Əlillərin Bərpası Mərkəzində 149 nəfərin, Naxçıvan Uşaq Bərpa Mərkəzində 173 uşağın müalicəsi təşkil olunmuşdur (12). Sosial-iqtisadi yüksəliş dövründə yaşayan muxtar respublikamızda həyata keçirilən uğurlu sosial siyasət bütövlükdə cəmiyyət üzvlərinin maddi və mənəvi tələbatlarının ödənilməsinə həyat şəraitinin yaxşılaşdırılmasına istiqamətlənmişdir.

Muxtar respublikada tarixi mədəni irsin qorunması, bərpası daim diqqət mərkəzində saxlanılır. Mədəniyyət obyektlərinin inşaası və yenidən qurulması davamlı xarakter almışdır. Bütün bunlar muxtar respublikada turizmin genişlənməsinə zəmin yaratmışdır. Turizmi yüksək gəlir verən sahə kimi inkişaf etdirmək müasir tələblərə cavab verən rəqabətədavamlı turizm kompleksləri yaratmaqla muxtar respublika turist cəlb edən bölgələrdən birinə çevrilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisin Sədri 2018- ci il 31 yanvar tarixli sərəncamı ilə qəbul olunmuş, 2018-2022-ci illərdə” Naxçıvan Muxtar Respublikasında Turizmin inkişafına dair Dövlət Proqramı” bu sahədə daha planlı və daha səmərəli işlərin görülməsinə zəmin yaratmışdır.

Məlum olduğu kimi, yüksək turizm potensialına malik olan muxtar respublikada dövlət proqramlarının infrastruktur layihələrin uğurlu tətbiqi nəticəsində bu sahədə davamlı inkişafa nail olunmuşdur (13-360). Xalqımızın ümummilli lideri dahi Heydər Əliyevin : “Mən istəyirəm ki, mənim arzum, istəklərim Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycan gələcəyi haqqında və

Azərbaycanın ayrılmaz hissəsi olan müstəqil Naxçıvan haqqında planlarım, arzularım yerini yetirilsin " deyə səsləndirdiyi unudulmaz sözləri bu gün ölkəmizin və muxtar respublikanın dinamik və davamlı inkişafı, uğurları böyük qələbələri, bütövlüyümüzün bərpası, güclü və lider dövlətə çevrilməyimiz fonunda gerçəkləşir.

## ƏDƏBİYYAT

1. İlham Əliyev. İnkişaf - məqsədimizdir. İkinci kitab, Azərnəşr 2009
2.Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2005
3.Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi (müəllif-tərtibatçı S.Xəlilov. Azərbaycan Universiteti nəşriyyatı, 2002
4. "Azərbaycan" qəzeti, 14 yanvar 2021-ci il.
5.İntibahın 15 ili- Naxçıvan: "Əcəmi" nəşriyyatı, 2010
6. "Şərq Qapısı" qəzeti, 26 yanvar 2021- ci il
7."Şərq Qapısı" qəzeti, 17 iyul 2021-ci il
8."Şərq Qapıs"ı qəzeti, 26 yanvar 2021-ci il
9.İ.Hacıyev, B.İsmayılov. Naxçıvan Muxtar Respublikası-90
10.İ.Hacıyev. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı. Naxçıvan: "Əcəmi" nəşriyyatı, 2020, səh. 114
11."Azərbaycan" qəzeti, 2003-cü il 18 noyabr.
12."Şərq Qapısı" qəzeti, 26 yanvar 2021-ci il.
13.N. Əhmədov. Surətlə inkişaf edən və modernləşmiş Naxçıvan iqtisadiyyatı. Naxçıvan: "Əcəmi" nəşriyyatı, 2019

## SUMMARY

**Firuza Guliyeva**

### SUCCESSES OF SOCIAL POLICY IMPLEMENTED IN NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

The article analyzes the successful social policy implemented in the Nakhchivan Autonomous Republic during the period of dynamic and sustainable socio-economic development of our country, and also takes into account the achievements in the field of social policy with reference to facts and figures characterizing the development of this sphere.

***Key words:*** *social policy, social building, education, science, health, employment, targeted state social assistance.*

## РЕЗЮМЕ

**Фируза Гулиева**

### РОЛЬ ИССЛЕДОВАНИЙ В СОЦИАЛЬНОЙ РАБОТЕ В РЕШЕНИИ ПРОБЛЕМ СОЦИАЛЬНОЙ ЖИЗНИ

В статье обосновывается роль целенаправленной реализации социальной политики и использования в качестве эксперимента результатов социальных исследований социальных работников, оказывающих услуги по социальной работе, в решении проблем социальной жизни. При этом обращается внимание на необходимость проведения социальных исследований и на то, что эти исследования должны опираться на научную и гуманистическую основу.

***Ключевые слова:*** *Социальная политика, социальная работа, социальный работник, методы исследования, социальные проблемы.*

***Məqaləni çapa təqdim etdi:*** *hüquq üzrə fəlsəfə doktoru, dosent Qəhrəman Behbudov*
***Məqalə daxil olmuşdur:*** *4 noyabr 2021-ci il*
***Çapa qəbul edilmişdir:*** *2 dekabr 2021-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2021, № 2 (111), 108-113

NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2021, № 2 (111), 108-113

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2021, № 2 (111), 108-113

**OĞUZHAN UZAR**
*Naxçıvan Dövlət Universiteti*
*oguzhanuzar@hotmail.com*

**UOT: 347**

# XX ƏSRİN 90-CI İLLƏRİNİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA İCTİMAİ-SİYASİ VƏ HÜQUQİ DƏYİŞİKLİKLƏR

*XX əsrin 90-cı illərinin əvvəlləri, habelə bunun ardı olaraq 90-cı illərin sonu və XXI əsrin başlanğıcında baş verən hadisələrə nəzəri diqqət yetirdik. Göründüyü kimi, SSRİ-nin dağıldığı bir zamanda 70 illik əsarətdən sonra Azərbaycanın yenidən öz müstəqilliyini qazanması, Azərbaycan Xalq Cümhuriyyətinin bilavasitə varisi kimi azadlıq yolunda irəliləməsi böyük və olduqca vacib məsələ kimi qiymətləndirilməlidir. Hələ çox gənc olmasına baxmayaraq, azadlığını bəyan etdiyi andan etibarən hüquqi, demokratik dövlət quruculuğu yolunda mühüm nailiyyətlər qazanmış, istər daxili işlərdə, istərsə də xarici beynəlxalq münasibətlərdə uğurlara imza atmış, əsas məqsədlərindən biri kimi də insan və vətəndaşların hüquq və azadlıqlarının təminatı üçün əlindən gələni etmiş, edir və edəcəkdir də.*

*Uğurlar hər bir sahəni əhatə etməkdədir. İstər təhsil, istər mədəniyyət, istər musiqi, istər idman və s. Elə yeri gəlmişkən qeyd edim ki, bütün dünya çərçivəsində ilk Avropa Olimpiya Oyunlarına Azərbaycanın ev sahibliyi etməsi həqiqətən də təqdirəlayiq bir haldır. Tək bununla məhdudlaşmır, Azərbaycan istər əvvəlki illərdə, istərsə də bundan sonrakı illərdə daim ən mötəbər beynəlxalq səviyyəli yarışların, müsabiqələrin, həm iştirakçısı, həm də ev sahibi kimi çıxış etmişdir və edəcəkdir.*

***Açar sözlər:*** *hüquq, dövlət, vəkil, qanun*

Ölkədə real imkanlar, xalqın mentaliteti nəzərə alınmaqla demokratiya, qanunçuluq, plüralizm münasib yollar və vasitələrlə inkişaf edirdi. Bu proses 90-cı illərin ikinci yarısında xüsusən intensivləşmişdi. "1995-ci ilin ortalarında Azərbaycan bütün qeyri-qanuni silahlı qüvvələrdən xilas olmuş, tamamilə möhkəmlənmiş, keyfiyyətcə yeni bir mərhələyə daxil olmuş, dövlət quruculuğunda ...böyük işlərə başlamaq üçün möhkəm ictimai-siyasi sabitlik və qanunçuluq şəraitinə gətirilmiş dövlətə çevrilmişdi".

1995-ci il iyun ayının 2-də Milli Məclisin qərarına əsasən Azərbaycan Respublikasının Konstitusiyasını hazırlamaq üçün Prezident Heydər Əliyevin sədrliyi ilə 33 nəfərdən ibarət Konstitusiya Komissiyası təşkil edildi. Respublikanın görkəmli hüquqşünasları, qanunverici, icra və məhkəmə hakimiyyəti nümayəndələri cəlb olunmuş bu mötəbər komissiya Azərbaycan xalqının milli xüsusiyyətlərini nəzərə almaqla, qabaqcıl demokratik ölkələrin təcrübəsi əsasında "Azərbaycan Respublikasının Konstitusiyası" layihəsini hazırladı. Layihə 1995-ci il oktyabr ayının 15-də ümumxalq müzakirəsi üçün mətbuatda dərc edildi və cəmiyyətdə böyük maraqla müzakirə olundu. Bəzi məsələlər, anlayışlar, məsələn, dövlət dilinin adı ilə bağlı geniş diskussiyalar keçirildi. Komissiyaya vətəndaşlardan və təşkilatlardan 2450 təklif, düzəliş və əlavə daxil olmuşdu. Cəmiyyətin rəyi nəzərə alınmaqla layihəyə düzəliş və əlavələr edildi. Yeni variant - o, əvvəlki kimi 199 deyil, 158 maddədən ibarət idi - noyabrın 8-də mətbuatda dərc edildi. "Azərbaycan Respublikasının Konstitusiyası" - müstəqil Azərbaycan dövlətinin ilk Əsas Qanunu 1995-ci il noyabr ayının 12-də referendumla qəbul olundu. Referendumda 4 milyona yaxın seçici korpusunun 86 faizi iştirak etdi. Onların 94,8 faizi Konstitusiya layihəsini bəyəndiyini bildirdi.

Azərbaycan Respublikasının dövlət quruculuğunun hüquqi, qanuni əsasları qoyuldu.

Konstitusiya bəyan etdi: Azərbaycan xalqının və dövlətinin ən mühüm məqsədləri Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli, iqtisadi və sosial qaydalara uyğun olaraq, bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərməkdir.

Azərbaycan Respublikası Konstitusiyası maddələrinin üçdə bir hissəsi (158 maddədən 48-i) insan hüquqlarına və onların təminatlarına həsr edilmişdi.

Hakimiyyət bölgüsü konsepsiyasına uyğun olaraq, Konstitusiya təsbit etdi ki, icra hakimiyyəti Azərbaycan Respublikası Prezidentinə mənsubdur, qanunverici hakimiyyəti Azərbaycan Respublikasının Milli Məclisi, məhkəmə hakimiyyətini isə müstəqil məhkəmələr həyata keçirirlər. Azərbaycan Respublikası Prezidenti təsisatının ikili hüquqi təbiəti vardır, Ali icra hakimiyyətinin ona mənsub olması ilə yanaşı, o, birinci növbədə, Azərbaycan dövlətinin başçısıdır, Azərbaycan xalqını bütövlükdə təmsil edir və xalqın vahidliyinin rəmzidir.

Konstitusiyada məhkəmələrin müstəqilliyini təmin edən əsas prinsiplər müəyyən edilmişdi: Hakimlər müstəqildir, onlar yalnız Konstitusiyaya və qanunlara tabedirlər, səlahiyyətləri müddətində dəyişməzdirlər.

Azərbaycan Respublikası Konstitusiyası Naxçıvan MR-ə Azərbaycanın tərkibində Muxtar Dövlət statusu verdi. Naxçıvanın coğrafi xüsusiyyətləri, Azərbaycan Respublikasının əsas hissəsi ilə onun ümumi sərhədinin olmaması bu bölgə üçün muxtar idarəetmə sisteminin təsis olunmasını tələb edirdi. Naxçıvan Muxtar Respublikasında dövlət idarəetməsi parlament hakimiyyəti üsulu ilə həyata keçirilir. Ali Məclisin - parlamentin sədri muxtar respublikanın ali vəzifəli şəxsidir. İcra Hakimiyyəti Ali Məclis tərəfindən formalaşdırılır və onun qarşısında məsuliyyət daşıyır. Naxçıvan MR-in Ali Məclisi, məhkəmələri qanunla və Prezident fərmanları ilə onların səlahiyyətinə aid edilmiş məsələlərin həllində müstəqildirlər. 1998-ci il aprelin 28-də Naxçıvan MR-in Azərbaycan Respublikası Konstitusiyası əsasında hazırlanmış yeni konstitusiyası muxtar respublikanın Ali Məclisində qəbul edildi və həmin il dekabrın 29-da Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq olundu.

Azərbaycan Respublikasının Konstitusiyası ölkədə demokratik dövlət və iqtisadiyyat, vətəndaş cəmiyyəti quruculuğuna hüquqi əsas yaratdı.

Avropa Şurası Parlament Assambleyasının siyasi məsələlər üzrə 2000-ci il 3 may iclasında qeyd olunduğu kimi, Azərbaycanın Avropa standartlarına çatması üçün ölkənin rəhbərliyi "son dərəcə böyük səylər göstərir. Bu ölkədə rəhbərliyin və xalqın azad, çiçəklənən cəmiyyət qurmaq əzmi heyranlıq doğurur. 70 illik sərt rejimdən sonra Azərbaycan keçmişin irsindən əl çəkə bilmişdir və suveren, hüquqi dövlət qurur".

Konstitusiyanı daha da demokratikləşdirmək üçün Prezident Heydər Əliyevin təşəbbüsü ilə 2002-ci il avqust ayının 24-də referendum vasitəsilə ona 39 mühüm dəyişiklik edildi.

1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikası parlamentinə mojaritar (100 deputat) və proporsional (25 deputat) sistemlə ilk seçkilər keçirildi. 125 deputat yerinə 600, o cümlədən birmandatlı dairələrdə 100 deputat yerinə 400 namizəd qeydə alındı. Cəmiyyətdə daha çox sosial dəstəyi olan səkkiz siyasi partiya deputat mandatları uğrunda mübarizəyə qoşuldu. Seçkilərin gedişinə nəzarət üçün 214 beynəlxalq müşahidəçi dəvət olunmuşdu. Noyabrın 12-də Naxçıvan MR parlamentinə də demokratik seçkilər keçirildi. Azərbaycan parlamenti geniş qanunvericilik fəaliyyətinə başladı. Parlamentdə insan hüquqları, elm, təhsil, mədəniyyət, iqtisadiyyat, ekologiya və b. sahələr üzrə daimi komissiyalar təşkil olundu.

Azərbaycan parlamenti dünyanın qabaqcıl ölkələri qanunverici orqanlarının təcrübəsini öyrənməyə başladı. Parlamentin nümayəndələri Avropa Şurası sessiyalarında dəfələrlə iştirak etdilər. Bütün bunlar respublikada demokratik qanunvericiliyin formalaşmasına və inkişaf etməsinə münasib imkanlar açırdı. Parlamentin qəbul etdiyi qanunlar əsasında Azərbaycanda siyasi, iqtisadi, hüquqi, demokratik islahatlar həyata keçirildi.

2000-ci ilin noyabrında yeni parlament seçkiləri təşkil olundu. Mərkəzi Seçki Komissiyasında (MSK) 17 siyasi partiya və bir seçki bloku qeydiyyatdan keçdi. Demokratik konqresə üzv partiyaların, demək olar ki, hamısı seçkilərdə iştirak etdi. 13 partiya həm çoxmandatlı, həm də təkmandatlı seçki dairələri üzrə imza vərəqəsi aldı. Respublika Prezidenti parlamentdə iri partiyalara öz nümayəndələrini MSK-ya göndərmələrini xahiş etdi. Altı iqtidaryönümlü, altı müxalif partiya və dörd bitərəf nümayəndələrindən ibarət MSK yaradıldı. Prezident Heydər Əliyev 2000-ci il sentyabrın 3-də seçkilərdə avtomatlaşdırmanın tətbiqi haqqında" Fərman verdi.

Xalqın fəal iştirakı ilə 2000-ci il noyabrın 5-də keçirilən parlament seçkiləri nəticəsində Azərbaycan Respublikasının yeni parlamenti yarandı və qanunvericilik fəaliyyətinə başladı.

2002-ci il avqustun 24-də referendumla Konstitusiyaya edilmiş dəyişikliyə görə Milli Məclisə seçkilər daha da demokratikləşdirildi, "mojaritar və proporsional" seçki sistemi ləğv edildi, ümumi "mojaritar" seçki sistemi müəyyən olundu.

Qanunların sivil dünya dövlətlərinin hüquqi dövlət quruculuğu ənənələrinə, beynəlxalq hüquq normalarına, Avropa Şurası və dünya demokratik qanunvericilik təsisatlarının tələblərinə uyğun hazırlanması üçün Azərbaycan Respublikası Prezidenti yanında 1996-cı ilin fevral ayında xüsusi "Hüquqi İslahatlar Komissiyası" yaradılmışdı. Siyasi və iqtisadi islahatlarla əlaqədar hazırlanan hüquqi aktların insan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasına uyğunluğu baxımından Avropa Şurasında ekspertiza olunması respublikada demokratik cəmiyyət qurulmasına təsirli kömək idi.

Azərbaycan Avropa Şurasının "Qanun vasitəsilə demokratiyaya doğru" Venesiya Komissiyasına assosiativ üzv qəbul olundu.

1998-ci ilin dekabr ayında Prezident Heydər Əliyev dövlət idarəetmə sistemində islahatlar üçün proqram hazırlanması haqqında fərman verdi. Xüsusi komissiya yaradıldı, dünya təcrübəsindən istifadə olunmaqla belə bir proqram hazırlandı və həyata keçirilməyə başlandı.

1998-ci ilin fevral ayında Azərbaycan Prezidenti Heydər Əliyev "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərman verdi. İnsan hüquqlarının təmin olunmasının hüquqi mexanizmi yaradılmağa başlandı. "Kütləvi informasiya vasitələri haqqında", "Dini etiqad azadlığı haqqında", "Ölkədən getmək və ölkəyə gəlmək haqqında", "Sərbəst toplaşmaq azadlığı haqqında" və digər qanunlar qəbul edildi. 1998-ci ilin oktyabr ayında "Vətəndaşlıq haqqında" yeni Qanun qəbul olundu.

1998-ci il iyunun 18-də "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq edildi, bu sahədə həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq üçün Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutu yaradıldı, beynəlxalq qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi, mütəxəssis kadrlar hazırlanması üçün əməli addımlar atıldı.

Azərbaycan Respublikası insan hüquqları ilə bağlı 29 beynəlxalq konvensiyaya qoşuldu. 1998-ci il avqustun 18-də Azərbaycan hökuməti ilə BMT "İnsan hüquqları və demokratiyanın dəstəklənməsi və müdafiəsi sahəsində birgə bağlı layihə haqqında memorandum" imzaladılar. BMT bu sahədə Azərbaycana fəal köməklik göstərməyə başladı.

2001-ci ilin dekabrında Azərbaycan Respublikasının Milli Məclisi "İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında" Konvensiyanı və onun 1, 4, 6 və 7 saylı protokollarını təsdiq etmək barədə Qanun və "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununu qəbul etdi.

"İşgəncələrin və qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftar və ya cəzanın qarşısının alınması haqqında" Avropa Konvensiyasını təsdiq etmək haqqında Qanun qəbul edildi. 2002-ci ildə respublikada Ombudsman İnstitutu yaradıldı. İyulun 2-də Milli Məclis alim Elmira Süleymanovanı bu vəzifəyə seçdi. 2002-ci ilin avqustunda referendum vasitəsilə Azərbaycan Konstitusiyasına edilmiş dəyişikliklə əlaqədar hətta fövqəladə və hərbi vəziyyət zamanı səlahiyyətli şəxsin verdiyi əmrin yerinə yetirilməsi ilə bağlı insana qarşı silah işlədilməsinə yol verilmirdi.

1998-ci il avqustun 6-da "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Prezident Fərmanı ilə hələ 1992-ci il aprelin 12-də

Y.Məmmədov və 1993-cü il aprelin 15-də Ə.Elçibəy iqtidarları dövründə sərbəst informasiya fəaliyyətinə qoyulmuş məhdudiyyətlər aradan qaldırıldı, mətbuatda və digər kütləvi informasiya vasitələrində dövlət sirlərini qoruyan idarə, senzura ləğv edildi. Prezident Heydər Əliyev qeyd edirdi ki, "fikir azadlığı, söz azadlığı bizim həyatımızın əsasını təşkil etməlidir. Kim nə cür düşünür, o cür düşünsün. Heç kəsi məcbur etmək olmaz. Sadəcə biz çalışmalıyıq ki, öz fikirlərimizin daha doğru, düzgün olduğunu sübut edək və insanları bu fikirlərə şüurlu inandıraq".

2001-ci ildə Mətbuat və İnformasiya Nazirliyi ləğv edildi. 2002-ci il oktyabrın 5-də Azərbaycan Prezidentinin fərmanı ilə "Milli Televiziya və Radio Şurası" yaradıldı. Demokratiyanın, plüralizmin inkişaf etdirilməsi sahəsində "Söz Azadlığı Komitəsi", "Azərbaycan İnsan Hüquqları və Demokratiya Komitəsi", "Azərbaycan Demokratiya Fondu", "RUH" jurnalistləri müdafiə fondu və başqa ictimai təşkilatlar da müəyyən iş aparırdılar.

Azərbaycan Respublikası Şərqdə ölüm cəzasını ləğv etmiş ilk ölkə oldu. 1993-cü ildən burada ölüm cəzasına faktiki moratorium qoyuldu. 1996-cı ildə Prezident Heydər Əliyev Cinayət Məcəlləsində 21-ci maddənin sanksiyasından ölüm cəzasını götürmək təşəbbüsünü irəli sürdü. Qadınlara və 65 yaşından yuxarı kişilərə ölüm cəzası qadağan edildi. 1998-ci ilin fevral ayında Prezidentin təşəbbüsü ilə respublikada ölüm hökmü tamamilə ləğv olundu.

1995-ci ilin may ayından respublikada Əfvetmə İnstitutu fəaliyyətə başladı. 1995-ci ildən 2003-cü ilin əvvəllərinədək Azərbaycan Prezidenti Heydər Əliyev 30 əfv fərmanı imzaladı. 2900-dən çox məhbus azadlığa buraxıldı. Prezidentin təşəbbüsü ilə Milli Məclis amnistiya haqqında 6 akt qəbul etdi. Bu aktlar 63477 məhbusa tətbiq edildi. Onlar arasında dövlətə qarşı cinayət işlətmiş şəxslər də vardı.

Dövlətçiliyin təmin olunmasının mühüm vasitələrindən biri də hüquqmühafizə orqanlarının inkişaf etdirilməsi və möhkəmləndirilməsi idi.

1997-ci ilin oktyabr ayında "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. 1998-ci ildə Konstitusiya Məhkəməsi təşkil olundu. "Vəkillik və vəkillik fəaliyyəti haqqında", "Notariat haqqında", "Təhqiqat, istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında", "Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən məhkəməyə şikayət edilməsi haqqında" qanunlar, cinayət, cinayət prosessual, mülki, mülki prosessual, inzibati xətalar, əmək, ailə, vergi məcəllələri qəbul edildi. 2002-ci ilin aprel ayından respublikada hakimlərin, 2002-ci ildən isə prokurorluq orqanları işçilərinin imtahandan keçməsi institutu tətbiq olunmağa başlandı. 2002-ci ilin avqustunda Konstitusiyaya edilmiş dəyişikliklərə görə hər bir şəxs Konstitusiya Məhkəməsinə müraciət edə bilərdi.

2002-ci ilin sentyabr ayından Azərbaycanda üçpilləli məhkəmə sistemi formalaşdı. Yeni, ikinci instansiya - apellyasiya məhkəməsi yarandı.

Respublikanın daxili işlər və milli təhlükəsizlik nazirlikləri, onların yerli təşkilatları, silahlı hissələri təsadüfi, cinayətkar, xain və satqın ünsürlərdən əsasən təmizləndi. Əvvəlki iqtidarlar dövründə işdən uzaqlaşdırılmış mütəxəssislər yenidən öz yerlərinə qaytarıldı. Polisin şəxsi heyəti azaldıldı, lakin məsuliyyət artırıldı. Prezidentin 1994-cü il 9 avqust tarixli Fərmanının müvəffəqiyyətlə həyata keçirilməsi mövcud cinayətkar qrup və dəstələrin, şəxslərin zərərsizləşdirilməsində, gizli cəbbəxanaların, əllərdə olan silahların, hərbi texnikanın və döyüş ləvazimatlarının aşkar edilib götürülməsində, cəmiyyətdə əmin-amanlıq, sabitlik yaranmasında əhəmiyyətli rol oynadı. 1995-2001-ci illərdə 6904 cinayətkar qrup zərərsizləşdirildi. 14.899 odlu silah yığıldı. Hakimiyyətə qeyri-qanuni, zorakı yollarla gəlmək kimi zərərli ənənə, dövlət çevrilişi cəhdləri aradan qaldırıldı.

Bu illərdə dünya narkomafiyasının Azərbaycanı tranzit yola çevirmək cəhdlərinə qarşı ciddi mübarizə aparıldı. 1996-cı ilin avqust ayında Azərbaycan Prezidenti "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında" Fərman verdi. Narkomanlıqla və narkobiznеslə mübarizə üzrə komissiya yaradıldı, dövlət proqramı hazırlandı və həyata keçirilməyə başlandı. 2001-ci il iyunun 29-da "Narkoloji xidmət və nəzarət haqqında" Qanun Prezident tərəfindən

təsdiq edildi.

Respublikada kriminogen vəziyyət aradan qalxdıqca Daxili İşlər Nazirliyi sistemində ştatlar ixtisar olunurdu. 1999-cu ilin əvvəllərində burada 600 ştat ixtisar edilmiş, külli miqdarda dövlət vəsaitinə qənaət olunmuşdu.

Yeni Konstitusiyanın tələbinə görə, ölkədə demokratik cəmiyyətin mühüm elementi kimi yerli özünüidarə - seçkili bələdiyyələr sistemi qurulmağa başlanmışdı. "Bələdiyyələrə seçkilər haqqında", "Bələdiyyələrin statusu haqqında" Qanun qəbul edilmişdi. 1999-cu il dekabr ayının 12-də Azərbaycan Respublikasında ilk bələdiyyə seçkiləri keçirildi. Bələdiyyələr vətəndaşların yerli özünüidarə təşkilatları kimi dövlətdən ayrı, müstəqil fəaliyyət göstərirdilər. Azərbaycan "Yerli özünüidarə haqqında" Avropa Xartiyasına qoşulmuşdu.

## ƏDƏBİYYAT


1. İsmayılov X.C. Azərbaycan dövlət və hüquq tarixi. Bakı: 2006
2. Azərbaycan Tarixi 7 cilddə, 7-ci cild, AMEA, A.Bakıxanov adına Tarix İnstitutu, Bakı: Elm, 2008
3. Azərbaycan Respublikası Konstitusiyası, “Qanun” nəşriyyatı, 2014
4. Ziyafət Əsgərov. Konstitusiya hüququ. Bakı: 2011
5. Elşad Nəsirov. Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları. Bakı: 2005
6. “Azərbaycan” qəzeti, N-92, 1 may 2013-cü il, səh. 5
7. “Azərbaycan” qəzeti, N-229, 18 okyabr 2013-cü il, səh. 1-3


## SUMMARY

**Oğuzhan Uzar**

### SOCIO-POLITICAL AND LEGAL CHANGES IN AZERBAIJAN IN THE EARLY 1990s


In the article, the author studies the events of the early 1990s, as well as the late 1990s - early 21st century. The article notes that during the collapse of the USSR, after 70 years of slavery, Azerbaijan's restoration of its independence and its progress towards freedom as the direct successor of the Azerbaijan Democratic Republic should be considered as a very important issue.

Despite being very young, since its declaration of independence, Azerbaijan has made significant progress in building a legal and democratic state, and has achieved success both in internal and external relations.

Successes achieved in Azerbaijan cover every area, in the field of education, culture, music, sports and others. Azerbaijan's hosting of the first European Olympic Games on the world stage is truly commendable. Achievements are not limited by the mentioned above.

Azerbaijan, both in previous years and in subsequent years, has always acted as both a participant and host of the most prestigious international competitions and contests.


***Key words:*** *law, state, lawyer, law*

## РЕЗЮМЕ

**Огузхан Узар**

### КУЛЬТУРНО-ПОЛИТИЧЕСКИЕ И ПРАВОВЫЕ ИЗМЕНЕНИЯ В АЗЕРБАЙДЖАНЕ В НАЧАЛЕ 90-Х ГОДОВ XX ВЕКА


В начале 90-х годов XX века, а также в качестве аргумента этого мы уделили теоретическое внимание событиям конца 90-х и начала XXI века. Как видно, обретение Азербайджаном независимости после 70-летнего порабощения в период распада СССР, его продвижение по пути свободы как непосредственного наследника Азербайджанской Демократической республики следует расценивать как большой и чрезвычайно важный

вопрос. С момента провозглашения своей свободы, несмотря на то, что он был еще очень молод, он добился значительных успехов на пути построения правового, демократического государства, добился успехов как во внутренних делах, так и во внешних международных отношениях, делает и будет делать все возможное для обеспечения прав и свобод человека и граждан.

Успех пронизывает каждую область. Будь то образование, культура, музыка, спорт и т. д. Кстати, отмечу, что проведение Азербайджаном первых Европейских Олимпийских игр в рамках всего мира-явление действительно заслуживающее похвалы. Азербайджан, как в предыдущие, так и в последующие годы, всегда выступал и будет выступать как участник и хозяин самых престижных международных соревнований, конкурсов.

***Ключевые слова:*** *право, государство, адвокат, закон*

***Məqaləni çapa təqdim etdi:*** *hüquq üzrə fəlsəfə doktoru, dosent Qəhrəman Behbudov*
***Məqalə daxil olmuşdur:*** *4 noyabr 2021-ci il*
***Çapa qəbul edilmişdir:*** *2 dekabr 2021-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2021, № 2 (111), 114-119
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2021, № 2 (111), 114-119
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2021, № 2 (111), 114-119

**SƏBİNƏ ƏLİYEVA**
*Bakı Slavyan Universiteti*
*aliyevasabina23@ymail.com*

**UOT: 327**

# KİPR MÜNAQİŞƏSİNİN HƏLLİ İSTİQAMƏTİNDƏ MAKMİLLAN PLANI

*1957-ci ildə Böyük Britaniyanın baş naziri olan Harold Makmillan tarixçilər tərəfindən Aralıq dənizi regionu və Afrikanın dekolonizasiyası nəticəsində Britaniyanın imperiya statusunun zəifləməsini könülsüz qəbul edən lider kimi xarakterizə edilirdi. Lakin hakimiyyətə gəldikdən sonra müstəmləkələrdə imperiyanı saxlamağın iqtisadi, hərbi və siyasi cəhətdən çox xərc tələb edildiyi düşüncəsi ilə Makmillan Kiprin dekolonizasiyası prosesini sürətləndirmək istəyirdi və hakimiyyətə gəldikdən bir neçə ay sonra Britaniyanın adadan ayrılacağına qərar vermişdi. Bütün Kiprin baza kimi istifadə olunması artıq zəruri deyildi. Britaniyanın əsas marağı Şərqi Aralıq dənizi regionunda nüfuz dairəsini qoruyub saxlamaq, Kiprdə malik olduğu suverenliyi əlindən verməmək və həmçinin kommunist təcavüzünə müqavimət göstərmək üçün lazım olan hərbi bazalarını qoruyub saxlamaq idi. Bu məqsədlər Makmillan tərəfindən irəli sürülən planlarda öz əksini tapmışdır.*

***Açar sözlər:*** *Kipr problemi, H.Makmillan, danışıqlar, tərəfdaşlıq planı, Böyük Britaniya, Türkiyə, Yunanıstan.*

XX əsrin 40-50-ci illərində Kiprdə adanı ingilis müstəmləkəçiliyindən azad etmək və Enozis ideyasını gerçəkləşdirmək məqsədilə kiprli yunanlar fəallaşdı. Kiprli yunanların özünüidarəetmə tələblərinə cavab olaraq ingilis müstəmləkə hakimiyyəti yerli idarəetmə orqanlarını təkmilləşdirmək, Kiprin yeni konstitusiyasını hazırlamaq vədini verdi və 1940-cı illərin sonu lord Vinsterin, 50-ci illərin ortalarında isə lord Radkliffin konstitusiya layihəsi kiprlilərə təqdim edildi. Lakin bu layihələr Kiprin yunan icmasının tələblərinə cavab vermədiyindən reallaşmadı.

50-ci illərin I yarısında Britaniya regionda öz strateji maraqlarını qorumaq üçün Kiprin statusu məsələsində kifayət qədər sərt mövqe nümayiş etdirirdi. 1953-cü ilin sentyabrında Yunanıstanın baş naziri marşal Aleksandros Papaqosun adadakı vəziyyəti müzakirə etmək haqqında müraciətini həmin vaxt Afinada olan Britaniya baş nazirinin müavini Entoni İden (1951-55) rədd etmiş və kəskin şəkildə bildirmişdir ki, məsələ Britaniya üçün qapalıdır və müzakirə edilə bilməz. Bu cür münasibətdən özünü təhqir olunmuş hesab edən A.Papaqos 15 noyabrda Britaniyaya ikitərəfli danışıqların keçirilməsi haqqında təklif notasını göndərdi. Bu notaya da etinasız münasibət göstərildi. Nəticədə A.Papaqos Londona səfər dəvətini qəbul etmədi. 1954-cü ilin martın 15-ində E.İden İcmalar Palatasında Kiprlə bağlı yenidən eyni sərt mövqedən çıxış etdi (12, 686).

Məsələ ilə bağlı Amerika da sərt mövqedən çıxış edirdi. Belə ki, aprelin 5-ində Amerika hökuməti Afinadakı səfiri Kennona Yunanıstan hökumətinə rəsmi müracət etmək və Baş Assambleyanın növbəti sessiyasında Yunanıstanın məsələni qaldırmayacağına Amerikanın ümid etdiyini bildirmək tapşırılmışdır. Səfirə tapşırıqda həmçinin qeyd olunurdu ki, Yunanıstanın Enozis məsələsini BA-da qaldırması son zamanlar münasibətlərin yaxşılaşmağa başladığı Egey regionunda pis nəticələrə səbəb ola bilər, SSRİ-yə və kommunist blokuna qərb dünyasının üzvləri arasında mübahisə yaratmaq və NATO üzrə müttəfiqləri bir-birinə qarşı qoymaq və bu yolla Avropanın gücünü məhv etməyə nail olmaq üçün unikal imkan verəcəkdi. Bu baxımdan Yunanıstan məsələni BMT BA-da gündəmə gətirdiyi təqdirdə, Amerika Yunanıstan hökumətinə məsələ ilə bağlı heç bir dəstək verməyəcəyini bildirdi (12, 685).

50-ci illərin II yarısında Kiprdə etnik icmaların adanın statusu ilə bağlı mövqeləri fərqli idi:

kiprli yunanların əsas məqsədi Enozisə nail olmaq idi. Türk icması isə yunan icması ilə bərabər hüquqlara malik olmağa, Yunanıstanın tərkibinə daxil olmayan ayrı bir ərazi statusunda Kiprin qorunub saxlanmasına çalışırdı. Böyük Britaniyanın isə əsas məqsədi Kiprdəki hərbi bazalarını qorumaq və adanı əldən verməmək idi ki, bu da ilk növbədə, Süveyş kanalının Misir tərəfindən milliləşdirilməsi ilə bağlı Yaxın Şərq regionunda yaranmış böhranla şərtlənirdi. Belə ki, Orta Şərqdə baş vermiş bir sıra hadisələr - İraqda inqilab nəticəsində hakimiyyətə gəlmiş general Qasım hökumətinin faktiki olaraq Bağdad Paktına son qoyması, bir müddət əvvəl isə ingilisləri Süveyş kanalından çıxarmağa nail olmuş Misir rəhbərliyi ilə əməkdaşlıq edərək Britaniya əleyhinə siyasət yeritməyə başlaması nəticəsində İngiltərənin regionda mövqeləri təhlükə altına düşmüşdür. Nəticədə Britaniya üçün Kiprin əhəmiyyəti daha da artmışdır.

Yunanıstan 1954-cü ildə Kipr məsələsini BMT-nin müzakirəsinə çıxarmağa qərar verdi və 20 avqustda Kipr xalqına öz gələcəyini müəyyən etmək haqqının verilməsi tələbi ilə BMT-yə müarəciət etdi. Müraciətin BA-nın 25 sentyabrda keçirilmiş 478-ci plenar iclasında BMT BA-nın gündəminə salınması qərarlaşdırıldı və baxılması üçün Birinci Komitəyə verildi (11). Nəticədə 14 dekabrda BA-nın 514-cü plenar iclasında 814 (IX) saylı qətnamə ilə bundan sonra "BMT-nin himayəsi altında Kipr adasının əhalisinə münasibətdə xalqların bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipinin tətbiq edilməsi" adlı bəndin nəzərdən keçirilməməsinə qərar verildi (13).

1955-ci ildə Britaniya hökumətinin başçısı Uinston Çerçillin istefa verməsindən sonra Entoni İden baş nazir, Harold Makmillan isə xarici işlər naziri təyin edildi. Yeni hökumət Kiprdəki vəziyyətin Şərqi Aralıq dənizi regionunun təhlükəsizliyinə təhdid təşkil etdiyini və bu səbəbdən məsələnin Türkiyə və Yunanıstan ilə birlikdə həll edilməli olduğunu irəli sürərək yeni bir plan hazırladı, Kiprin konstitusiyasının müzakirələrinə Türkiyə və Yunanıstanı da cəlb etməyi qərarlaşdırdı. Baş nazir Entoni İden xarici işlər naziri H.Makmillan və Müstəmləkələr Naziri Alan Lennoks-Boyd ilə birlikdə Kipr üçün yeni konstitusiya layihəsinin əsas müddəalarını hazırladıqdan sonra 30 iyunda İcmalar Palatasında çıxışında qeyd etmişdir ki, Britaniya hökuməti Şərqi Aralıq dənizində İngiltərə, Yunanıstan və Türkiyəyə eyni dərəcədə təsir edən problemləri daha dərindən tədqiq etməyə başlamışdır və üç ölkənin qarşılıqlı etimada əsaslanan birliyi bu ölkələrin ümumi maraqları üçün labüddür. Bunun üçün Britaniya hökuməti Yunanıstan və Türkiyə hökumətlərini öz təmsilçilərini Londona göndərməyə və yaxın vaxtlarda Kipr də daxil olmaqla, Şərqi Aralıq dənizi regionuna aid siyasi və müdafiə problemlərini müzakirə etməyə çağırdı (1, 355). Beləliklə, plana uyğun olaraq Britaniya hökuməti 30 iyun 1955-ci ildə Türkiyə və Yunanıstanı "Şərqi Aralıq dənizinin müdafiəsi və Kipr məsələsi" adlı seminar üçün Londona dəvət etdi. İlk üçtərəfli konfrans 29 avqust-7 sentyabr tarixlərində Londonda keçirildi.

29 avqust 1955-ci ildə xarici işlər nazirləri səviyyəsində başlayan London Konfransında Türkiyənin xarici işlər naziri Fatin Rüştü Zorlu «adanın status-kvosunun dəyişdirilməsinə qarşı olduğu, əgər dəyişəcəksə, adanın Türkiyəyə qaytarılması» fikri çərşivəsində Kiprin statusunda hər hansı dəyişikliyin Lozanna Müqaviləsinin yenidən dəyərləndirilməsi mənasına gələcəyini ifadə etdi (6, 188-189).

London Konfransının 6 sentyabrda başlayan ikinci hissəsində İngiltərə ada ilə bağlı yeni islahatlar haqqında qanun layihəsi təklif etdi. "I Makmillan Planı" olaraq bilinən layihəyə görə, Kiprə məhdud da olsa, öz gələcəyini müəyyən etmə hüququnun verilməsi nəzərdə tutulmuşdu (1, 356). Lakin bu təklifi tərəflər qəbul etmədi. Yunan heyətinin konfransdan gözləntisi öz müqəddəratını təyin etmə haqqının əldə edilməsi idi ki, konfrans zamanı Makmillan yunanların bu tələbini rədd etdi. Həmçinin bəyan etdi ki, öz müqəddəratını təyin etmə mümkün olsa belə, yalnız adanın bölünməsi hesabına olacaqdır. Bu mövqeyi Türkiyə də dəstəklədi. F.R.Zorlu çıxışında yunan tərəfinin öz müqəddaratını təyin etmə tələbinə münasibətdə BMT nizamnaməsində bu prinsiplə bağlı maddənin kifayət qədər aydın olmadığını və dövlətlərarası gərginliyin artmasına səbəb ola biləcəyini vurğuladı. O, eyni zamanda Kiprə öz müqəddəratını təyin etmə və ya hətta özünüidarəetmə haqqının verilməsi üçün mütləq şərt kimi adanın yunan və türk icmalarının bərabərliyinin tanınmasını və adanın müqəddəratının yunan icmasının öhdəsinə verilməməsini irəli sürdü. F.R.Zorlu adanın taleyi

məsələsinin Türkiyə və İngiltərə arasında müzakirə edilməli olduğunu vurğuladı (3). London danışıqlarının gedişatı zamanı 6-7 sentyabrda Atatürkün Selanikdəki evinə bomba atıldığı iddiası nəticəsində baş vermiş "sentyabr hadisələri" konfransın vaxtından tez bitməsinə səbəb oldu.

İngiltərənin bu konfransa Türkiyəni dəvət etməsinin hüquqi təməlində Lozanna Sülh Müqaviləsinin 16-cı maddəsi dayanırdı. Belə ki, Türkiyənin israrları ilə muqaviləyə daxil edilmiş bu maddəyə görə, Lozanna müqaviləsi ilə tanınan ərazilər və adaların gələcəyi müvafiq tərəflər tərəfindən tənzimlənəcəkdir (8). Beləliklə, bu tarixdən etibarən Türkiyə Kipr məsələsində təsirli bir aktora çevrildi.

1957-ci ilin yanvarında Harold Makmillan Böyük Britaniyanın Baş naziri postunda Entoni İdeni əvəz etdi. Tarixçilər adətən Makmillanı Aralıq dənizi və Afrikanın dekolonizasiyası nəticəsində Britaniyanın imperiya statusunun zəifləməsini könülsüz qəbul edən lider kimi xarakterizə edirldiər (5, 157-158). Onun 1960-cı ildə səsləndirdiyi məşhur "dəyişikliklər nitqi" imperiya ideyasının mühafizəkarlar üçün 1951-ci ildə yenidən hakimiyyətə gəldikdən sonra necə köklü şəkildə dəyişdiyini göstərir. Lakin Keniya, Malayya və Kiprdə imperiyanı saxlamaq iqtisadi, hərbi və siyasi cəhətdən çox xərc tələb edirdi. Bu səbəbdən Makmillan Kiprin dekolonizasiyası prosesini sürətləndirmək istəyirdi və hakimiyyətə gəldikdən bir neçə ay sonra Britaniyanın adadan ayrılacağına qərar vermişdi. Mühafizəkarlar və hərbi xadimlər 1957-ci ilin ortalarında belə qənaətə gəlmişdilər ki, bütün Kiprin baza kimi istifadə olunması artıq zəruri deyil. Britaniyanın əsas marağı Şərqi Aralıq dənizi regionunun müdafiəsi və kommunist təcavüzünə müqavimət göstərmək üçün lazım olan bazaların qorunub-saxlanması idi (4, 663).

Rəsmi Ankara və Afina ilə danışıqları davam etdirən Britaniya hökuməti 19 iyun 1958-ci ildə müstəmləkələr naziri Lennoks-Boydun hazırladığı yeni təklifləri Britaniya parlamentində ictimaiyyətə açıqladı. Təkliflər kiprli türk və yunan icmalarının bərabər hüquqlara sahib olmaları prinsipinə əsaslanan öz müqəddəratını təyinetmə planını ehtiva edirdi. İngiltərənin baş naziri Harold Makmillan parlament qarşısında hökumətin Kiprlə bağlı siyasəti haqqında bəyanatla çıxış etdi. Bəyanatda Britaniyanın Kipr siyasətinin 4 başlıca məqsədi qeyd edilmişdir:

1. adanın bütün əhalisinin ən ali maraqlarını müdafiə etmək;
2. problemin adanın hər iki icmasının və Yunanıstan və Türkiyə hökumətlərinin məqbul hesab edəcəyi həllinə nail olmaq;
3. Kiprdə yerləşən, Birləşmiş Krallığa öz beynəlxalq öhdəliklərini həyata keçirmək üçün lazım olan ingilis bazalarının və obyektlərinin mühafizəsini təmin etmək;
4. sülh və təhlükəsizliyi möhkəmləndirmək və Birləşmiş Krallıq və müttəfiqləri arasında həyati vacib sahələrdə əməkdaşlıq etmək (9).

Eyni gündə Harold Makmillan tərəfindən adanın yunan və türk icmaları, həmçinin Böyük Britaniya, Yunanıstan və Türkiyə arasında əməkdaşlığın möhkəmləndirilməsini nəzərdə tutan Tərəfdaşlıq Planını irəli sürüldü. Plana əsasən, tərəfdaşlığın yeni prinsipinin tam işlənib hazırlanması və zəruri sabitlik şəraitində tətbiq edilməsi üçün 7 il ərzində Kiprin statusu dəyişməz olaraq qalmalı idi, adada nümayəndəli idarəçilk sistemi yaradılmalı və hər bir icma öz işlərində muxtariyyata sahib olmalı idi. Britaniya hökuməti həmçinin kiprli yunan və türklərin istəyinə müvafiq olaraq Britaniya vətəndaşlığını saxlamaqla, onlara öz milliyətlərinin təsdiqi üçün Yunanıstan və Türkiyə vətəndaşlığının verilməsini dəstəkləyirdi. Nümayəndəli idarəçilk və icma muxtariyyatı sistemi hər iki icmanın və Yunanıstan və Türkiyə hökumətlərinin nümayəndələri ilə məsləhətləşmələr əsasında işlənib hazırlanmalı idi. Hər bir icma Nümayəndələr Palatası vasitəsilə öz siyasətini həyata keçirə bilərdi, adada bütün idarəetmə isə Şura tərəfindən həyata keçirilməli idi. Şuraya qubernator, Yunanıstan və Türkiyədən olan nümayəndələr, həmçinin, 6 kiprli nazir – 4-ü yunan icmasının, 2-si isə türk icmasının nümayəndələr palatasından seçilmiş nazir daxil olacaqdı. Adanın qubernatoru xarici və daxili siyasətə, o cümlədən təhlükəsizlik sahəsinə rəhbərlik etmək səlahiyyətlərini əlində saxlayırdı. Yunanıstan və Türkiyə nümayəndələrinin qərəzli hesab etdikləri qanunları qərəzsiz tribunalın müzakirəsinə vermək hüququ olacaqdı. Planı həyata keçirmək üçün zorakılığın dayandırılması, fövqəladə vəziyyət rejiminin zəiflədilməsi, bu istiqamətdə ardıcıl tədbirlərin

görülməsi və son nəticədə fövqəladə vəziyyətə son qoyulması və fövqəladə vəziyyətlə bağlı adadan kənarlaşdırılmış kiprlilərin adaya qaytarılması əsas hədəf olaraq nəzərdə tutulmuşdu. İcmalar nümayəndəli orqanları vasitəsilə adanın daxili işlərini idarə edə və nəzarət edə biləcəkdi (9).

Lakin Makmillanın planı bütün tərəflər tərəfindən rədd edildi. Kiprin icmalarının plana reaksiyası hərbi əməliyyatların intensivləşməsində özünü göstərdi. Planın elan edilməsindən 12 gün sonra icmalararası toqquşmalar nəticəsində 56 kiprli yunan və 53 kiprli türk öldürüldü. Nəticədə Kiprə Britaniyadan əlavə qoşunlar yeridildi və bununla da adada ingilis hərbçilərinin sayı 20 minə çatdı (7, 247).

1958-ci ilin avqustunda baş nazir Makmillan Türkiyəyə və Yunanıstana səfər etdi. Danışıqlardan sonra Londona qayıdan Makmillan planda bir sıra düzəlişlər edərək II Makmillan Planı adını almış yeni planını 15 avqustda Parlamentdə açıqladı. Planın əsasında 2 əsas konsepsiya dayanırdı. Birinci konsepsiya adada sabitliyin təmin edilməsi, zorakılığın dayandırılması mərhələsini ehtiva edirdi. İkincisi isə istənilən tərəfin gələcəyinə, görüş və istəklərinə zərər vurmadan yekun qərarın 7 illik müddətə təxirə salınmasını nəzərdə tuturdu. Eyni zamanda bu dövr durğunluq dövrü olmamalı idi. Britaniya hökuməti bu formanın dövrün tələblərinə cavab verdiyini və maraqlı tərəflərin qəbul etdiyi 2 prinsipə müvafiq olduğunu hesab edirdi. Həmçinin adada 2-3 ay ərzində seçicilərin siyahılarının hazırlanması qərara alındı. İcmalar öz daxili işlərini özləri həll edəcəkdilər, qubernator isə yerli şərait imkan verdikdə, kiprli yunan və türklərin ayrı-ayrı munisipal şuralarının yaradılması haqqında qərar verəcəkdi. Seçici siyahıları hazır olduqda hər iki Nümayəndələr Palatasına seçkilərin keçirilməsi mümkün olacaqdı. Nümayəndələr Palatası seçildikdən sonra onlar öz nümayəndələrini Qubernator Şurasına seçmək hüququna malik olacaqdı ki, bu orqan daha sonra nümayəndələr palatalarına birbaşa aid olmayan və ya qubernator tərəfindən ona həvalə edilmiş bütün məsələlərə baxacaq nüfuzlu orqana çevriləcəkdi (10).

Kiprə qayıtmasına icazə verilməyən və o dövrdə Afinada olan Makarios bu planın qəbul edilməyəcəyini və məsələnin Britaniya hökuməti ilə kiprlilər arasında müzakirə edilməli olduğunu bildirdi. “Kiprlilər” dedikdə, Makarios dini və siyasi lideri olduğu kiprli yunanları nəzərdə tuturdu (2, 192). Təbii ki, Kiprin türk icmasının da ayrı bir nümayəndəli orqanının olacağı və üstəlik Türkiyənin də adanın suverenliyi məsələsində söz sahibi olma ehtimalı Makarios və Yunanıstan hökuməti üçün qəbuledilməz idi.

Kiprin türk liderləri isə planın dəyərləndirilməsini Türkiyə hökumətinə həvalə etdi. Baş nazir A.Menderes 25 avqust 1958-ci ildə qəbul etdiyi İngiltərənin səfiri Ser Ceyms Boukerə Makmillan Planına müsbət yanaşdıqlarını çatdırdı. Eyni zamanda xarici işlər naziri F.R.Zorlu da hesab edirdi ki, “taksim prinsipinə etinasız yanaşılmasa, planı dəstəkləmək olar” (2, 193).

Böyük Britaniya ilə Türkiyə arasında razılaşmaya cavab olaraq EOKA müstəmləkə idarəçiliyini tamamilə baykot etməyə çağırdı. Yunanıstan və Türkiyə baş nazirlərinin müraciətləri ilə başlayan barışıq yarımçıq qaldı. Yenidən fəal hərbi əməliyyatlar başladı ki, bu da adada münaqişənin vətəndaş müharibəsinə çevrilməsi təhlükəsini yaratdı, kiprli yunanlar Britaniya hakimiyyətinə qarşı çıxışlarını artırdı. EOKA Britaniya ilə istənilən əməkdaşlığı sonlandırmağa çağırırdı. Sonralar Britaniyanın adanın müstəmkəsizləşdirilməsi haqqında təklifi və EOKA-nın atəşkəs elan etməsindən sonra tərəflər Kiprin gələcək statusu haqqında razılığa gəldilər. Bu, Britaniya, Yunanıstan və Türkiyə arasında London-Sürix sazişlərinin imzalanması prosesinin başlanğıcını qoydu. Nəticədə 16 avqust 1960-cı il Kipr 2 ingilis hərbi-dəniz bazası (Akrotiri və Dikeliya) qalmaq şərtilə Britaniya müstəmləkəçiliyindən azad olaraq siyasi müstəqillik əldə etdi və prezident üsul-idarəli suveren dövlətə çevrildi. Qeyd edilən sazişlər əsasında Kiprin Konstitusiyası qəbul edildi. Böyük Britaniya, Türkiyə və Yunanıstan Kiprin müstəqilliyi, ərazi bütövlüyü və təhlükəsizliyinə zəmanət verən dövlətlər oldular. Hər bir zəmanətçi dövlət sazişlər pozulduqda bir-biri ilə məsləhətləşə bilər, adada status-kvonu bərpa etmək məqsədilə tədbir görə bilərdi.

Makmilan da öz memuarlarında Kipr böhranının həlli istiqamətində cəhdlərinin səmimi olduğunu iddia edirdi (4, 657-701). Lakin əgər həqiqətən Makmillan Kipri dekolonizasiya etməyə və ada üzərində ingilis suverenliyinə son qoymaq istəyirdisə, niyə bu fikri 1959-cu ilin fevralında, yəni

hakimiyyətə gəldikdən 2 il sonra bəyan etdi. Məsələ ondadır ki, Britaniya hökuməti üçün Kipri öz hakimiyyəti altında saxlamaq zəruri idi, çünki ingilislərin strateji maraqları yalnız ada üzərində suverenliyini, adada suveren hərbi bazalarını qoruyub saxladığı təqdirdə təmin edilmiş olacaqdı. Kiprin müstəmləkəsizləşdirilməsi ideyasını səsləndirməyə başlayan Makmillan hökuməti o zaman təkidlə bildirirdi ki, Britaniya yalnız problemin həllində və adada öz hərbi bazalarının qorunmasında maraqlıdır və buna görə də problemin həlli bağlı Yunanıstanla Türkiyə arasında bağlanacaq sazişi qəbul edəcəkdir. Makmillan adada sülhün bərqərar olunmasında və bazaların qorunub saxlanmasında maraqları olduğunu iddia etsə də, reallıqda Britaniyanın bazaları saxlamaq arzusu sülhün bərqərar olmasına mane olmuş, zorakılığın artmasına, vəziyyətin gərginləşməsinə gətirib çıxarmışdır.

Beləliklə, Britaniya və Türkiyə hökumətləri yeni Makmillan Planını tətbiq etmək məqsədilə bir neçə həftədən sonra əməkdaşlıq etmək qərarlarını bəyan etdilər. Bu addım plana qarşı olan kiprli yunanları və Yunanıstanı narahat etməyə başladı və Yunanıstan xarici işlər naziri planın Lozanna Müqaviləsinə zidd olduğunu elan etdi. Buna baxmayaraq, İngiltərə xarici işlər nazirinin nümayəndəsi İngiltərənin Makmillan Planını 1 oktyabrdan etibarən həyata keçirməkdə qərarlı olduğunu açıqladı. Plana müvafiq olaraq 1 oktyabr 1958-ci il tarixində Türkiyə adadakı təmsilçisini – Burhan İşını Kiprə göndərdi (2, 193). Makmillanın planı Türkiyəyə nəinki Kiprlə bağlı beynəlxalq danışıqlarda, eyni zamanda adanın idarə edilməsində iştirak hüququnun verilməsi və öz müqəddəratını təyin etmək məsələsinin 7 illik müddətə təxirə salınması, həmçinin bu müddətdə Enosisə faktiki veto qoyulması demək idi. Bununla yanaşı, hər bir icma üçün ayrı nümayəndələr palatasının və daha sonra ayrı munisipalitetlərin yaradılması haqqında müddəanın plana əlavə edilməsi icmaların gələcəkdə tamamilə ayrılmasına platsdarm hazırladı.

## ƏDƏBİYYAT


1. Ergenekon Savrun, Melih Tinal. Soğuk Savaş Döneminde İngiltere Ve Türkiye'nin Kibris Politikalari (1955-1964)/ Çağdaş Türkiye Tarihi Araştırmaları Dergisi Journal of Modern Turkish History Studies XVII/34, Bahar/Spring, 2017
2. Hasan Cicioğlu, Turgay Bülent Göktürk. Türkiye’nin Kıbrıs Politikasını Belirleyen Olaylar (1923-1960 Yılları Arası) // 9. Uluslararası Kıbrıs Araştırmaları Kongresi Bildirileri, 24-25 Nisan, 2014, s.s.412
3. Işıl Tuna. 1950-1960 yıllarında Türkiyenin Kıbrıs politikaları // Uluslararası boyutlarıla Kıbrıs meselesi ve geleceği uluslararası sempozyunu: Bildiriler, Ankara, AKDTYK Atatürk Araştırma Merkezi, 2016
4. Macmillan H. Riding the Storm 1956-1959, London, 1971
5. Stephens R. Cyprus: A peace of Arms, London, Pall Mall Press, 1966
6. Ulvi Keser, "Kıbrıs Sorunu Bağlamında Türkiye'de 6/7 Eylül 1955 Olaylarına Kitlesel Bir Bakış", Çağdaş Türkiye Tarihi Araştırmaları Dergisi, C XII, S 25, Güz 2012I
7. Британский проект урегулирования ситуации на Кипре в 1957-1958 годах: "план Макмиллана" / Нестеров А.Г., Златоустова М.И. // Научный диалог, 2017№5, с. 240-253
8. http://www.mfa.gov.tr // Lausanne Peace Treaty
9. https://api.parliament.uk/historic-hansard/commons/1958/jun/19cyprus // Prime Minister Mr. Harold Macmillan's speech before Parliament
10. https://api.parliament.uk/historic-hansard/commons/1958/nov/04/cyprus-partnershipplan
11. https://digitallibrary.un.org/record/1307860
12. https://history.state.gov/historicaldocuments/frus1952-54v08/d366 // FRUS 1952-54, Eastern Europe; Soviet Union; Eastern Mediterranean, Volume VIII, p. 686
13. https://undocs.org/en/A/RES/814(IX)

## SUMMARY

**Sabina Aliyeva**

## MACMILLAN PLAN OF THE SETTLEMENT OF THE CYPRUS CONFLICT

Harold Macmillan, who was became prime minister of Great Britain in 1957, was described by historians as a leader who reluctantly accepted the weakening of British imperial status as a result of the decolonization of the Mediterranean region and Africa. But after coming to power, with the idea that keeping the Empire in the colonies required a lot of economic, military and political costs, Macmillan wanted to speed up the process of decolonization of Cyprus, and a few months after coming to power, Britain decided to leave the island. The use of Cyprus as a base was no longer necessary. The main interest of Britain was to protect the sphere of influence in the Eastern Mediterranean region, not to give up its sovereignty in Cyprus and to protect its military bases necessary to resist Communist aggression. These goals are reflected in the forward plans by Macmillan.

***Key words**: Cyprus problem, H.Macmillan, negotiations, partnership plan, Great Britain, Turkey, Greece.*



## РЕЗЮМЕ

**Сабина Алиева**

## ПЛАН МАКМИЛЛАНА ПО УРЕГУЛИРОВАНИЮ КИПРСКОГО КОНФЛИКТА

Гарольд Макмиллан, ставший премьер-министром Великобритании в 1957 году, был охарактеризован историками как лидер, который неохотно принял ослабление имперского статуса Британии в результате деколонизации Средиземноморского региона и Африки. Но после прихода к власти, полагая, что сохранение империи в колониях требует больших затрат в экономическом, военном и политическом плане, Макмиллан хотел ускорить процесс деколонизации Кипра и через несколько месяцев после прихода к власти решил, что Британия покинет остров. Больше не было необходимости использовать весь Кипр в качестве базы. Главный интерес Британии состоял в том, чтобы сохранить сферу своего влияния в регионе Восточного Средиземноморья, не допустить передачи суверенитета, которым она обладала на Кипре, а также сохранить свои военные базы, необходимые для противодействия коммунистической агрессии. Эти цели нашли отражение в планах, выдвинутых Макмилланом.

***Ключевые слова:** Кипрская проблема, Г.Макмиллан, переговоры, план партнерства, Великобритания, Турция, Греция.*



***Məqaləni çapa təqdim etdi:** tarix üzrə fəlsəfə doktoru, dosent Şamxal Məmmədov*
***Məqalə daxil olmuşdur:** 4 noyabr 2021-ci il*
***Çapa qəbul edilmişdir:** 2 dekabr 2021-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2021, № 2 (111), 120-125
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2021, № 2 (111), 120-125
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2021, № 2 (111), 120-125

**АФАТ ФАРЗУЛЛАЕВА**
*Института права и прав человека НАНА*

**УДК: 322**

# АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ КОНСТИТУЦИОННО-ПРАВОВОГО ОБЕСПЕЧЕНИЯ ИНФОРМАЦИОННОЙ БЕЗОПАСНОСТИ АЗЕРБАЙДЖАНА

*Интенсивное развитие информационно-коммуникационных технологий, их распространение и проникновение в экономические (производственные) процессы и формирование глобального информационного пространства неизбежно приводят к усилению зависимости от информационной инфраструктуры. Любые посягательства на её функционирования ведут к серьёзной дезорганизации не только информационного пространства страны, но и являются вызовом для её экономической безопасности, что, в свою очередь, служит угрозой национальной безопасности государства в целом.*

*Вследствие этого можно констатировать усиление роли информационной безопасности в системе национальной безопасности любого государства. Динамизм и широта охвата информационной сферы несет в себе не только значительные позитивные, но и крайне опасные, негативные последствия для личности, общества и государства, чьи интересы признаются в статусе национальные.*

***Ключевые слова**: информация, безопасность, государство, защита интересов, информационные ресурсы, политическая стабильность, технологическая база, право.*

## Концептуальные особенности конституционно-правового обеспечения информационной безопасности Азербайджана

В условиях свободной циркуляции виртуальных потоков государство в рамках конституционно-правовых норм должно обеспечивать постоянный контроль над своим информационным пространством, так как обеспечение информационной безопасности представляет процесс реализации властных государственно-правовых функций по укреплению защиты жизненно важных интересов личности, общества и государства от всех внешних и внутренних угроз в информационной среде.

Сфера конституционно-правового обеспечения информационной безопасности требует научного обоснования дальнейшей разработки таких нормативных актов, в которых бы в полной мере были учтены международные принципы и нормы, направленные на укрепление международной информационной безопасности и вместе с тем максимально учитывались бы национальные интересы в информационной сфере. В этой связи на современном этапе возрастает значение конституционно-правового обеспечения информационной безопасности, способствующего сохранению, приумножению и защите национальных информационных ресурсов, укреплению международного авторитета государства, защите прав, свобод и безопасности человека в системе информационных отношений. Конституционно-правовой контроль информационного массива гарантирует социуму доступ к легальным мировым информационным ресурсам, параллельно защищая национальное информационное пространства от виртуальных интервенций, направленных на подрыв национальной безопасности.

Актуальность конституционно-правового регулирования информационной безопасности продуцируется новыми рисками сложившейся архитектуры международной безопасности, обострением глобальных вызовов человеческой цивилизации, информационным воздействием, которые могут нести угрозы политической стабильности государства и его

суверенитету.

Актуальность проблемы, рассматриваемой в данной статье, определяется для Азербайджана, так же и тем фактом, что, несмотря на отсутствие справедливого в рамках принципов и норм международного права решения Армяно-Азербайджанского Нагорно-Карабахского конфликта, в силу своего ускоренного инновационного развития республика превращается в узловой центр Южно-Кавказского региона в информационном пространстве (10). Соответственно нарастает опасность увеличение случаев применения информационного оружия как средства поглощения информационного пространства Азербайджана, искажения подконтрольными армянской диаспорой и ее лобби зарубежных СМИ информации о территориальной целостности Азербайджана. Значительно возрастают возможности взброса дезинформации через социальные сети с манипуляционными и провокационными целями.

Современные вызовы информационной безопасности Азербайджанской Республики требует анализа имеющегося нормативного массива и, прежде всего, конституционно-правового обеспечения данного направления национальной безопасности. Представляется, что такой анализ будет способствовать эффективности регулирования информационных отношений, направленного на реализацию конституционных прав и свобод человека, дальнейшую разработку нормативно-правовой базы усиления защиты персональных данных и развития информационно-технологических процессов в области информационной безопасности.

## Нормативно-правовые основы конституционно-правового обеспечения информационной безопасности Азербайджана

Деятельность государственных органов в сфере информационной безопасности Азербайджана и достигнутые практические результаты свидетельствуют об эффективности ее правового регулирования и законодательного обеспечения. В Распоряжение №865 Президента Азербайджанской Республики Гейдара Алиева от 9 января 2002 года «Об утверждении «Национальной стратегии по информационным и коммуникационным технологиям во имя развития Азербайджанской Республики (2003-2012 годы)» отмечалось, что государство предприняло значительные усилия для развития информационно-коммуникационных технологий и в этой сфере достигнуты серьезные успехи, так как «данное направление превратилось в один из приоритетов государственной политики». (2). Обеспечение информационной безопасности как важнейшей сферы национальной безопасности страны направлено на дальнейшее развитие азербайджанского государства в качестве полноправного, суверенного субъекта международного права.

Следует отметить, что проблемы конституционно-правового обеспечения информационной безопасности становятся актуальным трендом юридической науки в мировых параметрах, так как в современном мире информационная безопасность распространяется на всю систему жизнедеятельности общества и все сферы функционирования государства. Информационная безопасность выражается «комплексом организационно-правовых инструментов по обеспечению сохранности важной для государства информации, организации соответствующего режима доступа к ней, воспрепятствованию ее несанкционированной передачи, изменения, удаления, защиты законных прав и свобод человека и гражданина, а также обеспечению работоспособности национального сегмента глобальной информационно-телекоммуникационной сети Интернет и специализированных национальных информационно-телекоммуникационной сети открытого, ограниченного и закрытого доступа»(9.с.17)

Законодательство Азербайджанской Республики в области национальной безопасности согласно статье 4 Закона Азербайджанской Республики *№ 712-IIГ* «О национальной безопасности» (29 июня 2004)» состоит из Конституции Азербайджанской Республики, настоящего Закона и иных нормативно-правовых актов Азербайджанской Республики, а также международных договоров, к которым присоединилась Азербайджанская Республика (7).

Конституция Азербайджанской Республики выступает одновременно источником и основой правовых норм в сфере обеспечения информационной безопасности государства.

В качестве основ защиты национальной информационной безопасности, как нам представляется, надо рассматривать содержащиеся в преамбуле такие фундаментальные ценности как «многовековые традиции своей государственности», «обеспечить благополучие всех и каждого», «защищать независимость, суверенитет и территориальную целостность Азербайджанской Республики»; «сохранять приверженность общечеловеческим ценностям, жить в условиях мира и безопасности с другими народами, осуществлять взаимовыгодное сотрудничество»(1).

Известно, что Конституция признается законом прямого действия. В этой связи представленные в преамбуле ценностные принципы предопределили содержащиеся в Основном Законе нормы, выступающие, с одной стороны, как базовые правовые основы информационной национальной безопасности, с другой стороны, регулирующие общественные отношения в этой сфере.

Для информационной безопасности основополагающими являются те нормы Конституции АР, которые определяют совокупность и приоритетность объектов, чьи интересы подлежат безусловной защите, сохранению и развитию, то есть, национальные интересы. Правовая доктрина Азербайджана определяет информационную безопасность как состояние защищенности национальных интересов в информационной сфере, состоящей из совокупности сбалансированных интересов личности, общества и государства, от внутренних и внешних угроз.

В Конституции Азербайджана в статье 50 определяется в пределах одной конституционной нормы комплекс правомочий, связанных с реализацией одного из важнейших конституционных прав, – свободе информации, праве доступа к информации. Данная статья получила развитие в Законе Азербайджанской Республики «О свободе информации» от 19 июня 1998-го года, № 505-ИГ (1998г) и в Законе «О средствах массовой информации» (1999), декларирующих свободу каждого законным путем искать, получать, передавать, производить и распространять любую информацию(5.,6.).

Ограничение свободы информации и свободы на доступ к информации допускается только в случаях, предусмотренных Конституцией Республики (7). Порядок пользования свободой информации определяется Конституцией и соответствующими законами Азербайджанской Республики.

Статья 4. Закона Азербайджанской Республики «О свободе информации» определяет субъектами информационных отношений физические и юридические лица. (6). Закон Азербайджанской Республики «Об информации, информатизации и защите информации» № 460-IQ от 3 апреля 1998 г вносит уточнения, что : «все физические и юридические лица, участвующие в информационных процессах, свободно реализующие информационную продукцию и информационные услуги, признаются участниками общего информационного рынка» (4).

Концепция национальной безопасности Азербайджана, утвержденная Распоряжением № 2198 Президента Азербайджанской Республики Ильхамом Алиевым от 23 мая 2007 года, уже придала статус национальных интересов обеспечению таких конституционных прав граждан, как получение законным путем, передача, подготовка и распространение информации. Особую угрозу информационной национальной безопасности представляет использования как государственными органами, хозяйствующими субъектами так и частными лицами информационно-коммуникативных технологий с готовой программной, элементной, технологической базой, произведенной вне территории азербайджанского государства. В Концепции национальной безопасности впервые были введены в качестве национальных интересов «защита и развитие информационных ресурсов; формирование информационного пространства и обеспечение его защищенности; интеграция в мировую систему связи и

информации» (3). Обеспечение информационной безопасности определяется Концепцией, как совокупность «факторов, оказывающих воздействие на защиту суверенитета, территориальной целостности, неприкосновенности границ, национальных интересов, последовательного развития, благосостояния и ценностей населения»(3).

Концепция национальной безопасности определяет угрозами в информационной сфере: посягательства на свободу информации; посягательства на государственную тайну; информационная агрессия со стороны других стран, искажение на международной арене правды об Азербайджане; посягательства на информационную систему и ресурсы; распространение панических настроений, искажение информации о территориальной целостности государств, подстрекательство к террористической и сепаратистской, радикально-религиозной деятельности; посягательства на информационную систему и ресурсы Азербайджана; информационная война и применение информационного оружие; манипуляция общественным мнением через информационные ресурсы (3).

## Значение и перспективы конституционно-правового обеспечения информационной безопасности Азербайджана

Актуализация совершенствования правового тренда информационной безопасности объясняется тем фактом, что декларирование Конституций АР информационных прав и свобод личности не освобождает государство от защиты информационных ресурсов, особенно в современных условиях роста в международных параметрах киберпреступности и кибертерроризма. Например, в августе 2012 года в результате атаки армянских хакеров определенное время не функционировали главные новостные ресурсы Азербайджана и официальные веб-сайты Министерства коммуникаций и Министерства юстиции (11).

Защита национальных интересов Азербайджана в информационной сфере предполагает дальнейшее совершенствование конституционно-правового регулирования противодействия угрозам, направленных на государственные, общественные и частные информационные ресурсы (3). В западноевропейском конституционном праве и в США поддержание информационной безопасности определяется через правовые принципы доступности и конфиденциальности информации, а так же защищенности и целостности информационных систем. (12).

В этом контексте нельзя не согласиться с мнением старшего консультанта Конституционного Суда АР Р.Аскерова, что глобальная информационная сеть изменяет «сущность и содержание правового регулирования, осуществляемого в информационной сфере. С одной стороны, снижается эффективность государственно-правового регулирования с помощью императивных методов в рамках отношений власти-подчинения. С другой - возрастает значимость международных правовых институтов, регулирующих информационные отношения при помощи комплексных императивно-диспозитивных методов в рамках отношений координации». (8.с.6).

## Заключение

Правовая доктрина информационной безопасности Азербайджанской Республики признает ее дуалистичесность, так как информационная безопасность выступает, с одной стороны результатом деятельности по ее обеспечению, с другой стороны, она также характеризуется состоянием защищенности личности, общества и государства в информационной сфере. Конституционно-правовое обеспечение информационной безопасности Азербайджанской Республики как суверенного члена международного сообщества в полной мере соответствует общепризнанным принципам и нормам международного права, международным обязательствам, принятым Азербайджанским государством.

## ЛИТЕРАТУРА

1. Azərbaycan Respublikasının Konstitusiyası. 1995. https://president.az/azerbaijan/constitution
2. Azərbaycan Respublikası ilə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı arasında "Azərbaycan Respublikasında informasiya-kommunikasiya texnologiyalarının inkişafı strategiyasının hazırlanması və ilkin mərhələdə tətbiq edilməsi layihəsi"ni Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi haqqında. Azərbaycan Respublikasının Prezidentinin Sərəncami. 23 may 2007-ci il. № 2198 http://e-qanun.gov.az/framework/1090
3. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasının təsdiq edilməsi haqqında. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.
4. İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında Azərbaycan Respublikasının Qanunu http://e-qanun.gov.az/framework/3525
5. Kütləvi informasiya vasitələri haqqında Azərbaycan Respublikasının Qanunu 7 dekabr 1999-cu il № 769-IQ/ www.e-qanun.az/framework/30
6. Məlumat azadlığı haqqında Azərbaycan Respublikasının Qanunu. 19 iyun 1998-ci il № 505-IQ. http://www.e-qanun.az/framework/3420
7. Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu. 29 iyun 2004-cü il № 712-IIQ http://republic.preslib.az/ru\
8. Азизов Р.Ф. Правовое регулирование: информационный аспект СПб. 2007. с.5
9. Галушкин А. К вопросу об информатизации современного общества и необходимости обеспечения национальной информационной безопасности. Вестник РУДН. №1. 2014 с.15-20
10. Мехтиев Р. Миропорядок двойных стандартов и современный Азербайджан. www.trend.az/azerbaijan/politics/2340066.html
11. Национальный ИКТ-профайл Азербайджана. Часть 6: Информационная безопасность и защита информации https://digital.report/azerbaydzhan-informatsionnaya-bezopasnost/
12. International Strategy for cyberspace (Prosperity, Security and Openness in a Networked World, 22-05-2011 www.whitehouse.gov/sites/default/files/rss_viewer/

## XÜLASƏ

**Afət Fərzullayeva**

### AZƏRBAYCANDA İNFORMASİYA TƏHLÜKƏSİZLİYİNİN KONSTİTUSİON VƏ HÜQUQİ TƏMİNATININ AKTUAL PROBLEMLƏRİ

"Azərbaycanda informasiya təhlükəsizliyinin konstitusion və hüquqi təminatının aktual problemləri" adlı məqalədə müəllif Azərbaycan Respublikası Konstitusiyasında, bir sıra qanunvericilik aktlarında və Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında bu məsələ öz əksini tapmış və əsas mövqeləri araşdırılmışdır.

Məqalədə informasiya təhlükəsizliyinin hüquqi doktrinasının dualizmi qəbul etdiyi təsdiqlənir və beləliklə, bir tərəfdən informasiya təhlükəsizliyi onu təmin etmək fəaliyyətin nəticəsidir, digər tərəfdən isə informasiya sahəsində fərdi, cəmiyyət və dövlətin təhlükəsizliyi ilə xarakterizə olunur.

***Açar sözlər**: informasiya, təhlükəsizlik, dövlət, maraqların qorunması, informasiya qaynaqları, siyasi sabitlik, texnoloji baza, hüquq*

## SUMMARY

**Afat Farzullayeva**

**ACTUAL PROBLEMS OF CONSTITUTIONAL AND LEGAL PROVISION OF INFORMATION SECURITY IN AZERBAIJAN**

In the article entitled "Actual problems of constitutional and legal provision of information security in Azerbaijan", the author examines the main provisions of the issue, which are reflected in the Constitution of the Republic of Azerbaijan, a number of legislative acts and the Concept of National Security of the Republic of Azerbaijan. The article studies that the legal doctrine of information security accepts dualism, and thus, on the one hand, it can be said that information security is the result of its efforts to ensure it, and on the other hand, information security is characterized by individual, public and state security.

***Key words****: information, security, state, protection of interests, information resources, political stability, technological base, law*


---


***Məqaləni çapa təqdim etdi:*** *hüquq üzrə fəlsəfə doktoru, dosent Qəhrəman Behbudov*
***Məqalə daxil olmuşdur:*** *4 noyabr 2021-ci il*
***Çapa qəbul edilmişdir:*** *2 dekabr 2021-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2021, № 2 (111), 126-129
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2021, № 2 (111), 126-129
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2021, № 2 (111), 126-129

# İQTİSADİYYAT

**TEYMUR ABBASOV**
*Naxçıvan Dövlət Universiteti*
*teymurabbasov56@mail.ru*

**UOT: 330**

## İNNOVASİYALI İQTİSADİYYATDA DAVAMLI VƏ DAYANIQLI İNKİŞAF AZƏRBAYCANDA ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASINDA ƏSAS ŞƏRTDİR

*Elmi məqalədə ölkəmizdə qloballaşma şəraitində innovasiya siyasətindən, innovasiya fəaliyyətinin inkişafından və bu inkişafın ərzaq təhlükəsizliyinin təmin olunmasında əsas şərtlərdən biri olması geniş şərh olunur. Bu siyasət yerli məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi, dayanıqlı iqtisadi artımın təmin olunması, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına xidmət edir. Məqalədə qeyd olunur ki, qlobal rəqabət şəraitində iqtisadiyyatın dayanıqlı artımı istehsala yeni texnologiyanın yüksək tətbiq səviyyəsi ilə şərtlənir.*

*Elmi məqalədə xüsusilə vurğulanıb ki, Azərbaycanda iqtisadi inkişafın bütün hədəfləri nəticədə ölkənin ərzaq təhlükəsizliyinin hərtərəfli və dolğun şəkildə ödənilməsinə yönəldilib.*

***Açar sözlər:*** *innovasiya siyasəti, rəqabətqabiliyyətli məhsul, ərzaq təhlükəsizliyi, sosial-iqtisadi inkişaf, kənd təsərrüfatı, sənaye sahəsi, elmi-texniki nailiyyətlər.*

Müasir qloballaşma şəraitində texnologiya sahəsində baş verən yeniliklər firmalar, xüsusilə də kiçik müəssisələr üçün getdikcə daha böyük əhəmiyyət kəsb edir. İnnovasiyanın səmərəliliyi xeyli dərəcədə bu sahədə çalışanların, o cümlədən firmaların, elmi-tədqiqat müəssisələrinin, universitetlərin peşəkarlıq fəaliyyətindən, onların yerli, milli və beynəlxalq səviyyədə əlaqələrindən asılıdır. Digər tərəfdən innovasiya sisteminin səmərəliliyinə təsir edən amillər sırasına fərdləri və müəssisələri öyrənməyə stimullaşdıran şərtlər, maliyyə sisteminin etibarlılığı, bu sahədə dövlət tənzimlənmələrinin səmərəliliyi və s. aid olunur.

Dövlətin innovasiya siyasəti innovasiya fəaliyyətinin inkişafına və stimullaşdırılmasına yönəldilmiş sosial-iqtisadi siyasətin tərkib hissəsi olub, elmi tədqiqatlardan, işləmələrdən, təcrübi konstruktor işlərindən və ya digər elmi-texniki nailiyyətlərdən istifadə etməklə iqtisadi dövriyyədə reallaşdırılan yeni və ya təkmilləşdirilmiş məhsulların, habelə texnoloji prosesin yaradılması deməkdir. Bu siyasət yerli məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi, dayanıqlı iqtisadi artımın təmin olunması, əhalinin həyat səviyyəsi və keyfiyyətinin, ölkənin müdafiə texnoloji və ekoloji təhlükəsizliyinin təmin edilməsi üçün innovasiya fəaliyyəti prioritetliyi razılaşdırılmaqla formalaşdırılır və həyata keçirilir.

Dövlətin innovasiya siyasətinin əsas məqsədləri aşağıdakılardan ibarətdir:

- yerli məhsulların rəqabətqabiliyyətliliyinin artımını təmin edən innovasiya fəaliyyəti üçün iqtisadi, hüquqi və təşkilati şəraitin yaradılması, elmi-texniki nəticələrin effektiv ifadəsi, sosial-iqtisadi məsələlərinin həlli;
- elmi-texniki potensialın inkişafı səmərəli yerləşdirilməsi və effektiv istifadəsi onun strukturunun formalaşdırılması;
- elm və texnikanın ölkə iqtisadiyyatının inkişafına, ən mühüm sosial vəzifələrin reallaşdırılmasına, maddi istehsal sferasında mütərəqqi struktur dəyişikliklərinin təmin olunmasına təsirinin

artırılması, onun effektivliyinin və rəqabətqabiliyyətinin yüksəldilməsi;

- ölkənin müdafiə qabiliyyətinin və şəxsiyyət, cəmiyyət və dövlət təhlükəsizliyinin möhkəmləndirilməsi.

Qarşıya qoyulan məqsədə nail olmaq üçün dövlət innovasiya siyasətinin aşağıdakı vəzifələrini həll etməlidir:

-dövlət innovasiya siyasəti prioritetlərinin müəyyən edilməsi və reallaşdırılması;
- iqtisadiyyatda mütərəqqi struktur dəyişikliklərinin təmin edilməsi;
- innovasiya fəaliyyəti infrastrukturunun yaradılması və inkişafı;
- beynəlxalq bazarda yerli innovasiya məhsullarının qorunması və xarici iqtisadi innovasiya fəaliyyətinin inkişafı üzrə tədbirlərin həyata keçirilməsi;
- innovasiya fəaliyyətinin inkişafında elm, təhsil, istehsal və maliyyə-kredit sferalarının qarşılıqlı təsirinin təmin edilməsi;
- xalq təsərrüfatının inkişafı strategiyasını, temp və proporsiyalarını müəyyən edən başlıca istiqamətlərdə iqtisadiyyatın inkişafının stabilləşdirilməsi üçün elmi-texniki potensialın effektiv istifadəsinin və onun strukur tarazlığının təmin olunması.

Son illər ölkəmizdə aparılan uğurlu islahatlar, quruculuq işləri, iqtisadiyyatda baş verən irəliləyişlər, qeyri-neft sektorunun inkişafı müsbət nəticələrə gətirib çıxarmış, regionların sosial-iqtisadi inkişafı, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Dövlət innovasiya siyasətinin əsas istiqamətlərindən biri elm və təhsil sahəsinə göstərilən qayğının ardıcıl davam etdirilməsi, elmi-texniki potensialın qorunub saxlanılması, elm və təhsil sahəsində yüksəkixtisaslı kadrların hazırlanması, onlara qayğı göstərilməsi, cəmiyyətdə elmi işçilərin nüfuzunun artırılması sahəsində bir sıra mühüm qərarların qəbul edilməsi olmuşdur.

İnnovasiyalar təsərrüfat subyektlərinin istehsal və kommersiya məsələlərinin həlli vasitəsi kimi çıxış edirlər. Müəssisənin bu növ fəaliyyətinin həyata keçirilməsində maraqlı yeniliklərin reallaşdırılması prosesində alınan gələcək mənfəətin ölçüsü müəyyən edilir. İnnovasiyalar, adətən, onların başa çatdırılması üzrə daha gec aşkara çıxarılan müddətli effekt gətirirlər. Odur ki, onların effektivliyinin xərclərin aşağı salınması əsasında müəyyən edilməsi üsulu heç də həmişə məqbul sayılmır.

Mülkiyyət formaları üzrə innovasiya bazarının strukturu müxtəlif təşkilati hüquqi formaya malik subyektlər arasında yeniliklərin mübadiləsini əks etdirir. Bu isə innovasiya fəaliyyətinin stimullaşdırılması üzrə dövlət siyasətinin aşağıdakı əsas istiqamətlərini qabaqcadan müəyyən etməyə imkan verir:

-vençur kapitalına malik kiçik innovasiyalı müəssisə və təşkilatlara dövlət köməyinə dair tədbirlər;
- dövlət sektorundan özəl sektora texnoloji transfer şərtləri;
- innovasiya fəaliyyətinin normativ hüquqi tənzimlənməsi.

İnnovasiya fəaliyyətinin məqsədləri, həyata keçirilməsi üsulları, forma və müddətləri hər şeydən əvvəl ayrı-ayrı təsərrüfat subyektlərinin və bütövlükdə cəmiyyətin resurs imkanları ilə müəyyən olunmalıdır. İnnovasiya fəaliyyətinin gedişində təsərrüfat subyektləri tərəfindən seçilən məqsədlərin məcmusu və onların həyata keçirilməsi fərz edilən üsullar yeniliklərin reallaşdırılması üzrə onların innovasiya siyasətini müəyyən edir.

İnnovasiya fəaliyyətinin spesifik xüsusiyyətindən və ümumi iqtisadi vəziyyətdən asılı olaraq, bazar münasibətlərinin iştirakçısı gözlənilən nəticəni təmin etməli olan maliyyə metodlarının məcmusunu müəyyən etməlidir. İnnovasiya inkişafının stimullaşdırılması baş verən təşkilati xarakter və tədbirlərdə daha böyük effekt idarəetmə iyerarxiyasının bütöv səviyyələrində təşkilati tədbirlərin qarşılıqlı əlaqələndirilməsi zamanı əldə olunur. Bu fəaliyyətin həyata keçirilməsinin əlverişli olacağı şəraitin yaradılmasını nəzərdə tutur. Əlverişlilik dərəcəsi xalis mənfəətin ölçüsü ilə müəyyən oluna bilər. Əksər hallarda innovasiyanın kommersiya reallaşdırılmasının məqsədəuyğunluğu və onun iqtisadi effektivliyi sahibkar tərəfindən innovasiya məhsulunun satışı zamanı müəssisənin gəlirləri və müəssisənin öz istehsalında yeniliyin inhisar reallaşdırılmasından ala biləcəyi gəlirlərin əldə

olunmamış məbləği arasında fərqi müəyyən etmək yolu ilə təyin edilir. Bu kəmiyyət bazarda konyuktor dəyişiklikləri şəraitində fasiləli xarakter daşıyır. İnnovasiya fəaliyyətinin inkişafı üçün əlverişli şəraitin yaradılması dövlət idarəetmə orqanlarının vəzifəsi sayılır. Dövlətin innovasiya siyasəti cəmiyyətin sosial-iqtisadi strategiyası ilə müəyyən edilən məqsədyönlülükdən əlavə dünya bazarında milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyi səviyyəsinin yüksəldilməsi vəzifələri ilə innovasiya prosesinə cəlb edilən bütün iştirakçıların maraqlarının uzlaşmasını təmin etməlidir.

İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsi sübut edir ki, qlobal rəqabət şəraitində iqtisadiyyatın dayanıqlı artımı istehsala yeni texnologiya və işləmələrin yüksək tətbiq səviyyəsi ilə şərtlənir.

Azərbaycan iqtisadiyyatı 2014-cü ildən başlayan və bir neçə il davam edən qlobal maliyyə-iqtisadi böhrandan itkisiz çıxaraq, bütün sahələrdə iqtisadi artım tempini qoruyub saxlaya bilmişdir. Məhz bunun nəticəsidir ki, hazırda dünyanı cənginə alan koronavirus pandemiyasının yaratdığı problemlərdən respublikamız ciddi fəsadlarla üzləşmədən çıxmağı bacarmışdır.

Qlobal pandemiya dövründə ən çox diqqət mərkəzində olan məsələlərdən biri də ərzaq təhlükəsizliyinin təmin olunmasıdır. Bütün dünyanı bürüyən pandemiya nəticəsində dövlətlərarası sərhədlər qapandı, iqtisadi-ticarət əlaqələri zəiflədi. Məhz bu səbəbdən hər bir ölkə üçün daxili mənbələr hesabına özünün ərzaq təhlükəsizliyini təmin etmək, idxaldan asılılığı azaltmaq postpandemiya dövrünün qlobal çağırışına çevrildi.

Hazırda hər bir dövlət iqtisadiyyatını özünütəcrid şəraitində qurmağa çalışır. Ümumiyyətlə, resbublikamızda ərzaq təhlükəsizliyi daim diqqət mərkəzində olmuş, bu məsələ ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ayrı-ayrı vaxtlarda müxtəlif sərəncamlarla Dövlət Proqramları təsdiq edilmiş, digər sənədlər qəbul olunmuşdur. Respublikada qida təhlükəsizliyinə nəzarəti təkmilləşdirmək, bu sahədə şəffaflığı artırmaq, sistemsizliyi və pərakəndəliyi aradan qaldırmaq məqsədilə Qida Təhlükəsizliyi Ağentliyi yaradılmışdır.

Bu gün Azərbaycan ərzaq təhlükəsizliyinin təmininə görə Asiya və Sakit Okean ölkələri arasında ilk onluqda təmsil olunur.

Hazırda qarşıda aqrar sahənin rəqabət qabiliyyətini, innovasiyaları tətbiq etməklə, daha da yüksəltmək kimi mühüm vəzifə durur. 2021-ci il və ortamüddətli dövrdə regionlarda rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsulları istehsalı və emalı sektorunun inkişafı üçün əlverişli mühitin formalaşdırılması, kənd təsərrüfatı sektoruna dövlət qayğısının artırılmasının davam etdirilməsi prioritet istiqamət olacaq.

Deyilənlərə yekun vuraraq demək istəyirik ki, Azərbaycanda iqtisadi inkişafın bütün hədəfləri nəticədə ölkənin ərzaq təhlükəsizliyinin hərtərəfli və dolğun şəkildə ödənilməsinə yönəldilib. İqtisadi inkişafın dayanıqlı və davamlı xarakter daşıması bütün vəziyyətlərdən ölkənin uğurla çıxmasına imkan verəcəkdir.

## ƏDƏBİYYAT

1. Əliyev İ.İ. Heydər Əliyev yolu: Azərbaycan inkişafının yeni mərhələsində. Bakı: Azərbaycan, 2007, s.862.
2. Əliyev M. Azərbaycan iqtisadiyyatının formalaşması və inkişaf problemləri. Bakı: 2002.
3. Həsənov R.T., Bayramov Ü.Ə. Regional iqtisadi inkişaf siyasətinin əsas prioritetlərinin seçilməsi. “Audit” jurnalı, №4, 2003.
4. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: Reallıqlar və perspektivlər (Monoqrafiya). Bakı: “İqtisad Universiteti”, 2009.
5. Vəliyev D.Ə. Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası. Bakı: Adiloğlu, 2008, 428 s.
6. Vəliyev T.S. İqtisad elminin nəzəri əsaslarının tarixi təkamülü. Bakı: 1999.
7. Аниконов Н.Б., Бобков А.Г. Инновации в системе экономического развития // Инновации. 2004, №4.

## SUMMARY

**T.Abbasov**

**RESISTANT AND SUSTAINABLE IN AN INNOVATIVE ECONOMY DEVELOPMENT IS THE MAIN CONDITION FOR ENSURING FOOD SECURITY IN AZERBAIJAN**

The scientific article explains the policy of innovation in the global environment in our country, the development of innovation activity, and the fact that this development is one of the main conditions in ensuring food security. This policy serves to improve the competitiveness of local products, ensure sustainable economic growth and improve the standard of living of the population. The article notes that the steady growth of the economy in the conditions of global competition is conditioned by the high level of application of new technology to production.

It was emphasized in the scientific article that all the targets of economic development in Azerbaijan were aimed at the comprehensive and comprehensive payment of the country's food security.

***Key words:*** *ınnovation policy, competitive product, food security, socio-economic development, agriculture, industry, scientific and technical achievements.*

## РЕЗЮМЕ

**Теймур Аббасов**

**ОСНОВНОЕ УСЛОВИЕ ОБЕСПЕЧЕНИЯ ПРОДОВОЛЬСТВЕННОЙ БЕЗОПАСНОСТИ В АЗЕРБАЙДЖАНЕ – УСТОЙЧИВОЕ И ДЛИТЕЛЬНОЕ РАЗВИТИЕ В ИННОВАЦИОННОЙ ЭКОНОМИКЕ**

В научной статье подробно разъясняется инновационная политика, развитие инновационной деятельности в нашей стране в условиях глобализации, и что это развитие является одним из основных условий обеспечения продовольственной безопасности. Эта политика служит повышению конкурентоспособности местной продукции, обеспечению устойчивого экономического роста и повышению уровня жизни населения. В статье отмечается, что устойчивый рост экономики в условиях глобальной конкуренции обусловлен высоким уровнем применения новых технологий в производстве.

В научной статье подчеркивается, что все цели экономического развития в Азербайджане направлены на всестороннюю и полную реализацию продовольственной безопасности страны.

***Ключевые слова:*** *инновационная политика, конкурентоспособная продукция, продовольственная безопасность, социально-экономическое развитие, сельское хозяйство, отрасль промышленности, научно-технические достижения.*

---

***Məqalə daxil olmuşdur:*** *4 noyabr 2021-ci il*
***Çapa qəbul edilmişdir:*** *2 dekabr 2021-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2021, № 2 (111), 130-135
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2021, № 2 (111), 130-135
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2021, № 2 (111), 130-135

**DİLSUZ QASIMOV**
*Naxçıvan Dövlət Universiteti*
*dilsuzqasimli@gmail.com*

**UOT: 338.43**

# AQRAR SAHƏDƏ İQTISADİ İDARƏETMƏ MEXANİZMİNİN NƏZƏRİ METODOLOJİ ASPEKTLƏRİ

*İdarəetmə sistemi mahiyyət elementi kimi təsərrüfatın özünü yaşatması üçün iqtisadi vasitə, metodlarla zəruri olan məqsədyönlü, elmli, strateji məqamları nəzərə almaqla həyata keçirilən çoxmahiyyətli proses olub, iqtisadi-sosial prosesləri də özündə ehtifa edir. İqtisadi idarəetmə mexanizminin əsas məqsədi özündə müəyyən ölçüləri və əsas amilləri əks etməklə qarşılıqlı əlaqəli bir sistemi ifadə edir. Əvvəllər iqtisadi idarəetmə mexanizminin bir elementi kimi qəbul edilmiş təsərrüfat mexanizmi əslində inzibati amirlik, planlaşdırmanın, qiymətqoymanın, idarəetmənin və s. mərkəzləşdirildiyi üçün o, təsərrüfat fəaliyyətinin həyata keçirilməsi, cari və strateji məqsədlərin nail olunmasına təsir edən idarəetmə alətlərinin, metodlarının və formalarının məcmusu kimi qiymətləndirilir. Bu baxımdan elmi tədqiqat işində aqrar sahədə iqtisadi idarəetmə mexanizminin mahiyyəti, nəzəri məsələləri və formalaşdırılması xüsusiyyətləri, onun təkmilləşdirilməsi istiqamətləri, bu sahədə beynəlxaq təcrübə araşdırılmışdır.*

***Açar sözlər:*** *aqrar sahə, aqrar siyasət, idarəetmə, idarəetmə sistemi, idarəetmə mexanizmi, nəzəri metodoloji aspektlər*

İdarəetmə mexanizmi hər hansı məqsədyönlü fəaliyyət prosesi zamanı idarəetmə subyekti tərəfindən bu və ya digər idarəetmə obyektinə müəyyən təsirlərin işlənilməsini və həyata keçirilməsini nəzərdə tutur. Ona görə də qloballaşma şəraitində aqrar siyasətin formalaşmasına hər bir müstəqil dövlətin daxili işi kimi deyil, daha çox dünya təsərrüfat sisteminin tərkib hissəsi kimi baxılır.

İdarəetmə - hər hansı bir təşkilatın işgüzarlıq nailiyyətlərinin əsas amillərindən biri olmaqla müəssisələrdə strateji məqsədlərin əldə olunması, yəni onun işgüzarlıq nailiyyətləri rəhbər işçilərin sahibkarlıq və şəxsi keyfiyyətlərindən çox asılıdır.

Belə ki, ümummilli lider Heydər Əliyevin 1969-cu ildən başlanan birinci hakimiyyəti dövründə Azərbaycan keçmiş SSRİ-də müttəfiq respublikalar icərisində ən geridə qalanlardan idi.

Ümummilli lider Heydər Əliyev Azərbaycanın kənd təsərrüfatının düşdüyü acınacaqlı vəziyyətini diqqətlə öyrənərək, yaranmış vəziyyət haqqında yuxarı orqanları məlumatlandırmış və Sov.İKP Mərkəzi Komitəsi 1970-ci il iyulun 23-də “Azərbaycan SSR-də kənd təsərrfatını inkişaf etdirmək tədbirləri haqqında yüksək səviyyədə qərar qəbul edilmişdir. Qərarın icrası nəticəsində Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalına və tədarükünə dair qəbul edilmiş beşillik planlar vaxtından əvvəl xeyli artıqlaması ilə yerinə yetirilmişdir. Ümummilli lider Heydər Əliyev respublikada toplanmış təcrübəni və yeni imkanları təhlil edərək,respublikada kənd təsərrüfatının daha da inkişaf etdirmək haqqında Sov.İKP MK-ya verdiyi yeni təkliflər əsasında 1975-ci ilin iyulun 9-da Sov.İKP Mərkəzi Komitəsi və SSRİ Nazirlər Soveti “Azərbaycan SSR-də kənd təsərrfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında” yeni qərar qəbul etmişdir. Göstərilən qərarın icrasının təmin edilməsi nəticəsində respublikada kənd təsərrüfatı məhsulunun ümumi istehsalı üzrə 1980-cı il səviyyəsi 1978-ci ildə,yəni müəyyən edilmiş vaxtdan iki il tez yerinə yetirilmişdir [8].

Respublikanın inkişafı və tərəqqisi üçün yorulmaq bilmədən, var qüvvəsi ilə çalışan

ümummilli lider Heydər Əliyev Azərbaycan SSR-də kənd təsərrüfatının dinamik inkişafını təmin edəcək bir qərara ehtiyac olduğunu gördüyündən özünün başçılığı ilə konkret təkliflər hazırlanaraq Sov.İKP Mərkəzi Komitəsinə təqdim edilmişdir.Bu məsələnin həll edilməsi H.Ə.Əliyev şəxsiyyətinin böyüklüyü sayəsində həll edilmişdir. 1979- cu ilin fevral ayinin 22-də "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdirmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında" da Sov.İKP Mərkəzi Komitəsi və SSRİ Nazirlər Sovetinin qərar qəbul etmişdir [8].

Məhz bunlara görə respublikada kənd təsərrüfatının inkişafı kecmiş SSRİ məkanında 9 il dalbadal keçici qörmızı bayraqların alınmasına səbəb olmaqla, keçmiş SSRİ hökuməti səviyyəsində kənd təsərrüfatının inkişaf etdirilməsi haqda üç mühum qərarın qəbul edilməsi ümummilli lider Heydər Əliyevin idarəetmə sahəsində nə qədər güclü bir şəxsiyyət olmasının bariz nümunəsi kimi təqdim etmək olar. Azərbaycan keçmiş ittifaqın geridə qalmış aqrar sahəsindən kənd təsərrüfatının kompleks inkişaf etdiyi qabaqcıl respublikalardan birinə çevrildi. Həmin dövrdə ölkəmizdə kənd təsərrüfatının elmi əsaslarla inkişafı nəticəsində bu sahədə zəngin təcrübə formalaşmışdı.

Təəssüf ki, müstəqilliyin ilk illərində ölkədə baş verən özbaşınalıq nəticəsində aqrar sahədə yaradılan bu infrastruktur da tamamilə dağıdıldı. Həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyən ümummilli lider Heydər Əliyev kənd təsərrüfatının inkişafının vacibliyini daim ön plana çəkmiş, bununla bağlı mühüm qərarlar qəbul etmişdir.

Ali Məclisin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" qərarlar qəbul edilmiş, bununla da Azərbaycanda torpaq islahatına ilk dəfə Naxçıvandan başlanılmış, özəl mülkiyyətə əsaslanan aqrar münasibətlər formalaşmışdır.

1993-2003-cü illərdə isə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə bu istiqamətdə kompleks tədbirlər görülmüş, uğurlu islahatlar həyata keçirilmiş, qanunvericilik bazası yaradılmışdır. Aqrar sahənin inkişaf etdirilməsi və ölkənin ərzaq təminatının yaxşılaşdırılması üçün səmərəli fəaliyyət mexanizmləri yaradılmış, sahənin spesifik xüsusiyyətləri nəzərə alınmaqla iqtisadi mexanizmlər təkmilləşdirilmişdir.

Uzun illər aqrar sahənin idarə edilməsi sistemi onun inkişaf meyilləri və cəmiyyətimizin tələbatı ilə əlaqədar bir neçə dəfə yeniləşdirilmiş, təkmilləşdirilmiş və bunun nəticəsi olaraq yüksək son nəticəyə çatmaq və məsuliyyətin daha da gücləndirilməsinə yönəldilmişdir. Hal hazırda isə aqrar sahənin inkişafının əsas prioritet istiqamətləri aqrar sahədə idarəetmənin təkmilləşdirilməsinə, ehtiyyatlardan istifadəni yaxşılaşdırıimasına, istehsalı artırmaq və səmərəliliyi yüksəlmək məsələlərinə istiqamətləndirilir.

Ölkənin təsərrüfat sistemi çox mürəkkəb bir sistemi özündə cəmləşdirir. Onun tərkibində olan əlaqələrin, məqsədlərin, halqa və elementlərin sayı həddindən artıq çoxdur. Buna görə də əsas vəzifə sistemin daha səmərəli işləməsi üçün lazım olan şəraitin daimi olaraq saxlanılmasının təmin olunmasından ibarətdir.

Tədqiqatın aparılmasında əsas məqsəd respublikada iqtisadi və sosial idarəetmənin müasir vəziyyətini hərtərəfli tədqiq etmək, onun yeni şəraitdə formalaşma və fəaliyyət mexanizmini müəyyən etmək, əhalinin istehlak tələbini lazımi səviyyədə ödəmək üçün kompleks marketinq proqramını işləyib hazırlamaq, bazarın sağlamlaşdırılması və səmərələşdirilməsi üçün konkret təkliflər və tövsiyələr irəli sürməkdən ibarətdir. Belə ki;

1. Bazar iqtisadiyyatı şəraitində iqtisadi və sosial idarəetmənin nəzəri metodoloji səmərələrinin yeni iqtisadi şəraitin tələblər baxımından araşdırılması və onun formalaşmasının və inkişafının konseptual əsaslarının müəyyən edilməsinə dair təkliflərin hazırlanması;
2. İqtisadi və sosial sferada əhali tələbinin xüsusiyyətlərini və mal təklifinin həcmini və strukturunu nəzərə almaqla bazarın makroiqtisadi modelinin hazırlanması;
3. Bazarın iqtisadi metodlarla tənzimlənməsi və bu proseslərə dövlət müdaxiləsinin və nəzarətinin istiqamətlərinə dair təkliflərin verilməsi

Tədqiqat işinin obyekti kimi bütövlükdə idarəetmə mexanizminin təkmilləşdirilməsi məsələsi nəzərdən keçirilmişdir. Bu baxımdan elmi tədqiqat işinin predmeti bütövlükdə idarəetmə işinin mahiyyəti, bunun qanunauyğunluqları, forma və metodlarının öyrənilməsi ilə səciyyələnilir. Tədqiqatın alətlər bazası kimi daha çox nəticə verə bilən elmi dərketmə, araşdırmalar və təhlil metodlarından istifadə olunmasıdır.

Tədqiqatın elmi yeniliyi aqrar sahədə məhsul istehsalının həcminin artırılması, istehsalçılara dövlət dəstəyi, torpağın icarə haqqının hədləri, torpağın istifadəsi ilə əlaqədar mülkiyyət hüquqları, torpağın satın alınması və s. iqtisadi vasitələr və təsərrüfat mexanizmləri daxildir.

Elmi-tədqiqatın nəticələri kimi əldə olunacaq təkliflər praktiki əhəmiyyətə malikdir və təcrübədə istifadə oluna bilər. Səmərəli fəaliyyət sistemi yaradılması üçün həmişə müəyyən mexanizmlər sistemi də reallaşdırılmalıdır.

Bu mexanizm:

1)iqtisadiyyatın səmərəli fəaliyyət göstərməsi və istehsalın inkişafı üçün maliyyə və sosial mühitin təşkili;

2) iqtisadiyyatın formalaşmasına təsir edən amillərin neytrallaşdırılması;

3)əhalinin sosial müdafiəsi və gəlirlərinin artırılması istiqamətlərinə yönəldilməsidir.

İdarəetmə sistemi mahiyyət elementi kimi təsərrüfatın özünü yaşatması üçün iqtisadi vasitə, metodlarla zəruri olan məqsədyönlü, elmli, strateji məqamları nəzərə almaqla həyata keçirilən çoxmahiyyətli proses olub, iqtisadi-sosial prosesləri də özündə ehtifa edir. İqtisadi idarəetmə mexanizminin əsas məqsədi özündə müəyyən ölçüləri və əsas amilləri əks etməklə qarşılıqlı əlaqəli bir sistemi ifadə edir. Deməli iqtisadi idarəetmə mexanizmi məqsədli bir mexanizmdir və obyektiv məzmun elementlərinə malikdir [1].

Məşhur iqtisadçı Nobel mükafatı lauyreatı Pol A.Samuelson iqtisadi inkişafın dörd elementini saymaqla yanaşı (insan,təbii kapital,texniki tərəqqi və innovasiya texnologiya) idarəetmənin də rolunu xüsusi qeyd etmişdir. Böyük mütəfəkkir N.Tusiyə görə bütün dövrlərdə inzibati və iqtisadi idarəetmə olmadan cəmiyyətin quruluşunu qoruyub saxlamaq mümkün deyildir. Bu quruluş olmadan isə insan yaşaya bilməz [1].

İqtisadçı alim, əməkdar elm xadimi T.Quliyevin fikrincə, daha dolgun desək "İdarəetmə ictimai-iqtisadi münasibətlərin konkret məqsədə uygun təşkil edilməsi metodudur, bütöv,tam bir sistemin ayrı-ayrı hissələri, ünsürləri arasındakı əlaqəni təmin edən bir prosesdir. "

İdarəetmə - sənət kimi qədim olduğu kimi, bir elm kimi müasirdir. İdarəetmə üzrə mütəxəssislər belə bir fikrə gəliblər ki, idarəetmə böyük siyasi, iqtisadi, texnoloji, sosial və etik sistemlərin bir hissəsi olmaqla yanaşı, həm də özünün şəxsi konsepsiyalarına, prinsiplərinə və metodlarına əsaslanir, yəni ciddi elmi-metodiki əsasa malikdir. Elm bir qayda olaraq, praktikanın ehtiyaclarını qabaqlayır, yeni halları qabaqcadan görməyə imkan verir, bununla belə öz müstəqilliyinə baxmayaraq, nəzəriyyə praktikadan asılı olur, orada özünün konsepsiyalarının təsdiqini və yaxud inkarını axtarır ki, bu da şüurun mücərrədlikdən konkretliyə doğru yüksəlməsinin böyük bir prosesidir.

Təsərrüfat mexanizmi əslində inzibati amirlik, planlaşdırmanın, qiymətqoymanın, idarəetmənin və s. mərkəzləşdirildiyi üçün o, təsərrüfat fəaliyyətinin həyata keçirilməsi, cari və strateji məqsədlərin nail olunmasına təsir edən idarəetmə alətlərinin, metodlarının və formalarının məcmusu kimi qiymətləndirilir. Təsərrüfat mexanizmi təşkilati-iqtisadi, sosial, hüquqi forma və metodların məcmusu olmaqla idarəetmə, planlaşdırma, qiymət, kredit, əməyin təşkili, istehsalın stimullaşdırılması, maddi-mənəvi həvəsləndirmə vasitələri ilə təsiretmə, təşkiletmə, nizamlama, fəallaşdırma, tənzimetmə kimi vasitə və sistemindən ibarətdir.

Hesab edirik ki, sahibkarlığın inkişafı və yeni iqtisadi münasibətlər şəraitində qiymət, vergi, maliyyə-kredit, planlaşdırma, idarəetmə və s. sərbəstləşdirildiyi, dövlət tənzimlənməsi mexanizmləri ilə həyata keçirildiyi üçün iqtisadi mexanizm anlayışından istifadə edilməsi daha məqsədəuyğun hesab edilməlidir.

Hazırda aqrar sahənin istehsal münasibətlərini və fəaliyyət mexanizmini tənzimləyən 100-dən

çox normativ-hüquqi aktlar qəbul edilmişdir.

Araşdırma göstərir ki, tənzimləmə üzrə qanunların mühüm əhəmiyyəti vardır. Qanunlar ali qanunverici orqan tərəfindən qəbul olunur və istehsalın tənzimlənməsi üzrə aktlar orada öz əksini tapır. İnkişaf etmiş ölkələrin əksəriyyətində dövlətin aqrar siyasətinin müxtəlif mexanizmlər vasitəsilə məhsulların istehsalını və satışının tənzimlənməsi olmuşdur bununda əksər hissəsi dövlət təhsisatlarının üzərinə düşmüşdür.

Dövlət iqtisadiyyatı yüksək səviyyədə inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı məhsullarının alıcısı kimi çıxış edir, bazarın strukturuna birbaşa təsir göstərir eyni zamanda bazarın fəaliyyətini yeni təşkilati formasını müəyyən edir.

Sahibkarlara maddi yardım göstərilməsi, kreditlərin verilməsi, müxtəlif dotasiyalar dövlət tərəfindən həyata keçirilir. İnkişaf etmiş dövlətlərdə kənd təsərrüfatının səmərəli inkişafını, müstəqil təsərrüfat subyektlərini təmin etmək üçün rentabelli sahənin müxtəlif vasitələrlə müdafiə edir. Ancaq tənzimlənmənin istiqamətləri müxtəlifdir. O, kənd təsərrüfatı məhsullarının istehsalı və satışını stimullaşdırır, ya da onun antiböhran tənzimləyicisi kimi çıxış edir.

Dünya ölkələrinin təcrübəsindən belə qənaətə gəlmək olarkı dövlət iqtisadiyyatın inkişafında katalizator və biznesin inkişafına təsiretmə vasitəsi ola bilər. Dövlətin iqtisadi funksiyalarının güclənməsi zəruridir,bazar iqtisadiyyatı dövlətin iqtisadi metod və üsullarla idarə etməsinin gücləndirilməsidir [7].

Azərbaycanın iqtisadi inkişafinın öz çətinliyi, xüsusiyyəti var.Bu mənada araşdırma göstərir ki, aqrar sahənin inkişafının tənzimlənməsimdə dövlətin iştirakı zəruridir, digər tərəfdən istehlak mallarının, ərzaq məhsullarının yaradılması ilə şərtlənir. Buna görədə dövlət aqrar sahənin inkişafını tənzimləməlidir. Tənzimlənmənin məqsədi bazar mexanizmini qorumaq, əlverişsiz bazar nəticələrini yumşaltmaqdan ibarətdir. Onu deməyə əsas verir ki, aqrar sahədə tənzimlənmə istehsalın təmin olunmasına kömək edir. Müəyyən ölkələrdə istehsalın plana uyğun dövlət tənzimlənməsi sahəsindəki təcrübə bizim ölkədə istifadə edilə bilər. Dövlət tənzimlənməsində fiskal siyasət xüsusi yer tutur. Bu siyasətin əsas məqsədi kredit və vergi qoyma mexanizmi vasitəsilə inkişaf etməkdə olan sahələri təmin etməkdən ibarətdir. Vurğulamaq istəyirəm ki, müəssisələrdə qiymətqoyma fiskal funksiyaların yerinə yetirilməsinə deyil, sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına yönəlməlidir [6]. Aqrar istehsalın dövlət tənzimlənməsinin aşağıdakı istiqamətlərdə həyata keçirilməsi məqsədəuyğundur:

- ✓ kəndin sosial inkişafı
- ✓ təsərrüfatlarda qiymətlərin tənzimlənməsi
- ✓ əmtəə istehsalçılarının maraqlarının qorunması
- ✓ bazarın öz özünü tənzimləməsini dövlətin təsiri ilə əlaqələndirmək;
- ✓ iqtisadi dəyişikliklərin tədricən aparılması;
- ✓ makroiqtisadi mexanizmlərinin aqrar bazara təsirinin mütamadi öyrənilməsi.

Qeyd olunanları nəzərə alsaq belə nəticəyə gəlmək olar ki, ixrac olunacaq məhsulları istehsal edən zaman qabaqcıl texnologiyalardan istifadə etmək lazımdır. Müəyyən məhsulları məhdudlaşdırmaq üçün dövlət gömrük tariflərini ya yüksəltməlidir və yaxud yüksək kvota tədbiq etməlidir.

Respublikamızın xarici bazarının formalaşdırılması üçün

1. iqtisadiyyatımız dünya təsərrüfat mexanizminə inteqrasiya olunmalıdır;
2. milli valyuta kursunun xarici valyutalara nisbətən süni formada aşağı salınması deyil, dünya bazarlarına rəqabət qabiliyyətli məhsullar çıxarmaqla təmin edilməlidir;
3. ixrac-idxal əməliyyatı zərərli təsirlərdən qorunmalıdır.

Beynəlxalq təcrübə belə deməyə əsas verir ki, texnoloji-təşkilati amillər bazar iqtisadiyyatının təsiri nəticəsində formalaşır və inkişaf edir. İstehsal olunmuş məhsulun qiyməti, keyfiyyəti, miqdarı, daşınmaları şərtləri hər iki tərəf üçün əlverişli olduqda sahələr arası əlaqələr yaranır və bu iqtisadi inteqrasiya xarakteri daşıyır [3] .

Azərbaycan Respublikası dinamik inkişaf yoluna qədəm qoymuşdur. Azərbaycan Respublikası milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsinə görə 2025-ci ilədək qrşıya qoyulmuş 7 hədəf indikatorlarından birincisi məhz qeyri-neft sektorunun ÜDM-dəki payının 7%-ə çatdırılmasıdır. Ölkəmiz müstəqillik əldə etdikdən sonra 1995-ci ildən başlanyaraq bütün sahələrdə olduğu kimi, ölkə iqtisadiyyatında da ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə xarici iqtisadi əlaqələrində tərəqqi dovrünə başlamışdır. Lakin Ölkə Prezident İlham Əliyev tərəfindən davamlı olaraq növbəti illər üçün ölkənin sosial-iqtisadi inkişafına dair Milli Prioritetlərin müəyyənləşdirməsi xarici iqtisadi əlaqələrlə yanaşı respublikamızda sosial-iqtisadi tərəqqinin əsasını şərtləndirmişdir. İqtisadi əlaqələri bir sistem olaraq qəbul etsək, xarici investisiyaların rolu danılmazdır. Xarici əlaqələr milli iqtisadi mənafelərə söykəndikdə səmərəli olur. Qeyd olunanları nəzərə alaraq söyləmək olar ki, uğurlu aqrar islahatların aparılması üçün beynəlxalq təcrübəni öyrənmək vacibdir.[1]

İsraildə torpaq dövlətin mülkiyyətidir və kənd təsərrüfatı ilə məşğul olmaq istəyənlər uzunmüddətli - 49, 99 illiyə icarəyə verilir. Sahibkarlar hər il torpaq vergisi ödəyir və məhsul istehsal etməkdə sərbəstdirlər. Torpaq ərazilərinin satışı qadağandır lakin, icarədar başqasının icarəsinə torpaq ərazilərini verə bilər. İcarə müddəti bitdikdən sonra dövlət torpaq əarazisini geri ala və ya icarə müddətini uzada bilər.

Son illər respublikamızda üzümçülüyün inkişaf etməsini nəzəzə alsaq Fransanın təcrübəsinə diqqət yetirmək vacibdir. Fransada əkinə yararlı torpaqların əhəmiyyətli hissəsi sahibkarların əlindədir. Əsas təsərrüfat forması kimi fermerlər və kooperativlərdir.

Sahibkarlar istədikləri kənd təsərüfatı məhsullarını istehsal etməkdə sərbəstdirlər, ancaq dövlət sifarişləridə qəbul edirlər. Fransada üzümçülük ən gəlirli və populyar sahələrdən biri hesab olunur. Üzümçülüklə əsasən sahibkarlar məşğul olurlar və bu zaman məhsulun kəmiyyəti ilə yanaşı keyfiyyətədə xüsusi diqqət yetirilir.

Almaniyanın aqrar sahədə prioritet istiqaməti şərq torpaqlarının ətraf mühitinin qorunmasını təmin edən, Avropa bazarlarında rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsulu istehsal edən və müasir müəssələr yaratmaqdan ibarət oldu. Almaniyada kooperativlər özlərinin "Rayfayzen" adlanan ittifaqda birləşib və idarəolunma formasına görə 3 növə ayrılır: federal, regional, yerli. Burada dünyanın müxtəlif ölkələrində filialı olan 2.654 kooperativ birliyi fəaliyyət göstərir.

Fikrimcə, tənzimləmənin hüquqi əsası kimi yeni hüquqi qanunlarin qəbul edilməsinə ehtiyac var**.** Etiraf etmək lazımdır ki, respublikamızda aqrar sahənin inkişafı onun potensiyalından aşağı səviyyədədir, bunun üçün onun yüksəldilməsi istiqamətində tədbirlər həyata keçirilməlidir.

## ƏDƏBİYYAT


1. Alıyev İ.H. Azərbaycan Respublikasında aqrar sahədə iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsi. Bakı: 2003, 315 s.
2. Kərimli V.B. Aqrar sahədə strateji menecment. Bakı: 2018,150 s.
3. İbrahimov İ.H. Aqrar sahənin iqtisadiyyatı. Bakı: 2016, 653 s.
4.Əhmədov İ.V. Kənd təsərrüfatının idarəedilməsi. Bakı: 2006, 880 s.
5. Əlirzayev Ə.Q. Sosial sferanın iqtisadiyyatı və idarəedilməsi. Bakı: 2010, 450 s.
6. Kəlbiyev Y.A. Fiskal siyasət və milli iqtisadiyyatın tənzimlənməsi problemləri. Bakı: 2006, 468 s.
7. Qurbanzadə A.A. Aqrar strukturun regional inkişaf modeli. Bakı: 2004, 438 s
8. Heydər Əliyev. Azərbaycan SSR kənd təsərrüfatının və bütün iqtisadiyyatın daha dinamik inkişafını təmin etməli.Bakı: Azərnəşr, 1979, 155 səh.

## SUMMARY

**Dilsuz Kassumov**

**THEORETICAL AND METHODOLOGICAL ASPECTS OF ECONOMIC MANAGEMENT MECHANISMS IN AGRICULTURE**

The management system as an element of the essence is an economic tool for the survival of the economy, a multifaceted process carried out taking into account the purposeful, scientific, strategic points necessary by methods, and includes economic and social processes. The main purpose of the economic management mechanism is an interconnected system that reflects certain dimensions and key factors. The economic mechanism, previously considered as an element of the economic management mechanism, is in fact a matter of administrative command, planning, pricing, management, and so on. Because it is centralized, it is valued as a set of management tools, methods and forms that affect the implementation of economic activities, the achievement of current and strategic goals. From this point of view, the essence of the mechanism of economic management in the agrarian sphere, theoretical issues and features of its formation, directions of its improvement, international experience in this field have been studied in the scientific research work.

***Key words:*** *agrarian field, agrarian policy, management, management system, management mechanism, theoretical and methodological aspects.*



## РЕЗЮМЕ

**Дилсуз Касумов**

**ТЕОРЕТИКО-МЕТОДОЛОГИЧЕСКИЕ АСПЕКТЫ МЕХАНИЗМОВ ЭКОНОМИЧЕСКОГО УПРАВЛЕНИЯ В СЕЛЬСКОМ ХОЗЯЙСТВЕ**

Система управления как важнейший элемент представляет собой экономический инструмент выживания экономики, многогранный процесс, осуществляемый с учетом целенаправленных, научных, стратегических аспектов, необходимых по методам, и включает в себя экономические и социальные процессы. Основное назначение механизма управления экономикой - это взаимосвязанная система, отражающая определенные аспекты и ключевые факторы. Экономический механизм, ранее считавшийся элементом механизма управления экономикой, на самом деле является вопросом административного управления, планирования, ценообразования, управления и так далее. Поскольку он централизован, он ценится как набор инструментов, методов и форм управления, влияющих на осуществление хозяйственной деятельности, достижение текущих и стратегических целей. С этой точки зрения в научно-исследовательской работе изучены сущность механизма управления экономикой в аграрной сфере, теоретические вопросы и особенности его формирования, направления его совершенствования, международный опыт в этой сфере.

***Ключевые слова:*** *аграрное поле, аграрная политика, менеджмент, система менеджмента, механизм управления, теоретико-методологические аспекты.*



***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*
***Məqalə daxil olmuşdur:*** *4 noyabr 2021-ci il*
***Çapa qəbul edilmişdir:*** *2 dekabr 2021-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2021, № 2 (111), 136-142
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2021, № 2 (111), 136-142
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2021, № 2 (111), 136-142

**CEYHUN MAHMUDOV**
*ceyhun.ilhamoglu@gmail.com*
**FƏRMAN RƏSULOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 332.1**

# DÖVLƏTİN İQTİSADİYYATDAKI ROLU: NƏZƏRİ-KONSEPTUAL YANAŞMALAR VƏ TƏKAMÜL MƏRHƏLƏSİ

*Məqalədə dövlətlə iqtisadiyyat arasındakı qarşılıqlı əlaqələr, başqa sözlə desək, dövlətin iqtisadiyyatdakı rolu retrospektiv baxımdan araşdırılmış, merkantilizm, fiziokrat, klassik, keyns, neoklassik və neokeynsçi məktəblərin nümayəndələrinin dövlətin iqtisadi tənzimləmə prosesindəki rolu və yeri barədə yanaşma və baxışları təhlil edilmiş, dövlətin iqtisadiyyata müdaxiləsinin sərhədləri məsələsinin təkamülü prosesi nəzərdən keçirilmişdir.*

*Elmi məqalədə, həmçinin qloballaşma prosesi ilə bağlı olaraq iqtisadi münasibətlər sistemində baş verən dəyişikliklər fonunda dövlətin iqtisadi funksiyalarının genişlənməsi prosesi mərhələlərə bölünmüş, dövlətin iqtisadiyyatın idarə edilməsindəki iştirakı yolları tədqiq edilmiş, dövlətin həyata keçirdiyi struktur siyasət axınları öyrənilmişdir.*

*Məqalədə tədqiqat obyektinin aktuallığı bir sıra aspektdən əsaslandırılmış, xüsusilə iqtisadiyyatın dövlət tənzimlənməsinin konseptual əsaslarının transformasiyasında, tənzimləmə istiqamətləri, formaları və üsullarındakı dəyişikliklərdə özünü göstərən, əhəmiyyətli dəyişikliklərə məruz qalan milli dövlətlərin struktur siyasətinin böyük önəm daşıması şərh edilmişdir.*

*Məqalədə, nəticə etibarilə, dövlətin iqtisadi artım mənbəyi kimi yox, iqtisadi münasibətlərdə tərəfdaş, köməkçi və katalizator rolunda çıxış etməsi qənaətinə gəlinmiş, dövlətin iqtisadiyyatdakı rolunun üç başlıca problemin – səmərəliliyin, sosial ədalətin və sabitliyin təmin edilməsi məsələsinin həllinə yönəldilməsi vurğulanmışdır.*

***Açar sözlər:*** *dövlət, dövlətin struktur siyasəti, iqtisadiyyatın dövlət tənzimlənməsi, dövlət müdaxiləsi sərhədləri, dövlətin iqtisadi funksiyaları.*

Günümüz reallığında milli iqtisadiyyatların qloballaşma nəticəsində dünya iqtisadiyyatına inteqrasiya etdiyi və nəticə etibarilə milli iqtisadiyyatların açıq bir sistemə çevrildiyi bir şəraitdə dövlətin iqtisadi funksiyalarının müəyyən dəyişikliklərə məruz qalmaması qeyri-mümkündür. Lakin bu dəyişikliklər iqtisadiyyatın tənzimlənməsində milli hökumətlərin rolunun azaldığını ifadə etmir. Qeyd edək ki, açıq iqtisadiyyat şəraitində dövlətin tənzimləyici və ya təsiredici rolu qalır. Lakin bu zaman dövlətin iqtisadiyyatdakı rolu əhəmiyyətli dərəcədə dəyişikliklərə məruz qalır.

İnsan cəmiyyətinin inkişafı tarixi göstərir ki, müəyyən bir ərazidə birlikdə yaşayan əhalinin ümumi iradəsini əks etdirən dövlət bir qurum kimi yarandığı gündən bəri həmişə siyasi funksiya ilə yanaşı, bir sıra sosial və iqtisadi funksiyaları yerinə yetirmişdir. Belə ki, tarixi inkişafın istənilən mərhələsində dövlət iqtisadi fəaliyyətlə məşğul olmuş, sahibkarlıq subyektlərinin fəaliyyətinə müdaxilə edərək siyasi hakimiyyətinin sabitliyini təmin etmişdir. Qeyd edək ki, müxtəlif dövrlərdə və ayrı-ayrı ölkələrdə bu cür müdaxilələr əhəmiyyətli dərəcədə bir-birindən fərqlənmişdir. Bu da, əsasən, ölkələrin iqtisadi inkişaf səviyyəsindən və dövlətlərin qarşısında ən kəskin şəkildə dayanan vəzifələrdən asılı olmuşdur. Real vəziyyətin müxtəlifliyi həm yerli, həm də xarici ədəbiyyatlarda dövlətlə iqtisadiyyat arasındakı əlaqələr haqqında müzakirələrə səbəb olmuşdur. Bəzən bu müzakirələr zamanı gah iqtisadiyyata dövlətdən və siyasətdən daha çox üstünlük verilir, gah da əksinə

dövlət və siyasətin iqtisadiyyatdan öndə dayandığı bildirilirdi. Üçüncü tərəfə mənsub iqtisadçılar dövlətlə iqtisadiyyat arasındakı münasibətlərdə müəyyən bir paritet görürdülər. Belə ki, bu yanaşmanın tərəfdarları hesab edirdilər ki, dövlətin iqtisadiyyata göstərdiyi təsiri iqtisadiyyat, öz növbəsində, dövlətə göstərmək qabiliyyətindədir.

Hal-hazırda bir faktı qeyd edək ki, iqtisadi inkişaf nəticə etibarilə siyasi, ideoloji və mənəvi inkişafın əsas tendensiyalarını və istiqamətlərini müəyyən edir. Marksizmin tənqidçilərindən biri olan İ.V.Mixaylovski yazırdı ki, "İqtisadi materializm tarixdə, dövlət və hüquqda iqtisadiyyatın əhəmiyyətini vurğulayanda həqiqəti təsdiq edir. Lakin dövlət digər faktların müstəqilliyini inkar edəndə tamamilə yanılır" [6, səh.108].

Ən ümumi mənada müasir dünyamızda iqtisadiyyatla dövlət arasındakı əlaqə məsələsi həll edilmişdir. Əlbəttə ki, iqtisadiyyatın dövlətə əhəmiyyətli təsiri var. Amma dövlət sahibkarlıq subyektlərinin fəaliyyətinə müdaxilə etməklə iqtisadiyyata təsir edir. Parantez açaraq bir faktı qeyd edək ki, uzun bir tarixi olan dövlətin iqtisadiyyata müdaxiləsinin sərhədləri məsələsi mübahisəli bir məsələ olaraq qalmaqdadır.

Dövlətin iqtisadi tənzimləmə prosesindəki rolu və yeri haqqında ilkin, əsaslı fikirlər XVII-XVIII əsrlərdə formalaşmağa başlamışdır. Belə ki, XVII-XVIII əsrlərdə insanlar arasında sərbəst mübadilə mexanizminin formalaşmasına, burjua cəmiyyətinin və bazar iqtisadiyyatının meydana gəlməsinə şərait yaradan sosial, iqtisadi və siyasi institutlar formalaşmağa və inkişaf etməyə başladı.

Qeyd edək ki, ilkin kapital yığımı dövründə dövlətin iqtisadi siyasəti merkantilizm nəzəriyyəsinə söykənirdi. Hələ XV-XVII əsrlərdə erkən merkantilistlər (U.Stafford, G. Skaruffia) dövlətin fəal iqtisadi siyasətinə ehtiyac olduğunu əsaslandırırdılar. Belə ki, merkantilistlər sərvəti pulla təsbit etdikləri və ya pula bərabər tutduqları üçün pul sərvətinin toplanmasının yolunu yalnız dövlət siyasətinin köməyi ilə pulu ölkədə saxlamaqla (pulun xaricə çıxarılmasının qadağan edilməsi, valyuta ticarətinə dövlət inhisarının tətbiqi, xarici mal ticarəti üçün "saxlama yerləri"nin yaradılması və s.) mümkün olduğuna inanırdılar.

XVI-XVII əsrlərdə sonrakı nəsil merkantilistlər (T.Men, A.Sera və başqaları) iddia edirdilər ki, dövlət nə qədər çox zəngindirsə, bir o qədər daha çox ixrac və daha az idxal edir. Bu zaman bu iqtisadçılar tərəfindən belə bir prinsip irəli sürülürdü: "bir ölkədən ucuz almaq, digərinə daha baha qiymətə satmaq. Aktiv ticarət balansı yaratmaq və xarici bazarları ələ keçirmək üçün hökumət xarici mallara rüsum tətbiq etməklə və ixracı təşviq etməklə idxalını tənzimləməli, xüsusən də məhsulları xarici bazarlarda ən çox tələb olunan sahibkarlara mükafatlar verməlidir.

Aktiv ticarət anlayışı ilə xarakterizə olunan merkantilizm aşağıdakı iqtisadi tənzimləmə metodlarından istifadə edilməsini nəzərdə tuturdu:

- ticarət balansının tənzimlənməsi;
- milli sənayenin təşviqi;
- əmək haqqının məhdudlaşdırılması və əməyin müsabiqə əsasında fərqləndirilmiş ödənişinin tətbiqi;
- dövriyyədə pul tapmağa xüsusi diqqətin yetirilməsi;
- milli malların ixracına məcbur etmək dərəcəsi [5, səh. 57-58].

Qeyd edək ki, merkantilizm ideyaları müasir dövrümüzdə hələ də dövlətin iqtisadi siyasət alətlərindən biri olan dövlətin proteksionizm siyasətinin nəzəri əsaslarını təşkil edir.

Bildiyimiz kimi, XVIII əsrin sonu - XIX əsrin əvvəllərində sürətlə inkişaf edən sənaye kapitalı dövlət hakimiyyətinin nəzarətindən çıxmağa və iqtisadi liberalizm ideyaları iqtisadi nəzəriyyədə hakim mövqe tutmağa başlamışdı. Bu fikirlərin yaranmasına fiziokrat məktəbinin nümayəndələrinin baxışlarının yayılması şərait yaratmışdı. Belə ki, fiziokrat məktəbinin ən görkəmli nümayəndəsi Fransua Kene qeyd edirdi ki, dövlətin iqtisadi siyasəti müstəsna olaraq kənd təsərrüfatının inkişafına yönəlməlidir. Çünki real məhsul məhz kənd təsərrüfatında yaranır. Fransua Kene tərtib etdiyi iqtisadi cədvəlində ədədi nümunə və qrafikin köməyi ilə kənd təsərrüfatının ümumi və xails məhsulunun cəmiyyətin üç sinfi – məhsuldar təbəqə (kənd təsərrüfatında çalışanlar və kəndlilər), xalis məhsul əldə edən sahibkarlar və qeyri-məhsuldar təbəqə (sənayedə çalışanlar) tərəfindən natura və pul formasında

dövr etdirildiyini göstərmişdir. Parantez açaraq qeyd edək ki, əslində Fransua Kene xalq təsərrüfatı nisbətlərinin və ya proporsiyalarının təmini ideyasını əsaslandırmışdı.

İqtisadi liberalizm ideyaları ən dolğun şəkildə öz ifadəsini siyasi iqtisad klassiklərinin - A.Smitin (1723-1790) və D.Rikardonun (1772-1823) əsərlərində tapmışdır. Onların təlimlərinin əsasında insanların iradəsi və şüurundan asılı olmayaraq təbiət qanunları kimi fəaliyyət göstərən iqtisadi qanunlar dayanırdı. A.Smit hesab edirdi ki, iqtisadiyyatda dövlət müdaxiləsi olmadan "təbii harmoniya"nın yaranması bazar iqtisadi sisteminin optimal fəaliyyət rejimidir. A.Smit bu cür harmoniyanı "görünməz əl" və azad rəqabət prinsiplərinin nəticəsi adlandırmışdır. Məhz bu prinsip gələcəkdə azad sahibkar kapitalizminin nəzəri əsasını təşkil etmişdir [1].

A.Smit öz ideyasının əsasını bu cür formalaşdırmışdır: "Dövləti barbarlığın (vəhşiliyin) ən aşağı səviyyəsindən ən yüksək rifah səviyyəsinə yüksəltmək üçün yalnız sülhə, yüngül vergilərə və idarəetmədə tolerantlığa ehtiyac vardır. Qalan hər şeyi işlərin təbii gedişatı edəcəkdir" [10, səh. 180]. Bu cür yanaşmanın siyasi ifadəsi öz əksini dövlət funksiyalarını bazar iqtisadiyyatının fəaliyyət göstərməsi üçün şəraitin təmin edilməsinə qədər azaldan "gecə gözətçisi" və ya "minimal dövlət" adlandırılan nəzəriyyədə tapmışdır.

A. Smit qeyd edirdi ki, "Dövlətin məsuliyyəti elə ictimai institutların və ictimai işlərin yaradılmasından ibarətdir ki, bütövlükdə cəmiyyət üçün faydalı olsun. Kiçik bir qrupun və ya hər hansı bir fərdin xərclərini öz mənfəəti ilə ödəyə bilməsin. Ona görə də ictimai institutların qurulması və ya saxlanılmasını hər hansı bir fərddən və ya kiçik qrupdan gözləmək olmaz" [7, səh. 258-259].

A.Smit və D.Rikardo bütün ölkələr və xalqlar üçün azad ticarət siyasətinin ən ideal və faydalı olduğunu vurğulayaraq bu siyasətin dövlət tərəfindən həyata keçirilməsinin zəruriliyini əsaslandırırdılar. A.Smit və D.Rikardo dövlətin sturktur iqtisadi siyasətinin aşağıdakı istiqamətlərdə həyata keçirilməsini məqsəduyğun hesab edirdilər:

- iş qüvvəsinin hərəkətliliyini məhdudlaşdıran bütün tədbirlərin ləğvi;
- torpaq ticarətinə tam azadlığın verilməsi;
- sənaye və daxili ticarətlə bağlı mövcud dövlət tənzimləmələrinin ləğvi [1, səh.67].

Lakin XIX əsrin ikinci yarısında iqtisadi münasibətlər sistemində baş verən keyfiyyət dəyişiklikləri sərbəst, qeyri-məhdud rəqabət və dövlətin müdaxiləsindən azad bazar haqqında bir çox fikirləri şübhə altına aldı. Burada söhbət kapitalın təmərküzləşməsi və mərkəzləşdirilməsi prosesinin güclənməsindən və bu əsasında iri korporasiyaların yaranmasından gedir. Böyük iqtisadi gücə malik olan iri korporasiyalar, son nəticədə, azad bazar sisteminin fəaliyyətini sarsıtdılar. Məlum oldu ki, iri korporasiyalar bəzi problemləri həll etməklə yanaşı, daha ciddi və ölkə iqtisadiyyatı üçün çox təhlükəli problemlərin yaranmasına səbəb olur.

XIX əsrin ikinci yarısında iqtisadi münasibətlər sistemində baş verən dəyişikliklər fonunda dövlətin iqtisadi funksiyalarının genişlənməsi baş verdi. Belə ki, XIX əsrin sonlarından XX əsrin sonuna qədər dövlətin iqtisadi funksiyalarının genişlənməsi bir neçə mərhələdən keçmişdir. Birinci mərhələ I Dünya müharibəsindən başlayaraq 1929-1933-cü illərin Böyük Depressiyasına qədər dövrü əhatə edir. Bu dövrdə rəqabət aparan təsərrüfat subyektlərinin qüvvələr balansını kəskin şəkildə pozan özəl iqtisadi kapitalizmin müxtəlif tipli inhisarçı birliklərin formalaşması mərhələsinə aktiv daxil olması prosesi gedir. Ona görə də bu dövrdə dövlət iqtisadi proseslərin tənzimlənməsinə fəal şəkildə müdaxilə etməyə başlayır, inhisarçılıq meyllərini məhdudlaşdırmağa çalışır, iqtisadiyyatda dövlət sektoru yaradır. Lakin bu müdaxilə əsasən hərbi istehsal sahələri ilə məhdudlaşır. Qeyd edək ki, bu dövrdə digər sektorlarda özəl kapitalist idarəetmə üsulları üstünlük təşkil etməkdə davam edirdi.

İkinci mərhələ 1929-1933-cü illərin Böyük Depressiyasından sonra başlamış və II Dünya Müharibəsinə qədər davam etmişdir. Məhz bu dövrdə dövlətin bazar iqtisadiyyatının idarə olunmasında daimi və fəal iştirakı sistemi formalaşmışdır. Belə bir sistemin formalaşmasına ingilis iqtisadçısı C.M.Keynsin "Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi" (1936) adlı kitabında irəli sürdüyü ideyaları böyük təsir göstərmişdir. Bu dövrdə iqtisadiyyatın dövlət tənzimlənməsinin formaları və planlaşdırma elementləri inkişaf etdi. Başqa sözlə desək, dövlətin struktur siyasətinin həyata keçirilmə alətləri meydana gəldi. Bu cür siyasət öz təcəssümünü dövlət əmlakının və dövlət

büdcəsinin həcminin artmasında tapdı. Artan dövlət büdcəsi gəlirlərindən təkcə dövlət aparatının saxlanması üçün deyil, həm də ictimai və özəl fəaliyyətlərin maliyyələşdirilməsi üçün istifadə olunmağa başlandı. Bu mərhələdə dövlət makroiqtisadi proporsiyaları tənzimləmək üçün bürcə-vergi siyasəti ilə yanaşı, kapital qoyuluşunun stimullaşdırılmasına və sosial problemlərin həllinə yönəlmiş pul-kredit siyasətindən də fəal şəkildə istifadə edir.

Bu şəraitdə nəticə etibarilə "qarışıq" iqtisadiyyat nəzəriyyəsi formalaşır və Keynsçilik iqtisad elmində hakim mövqe tutur. Məhz Keyns istiqaməti çərçivəsində ilk dəfə sübut edilmişdir ki, bazar iqtisadiyyatı özəl investisiyaların qeyri-sabitliyi səbəbindən daxilən qeyri-stabildir və bu da öz növbəsində gəlirlərin və məşğulluğun qeyri-sabitliyinə səbəb olur. Bu şərtlərdə dövlət xərcləri və vergilər özəl sektorun dəyişkənliyini və ya qeyri-stabilliyini kompensasiya edə, gəlir və məşğulluq axınını sabitləşdirə və multiplikator effekti sayəsində iqtisadi artımı təmin edə bilər. C.M.Keynsin fikrincə, dövlət fiskal və pul alətləri vasitəsilə manevretmə siyasətini həyata keçirərək iqtisadiyyatı yüksəliş mərhələsində "böhran"dan mühafizə edə və istehsalın qaçılmaz (gözlənilən, proqnozlaşdırılan) azalması halında onu stimullaşdıra bilər [3, səh. 376-378].

C.M.Keynsə görə, məhz dövlət fəal sosial-iqtisadi siyasət vasitəsilə tələb həcminə təsir göstərə bilər. Keynsin fikrincə, dövlət məcmu tələbi dövlət xərclərinin artırılması və investisiyaların stimullaşdırılması hesabına artıra bilər. C.M.Keyns dövlət müdaxiləsinin başlıca vəzifəsini asılı olmayan dəyişənlərə və onlar vasitəsilə məşğulluğa və milli gəlirə təsir etməkdə görürdü. C.M.Keyns pul-kredit və büdcə siyasətini tələbin səmərəliliyinin artırılması və investisiyaların stimullaşdırılmasının ən mühüm amili kimi nəzərdən keçirirdi [4].

Üçüncü mərhələ İkinci Dünya müharibəsindən sonra başlayır və 50-ci illərin ortalarına qədər davam edir. Əvvəlki mərhələdən fərqli olaraq bu mərhələdə antitsiklik siyasət iqtisadi artım templərini stimullaşdıran tədbirlər sistemi ilə tamamlanır. Bu dövrdə dövlət ən mühüm sənaye sahələrinin inkişafında, iqtisadi və sosial infrastrukturun yaradılmasında fəal iştirak edirdi. Həmçinin dövlətin rolu öz əksini neokeynsçi məktəbin nümayəndələrinin əsaslandırdığı büdcə siyasəti ilə pul-kredit siyasətinin ahəngini özündə əks etdirən makroiqtisadi siyasət konsepsiyasında tapmışdır. Bu siyasət aşağıda göstərilən məqsədlərə nail olmaq üçün kompromisin əldə edilməsini nəzərdə tutur:

- yüksək məşğulluq səviyyəsi;
- aşağı inflyasiya tempi;
- iqtisadi sabitlik;
- yüksək iqtisadi artım tempi;
- tədiyyə balansının tarazlığı və valyuta məzənnəsinin sabitliyi.

Bu siyasətdə iqtisadi tsiklin sabitləşdirilməsinə xüsusi yer ayrılırdı. Sübut olunurdu ki, aşağı bazar konyukturası və istehsalın azalması şəraitində dövlətin iqtisadi siyasəti dövlət xərclərini artırmaq və vergiləri azaltmaqla məcmu tələbin genişləndirilməsinə yönəldilməlidir. Bu cür siyasət "ekspansionist fiskal siyasət" adını aldı. Yüksək bazar konyukturası şəraitində dövlətin sosial-iqtisadi siyasəti dövlət xərclərinin azaldılması və vergilərin artırılması yolu ilə məcmu tələbin saxlanmasına və azaldılmasına yönəldilmişdi. Dövlətin bu cür fiskal siyasəti məhdudlaşdırma siyasətidir. Beləliklə üçüncü dövrdə bu gün çoxlarının "kapitalizmin qızıl dövrü" adlandırdığı növbəti mərhələ üçün lazımi ilkin şərtlər yaradılmışdır.

50-ci illərin ortalarından başlayıb 70-ci illərin ortalarına qədər davam edən dördüncü mərhələdə dövlətin başlıca məqsədi tam məşğulluğun, qiymət sabitliyinin və ödəniş balansının tarazlığının təmini idi. Bu dövrdə dövlət təkcə iqtisadi deyil, həm də sosial münasibətlərin tənzimlənməsinə müdaxilə edirdi və Qərbi Avropa ölkələrində dövlətin struktur siyasətinin yeni axını – sosial dövlət ideologiyası formalaşırdı. 50-70-ci illərdə dövlətin sosial rifah siyasəti dövlətin təhsil, səhiyyə, mənzil tikintisi sistemi yaratması yolu ilə əhalinin yüksək həyat səviyyəsinə nailolma proqramlarını, habelə minimum əmək haqqını tənzimləyən sosial təminat proqramını ehtiva edirdi. Sonralar bu siyasətə milli mədəniyyətin qorunması, demoqrafik və ekoloji proqramlar və s. əlavə olunmuşdur.

Bu dövrdə hesab olunurdu ki, dövlətin iqtisadi həyatda fəal iştirakı sadəcə zəruridir və belə

iştirak artıq sosial inkişafın ayrılmaz elementi hesab olunurdu. Dövlət müəssisələri Avropa iqtisadiyyatının müxtəlif sahələrində - nəqliyyat sektoru (Böyük Britaniya) və avtomobil sənayesindən (İtaliya, Fransa) reklama (Fransa) qədər sahələrdə uğurla fəaliyyət göstərirdilər. Hətta ABŞ-da əksəriyyətin azad sahibkarlıq prinsiplərinə qeyri-şərtsiz riayət etdiyi bir şəraitdə bir çoxları dövlətin sosial və siyasi proseslərə aktiv tənzimləyici müdaxiləsini zərurət kimi qəbul etməyə başladılar. 1970-ci illərin sonunda əksər inkişaf etmiş ölkələrdə ÜDM-yə nisbətdə ümumi dövlət xərcləri çox böyük ölçülərə çatdı. Belə ki, bu göstərici İsveç və Danimarkada 57%, İtaliya və Yunanıstanda 46-47%, Almaniyada, Kanada və İrlandiyada 42%, Böyük Britaniya, Portuqaliya və Finlandiyada 37%, ABŞ-da 34% və Yaponiyada 28%-ə qədər yüksəlmişdi [9, səh.148].

Lakin bu vəziyyət uzun sürmədi. 70-ci illərin ikinci yarısında, daha dəqiq desək, 1974-1975-ci illərin iqtisadi böhranından sonra vəziyyət əhəmiyyətli dərəcədə dəyişdi. İqtisadiyyatın makroiqtisadi səviyyədə tənzimlənməsinin Keyns reseptlərinin universal olmadığı, 70-80-ci illərin tsiklik və enerji böhranlarını aradan qaldıra bilmədiyi aydın oldu. Odur ki, "rifah dövləti" ideologiyası "effektiv dövlət" ideologiyası ilə əvəz olundu. Bu ideologiyaya uyğun olaraq dövlətin iqtisadiyyatdakı rolu və həyata keçirdiyi struktur siyasəti yeni formada təqdim edildi.

Nəticə etibarilə dövlət iqtisadi artım mənbəyi kimi yox, iqtisadi münasibətlərdə tərəfdaş, köməkçi və katalizator rolunda çıxış etməlidir ki, bu da qaçınılmaz olaraq iqtisadi mexanizmdə dövlət və özəl təsərrüfatlar, bazar prinsipləri arasındakı nisbətə, qarışıq iqtisadiyyatın strukturunun tərkib elementlərinin optimallaşdırılmasına köklü şəkildə baxılmasını tələb edirdi. Məhz bu ideyaların təsiri altında 80-ci illərdə əksər inkişaf etmiş ölkələri dövlət müəssisələrinin özəlləşdirilməsi dalğası bürümüş, dövlətin iqtisadi funksiyaları, bazar subyektlərinin davranışını tənzimləyən hüquqi normalar və bazar iqtisadiyyatının ümumi hüquqi qaydalarının işlənib hazırlanmasında dövlətin rolu azaldılmışdır.

Özəlləşdirmənin zəruriliyinin və dövlətin sosial-iqtisadi funksiyalarının məhdudlaşdırılmasının nəzəri əsaslandırılmasında M.Fridmanın 1962-ci ildə nəşr olunmuş "Kapitalizm, azadlıq və demokratiya" adlı klassik əsəri mühüm rol oynamışdır. Bu əsərdə M.Fridman dövlətin iqtisadiyyatdakı rolunun səmərəsizliyini əsaslandırmış, dövlət və özəl inhisarlar arasında oxşarlıq olduğunu və onların hər ikisinin iqtisadi inkişafa eyni dərəcədə mənfi təsir göstərdiyini qeyd etmişdir. M.Fridmanın fikrincə, iqtisadiyyatın dövlət tənzimlənməsi anti-istehlakçı xarakter daşıyır. M.Fridman bu fikrini belə əsaslandırırdı ki, qanunvericilik aktları və dövlətin müvafiq sosial-iqtisadi proqramları əsasən iri kapitalın təsiri altında və onun maraqlarına uyğun qəbul edilir ki, bu da bazarda rəqabəti zəiflədir və nəticədə istehlakçı bundan əziyyət çəkir. M.Fridman hesab edirdi ki, dövlət öz öhdəliklərini bazar mexanizmləri vasitəsilə özəl institutların köməyi ilə həyata keçirməlidir. Məsələn, təhsil sahəsində o, ilk olaraq tələbələrin valideynlərinə dövlət tərəfindən verilən və onlara müəyyən zəmanətli minimum təhsil səviyyəsinə görə ödəniş etmək hüququ verən, sonra isə özəl və ya dövlət məktəblərində keyfiyyətli təhsil almaq üçün istifadə olunarsa, dövlət tərəfindən ödənilən vauçerin tətbiqini təklif etdi [8].

M.Fridman kimi neoklassik məktəbin digər nümayəndələri (A.Marşall, E.Çemberlin, L.Mizes, F.Hayek və s.) də dövlətin iqtisadiyyata birbaşa müdaxiləsini qəbuledilməz hesab edirdilər. Onların fikrincə, bu bazar sisteminin özünütənzimləmə qabiliyyətinin məhvinə aparıb çıxarır. Neoklassik məktəbin nümayəndələrinin fikrincə, dövlətin rolu qanunu və asayişi qorumaqdan ibarət olmalıdır. Dövlət yalnız mülkiyyət hüquqlarının müdafiəsi, rəqabətin qorunması ("Çikaqo məktəbi"), sağlam, qeyri-inflyasiyalı pul dövriyyəsinin təmin edilməsi (monetarizm), sahibkarlığı stimullaşdıran vergi siyasətinin həyata keçirilməsi (təklif iqtisadiyyatı) prosesində iştirak etməlidir.

Neoklassiklərdən fərqli olaraq, neokeynsçi məktəbin nümayəndələri hesab edirlər ki, bazar mexanizmləri öz-özlüyündə bir çox problemləri effektiv həll edə bilməz. Belə ki, bazarda "bazar uğursuzluqları və qüsurları" deyilən hallar mövcuddur və məhz bu baxımdan müasir bazar münasibətləri qarışıq iqtisadi sistem formasında təşkil edilməlidir. "Bazar uğursuzluqları və qüsurları" dedikdə, bazar iqtisadi sisteminin resursların səmərəli bölüşdürülməsinin öhdəsindən gələ bilməyəcəyi şərtlər toplusu başa düşülür. Bu qüsurlara təbii inhisarlar, ictimai mallar, asimmetrik

bazarlar və bazar iqtisadiyyatı şəraitində gəlirlərin qeyri-bərabər bölgüsü daxildir.

Bazar iqtisadiyyatında təbii inhisarlar rəqabət aparan firmaların mövcud olmasının iqtisadi cəhətdən qeyri-mümkün olduğu yerlərdə yaranır. Təbii inhisarlara, məsələn, şəhər su təchizatı, qaz və enerji təchizatı daxildir. Təbii inhisar sahələrində fəaliyyət göstərən müəssisələrdə istər-istəməz inhisarçılıq istəkləri yaranır ki, bu da ilk növbədə qiymət artımlarında özünü göstərir. Ona görə də dövlət təbii inhisarların davranışını tənzimləməyə məcburdur. Çox vaxt belə tənzimləmə iki formada həyata keçirilir:

1. qiymətə nəzarət yolu ilə;
2. təbii inhisar sahələrinin milliləşdirilməsi və bu əsasda iqtisadiyyatın dövlət sektorunun formalaşdırılması yolu ilə.

Əgər dövlət ikinci yolu seçirsə, bu zaman təbii ki, dövlət mülkiyyətinin həcminin artması müşahidə olunur.

Müasir dövrün sosial-iqtisadi münasibətlərinin elmi təhlili göstərir ki, iqtisadiyyat özünü tənzimləyən bazar sistemi deyil, iqtisadi subyektlərin davranışının dövlət tərəfindən şüurlu şəkildə tənzimlənməsi prosesini ifadə edən "görünən əlin" olması dövlətin struktur siyasətində və tənzimləmə mexanizmində getdikcə daha çox hiss olunur. Eyni zamanda, dövlətin iqtisadiyyat və cəmiyyətdəki rolundan ümumi olaraq deyil, ölkədəki sosial-iqtisadi və siyasi vəziyyətdən, keçmiş ənənə və təsəvvürlərdən, hökm sürən siyasi münasibətlərdən, habelə ölkənin qarşısında duran vəzifələrdən çıxaraq danışmaq lazımdır. Özəl sektorun təmin edə bilmədiyi əmtəə və xidmətlərin təqdim edilməsi zərurətindən çıxaraq dövlətin rolunun artırılması əhalinin müxətlif qruplarının demokratik tələbləri ilə diktə olunursa, o zaman dövlətin rolunun gücləndirilməsinin əsaslı səbəbləri var. Əgər dövlətin funksiyalarının genişlənməsi cəmiyyətin innovasiya qabiliyyətini və iqtisadi artımı təhrif edirsə, dövlət iqtisadi elitanın ayrı-ayrı nümayəndələrini cəmiyyətin zərərinə himayə etməyə çalışırsa, öz mənafeyinə görə bir növ özünü təmin edən struktur kimi fəaliyyət göstərməyə başlayırsa, dövlət institutlarının fəaliyyəti bilavasitə cəmiyyətə ziyan vurursa, onda dövlətin funksiyalarının genişləndirilməsi arzuolunmazdır.

Əskər ölkələrin inkişaf tarixi göstərir ki, dövlət iqtisadi inkişafın sürətləndiricisi və ya əsas sosial problemlərin həlledicisi rolunda çıxış edərək çox mühüm struktur siyasəti uğurla yerinə yetirir. Lakin bəzən dövlət öz uğurlarının əsiri olaraq bir faktı unudur ki, iqtisadiyyata dövlət müdaxiləsi xərcləri artıq milli iqtisadiyyata dövlət dəstəyinin və milli məhsulun ayrı-ayrı sosial qrupların xeyrinə yenidən bölüşdürülməsinin faydalarından üstün olmağa başlayır.

Məhz bu baxımdan, fikrimizcə, H.B.Allahverdiyev, K.S.Qafarov və Ə.M.Əhmədovun gəldikləri elmi nəticəyə əsaslanaraq qeyd edə bilərik ki, dövlətin iqtisadiyyatda rolu, başqa sözlə desək, dövlətin həyata keçirəcəyi struktur siyasəti əsasən üç başlıca problemin - səmərəlilyin, sosial ədalətin və sabitliyin təmin edilməsinə yönəldilməlidir. Bununla dövlət bazar iqtisadiyyatının çatışmazlıqlarının aradan qaldırılmasına və onun tamamlanmasına xidmət etmiş olar [2, səh. 97].

## ƏDƏBİYYAT


1. Adam Smit. Xalqların sərvəti / tərcümə. Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2010, 827 səh.
2. Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov Ə.M. Milli iqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları. Dərslik, Bakı: 2006, 834 səh.
3. İqtisadi təlimlər tarixi. M.X.Meybullayevin elmi redaktəsi ilə. Dərslik, Bakı: 2002, 537 səh.
4. Keyns C.M. Məşğulluq, mənfəət və pulun ümumi nəzəriyyəsi. Bakı: 2001
5. Бартенев С.А. История экономических учений. Москва: Юристь, 2002
6. Михайловский И.В. Очерки философии права. Т1, Томск, 1914
7. Смит А. Исследование о природе и причинах богатства народов. Т.1, М-Л, Гос. соц. экон. изд., 1935, 371 стр.
8. Фридман М. Капитализм, свобода и демократия. Пер. с англ. Москва: 1998
9. Экономика США. Учебник для вузов / Под ред. В.Б. Супяна. СПБ., Питер, 2003
10. Jozeph A.Schumpeter. History of economic analysis. New York: 1954, 1186 page

## SUMMARY

**Jeyhun Mahmudov, Farman Rasulov**

**THE ROLE OF THE STATE IN THE ECONOMY: THEORETICAL-CONCEPTUAL APPROACHES AND EVOLUTIONARY STAGE**

The article studies the interaction between the state and the economy, in other words, the role of the state in the economy from a retrospective point of view, analyzes the approach and views of representatives of mercantilism, physiocratic, classical, Keynesian, neoclassical and neokeynschi schools on the role and place of the state in the process of economic regulation. The paper also considers the process of evolution of the issue of borders of state intervention in the economy.

In the scientific article, the process of expansion of economic functions of the state in the light of changes taking place in the system of economic relations related to the globalization process is divided into stages, ways of participation of the state in the management of the economy are studied, structural policy issues implemented by the state are explored. In the article, the relevance of the research object is substantiated in a number of aspects,

In particular, the great importance of the structural policy of national States, which is manifested in the transformation of the conceptual foundations of state regulation of the economy, changes in the directions, forms and methods of regulation, subject to significant changes, is interpreted.

The article concludes that the state should act not as a source of economic growth, but as a partner, assistant and catalyst in economic relations. It has also been noted that the role of the state in the economy is aimed at solving three main problems - ensuring efficiency, social justice and stability.

***Key words:*** *state, structural policy of the state, state regulation of the economy, borders on state intervention, economic functions of the state*



## РЕЗЮМЕ

**Джейхун Махмудов, Фарман Расулов**

**РОЛЬ ГОСУДАРСТВА В ЭКОНОМИКЕ: ТЕОРЕТИКО-КОНЦЕПТУАЛЬНЫЕ ПОДХОДЫ И ЭТАП ЭВОЛЮЦИИ**

В статье рассмотрены взаимосвязи государства и экономики, иными словами, роль государства в экономике с ретроспективной точки зрения, проанализированы подходы и взгляды представителей меркантилизма, физиократической, классической, кейнсианской, неоклассической и неокейнсианской школ на роль и место государства в процессе экономического регулирования, рассмотрен процесс эволюции вопроса о границах государственного вмешательства в экономику.

В научной статье также был разбит на этапы процесс расширения экономических функций государства на фоне изменений в системе экономических отношений в связи с процессом глобализации, исследованы пути участия государства в управлении экономикой, изучены потоки структурной политики, проводимой государством.

В статье обоснована актуальность объекта исследования в ряде аспектов, в частности, трактуется большое значение структурной политики национальных государств, которая претерпевает значительные изменения, проявляющиеся в трансформации концептуальных основ государственного регулирования экономики, изменении направлений, форм и методов регулирования.

В статье делается вывод о том, что государство выступает не как источник экономического роста, а как партнер, помощник и катализатор в экономических отношениях, подчеркивается направленность роли государства в экономике на решение трех основных проблем – обеспечение эффективности, социальной справедливости и стабильности.

***Ключевые слова:*** *государство, структурная политика государства, государственное регулирование экономики, границы государственного вмешательства, экономические функции государства*



***Məqalə daxil olmuşdur:*** *4 noyabr 2021-ci il*
***Çapa qəbul edilmişdir:*** *2 dekabr 2021-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2021, № 2 (111), 143-148
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2021, № 2 (111), 143-148
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2021, № 2 (111), 143-148

**CAVADXAN QASIMOV**
*cavadxan.yusifoglu@mail.ru*
**MUSTAFA MUSTAFAYEV**
*Naxçıvan Dövlət Universiteti*
*m_mustafa92@mail.ru*

**UOT: 338**

# YENİ İQTİSADİ ŞƏRAİTDƏ İDARƏETMƏ XÜSUSİYYƏTLƏRİNİN ÖYRƏNİLMƏSİ MƏSƏLƏLƏRİ

*Məqalədə bazar münasibətləri şəraitində menecment xüsusiyyətlərinin araşdırlması məsələləri haqqında araşdırmalar aparılmış, onların müasir dövr üzrə xüsusiyyətlərinə nəzər salınmışdır. Əsaslandırılmışdır ki, idarəetmə bazar iqtisadi sisteminin çox mühüm tənzimləmə mexanizmlərindən birini təşkil etməklə, ona olan yanaşmaları da ək etdirməkdədir. İdaretmə daha çox fəaliyyət növü olmaq etibarı ilə insanların, əmək ehtiyatlarının hələ qədimdən düşünüb ortaya qoymuş olduqları və faydalılıqla istifadə etdikləri münasibət formaları olaraq izah olunmuşdur. Bu anlayışın yaranma tarixi ictimai əmək bölgüsünün inkkişafının nəticəsində başqa fəaliyyət növlərindən ayrılaraq, müstəqil bir forma almış, tarix boyunca spesifik xarakterə malik olmuşdur. Eyni zamanda, idarəetmə cəmiyyətin bütün sahələrini əhatə edən çoxcəhətli bir proses olaraq nəzərdən keçirilmişdir. Belə ki, o, siyasi, iqtisadi və dövlət idarəetməsindən ibarət olmaqla, üç bölmədə təsnifləşdirilmişdir.*

***Açar sözlər:*** *idarəetmə xüsusiyyətləri, müassisələrin təşkili və idarə olunması, menecment idarəetməsi, dünya iqtisadiyyatındakı yeni çağırışlar, ictimai əmək bölgüsü və s.*

İnkişafın hazırkı mərhələsində iqtisadi proseslərin düzgün təşkil olunması, onun regional və milli aspektlərdə nəzərə alınması, daha çox iqtisadi resurslardan səmərəli istifadənin şərtləndirilməsi və digər amillər idarəetmə anlayışının çox mühüm tərəflərini özündə əks etdirməkdədir. Bütün dövrlərdə idarəetmə anlayışının elmi əsaslarının yaradılması, onun xüsusiyyətlərinin ortaya qoyulması, mövcud iqtisadi və sosial sferalar üzrə təşəkkül mexanzimlərinin dəyərləndirilməsi iqtisad elminin vacib bildiyi amillərdəndir. Bir sıra ədəbiyyatlarda idarəetmə iqtisadiyyatın bütün bölmələr üzrə təşkilatlanması, qarşıdakı dövrlər üzrə hədəflərinin müəyyən olunması və həmin məqsədlərə nail olmaq sahəsindəki mexanizmləri şərtləndirməkdədir. Belə ki, istər mikro, istər mezo, istərsə də makroiqtisadi sferalarda idarəetmənin mövcudluğunun nəzərə alınması bütün tərəfləri ilə faydalı xüsusiyyətlərin meydana gəlməsinə yol açmaqdadır. Azərbaycan iqtisad elminin inkişafında mühüm xidmətləri olmuş alimlər T.Vəliyevin və Ş.Qafarovun ümumi redaktəsi ilə 2004-cü ildə nəşr olunmuş "İqtisadi nəzəriyyə" adlı dərslikdə göstərilir ki, idarəetmə qarşıya qoyulmuş məqsədə nail olmaq naminə resursların səfərbərliyə alınması və səmərəli istifadə olunması, həmçinin, ictimai əlaqə, qayda və nəzarətin təmin olunmasına yönəldilmiş insan fəaliyyəti növüdür (9, s. 319). Aydın olduğu kimi, idarəetmə də iqtisadiyyatın zəruri məqsədlərindən biri olaraq, insan fəaliyyətini əsas olaraq qəbul edir, onun tənzimlənməsi və bu sahələr üzrə koordinasiyalaşmanı nəzərdə tutmaqdadır.

Hazırkı dövr daha çox elmi araşdırmalara istiqamətlənən, onu şərtləndirən, onunla müşayiət olunan və nəticə etibarı ilə elə onunla da tamamlanan idarəetməyə ehtiyac olduğunu görməkdə, beləliklə də, bütün iqtisadi proseslərin etibarlı bazası olmaqla, elmi araşdırmaları qəbul etməkdəyik. Bir sözlə idarəetməni elmi dayaqlarının olması onun məqsədyönlülüyünü, zəruriliyini və sosial mahiyyət daşımasını əks etdirməkdədir. Nəticə etibarı ilə, idarəetmənin xüsusiyyətləri baxımından yanaşdıqda, onun elmi mahiyyətə malik olduğunu və buna görə də cəmiyyət üzvlərinin elmə

söykənən sosial-iqtisadi münasibətlərinin sintezindən ibarət əsaslarla inkişaf etdiyini qeyd etmək olar. İqtisadçı alim S.İbadovun müəllifi olduğu "İqtisadiyyat (İqtisadi nəzəriyyə, 2009)" dərsliyində göstərilir ki, elmi idarəetmə özünün həm də sosial mahiyyəti ilə bütövlükdə, idarəetmə elminin, digər sosial-iqtisadi elmlərin, təbiət elmlərinin, texniki elmlərin nailiyyətlərindən istifadə etməklə mümkün olur və insanın idarəetmə sahəsindəki fəaliyyətin məqsədyönlü şəkildə olmaqla, qurulmasını və daha fəal olmasını mümkün edir (2, s. 261).

İdarəetmə xüsusiyyətlərinin təsnifləşdirilməsi prizmasından yanaşdıqda, qeyd oluna bilər ki, onun mühüm istiqamətlərindən biri olaraq, təsərrüfat fəaliyyətinin təşkili və idarə olunması məsələləri nəzərdə tutulur. Bu sahədəki proseslərin düzgün təşəkkülü, onun dayanıqlı elmi əsaslarla nizama salınması və çoxistiqamətliliyinin təmin ounması özündə həm də idarəetmənin motodologiyasını ifadə etməkdədir. İqtisadçı alim T.Quliyevin müəllifi olduğu "İdarəetmənin əsasları (1993)" adlı dərslikdə əsaslandırılmışdır ki, iqtisadi idarəetmə metodları təsərrüfatçılığın həyata keçirilməsinə xidmət edir və kompleks idarəçilik funksiyalarının icrası və bağlı olmaqdadır. Ona görə də əslində idarəetmə metodu-idarəçilik fəaliyyətinin icra olunması vasitəsini də ifadə etməkdədir (5, s. 151).

Çoxnövlü mülkiyyət münasibətlərinə əsaslanan və bazar qanunları əsasında idarə olunan müəssisələr idarəetmə anlayışının eyni zamanda, menecment olaraq da ifadə edilməsinə zəmin yaratmışdır. Ötən əsrin 90-cı illərinin əvvəllərində inzibati amirlik idaretməsinin bazar müasibətləri şəraitində təşəkkül tapan idarəetmə xüsusiyyətlərinə keçid etməsi xüsusilə, müasir dövrün menecment dəyərlərini gündəmə gətirməkdədir. T.Quliyevin müəllifi olduğu "Menecmentin əsasları (2006)" adlı dərslikdə (7, s. 25) müasir dövrün menecmentinə aid olan xüsusiyyətləri aşağıdakıları aid etmək olar:

**Sxem 1**

**Müasir dövrdə mövcud olan menecment xüsusiyyətlərinin təsnifləşdirilməsi**




Sxem 1-dən aydın olur ki, müasir dövrün iqtisadi proseslərinin təşəkkülündə menecment amilinin nəzərə alınması vacib şərtdir və burada sistemliliyə əsaslanan, cari və gələcək dövrlər üzrə vəziyyət təhlil olunmalı, bir-biri ilə qarşılıqlı əlaqədə olan amillər üstün tutulmalı, idarəetmənin mərhələli tənzimlənməsi sahəsindəki məsələlər aktual olaraq qəbul olunmalı və bunların təmin olunmasında vacib ünsürlər olaraq, insan kapitalının inkişafı və qəbul olunan qərarların zəruriliyi diqqətə alınmalıdır.

Təbii ki, menecment bazar qanunlarına xas olan idarəetmənin məhsulu və nəticəsidir. Bu mənada, bazar infrastrukturunun təkmilləşdirilməsi və onun daha yeni dəyərlər üzrə istiqamətləndirilməsi menecment xüsusiyyətlərinin çox mühüm tərkib hissələrindən biri olaraq çıxış etməkdədir. İqtisadçı alim A.Şirəliyev müəllifi olduğu "İqtisadi nəzəriyyə" adlı dərs vəsaitində bazarın və bazar iqtisadiyyatının tənzimlənməsinin iki formasının ifadə olunduğunu qeyd etmişdir. Bunlar:

1. bazarın özü-özünü tənzimləməsi və yaxud marketinq tənzimlənməsindən;

2. bazarın qeyri-marketinq və yaxud dövlət tənzimlənməsindən ibarət strukturlaşması ilə xarakterizə olunmaqdadır (8, s. 290). Yəni burada nəzərə alınması zəruri olan proseslər içərisində bazarın və onun qanunlarının öyrənilməsi, alıcılıq qabiliyyətinə təsir edən amillərin araşdırılması və

bütün bunların fonunda səmərəli dövlət tənzimlənməsinin etibarlı təsisatlarından ibarət olan davamlı təminatı özünü göstərməkdədir.

Hazırda bütövlükdə dünya iqtisadiyyatında zaman-zaman baş verən hadisələr, o cümlədən, böhran və tənəzzül meyilləri milli iqtisadiyyatların kəmiyyət və keyfiyyət dəyişikliklərinə getmələrini də şərtləndirməkdədir ki, bunlar da öz özlüyündə məhz menecment amilindən ibarət olan xüsusiyyətlərin aktuallığını şərtləndirməkdədir. Elə bu prizmadan yanaşdıqda aydın olur ki, böhrana qarşı dayanıqlı və müqavimətli iqtisadiyyat quruculuğunun həyata keçirilməsi aktuallığını daha da artırmaqdadır. Ümumilikdə, menecmentin məqsədi böhran vəziyyətinin baş verməsi yaxınlaşarkən onun qarşısını az itki verməklə, alınmasını təmin etməkdir. Bu qeyd olunanlar professor İ.M.Mahmudovun redaktorluğu ilə 2008-ci ildə çap olunan "Sahibkarlığın əsasları" adlı dərs vəsaitində öz əksini tapmışdır. Bu məqsədə nail olmaq üçün aşağıdakı sxem 2-də ifadə olunan məsələləri həll etmək lazımdır:

**Sxem 2**

**Böhrana qarşı mübarizə tədbirlərinin hazırlanması mühitində menecmentin məqsədi**




Sxem 2-dən aydın olur ki, böhranlar şəraitində menecmentin məqsədiləri əsasən müəssisələrin təşkili və idarə olunmasında inkişaf dinamikasının diqqətdə saxlanılması, onun böhrana aparacaq neqativ amillərinin tez bir zamanda müəyyən olunub aradan qaldırılması, reallaşdırılmış olan tədbirlərin nəticələrinin araşdırılmasından və təhlil olunmasından ibarət olmaqdadır (3, s. 146).

Bir qayda olaraq, idarəetmə anlayışı iqtisadiyyatın sahə strukturu üzrə bütün sahələrin və orada mövcud olan fəaliyyət sferalarında özünü göstərən əmək ehtiyatlarının mövcudluğunda özün yer tapa bilir. Elə bu prizmadan yanaşdıqda, iqtisadi idarəetmənin obyekt və subyektlərini də fərqləndirmək mümkün olur ki, bunlar da ümumilikdə, müasir menecment anlayışının çox mühüm xüsusiyyətlərinin izahını verməyə imkanlar yaratmış olur. Hazırkı şəraitdə qeyd olunanları əsas tutaraq nəzərə almaq olar ki, iqtisadi idarəetmənin obyektləri və subyektləri sxem 3-ün məlumatlarında yer almışdır:

Sxem 3.

**İqtisadi idarəetmənin obyektləri və subyektlərinin təsnifləşdirilməsi**




Qeyd etmək olar ki, sxem 3-də iqtisadiyyat bir tam olaraq qəbul olunmaqla, onun cəmiyyətin artan tələbatlarının qarşılanmasındakı proseslərin tənzimlənməsi məsələləri həm fasiləsiz, həm də koordinasiyalı bir şəkildə olmaqla nəzərə alınmaqdadır. Eyni zamanda, onun bütün mərhələləri ardıcıl və tamamlayıcı quruluş üzrə təşəkkül tapmaqdadır. Burada ictimai təkrar istehsal və onun fazaları olan istehsal, bölgü, mübadilə və istehlak da aid olunur (1, s. 270).

İqtisadi idarəetmə özünün mahiyyətinə görə iqtisadiyyatın bütün bölmələr üzrə təşəkkülünü ifadə edir. Burada, dövrlər üzrə strateji mərhələlər əsas tutulmaqla, istər müəssisələr və ya özəklər, istər ayrı-ayrı istiqamətlər, istərsə də, bütövlükdə, milli iqtisadiyyat üzrə göstəricilər diqqətdə saxlanılır. Təhlillərdən aydın olur ki, iqtisadi idarəetmənin çox mühüm həyata keçirilmiş olduğu dövrlər, əsasən, Birinci və İkinci Dünya müharibələrinin baş verdiyi illərdə, böhran zamanlarında və davamlı inkişafa qədər olan mərhələlərdə özünü göstərmişdir. Daha doğrusu, iqtisadi idarəetmə xüsusilə, qeyd olunan mərhələlərdə iqtisadiyyatın nəzarətsiz buraxılmaması məqsədilə daha etibarlı dayaqlara xas olmaqla, həyata keçirilmişdir. Bu isə, heç şübhəsiz ki, iqtisadi tərəfləri ilə yanaşı, eyni zamanda, sosialyönümlülüyü ilə daha əlamətdar olmaqdadır. Dövlətin iqtisadi funksiyaları, elə onun həm də iqtisadi siyasətinin çox mühüm istiqamətlərini ifadə etməkdədir. Çünki bu, hər şeydən əvvəl onun cəmiyyət üzvləri üçün əlçatan imkanlarına təminat yaratmış olar.

Bütün bu məsələlərin dinamik şəkildə olmaqla, araşdırılması və nizama salınması məsələləri ümumilikdə dövlətin iqtisadi siyasətinin də çox mühüm tərkib hissəsi olmaqla, çox əhəmiyyətlidir. Buna görə də, iqtisadiyyatın dövlət tənzimlənməsinin bir sıra funsiyaları mövcuddur ki, onlar da öz növbəsində iqtisadi idarəetmənin müxtəlif dövrlər üzrə həyata keçirilməsinin xüsusiyyətlərini ortaya qoymuşdur. İqtisadçı alimlər O.Məmmədli və F.İsmayılov dövlətin iqtisadi sferalara aid olan funksiyalarını XIX əsrin axırlarından etibarən bir neçə mərhələlər üzrə ifadə etmişlər və onun genişlənməsinin tədriclə üç mərhələdən keçməsi qənaətinə gəlmişlər.

**Sxem 4.**

**Dövlətin iqtisadi funksiyalarının həyata keçirilməsi mərhələləri**




Sxem 4-ün məlumatları göstərir ki, əsas durğunluq dövrlərində və müharibə şəraitlərində iqtisadi idarəetməyə mühüm ehtiyac olmuşdur. Qeyd olunan mərhələlərdə dövlət iqtisadiyyatda dövlət bölməsi yaratmaqla, inhisarçılığa meyli məhdulaşdırmağa çalışmış və iqtisadi proseslərin tənzimlənməsinə fəal müdaxilə etməyə başlamışdır. Lakin bu müdaxilə, əsas etibarı ilə hərbi istehsal sahələri ilə məhdudlaşmışdır. Başqa sahələrdə isə təsərrüfatçılığın xüsusi kapitalist formaları hökmran mövqeyə malik olmuşdur (4, s. 653).

Bir qayda olaraq, menecment idarəetməsi iqtisadiyyatın mikro və makroiqtisadi tənzimləmə mexanizminin təmin olunmasını nəzərədə tutmaqdadır. Mikrosəviyyədə isə əsasən müəssisələrin təşkili və idarə olunması prosesləri aktuallığını qorumaqdadır. İqtisad ədəbiyyatlarda müəssisələr cəmiyyətin, dövlətin həyatında həlledici əhəmiyyətə malikdir, çünki onlar operativ – təsərrüfatçılıq, maddi istehsal, sahibkarlıq fəaliyyəti ilə məşğul olurlar (6, s. 51).

Qeyd olunanlardan bir daha görünür ki, milli iqtisadiyyat səmərəli idarəetmə mexanizmi vasitəsi ilə tənzimlənir və idarə olunur. Bütün sadalanan amilləri qeyd etməklə bir daha göstərmək olar ki, idarəetmə dedikdə, iqtisadi fəaliyyəti lazımi istiqamətə yönəltmək, arzu olunan nəticələri əldə etmək məqsədilə insanların obyektlərə və orada iştirak edən adamlara şüurlu təsir formalarının başa düşülməsini ifadə edir (10, s. 444).

## ƏDƏBİYYAT

1. Alıyev İ. H., İbadov S. A. Azərbaycan iqtisadiyyati. Bakı: Ağrıdağ, 1999, 400 s.
2. İbadov S. A. İqtisadi nəzəriyyə. Dərslik. Bakı: Şərq-Qərb, 2009, 414 s.
3. Mahmudov İ.M. redaktorluğu ilə Sahibkarlığın əsasları. Dərs vəsaiti. Bakı: Milli Aviasiya Akademiyasının nəşriyyatı, 2008, 602 s.
4. Məmmədli O. Q., İsmayılov F. İ. İqtisadi nəzəriyyə. Bakı: MBM, 2007, 800 s.
5. Quliyev T.Ə. İdarəetmənin əsasları. Bakı: Maarif, 1993, 333 s.
6. Quliyev T.Ə. Əməyin sosialogiyası. Bakı: Maarif, 1998, 336 s.
7. Quliyev T.Ə. Menecmentin əsasları. Dərslik. Bakı: Qərənfil, 2006, 591 s.
8. Şirəliyev A.İ. İqtisadi nəzəriyyə. Dərs vəsaiti. Bakı: Elm, 2004, 420 s.
9. Vəliyev T. S., Qafarov Ş. S. ümumi redaktəsi ilə. İqtisadi nəzəriyyə. Bakı: Azpoliqraf LTD MMC, 2004, 504 s.
10. Vəliyev T. S., Babayev Ə, P., Meybullayev M. X. redaktəsi ilə. İqtisadi nəzəriyyə. Bakı: Çaşıoğlu, 1999, 684 s.

**SUMMARY**

**Javadkhan Gasimov,**
**Mustafa Mustafayev**

**ISSUES OF STUDYING THE FEATURES OF MANAGEMENT IN THE NEW ECONOMIC CONDITIONS**

The article studies the issues of studying the features of management in the conditions of market relations. their features on the modern period. It is substantiated that management, forming one of the very important regulatory mechanisms of a market economic system, also reflects approaches to it. Management as a type of activity has been explained as the forms of attitude that people have thought and revealed since ancient times and used it with benefit.

The history of the emergence of this concept as a result of the development of the social division of Labor, separated from other types of activity, took an independent form, had a specific character throughout history. At the same time, management was considered as a multidimensional process covering all spheres of society. It is classified in three sections, consisting of political, economic and public administration.

***Key words**: management features, organization and management of enterprises, management, new challenges in the world economy, social division of labor, etc.*

**РЕЗЮМЕ**

**Джавадхан Гасымов**
**Мустафа Мустафаев,**

**ИЗУЧЕНИЕ ОСОБЕННОСТЕЙ УПРАВЛЕНИЯ В НОВЫХ ЭКОНОМИЧЕСКИХ УСЛОВИЯХ**

В статье проводится исследование по изучению особенностей управления в контексте рыночных отношений, рассматриваются их особенности в современный период. Обосновано, что менеджмент является одним из важнейших регулирующих механизмов рыночной экономической системы и отражает подходы к нему. Поскольку менеджмент - это скорее вид деятельности, он был описан как форма отношения, которую люди и человеческие ресурсы давно придумывали и использовали. История возникновения этой концепции в результате развития общественного разделения труда была отделена от других видов деятельности, приняла самостоятельную форму и на протяжении всей истории носила специфический характер.

В то же время управление рассматривалось как многогранный процесс, охватывающий все сферы общества. Таким образом, он подразделяется на три раздела, состоящих из политического, экономического и государственного управления.

**Ключевые слова:** *особенности управления, организация и управление предприятиями, менеджмент, новые вызовы мировой экономики, общественное разделение труда и др.*

***Məqaləni çapa təqdim etdi:** iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*
***Məqalə daxil olmuşdur:** 4 noyabr 2021-ci il*
***Çapa qəbul edilmişdir:** 2 dekabr 2021-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2021, № 2 (111), 149-154
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2021, № 2 (111), 149-154
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2021, № 2 (111), 149-154

**MÜSLÜM CABBARZADƏ**
*Naxçıvan Dövlət Universiteti*
*muslum_cabbarzade@yahoo.com*

**UOT: 338**

# TORPAQ EHTİYATLARINDAN SƏMƏRƏLİ İSTİFADƏ VƏ DAVAMLI İNKİŞAFIN PERSPEKTİVLƏRİ

*Məqalədə son 25 ildə Naxçıvan Muxtar Respublikasında aqrar sektorun inkişafında torpaq ehtiyatlarından səmərəli istifadə məsələləri təhlil olunmuşdur. Torpaq islahatları, aqrar sektor və torpaqlardan istifadə ilə bağlı qəbul edilmiş dövlət proqramlarının iqtisadi inkişafa təsiri ilə bağlı araşdırmalar aparılmışdır.*

*Muxtar respublikada infrastruktur quruculuğunun dərinləşdirilməsi düşünülmüş iqtisadi və sosial siyasətin tərkib hissəsi kimi qiymətləndirilmiş, kənd təsərrüfatının inkişafina bilavasitə xidmət edən infrastrukturların formalaşdırılması təhlil edilmişdir. Kənd təsərrüfatı istehsalçılarına dövlət dəstəyinin gücləndirilməsinin torpaqlardan istifadənin səmərəliliyinə təsiri araşdırılmışdır.*

*Muxtar respublikada ailə təsərrüfatlarının formalaşmasında, əhalinin ərzaq və digər zəruri kənd təsərrüfatı məhsulları ilə təminatının yüksəlməsində torpaq ehtiyatlarından səmərəli istifadənin rolu qiymətləndirilmişdir.*

*Muxtar respublikanın əkinə cəlb olunması mümkün olan torpaq ehtiyatları təhlil edilmiş, kənd təsərrüfatına yararlı torpaqların struktur bölgüsü verilmişdir. Müəyyən edilmişdir ki, torpaq islahatından sonrakı dövrdə torpaq sahələrinin uqodiyalar üzrə bölgüsündə əhəmiyyətli keyfiyyət dəyişiklikləri baş vermişdir.*

*Məqalədə həmçinin əkin sahələrinin genişləndirilməsi və bol məhsul istehsalının təmin edilməsi məqsədilə müasir meliorasiya və irriqasiya sistemlərinin qurulması istiqamətində görülmüş işlər təhlil edilmişdir. Torpaqlardan istifadənin səmərəliliyinin yüksəldilməsinə təsir göstərən digər amillər müəyyən edilərək qiymətləndirilmişdir.*

*Muxtar respublikanın torpaq fondunun təyinatı, istifadə növü, kəmiyyət və keyfiyyət göstəriciləri üzrə dəqiq və müfəssəl kadastr uçotunun təmin olunması istiqamətində araşdırmalar aparılmışdır. Torpaq ehtiyatlarının istifadəsinə dövlət nəzarətinin gücləndirilməsi yollarından bəhs edilmişdir.*

***Açar sözlər:*** *Naxçıvan iqtisadiyyatı, region iqtisadiyyatı, torpaq islahatları, torpaq fondu, aqrar sektor, davamlı inkişaf.*

Muxtar respublikamızın iqtisadiyyatında resurs potensialı, məşğulluğun təmin edilməsi və ərzaq təminatı baxımından kənd təsərrüfatı xüsusi əhəmiyyətə malikdir. Buna görədir ki, muxtar respublikada son 25 ildə bu sahənin davamlı inkişafına yönəldilmiş kompleks islahatlar aparılmışdır. Aqrar sahəyə xidmət edən infrastrukturlar qurulmuş, texnika parkı genişləndirilmiş, səmərəli kredit təminatı yaradılmış, proqram xarakterli idarəetmə həyata keçirilmişdir.

Əhalinin ərzaq məhsulları ilə etibarlı təminatının möhkəmləndirilməsi məqsədilə əkinəyararlı torpaq sahələrinin səmərəli istifadəsinə diqqət artırılmış, torpaq ehtiyatlarının dövlət idarəetməsi mexanizmi mütəmadi olaraq təkmilləşdirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq fərman və sərəncamları ilə təsdiq edilmiş və icrası uğurla başa çatdırılmış “Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı (2005-2010-cu illər)”, “2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”, “2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət

Proqramı", "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" və icrası uğurla davam etdirilən "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" aqrar bölmənin inkişafına ciddi təkan vermiş, müvafiq sahələr üzrə yüksək inkişaf göstəricilərinə nail olunmuşdur [2,3,4].

Muxtar respublikada kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində ardıcıl və sistemli işlər görülmüşdür və bu proses davam edir. Bu işlərin önündə isə infrastruktur quruculuğu dayanır. İqtisadi və sosial inkişafı təmin edən infrastrukturların yaradılması güclü istehsal potensialının, dinamik iqtisadiyyatın formalaşmasının təməlidir.

Bu gün qürurla qeyd etmək mümkündür ki, muxtar respublikanın şəhər və qəsəbələri ilə yanaşı, ən ucqar kəndlərdə belə, iqtisadi fəaliyyət və sosial həyat üçün zəruri olan bütün əsaslar yaradılmışdır. Yüksək keyfiyyətli nəqliyyat və rabitə infrastrukturu, fasiləsiz enerji təminatı, bank və poçt xidmətlərinin inkişafı insanların rahat yaşayışı ilə bərabər, iqtisadi fəaliyyət üçün də əlverişli imkanlar təmin edilmişdir. Odur ki, muxtar respublikada infrastruktur quruculuğuna yüksək diqqət göstərilməsi düşünülmüş iqtisadi və sosial siyasətin tərkib hissəsidir.

Ümumi infrastruktur sahələri ilə yanaşı kənd təsərrüfatının inkişafına bilavasitə xidmət edən infrastrukturların formalaşdırılması da diqqədə saxlanılmışdır. Müasir meliorasiya və irriqasiya sistemlərinin, hidrotexniki qurğuların tikintisi, soyuducu anbarların yaradılması, aqrolizinq, baytarlıq xidmətinin təşkili, toxumçuluq təsərrüfatlarının, süni mayalanma mərkəzinin, laboratoriyaların qurulması, informasiya-məsləhət xidmətlərinin göstərilməsi aqrar sahənin inkişafına ciddi təkan vermişdir.

Muxtar respublikada istehsal edilmiş məhsulların tədarükü, daşınması, saxlanması və satışını həyata keçirən müasir bazar infrastrukturlarının yaradılması təmin edilmişdir. Bunun nəticəsidir ki, hazırda kənd təsərrüfatı istehsalçıları məhsullarını bazarlara çıxarmaq üçün bütün imkanlara malikdir. Bundan əlavə, müxtəlif festivalların, kənd təsərrüfatı yarmarkalarının təşkili istehsalçılara öz məhsullarını tanıtmaq, alıcı tapmaq imkanları yaradır. Məhsulların rəqabətə davamlılığını artırmaq üçün istehsal, qablaşdırma, markalanma, satış və digər istiqamətlərdə sahibkarlara ciddi dövlət dəstəyi göstərilir.

Aqrar sahəyə maliyyə dəstəyinin genişləndirilməsi, güzəştli kreditlərin verilməsi, bank və maliyyə xidmətlərinə çıxışın asanlaşdırılması, dövlət təşkilatları tərəfindən göstərilən bir çox xidmətlərin bilavasitə yaşayış məntəqələrində təşkil olunması kənd təsərrüfatına marağı xeyli yüksəltmişdir.

Muxtar respublikada ötən illər ərzində torpaq ehtiyatlarından səmərəli istifadə ilə də bağlı ardıcıl tədbirlər həyata keçirilmişdir. Torpağın növünə və münbitliyinə görə səmərəli əkin aparılması məqsədilə muxtar respublikanın rayonları üzrə əkin atlasları tərtib edilmiş, torpaq xəritələri, kənd təsərrüfatına yararlı torpaq sahələrinin qida maddələri ilə təminolunma kartoqramları hazırlanaraq bələdiyyələrə təqdim olunmuşdur.

Hazırda yararlı torpaq sahələrinin əkin dövriyyəsinə cəlb edilməsi üçün tədbirlər davam etdirilir, qanunsuz istifadə edilən torpaq sahələri müəyyənləşdirilərək əvvəlki vəziyyətinə qaytarılır.

Bugün muxtar respublikada ailə təsərrüfatları, fermerlər özlərinə məxsus və ya icarəyə götürdükləri torpaq sahələrini əkib becərmək, heyvandarlıqla məşğul olmaq üçün zəruri resurslara, əlverişli imkan və şəraitə malikdir. Belə ki, muxtar respublika üzrə 205 kənddə olan 132 təsərrüfatda torpaq islahatı aparılmış, 241 mindən artıq vətəndaş kənd təsərrüfatı təyinatlı torpaq sahəsi ilə təmin edilmişdir [5]. 70 mindən çox ailənin aqrar islahatdan bəhrələnərək torpaq mülkiyyətçisinə çevrilməsi muxtar respublikada ailə təsərrüfatlarının formalaşmasına, əhalinin ərzaq və digər zəruri kənd təsərrüfatı məhsulları ilə təminatının yüksəlməsinə geniş imkanlar yaratmışdır. Hazırda mülkiyyətində 1 hektardan yuxarı kənd təsərrüfatı təyinatlı torpaq sahəsi olan ailələrin sayı 10 mindən yuxarıdır. Bu isə vətəndaşlara öz mülkiyyətində olan torpaqlarda təsərrüfat yaratmaq və bol məhsul istehsal etmək imkanı verir.

Bununla yanaşı, hər il minlərlə vətəndaş əkinçilik və heyvandarlıq təsərrüfatları yaratmaq

üçün 45 min hektardan artıq dövlət mülkiyyətinə, 77 min hektara yaxın bələdiyyə mülkiyyətinə aid kənd təsərrüfatına yararlı torpaq sahəsindən icarə hüququ əsasında istifadə edir.

**Şəkil 1. Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatına yararlı torpaq sahələri, hektarla**




Muxtar respublikada torpaqların mühafizəsi və münbitliyinin artırılması sahəsində həyata keçirilən davamlı işlər sayəsində son 25 ildə 22 min hektara yaxın yararsız torpaq sahəsi abadlaşdırılaraq kənd təsərrüfatı dövriyyəsinə cəlb edilmişdir.

Beləliklə, kənd təsərrüfatına yararlı torpaq sahələri 2021-ci ilin əvvəlinə 177 min 382 hektara yüksəlmişdir. Bunun 63 min 405 hektarı əkin, 6476 hektarı çoxillik əkmələr, 32 hektarı dincə qoyulmuş sahələr, 3040 hektarı biçənəklər, 104 min 429 hektarı örüş sahələridir [6].

Muxtar respublikada əkin sahələrinin genişləndirilməsi və bol məhsul istehsalının təmin edilməsi məqsədilə müasir meliorasiya və irriqasiya sistemlərinin qurulması davamlı xarakter almışdır. Əkin sahələrinin su təminatının yaxşılaşdırılmasına göstərilən dövlət qayğısı, eləcə də torpaqların münbitliyinin qorunması və yüksəldilməsi tədbirləri sayəsində az məhsuldar və istifadəsiz torpaqlar da əkin dövriyyəsinə cəlb edilmişdir.

Araz çayı və Uzunoba su anbarından çəkilən suvarma xətlərinin yenidən qurulması nəticəsində minlərlə hektar ərazidə su təminatı yaxşılaşdırılmış və yeni torpaq sahələri su ilə təmin olunmuşdur. 5300 hektar sahədə qapalı suvarma şəbəkəsi qurularaq istifadəyə verilmişdir. Naxçıvan şəhərində və Kəngərli rayonunda 14 min hektar yeni torpaq sahəsinin əkin dövriyyəsinə cəlb olunmasına, 5 min hektar torpaq sahəsinin isə su təminatının yaxşılaşmasına imkan verəcək Araz Su Anbarından qidalanan yeni nasos stansiyası və təzyiqli boru xəttinin tikintisinə başlanılmışdır.

**Şəkil 2. Naxçıvan Muxtar Respublikasında suvarılan torpaq sahələri, hektarla**




Göstərilən dövlət qayğısı sayəsində 2021-ci ilin əvvəlinə muxtar respublika üzrə suvarılan torpaq sahələri 63 min 54 hektara çatdırılmışdır ki, bu da kənd təsərrüfatına yararlı torpaq sahələrinin 35,5 faizini təşkil edir[6]. 1995-ci illə müqayisədə suvarılan torpaq sahələri 7387 hektar artmışdır.

Kənd təsərrüfatı istehsalçılarına dövlət dəstəyinin gücləndirilməsi sayəsində torpaqlardan

istifadənin səmərəliliyi artırılmış, əkin sahələri genişləndirilmişdir. Muxtar respublikamızda 2020-ci ildə cəmi əkin sahələri 63 min 405 hektar təşkil etmişdir ki, bundan 5464 hektarı dövlət, 10 min 747 hektarı bələdiyyə, 47 min 194 hektarı isə xüsusi mülkiyyətdə qeydə alınmışdır [6]. 1995-ci illə müqayisədə əkin sahələri 35 min 72 hektar, yaxud 2,2 dəfə artmışdır.

**Şəkil 3. Naxçıvan Muxtar Respublikasında əkin aparılan torpaq sahələri, hektarla**




2020-ci ildə əkin sahələrinin Naxçıvan şəhərində hamısını, Kəngərli rayonunda 97 faizini, Şərur, Ordubad və Sədərək rayonlarında 89 faizini, Babək rayonunda 77 faizini, Şahbuz rayonunda 69 faizini, Culfa rayonunda isə 55 faizini suvarılan torpaqlar təşkil etmişdir.

Hazırda süfrələrimizdə, bazar piştaxtalarında, marketlərdə yerli kənd təsərrüfatı məhsullarının üstünlük təşkil etməsi, muxtar respublikadan kənarda Naxçıvan məhsullarının böyük şöhrət qazanması görülən işlərin bəhrəsidir. Heç də uzaq olmayan keçmişdə ən adi ərzaq məhsullarının belə qonşu ölkələrdən gətirilməsi, çörək üçün uzun növbələr gözləmək yaddaşlardan silinməyib. Bu gün isə muxtar respublika əhalisi yerli istehsal hesabına keyfiyyətli ərzaq məhsulları ilə təmin olunur, tələbatdan artıq bir sıra məhsulların ixracı həyata keçirilir.

Yaradılmış şəraitin nəticəsidir ki, vətəndaşların torpağa marağı getdikcə artır. Belə ki, 2020-ci ildə muxtar respublikada qeydiyyata alınmış daşınmaz əmlak obyektlərinin 44 faizini torpaq sahələri təşkil etmişdir.

Bütün bunlar aqrar sahənin iqtisadi göstəricilərinin dinamik yüksəlişində öz əksini tapmışdır. Ötən 25 ildə kənd təsərrüfatının ümumi məhsulu 13 dəfədən çox artmışdır. Bitkiçilik məhsulları istehsalı 15 dəfəyə yaxın, heyvandarlıq məhsulları istehsalı isə 11 dəfə çoxalmışdır. Kənd təsərrüfatı xammalının emalı ilə məşğul olan onlarla yeni sənaye müəssisəsi yaradılmışdır. Təkcə qida sektorunda 126 növdə məhsul istehsalına nail olunmuşdur. Hazırda 108 növdə zəruri ərzaq məhsuluna tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsi ərzaq təhlükəsizliyi baxımından olduqca əhəmiyyətlidir.

Məlumdur ki, koronavirus pandemiyası dövründə hətta inkişaf etmiş bir çox ölkələrdə ayrı-ayrı sahələrin, o cümlədən əhalinin ərzaq təminatı sisteminin fövqəladə hallara hazırlıqsız olduğu ortaya çıxdı. Sevindirici haldır ki, ölkəmiz, eləcə də blokada şəraitində yaşayan muxtar respublikamız bu dövrdə ərzaq təminatında heç bir problemlə üzləşmədi. Hər kəsin aydın müşahidə etdiyi bu qürurverici həqiqət düzgün və səmərəli idarəetmənin, yerli istehsalın inkişafına vaxtında göstərilən diqqət və qayğının, çəkilən zəhmətin bəhrəsidir.

Yeni mərhələdə aqrar bölmənin qarşısına emal müəssisələrinin xammala, əhalinin keyfiyyətli ərzaq məhsullarına olan tələbatının tam şəkildə ödənilməsi, habelə ixracatın genişləndirilməsi kimi mühüm strateji vəzifələr qoyulmuşdur. Bu isə kənd təsərrüfatının əsas istehsal vasitəsi olan

torpaqlardan düzgün və səmərəli istifadəni günün vacib tələbinə çevirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında torpaq münasibətlərinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" 2016-cı il 2 aprel tarixli Fərmanı inkişafın növbəti mərhələsində torpaq münasibətlərinin tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi, torpaqların elektron uçotunun aparılması yolu ilə torpaq ehtiyatlarından daha səmərəli istifadənin təmin edilməsi üçün olduqca mühüm əhəmiyyətə malikdir [1].

Torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması nəticəsində muxtar respublikanın torpaq fondunun təyinatı, istifadə növü, kəmiyyət və keyfiyyət göstəriciləri üzrə dəqiq və müfəssəl kadastr uçotu təmin olunacaq, torpaq ehtiyatlarının istifadəsinə dövlət nəzarəti daha da güclənəcəkdir. Torpaq fondunun dəqiq uçotunun aparılması istifadəsiz ərazilərin kənd təsərrüfatı dövriyyəsinə cəlb edilməsini sürətləndirəcəkdir. Torpaq ehtiyatlarının elmi əsaslarla idarə edilməsi, münbitliyinin qorunması ekoloji təmiz kənd təsərrüfatı məhsulu istehsalının artırılmasına və aqrar bölmənin yeni inkişaf mərhələsinə yüksəlməsinə əlverişli şərait yaradacaqdır.

## ƏDƏBİYYAT

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında torpaq münasibətlərinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" 2016-cı il 2 aprel tarixli Fərmanı
2. 2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı
3. 2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı
4. Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı
5. Naxçıvan Muxtar Respublikasında torpaq islahatlarına dair materiallar. Naxçıvan MR DƏTMDX-nin arxivi, q. 22-27
6. Naxçıvan Muxtar Respublikasının 1995-2020-ci illərə dair torpaq balansları. Naxçıvan MR DƏTMDX-nin arxivi, q. 57-72

## SUMMARY

**Muslum Jabbarzadeh**

## PROSPECTS FOR EFFICIENT USE OF LAND RESOURCES AND SUSTAINABLE DEVELOPMENT

The article analyzes the issues of efficient use of land resources in the development of agrarian sector in Nakhchivan Autonomous Republic over the past 25 years. The article also deals with the issues of land reforms, the agrarian sector and the impact of state programs on the use of land on economic development.

In the Autonomous Republic, the deepening of infrastructure construction has been considered as an integral part of a well-thought-out economic and social policy, the formation of infrastructures directly serving the development of agriculture has been analyzed.

The author also studies the issue of the impact of strengthening state support for agricultural producers on the efficiency of land use.

In the Autonomous Republic, the role of effective use of land resources in the formation of family economy, increasing the provision of food and other necessary agricultural products to the population has been assessed.

The land resources of the Autonomous Republic that can be involved in agriculture are analyzed, the structural distribution of land suitable for agriculture is given. It is established that in the post-reform period there were significant qualitative changes in the distribution of land plots by ugodies.

The article also analyzes the work carried out in the direction of modern land reclamation and irrigation systems in order to expand the sown areas and ensure abundant production Other factors affecting the improvement of the efficiency of land use have also been identified and evaluated.

Investigations were carried out to ensure accurate and detailed cadastral records on the purpose, type of use, quantitative and qualitative indicators of the Land Fund of the Autonomous Republic. The ways of strengthening state control over the use of land resources are mentioned.

***Key words:*** *Nakhchivan economy, regional economy, land reforms, Land Fund, agrarian sector, sustainable development.*

## РЕЗЮМЕ

**Муслим Джаббарзаде**

## РАЦИОНАЛЬНОЕ ИСПОЛЬЗОВАНИЕ ЗЕМЕЛЬНЫХ РЕСУРСОВ И ПЕРСПЕКТИВЫ УСТОЙЧИВОГО РАЗВИТИЯ

В статье проанализированы вопросы эффективного использования земельных ресурсов в развитии аграрного сектора в Нахчыванской Автономной Республике за последние 25 лет. Проводились исследования влияния принятых государственных программ по земельной реформе,аграрному сектору и землепользованию на экономическое развитие.

В Автономной Республике углубление инфраструктурного строительства рассматривалось как составная часть продуманной экономической и социальной политики, анализировалось формирование инфраструктуры, непосредственно обслуживающей развитие сельского хозяйства. Исследовано влияние усиления государственной поддержки сельхозпроизводителей на эффективность использования земель.

В Автономной Республике оценена роль эффективного использования земельных ресурсов в формировании семейных хозяйств, повышении обеспеченности населения продовольствием и другой необходимой сельскохозяйственной продукцией.

Проанализированы земельные ресурсы Автономной Республики, которые могут быть вовлечены в земледелие, приведено структурное распределение земель, пригодных для сельского хозяйства. Установлено, что в послереформенный период произошли значительные качественные изменения в распределении земельных участков по угодьям.

В статье также проанализирована работа, проделанная в направлении расширения посевных площадей и строительства современных мелиоративных и ирригационных систем с целью обеспечения обильного производства продукции. Выявлены и оценены другие факторы, влияющие на повышение эффективности использования земель.

Проведены исследования по обеспечению точного и детального кадастрового учета земельного фонда Автономной Республики по назначению, видам использования, количественным и качественным показателям. Говорилось о путях усиления государственного контроля за использованием земельных ресурсов.

***Ключевые слова:*** *экономика Нахчывана, экономика региона, земельная реформа, земельный фонд, аграрный сектор, устойчивое развитие.*

---

***Məqalə daxil olmuşdur:*** *4 noyabr 2021-ci il*
***Çapa qəbul edilmişdir:*** *2 dekabr 2021-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2021, № 2 (111), 155-158
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2021, № 2 (111), 155-158
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2021, № 2 (111), 155-158

**FLORA KƏRİMOVA**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 338.48; 796.5**

# İŞĞALDAN AZAD OLAN ƏRAZİLƏRDƏ QIŞ TURİZMİNİN İNKİŞAFI POTENSİALI

*İşğaldan azad edilən ərazilərimizdə infrastrukturun qurulması işlərinə artıq başlanılıb. Bu işlərlə paralel şəkildə Qarabağın turizm potensialının dünyaya tanıdılması istiqamətində maarifləndirici işlərə, bölgənin turizm imkanlarından faydalanmaq üçün ilkin araşdırmalara başlanılıb. Qarabağda turizm sektorunun inkişafı bu bölgənin iqtisadi baxımdan tez bir zamanda dirçəlməsinə müsbət təsir göstərəcək. Gözəl turizm məkanları olan Şuşa, Laçın, Kəlbəcərin və digər işğaldan azad olunmuş bölgələrin turizm potensialı, xüsusən də qış turizminin inkişafı Qarabağın iqtisadi dirçəlməsinə təkan verəcək.*

***Açar sözlər:*** *turizm, rekreasiya, iqtisadiyyat, sosial-mədəni inkişaf, təbiət abidələri, qış turizmi*

Azərbayacanda son illər turizmin inkişafı istiqamətində böyük işlər görülsə də, ölkəmizin ən böyük turizm potensialına malik Qarabağ və ətraf rayonları işğaldan azad olunanadək bu proseslərdən kənarda qalmışdı. İlin dörd fəslində füsunkar təbiəti ilə qonaqları heyran edən, saf havası, müalicəvi suları, tarixi abidələri ilə dillərdə dastan olan bu diyar artıq yağı tapdağından azad olunub. Bu gün müzakirə olunan əsas mövzulardan biri də işğaldan azad olunmuş ərazilərimizdə turizmin inkişaf etdirilməsidir. Qarabağ və işğaldan azad edilmiş ətraf rayonlarımız tarixi-mədəni dəyəri, füsünkar təbiəti ilə yanaşı, yeraltı və yerüstü sərvətlərə, zəngin iqtisadi potensiala, geniş turizm imkanlarına malikdir. Təbii ki, Qarabağ və ətraf rayonların turizm imkanlarından tam istifadə üç əsas amil təmin edildikdən sonra mümkün olacaq. Bunlar ərazilərdə təhlükəsizliyin təminatı, əhalinin oraya qayıdışı və infrastrukturun yaradılmasıdır. Yaxın gələcəkdə bütün bu məsələlər həll edildikdən sonra Qarabağın Azərbaycanın turizmində öz hegemonluğu ilə seçiləcəyi heç kimdə şübhə doğurmur. Hətta inamla söyləmək olar ki, Qarabağ regional əhəmiyyətli, daha sonra dünya əhəmiyyətli ekoturizm mərkəzinə çevriləcək. Azad edilmiş torpaqlarda həyat yenidən dirçələcək və bölgə qısa zamanda regionun cəlbedici turizm istiqamətlərindən birinə çevriləcək.

Artıq işğaldan azad edilən ərazilərimizdə infrastrukturun qurulması işlərinin ilkin mərhələsi aparılır. Bununla paralel şəkildə Qarabağın turizm potensialının dünyaya tanıdılması istiqamətində maarifləndirici işlərə, bölgənin turizm imkanlarından faydalanmaq üçün ilkin araşdırmalara da başlanılıb. Qarabağda turizm sektorunun inkişafı bu bölgənin iqtisadi baxımdan tez bir zamanda dirçəlməsinə müsbət təsir göstərəcək.

Ərazilərdə təhlükəsizliyin təminatı, əhalinin oraya qayıdışı və infrastrukturun yaradılması təmin olunduqdan sonra Qarabağ və ətraf rayonlarda yeni turizm məhsulları yaradılaraq turistlərə təqdim ediləcək. Həmin zonada ilk mərhələdə daxili turizmin təşkili əsas istiqamət olacaq. Bu bölgələrdə ilk mərhələdə daha çox ziyarət tipli turizmin təşkili, infrastruktur tam bərpa edildikdən sonra isə istirahət turizminin təşkili nəzərdə tutulur. [1]

*Ərazinin fiziki-coğrafi səciyyəsi-* Kiçik Qafqaz vilayəti Kiçik Qafqaz dağ sisteminin cənub-şərq hissəsini əhatə edir. Ərazinin ən yüksək zirvəsi Murovdağ silsiləsində yerləşən Gamışdağdır (3724 m). Ən alçaq yeri isə Zəngilan rayonunda Araz sahilindədir (300 m). Enlik istiqamətində uzanan Murovdağ silsiləsi bu vilayəti şimal-şərq və cənub-şərq hissələrinə ayırır. Murovdağdan şimal-qərbdə Şahdağ, cənub-qərbdə Şərqi Göyçə, cənubda isə Qarabağ silsiləsi uzanır.

Qarabağ silsiləsindən qərbdə Qarabağ vulkanik yaylası yerləşir. Yaylada sönmüş vulkanların hündür zirvələrinə rast gəlinir.Kiçik Qafqazda Alt Paleozoy, Mezozoy və Kaynozoyun IV dövrünün vulkanik süxurları geniş yayılmışdır.

Kiçik Qafqaz vilayəti fəal seysmik zonaya daxildir. Maqmatik süxurların səthə çıxdığı ərazilər filiz faydalı qazıntıları ilə zəngindir. Ərazidə tikinti materialları və mineral sular geniş yayılmışdır. Kiçik Qafqaz vilayətində iqlim göstəriciləri yüksəklik üzrə dəyişir. Havanın orta illik temperaturu 10°C – 0°C, yağıntıların orta illik miqdarı isə 400-1000 mm arasındadır.
Vilayətdə çay şəbəkəsi sıxdır. Çaylar Kür və Araz hövzələrinə aiddir. Vulkanik yayladan axan çaylar (Tərtər, Həkəri və s.), əsasən, yeraltı sularla, digər çaylar isə qar və yağış suları ilə qidalanır.
Kiçik Qafqaz füsunkar dağ gölləri ilə məşhurdur. Vulkanik yaylada Böyük və Kiçik Alagöllər, Qaragöl, Murovdağda Maralgöl dağ-çəmən landşaftında, Göygöl isə meşə landşaftında yerləşir.
Kiçik Qafqaz vilayətində şabalıdı, qara, qəhvəyi meşə, qonur meşə və dağ-çəmən torpaqları geniş yayılmışdır. Bu torpaqların üzərində çöl bitkiləri, meşə və kolluqlar, subalp və alp çəmənlikləri əmələ gəlmişdir. Ərazidə dağ-çöl, dağ-meşə, dağ-çəmən və subnival landşaft tipləri formalaşmışdır.

Münbit torpaqlardan kartof əkinlərində, üzümçülükdə, maldarlıqda istifadə edilir. Yüksək dağ çəmənlikləri yay otlaqları və biçənəklər kimi böyük əhəmiyyətə malikdir. Hazırda vilayətin xeyli hissəsinin Ermənistanın işğalı altında qalması burada olan təbii landşaftların pozulmasına gətirib çıxarmış və təsərrüfat işlərinin aparılmasını çətinləşdirmişdir [3].

Son illər həyata keçirilən sosial-iqtisadi layihələr, dövlət proqramları, siyasi sabitlik ölkəmizin inkişafını daha da sürətləndirir. Azərbaycan Respunlikasının prezidenti cənab İlham Əliyevin məlum sərəncamları ilə reallaşan dövlət proqramları turizmin daha da inkişafına səbəb olub. Ölkəmizdə yüzlərlə turizm şirkətinin fəaliyyəti, turizm marşrutlarının yaradılması, beşulduzlu otellərin istifadəyə verilməsi, eləcə də, peşəkar kadrların hazırlanmasına diqqətin artırılması və s. Azərbaycanı turizm ölkəsi kimi tanıdıb. Ümumilikdə, Azərbaycanda turizmin inkişafı ilə bağlı böyük addımlar atılıb, layihələr həyata keçirilib. Sevindirici haldır ki, bu reallıqların və turizm sahəsinə ayrılan diqqətin nəticəsində, pandemiyayadək Azərbaycana gələn turistlərin sayında nəzərə çarpan artım müşahidə olunur. Ölkəmizin müxtəlif ərazilərində dünya standartlarına uyğun otellər, əyləncə mərkəzləri və istirahət zonaları yaradılıb. Ölkəmizdə yay turizmi ilə yanaşı, qış turizm bazasının yaradılması, mövsümlük anlayışını aradan qaldırmaqla, davamlı turizmə nail olmağa şərait yaradıb. Ölkəmizdə yay turizmi ilə yanaşı, qış turizm bazasının yaradılması, mövsümlük anlayışını aradan qaldırmaqla, davamlı turizmə nail olmağa şərait yaradıb. Azərbaycan, isti iqlim qurşağında yerləşməsinə baxmayaraq, o nadir ölkələrdəndir ki, ən yüksək dünya standartlarına cavab verən nəhəng qış turizm infrastrukturları və kompleksləri yaradılıb.

Son illər Azərbaycanda turizm sahəsinin ən perspektivli sahələrindən sayılan qış turizm infrastrukturunun formalaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. Qış turizminin inkişaf etdirilməsi prioritet istiqamətlərdən biridir və ölkə rəhbərliyi bu sahəyə xüsusi diqqət yetirir. Bölgələrdə qış aylarında normal istirahətə imkan verən müasir turizm obyektlərinin inşası prosesi sürətlənib. Azərbaycanda qış turizmi yeni sahə sayılır. Lakin hələ sovet dövründə respublikamızda da turizmin bu növünə maraq göstərənlər olub. O vaxtlar Şamaxı rayonunda, Pirqulu rəsədxanasının yaxınlığındakı ərazi xizək sürmək istəyənlər tərəfindən istifadə olunub. Qış fəslini insanlar üçün cazibəli edən hər şeydən əvvəl, fərqlilikdir: "Eyni dağlıq əraziyə həm yayda, həm qışda gedin və siz tamam fərqli mənzərə görəcəksiniz. Dağları qışda görmək lazımdır. Təsadüfi deyil ki, əsrlər boyunca şairlər "dağ" və "qar" sözlərini yanaşı hallandırıblar. Dağların qış mənzərəsi insanda tamam fərqli bir psixoloji ovqat yaradır, onu il boyu sürən enerji ilə təmin edir. Nəhayət, qarlı yamacda xizəyin üstündə dayanmağın yaşatdığı həyəcan çoxlarına zövq verir". Ancaq dağlar qışda təhlükəli ola bilər. Buna görə də, uzun müddət qış turizmi dünyada bu sənayenin lüks seqmentinə aid edilib və ancaq varlılar üçün münasib istirahət sayılıb. Çünki dağlarda turizm üçün lazımi infrastrukturu yaratmaq çətin olduğundan, bu əyləncə çox baha başa gəlirdi. Yalnız 80-ci illərin sonlarından dünyada vəziyyət dəyişməyə, qış turizmi kütləviləşməyə başlayıb. İndi isə yay turizmi ilə bərabər rəqabət aparır [2].

"Turizm və rekreasiya zonalarının yaradılması üçün Qarabağ regionunun müxtəlif

ərazilərində mühüm turizm potensialı mövcuddur. İşğaldan azad edilən ərazilərimizdə infrastrukturun qurulması işlərinə artıq başlanılıb. Bu işlərlə paralel şəkildə Qarabağın turizm potensialının dünyaya tanıdılması istiqamətində maarifləndirici işlərə, bölgənin turizm imkanlarından faydalanmaq üçün ilkin araşdırmalara başlanılıb. Qarabağda turizm sektorunun inkişafı bu bölgənin iqtisadi baxımdan tez bir zamanda dirçəlməsinə müsbət təsir göstərəcək. Gözəl turizm məkanları olan Şuşa, Laçın, Kəlbəcərin dağ turizmi, ekoturizm, müalicəvi və mədəni turizm potensialından istifadə edərək Qarabağın iqtisadi dirçəlməsinə təkan vermək olar.

Gələcəkdə Füzuli–Xocavənd–Şuşa–Laçın, Füzuli–Cəbrayıl–Zəngilan, Zəngilan–Qubadlı–Laçın–Kəlbəcər, Bərdə–Ağdam istiqamətlərində turizm marşrutlarının təşkili nəzərdə tutulur. Laçın–Kəlbəcər istiqamətində təbiət, qış turizmi və sağlamlıq turizmi, Qubadlı–Zəngilanda mədəniyyət və təbiət, Füzuli–Cəbrayıl–Ağdamda isə mədəniyyət və işğalın nəticələrini göstərmək üçün bəzi tikililər saxlanılmaqla turistlər üçün nümayiş etdiriləcək. Turizmin iqtisadi tərəfi ilə yanaşı, siyasi-təbliğati tərəfi də var. Regionların ayrı-ayrılıqda turizm potensialında Şuşa, xüsusilə, yüksək qiymətləndirilir. Şuşanın Azərbaycanın turizm mərkəzinə çevrilməsi üçün çox əhəmiyyətli layihələr artıq reallaşdırılmaqdadır. Şuşa havasının tərkibi, təmizliyi, saflığı və müalicəvi əhəmiyyəti baxımından əvəzolunmaz kurort şəhəridir. Bu baxımdan, nəinki Azərbaycanda, onun hüdudlarından kənarda da Şuşa öz səfalı yerləri, istirahət guşələri ilə məşhurdur [3].

Kəlbəcər təbii ehtiyatlarına və Cənubi Qafqazda turizm potensialına görə seçilən rayondur. Rayonun təbii şəraitində dağlıq landşaft üstünlük təşkil edir. Kəlbəcər Cənubi Qafqazda çox azsaylı şəhərlərdəndir ki, fasiləsiz turizm xidmətləri təklif etmək imkanına malikdir. Burada xüsusən yay-qış turizm məhsulları təklif etmək mümkündür.

Kəlbəcərin turizm potensialı , xüsusən relyefi dünyanın ən heyrətamiz kanatlarının inşasına, ən maraqlı turizm xidmətlərinin qurulmasına imkan verir. Potensialından düzgün istifadə edilərsə, burada Qafqazın ən böyük turizm mərkəzini yaratmaq olar.

Nəticə olaraq deyə bilərik ki, Qarabağda və Şərqi Zəngəzurda mədəniyyət, təbiət, sağlamlıq, dağ-xizək turizmi istiqamətləri üzrə zəngin resurslar var "Belə ki, təbiət turizmi üzrə piyada yürüşləri (hayking), yamac paraşütü, dağ velosipedi, dağ çaylarında qayıqçılıq, balıq ovu turizm məhsulları kimi təklif edilə bilər. Bu mənada Şuşa, Laçın, Kəlbəcərin təbiət turizm növlərinin inkişafı baxımından nisbətən böyük potensialı var. Sağlamlıq turizmi üzrə termal bulaqlar, isti vannalar, iqlim kurortları turistlərə turizm məhsulları kimi təklif edilə bilər. Sağlamlıq turizm istiqaməti üzrə nisbətən Kəlbəcər, Şuşanın böyük potensialı var. Dağ-xizək turizm istiqaməti üzrə müxtəlif dağ-xizək xidmətləri təqdim edilə bilər. Bu istiqamətdə Kəlbəcər və Laçının nisbətən böyük potensialı mövcuddur.

Kəlbəcərdə çəmənliklərdə piyada yürüşləri, Qarabağ yaylağında və Qarabağ silsiləsində dağ yürüşləri, Dəlidağın yamaclarındakı İstisuda müalicə və istirahət, Qafqaz Albaniyası memarlığının incisi Gəncəsər monastırına yürüşlər və s. təşkil edilməsi turizm üçün əhəmiyyətli fikirlərdir.

## ƏDƏBİYYAT

1. https://www.virtualkarabakh.az/az/post-item/26/45/qarabag-tebieti.html
2. Azərbaycan Respublikasının Milli ensklopedyası
3. Azərbaycanın fiziki coğrafiyası, Museyibov. M.A

**SUMMARY**

**Flora Karimova**

**THE POTENTIAL FOR THE DEVELOPMENT OF WINTER TOURISM İN THE TERRITORIES LIBERATED FROM OCCUPATION**

Work on the construction of infrastructure in the territories liberated from occupation has already begun. Work is underway to promote the tourism potential of Karabakh to the world and preliminary studies have been launched to benefit from the tourism opportunities of the region. The development of the tourism sector in Karabakh will have a positive impact on the economic revival of this region. The development of the tourism potential of Shusha, Lachin, Kalbajar and other regions liberated from occupation, in particular winter tourism, will give impetus to the economic revival of Karabakh.

***Açar sözlər:*** *turizm, rekreasiya, iqtisadiyyat, sosial-mədəni inkişaf, təbiət abidələri, qış turizmi*

**РЕЗЮМЕ**

**Флора Каримова**

**ПОТЕНЦИАЛ РАЗВИТИЯ ЗИМНЕГО ТУРИЗМА НА ОСВОБОЖДЕННЫХ ОТ ОККУПАЦИИ ТЕРРИТОРИЯХ**

На освобожденных от оккупации территориях уже начались работы по строительству инфраструктуры. Параллельно с этими работами были начаты просветительские работы по ознакомлению мира с туристическим потенциалом Карабаха, начальные исследования с целью использования туристических возможностей региона. Развитие туристического сектора в Карабахе окажет положительное влияние на быстрое экономическое возрождение этого региона. Развитие туристического потенциала Шуши, Лачина, Кельбаджара и других освобожденных от оккупации регионов, в частности зимнего туризма, придаст импульс экономическому возрождению Карабаха.

***Ключевые слова:*** *туризм, рекреация, экономика, социально-культурное развитие, памятники природы, зимний туризм.*

---

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*
***Məqalə daxil olmuşdur:*** *4 noyabr 2021-ci il*
***Çapa qəbul edilmişdir:*** *2 dekabr 2021-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2021, № 2 (111), 159-164
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2021, № 2 (111), 159-164
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2021, № 2 (111), 159-164

**ELŞƏN NƏSİROV**
*enasirov@inbox.ru*
**DİLRUBƏ QASIMOVA**
*Naxçıvan Dövlət Universiteti*
*dilrubenovruzova@hotmail.com*

**UOT: 330**

# SƏNAYE İNQİLABLARINDA TRANSMİLLİ KORPORASİYALARIN ROLU

*Elmi məqalədə sənaye inqilablarının tarixi, başvermə səbəbləri, təkamül fazaları, iqtisadi və sosial amilləri və transmilli korporasiyaların bu proseslərdəki rolu araşdırılmışdır.*

*Elmi məqalədə vurğulanır ki, sənaye inqilabları nəticəsində dünyada sürətli urbanizasiya prosesləri baş vermişdir və əhalinin həyat səviyyəsinin yüksəlməsi müşayiət olunmuşdur. Eyni zamanda, məqalədə "sənaye inqılabı" termini əl əməyinin maşınlarla əvəzlənməsi ilə bağlı texniki, texnoloji, sosial, institusional və digər dəyişikliklərin məcmusu kimi baxılmışdır.*

*Elmi məqalədə qeyd olunur ki, sənaye inqilablarının baş verməsində həlledici rolu məhz transmilli korporasiyalar oynamışdırlar.*

*Tədqiqatın elmi fərziyyəsi həmçinin ondan ibarətdir ki, dördüncü sənaye inqilabı transmilli korporasiyaların və onların biznes modellərinin transformasiyasına böyük təsir göstərir. Bu tendensiya müasir inkişaf mərhələsində, daim dəyişən biznes mühitində transmilli korporasiyaların səhmdarlarının və istehlakçıların maraqlarına cavab verən innovativ çevik biznes modellərinin uyğunlaşdırılmasını tələb edir. Belə ki, hər bir transmilli korporasiyanın əsas məqsədi mənfəət əldə etmək və səhmdarların maraqlarını təmin etməkdir. Bu məqsədə çatmaq üçün rəqiblərlə müqayisədə müəyyən üstünlüklərə malik olmaq lazımdır, çünki orqanik inkişafın açarı məhz rəqabətaparmaq qabiliyyətlidir.*

*Elmi məqalənin sonunda bir sıra rəsmi statistik məlumatlar verilir, investisiya baxımından ən aktiv proqram təminatına malik olan və innovativ informasiya texnologiyaları sahəsində çalışan transmilli korporasiyalardan bəhs edilir.*

***Açar sözlər:*** *transmillliləşmə, transmilli korporasiyalar, qloballaşma, transmilli ekspansiya, sənaye inqilabı, elmi-texniki tərəqqi, şəbəkə qloballaşması, texnologiyalar, dünya inteqrasiya ittifaqları, energetika, nüvə enerjisi, elektronika, kosmik sənaye, cihazqayırma, maşınqayırma.*

İstənilən cəmiyyətin məhsuldar qüvvələri üç komponentdən - təbii ehtiyatlardan, insan əməyi və kapitaldan, yaxud əmək alətlərindən və texnologiyadan ibarətdir. Bu komponentlərin əhəmiyyətində köklü dəyişikliklər 18-ci əsrdə sənaye inqilabının başlanğıcı ilə baş verməyə başladı və maşın istehsalının inkişafı iqtisadi təkrar istehsalda kapital və texnologiyanın rolunu kəskin şəkildə artırdı.

Sənaye inqilabı Böyük Britaniyada 18-ci əsrin ortalarında başlamış və 19-cu əsrin birinci yarısında hərtərəfli xarakter almış, sonra Avropa və Amerikanın digər ölkələrini əhatə etmişdir.

Bu inqilabın əsasını əl əməyindən maşın əməyinə, istehsalatdan fabrikə kütləvi keçid təşkil edirdi. Sənaye inqilabının əsas nəticəsi sənayeləşmə idi - əsasən kənd təsərrüfatı iqtisadiyyatından sənaye istehsalına keçid, aqrar cəmiyyətin sənaye cəmiyyətinə çevrilməsi ilə nəticələndi. Sənaye inqilabı müxtəlif ölkələrdə eyni vaxtda baş verməmişdir, lakin ümumilikdə bu dəyişikliklərin baş verdiyi dövrün XVIII əsrin ikinci yarısından başladığı və bütün XIX əsr boyu davam etdiyi güman edilir. Sənaye inqilabının xarakterik xüsusiyyəti iri maşın sənayesinə əsaslanan məhsuldar qüvvələrin

sürətlə artmasıdır. Sənaye İnqilabı təkcə maşınların kütləvi istifadəsinin başlanğıcı ilə deyil, həm də cəmiyyətin bütün strukturunun dəyişməsi ilə üst-üstə düşdü. Bu, sürətli urbanizasiya və əhalinin həyat səviyyəsinin yüksəlməsi ilə müşayiət olundu.

İqtisadiyyat üzrə Nobel mükafatı laureatı Con Hiksin fikrincə, İngiltərədəki sənaye inqilabının aşağıdakı iqtisadi və sosial amilləri əsas idi:

- xüsusi mülkiyyəti və müqavilə öhdəliklərini qoruyan institutların, xüsusilə müstəqil və effektiv məhkəmə sisteminin yaradılması;
- ticarətin yüksək inkişafı;
- istehsal amilləri bazarının, ilk növbədə torpaq bazarının formalaşması (yəni torpaq ticarəti azad oldu və feodal məhdudiyyətlərindən azad oldu);
- muzdlu əməyin geniş yayılması və məcburi əməyin geniş miqyasda tətbiqinin mümkünsüzlüyü;
- inkişaf etmiş maliyyə bazarları və aşağı kredit faizləri;
- elmin inkişafı.

İkinci sənaye inqilabının (və ya texnoloji inqilabın) başlanğıcı 1860-cı illərdə poladın əridilməsində bessemer metodunun tətbiqi hesab olunur, bu inqilabın kulminasiya nöqtəsi isə davamlı istehsal və istehsal xətlərinin yayılmasıdır. 1860-1870-ci illərdə texnoloji inqilab Qərbi Avropanı, ABŞ-ı və Yaponiyanı sürətlə bürüdü. Dəmir istehsalı, buxar maşınları və toxuculuq sənayesinin inkişafına əsaslanan ilk sənaye inqilabından fərqli olaraq, texnoloji inqilab yüksək keyfiyyətli polad istehsalı, dəmir yollarının, elektrik enerjisi və kimyəvi maddələrin yayılmasına əsaslanırdı. İkinci sənaye inqilabı 19-cu əsrin ikinci yarısı və 20-ci əsrin əvvəllərini əhatə edən və dünya sənayesində baş verən ingilabi bir transformasiya kimi dəyərləndirilir.

Üçüncü sənaye inqilabı, adətən, “rəqəmsal inqilab” adlanır. Bu inqilab istehsalda informasiya-kommunikasiya texnologiyalarından geniş istifadə edilməsinə təkan verdi və postsənaye cəmiyyətinin formalaşması ilə nəticələndi. Üçüncü sənaye inqilabı haqqında kütləvi nəşrlər 21-ci əsrin əvvəllərində ortaya çıxdı.
Müasir mövqelərdən XX əsrin ikinci yarısından başlayan üçüncü sənaye inqilabının ən mühüm nailiyyətləri müxtəlif kompüter texnologiyaları, avtomatlaşdırma və informasiya texnologiyalarının və elektronikanın inkişafıdır.

Transmilli korporasiyaların sənaye inqilablarında rolunu müxtəlif aspektlərdə - siyasi və iqtisadi, istehsal və ticarət, sahibkarlıq, sistemli makroiqtisadi aspektlərdə təhlil etmək olar. Transmilli korporasiyaların XXI əsrin astanasında bütün dünya iqtisadiyyatı miqyasında fəaliyyətinin makroiqtisadi təhlili və qloballaşma prosesi ilə əlaqəsi bu tədqiqatın əsas mövzularından biridir.

İkinci Dünya müharibəsindən sonra transmilliləşmə prosesin intensivliyi qeyri-bərabər olsa da, dövlətlərin iqtisadi cəhətdən qarşılıqlı fəaliyyətinin və qarşılıqlı asılılığının daim genişlənməsinə meyl yaranmağa başladı. Transmilli korporasiyalar və nəhəng beynəlxalq şirkətlər burada böyük rol oynamışlar və oynamaqda davam edirlər, dünya resurslarının böyük və əhəmiyyətli hissəsi məhz transmilli şirkətlərin həyata keçirdikləri iqtisadi əməliyyatların payına düşür. Transmilli korporasiyaların gücü və təsiri strateji əhəmiyyətli kəsb edən sahələr - maliyyə, əmək, texnologiya, xammal və komponentlərin təchizatı, xidmətlər və satışlar üzərində nəzarətin cəmləşməsi ilə bağlıdır.

Transmilli korporasiyaların bəzilərinin tarixi Birinci Sənaye İnqilabına təsadüf edir, lakin məhz 19-cu əsrin sonlarında onların fəaliyyəti geniş bir miqyas almışdır. Beynəlxalq korporasiyaların stimulları, motivasiyaları, fəaliyyət istiqamətləri və inkişaf templəri İkinci Dünya Müharibəsindən sonra, beynəlmiləlləşmə və qloballaşma proseslərinin sürətləndiyi dövrdə həm kəmiyyət, həm də keyfiyyət baxımından dəyişmişdir. Üstəlik qeyd etmək lazımdır ki, onların artan rolu bu proseslərin həm nəticəsi, həm də səbəbi olmuşdur.

Ümumiyyətlə, İkinci Dünya müharibəsindən sonra transmilli korporasiyaların inkişaf dinamikasını aşağıdakı kimi təqdim etmək olar:

- Onların genişmiqyaslı ekspansiyası 50-60-cı illərdə Amerika strukturları ilə başladı, sonra Yapon və Alman strukturlarını əhatə etdi.

- İngilis, Hollandiya və Fransa korporasiyaları bu dövrdə daha ənənəvi beynəlxalq oyunçular kimi meydana çıxdı.
- Bəzi zəif inkişaf etmiş ölkələrin sənaye və maliyyə qurumları da qloballaşma prosesinə cəlb edilmiş, beynəlxalq mövqelərini möhkəmləndirmişlər.
- 1980-ci illərdə bu dinamikaya Cənubi Koreyadan və bəzi inkişaf etməkdə olan ölkələrdən olan şirkətlər də qoşuldu.

90-cı illərdə transmilli korporasiyaların ekspansiyası gücləndi. Bunun səbəblərin aşağıda göstərilən kimi təsnif etmək olar:

- Birincisi, onlar bəzi yeni regionlar kəşf edə bildilər: Sovet İttifaqının dağılması və keçmiş sosialist ölkələrində ictimai-siyasi və sosial-iqtisadi oriyentasiyanın dəyişməsi nəticəsində dünya bazar sistemi geniş ərazilərə yayıldı.
- İkincisi, maliyyə sektorunun qloballaşması və maliyyə bazarlarının inteqrasiyası sürətləndi. Nəhəng transmilli maliyyə konqlomeratları yarandı. Qlobal maliyyə axınları beynəlxalq iqtisadi münasibətlərdə mühüm amilə çevrilmişdir.
- Üçüncüsü, özəlləşdirmə və kommersiyalaşdırma prosesləri əvvəllər mövcud olmayan yeni bazarlar və sənayelər açdı.
- Dördüncüsü, rəqabət bir sıra səbəblərə görə şiddətlənmişdir. Texnoloji inqilabın yayılması xüsusi bir əhəmiyyət kəsb etmişdir. Bir çox sənaye sahələrində yeni texnoloji imkanların yaranması nəticəsində daha üstün keyfiyyətlərə malik olan müxtəlif növ malların meydana gəlməsini asanlaşmışdır.
- Beşincisi, transmilli korporasiyaların qlobal miqyasda birləşməyə başladılar. Korporativ əməkdaşlıq və strateji ittifaqlar rəqabətin intensivliyinin artması və yeni ərazilərin bölgüsü fonunda baş verirdi. Bazarda, xüsusən də Asiya ölkələrindən yeni rəqiblər meydana çıxdı.
- Altıncısı, regional inteqrasiya proseslərinin və əməkdaşlıq sahələrinin əhəmiyyəti artmışdır ki, bu da birbaşa investisiyalara çoxşaxəli təsir göstərməyə başladı. Ən bariz nümunələrdən biri Avropada inteqrasiyanın dərinləşməsi və bu regionda vahid bazarın yaradılmasıdır.
- Yeddincisi, müasir texniki nailiyyətlər və onların tətbiqi texnologiyaları bütün dünyada yayıldı ki, bu da struktur dəyişikliklərinə səbəb oldu və sahibkarlıq üçün yeni imkanlar yaratmışdır (xüsusən də innovativ informasiya texnologiyaları sahəsində).
- Səkkizincisi, ayrı-ayrı bazarlar və milli iqtisadiyyatlar bir-birindən daha çox asılı vəziyyətə düşmüşdür. Ancaq eyni zamanda, ölkələr arasında texnoloji uçurum yaranmış, gəlirlərin fərqi və bərabərsizlik dərinləşmişdir.

İlk sənaye inqilablarının sosial-iqtisadi əsasını sənayeləşmə prosesi təşkil edirdi. Bu, sənayedə innovativ istehsal texnologiyalarının tətbiqinin, kənd təsərrüfatında quşçuluq təsərrüfatlarının mexanikləşdirilməsinin, tikintidə blok və monolit tikinti qurğularının istifadəsinin, nəqliyyatda tanker və konteyner gəmilərinin istehsalının, xidmətlər sahəsində özünə xidmət yeməkxanalarının dünyada yayılmasını davamlı bir prosesə çevirdi.

Lakin, dünya sənayesində vəziyyət Dördüncü Sənaye İnqilabı ilə dəyişdi, bunun mahiyyətini ən aydın şəkildə Dünya İqtisadi Forumunun təsisçisi və prezidenti Klaus Şvab internet, robototexnika, süni intellekt və öyrənmə cihazlarını onun əsas xüsusiyyətləri kimi göstərdi. Dördüncü Sənaye İnqilabının ən mühüm xüsusiyyətlərindən biri də bütün sənaye sahələrində canlı işçi qüvvəsinə ehtiyacın azalmasıdır.

Dördüncü Sənaye İnqilabının başlaması ilə informasiya və kommunikasiya texnologiyaları məhsullarının istehsalı Çinə və bir sıra Şərqi və Cənubi Asiya ölkələrini təmsil edən transmilli korporasiyaların ixtiyarına keçdi. Bu qrupa daxil olan məhsullara kompüter və telekommunikasiya avadanlıqları, məişət elektronikası və elektron komponentlər daxildir. Əgər 1990-cı illərdə informasiya və kommunikasiya texnologiyaları məhsullarını ixrac edən ölkələr arasında inkişaf etmiş ölkələr üstünlük təşkil edirdisə və burada ABŞ liderlik edirdisə, 2000-ci illərdən sonra vəziyyət dəyişdi. 2005-ci ildən bəri Çin dünya ixracatında birinci yeri tutur və 2014-cü ilə qədər Çin və Honq Konq birlikdə bu məhsul qrupunun dünya ixracının təxminən üçdə birini təşkil edirlər. Artıq bir neçə

ildir ki, Çin sənaye robotlarının quraşdırılması sürətinə görə dünya lideri olaraq qalır, 2017-ci ildə robot satışlarında rekord artım - 59% göstərib. Sənaye robotlar parkın böyüməsi Yaponiya, Koreya Respublikası və Cənub-Şərqi Asiyanın digər ölkələrində davam edir.

Robot texnikasının bütün sadalanan ölkə sənayelərdə quraşdırılmasına baxmayaraq, dünyada quraşdırılmış bütün sənaye robotlarının demək olar ki ¾ hissəsini təşkil edən beş dünya lideri var (Şəkil 1). 2020-ci ildə quraşdırılan robotların üçdə birindən çoxu Çin transmilli korporasiyaları tərəfindən istehsal olunmuşdur, 60%-i isə digər ölkələri təmsil edən transmilli korporasiyaların payına düşüb.

Müasir dövrdə transmilli korporasiyaların səmərəli inkişafında beynəlxalq texnologiya transferinin rolu çox yüksəkdir. BMT-nin verdiyi məlumata görə, texnoloji cəhətdən ən yeni məhsullar üzrə patentlərin və lisenziyaların təqribən 80%-i transmilli korporasiyalarda cəmləşib, 2020-ci ildə bütün elmi-tədqiqat işlərinin 80%-dən çoxunu, dünya ticarətinin 70%-dən çoxunu və sənaye istehsalının 50%-dən çoxunu maliyyələşdirən əsas investorlar məhz transmilli korporasiyalardır. Transmilli korporasiyaların belə geniş təsiri kritik sahələrə nəzarətin əldə edilməsindən irəli gəlmişdir: texnologiya, maliyyə, işçi qüvvəsi, komponentlərin tədarükü, xidmətlər və satışlar - bütün bu funksiyalar iri korporasiyalar tərəfindən nəzarətə götürülmüşdür.

**Şəkil 1. 2020-ci ildə TMK-lar tərəfindən sənaye robotlarının tədarükü**




Transmilli korporasiyaların rəhbərlik etdiyi bir çox innovativ layihələr əhəmiyyətli maliyyə vəsaiti tələb edir. Çox vaxt transmilli korporasiyalar Patent və Əmtəə Nişanlarının Ekspertizası təşkilatına o qədər böyük vəsait ayırırlar ki, bir layihənin dəyəri bəzi Avropa ölkələrinin elmi inkişaf büdcələri ilə müqayisə oluna bilər. Texnologiyanın maliyyələşdirilməsi şirkətlərə yüksək rəqabətli qlobal texnologiya bazarında uzunmüddətli perspektivdə davamlı rəqabət qabiliyyətini və davamlı artımı qoruyub saxlamağa imkan verir. Hətta böhran hadisələri və ya qlobal xəstəliklər transmilli korporasiyalar tərəfindən həyata keçirilən maliyyələşmənin miqyasına böyük təsir göstərmir.

Patent və Əmtəə Nişanlarının Ekspertizası təşkilatının 2020-ci ildə təqdim etdiyi illik hesabata görə, transmilli korporasiyaların hər il innovativ elmi tədqiqat işlərinə və yeni texnoloji həllərin tapılmasına milyardlarla dollar xərcləyirlər. Üstəlik, bu xərclər hər il əvvəlki dövrlərlə müqayisədə on faiz artır. Hazırda texnologiyaya sərmayə qoyuluşuna görə liderlik ABŞ TMK-larına məxsusdur - yeni texnologiyaların inkişafı üçün ən çox xərc çəkən şirkətlərin reytinqində 10-dan 6-sı ABŞ-da yerləşir.

Belə ki, əgər 2010-cu ildə ilk 10 transmilli korporasiya investisiyalara ümumilikdə 74,6 milyard dollar xərcləyibsə, 2020-ci ildə bu rəqəm 144,2 milyard dollar təşkil etmişdir. Eyni zamanda, 2010-cu ildə lider mövqeləri tutan 7 şirkət üstünlüyü Amazon, Alphabet Inc, Huawei və digər

şirkətlər ötüblər. Microsoft texnologiyaya sərmayəsini iki dəfə artıraraq 5-ci yerdən 7-ci yerə yüksəlmişdir, əczaçılıq şirkəti Roche Holding də investisiya axınını 7-dən 10.8 milyard dollara yüksəldərək, 8-ci yerdən 9-cu yerə yüksəlmişdir. Samsung həqiqətən fenomenal nəticələr əldə etmişdir: əgər 2010-cu ildə 6,5 milyard dollar investisiya ilə 9-cu yerdə idisə, 2020-ci ildə artıq 4-cü yerə qalxmışdır və onun investisiya axını demək olar ki, üç dəfə artaraq 15,3 milyard dollara çatmışdır. Qlobal iqtisadiyyatın sürətli inkişafı transmilli korporasiyaları innovativ inkişafa getdikcə daha çox vəsait xərcləməyə sövq edir ki, bu da iqtisadiyyatın inkişafını daha da stimullaşdırır. Texnologiyaya investisiyaların artırılması istiqamətindəki bu tendensiya 21-ci əsrdə iqtisadi inkişafın əsas göstəricilərindən biridir.

Statistik məlumatlara əsasən investisiya baxımından ən aktiv proqram təminatı və internet sahəsində çalışan transmilli korporasiyalardır ki, hər il texnologiyaların inkişafına 60 milyard dollardan çox vəsait ayırırlar. Qısa müddətdə proqram təminatı və İnternet sənayesi ağıllı texnologiyaların, əşyaların interneti və bu kimi digər innovativ sahələrin sürətli inkişafı hesabına daha da kapitaltutumlu ola bilər. Düzdür, 2020-ci ildə bütün sənaye sahələrinə investisiyaların ümumi azalması müşahidə olunmuşdur, ən çox zərər çəkən sahələrdən biri də proqram təminatı və internet sənayesi olmuşdur. Bunun səbəbi dünya miqyasında hökm sürən COVID-19 pandemiyası ilə izah oluna bilər.

## ƏDƏBİYYAT

1. Uluslararası Çalışma Örgütü. Çokuluslu Şirketler ve Sosyal Politika. Ankara: 1993
2. Financial Globalization and Exchange Rates" Philip R. Lane Gian Maria, 2018
3. Gilpin, Robert. Global Political Economy. Princeton University Press, 2011
4. David W. Conkin. Comparative Economic Systems. Cambridge University Press, 1991
5. W. Ethier. Modern International Ekonomics. Vol I-II. 2 nd edition, CpringerVerlag, 1994
6. В.Б. Буглай, Н.Н. Ливенцев. Международные экономические отношения. Москва: 1996
7. Е.Ф. Авдокушин. Международные экономические отношения. Москва: 1999
8. П. Линдерт. Экономика мирохозяйственных связей. Москва: 1992
9. К.А. Семенов. Международные экономические отношения. Москва: 1998
10. Robertson R. Globalization: social theory and global culture. London: Sage, 1992
11. Dunning C.H. The Globalization of Business. London: Routledge, 1993

## SUMMARY

**Elshan Nasirov, Dilruba Gasimova**

**THE ROLE OF TRANSNATIONAL CORPORATIONS IN INDUSTRIAL REVOLUTIONS**

The scientific article examines the history of industrial revolutions, causes of occurence, evolutionary phases, economic and social factors of industrial revolutions and the role of transnational corporations in these processes. The article emphasizes that as a result of industrial revolutions, rapid processes of urbanization took place in the world, accompanied by an increase in the standard of living of the population.

The term "industrial revolution" is considered in the article as a set of technical, technological, In the scientific article, it is noted that transnational corporations played a crucial role in the occurrence of industrial revolutions.

The scientific hypothesis of the study also lies in the fact that the Fourth Industrial Revolution greatly affects the transformation of transnational corporations and their business models. This trend requires the adaptation of innovative flexible business models that meet the interests of shareholders of multinational corporations and consumers at the current stage of development, in an ever-changing

business environment. Thus, the main goal of each transnational corporation is to make a profit and ensure the interests of shareholders. To achieve this goal, it is necessary to have certain advantages over competitors, since competitiveness is the key to organic development.

At the end of the scientific article, a number of official statistical data is given, and transnational corporations with the most active software in terms of investment and working in the field of innovative information technologies are mentioned.

***Key words:*** *transnationalization, transnational corporations, globalization, transnational expansion, Industrial Revolution, scientific and technological progress, network globalization, Technologies, world integration unions, energy, nuclear power, electronics, space industry, instrument-making, mechanical engineering*

## РЕЗЮМЕ

**Эльшан Насиров, Дилруба Гасымова**

## РОЛЬ ТРАНСНАЦИОНАЛЬНЫХ КОРПОРАЦИЙ В ПРОМЫШЛЕННЫХ РЕВОЛЮЦИЯХ

В научной статье рассмотрены история, причины возникновения, фазы эволюции, экономические и социальные факторы промышленных революций и роль транснациональных корпораций в этих процессах.

В научной статье подчеркивается, что в результате промышленных революций в мире происходили бурные процессы урбанизации, сопровождавшиеся повышением уровня жизни населения. При этом термин “промышленная революция” в статье рассматривался как совокупность технических, технологических, социальных, институциональных и других изменений, связанных с заменой ручного труда машинным.

В научной статье отмечается, что решающую роль в возникновении промышленных революций сыграли именно транснациональные корпорации.

Научная гипотеза исследования также заключается в том, что четвертая промышленная революция оказывает большое влияние на трансформацию транснациональных корпораций и их бизнес-моделей. Эта тенденция требует адаптации инновационных гибких бизнес-моделей, отвечающих интересам акционеров транснациональных корпораций и потребителей на современном этапе развития, в постоянно меняющейся бизнес-среде. Таким образом, основной целью каждой транснациональной корпорации является получение прибыли и обеспечение интересов акционеров. Для достижения этой цели необходимо иметь определенные преимущества по сравнению с конкурентами, так как именно конкурентоспособность является ключом к органическому развитию.

В конце научной статьи приводится ряд официальных статистических данных, в которых говорится о транснациональных корпорациях, обладающих наиболее активным программным обеспечением с точки зрения инвестиций и работающих в области инновационных информационных технологий.

***Ключевые слова:*** *транснационализация, транснациональные корпорации, глобализация, транснациональная экспансия, промышленная революция, научно-технический прогресс, сетевая глобализация, технологии, мировые интеграционные союзы, энергетика, атомная энергетика, электроника, космическая промышленность, приборостроение, машиностроение.*

---

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*
***Məqalə daxil olmuşdur:*** *4 noyabr 2021-ci il*
***Çapa qəbul edilmişdir:*** *2 dekabr 2021-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2021, № 2 (111), 165-169
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2021, № 2 (111), 165-169
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2021, № 2 (111), 165-169

**HAVVA ADIGÖZƏLOVA**
*Naxçıvan Dövlət Universiteti*
*eva.alieva.2012@mail.ru*

**UOT: 339.1**

# İNNOVASİYALARIN İDARƏ EDİLMƏSİNİN TƏŞKİLİ

*İnnovasiyaların idarə edilməsi təşkilatın fəaliyyətinin müxtəlif aspektlərinin davamlı təkmilləşdirilməsi prosesidir. Bu, bütün sahələrin texniki, texnoloji və digər modernləşdirilməsini, o cümlədən kadrların "təkmilləşdirilməsini" əhatə edir ki, bu da hər bir işçinin innovasiya mənbəyinə çevrilməsinə, innovasiya prosesinin iştirakçılarının sayının artmasına və müəssisənin fəaliyyətinin yenilənməsinə və ya istiqamətlərinin dəyişdirilməsinə gətirib çıxarır. Bundan əlavə, innovasiyaların idarə edilməsi bazar ehtiyaclarının tədqiqini (yeni məhsulların, işlərin və xidmətlərin tələb olunan payının müəyyən edilməsi; modernləşdirmə tələb edən məhsulların və s.) əhatə edir.*

*Müəssisədə yeni texnologiyaların inkişafı və tətbiqi, səriştəli menecerlərdən - innovasiyanın maliyyə gəlirliyini hesablaya bilən və müsbət nəticə ilə onu müəssisənin infrastrukturuna səriştəli şəkildə təqdim etməyi tələb edir.*

*Eyni zamanda, innovasiya menecmenti demək olar ki, hər hansı bir müasir müəssisənin həyati fəaliyyət növü kimi çıxış edir və bunun səbəbləri yalnız elmi və texnoloji tərəqqinin obyektiv tələbləri deyil, həm də bazarın müxtəlif seqmentlərində rəqabət şərtləri və sairdir. Yuxarıda göstərilənləri nəzərə alaraq, müəssisələrdə və sənayedəki yeniliklərin idarə edilməsi prosesi, ilk növbədə, müxtəlif inkubasiya təşkilati formalarının bazar subyektlərinə verdiyi imkanlara, məsələn, biznes inkubatoru, texnoparklar, FIG, vençur şirkətləri və s. Bu qurumların fəaliyyəti müəssisələrə riskləri əhəmiyyətli dərəcədə azaltmağa və innovasiya menecmentinin səmərəliliyini artırmağa imkan verir.*

*Məqalədə innovativ idarəetmənin təşkilati formaları, innovasiyanın intensivliyi və miqyasının idarəetmənin təşkilati strukturuna təsiri araşdırılmışdır. Bundan başqa, təşkilatda innovasiyaların idarə edilməsinin yeni təşkilati formalarının seçilməsi və yaradılması ardıcıl proseslər şəklində tədqiq edilmiş, xüsusilə qeyd edilmişdir ki, təşkilatda innovasiyaların idarə edilməsinin təşkilati məsələlərinin həllində vacib məqam təşkilati idarəetmə strukturunun konkret növünün seçilməsidir. Bütün növ innovasiyalar üçün universal təşkilati forma yoxdur. Amma konkret yeniliyin mahiyyətindən və xarakterindən asılı olaraq, ən effektiv təşkilati formaları seçmək olar.*

***Açar sözlər:*** *innovasiya, innovativ idarəetmə, təşkilati formalar, vencur, innovativ fəaliyyət*

Müasir istehsalatda innovasiyaların idarə edilməsi istehsalın inkişafının təmin edilməsi, onun bütün elementlərinin və alt sistemlərinin təkmilləşdirilməsi ilə bağlı ümumilikdə idarəetmə fəaliyyətinin ən mühüm tərkib hissəsidir. İnnovasiyaların idarə edilməsi müvafiq idarəetmə sisteminin formalaşmasını, yəni, əsasən, həyata keçirilən innovasiyaların xarakteri ilə müəyyən edilən innovasiyaların idarə edilməsinin forma və üsullarını nəzərdə tutur.

İstehsal prosesinə innovasiyaların tətbiqinin uğuru bir çox cəhətdən innovasiyanın rolunu və əhəmiyyətini dərk etməkdən asılıdır. Təşkilatın inkişaf strategiyasının seçimində texnoloji amillərin artan əhəmiyyəti təşkilati idarəetmə strukturlarının müvafiq keyfiyyət transformasiyasında əks olunur. Bu baxımdan, bu strukturlarda dəyişikliklərin qarşılıqlı asılılığının və təşkilatın seçdiyi spesifik innovasiya strategiyasının qiymətləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Qiymətləndirmənin nəticələri qəbul edilmiş strategiya çərçivəsində innovasiyaların həyat dövrünün bütün mərhələlərində innovativ fəaliyyətin səmərəli idarə edilməsi problemlərinin həlli üçün

zəruridir.

***İnnovasiyanın intensivliyi və miqyasının idarəetmənin təşkilati strukturuna təsiri***

***Cədvəl 1.***

| İnnovasiyanın intensivliyi və əhatə dairəsi | Təşkilati yeniliklər |
|---|---|
| İxtisaslaşdırılmış istehsal<br>İxtisaslaşdırılmış texnologiya<br>Mənimsənilmiş bazar | Məhsulun təkmilləşdirilməsi mövcud təşkilat daxilində həyata keçirilə bilər |
| Yeni məhsullar<br>İxtisaslaşdırılmış texnologiya<br>Mənimsənilmiş bazar | Məhsulun inkişafı mövcud bir təşkilat çərçivəsində həyata keçirilə bilər. tədqiqat və təkmilləşdirmə işləri şöbələrində yeni bir dizayn qrupu yaradılır. |
| İxtisaslaşdırılmış istehsal<br>İxtisaslaşdırılmış texnologiya<br>Yeni bazar | Mövcud təşkilat praktiki olaraq dəyişmir, marketinq xidmətinə yeni bazarı öyrənmək vəzifəsi həvalə olunur, yeni satış qrupu yaradıla bilər. |
| Yeni məhsullar<br>İxtisaslaşdırılmış texnologiya<br>Yeni bazar | Tədqiqat və təkmilləşdirmə işləri və marketinq işçilərindən və ya yeni tədqiqat və təkmilləşdirmə işləri və satış qruplarından ibarət yeni məhsul qrupu yaradıla bilər; Yeni məhsulların istehsalı mövcud istehsal müəssisələrində həyata keçirilə bilər. |
| Yeni məhsullar<br>Yeni texnologiya<br>Mənimsənilmiş bazar | Yeni məhsullar qrupu tədqiqat və təkmilləşdirmə işləri, istehsal, öz fəaliyyətində marketinq və satış xidmətlərindən istifadə edən xidmət personalından təşkil edilə bilər. |
| Yeni məhsullar<br>Yeni texnologiya<br>Yeni bazar | Yeni bir iş xətti mövcud təşkilati strukturu tamamlamaq üçün müəssisə tərəfindən dəstəklənən bölmələr şəklində tamamilə yeni bir təşkilat və ya yeni şöbə tələb edilir. |

Bütövlükdə iqtisadi vəziyyətin kifayət qədər sabit olması şəraitində təşkilatın daxili və xarici mühitində baş verən dinamik proseslərin təhlili təşkilati və texnoloji dəyişikliklər arasındakı əlaqəni müəyyən etməyə imkan verir. Təhlilin nəticələri elmi, texniki və texnoloji innovasiyaların xarakteri, intensivliyi və miqyasının təşkilati və idarəetmə innovasiyaların məzmununa və istiqamətinə təsirini təsəvvür etməyə imkan verir. Birincilər ikincinin bir növ zərurət və imkan mənbəyidir, onların yaranmasında müəyyənedici amildir.

Bundan əlavə, innovasiyaları idarə etmək üçün təşkilati strukturların yeni keyfiyyətlərini təmin edən təşkilati və idarəetmə dəyişiklikləri, əvvəlki səviyyə ilə və rəqiblərlə müqayisədə, onların səlahiyyət dairəsinin genişlənməsinə və nəticədə təşkilatın ümumi innovasiya səviyyəsinin artmasına səbəb olur.

Təşkilatda innovasiyaların idarə edilməsinin təşkilati məsələlərinin həllində vacib məqam təşkilati idarəetmə strukturunun konkret növünün seçilməsidir. Bütün növ innovasiyalar üçün universal təşkilati forma yoxdur. Amma konkret yeniliyin mahiyyətindən və xarakterindən asılı olaraq, ən effektiv təşkilati formaları seçmək olar. Seçim aşağıdakılardan asılı olacaq:

- təşkilatın dəyişməyə hazır olmasından;
- uzunmüddətli texnologiya siyasətində əsas meyllərdən;
- ideyaların yaranması üçün əlverişli mühitin və onların həyata keçirilməsi üçün resurs bazasının olmasından;
- xarici mühitin vəziyyətinin qavranılma dərəcəsi və onun dəyişikliklərinə reaksiya sürətindən;

 daxili və xarici kommunikasiyaların vəziyyətindən;

 təşkilatdaxili ziddiyyətlərin və münaqişələrin həlli üçün əlverişli mühitdən.

Təcrübə göstərir ki, təşkilati formalar, eləcə də qabaqcıl təşkilatların innovativ fəaliyyətini idarə etmək üsulları və vasitələri heç bir əsaslı fərqə malik deyil və digərləri ilə müqayisədə mükəmməlliyi ilə fərqlənmir. Lakin bu cür təşkilatlar, fəaliyyətlərinin xarakterinə və təbiətinə, yəni innovasiyaların ardıcıllığına, innovativ ideyaların mənbələrinə, bütövlükdə təşkilati strukturun miqyasına və növünə, təşkilati strukturun xarakterinə, yeni məhsullar və texnologiyalar bazarının parametrlərinə və s. ən uyğun olan vasitələrdən istifadə edirlər.

Beləliklə, təşkilatda innovasiyaların idarə edilməsinin yeni təşkilati formalarının seçilməsi və yaradılması aşağıdakı proseslərin məcmusudur:

- innovasiyanın bütün aspektlərini əhatə edən xidmətlər sisteminin formalaşması;
- bu xidmətlərin səlahiyyət dairəsinin müəyyən edilməsi;
- vəzifələrin, məsuliyyətlərin bölüşdürülməsi və həm sistemin özündə, həm də digər şöbələrlə, ilk növbədə marketinq xidməti ilə bölmələr arası əlaqələrin qurulması.

Eyni zamanda, innovasiya xidmətləri çərçivəsində konkret iş növlərinin bölgüsü həyata keçirilir.

İnnovasiyaların idarə edilməsinin təşkilinin xüsusiyyətlərini müəyyən edən əsas əlamət təsərrüfat subyektinin profilidir.

Burada, əsas məqsədi elmi-tədqiqat işlərinin aparılması olan elmi-tədqiqat, mühəndislik və digər təşkilatların və innovasiyanın ümumi iqtisadi məqsədlərə nail olmaq vasitəsi olduğu təşkilatların innovasiya fəaliyyətinin xüsusiyyətlərini nəzərə almaq lazımdır. Təcrübədə hər iki halda innovasiyaların idarə edilməsinin təşkilinin müxtəlif formalarından istifadə olunur.

İnnovasiyaların idarə edilməsinin təşkilati əsasını hansı strukturların təşkil etməsindən asılı olaraq, aşağıdakı formaları fərqləndirilir:

- innovativ fəaliyyətləri ayrıca idarə edən ixtisaslaşmış strukturları olan təşkilatlar;
- ixtisaslaşdırılmış strukturları olmayan təşkilatlar (innovasiyaların idarə edilməsi funksiyaları ənənəvi olaraq mövcud olan funksional və istehsal bölmələri arasında bölüşdürülür);
- digər şöbələrlə qarşılıqlı əlaqədə olan və öz səlahiyyətləri daxilində onlara həqiqətən təsir etmək imkanına malik olan ixtisaslaşmış xidmətin olduğu qarışıq tipli strukturları olan təşkilatlar.

İnnovativ fəaliyyətin idarə edilməsinin təşkilinin mühüm xarakteristikası ondan ibarətdir ki, burada təşkilatın demək olar ki, bütün funksional və istehsalat bölmələri iştirak edir. Onların iştirak dərəcəsinin artması ilə innovativ proseslər daha aktiv olur və ümumilikdə istehsal və təsərrüfat fəaliyyətinin yekun effekti mütənasib olaraq artır. Bu asılılıq o deməkdir ki, innovasiyaların idarə edilməsinin təşkilinin üçüncü forması ən rasionaldır.

Əsas istehsalı elmi-tədqiqat və təkmilləşdirmə işləri ilə təmin edən ixtisaslaşdırılmış xidmətlər yüksək elmi-texniki potensiala və öz təcrübə-istehsal bazasına malik və sənayedə aparıcı mövqe tutan iri təşkilatlarda daha effektivdir.

Müasir innovativ idarəetmə təcrübəsində hər bir təşkilatın fəaliyyətinin xarici və daxili şəraitinin unikallığını dəqiq əks etdirən müxtəlif təşkilati formalar vardır. İnnovasiyanın bazar rəqabətinə yönəlməsini gücləndirmək üçün sənayecə inkişaf etmiş ölkələrin şirkətləri tərəfindən həyata keçirilən innovasiyaların idarə edilməsinin təşkilinin əsas üsulları aşağıdakılardır:

- perspektiv inkişaf xidmətlərinin təşkilati ayrılması, yəni "innovativ" strukturların tətbiqi;
- "bazar-strateji" strukturların və onların növlərinin istifadəsi
- üfüqi koordinasiya formalarının inkişafı, yəni layihələrin idarə olunması.

Bildiyimiz kimi, innovasiya prosesinin əsas mərhələlərindən biri konkret innovasiyaların kütləvi istehsalıdır. Bu bir neçə yolla təmin edilir:

- birincisi, əvvəllər yaradılmış struktur çərçivəsində bu prosesə rəhbərlik edən müvafiq ixtisaslaşmış xidmətlərin formalaşdırılması şərti ilə;
- ikincisi, buna xüsusi diqqət yetirən yeni yaradılan strukturlarda.

Bu və ya digər variantın seçilməsi istehsalçı tərəfindən seçilmiş innovativ fəaliyyətin idarə

edilməsinin xüsusi təşkili formasından asılıdır.

İnnovativ idarəetmənin dünya təcrübəsində innovasiyaların inkişafı və mənimsənilməsinin bütün məlum təşkilati formaları şərti olaraq bir neçə böyük qrupa bölünür:

- yeni məhsulların inkişafı üçün xüsusi bölmələr (ilk dəfə 50-ci illərdə formalaşmağa başladı);
- təşkilatdaxili vençur bölmələri (bu formanın bir variantı yeni biznes sahələrinin inkişafı üçün yaradılan mərkəzlərdir);
- təsərrüfat fəaliyyətinin hüdudlarını birləşdirən və onun xüsusiyyətlərini nəzərə almaqla konkret istehsal daxilində gündəlik və innovativ proseslərin yüksək səviyyədə rasional birləşməsinə nail olmağa imkan verən bölmələr.

Beləliklə, elmi-texniki sahədə yeni bilik və texnologiyaların mübadiləsi və eləcə də xarici ölkələrin təcrübəsindən istifadə edərək ölkəmizdə innovasiya inkişafı strategiyalarının tətbiqi elmi və texnoloji inkişafda əhəmiyyətli rol oynaya bilər.

Elmi-texniki tərəqqinin nailiyyətlərindən istifadə etməklə yeni məhsulların işlənib hazırlanması üzrə mərkəzlərin yaradılması və innovasiya fəaliyyətiilə məşğul olan istehsalın müxtəlif bölmələrində innovasiya fəaliyyətini stimullaşdıran xüsusi fondların yaradılması milli innovasiya sisteminin formalaşması və inkişafı baxımından zəruri hesab edilir.`

## ƏDƏBİYYAT


1. Abbasov A.B. Biznesin əsasları. Bakı: 2005
2. Atakişiyev M., Süleymanov Q. İnnovasiya menecmenti. Bakı: 2004
3. Quliyev T.Ə. Menecmentin (idarəetmənin) əsasları. Bakı: 2001
4. Şahbazov K.A., Məmmədov M.H., Həsənov H.S. Menecment. Bakı: 2005
5. Евдокимова Т.Г., Маховикова Г.А., Уфимова Н.Ф. Инновационный менеджмент. Санкт-Петербург: 2005
6. Мединский В.Г. Инновационный менеджмент. Москва: 2004
7. www.azercell.com., www.azersun.com


## SUMMARY

**Havva Adigozalova**

## ORGANIZATION OF INNOVATION MANAGEMENT


Innovation management is a process of continuous improvement of various aspects of an organization's activities.

It provides for technical, technological and other modernization of all industries, including "staff development", which leads to the transformation of each employee into a source of innovation, an increase in the number of participants in the innovation process and the renewal or change of the company's activities.

In addition, innovation management involves the study of market needs. (determination of the required share of new products, products requiring modernization, etc.)

The development and introduction of new technologies at the enterprise require competent managers - who are able to calculate the financial profitability of innovation and, with a positive result, competently introduce it into the infrastructure of the enterprise.

At the same time, innovation management acts as a vital type of activity of almost any modern enterprise and the reasons for this are explained not only by the objective requirements of scientific and technological progress, but also by the conditions of competition in various segments of the market.

Taking into account the foregoing, it is possible to say that the process of managing innovation in enterprises and industries, first of all, refers to the opportunities that various incubation organizational forms provide to market entities, for example, business incubator, technoparks, FIG,

venture companies, etc. The activities of these institutions enable enterprises to significantly reduce risks and increase the efficiency of innovation management.

The article studies the organizational forms of innovation management, the impact of the intensity and scale of innovation on the organizational structure of management.

In addition, the selection and creation of new organizational forms of innovation management in the organization have been studied in the form of sequential processes.

There is no universal organizational form for all types of innovations. But depending on the essence and nature of a particular innovation, you can choose the most effective organizational forms.

***Key words***: *innovation, innovative management, organizational forms, venture, innovative activity*

**РЕЗЮМЕ**

**Хавва Адыгезалова**

**ОРГАНИЗАЦИЯ УПРАВЛЕНИЯ ИННОВАЦИЯМИ**

Управление инновациями-это процесс постоянного совершенствования различных аспектов деятельности организации. Она предполагает техническую, технологическую и иную модернизацию всех отраслей, в том числе "совершенствование" персонала, что приводит к превращению каждого сотрудника в источник инноваций, увеличению числа участников инновационного процесса, обновлению или изменению направлений деятельности предприятия. Кроме того, управление инновациями включает в себя изучение потребностей рынка (определение требуемой доли новых продуктов, работ и услуг; продуктов, требующих модернизации и т. д.).

Разработка и внедрение новых технологий на предприятии требует от компетентных менеджеров способность рассчитать финансовую отдачу от инновации и при положительном результате грамотно внедрить ее в инфраструктуру предприятия.

В то же время инновационный менеджмент выступает жизненно важным видом деятельности практически любого современного предприятия, и его причинами являются не только объективные требования научно-технического прогресса, но и условия конкуренции в различных сегментах рынка и т.

Учитывая вышесказанное, процесс управления инновациями на предприятиях и в промышленности зависит, прежде всего, от возможностей, предоставляемых субъектам рынка различными инкубационными организационными формами, например, бизнес-инкубаторами, технопарками, ФГУП-ами, венчурными компаниями и др. Деятельность этих учреждений позволяет предприятиям значительно снизить риски и повысить эффективность инновационного менеджмента.

В статье рассмотрены организационные формы инновационного менеджмента, влияние интенсивности и масштаба инноваций на организационную структуру управления. Кроме того, выбор и создание новых организационных форм управления инновациями в организации изучались в виде последовательных процессов. Особо отмечалось, что важным моментом в решении организационных вопросов управления инновациями в организации является выбор конкретного типа организационной структуры управления. Не существует универсальной организационной формы для всех видов инноваций. Но в зависимости от характера и характера конкретной инновации можно выбрать наиболее эффективные организационные формы.

***Ключевые слова:*** *инновация, инновационный менеджмент, организационные формы, венчур, инновационная деятельность*

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Ağarza Rüstəmov*
***Məqalə daxil olmuşdur:*** *4 noyabr 2021-ci il*
***Çapa qəbul edilmişdir:*** *2 dekabr 2021-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2021, № 2 (111), 170-174
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2021, № 2 (111), 170-174
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2021, № 2 (111), 170-174

**ƏLİ CABBAROV**
*Naxçıvan Dövlət Universiteti*
*acabbarov@mail.ru*

**UOT: 338.48**

# ZƏNGƏZUR - İSTANBUL MARŞRUTU ÜZƏRİNDƏ NAXÇIVANIN TRANZİT İMKANLARI

*Otuz ilə yaxın bir müddətdə erməni işğalı altında qalmış Azərbaycanın Qarabağ torpaqlarının azad olunması ilə nəticələnmiş 44 günlük şanlı Vətən müharibəsindən sonra 2020-ci ilin 10 noyabrında Azərbaycan, Rusiya və Ermənistan tərəflərinin imzaladığı üçtərəfli bəyanatdan sonra Cənubi Qafqazda yeni əməkdaşlıq perspektivlərini nəzərdə tutan kommunikasiyaların bərpa olunması və Zəngəzur dəhlizinin açılması bu müddət ərzində blokada şəraitində qalmış Naxçıvan Muxtar Respublikasının yeni tranzit imkanlarını da gündəmə gətirir. Bu məqalədə Zəngəzur – İstanbul marşrutu üzərində açar mövqe tutan Naxçıvan Muxtar Respublikasının ölkələr arasında yaradılacaq iqtisadi əlqələrdə, həmçinin beynəlxalq ticarətdəki gələcək mövqeyi təhlil olunmuşdur.*

***Açar sözlər:*** *Zəngəzur dəhlizi, Naxçıvan, tranzit əlaqələr, geostrateji münasibətlər*

Cənubi Qafqaz yaxın iki yüz il ərzində oluqca mürəkkəb hadisələrin baş veridiyi məkan olmuşdur. XIX əsrin əvvələrində burada çar Rusiyasının təsir gücünün artması nəticəsində sonrakı dövrlərdə burada yaşayan xalqların həyatında dərin izlər qoyacaq proseslər baş vermişdir. Xüsusən müxtəlif ölkələrdən ermənilərin bu ərazilərə köçürülməsi ilə yaranan demoqrafik vəziyyət XX əsrin əvvəllərində azərbaycanlıların ədalətsiz şəkildə öz torpaqlarını tərk etməsinə səbəb olmuş, bir sıra ərazilər, o cümlədən tarixi Zəngəzur mahalının qərb hissəsi əsassız şəkildə yeni yaradılmış erməni dövlətinə hədiyyə olunmuşdur (11). Bu sonrakı dövrlərdə ermənilərin bölgədə sülh və dinc  yanaşı yaşamağa qarşı daha da aqressiv olmasına rəvac verməklə, nəhayət, 1988-ci ildə SSRİ-nin çöküşü ilə başlanan yeni mərhələdə Azərbaycanın Qarabağ regionunun dağlıq hissəsinin və ona bitişk olan 7 rayonun işğal olunması ilə nəticələndi (15). 1994-cü ildə imzalanmış atəşkəsdən sonra aparılan danışıqların heç bir fayda verməməsi və erməni tərəfinin daha da azğınlaşmasına cavab olaraq 2020-ci ilin 27 sentyabrında başladılan sürətli əks-hücum nəticəsində müzəffər Azərbaycan Ordusu ərazi bütövlüyümüzü təmin edərək işğalçıları torpaqlarımızdan qovmuşdur. İmzalanmış üçtərəfli bəyanatın şərtlərinə əsasən keçmiş sovet dövründə mövcud olmuş kommunikasiyalar bərpa olunmalı və Zəngəzur dəhlizi açılmalıdır (1).

***Zəngəzur dəhlizi və yeni geostrateji reallıq.***

İşğalçı Ermənistanın ötən yüz il ərzində, xüsusən 1988-ci ildən başlayaraq həyata keçirdiyi təcavüzkarlıq siyasəti nəticəsində Cənubi Qafqaz tarixinin ən ağır dövrlərindən birini yaşamışdır (12). Erməni millətçilərinin təcavüz və qəsbkarlıq əməllərindən maddi və mənəvi əziyyət çəkən bu ölkədəki soydaşlarımız və Azərbaycan Respublikası vətəndaşları ilə yanaşı, əslində bütün bölgədə yaşayan insanlar üçün bu dövr risk və təhlükələrlə dolu olmuşdur. Ermənilər təkcə Qarabağda və Azərbaycanın digər işğal olunmuş ərazilərində bəd əməllər törətməklə kifayətlənməyərək bütün bölgədə hamının əziyyət çəkdiyi terror və ekoloji terror törətmiş, turizm səyahətləri və uzunmüddətli invetisiyalar üçün üçün riskli bölgə antireklamı formalaşdırılmış, işğal altında saxladığı bölgəni narkotrafik koridoruna və radikal terror ünsürlərinin bəsləndiyi münbit məkana çevirmişlər. Nəticədə hər cür təbii-iqlim, mineral, su, torpaq, meşə, unikal təbiət guşələri və tarixi zənginliklərlə dolu olan bu mühüm bölgə yaranmış iqtisadi fürsətlərdən yararlana bilməyərək, ümumilikdə, xeyli zərərə uğramışdır. Şübhəsiz, öz təcavüzkar əməllərinin qarşılığında iqtisadi və humanitar layihələrdən kənarda qalaraq təklənmiş Ermənistan da xeyli zərərə uğrayaraq ciddi böhrana məruz qalmışdır. Bədnam xislətinə hopmuş terror əməllərinin ağır nəticələrindən dərs çıxarmayan Ermənistanın təslim olması ilə nəticələnən 44 günlük Vətən

müharibəsindən sonrakı yeni geostrateji vəziyyət bu coğrafiyanı paylaşan bütün dövlətlər və onların xalqları üçün yeni perspektivlər vəd edir. Qarabağda işğalın sona çatdırılması, burada normal həyat üçün zəruri şəraitin yaradılması, məcburi köçkünlərin öz doğma yurdlarına qaytarılması, açılacaq Zəngəzur koridoru da Azərbaycan və Ermənistan ilə yanaşı, bu bölgənin inkişafında maraqlı olan digər qonşu və böyük dövlətlərin də diqqətini çəkməkdədir.

Zəngəzur koridoru Azərbaycanın Zəngilan rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında Ermənistan ərazisində qalmış Qərbi Zəngəzur vilayətinin Mehri rayonu ərazisindən keçən 42 kilometrlik məsafədədir (21). 1988-ci ilə qədər burada mövcud olan yol və rabitə əlaqələri vasitəsilə təkcə Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə deyil, eləcə də bütün Ermənistanın da demək olar ki, əsas nəqliyyat və lojistika məsələləri həll olunurdu. Belə bir fakt vardır ki, o zamanlar buradan keçən yüklərin təxminən 85 faizi məhz Ermənistan üçün ünvanlanırdı (16). Yaxud o zaman Azərbaycan dəmir yolunun tabeliyndə olan bu hissənin saxlanılması və işlədilməsi üçün Azərbaycan Respublikası hökumətinin nə qədər vəsait sərf etdiyi də indi hər kəsə məlumdur. Ancaq təəssüf ki, erməni işğalı ilə bölgənin can damarı olmuş bu mühüm kommunkasiya marşrutu da bağlanmış və ermənilər burada mövcud olmuş bütün infrastrukturu və maddi-texniki imkanları sonuna qədər məhv etmişlər. Bununla yanaşı artıq münaqişənin keçmişdə qaldığı yeni dövrdə Azərbaycan Respublikası bütün iqtisadi imkanları ilə bu marşrutun da bərpası üçün lazım olan hər bir tədbirin həyata keçirilməsində öz qətiyyətini ortaya qoymaqla bu istiqamətdə də qalib ölkəyə layiq olan siyasət yeridir. 2021-ci il oktyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən 123,8 kilometr uzunluğunda Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) təməlini qoyması və bu istiqamətdə işlərin sürətlə davam etdirilməsi buna misaldır (18). Belə ki, hazırda erməni işğalından azad olunmuş ərazilərdə ümumilikdə 665,4 kilometr uzunluğu olan 10 əsas avtomobil yolu inşa olunur. Bunlar uzunluğu 101 kilometrlik olan "Zəfər" yolu, 81,6 kilometr olan Əhmədbəyli-Füzuli-Şuşa yolu, 80,7 kilometr olan Toğana-Kəlbəcər-İstisu yolu, 72,3 kilometr olan Kəlbəcər-Laçın yolu, 123,8 kilometr olan Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd yolu, 22 kilometr olan Talış-Tapqaraqoyunlu-Qaşaltı yolu, 83 kilometr olan Xudafərin-Qubadlı-Laçın yolu, 43 kilometr olan Şükürbəyli-Cəbrayıl-Hadrut yolu, 13 kilometr olan Füzuli-Hadrut yolu, 45 kilometr olan Bərdə-Ağdam yoludur. Bundan əlavə, dəhliz boyunca 166 kilometr məsafədə Horadiz-Ordubad dəmir yolu da yenidən inşa ediləcək (22).

Zəngəzur dəhlizi Türk dünyasının yeni qapısıdır. Bu qapı XX əsrin əvvələrində Zəngəzurun heç bir əsası olmadan zorla Ermənistana verilməsi ilə coğrafi olaraq kəsilmiş birbaşa yolun yenidən bərpası olacaq. Zamanın diqtəsi ilə 1990-cı illərdən sonrakı proseslər Azərbaycanla yanaşı, keçmiş SSRİ-nin dağılması ilə müstəqilliyə qovuşmuş Orta Asiya ərazisindəki türkdilli dövlətlərin də bölgənin lider dövləti Türkiyəyə birbaşa çıxışının əldə olunmasına imkan yaradacaq. Bu yol eyni zamanda dünya da yeni bir iqtisadi gücün də simvolu kimi tanınacaqdır. Belə ki, dəhliz 1,1 trilyon dollardan çox nominal ümumi daxili məhsulu olan türkdilli ölkələri strateji və iqtisadi baxımdan birləşdirəcək. Bu, ümumi daxili məhsulu 761,4 milyard dollar, qardaş Türkiyə, 181,7 milyard dollar olan Qazaxıstan, 57,9 miyard dollar olan Özbəkistan, 48 milyard dollar olan Azərbaycan, 48 milyard dollar olan Türkmənistan və 8,5 milyard dollar olan Qırğızstan üçün yeni bir iqtisadi-mədəni əlaqə qapısıdır (19). 15 iyun 2021-ci ildə imzalanmış Şuşa Bəyannaməsi ilə Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında rəsmən müttəfiqlik elan olunmasından sonra bu koridor vasitəsilə yaranacaq əlaqələrin miqyası da genişlənəcəkdir. Qeyd olunan ölkələrin iqtisadi potensialı və texnoloji imkanları təbii resurslarla birləşincə Şanxay-İstanbul-Frankfurt-London marşrutu üzərində yeni bir etibarlı ticarət kanalının da işə düşəcəyi proqonozunu vermək mümkündür. Belə ki, bu gün Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin formalaşmasında yaxından iştirak edən bir ölkə kimi həm birbaşa həmin nəqliyyat dəhlizlərinin regional hissəsinin inkişafına mühüm təsir göstərirərək, bu işə mühüm maliyyə dəstəyi də nümayiş etdirir.

***Zəngəzur dəhlizi və Naxçıvan.***

Zəngəzur dəhlizinin mühüm bir hissəsi Naxçıvan Muxtar Respublikasından keçir. Tarixən İpək yolu üzərindəki mühüm ticarət qovşaqlarından biri olmuş Naxçıvanın geostrateji əhəmiyyəti sonrakı dövrlərdə daha artaraq Rusiyadan İrana, Avropadan Hindistana gedən yollar üzərində mühüm bir tranzit

məntəqəyə çevrilmişdir. Artıq XX əsrin əvələrində 1903-cü ildə Çar Rusiyası hər yerdə olduğu kimi öz nüfuzunu artırmaq məqsədilə cənub sərhədlərində, Araz çayı boyunca dəmir yolu xəttinin çəkilişinə qərar verib və Uluxanlı-Culfa dəmir yolu xətti çəkilib. Qeyd edə ki, bu yol o zaman bölgənin iqtisadiyyatının inkişafından çox imperiyanın nüfuzu məqsədini güdürdü. Yolun Naxçıvan-Culfa hissəsinin olduqca mürəkkəb relyef formasına baxmayaraq, o dövrdə işlərin çox inadla və keyfiyyətlə görülməsi diqqət çəkir ki, indi də o zaman qurulmuş yol və körpülərdən hələ də istifadə olunması bunu sübut edir (16).

İkinci Dünya müharibəsinin başlaması ilə bu yol daha da əhəmiyyət qazanmış, 1941-ildə Naxçıvan dəmir yolunun ən əhəmiyyətli hissəsi olan Culfa-Mincivan yol sahəsi istifadəyə verilmişdir. Bu hissənin çəkilişi hələ o dövrdə, 20-30-cu illərdə planlansa da, artıq müharibə başlanan kimi SSRİ hökuməti arxa cəbhənin möhkəmləndirilməsi və İranla nəqliyyat əlaqələrinin genişləndirilməsi üçün bunu çox sürətlə həyata keçirdi. Sonrakı dövrlərdə yolun buraxılış imkanları nəzərə alınaraq Naxçıvandan Mincivana, ordanda Bakıya qədər olan hissə daha çox yükdaşımalarda istifadə olunurdu. Yuxarıda da qeyd etdiyimiz kimi, sovet dövründə Naxçıvan dəmir yolu ilə daşınan yüklərin 80-85 faizi məhz Ermənistana ünvanlanırdı. Hətta Qərbi Zəngəzur bölgəsi üçün gətirilən ağır yüklərin Naxçıvan stansiyasında boşaldılaraq daha sonra yük maşınları ilə Batabat dağ keçidi vasitəsilə daşındığı da qeyd edə bilərik. O dövrdə, yəni 1988-ci ilə qədər Naxçıvandan tranzit istifadə olunmaqla hər gün 30-40 yük və sərnişin vaqonundan ibarət olmaqla 25 cüt qatar hərəkət edir, toplamda hər il 22-25 milyon ton-brutto yük, gün ərzində isə minlərlə sərnişin daşınırdı (16). O zamanlar Moskva-Tehran marşrutu üzrə hərəkət edən sərnişinlər də Naxçıvan dəmir yolundan istifadə edirdilər. Yolun həmin dövrlərdəki istismarı və buradakı yük gərginliyi onu göstərdi ki, doğrudan da, Araz çayı boyunca çəkilmiş bu yolun bütün Cənubi-Qafqazın iqtisadi-mədəni həyatında mühüm rolu olmuşdur. Bundan əlavə, o zamanlar Naxçıvan Dəmir Yolu ağır dartı qurğularından tutmuş özünün uşaq bağçaları, məktəbi, xəstəxanası, mağazalarınadək bütün zəruri olan sahələri özünə birəşdirən bütöv bir təsərrüfat sistemi idi. Ümumilikdə o zaman Azərbaycan dəmir yolunun Naxçıvan hissəsində 4-5 min nəfərin işlədiyi qeyd olunur. Başqa sözlə, dəmir yolu o zamankı insanların iqtisadi və sosial həyatının bir parçası idi. Lakin Ermənistanın təcavüzkarlıq hərəkətləri nəticəsində artıq 1992-ci il aprel ayının 23-də axırıncı qatar Bakıdan Naxçıvana hərəkət edə billdi. Bundan sonra Naxçıvan Muxtar Respublikasının çətin nəqliyyat blokadası dövrü başladı.

Həmin dövrdən xeyli vaxt keçməsinə və Naxçıvanın blokada vəziyyətinin hələ də davam etməsinə baxmayaraq, muxtar respublika böyük inkişaf yolu keçmişdir. Ölkəmizin əsas hissəsi ilə Naxçıvanı birləşdirən əsas dəmir və quru yolu əlaqəsi olmasa da, muxtar respublikada yaradılmış hava yolu infrastrukturu, daxili avtomobil yolları, sosial-mədəni şərait bu gün Zəngəzurdan İstanbula hərəkət edəcək turistlər üçün əlverişli güzərgah rolunu oynayır. Bu gün Naxçıvandakı beynəlxalq standartlara uyğun xidmətləri ilə saatda 450-500 sərnişin qarşılamaq imkanına malik Beynəlxalq Hava Limanı vasitəsilə dünyanın istənilən ölkəsinə səyahət etmək mümkündür. Naxçıvandan ölkəmizin paytaxtı Bakıya və Gəncə şəhələrinə, habelə Türkiyənin İstanbul, Rusiya Federasiyasının paytaxtı Moskva şəhərlərinə birbaşa uçuşlar həyata keçirilir (24).

Naxçıvandan tranzit məqsədlərlə istfadə üçün onun avtomobil yolları mühüm əhəmiyyət kəsb edir. Ötən dövrdə muxtar respublikanın əsas magistral yollarından olan, beynəlxalq yük və sərnişin daşımalarında mühüm rol oynayan 87 kilometr uzunluğunda Naxçıvan-Sədərək, 32,4 kilometr uzunluğunda Naxçıvan-Culfa magistral avtomobil yolları yenidən qurulmuşdur. Bundan əlavə, 88,8 kilometr uzunluğunda Naxçıvan-Şahbuz-Batabat, Uzunluğu 50 kilometr olan Culfa-Ordubad magistral avtomobil yolu istifadəyə verilmişdir. Ümumilikdə, 1 yanvar 2010-cu ildən 2019-cu ilin sonuna muxtar respublikada 1097 kilometr uzunluğunda avtomobil yolları yenidən qurulmuşdur (26).

Turizm və tranzit keçidlər özünün spesifik xüsusiyyətləri ilə informasiya dəstəyinə daha çox ehtiyacı olan bir sahədir. Müasir kommunikasiya şəbəkəsi turistlərin istədikləri xidmətləri mümkün olduğu qədər tez və sürətli şəkildə əldə etməsinə imkan yaradır. Bu mənada, müasir dövrdə Naxçıvan Muxtar Respublikasında yeni texnologiyaların tətbiqi iqtisadi və sosial sahələrdə keyfiyyət dəyişikliyi yaratmış, sürətli və etibarlı rabitə əlaqələri insanların mədəni həyatının mühüm faktorlarından birinə çevrilmişdir. XX əsrin mühüm yeniliklərindən biri olan internet və mobil rabitə xidmətlərinin Naxçıvanda geniş yayılması cəmiyyət həyatında köklü dəyişikliklərə səbəb olmaqla, iqtisadiyyatın digər sahələrində

də yeni yüksəlişə stimul verib. Naxçıvanda fəaliyyət göstərən 4-cü nəsil "Naxtel" mobil rabitə şəbəkəsinin istifadəçiləri yaradılan müasir şəraitdən bəhrələnməklə yeni texnologiyaların həyatımıza gətirdiyi sürət və komfortdan maksimum faydalanmaq imkanı qazanıblar.

Bütün bunlar Naxçıvanın tranzit keçidlər üçün imkanlarını artırmaqla gələcəkdə Zəngəzur dəhlizindən istifadə nəticəsində region iqtisadiyyatına yeni fürsətlər yaranacaqdır. Bu dəhlizin reallaşması ilə Naxçıvanın əldə edəcəyi yeni imkanlara baxdıqda:

-  Uzun illər ərzində davam etmiş blokadaya son qoyulacağını;
-  Ərazidə yeni uzunmüddətli xarici investisiyalar üçün əlverişli şəraitin yaranacağını;
-  Nəqliyyat-kommunkiasiya əlaqələrinin yenidən qurulması üçün həyata keçiriləcək layihələrdə ən son texnologiyanın tətbiq olunması və bunun da nəticəsində innovativ layihələrin daha çox yayılmasını;
-  Bölgədən hər iki istiqamətdə daha çox turistin hərəkət edəcəyini;
-  Tranzit sərnişin və yüklərdən gəlirlərin əldə olunacağını;
-  Bölgə dövlətləri üçün üçün əhəmiyyətli olan ortaq iqtisadi, mədəni və hətta təhlükəsizlik layihələrində iştirak edə biləcəyini proqnozlaşdırmaq mümkündür.

## ƏDƏBİYYAT


1. "Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatı https://president.az/articles/45924
2. Заявление Президента Азербайджанской Республики, Премьер-министра Республики Армения и Президента Российской Федерации. http://kremlin.ru/events/president/news/64384
3. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciəti. 01 dekabr 2020 https://president.az/articles/48205
4. İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirə https://president.az/articles/49933
5. Ali Jabbarov, Sevinj Abbasova, Haluk Tanriverdi. Erməni işğali sonrasi Qarabağda turizmin inkişafi məsələləri. Uluslararası Turizm, İşletme, Ekonomi Dergisi International Journal of Tourism, Economic and Business Sciences . E-ISSN: 2602-4411, 4(2): 33-44, 2020 http://www.ijtebs.org/index.php/ijtebs/article/view/486/413
6. Aslanova F. Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində erməni vandalizmi. (1991-2010-cu illər)– Vətən tarixi tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı: 2014
7. Jabbarov A., Zulfugarov Z. Tourism in XXI Century: The Powerful Peacemaker Against "Great Nation" Threat. Jabbarov and Zulfugarov, J Tourism Hospit 2015, 4:4 DOI: 10.4172/2167-0269.1000169. https://www.longdom.org/open-access/tourism-in-xxi-century-the-powerful-peacemaker-against-greatnation-threat-2167-0269-1000169.pdf
8. İ. Bayramov. Qərbi Azərbaycanin türk mənşəli toponimləri Baki - "Elm" - 2002
9. Б. Будагов Историческая география Западного Азербайджана. (Дополненное, переработанное издание на русском языке). – Баку: издательство «Азербайджан», 1998. - 560 стр.
10. İ.M.Bayramov. "Zəngəzur" toponiminin etimologiyası haqqında. Bakı Universitetinin xəbərləri №1, 2006
11. V. Əliyev. Zəngəzurda qalan izimiz. Bakı: Nurlan - 2004, 295 səh.
12. Тамилла Мусаева, Адиль Мамедов Исторические факты о деяниях армян на азербайджанской земле. Баку: Елм, 2003, 208 с.
13. Q.Yunusoğlu. Qərbi Azərbaycanın Zəngəzur mahalının tarixi-coğrafi səhifələrindən. Bakı: Xəbər. - 2020. - 4 dekabr. - № 212. - s. 13.
14. Ə.Cabbarov. Naxçıvan - Zəngəzur - Şuşa turizm marşrutu (I hissə). "Şərq qapısı" qəzeti, 10 may 2021
15. Cabbarov Ə. İşğal sonrası Qarabağ iqtisadiyyatı və turizmin inkişafı http://serqqapisi.az/index.php/humanitar/m-d-niyy-t/28655-ishghal-sonras-garabagh-igtisadiyyat-vae-turizmin-inkishaf.html "Şərq Qapısı" qəzeti 10 dekabr 2020-ci il

16. Cabbarov Ə. Naxçıvan Dəmir Yolu dünya şəbəkəsinə qoşulmağa tam hazırdır. https://xalqqazeti.com/az/news/72420
17. Bayramov Vüqar. Zəngəzur dəhlizi region üçün böyük strateji əhəmiyyət kəsb edir. https://xalqqazeti.com/az/news/73652
18. Zəngəzur dəhlizində yeni yolun təməli qoyuldu. https://www.aznews.az/news/capital/284795.html
19. Nəbiyev Bəxtiyar. Zəngəzur dəhlizinin əhəmiyyəti https://sia.az/az/news/politics/871883.html
20. Adıgözəlov Kamal. Zəngəzur dəhlizi: regional və qlobal geosiyasətdə yeri və rolu. http://newtimes.az/az/experts/7444/
21. Avtomobil yollarının xəritəsi. http://www.aayda.gov.az/az/pages/68
22. Bayramov V. Qarabağın bərpası ilə Azərbaycan gücünü dünyaya nümayiş etdirir. https://xalqqazeti.com/mobile/az/news/85995
23. Naxçıvan Beynəlxalq Hava Limanı. http://www.airportnakhchivan.az/?/az/page/157/Umumi_melumat
24. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi. Muxtar respublikada müasir nəqliyyat sistemi yaradılmışdır. "Şərq qapısı" qəzeti, 18.09.2020. http://www.serqqapisi.az/index.php/izhtisadiyyat/26221-mukhtar-respublikada-muasir-naegliyyat-sistemi-yarad-lm-shd-r.html

## SUMMARY

**Ali Jabbarov**

## TRANSIT OPPORTUNITIES OF NAKHCHIVAN ON THE ZANGAZUR-ISTANBUL ROUTE

After the trilateral statement was signed by Azerbaijani, Russian and Armenian on November 10, 2020 ending the glorious 44-day Patriotic War which resulted in the liberation of the Karabakh lands of Azerbaijan, the restoration of communications providing for new cooperation prospects in the South Caucasus and the opening of the Zangazur corridor present new transit opportunities of the Nakhchivan Autonomous Republic, which remained under blockade during this period.

This article analyzes the future position of the Nakhchivan Autonomous Republic, which takes a key position on the Zangazur-Istanbul route, in the international trade, as well as in the economic relations among the countries.

***Key words:*** *Zangazur corridor, Nakhchivan; transit relations, geostrategic relations.*

## РЕЗЮМЕ

**Али Джаббаров**

## ТРАНЗИТНЫЕ ВОЗМОЖНОСТИ НАХЧИВАНА НА МАРШРУТЕ ЗАНГАЗУР-СТАМБУЛ

После подписания 10 ноября 2020 года Азербайджаном, Россией и Арменией трехстороннего заявления, завершившего славную 44-дневную Отечественную войну, в результате которой были освобождены карабахские земли Азербайджана, восстановление коммуникаций открыло новые перспективы сотрудничества на Южном Кавказе. и открытие Зангезурского коридора открывают новые транзитные возможности Нахчыванской Автономной Республики, которая в этот период оставалась в блокаде.

В данной статье анализируется будущее положение Нахчыванской Автономной Республики, занимающей ключевую позицию на маршруте Зангезур-Стамбул, в международной торговле, а также в экономических отношениях между странами.

***Ключевые слова:*** *Зангезурский коридор, Нахчыван; транзитные отношения, геостратегические отношения.*

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*
***Məqalə daxil olmuşdur:*** *4 noyabr 2021-ci il*

***Çapa qəbul edilmişdir:*** *2 dekabr 2021-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2021, № 2 (111), 175-181
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2021, № 2 (111), 175-181
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2021, № 2 (111), 175-181

**HƏSƏN MƏMMƏDOV**
*hasan_1961@mail.ru*
**MUXTAR HƏBİBLİ**
*Naxçıvan Dövlət Universiteti*
*hebiblee@gmail.com*

**UOT: 330.1; 330.4**

# DAVAMLI İNKİŞAFDA İQTİSADİ ARTIM MODELLƏRİNƏ NƏZƏRİ YANAŞMA

*Məqalədə davamlı inkişafda iqtisadi artım modellərinə nəzəri yanaşmadan bəhs olunur. Göstərilir ki, davamlı iqtisadi inkişaf bir sıra amillərin təsiri ilə formalaşır. Bu amillər içərisində davamlı inkişafda mühüm rol oynayan iqtisadi artım və ona təsir edən amillər mühüm əhəmiyyətə malikdir.*

*Göstərilir ki, ilk iqtisadi cərəyan merkantilizm məktəbindən başlayaraq, tarixin müxtəlif dövrlərində klassik, neoklassik, keynsçi, neokeynsçi, institusionalizm və müasir artım nəzəriyyələri meydana gəlmişdir.*

*Məqalənin sonunda qeyd olunur ki, ölkəmizdə həyata keçirilən demokratik islahatlar, təsərrüfat sisteminin bazar mexanizminə keçirilməsi, mövcud sosial-iqtisadi və siyasi vəziyyət iqtisadi inkişafın Azərbaycan modelinin yaranması ilə səciyyələnmişdir.*

***Açar sözlər:*** *merkantilizm, davamlı inkişaf, klasik artım nəzəriyyəsi, neoklassik nəzəriyyə, keynsçi nəzəriyyə, neokeynsçi nəzəriyyə.*

Davamlı iqtisadi inkişaf bir sıra amillərin təsiri ilə formalaşır. Bu amillər içərisində davamlı inkişafda mühüm rol oynayan iqtisadi artım və ona təsir edən amillər xüsusi əhəmiyyətə malikdir.

Davamlı inkişaf şəraitində iqtisadi artımın yaradılması proseslərinin araşdırılması zamanı iqtisadi artım modellərinin müəyyənləşdirilməsi isə xüsusi ilə əhəmiyyətlidir.

XV əsrdə yaranan, ilk iqtisadi cərəyan merkantilizm məktəbindən başlayaraq, müasir institusional nəzəri məktəbə qədər bütün iqtisadi fikir nümayəndələri iqtisadi artım problemləri, onun yaradılması, təşəkkülü və ona təsir edən amillərin araşdşrılması ilə məşğul olmuşlar. Qeyd etmək lazımdır ki, yalnız, ötən əsrin 30-cu illərindən etibarən iqtisadi artım problemləri ilə iqtisadçı mütəfəkkirlər daha yaxından məşğul olmuş, müxtəlif nəzəri məktəblər tərəfindən ayrı-ayrılıqda fundamental olaraq bu istiqamətdə tədqiqatlar aparılmağa başlanılmışdır.

Tarixin müxtəlif dövrlərində klassik (U.Petti, A.Smid, D.Rikardo), neoklassik (A.Marşal), keynsçi (C.Keyns), neokeynsçi, institusionalizm və müasir artım nəzəriyyələri meydana gəlmişdir.

İlkin olaraq merkantilistlər (A.Monkrateyn, T.Men, Skarrafuru, Stoffor, Styüard) iqtisadi artımın yaranması ilə məşğul olmuş, digər ölkələrlə hansı formada ticarət-iqtisadi əlaqələr həyata keçirilməsindən asılı olmayaraq, bunu iqtisadi artımın əsas amili kimi qiymətləndirirdilər. Klassik məktəbin nümayəndələri isə beynəlxalq ticarət nəzəriyyələri əsasında mütləq və nisbi üstünlüklər nəzəriyyəsi yaradaraq, qarşılıqlı faydalı ticarətin aparılmasını iqtisadi artımın amili hesab edirdilər.

Klassiklərin əhali artım nəzəriyyəsinə görə (A.Smid, D.Rikardo) real gəlir yaşayış üçün lazım olandan çox olarsa, əhali artımı müşahidə olunar. Lakin əhali artımı adambaşına düşən sərmayə miqdarının azalmasına və nəticədə əmək məhsuldarlığının aşağı düşməsinə gətirib çıxarır. Bunun da hesabına əhalinin hər nəfərinə düşən adambaşına real gəlir aşağı düşür.

## 2.İQTİSADİ ARTIMIN YARADILMASINA TƏSİR EDƏN AMİLLƏR.

Klassik artım nəzəriyyəsinin baniləri iqtisadi artımın yaradılmasına təsir edən aşağıdakı

amilləri əsas götürürdülər:

1) Əmək və sərmayə qalıqlarının artımı;

2) Texnoloji inkişaf və iş bölgüsü vasitəsilə əldə edilən artım;

3) Bazarı genişləndirən xarici ticarət [17, s.70 ].

Klassiklər yuxarıdakı şərtləri artımın başlanğıcı kimi qəbul edir, iqtisadiyyata dövlət müdaxiləsini rədd edir, belə bir fikir irəli sürürdülər ki, bazar "görünməz əllərlə" öz-özünü tənzimləyərək inkişaf edib, iqtisadi artımın yaradılmasına şərait yaradacaqdır.

A.Smitə görə fiziki sərmayə yığımı texnoloji inkişaf, əməyin ixtisaslaşması, iqtisadi sərvət artımının mənbələridir. Sərmayə yığımı artdıqca və yeni texnologiya istehsala cəlb edildikcə iqtisadi artım davam edəcəkdir. Rəqabət və sərbəst ticarət bu müddətin kumilyativ olmasına kömək edəcək. Smitə görə illik məhsulun və sərvətin miqdarı istehsalda tətbiq olunan əməyin miqdarından və işçilərin sayından, həmçinin əmək məhsuldarlığından asılıdır. Buna görə də əmək məhsuldarlığı yüksək olan mədəni xalqlar daha çox sərvət yaradır və yaxşı yaşayırlar [16].

İqtisadi artım problemləri K.Marksın əsərlərində də tədqiqat obyektinə çevrilmişdir. K.Marks "Kapital" əsərində ictimai istehsalı iki böyük istiqamətdə:- istehsal vasitələri istehsalı və istehlak şeyləri istehsalı istiqamətində araşdırmış, onlar arasında tarazlıq şərtlərini üzə çıxarmağa çalışmışdır [7, 95].

C.M.Keyns iqtisadi artımın yaradılması problemləri ilə məşğul olmuş və özünün 1936-cı ildə yazdığı "Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi" əsərində iqtisadi artımın yaranmasına dair nəzəriyyə irəli sürmüşdür[12].

C.M.Keyns iqtisadiyyatın bazar mexanizmi vasitəsilə özünü tənzim etməsi haqqında neoklassik nəzəriyyəni qəbul etmir. O, göstərir ki, təbii inkişaf edən bazar iqtisadiyyatı ideal sistem deyil, bu sistemə iqtisadi sarsıntılar xasdır. O hesab edir ki, azad iqtisadi sistem maddi və əmək resurslarından dolğun və səmərəli istifadə olunmasını, həmçinin iqtisadiyyatın fasiləsiz artımına sərbəst şəraitin yaradılmasını təmin edə bilmir. Keyns bazar iqtisadiyyatını saxlayıb, yalnız onu dövlət siyasətilə düzəltməyi təklif edir. Keyns modelinə əsasən, makroiqtisadi tarazlığın təmin olunmasında tələb həlledici rol oynayır. Tələbin həlledici ünsürü isə multiplikator vasitəsilə mənfəətin artmasını təmin edən investisiyalardır. Keynsçilər istehsal amillərinin və onların bir-birini qarşılıqlı əvəz etməsinin səmərəliliyi haqqında neoklassik baxışları dəstəkləmirlər [12, 22].

Keynsçi nəzəriyyənin davamı olan XX əsrin ortalarında neokeynsçi nəzəriyyə formalaşmağa başladı. Bu nəzəriyyə dinamik iqtisadi artım modelini yaradan ingilis iqtisadçısı R.Harrodun adı ilə bağlıdır. R.Harrodun "İqtisadi dinamika nəzəriyyəsinə dair" monoqrafiyası onu keynsçiliyin lideri və neokeynsçi dinamika nəzəriyyəsinin banisi kimi tanıtdı. Harrodun təqdim etdiyi metodologiya mahiyyət etibarı ilə Keyns metodologiyasına yaxın idi. Çünki hər iki nəzəriyyə makroiqtisadi göstəricilər üzərində qurulmuşdur, yəni məcmu tələb, məcmu yığım, gəlir, investisiya və s. hər iki nəzəriyyədə tədqiqat obyektinə çevrilmişdir. Lakin hər iki təhlildə, iqtisadi artımın yalnız kəmiyyət tərəfləri öyrənilir, keyfiyyət tərəfləri isə tədqiqat obyektindən kənarda qalırdı. Bu isə təkrar istehsal prosesində sosial tərəflərin də kənarda qalmasına gətirib çıxarırdı. İqtisadi-nəzəri baxımdan hər iki nəzəriyyə eyni mahiyyət kəsb etsə də, onların biri birindən fərqli cəhətləri ondan ibarət idi ki, C.Keyns iqtisadi hadisə və proseslərə qısa müddətli dövr ərzində baxdığı halda, R.Harrod isə iqtisadi artımda uzun müddətli dövr ərzində baş verən dinamik prosseslərin tədqiqinə üstünlük verirdi.

Bildiyimiz kimi, ÜDM-in davamlı artımı, onun artımına təsir edən amillər və şəraitlər dəyişmədiyi halda mümkündür. Lakin nəzərə almaq lazımdır ki, amillər və şəraitlər sabit deyildir və istənilən zaman dəyişilə bilər. R.Harrod mövcud şərtləri dəyişməyi, iqtisadi inkişafda baş verə bilən ziddiyyətlərin həlli mexanizmini irəli sürdü və istehsalın dövrü olaraq tənəzzülünün nəticələrinin azaldılmas, işsizliyin həddinin minimum endirilməsi, istehsalın intensivləşdirilməsi və tələbin artırılması məsələsini irəli sürdü.

R.Harrodun irəli sürdüyü nəzəriyyə əsasında sonralar postkeynsçi artım nəzəriyyəsi meydana gəldi. Postkeynsçilər iqtisadi artımın yaradılmasında gəlirlərin bölgüsünün daha çox əhəmiyyət kəsb etdiyi fikirləri əsas götürdülər. N.Kaldor, A.Pezenti bu nəzəriyyəyə əsaslanaraq gəlirlərin mənfəətə

və əmək haqqına ayrılmasına, yığıma necə təsir etdiyinə və zəmanətli artımın təbii artıma necə uyğunlaşdığına şərait yaratdığını müəyyən etməyə cəhd etdilər.

R.Harrodun nəzəriyyəsindən xəbərsiz amerikan iqtisadçısı E.Domar neokeynsçi nəzəriyyədən bir qədər fərqli "tarazlaşdırılmış iqtisadi artımın idarə edilməsi" nəzəriyyəsini irəli sürdü. E.Domar C.Keynsin "investisiya gəlir gətirir" fikrini qəbul edərək, eyni zamanda bildirir ki, investisiyalar həm də əmtəə təklifinin artmasına şərait yaradır. Beləliklə, bu yeni model əvvəlki keyns modellərindən fərqli olaraq, investisiyaları nəinki gəlirlərin, eyni zamanda yeni güc strukturlarının da meydana gəlməsinə təsir edən amil kimi nəzərə alır. E.Domara görə investisiya qoyuluşunun artım dinamikası yeni güc strukturları və gəlirləri yaratdığı kimi, tələb və təklifin dinamik tarazlığını da təmin edir. Beləliklə, belə fikir ortaya çıxır ki, investisiyaların həcm və dinamikası iqtisadi artımın yaradılmasında əsas amil kimi nəzərə alınmalıdır.

İqtisadi artım modellərini müəyyən edən nəzəriyyələrdən biri də neoklassik nəzəriyyədir. Neokeyns nəzəriyyəsindən fərli olaraq, bu nəzəriyyə o prinsipi əsas tutur ki, iqtisadiyyat sərbəst olaraq, heç bir müdaxilə olmadan hərəkət edir və uzunmüdətli dövrdə artımın təbii templəri əvvəcədən qarantiya olunmuş templərə bərabər olur. Neoklassik cərəyan R.Solou və ABŞ vətəndaşları, iqtisadçı P.Duqlas və riyaziyyatçı X.Kobbun əsərlərində öz əksini tapır.

Davamlı iqtisadi inkişafın təmin olunması məqsədilə yaradılan iqtisadi artım nəzəriyyələrinə əlavə olaraq P.Solounun araşdırmalarının nəticələri onun tərəfindən irəli sürülən iki modeldə öz əksini tapıb: a) iqtisadi artımın faktorlu təhlili; b) iqtisadi artım, kapital və yığım arasındakı qarşılıqlı əlaqəni müəyyən edən model.

P.Solou 1956-cı ildə tamamilə başqa yolla gedərək, uzunmüddətli meyllərin öyrənilməsinə diqqətini cəmləməkdən ötrü qısamüddətli xarakterli tarazlıqdan şüurlu surətdə yayındı [7]. P.Solouya görə yığım normasının sabitliyi haqqında hipotez kifayət etdi ki, o iqtisadi artıma kapital yığımı prosesinin nəticəsi kimi baxsın. Qısa müddətdə yığım norması kapital yığımını və təbii ki, həm də onun artımını müəyyən edir. Lakin uzunmüddətli dövrdə əhalinin dinamikası ilə müəyyən edilən təbii artım tempi bərqərar olur. Kafi model əldə etmək üçün texniki tərəqqinin təsirini də nəzərə almaq lazım gəldiyindən, P. Solou 1957-ci ildə ilk dəfə olaraq, sonralar "Solou qalığı" adlandırılan bir meyarı, yəni avtonom texniki tərəqqinin empirik ifadəsini ölçlməyə nail olmuşdu [7]. Nəticədə, Harrod neytral tərəqqi modeli ilə birgə Solou modeli H. Kaldor tərəfindən müəyyən edilən artımın "stilistik halları"nın əksər hissəsini nəzərə almağa qadir oldu. Solounun işləri uzunmüddətli planda kapitalın məhsuldarlığı və faizin real norması kimi məsələlərdə daha uğurlu gələcək vəd edirdi. Solounun modelində həlledici məqam olan "qənaət davranışı", görünür, bu amili endogen kimi nəzərdən keçirməyi tələb edirdi [7,311].

Ümumiyyətlə, Solou modelində iqtisadi artımın əsas amilinin davamlı texniki proqres və məhdud resurslardan səmərəli istifadə edilməsi göstərilir. Uzunmüddətli dövr üçün fundamental texniki proqres iqtisadi artım yaradılmasında əsas rol oynayır. Neoklassik modellərdə çox faktorlu istehsal funksiyası əsas yer tutur [7].

XX əsrin 20-ci illərinin axırlarında ABŞ vətəndaşları, iqtisadçı P.Duqlas və riyaziyyatçı X.Kobb 1899-1922-ci illərdə Amerikanın emaledici sənayesində əsas kapitalın, işlənmiş saatların miqdarının və istehsalın həcminin artmasını nəzərdən keçirərək üç müvəqqəti sıra düzəltmişlər. Kobba-Duqlas funksiyası hazırda da iqtisadi artımın amillərinin, xüsusilə texniki tərəqqinin qiymətləndirilməsi üçün istifdə edilir [5].

Kobb-Duqlas istehsal funksiyası riyazi olaraq, məhsul istehsalı (*Y*) ilə ona təsir edən əsas fondlar (*K*–kapital) və işçi qüvvəsi (*L*) arasındakı kəmiyyət xarakteristikasını öyrənir və aşağıdakı şəkildədir.

$Y=aF^{\alpha}L^{\beta}$ burada $\alpha+\beta=1$

burada, α, β parametrlərdir və Y-in uyğun olaraq K və L-ə görə elastiklik əmsallarıdır; *a*-sabit ədəddir.

Kobb-Duqlas istehsal funksiyasında mənfəətin və xərclərin xüsusi çəkisinin dəyişmədiyi, yığımın olmadığı və istehsalın (əmək və kapital) elastikliyinin vahidə bərabər olduğu fərz edilir.

İstehsal amillərinin bir-birini əvəz etmələri sıfırla vahid arasında tərəddüd edir və adətən, vahiddən kiçikdir. Burada qarşılıqlı əvəzetmələrin hüdudu texniki inkişaf səviyyəsi ilə müəyyən edilir və əməyin kapital ilə əvəz olunması imkanları nəzəri cəhətdən sonsuzdur. İstehsal amilləri keyfiyyətinin dəyişməsi nəzərə alınmır, yəni, texniki tərəqqi sərfnəzər edilir. Buradan da belə bir nəticə çıxarmaq olar ki, funksiya yalnız ekstensiv iqtisadi artım üçün münasibdir [5].

İqtisadi artım modellərinin müəyyən edilməsində əhəmiyyətli nəzəriyyələrdən biri də neoklassik sintez nəzəriyyəsidir. Neoklassizm və keynsçilik sintezinin əsasını neokeynsçi iqtisadçılar (Nobel mükafatı laureatları C.Hiks və P.Samuelson) qoymuşdu. Onlar Keynsin nəzəriyyəsinə neoklassik təsvir vermiş, onu neoklassik iqtisadçı adlandırmış və onun iqtisadi nəzəriyyəsinin neoklassik ənənələri və kökləri haqqında danışmışlar. "Neoklassik sintez" anlayışı ilk dəfə 1937-ci ildə ingilis iqtisadçısı C.Hiks tərəfindən işlənilmişdi. Neoklassik sintez keynsin nəzəriyyəsilə neoklassik iqtisadi artım nəzəriyyəsinin sintezidir[14].

İqtisadi tsiklin sintetik nəzəriyyələrində müntəzəm olaraq makroiqtisadi proseslərin bütün müəyyənedici amillərinin təsvirini vahid modeldə vermək cəhdləri edilir. Bu istiqamət üzrə C.Hiks, P.Samuelson, M.Kaletski, Y.Tinberqen və başqaları tərəfindən mühüm işlər görülmüşdür. P.Samuelson multiplikator və akselerator mexanizmlərini daxil etməklə investisiya və istehlak proseslərinin qarşılıqlı təsirini birgə əks etdirən modelin qurulmasına nail olmuşdur. Model əsasında istehlaka meylin müxtəlif səviyyələrində iqtisadi artımın xarakteristikaları tsiklik dəyişmələrin parametrləri və müəllifin vahid kimi qəbul etdiyi nisbət və ya akselerator hesablanır [7].

Lakin bu sahədə D.Hiksin tədqiqatları daha çox tanınmışdır və iqtisadi dinamika onun tədqiqatında bir-biri ilə bağlı modellər şəklində təsvir edilir [56]. Hiks modelinin maraqlı cəhətlərindən biri multiplikator-akselerator birgə mexanizminin nəticələrinin araşdırılmasıdır. Belə ki, multiplikasiya - akselerator mexanizminin törətdiyi enib-qalxmalar bir qayda olaraq üç kateqoriya-ya: sönən, sıçrayışlı və müntəzəm enib-qalxmalara bölünür. Sönən enib-qalxmada kənarlaşmanın həddi yox olanadək azalır və gəlir əldə olunan səviyyəni saxlayırsa, sıçrayışlı enib-qalxmada kənarlaşmanın həddi tədricən artır, müntəzəm enib-qalxmada isə kənarlaşmanın həddi sabit olur. Enib-qalxmanın forması isə istehlaka maksimal meylliyin və akseleratorun kəmiyyətindən asılı çıxış edir.

Əsərləri bütün dünyada məşhur olan, hətta Sovet İttifaqında da dəfələrlə çap olunan P.Samuelson da iqtisadi artım və inkişaf problemlərinə xüsusi diqqət vermişdir. O, iqtisadi artımın çoxaspektli olmasına diqqəti çəkərək, iqtisadi artımın müxtəlif ölkələrdə aşağıdakı təzahürlərini qeyd edirdi:

-  əhalinin artımı;
-  istehsalın ümumi miqyas və məşğulluğun dinamikası;
-  milli məhsulun artımı;
-  həyat səviyyəsi standartları ilə müqayisədə tipik ailənin həyat səviyyəsinin yüksəlməsi;
-  günlük vaxt balansında asudə vaxtın payının dəyişməsi;
-  daim ağır və yorucu əməklə məşğul olanların vəziyyətinin yüngülləşməsi [16].

P.Samuelson iqtisadi artımın bütün sadalanan aspektlərini insanların ömür müddətinin bioloji fakt kimi uzanması, xəstələnmə hallarının azalması ilə, həmçinin təhsilin, elmin və texnologiyanın inkişafı ilə bağlayır. Samuelsonun əsərləri məhz bu aspektdə, monetaristlərin birtərəfli əsərlərindən fərqlənir. P.Samuelsonun əsərlərində iqtisadiyyatın makrotənzimləmə problemlərinə böyük diqqət yetirilir. Lakin dövlətin, az qala hər şeyi, antiböhran tənzimlənməsi, iqtisadi artıma mane olan bütün neqativ təsirləri neytrallaşdırması və s. imkanları və rolu bir qədər şişirdilir[16, 266].

P.Samuelsonun əsərlərində dövlətin iqtisadi siyasətinin reallaşması üçün aşağıdakı tədbirlərin görülməsi tövsiyə edilir:

1. Dövlət borcunun da satın alınması daxil olmaqla, dövlət ssudasının verilməsi və yeni özəl müəssisələrə kreditləşmənin genişləndirilməsi;

2. İnflyasiyanın dayandırılması və ya iqtisadiyyatın müxtəlif sektorlarında dinamik inkişafı

stimullaşdıran və "gizli işsizliyi" azaldan səviyyədə buraxılması;

3. Kütləvi istehsalın inkişafı, yoxsulluğun azaldılması üçün kapital yaranmasının həvəsləndirilməsi;

4. İnvestisiyaların strukturuna yenidən baxılması, onun keyfiyyət strukturunun formalaşması. Burada, məhdud əmanətlərin, xüsusən defisit xarici valyutanın əksər hissələrinin ölkəyə leqal və qeyri-leqal yolla gətirilən qızıl və qiymətli daş-qaşlara çevrilməsi qeyri-məqbul hesab edilir (məsələn, Hindistanda). Yaxud xroniki inflyasiyadan əziyyət çəkən Braziliya və Çili kimi ölkələrin vəsaitlərinin daşınmaz əmlaka verilməsi və ya mal-material ehtiyatlarının yaradılması yolverilməz hesab edilir. Belə hallarda, əmanətlərin millət tərəfindən yığım və iqtisadi inkişaf naminə istifadə olunması qeyri-mümkündür.

5. İnvestisiyaların aktiv stimullaşdırılması, öncül xarici texnikadan geniş istifadə edilməsi, belə texnikanın idxalının həvəsləndirilməsi, gömrük maneələrinin götürülməsi.

Göründüyü kimi, P.Samuelsonun artım nəzəriyyəsində şərh olunan müddəalarda bütün qarşılıqlı əlaqələr müəyyən qanunauyğunluğa tabe edilməmişdir və sərt determinasiya olunmamışdır. İqtisadi artım amilləri arasında qarşılıqlı əlaqələrin bir qismi nəzərə alınsa da, milli məhsulun artım tempi və sənaye istehsalının artım tempi arasındakı qarşılıqlı əlaqələr, həmçinin dövlət alışları ilə investisiyalar arasındakı qarşılıqlı əlaqələr qiymətləndirilməmişdir [16,269].

İqtisadi artımla bağlı nəzəriyyələrdən biri də sovet iqtisadçısı Q.A.Feldman tərəfindən irəli sürülüb. Q.A.Feldman iqtisadi artımın riyazi modelinin yaradıcısıdır. Bu model marksizmin geniş təkrar istehsal sxeminə əsaslanıb. Bu modeldə əsasən milli gəlirin artım templəri, fondverimində və əmək məhsuldarlığında dəyişiklik, milli gəlirin istifadə edilməsi ilə strukturu arasındakı qarşılıqlı əlaqə araşdırılır. Q.A.Feldmanın riyazi iqtisadi artım modelinin nəzəri əhəmiyyəti ilə yanaşı, praktiki əhəmiyyəti də olmuşdur. Belə ki, bu modeldən keçən əsrin 20-ci illərinin sonunda SSRİ xalq təsərrüfatının inkişafında, xüsusilə birinci 5-illik planın tətbiqində geniş istifadə edilmişdir [7,122].

Sonradan bu modelin davamı olan "Xərc–məhsul buraxılışı" modeli rus riyaziyyatçısı və iqtisadçısı, 1925-ci ildən ABŞ-da yaşayan və bu ölkənin vətəndaşlığını qəbul edən Vasili Leontyev tərəfindən işlənib hazırlanmışdır. V.Leontyev milli təsərrüfatı maddi və dəyər göstəricilərinin köməyilə şahmat cədvəli formasında təsvir etmişdir.

V.Leontyevin sahələrarası balansı aşağıdakı dörd kvadratdan ibarətdir: 1) Məhsulun istehsalına çəkilən maddi xərc göstəriciləri; 2) Bilavasitə istehlak, yığım və ixrac üçün istifadə olunan son məhsul göstəriciləri; 3) Xalis məhsul göstəriciləri (əmək haqqı, mənfəət, vergilər); 4) Xalis məhsulun yenidən bölüşdürülməsi [11, 381].

## 3. AZƏRBAYCANDA DAVAMLI İNKİŞAFA TƏSİR EDƏN AMİLLƏR.

Davamlı inkişaf şəraitində Azərbaycanda ÜDM istehsalının təhlili belə bir qənaətə gəlməyə imkan verir ki, iqtisadi artımın əsas problemi onun yaradılmasında iştirak edən amillərin birtərəfli iştirakı hesabınadır. Belə ki, 2005-ci ilədək iqtisadi artıma daxili amillər, yəni əsas kapitala yönəldilən vəsait qoyuluşu təsir etmişdirsə, 2005-ci ildən sonrakı dövrdə artım xarici amillərin, xüsusilə də əmtəə və xidmətlərin ixracı hesabına baş vermişdir.

Araşdırmalar belə deməyə əsas verir ki, Azərbaycanda 2005-2020-ci illəri əhatə edən dövr ərzində iqtisadi artımın yaranmasının başlıca səbəbi ixracın fiziki həcminin artması, dünya bazarında neftin qiymətinin qalxması, hökumət tərəfindən regionların sosial iqtisadi inkişafına dair həyata keçirdiyi silsiləli dövlət proqramlarında nəzərdə tutulan infrastruktur layihələrinin yerinə yetirilməsinə əsaslı vəsait qoyuluşunun artan həcminin təsiri olmuşdur.

Ölkədə həyata keçirilən demokratik islahatlar, dünya təcrübəsinə əsaslanaraq təsərrüfat sisteminin bazar mexanizminə keçirilməsi, mövcud sosial-iqtisadi və siyasi vəziyyət iqtisadi inkişafın Azərbaycan modelinin yaranması ilə səciyyələnmişdir.

## 4.NƏTİCƏ

Yuxarıdakı nəzəriyyələrdə iqtisadi artım modellərinin təhlili göstərir ki, iqtisadi artımın

mahiyyəti, tipi və s. əlamətlərinin müəyyənləşdirilməsində iqtisadçılar arasında vahid fikir formalaşmamışdır. Hər bir dövrdə iqtisadi hadisə və proseslərdə yaranan əsaslı dəyişikliyə və tələbə uyğun, iqtisadçılar tərəfindən bir-birindən fərqli müxtəlif iqtisadi fikirlər irəli sürülmüşdür.

Nəzərə almaq lazımdır ki, hər bir nəzəri məktəb statistik və empirik araşdırmalara uyğun, qarşıya qoyduqları problemin həlli istiqamətində mühüm nəticələr əldə etsələr də, davamlı inkişaf problemi yarandığı müasir dövrdə iqtisadi artım nəzəriyyələri barədə tənqidi fikirlər yenə də ortaya çıxacaq və yeni nəzəriyyələrin meydana gəlməsi üçün lazımı şərait yaranacaqdır.

## ƏDƏBİYYAT

1.Babayev Ə.P. Milli iqtisadiyyat və milli iqtisadi model / "Milli iqtisadi inkişafın Azərbaycan modeli" mövzusunda beynəlxalq konfransın materialları (Bakı: 12-13 may, 2006) II. Bakı: 2007.

2.Əhmədov M. Qloballaşma və milli iqtisadiyyatın formalaşması. Bakı: Azərnəşr, 2003, s. 304

3.Haydar Baş. Milli İqtisadi Model. Bakı Dövlət Universiteti nəşriyyatı, Bakı: 2005, s. 306

4.Həsənli Y., Həsənov F. İqtisadi artımın Domar və Harrod modellərinin Azərbaycan iqtisadiyyatı timsalında realizasiyası / Milli iqtisadiyyatın problemləri (məqalələr toplusu). I Buraxılış. Bakı: Elm, 2006.

5.İqtisadi nəzəriyyə. Mikroiqtisadiyyat-1,2: Dərslik/RF. Q.P.Juravlyovanın ümumi redaktəsi ilə. M., "Daşkov və Ko" nəşriyyat-ticarət korporasiyası, 2010.-924 s.

6.İmanov Q., Həsənli Y. Azərbaycanın sosial-iqtisadi inkişafının modelləri. Makroiqtisadi təhlil. Bakı: Elm, 2001, 248 s.

7.Meybullayev M.X. İqtisadi təlimlər tarixi. Bakı: 538 s.

8.Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: dayanıqlı və davamlı inkişafın təntənəsi (Monoqrafiya) Bakı: İqtisad Universiteti, 2011, 542 s.

9.Маршалл, А. Принципы экономической науки/ А. Маршалл. Москва: Директ -медия, - 2012. - с.2127.

10.Леонтьев, В. Экономические эссе/ В.Леонтьев, Москва: Политиздат. -1990,-415 с.

11.Кейнс, Дж. Избранные произведения/ Дж. Кейнс.-Москва: Экономика,-1993,-с. 540;

12.Vəliyev, T.S. İqtisad elminin nəzəri əsaslarının tarixi təkamülü/ T.S. Vəliyev. -Bakı: Elm, -1999, -284s.;

13.Hiks, C.R. Harrodun dinamik teorisi.Ekonomika/ C.R.Hiks. -Vol.16-106-21

14.Макконелл К. Брю. Экономикс/ Макконелл К. Брю Москва: Республика.-2001, -444 с.

15.Самуэльсон, П.Э. Экономика: пер. с англ. / П.Э. Самуэльсон, В.Д. Нордхаус. -Москва: Вильямс. -2015. -с.1360.

16.Смит, А. Исследование о природе и причинах богатства народов. Монография/ А. Смит. Москва: Эксмо. -2009, -с.956.

17.Харрод, Р.Ф. Теории экономической динамики/ Р.Ф. Харрод. –Москва: Экоеомика, - 1959, -314 с.

18.http://unazerbaijan.org/az/buklet-dayaniqli-inkisaf-m

19.http://eco.gov.az /az

20.http://www.az.wikipedia /org /

## SUMMARY

**Hasan Mammadov, Mukhtar Habibli**

## THEORETICAL APPROACH TO ECONOMIC GROWTH MODELS IN SUSTAINABLE DEVELOPMENT

The article discusses the theoretical approach to economic growth models in sustainable development. It is shown that sustainable economic development is formed under the influence of a number of factors. Among these factors, economic growth and factors influencing it are important.

It is shown that the first economic current, starting from the school of mercantilism, emerged in different periods of history, classical, neoclassical, Keynesian, neo-Keynesian, institutionalism and modern theories of growth.

At the end of the article, it is noted that the democratic reforms implemented in our country, the transition of the economic system to a market mechanism, the current socio-economic and political situation are characterized by the emergence of the Azerbaijani model of economic development.

***Key words:*** *Mercantilism, sustainable development, classical growth theory, neoclassical theory, Keynesian theory, neo-Keynesian theory.*



## РЕЗЮМЕ

**Гасан Мамедов, Мухтар Хабибли**

## ТЕОРЕТИЧЕСКИЙ ПОДХОД К МОДЕЛЯМ ЭКОНОМИЧЕСКОГО РОСТА В УСТОЙЧИВОМ РАЗВИТИИ

В статье рассматривается теоретический подход к моделям экономического роста в устойчивом развитии, показано, что устойчивое экономическое развитие формируется под влиянием ряда факторов, среди которых важное значение имеют экономический рост и факторы, влияющие на него.

Показано, что первое экономическое течение, начавшееся со школы меркантилизма, возникло в разные периоды истории: классические, неоклассические, кейнсианские, неокейнсианские, институциональные и современные теории роста.

В конце статьи отмечается, что проводимые в нашей стране демократические реформы, переход экономической системы к рыночному механизму, сложившаяся социально-экономическая и политическая ситуация характеризуются появлением азербайджанской модели экономического развития. .

***Ключевые слова:*** *меркантилизм, устойчивое развитие, классическая теория роста, неоклассическая теория, кейнсианская теория, неокейнсианская теория.*


---


***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*
***Məqalə daxil olmuşdur:*** *4 noyabr 2021-ci il*
***Çapa qəbul edilmişdir:*** *2 dekabr 2021-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2021, № 2 (111), 182-188
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2021, № 2 (111), 182-188
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2021, № 2 (111), 182-188

**İRADƏ BAĞIROVA**
*Naxçıvan Dövlət Universiteti*
*iradebagirova@yahoo.com*
**HÜSEYN MƏHƏRRƏMOV**
*"Naxçıvan" Universiteti*
*magarramov88@gmail.com*

**UOT: 336**

# AZƏRBAYCAN RESPUBLİKASINDA İPOTEKA KREDİTİNİN ÜSTÜNLÜKLƏRİ VƏ VERİLMƏSİ PROSEDURASI

*Azərbaycanda ipoteka sahəsində həyata keçirilən bir sıra islahatlar bu bazarın inkişafına təkan vermişdir. Eləcə də artmaqda olan əhalinin mənzillərə olan ehtiyacının azalmasına və ölkədə daşınmaz əmlak bazarının inkişaf etməsinə səbəb olmuşdur. Hazırda ölkəmizdə bu sahədə uğurlarla yanaşı həm də bir sıra problemlərə rast gəlinir. Məqalədə bu kimi məsələlər müzakirə obyektinə çevrilmişdir və bir sıra təkliflər verilmişdir.*

***Açar sözlər:*** *Azərbaycan İpoteka Fondu, ipoteka krediti, güzəştli ipoteka, elektron ipoteka sistemi.*

Hazırda ipoteka siyasətinin müasir sosial dövlətin bir elementi olduğunu və inkişaf etməkdə olan Azərbaycanda, dövlətin qarşısında əhalinin mənzil şəraitinin yaxşılaşdırılması və ya yeni həyat standartlarına uyğunlaşdırılması kimi öhdəliklərin olmasını nəzərə alsaq həmçinin, ölkəmizdə ipoteka sisteminin yeni təşəkkül tapması və təkmilləşdirilməsinə olan ehtiyac mövzunu əhəmiyyətli edən əsas səbəblərdir.

Bir çox insanlar elə düşünür ki, ipoteka sadəcə yeni mənzil almaq üçün puldur? Bu heç də belə deyil. İpoteka anlayışı düşündüyünüzdən daha genişdir.

İpoteka – sizin daşınmaz əmlakı girov qoymaq müqabilində əldə etdiyiniz pullardır. Amma əsasən ipoteka krediti yeni yaşayış evi və ya mənzil almaq üçün rəsmiləşdirilir. Buna baxmayaraq, əcnəbi praktikada digər ehtiyaclar üçün də ipoteka rəsmiləşdirilməsi halları mövcuddur. Bu, istənilən növ məhsulun alınması və xidmətin ödənməsi də ola bilər.

İpoteka anlayışı Qədim Yunanıstanda meydana gəlmişdir. Belə güman edilir ki, e.ə. VI əsrdə müxtəlif sənədlərdə borc götürənlər tərəfindən girov qoyulmuş ərazilər ilə bağlı informasiyanın əks olunduğu sütunlar ipoteka termini ilə adlanırdı. Məlum olub ki, ilk ipoteka aktı 27 əsr budan əvvəl qədim Yunanıstanda həyata keçirilib. Məqsəd borclu vətəndaşların borc qarşılığında köləyə çevrilməsinin qarşısını almaq və həmçinin mülkiyyət münasibətlərinin tənzimlənməsi olub. Qeyd edək ki, ipote ka sözünün mənası "dayaq", "dirək" deməkdir. Dünyada ipoteka sistemi XX əsrin əvvəllərindən etibarən sürətlə inkişaf etməyə başlayıb və nəticədə ayrı-ayrı ipoteka sistemi modellərinin təşəkkül tapmasına yol açıb. Hazırda dünya ölkələri ipoteka sisteminin iki əsas modelindən ABŞ və Avropa modellərindən istifadə edir.

Çoxları hesab edir ki, ipoteka krediti yalnızca mənzil almaq məqsədi ilə verilir və Azərbaycanda bu həqiqətən də belədir. Amma xarici praktikada evi girov qoymaq müqabilində alınan kredit ilə digər ehtiyacları da qarşılamaq olar: təhsil haqqı ödənişi, müalicə və s. Əgər siz banka girov qismində istənilən bir daşınmaz əmlakı təqdim edə bilirsinizsə, bu artıq ipoteka sayılır.

İpoteka, əsasən, uzunmüddətli olur. Bir qayda olaraq, banklar bu kredit üzrə ən aşağı faiz dərəcəsi təklif edirlər. Kreditin rəsmiləşdirilməsi üçün sizin gəlirləriniz olduqca yüksək

olmalıdır və siz onları rəsmi şəkildə təsdiq etməyi bacarmalısınız. Kredit üzrə aylıq ödənişlər sizin gəlirlərinizin 40%-dən çoxunu təşkil etməli deyil. Kredit tarixçəsi mənfi olan insanlara bank tərəfindən imtina cavabının verilməsi ehtimalları yüksəkdir.[7]

İlk öncə qeyd etməliyik ki, ipoteka krediti almaq istəyən vətəndaş kreditin hansı mənbələrdən alınacağını müəyyən etməlidir. Belə ki, ipoteka kreditləri verilmə şərtləri və maliyyənin təmin edilməsi mənbəyi baxımından üç əsas hissəyə ayrılır.

1. Güzəştli ipoteka. 2. Adi ipoteka. 3. Kommersiya ipotekası.

Bu ipoteka kreditlərinin hər biri ayrı-ayrı qaydalar və şərtlərdaxilində müştərilərə təqdim olunur. Həmçinin, adi və güzəştli ipoteka kreditləri dövlət büdcəsi, Azərbaycan İpoteka Fondunun (AİF) aktivlərinin idarə edilməsi və sair rəsmi mənbələrdən formalaşdığı halda kommersiya ipotekası istənilən bank və ya kredit təşkilatının öz vəsaiti hesabına formalaşır.

Kreditlərin verilməsi şərtləri :

AİF-in vəsaitləri hesabına verilən adi və güzəştli ipoteka kreditləri aşağıdakı tələblərə uyğun olmalıdır:

- Kredit Azərbaycan manatı ilə ancaq Azərbaycan Respublikasının vətəndaşına verilməlidir;
- İpoteka predmeti yalnız mənzil və ya fərdi yaşayış evi ola bilər;
- Kreditin məbləği kreditin verildiyi tarixə ipoteka ilə yüklü edilən daşınmaz əmlakın bazar qiymətinin 85%-dən çox olmamalıdır;
- İpoteka kreditləri üzrə ödəniləcək aylıq məbləğ borcalanın (borcalanların) aylıq məcmu gəlirinin 70%-dən çox olmamalıdır;
- Borcalanın (birgə borcalanın) və onun ailəsinin həyatı və fəaliyyəti ilə əlaqədar müntəzəm ödənişlər hər bir ailə üzvünün saxlanılması üçün xərc ölkə üzrə müəyyən olunmuş yaşayış minimumundan az götürülə bilməz;
- Kreditin son ödəniş tarixinə borcalanın yaşı qanunvericiliklə müəyyən olunmuş pensiya yaş həddindən çox olmamalıdır;
- Kredit daşınmaz əmlakın ipotekası ilə təmin olunmalıdır;
- İpoteka ilə yüklü edilən daşınmaz əmlak AİF tərəfindən təsdiq olunmuş siyahıya daxil olan və onunla əməkdaşlığa dair müqavilə bağlamış müstəqil qiymətləndirici tərəfindən qiymətləndirilməlidir;
- İpoteka saxlayanın hüquqları qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmalıdır;
- Kredit üzrə əsas borc və hesablanmış faizlər hər ay bərabər hissələrlə (annuitet ödənişlər) ödənilməlidir;
- İpoteka ilə yüklü edilmiş daşınmaz əmlakın bazar qiyməti əsas götürülərək ipoteka ilə təmin edilən kreditin həcmindən az olmamaq şərtilə sığortalanmalıdır;
- Həyat sığorta müqaviləsi. Birgə borcalanların həyat sığortası onların ipoteka kreditinin məbləği hesablanarkən gəlirlərinin xüsusi çəkisinə proporsional qaydada aparılmalı və birgə borcalanların həyat sığortasının ümumi məbləği ipoteka krediti məbləğindən az olmamalıdır;
- AİF tərəfindən müəyyən olunan digər tələblər.

Bu zaman yaranan hallardan biri –***kimlər güzəştli ipoteka kreditindən istifadə edə bilər?*** olur. Yeri gəlmişkən qeyd edək ki, güzəştli ipoteka krediti dövlətin sosial siyasətinin bir istiqaməti olub, əhalinin daha az gəlirli hissəsinə dəstək məqsədi daşımaqla yanaşı, ölkə qarşısında dəyərli xidmətləri olan insanlara və ya onların ailələrinə dövlət qayğısını əks etdirən bir üstünlüyüdə özündə ehtiva edir. Bu isə özlüyündə təqdirə layiq hal hesab edilir. "Azərbaycan Respublikasında güzəştli ipoteka kreditlərinin verilməsi" qaydalarının 2-ci müddəası güzəştli ipoteka kreditindən istifadə etmə

hüququ olan vətəndaşların siyahısını aşağıdakı kimi müəyyən edir.

*1. Gənc ailənin üzvü olan aşağıdakı şəxslər;*

*- şəhid ailəsinin üzvü (əri/arvadı, övladları);*

*-Milli Qəhrəman (özü, əri/arvadı, övladları);*

*- məcburi köçkün və ya ona bərabər tutulan şəxslər;*

*-üç ildən az olmayan müddətdə dövlət qulluqçusu işləyən şəxslər;*

*-elmlər namizədi və ya doktorluq elmi dərəcəsi olan şəxslər;*

*- idman sahəsində xüsusi xidmətləri olan şəxslər (fəxri bədən tərbiyəsi və idman xadimi, ölkə miqyaslı yarışların qalibi (I yer), beynəlxalq miqyaslı yarışların mükafatçıları (I, II və III yerlər).*

*2.Üç ildən az olmayan müddətdə hərbi xidmətdə olan (müddətlihəqiqi hərbi xidmətdə olan hərbi qulluqçular daxil deyil), həmçinin də ehtiyata və istefaya buraxılmış Azərbaycan Respublikasının hərbi qulluqçuları.*

Onu da qeyd etmək lazımdır ki, bəhs etdiyimiz qaydalara əsasən ipoteka kreditləri üzrə güzəştlərdən istifadə etmək hüququ olan hər bir ailə (şəxs) bu güzəştlərdən yalnız bir dəfə istifadə edə bilər. Bu məhdudiyyətdə əsas məqsəd məhdud imkanlardan istifadə zamanı ədalətin təmin edilməsinə xidmət etməkdir.

**Cədvəl 1 : İpoteka kreditlərinin verilməsi şərtləri**

| Şərtlər | Adi ipoteka kreditləri | Güzəştli ipoteka kreditləri |
|---|---|---|
| *Maksimal məbləğ* | 50000 AZN | 50000 AZN |
| *Maksimal illik faiz dərəcəsi* | 8% | 4% |
| *Maksimal müddət* | 25 il | 30 il |
| *Minimum ilkin ödəniş* | 20% | 15% |
| *Aylıq annuitet ödəniş məbləği (50 min manat kredit alındığı halda)* | 386 AZN | 239 AZN |

**Mənbə: Azərbaycan Respublikası Dövlət İpoteka Fondu.**
:http://www.amf.cbar.az/?/az/content/157/

Cədvəldən də göründüyü kimi, adi və güzəştli ipoteka kreditlərinin maksimal məbləği bərabərdir (50 min manat). Lakin digər üç şərt illik faiz, müddət və ilkin ödəniş şərtlərində fərq var. Nəticədə aylıq annuitet ödənişlər arasında ciddi fərq yaranır. Belə ki, 25 il müddətinə 50 min manat adi ipoteka götürən şəxs aylıq 386 manat olmaqla müddətin sonuna qədər cəmi 116 min manat ödəniş etdiyi halda, güzəştli ipoteka götürən şəxs müvafiq olaraq aylıq 264 manat, cəmi isə 79200 manat məbləğində ödəniş edir. Digər tərəfdən nəzərə alsaq ki, güzəştli ipoteka krediti üçün ödəmənin maksimal müddəti 30 il müəyyən edilib bu zaman aylıq ödəniş 239 manata bərabər olur ki, bu da az gəlirli ailələr üçün əlavə üstünlük yaradır.

İpoteka kreditinin alınması üçün tələb olunan sənədlər.

Tələb edilən sənədlərin siyahısını təqdim etməmişdən əvvəl onu qeyd etmək lazımdır ki, ipoteka kreditinin əldə edilməsi zamanı ən ağır proses sənədlərin toplanması hesab edilir. Belə ki, bu zaman müxtəlif rəsmi qurumlar tərəfindən alınmalı olan 18 adda sənəd toplanmalıdır ki, bu da haqlı olaraq vətəndaşların narazılığına səbəb olur. Tələb edilən sənədlər aşağıdakılardır :

1. Borcalanın (birgə borcalanın) şəxsiyyətini təsdiq edən sənəd və sənədin surəti;
2. Nikahın bağlanması (və ya boşanma) barədə şəhadətnamə (sənədin surəti);
3. Borcalanla (birgə borcalanla) birgə yaşayan yetkinlik yaşına çatmış ailə üzvlərinin şəxsiyyətini təsdiq edən sənədlər (sənədlərin surəti);
4. Borcalanın (birgə borcalanın) yetkinlik yaşına çatmamış ailə üzvlərinin şəxsiyyət vəsiqələri və ya doğum haqqında şəhadətnamələri (sənədlərin surəti);

5. Borcalanın (birgə borcalanın) əmək müqaviləsi və ya onun iş yerinin kadrlar idarəsi tərəfindən təsdiq edilmiş əmək kitabçasının surəti;
6. Borcalanın (birgə borcalanın) gəlirlərini təsdiq edən sənədlər(əsas və əgər varsa, əlavə iş yerindən arayış və s.);
7. İpoteka predmetinin qiymətləndirmə aktı.

İpoteka krediti əldə etmək üçün tələb edilən sənədlərin çoxluğu bir çox hallarda vətəndaşlar üçün keçilməz baryer funksiyasını yerinə yetirir ki, bu hal əhalinin aztəminatlı hissəsi üçün daha ciddi problemlər yaradır. Belə ki, sənədlərin çoxluğu administrativ əngəlləri daha daartırır və bəzi hallarda isə süni imtina variantı yaradır. Belə fikirləşirik ki, bu tip neqativ halların qarşısını almaq məqsədi ilə tələb edilən sənədlərin sayını azaltmaq mümkündür. Nəzərə alsaq ki, hazırda elektron hökumətin yaradılması istiqamətində ciddi işlər görülüb və vətəndaşlar haqqında məlumat bazası formalaşdırılıb, bu sənədlərin bəziləri ipoteka verən qurumlar tərəfindən elektron qaydada müraciət etməklə qısa zaman kəsiyində əldə edilə bilər (3.s.75).

Hazırda ipoteka prosesi yuxarıda qeyd edilən sənədlərin də tələb olunma ardıcıllığından göründüyü kimi, mərhələli şəkildə həyata keçirilir. Belə ki, kredit almaq haqqında qərar verən hər bir şəxs əvvəlcə təsdiq edilmiş şərtlər daxilində şəxsi imkanlarını qiymətləndirməlidir. Çünki tələb olunan şərtlərdən hər hansı biri olmadıqda kreditin alınması mümkün deyil və bu məqsədlə müvafiq qurumlara müraciət etmək səmərəsiz vaxt itkisinə və sonradan ümidsizliyə yol aça bilər. Yeri gəlmişkən qeyd etmək istəyirik ki, ipoteka kreditini ailə üzvləri vəyaxın qohumlarla birgə qaydada da əldə edə bilərlər. Bu zaman onlar “birgə borcalan” adlandırılır. Əgər şəxsin əmək haqqı kreditin geri qaytarılmasına kifayət etmirsə bu zaman ailənin digər üzvü və ya üzvləri kreditin geri qaytarılması haqqında bank qarşısında öhdəlik götürə bilər ki, bu da onların birgə problemi sayılan mənzil məsələsinin həllinə kömək edər. Əgər vətəndaş ipoteka krediti almaq qərarı qəbul edirsə ipoteka krediti vermə səlahiyyəti olan müvəkkil kredit təşkilatına (banka) müraciət edərək ilkin qiymətləndirmədən keçməlidir. Bundan sonrakı mərhələ həlledici məqam hesab edilir. Çünki müraciət etdiyiniz kredit təşkilatı sizin təqdim etdiyiniz sənədlər əsasında kredit qaytarma imkanlarınızı, ipoteka edilən əmlakın iqtisadi parametrlərini yəni, dəyəri və vəziyyətinin qiymətləndirilməsini həyata keçirir. Kredit təşkilatı məhz bu qiymətləndirmədən sonra sizə kredit verilib, verilməməsi haqqında qərar qəbul edir. Əgər sizə kreditin verilməsi qərarı qəbul edilirsə, artıq ipoteka kreditinin rəsmiləşdirilməsinə başlanılır, mərhələ üçün zəruri olan sənədlər toplanılır, kredit, ipoteka və sığorta müqavilələri imzalanır və təsdiq edilir. Bu zaman yaranan hüquqlar dövlət qeydiyyatına alınır. Məhz bundan sonra kreditin verilməsi mümkündür. Əlbəttə ki, müəyyən edilmiş ilkin ödəniş məbləği ödənməli, ödəniş mütləq bank yolu ilə həyata keçirilməlidir. İpotekedilən əmlakın dəyərinin digər qalığı isə ipoteka krediti məqsədi ilə ayrılan vəsait hesabına əmlakın sahibinə ödənmiş olur. Beləliklə, əmlak ipotek etdirənin adına sənədləşdirilmiş olur lakin, kredit təşkilatı qarşısında şəxsin götürmüş olduğu öhdəliyin icrası başa çatdıqdan sonra əmlak üzərində tam səlahiyyət şəxsə verilir. Yəni, öhdəlik yerinə yetirilməyənə qədər əmlakın satılması, başqasının adına keçirilməsi və s. kimi hüquqlar yalnız kredit təşkilatının razılığı və iştirakı ilə mümkündür [8].

Yuxarıda qeyd etdiklərimizdən göründüyü kimi, ipoteka prosesi zamanı yaranan xərclər təxminən 580-830 AZN arasında dəyişə bilər. Xərclərin dəyişməsinə səbəb ipoteka krediti müraciət və sənədləşmənin Bakı şəhəri və regionlarda olması, həmçinin kreditin məbləğindən asılı olaraq dəyişir.

Sadaladığımız prosedur qaydalarını yerinə yetirdikdən sonra kredit sizin adınıza ayrılır. Bundan sonrakı mərhələ ipotek etdirilən mənzil dəyərinin kredit təşkilatının ödəmədiyi məbləği mənzil sahibinin adına köçürmək olur. Yəni ilkin ödənişi bank yolu ilə ödəmiş olursan və digər hissə isə əldə olunan kredit hesabına ödənilir. Beləliklə mənzil sənin adına sənədləşdirilmiş olur. Baxmayaraq ki, əmlak bankda kreditin girovu olaraq qeydə alınıb, sən mənzilin mülkiyyətçisi olursan. Bəzən insanlar düşünür ki, sadəcə ödəniş bitdikdən sonra mülkiyyətçi hüququ əldə edir.

Qeyd etdiyimiz kimi, ölkəmizdə ipoteka kreditlərinin verilməsinə 2006- cı ildən başlanılıb.

28 dekabr 2018-ci ildə "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununa əlavə və dəyişikliklər edilmişdir. Dəyişikliklər əsasilə, notariusun icra qeydi əsasında ipoteka predmetinə tutma yönəldilməsi, ipoteka predmetinin özgəninkiləşdirilməsi, ipoteka ilə əlaqədar mübahisələrə məhkəmə qaydasında baxılması, hərrac keçirilməsi qaydaları, habelə bu prosedurların rüsumları ilə əlaqədardır. (1)

Ötən 2006-cı ildən 2013-cü ilə qədər olan müddət ərzində əhaliyə verilən ipoteka kreditlərininhəcmi 420.19 milyon manat olub. 2013-cü ildə isə 78.16 milyon manat məbləğində ipoteka krediti verilib. Beləliklə, AİF xətti ilə verilən kreditlərin ümumi həcmi 498.35 milyon manat olub. Təbii ki, AİF yarandığı ilk günlərdə maliyyə imkanları çox az idi. Belə ki, 2006-cı ildə fond əhaliyə yalnız dövlət büdcəsindən ayrılan 5.6 milyon manat vəsaiti təqdim edirdisə, hazırda AİF-in maliyyələşmə mənbələri daha çoxdur və bunlara dövlət büdcəsindən ayrılan vəsaitlər, AİF tərəfindən yenidən maliyyələşdirmə nəticəsində yaranan vəsaitlər və AİF-in yerləşdirdiyi istiqrazlardan əldə edilən vəsaitlər aiddir. Fond vasitəsi ilə ipoteka kreditləşməsinin illər üzrə dinamikası aşağıdakı qrafikdə göstərilmişdir.

**Qrafik 1 : AİF tərəfindən verilən ipoteka kreditlərinin illər üzrə dinamikası**




**Mənbə:** ***AİF-hesabatları əsasında hazırlanıb.***

Qrafikdən də göründüyü kimi qısa müddət ərzində ölkədə ipoteka kreditləşməsinin həcmi təxminən 15 dəfədən çox artıb. Yalnız məlum qlobal maliyyə böhranı ilə əlaqədar 2008-ci ildə kreditləşmə rəsmi olaraq dayandırılmışdı. Buna səbəb faktiki maliyyə qıtlığı yox, qlobal maliyyə böhranına səbəb olan əsas amil kimi ABŞ və bir sıra Avropa ölkələrində ipoteka kreditlərinin geri qaytarılmasında yaranan problemin hesab edilməsi idi. Başqa sözlə desək, baş vermiş böhran Azərbaycan hökumətini daha ehtiyatlı davranmağa vadar edirdi. Lakin qısa müddət sonra 2009-cu ildə ipoteka kreditləşməsi bərpa edildi və eləhəmin il əhaliyə 77 milyon manat məbləğində kredit verildi. Hazırda Azərbaycanda ipoteka kreditləşməsinin ÜDM-də xüsusi çəkisi 0.8%- dir. İpoteka kreditlərinin ÜDM-dəki həcminə görə ölkəmiz dünyada ən son yerlərdən birini tutur. Məsələn, ABŞ da müvafiq göstərici 69%-ə, İsveçrədə isə 130%-ə çatır. İpoteka kreditlərinin ÜDM-dəki xüsusi çəkisinin çoxluğu ölkənin sosial siyasətinin səviyyəsini və vətəndaşların kreditlərdən istifadə imkanlarının genişliyinə dəlalət edir. Azərbaycandaisə il ərzində ipoteka kreditindən orta hesabla 3 min vətəndaş istifadə edir. Nəzərə alsaq ki, ölkəmizdə hər il təxminən 45-50 min yeni ailə qurulur və onların 85%-ni gənclər təşkil edir ipoteka kreditinin 2-3 min nəfərə şamil edilməsi doğru deyil. Vəziyyətin əhəmiyyətliliyini nəzərə alaraq ipoteka məqsədi ilə dövlət büdcəsinə ayrılan vəsaitlərin həcmi minimum 5 dəfə artırılmalıdır. Xatırlatmaq yerinə düşər ki, 2013-cü ildə dövlət büdcəsindən AİF-ə ayrılan vəsaitin həcmi 40 milyon manat olub. Bundan əvvəlki illərdə də büdcədən fonda ayırmalar daha az 7-20 milyon manat həcmində olub. Lakin nəzərə alsaq ki, hazırda sosial və ya adi ipoteka şərtlərində kreditlər təklif etmək özəl bank sektorunun marağında deyil, demək ki, dövlət büdcəsindən bu sahəyə ayrılan vəsaitlərin həcminin artırılması vacibdir. Azərbaycan vətəndaşı üçün daha çox əhəmiyyət kəsb edən ev probleminin həlli kimi bir məqsədlə cəmi 40 milyon və ya daha az vəsaitin ayrılması haqlı narazılıq doğurur.Halbuki, büdcə xərcləmələrində səmərəliliyi və məqsədliliyi təmin etməklə AİF-ə ayrılan vəsaitlərin məbləğini dəfələrlə artırmaq mümkündür. Ümumiyyətlə isə, AİF-in maliyyə qaynaqları artırılmalı, beynəlxalq təcrübədə daha çox istifadə

edilən sığorta fondlarının kreditləşməyə cəlb edilməsi təmin edilməlidir.

Qeyd etmək lazımdır ki, Fondun vəsaiti hesabına ipoteka kreditlərinin maliyyələşdirilməsinə 2006-cı ildən etibarən başlanılıb və bu sistem əhalinin mənzil təminatı sahəsində dövlətin yürütdüyü sosial siyasətin dəstəklənməsi baxımından əhəmiyyətli rola malikdir. Belə ki, 1 aprel 2019-cu il tarixinə Fondun vəsaiti hesabına verilən ipoteka kreditlərinin həcmi 1,2 mlrd. manatı keçib, 26000-dən çox ailə ipoteka krediti hesabına mənzil şəraitinin yaxşılaşdırılmasına nail olub. Bu kreditlərin 380,3 mln. manatdan çox hissəsini (7854 ədəd) güzəştli kateqoriyalara aid şəxslərə verilmiş ipoteka kreditləri təşkil edib. Ümumilikdə 2006-2019-cu illərdə (1 aprel 2019-cu il tarixinədək) Fondun vəsaiti hesabına verilən ipoteka kreditlərindən faydalananların 67.9%-ni gənclər və gənc ailələr təşkil edib, kreditlərin 19.5%-i isə regionlarda verilib.

Fondun vəsaiti hesabına ipoteka kreditlərinin verilməsinə nəzər saldıqda, son illər bu sahədə də kifayət qədər müsbət dinamikanın baş verməsini görmək olar. Belə ki, 2017-ci ildə fondun xətti ilə 3109 nəfər ailəyə 203 mln. manat məbləğində, 2018-ci ildə isə 3960 ailəyə 273 mln. manat məbləğində ipoteka krediti verilib. 2019-cu ilin yanvar-mart ayları ərzində isə artıq 796 ailə ipoteka kreditləri vasitəsilə (52,4 mln.manat) mənzil əldə edib.

2018-ci ildən etibarən fond tərəfindən Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) xətti ilə satışa çıxarılan güzəştli mənzillərin ipoteka kreditləri vasitəsilə satışının dəstəklənməsi də həyata keçirilir. Təkcə 2019-cu ilin yanvar-mart aylarında Fondun xətti ilə 122 şəxsə MİDA-nın sərəncamında olan güzəştli mənzillərin alınması üçün ümumilikdə 5,3 mln. manat məbləğində ipoteka krediti verilib. Ümumilikdə 1 aprel 2019-cu il tarixinə Agentliyin sərəncamında olan güzəştli mənzillərin maliyyələşdirilməsi üçün verilən ipoteka kreditlərinin məbləği 15,4 mln. manat (353 ədəd) təşkil edib.

Fondun kapitallaşmasına gəlincə, 2019-cu il martın 7-də Prezident İlham Əliyevin Fərmanı ilə Fondun nizamnamə kapitalı 100 mln. manat artırılaraq 566 mln. manata çatdırılıb. Kapitala əlavə olunan vəsaitin hər il olduğu kimi, 2019-cu ildə də güzəştli ipoteka kreditlərinə yönəldilməsi nəzərdə tutulur.

Qeyd edək ki, 2018-ci ilin sonuna fondun cəmi aktivlərinin həcmi 1,27 mlrd. manat təşkil edib. Qeyd etmək lazımdır ki, fondun əsas məqsədi mənfəət əldə etmək olmasa da, risklərin etibarlı idarəetmə sisteminin qurulması və fəaliyyətin səmərəli təşkili nəticəsində mənfəət göstəricilərində illər üzrə əhəmiyyətli dərəcədə artım müşahidə olunub. Belə ki, fond 2018-ci ili 19,9 mln.manat xalis mənfəətlə başa vurub ki, bu da 2017-ci illə müqayisədə 4,8 mln. manat və ya 32,23% artım deməkdir. [8]

Dünya praktikasının araşdırılması və Azərbaycanda əhalinin real gəlirləri fonunda ipoteka kreditlərinin verilməsi faizləri kifayət qədər yüksəkdir. Belə ki, dünya praktikasına nəzər saldıqda əhalinin aylıq orta gəlirləri Azərbaycandan dəfələrlə yüksək olan ABŞ, Almaniya, Fransa, Türkiyə kimi inkişaf etmiş ölkələrdə ipoteka faizləri 2-5% arasında qərarlaşdığı halda ölkəmizdə müvafiq göstərici 4-12% -dir. Hətta, təbii sərvətləri olmayan və ölkəmizlə oxşar keçmişə malik Gürcüstanda belə ipoteka faizləri 3.5-5% arasında dəyişir. Hazırkı adi ipoteka məqsədli 50 min manat qarşılığında 25 il müddətində kreditin aylıq ödənişi 386 manat olmaqla təxminən ölkədəki orta aylıq əmək haqqına bərabərdir. Yaxud digər bir yanaşma ilə nəzər salsaq, adi ipoteka kreditinin 25 il müddətinə geri qaytarılması ipoteka məbləğinin 130%-i həcmində və ya 65 min manat məbləğində və yaxud ipoteka kreditinin 130%-i nə bərabər əlavə vəsaitin ödənilməsinə səbəb olur ki, bu da orta hesabla aylıq 220 manat faiz xərcinin olması deməkdir. [7]

İpoteka kreditlərinin verilməsi bir çox hallarda daşınmaz əmlak bazarında qiymətlərin artımına səbəb olur. Çünki bazarlara daxil olan vəsaitlər əlavə tələb formalaşdırır və tikinti sektorunun inkişaf tempi buna uyğun olmadığı təqdirdə təklif edilən qiymətlərdə arzu olunmayan artımlar baş verir.

Beləliklə, ipoteka kreditləşməsi prosesində manipulyasiya və yaxud subyektiv yanaşmanı aradan qaldırmaq mümkündür.

## ƏDƏBİYYAT


1. "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: 15 aprel 2005.
2. "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu.
3. C.C. Müslümov. Kredit. Bakı: 2011
4. R.V.Əsgərova. Pul, kredit və banklar. Bakı: 2009
5. www.amf.az/
6. www.cbar.az/
7. www.stat.gov.az/
8. http://abtc.az/index.php
9. www.toki.gov.tr
10. www.hypo.org
11. www.ahml.ru
12. www.kredipazarı.com
13. www.tradingeconomics.com


## SUMMARY

**Irada Bagirova**
**Huseyn Maharramov**

### MORTGAGE CREDIT IN THE REPUBLIC OF AZERBAIJAN ADVANTAGES AND PROCEDURE OF PROVISIONSUMMARY

A number of reforms implemented in the field of mortgages in Azerbaijan have given impetus to the development of this market.

A number of reforms implemented in the field of mortgages in Azerbaijan have given impetus to the development of this market. It has also led to a decline in the housing needs of the growing population and the development of the real estate market in the country. At present, along with successes in this field, our country also faces a number of problems. The article discusses such issues and makes a number of suggestions.

***Key words:*** *mortgage loan, Azerbaijan Mortgage Fund, preferential mortgage, electronic mortgage system.*

## РЕЗЮМЕ

**Ирада Багирова**
**Гусейн Магеррамов**

### ИПОТЕЧНЫЙ КРЕДИТ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ ПРЕИМУЩЕСТВА И ПОРЯДОК ПРЕДОСТАВЛЕНИЯ

Ряд реформ, реализованных в сфере ипотеки в Азербайджане, дал толчок развитию этого рынка. Это также привело к сокращению жилищных потребностей растущего населения и привело к развитию рынка недвижимости в стране. В настоящее время, наряду с успехами в этой области, наша страна сталкивается с рядом проблем. В статье обсуждаются такие вопросы и делается ряд предложений.

***Ключевые слова:*** *Азербайджанский ипотечный фонд, ипотечный кредит, льготная ипотека, электронная ипотечная система.*

---

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*
***Məqalə daxil olmuşdur:*** *4 noyabr 2021-ci il*
***Çapa qəbul edilmişdir:*** *2 dekabr 2021-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2021, № 2 (111), 189-195
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2021, № 2 (111), 189-195
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2021, № 2 (111), 189-195

**BULQEYİS NOVRUZOVA**
*Naxçıvan Dövlət Universiteti*
*bulqeyis@yahoo.com*

**UOT: 339**

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİNİN GENİŞLƏNMƏSİ ONUN DÜNYA İQTİSADİYYATINA İNTEQRASİYANI ŞƏRTLƏNDİRƏN AMİLDİR

*Beynəlxalq iqtisadi inteqrasiya əmtəə və xidmətlərin sərbəst hərəkəti, kapital və iş qüvvəsinin beynəlxalq hərəkəti, birgə iqtisadi, valyuta-maliyyə, elmi-texniki, sosial, xarici və hərbi siyasətin razılığı ilə həyata keçirilməsinə əsaslanır. Dünya dövlətləri iqtisadi inteqrasiya yolu ilə öz istehsal güclərini, istehsalın səmərəliyini və bütün bunların nəticəsində isə əhalinin rifahını yüksəltməyə səy göstərirlər. İnteqrasiya prosesinin stimullaşdırılmasında əsas amillərdən biri milli iqtisadiyyatın sərbəstliyinin artması və onun bazar prinsipləri ilə inkişaf etməsidir. İqtisadi inteqrasiya təsərrüfat fəaliyyətlərinin beynəlmiləlləşməsi prosesi olmaqla ölkələr arasında əmək bölgüsünü dərinləşdirir, istehsalın inkişafına və səmərəliyinin artmasına şərait yaradır.*

*Tədqiqat işində Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasının obyektiv şərtləri, onun ölkənin milli iqtisadiyyatının inkişafı üçün əhəmiyyəti, ölkələrin dünya iqtisadiyyatına inteqrasiyasının əsas şərtləri, Azərbaycan Respublikasının, həmçinin Naxçıvan Muxtar Respublikasının xarici iqtisadi münasibətlərinin əsas xüsusiyyətləri və istiqamətləri araşdırılmış, respublikamızın, o cümlədən muxtar respublikamızın inteqrasiya əlaqələrinin mövcud vəziyyəti şərh olunmuş və xarici ölkələrlə iqtisadi əməkdaşlığın genişləndirilməsi yolları göstərilmişdir.*

***Açar sözlər**: inteqrasiya, dünya iqtisadiyyatına inteqrasiya, beynəlxalq iqtisadi münasibətlər, xarici-iqtisadi əlaqələr, beynəlxalq iqtisadi əməkdaşlıq.*

İnteqrasiya müasir dövrün obyektiv, labüd xarakterli inkişaf meyllərindən biridir. Belə qlobal xarakterli prosesə qoşulan hər hansı bir dünya dövləti ilk növbədə təbii ki, müstəqil, suveren respublika olmalıdır. Azərbaycanın məhz bu cür başa düşülən inteqrasiya münasibətlərinə qoşulması, dünyanın siyasi xəritəsində müstəqil dövlət kimi öz adını əbədi həkk etdirməsindən, qlobal cəmiyyətin bərabərhüquqlu subyekti statusunu almasından sonra mümkün olmuşdur.

Azərbaycanın qarşısında böyük məqsədlər durur. Bunlar dünyanın yalnız siyasi deyil, həm də iqtisadi, elmi, informasiya məkanlarına inteqrasiya amillərini də əhatə edir. Ölkənin geosiyasi vəziyyəti nəzərə alınaraq, hərtərəfli iqtisadi və sosial inkişafın təmin olunması üçün beynəlxalq maliyyə institutları, iqtisadi təşkilatlar, regional birliklərlə əməkdaşlıq genişləndirilir. Bütövlükdə dünya iqtisadiyyatına inteqrasiya prosesini sürətləndirmək üçün tədbirlər görülür.

Milli iqtisadi sistemlərin dünya təsərrüfat sisteminə qovuşması onun dünya iqtisadiyyatına inteqrasiyasının ayrılmaz tərkib hissəsi kimi fəaliyyət göstərməsini tələb edir. Beynəlxalq iqtisadi inteqrasiya dövlətlərin siyasi və təsərrüfat sistemlərinin iqtisadi cəhətdən birləşməsi olub, milli təsərrüfatlar arasında beynəlxalq əmək bölgüsünün müxtəlif səviyyələrdə həyata keçirilməsidir.

Beynəlxalq iqtisadi inteqrasiya əmtəə və xidmətlərin sərbəst hərəkəti, kapital və iş qüvvəsinin beynəlxalq hərəkəti, birgə iqtisadi, valyuta-maliyyə, elmi-texniki, sosial, xarici və hərbi siyasətin razılığı ilə həyata keçirilməsinə əsaslanır. Dünya dövlətləri iqtisadi inteqrasiya yolu ilə öz istehsal güclərini, istehsalın səmərəliyini və bütün bunların nəticəsində isə əhalinin rifahını yüksəltməyə səy göstərirlər.

Azərbaycan Respublikası 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra iqtisadi

sahədə öz suveren hüquqlarını gerçəkləşdirməyə və müstəqil siyasət aparmağa başlamışdır. Bu siyasətin başlıca istiqamətlərini müxtəlif mülkiyyət formaları əsasında yaradılan iqtisadi sistem, bazar iqtisadiyyatına keçid və dünya iqtisadiyyatına inteqrasiya təşkil etmişdir.

Dövlət müstəqilliyinin bərpasından sonra ötən tarixi dövr ərzində Azərbaycan Respublikasının iqtisadi siyasəti, ölkəmizin sosial-iqtisadi inkişafı və dünya təsərrüfat sisteminə inteqrasiyası sahəsində çox böyük nailiyyətlər əldə olunmuşdur. Azərbaycan Respublikası dövlət müstəqilliyini qazandıqdan sonra onun xarici iqtisadi siyasətinin mühüm istiqamətlərindən birini beynəlxalq maliyyə-kredit və iqtisadi qurumlarla əlaqələr təşkil etmişdir. Ötən dövr ərzində bu sahədə kifayət qədər iş görülmüşdür. Azərbaycan, demək olar ki, bütün nüfuzlu beynəlxalq qurumlara, o cümlədən 1992-ci ildə Beynəlxalq Valyuta Fonduna, Dünya Bankına, Avropa Yenidənqurma və İnkişaf Bankına, İslam İnkişaf Bankına, 1999-cu ildə Asiya İnkişaf Bankına üzv qəbul olunmuşdur.

Sahibkarlığı inkişaf etdirmək, əlverişli biznes və investisiya mühiti yaratmaqla daxili və xarici investisiyaları cəlb etmək, qeyri-neft sektorunun inkişafına nail olmaq bu mərhələdə həyata keçirilən iqtisadi siyasətin səciyyəvi xüsusiyyətlərindən biri olmuşdur. Azərbaycan Respublikasının yeni çalarlarla zənginləşdirilmiş sosial-iqtisadi siyasətinin strateji məqsədləri sərbəst bazar münasibətlərinə və özünüinkişaf qabiliyyətinə malik olan sosialyönümlü, diversifikasiya olunmuş milli iqtisadiyyatın formalaşdırılması və dünya təsərrüfat sisteminə inteqrasiyasının təmin olunmasıdır.

Davamlı və dinamik inkişaf məntiqinə əsaslanan bu siyasətin həyata keçirilməsi nəticəsində qazanılmış uğurlar daha da möhkəmləndirilmiş, bu dövrdə makroiqtisadi sabitlik qorunub saxlanılmış, iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sahələrinin, regionların inkişafı sürətlənmiş, strateji valyuta ehtiyatlarının səmərəli istifadəsi təmin olunmuş, milli valyutanın sabitliyi, bank sisteminin etibarlılığı artırılmış, konservativ xarici borclanma strategiyası həyata keçirilmiş, sahibkarlığa dövlət dəstəyi gücləndirilmiş, əhalinin sosial rifahı davamlı olaraq yaxşılaşmışdır.

İqtisadiyyatın diversifikasiyası ilə bağlı nəzərdə tutulmuş tədbirlərin sistemli və ardıcıl reallaşdırılması üçün dövlət başçısının müvafiq fərman və sərəncamları ilə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramları və bir sıra sahəvi inkişaf proqramları təsdiq edilmiş və uğurla icra olunur. Ölkənin regionlarında mövcud olan iqtisadi potensialdan tam və səmərəli istifadə olunmasını, sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılmasını və iqtisadiyyatın tarazlı inkişafını təmin etmək məqsədilə uğurla icra olunan dövlət proqramları regionların kompleks inkişafına, o cümlədən infrastruktur sahələrinin bərpası və genişləndirilməsinə, yeni istehsal və emal müəssisələrinin, sosial-mədəni obyektlərin yaradılmasına, yeni iş yerlərinin açılmasına, əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsinə səbəb olmuşdur.

Bunlarla yanaşı, hər bir dövlət, həmçinin onun hər hansı bir regionu üçün beynəlxalq iqtisadi əlaqələr də zəruridir. Beynəlxalq iqtisadi əlaqələr ölkələr üçün çoxlu əmtəə müxtəlifliyi yaradır. Beynəlxalq iqtisadi əlaqələrin əsasında isə ehtiyatlarda, zövqlərdə və psixologiyalarda olan müxtəliflik durur.

Ölkəmizin bazar iqtisadiyyatına keçməsi xüsusi mülkiyyətə əsaslanan on minlərlə müəssisə, cəmiyyət, birlik, təşkilatlarla vasitəsiz xarici ticarət əlaqəsi yaratmağa və valyuta-təsərrüfat əməliyyatları aparmağa imkan verdi. Artıq istənilən müəssisə xarici iqtisadi fəaliyyətlə məşğul olmaq hüququna malikdir. Böyük təbii sərvətlərə və iqtisadi ehtiyatlara malik olan Azərbaycanın gələcək iqtisadi inkişafı, həlledici dərəcədə onun ümumdünya təsərrüfatı sisteminə fəal və səmərəli inteqrasiyası prosesindən asılıdır.

Xarici ölkələrlə iqtisadi əməkdaşlıq Azərbaycanın milli iqtisadiyyatının çoxşaxəli inkişafını təmin etmək üçün böyük üstünlüklər verə bilər. Məhz buna görə Azərbaycanın milli iqtisadiyyatının formalaşması şəraitində xarici ölkələrlə qarşılıqlı iqtisadi əlaqələr və bu əlaqələrin inkişafı böyük əhəmiyyət kəsb edir. Azərbaycan bir çox həyati əhəmiyyətə malik siyasi və iqtisadi məsələlər baxımından dünyanın yaxın və uzaq, böyük və kiçik dövlətlərinin, beynəlxalq və regional təşkilatların diqqətini özünə cəlb edən bir qütbdür. Mühüm strateji əhəmiyyətli ərazidə yerləşən ölkəmizdə dünyanın nəhəng dövlətlərinin mənafeyi toqquşur, onlar arasında nüfuz dairəsi uğrunda dərin rəqabət mübarizəsi gedir.

Azərbaycan Respublikasının milli iqtisadiyyatının beynəlmiləlləşməsinin və inteqrasiyasının

müasir mahiyyəti beynəlxalq əmək bölgüsünə əsasən müəyyən olunur. Belə ki, beynəlxalq əmək bölgüsü sayəsində dünya ölkələrinin dünya bazarında istehsal həcminin ümumi göstəricisi müəyyən olunur. Beynəlxalq iqtisadi inteqrasiya dövlətlər arasında istehsal amillərinin və malların sərbəst hərəkətini nəzərdə tutur. İqtisadi inteqrasiyaya uğrayan Azərbaycan Respublikası siyasi cəhətdən müstəqil olmaqla iqtisadi cəhətdən qarşılıqlı asılı vəziyyətdə olur.

Azərbaycan Respublikasının regional iqtisadi birləşmələrini nəzərdən keçirdikdə məlum olur ki, coğrafi mövqe mühüm əhəmiyyət kəsb edir. İqtisadi əməkdaşlığın mühüm istiqamətlərindən biri də ölkələrin iqtisadi inkişaf səviyyəsi ilə bağlıdır.

İqtisadi həyatın beynəlmiləlləşməsi, Azərbaycanın ağır şərtlər altında gedən müasir dünya ilə inteqrasiyasının bütün istiqamətləri yeni imkanlar yaratmaqla yanaşı, yeni problemlər, bəzən də təhlükələr yaratmaqdadır. Bu imkanlardan səmərəli istifadə edilməsi, mövcud problem və təhlükələrin vaxtında aşkara çıxarılıb öyrənilməsi bu gün Azərbaycan üçün həyati əhəmiyyət kəsb etməsi zərurətindən gündəmdə olan məsələlərdəndir.

Azərbaycanın uğurları nüfuzlu beynəlxalq təşkilatların hesabatlarında da öz əksini tapmışdır. Təsadüfi deyil ki, **"Doing Business-2019" reytinqinə görə, 190 ölkə arasında 25-ci yerdə olmuşdur. "Doing Business-2020" hesabatında isə ölkəmiz islahatçı 20 ölkə arasına daxil edilib, "Dünya İqtisadi Forumunun "Qlobal Rəqabətqabiliyyətlilik İndeksi-2019" hesabatında Azərbaycan "qanunvericiliyin effektivliyi"nə görə 13-cü, "hökumətin dəyişikliklərə olan reaksiyası"na görə 5-ci və "hökumətin gələcəyə yönəlmiş fəaliyyətə, uzaqgörənliyə" görə isə 10-cu yerləri tutur".** Eləcə də, Beynəlxalq reytinq agentliyi "Standard & Poor's Global Ratings" Azərbaycanın xarici və yerli valyutada uzunmüddətli emitentin defolt reytinqini "BB+/B"səviyyəsinə yüksəltdi. Agentliyin təsdiq etdiyi məlumata əsasən, reytinq «Neqativ»dən «Stabil»ə doğru dəyişdirilib. "S&P"-nin proqnozlarına görə, 2021-2024-cü illər ərzində Azərbaycanda ÜDM orta illik artım göstəricisi 3,4 % təşkil edə bilər. 2020-ci ildə "COVID-19" səbəbilə Azərbaycanda ÜDM göstəricisi zəifləyərək 5% təşkil etmişdir, 2021 - 2,1%, 2022 - 5,7%, 2023 - 3,7%,2024 - 2,2%.

Eyni zamanda, agentlik növbəti illərdə Azərbaycan iqtisadiyyatına investisiya həcminin artacağını proqnozlaşdırır: 2021 - 2,1%, 2022-2023 - hər il üçün 2%, 2024-1,5%. İnflasiya göstəricisinin də növbəti illər üçün dəyişəcəyi proqnozlaşdırılır: 2021 - 2,7%, 2022 - 2,9%, 2023 - 2,6%, 2024 - 2,7%. İşsizlik səviyyəsinin Azərbaycanda ortamüddətli period üzrə enəcəyi proqnozlaşdırılır. 2021 - 5,7% (2020-ci ildə 6,7%), 2022 - 5%, 2023 - 4,9%, 2024 - 4,7%

Bu gün Azərbaycan regionda aparıcı iqtisadi gücə çevrilib. Azərbaycanın təşəbbüskarı olduğu, tərəfdaşları ilə birgə həyata keçirdiyi bir sıra irimiqyaslı layihələr nəinki regionun, eləcə də qonşu bölgələrin inkişafına mühüm töhfə verir. Bu layihələr sırasında Bakı-Tbilisi-Ceyhan neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz boru xətti, Bakı-Tbilisi-Qars dəmir yolunu, Avropanın enerji təhlükəsizliyini təmin edəcək nəhəng "Cənub Qaz Dəhlizi" layihəsi, o cümlədən TransAnadolu (TANAP) və Transadriatik (TAP) boru kəmərlərinin tikintisini, Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsini, bundan başqa, Azərbaycanın "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin reallaşdırılması üzrə gördüyü işləri göstərmək olar.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, inkişafa gedən yol dünya iqtisadiyyatına tam inteqrasiyadan keçir. Bunu Çin, Cənubi Koreya, Yaponiya, Tayvan kimi ölkələrin təcrübəsi də sübut edib. Məhz bu səbəbdən Azərbaycan son illərdə ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiya kursunu seçmiş və hazırda da bunu uğurla davam etdirir.

Azərbaycanda turizm sahəsi də yüksək templə inkişaf edir. Rusiya, İran kimi yaxın qonşu ölkələrdən, ərəb dövlətlərindən və müəyyən qədər Avropa İttifaqı ölkələrindən Azərbaycana turist axını artır. Xarici ölkələrdən insanlar Azərbaycana gəlir, buradakı gözəlliyə, rahatlığa, sabitliyə, təhlükəsizliyə, multikulturalizmə, tolerant mühitə heyran olurlar.

Əlverişli coğrafi mövqeyi olan Azərbaycanın tranzit potensialının reallaşdırılması dövlətin iqtisadi diversifikasiya siyasətində mühüm yer tutur. Respublikamızın nəqliyyat infrastrukturunun müasir dünya standartlarına uyğunlaşdırılması, tranzit potensialının daha da artırılması ilə bağlı həyata keçirilən tədbirlər və qlobal miqyaslı təşəbbüslər ölkəmizin sosial-iqtisadi inkişafına əsaslı

töhfə verməklə, Azərbaycanı mühüm nəqliyyat qovşağına və dəhlizlərin keçdiyi məkana çevirib.

Son illərdə ölkəmizdə nəqliyyat infrastrukturunun inkişafı ilə bağlı irimiqyaslı layihələr həyata keçirilib, bu sahəyə böyük həcmli dövlət investisiyaları yönəldilib. Avtomobil yollarının və dəmir yolu xətlərinin, xüsusilə Gürcüstan, Rusiya və İran istiqamətində ölkə ərazisindən keçən magistral yolların beynəlxalq standartlar əsasında yenidən qurulması, Bakıda və regionlarda beynəlxalq hava limanlarının, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində gerçəkləşdirilən layihələr Azərbaycanın nəqliyyat infrastrukturunun inkişafında əhəmiyyətli rol oynamaqla yanaşı, ölkəmizin tranzit potensialını daha da gücləndirib.

Bu gün beynəlxalq aləmdə ən çox diqqət edilən məsələlərdən biri xarici əməkdaşlıqda ticarət əlaqələrinin həcminin genişləndirilməsidir. Çünki iqtisadi əlaqələr çox mühüm humanitar və siyasi əhəmiyyətə malikdir. Belə ki, həmin əlaqələr bir ölkənin dünya bazarındakı yerinin müəyyənləşdirilməsindən tutmuş qlobal iqtisadi məkana inteqrasiyasına qədər böyük rol oynayır. Buna görə də müasir dövrdə dünya ölkələri öz əhalisinin ümumi rifah halını yüksəltmək üçün beynəlxalq əmək bölgüsünün üstünlüklərindən maksimum yararlanmağa, bunun üçün xarici iqtisadi əlaqələrin yaradılmasına çalışırlar. Bundan əlavə, qarşılıqlı mənfəət əsasında idxal-ixrac əməliyyatlarının aparılması beynəlxalq bazarın canlandırılmasına səbəb olur ki, bu da cəmiyyətin ümumi inkişafına öz töhfəsini verir.

Azərbaycanın xarici ticarət əlaqələrinin inkişafı daim diqqətdə olmuş, yerli məhsulların xaricə, o cümlədən qeyri-ənənəvi bazarlara ixracının genişləndirilməsi məqsədilə zəruri tədbirlər görülmüş, dövlət dəstəyi ilə potensial ixrac ölkələrində logistik mərkəzlərin yaradılması üzrə tədbirlər reallaşdırılmışdır.

*Bütövlükdə ölkəmizin dünya iqtisadiyyatına uğurlu inteqrasiya olunması ilə yanaşı,* Naxçıvan Muxtar Respublikası da muxtar dövlət kimi bu gün beynəlxalq aləmdə iqtisadi əlaqələrinin gündən-günə genişlənməsi ilə diqqəti cəlb edir. Vurğulamaq lazımdır ki, muxtar respublikada beynəlxalq iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı ilk addımlar ümummilli lider Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövrdə atılıb. Belə ki, qonşu İran İslam və Türkiyə respublikaları ilə yaradılmış hərtərəfli əlaqələr iqtisadi sahədə də öz uğurlu nəticələrini göstərib. Həmin əlaqələrin yaradılması ilk vaxtlarda idxal məhsulları üzərində qurulsa da, sonrakı dövrlərdə milli iqtisadiyyatın inkişafı, bunun da nəticəsində yerli məhsulların istehsal həcminin artması aparılan əməliyyatlarda müsbət balansın yaranmasına imkan verib.

Sevindirici haldır ki, ötən dövrdə muxtar respublika iqtisadiyyatının dinamik inkişafı digər sahələrdə olduğu kimi, xarici iqtisadi əlaqələrin genişləndirilməsinə də öz təsirini göstərmişdir. Belə ki, hazırda Türkiyə və İranla yanaşı, Rusiya, Gürcüstan, Ukrayna, Litva, Birləşmiş Ərəb Əmirlikləri və digər ölkələrə də Naxçıvandan məhsullar ixrac olunur. İxrac potensialını artırmaq məqsədilə qəbul olunan mühüm qərarlardan biri muxtar respublika ilə Türkiyə Respublikası arasında əldə olunmuş razılığa əsasən Naxçıvan məhsullarının qardaş ölkəyə idxal rüsumları ödəmədən ixrac edilməsidir. Digər tərəfdən, son illərdə Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayəti arasında əməkdaşlıq münasibətlərinin yüksək səviyyədə inkişafı, qarşılıqlı etimada əsaslanan işgüzar görüşlərin təşkili və digər tədbirlər muxtar respublikanın xarici ticarət əlaqələrinin genişlənməsində mühüm addım kimi dəyərləndirilməlidir.

Muxtar respublika *i*qtisadiyyatının bir çox sahələrində xarici iş adamlarının çalışması, investisiyaların cəlb edilməsi xarici iqtisadi əlaqələrin inkişafına güclü təkan vermişdir. Bu, ilk növbədə özünü qonşu ölkələrlə iqtisadi münasibətlərin inkişafında göstərir.

Muxtar respublikanın iqtisadi əlaqələrinin əsası onunla qonşu olan Türkiyə və İranın payına düşür. Xarici və yerli iş adamları arasında təşkil edilən işgüzar görüşlər də iqtisadi əlaqələrin inkişafına güclü təsir göstərir. Son bir neçə ildə 30-dan çox xarici ölkə ilə yaradılmış ticarət əlaqələrinin nəticəsidir ki, 2020-ci il ərzində Naxçıvan Muxtar Respublikasının xarici ticarət dövriyyəsinin həcmi 2019-cu ilin müvafiq göstəricisini 2,7% üstələyərək 510 547,4 min ABŞ dolları təşkil edib. 2019-cu ilin göstəricisi ilə müqayisədə 2020-ci ildə ixracın həcmi 0,7% artaraq 428 520,4

min dollar olub. Hesabat dövründə idxalın həcmi 82 027,0 min dollar təşkil edib ki, bu da 2019-cu ilin müvafiq göstəricisini 14,7% üstələyir. Nəticədə, 346 493,4 min dollarlıq müsbət saldo yaranıb. Muxtar respublikanın əsas xarici ticarət tərəfdaşları Türkiyə, İran, MDB ölkələri, Avropa İttifaqı dövlətləri, Uzaq Şərq ölkələri olmuşdur.

Avropa İttifaqı ölkələri muxtar respublikanın xarici ticarətindəki xüsusi çəkisinə görə ikinci sırada durur. Muxtar respublikanın xarici ticarət əlaqələrinin inkişafında müasir gömrük və nəqliyyat infrastrukturunun yaradılması böyük əhəmiyyət kəsb edir. Bakı-Axalkalaki-Qars dəmir yolunun tikintisinə başlanması, Naxçıvan Beynəlxalq Hava Limanının yenidən qurulması, Culfa və Sədərək sərhəd-keçid məntəqələrinin müasirləşdirilməsi, Şahtaxtı-Poldəşt sərhəd-keçid məntəqəsinin istifadəyə verilməsi və ona beynəlxalq statusun verilməsi, İran ərazisindən keçməklə Naxçıvan-Bakı avtobus marşrutunun açılması yaxın gələcəkdə muxtar respublikanın xarici ticarət əlaqələrinin inkişafına çox böyük perspektivlər açacaqdır.

Göründüyü kimi, muxtar respublika iqtisadiyyatının davamlı inkişafı xarici iqtisadi əlaqələrin səviyyəsini ildən-ilə daha da artırır. Bu isə diyarımızın dünya iqtisadiyyatına sürətli inteqrasiyasını səciyyələndirməklə yanaşı, həm də Naxçıvanın Azərbaycanın xarici siyasəti çərçivəsində beynəlxalq aləmdə özünü etibarlı tərəfdaş və dost kimi təsdiq etməsinin göstəricisidir.

Bu gün dövlətimizin apardığı məqsədyönlü iqtisadi siyasətin bir hissəsi olmaqla xarici ticarətin tənzimlənməsi, daxili bazarın qorunması, gömrük prosedurlarının sadələşdirilməsi, xarici iqtisadi əlaqələrin genişləndirilməsi, bütövlükdə, ölkəmizdə olduğu kimi, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da ticarət dövriyyəsinin artmasına, o cümlədən xarici ticarətin genişlənməsinə şərait yaratmışdır.

Ötən dövrə nəzər salsaq, görərik ki, Naxçıvan Muxtar Respublikasının xarici ticarət əlaqələrində 1992-1995-ci illər idxalın həcminin artması, əsasən, gündəlik tələbat mallarının idxalı ilə xarakterizə olunurdu. Belə ki, blokadaya salınması ilə əlaqədar iqtisadi əlaqələrin kəsilməsi, mövcud sənaye müəssisələrinin öz fəaliyyətlərini dayandırması bu dövrdə gündəlik qida məhsullarına olan tələbatın idxal hesabına ödənilməsini labüd edirdi. 1996-2000-ci illər isə Naxçıvan Muxtar Respublikasında xarici ticarətin formalaşdırılması dövrü kimi səciyyələnir. 2001-ci ildən başlayaraq muxtar respublikada xarici ticarət əlaqələrinin tənzimlənməsi sahəsində qanunvericiliyin yenilənməsi, gömrük orqanlarının işinin daha da təkmilləşdirilməsi, bu orqan strukturlarının texniki təchizatının tam yenilənməsi, yerli sahibkarların maraqlarının nəzərə alınması, idxalın istehlak yönümlülüyünün istehsal xarakterli məhsullarla əvəzlənməsi həyata keçirildi. Bu dövrdə muxtar respublikanın iqtisadiyyatı ona bilavasitə təsir göstərən xarici ticarət əlaqələri ilə paralel surətdə inkişaf etmişdir. 2001-2008-ci illərdə muxtar respublikada xarici ticarət dövriyyəsinin artan dinamikası davam etmişdir ki, bu da muxtar respublikanın sosial-iqtisadi inkişafı, yerli istehsal məhsullarının xarici bazarlara yol açması, xarici iş adamlarının maraq dairəsinə düşməsi, yerli sahibkarlığın daha da inkişaf etməsi ilə səciyyələnir. Xarici ticarət dövriyyəsinin ildən-ilə artması isə 2009-cu ildən müsbət saldonun yaranmasına səbəb olub və növbəti illərdə dövriyyə həcminin genişlənməsi ilə müsbət saldonun payı da artıb.

Hazırkı dövrdə isə muxtar respublika iqtisadiyyatının dinamik inkişafı xarici iqtisadi əlaqələrin genişləndirilməsinə də öz təsirini göstərib. Bu əlaqələrin coğrafiyasının genişlənməsinin nəticəsidir ki, bu gün Türkiyə, İran, Rusiya, Gürcüstan, Ukrayna, Litva, Qətər, Birləşmiş Ərəb Əmirlikləri və digər ölkələrə Naxçıvandan məhsullar ixrac olunur. Məlum olduğu kimi, 2020-ci il muxtar respublikada “İxrac ili” elan olunmuşdu. Həmin ildə yerli istehsal məhsullarının ixrac həcmi əvvəlki dövrlə müqayisədə daha da artdı. Bunu da qeyd edək ki, Azərbaycanın İkinci Qarabağ müharibəsindəki qalibiyyətindən sonra Naxçıvan Muxtar Respublikası ilə ölkəmizin digər bölgələri arasında kommunikasiya əlaqələrinin yaradılması günün mühüm mövzularından birinə çevrilmişdir. Yaxın gələcəkdə muxtar respublika ilə nəqliyyat əlaqələrinin bərpası Naxçıvanda istehsal olunan yerli sənaye və kənd təsərrüfatı məhsullarının maneəsiz olaraq ölkə və digər xarici bazarlara çıxarılmasına imkan verəcək. Bu da Naxçıvanın xarici ticarət əlaqələrinin həcminə öz müsbət təsirini göstərəcəkdir.

Məlumdur ki, Naxçıvan Muxtar Respublikası təkcə ölkəmiz üçün deyil, ümumilikdə, bütün

türk dünyası üçün çox böyük geostrateji əhəmiyyətə malik mühüm məkandır. Qeyd edək ki, Zəngilandan Naxçıvanda dəmir yolu xəttinin və avtomobil magistrallarının tikintisi muxtar respublikada transmilli nəqliyyat proqramlarının və layihələrinin reallaşdırılmasına şərait yaradacaq. Bu da qədim diyarın geostrateji əhəmiyyətini daha da artırmaqla yanaşı, bir sıra mühüm məsələlərdə böyük nailiyyətlər qazanmağa şərait yaradacaqdır. Zəngəzur dəhlizinin açılması isə Naxçıvan, həm də bizim üçün Avropaya qapı, türk dünyası üçün isə ümid bağına çevriləcək. İkinci Qarabağ müharibəsindəki tarixi qələbə "Türk qapısı" adlandırılan Naxçıvanın strateji əhəmiyyətini bir daha ön plana çıxarıb.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərdə artıq bir neçə yol layihəsinin icrasına başlanılıb və uğurla davam etdirilməkdədir. Bu layihələr işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında çox mühüm rol oynayacaq. Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu həm də strateji əhəmiyyəti ilə seçilir. Çünki sözügedən yol Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun bir hissəsi olmaqla, Zəngilanı Azərbaycanın digər rayonları və Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək baxımından çox böyük əhəmiyyətə malikdir.

Zəngəzur dəhlizinin açılması tək Naxçıvanla Azərbaycanın şərq hissəsini, yəni ana hissəsini birləşdirmir, bu, ilk növbədə Naxçıvanın iqtisadi fürsətlərinin genişlənməsində çox mühüm rol oynayacaq. Belə ki, Zəngəzur dəhlizinin açılması ilə Naxçıvan bir keçid koridoru rolunu oynayacaq, yəni Türkiyədən Orta Asiyaya, Orta Asiyadan Türkiyəyə, oradan da Avropaya qədər həm Azərbaycanı, həm də Naxçıvan Muxtar Respublikasını yeni keçid mərkəzlərindən birinə çevirəcək. Təbii ki, bunun da kifayət qədər iqtisadi və geosiyasi əhəmiyyəti olacaq.

Təbii ki, dəhlizin açılmasının Naxçıvanın özünə də müsbət təsiri olacaqdır. Birbaşa koridorun olması Naxçıvanın həm elektrik enerjisi, həm təbii qaz, həm də digər kommunikasiyalar ilə təmin olunmasında birbaşa keçid rolunu oynayacaq. Habelə, yerüstü nəqliyyatın, yəni həm avtomobil yollarının, həm də dəmiryollarının açılışı Naxçıvanın gələcəkdə daha çox iqtisadi fürsətlər qazanmasına şərait yaradacaq.

## ƏDƏBİYYAT

1.Şükürov A. Qloballaşma: mahiyyəti və prespektivləri. Bakı: 20011
2.Qafarov Ş.S. Müasir iqtisadi sistem və qloballaşma. (Monoqrafiya). Bakı: 2005. 632 s.
3.Həsənov Ə. Müasir Beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: 2005
4.Mehdiyev R.Ə. Azərbaycan: qloballaşmanın tələbləri. Bakı: 2005
5.A.N.Abbasbərli. Müasir beynəlxalq münasibətlər və qloballaşma. Dərslik. Bakı: 2007
6.Mirkişili T.F. Azərbaycanın xarici ticarət siyasəti: Reallıqlar və perspektivlər, Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2004, 89 s.
7.Kərimli İ.A. Dünya iqtisadiyyatı: beynəlxalq ticarət, maliyyə və inkişaf. Bakı: "CBS", 2006, 166 s.
8. N.Sabiroğlu. Qloballaşma və xarici investisiyalar. Bakı: 2006, s. 287
9. Azərbaycanın dünya iqtisadiyyatının inteqrasiya yolları (kitab). Ç.M.Abbasov. "Elm" nəşriyyatı. Bakı: 2005. 252 səhifə. Aərbaycan Dövlət İqtisad Universiteti. Kitabın nömrəsi: 338 (A13).
10. Hacızadə E.M. Dünya iqtisadiyyatı və Azərbaycan. Dərslik. "Letterpress" nəşriyyat evi. Bakı: 2018, 912 s

## SUMMARY

**Bulgeyis Novruzova**

### EXPANSION OF FOREIGN ECONOMIC RELATIONS OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC İS A FACTOR CONTRIBUTING TO ITS INTEGRATION INTO THE WORLD ECONOMY

International economic integration is based on the implementation of joint economic, monetary-financial, scientific-technical, social, foreign and military policies with the consent of the free movement of goods and services, international movement of capital and labor. The world states

make efforts to improve their production capacity, efficiency of production and, as a result of all this, the well-being of the population through economic integration. One of the main factors in stimulating the integration process is the increase in the freedom of the national economy and its development on market principles. Being a process of internationalization of economic activities, economic integration deepens the division of labor between countries, creates conditions for the development of production and increase efficiency.

The article studies objective conditions of Azerbaijan's integration into the world economy, its importance for the development of the country's national economy, the main conditions for the integration of countries into the world economy, the main features and trends of foreign economic relations of the Republic of Azerbaijan, as well as the main features and directions of foreign economic relations of Nakhchivan Autonomous Republic.

The article describes the current state of integration relations of our republic, including the autonomous republic, and outlines ways to expand economic cooperation with foreign countries.

***Key words****: integration, integration into the world economy, international economic relations, foreign-economic relations, international economic cooperation.*

**РЕЗЮМЕ**

**Булгеис Новрузова**

**РАСШИРЕНИЕ ВНЕШНЕЭКОНОМИЧЕСКИХ СВЯЗЕЙ НАХЧЫВАНСКОЙ АР ЯВЛЯЕТСЯ ФАКТОРОМ, СПОСОБСТВУЮЩИМ ЕЕ ИНТЕГРАЦИИ В МИРОВУЮ ЭКОНОМИКУ**

Международная экономическая интеграция основывается на свободном движении товаров и услуг, международном движении капитала и рабочей силы, согласованном проведении совместной экономической, валютно-финансовой, научно-технической, социальной, внешней и военной политики. Посредством экономической интеграции государства мира стремятся повысить свои производственные мощности, эффективность производства и, как следствие, благосостояние населения. Одним из основных факторов стимулирования интеграционного процесса является увеличение свободы национальной экономики и ее развитие на рыночных началах. Экономическая интеграция, являясь процессом интернационализации хозяйственной деятельности, углубляет разделение труда между странами, способствует развитию и повышению эффективности производства.

В исследовательской работе были рассмотрены объективные условия интеграции Азербайджана в мировую экономику, его значение для развития национальной экономики страны, основные условия интеграции стран в мировую экономику, основные особенности и тонкости внешнеэкономических отношений Азербайджанской Республики, а также Нахчыванской Автономной Республики, интерпретировано текущее состояние интеграционных связей нашей республики, в том числе автономной республики, и указаны пути расширения экономического сотрудничества с зарубежными странами.

***Ключевые слова:*** *интеграция, интеграция в мировую экономику, международные экономические отношения, внешнеэкономические связи, международное экономическое сотрудничество*

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*
***Məqalə daxil olmuşdur:*** *4 noyabr 2021-ci il*
***Çapa qəbul edilmişdir:*** *2 dekabr 2021-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2021, № 2 (111), 196-202
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2021, № 2 (111), 196-202
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2021, № 2 (111), 196-202

**ƏBDÜLHÜSEYN ZAMANOV**
*Naxçıvan Dövlət Universiteti*
*0513100078ebdul@gmail.com*

**UOT: 338**

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA İXRACYÖNÜMLÜ SAHİBKARLIQ SAHƏLƏRİNƏ DÖVLƏT DƏSTƏYİ

*Muxtar respublika əhalisinin etibarlı ərzaq təminatında sahibkarlıq fəaliyyəti mühüm rol oynayır. İşgüzarlıq və biznes mühitinin davamlı yaxşılaşdırılması, sahibkarlığın inkişafına maliyyə dəstəyinin göstərilməsi, dövlətin iqtisadi siyasətinin mühüm istiqamətlərindən birini təşkil edir. Sahibkarlara daim dövlət dəstəyi nəticəsində əhalinin istehlak tələbatının əsas hissəsi yerli məhsullar hesabına ödənir. Bazar iqtisadiyyatına keçidin zəruri şərti azad sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsidir. Sahibkar qanunla qadağan edilməyən, istehsal, kommersiya, ticarət-tədarük, qiymətli kağızlarla əməliyyatlar da daxil olmaqla istənilən növ təsərrüfat fəaliyyətini həyata keçirə bilər.*

*Tədqiqat işində qarşıya qoyulan əsas məqsəd Naxçıvan regionunda istehsalın müasir inkişaf səviyyəsinin artırılması, özünü təminat və daxili bazarı yerli məhsullarla etibarlı şəkildə təmin etməklə bərabər, idxaldan asılılığı azaltmaq, iqtisadiyyatın dinamik, dayanıqlı inkişafı istiqamətində reallaşan kompleks və sistemli tədbirlər nəticəsində özəl bölmənin inkişafının sürətləndirilməsi, sahibkarlığın inkişafına əlverişli şəraitin, biznes mühitinin yaradılması, rəqabətqabiliyyətlilik və ixracyönümlülük məsələlərini araşdırmaq, bu sistemin daha da təkmilləşdirilməsi üçün yerli ehtiyat və imkanlardan səmərəli istifadə edilməsi yollarını müəyyən etməkdən, iqtisadi qiymətləndirmədən ibarətdir. Məhz bu baxımdan elmi məqalədə Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının zəruri şərti olan sahibkarlıq və sahibkarlıq fəaliyyəti geniş tədqiq edilmişdir.*

***Açar sözlər:*** *Naxçıvan MR, ərzaq təminatı, sahibkarlıq, sahibkarlıq fəaliyyəti, dövlət dəstəyi, ixracyönümlülük, məşğuluğun artırılması.*

XX-ci əsrin sonunda ölkəmiz ikinci dəfə öz müstəqilliyini elan etdi. İnzibati amirlik sisteminin mənfi təsirlərindən yaxa qurtarmaq üçün demokratik islahatların aparılmasına start verildi. Respublikamızda aparılan islahatlar nəticəsində əmin-amanlıq təmin edilmiş, makroiqtisadi inkişafın davamlılığı üçün münbit şərait yaranmış, dövlətçiliyin inzibati, iqtisadi-siyasi və ideoloji əsasları formalaşdırılaraq optimal dövlət modeli yaratmağa nail olunmuşdur. Bazar iqtisadiyyatına keçid, sahibkarlığın formalaşması nəticəsində iqtisadiyyatın bütün sahələrində davamlı iqtisadi artım dövrü başlamışdır.

Ölkəmizdə bazar münasibətlərinə keçidinin və islahatların mərkəzi həlqəsi sahibkarlıq mühiti və onun mühüm elementlərindən olan sahibkarlıq fəaliyyətinin davamlı kompleks inkişafının formalaşmasıdır. Yeni iqtisadi sistemə keçid və onun əsas istiqaməti olan azad sahibkarlıq və rəqabət mexanizminin formalaşması, inkişafı, həmçinin sabkirlıq fəaliyyətinin hüquqlarının dövlət tərəfindən qorunması ilə bağlı müddəalar 1992-ci il tarixli “Sahibkarlıq fəaliyyəti haqqında” qanunla reallaşdırılır [1].

Bazar iqtisadiyyatına keçidin zəruri şərti azad sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsidir. Sahibkar qanunla qadağan edilməyən, istehsal, kommersiya, ticarət-tədarük, qiymətli kağızlarla əməliyyatlar da daxil olmaqla istənilən növ təsərrüfat fəaliyyətini həyata keçirə bilər. Bu sahibkarlıq formaları Azərbaycan Respublikasının bir çox qanunvericilik aktları ilə formalaşmasına nail olunmuş, hüquqi bazası xeyli möhkəmlənmişdir.

Sahibkar, sahibkarlıq fəaliyyəti, sahibkarlıq qabiliyyəti ilə bağlı müxtəlif fikirlərə iqtisadi

ədəbiyyatlarda rast gəlmək mümkündür. Sahibkarlıq nəzəriyyəsi öz nəzəri əsaslarını ilk klassik iqtisadçıların əsərlərində tapır. Müasir dövrdə sahibkar öz müəssisəni yaradan, istehsalı təşkil edən, mənfəət götürmək məqsədilə öz əmlakı ilə məsuliyyət daşıyan, qanunvericiliklə qadağan edilməyən fəaliyyətinin bütün növləri üzrə risk edən mülkiyyətçi kimi səciyyələndirilir.

Sahibkarlıq subyektlərinə dövlət dəstəyi, büdcədənkənar fondlar, sahibkarlıq mühitinin formalaşdırılması, əhalinin rifah halinin yaxşılaşdırılması, onun sağlamlığının qorunması, işsizlərə sosial müavinətlərin verilməsi və digər sosial xidmətlərin göstərilməsindən ibarət olub, dövlət büdcəsindən yardım etməklə vacib tədbirlərin maliyyələşdirilməsinə, sosial yardım, pensiya təminatı və sosial infrastruktur məsələlərinin həyata keçirilməsinə köməklik göstərməkdir .

Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən sahibkarlığın inkişafına maliyyə dəstəyinin göstərilməsi məqsədi ilə Sahibkarlığa Kömək Fondu yaradılmışdır. Sahibkarlığa Kömək Fondunun vəsaitinin mənbəyi, əsasən, daxili dövlət büdcəsidir. Fond tərəfindən kiçik sahibkarlıq təsərrüfatlarının inkişafının əsas ilkin istiqaməti yerli resurslardan və alınan xammaldan istifadə etməklə daxili bazarı yerli məhsullarla təmin etmək, idxalı əvəzləyən məhsulların istehsalını artırmaq, yeni texnologiyaya və avadanlığa əsaslanan rəqabətqabiliyyətli və ixracyönümlü məhsulların istehsalı layihələrəinə üstünlük verilmişdir. Keçən dövr ərzində ölkəmiz bir çox beynəlxalq təşkilatlarla geniş əməkdaşlıq əlaqələri yaratmışdır. Belə ki, İslam İnkişaf Bankı, Dünya Bankı, BVF,OECD, EKO kimi təşkilatlarla – ABŞ, Türkiyə, Almaniya, Rusiya, Yaponiya, Çin və s. ölkələrlə əməkdaşlıq formalaşmışdır. Sahibkarlığın inkişafı sahəsində təhsil, kadr hazırlığı ,məsləhət xidməti, informasiya və s. önəmli tədbirlər həyata keçirilməkdədir. Ölkəmizdə sahibkarlarlıq subyektləri üçün vergi yükünün, mənfəət vergisi dərəcəsinin və məcburi dövlət sosial sığorta haqqının faizinin aşağı salınması, torpaq mülkiyyətçilərinin torpaq vergisindən başqa, bütün vergilərdən azad edilməsinə dair ölkə rəhbərliyi tərəfindən bir çoxi qərarlar qəbul olunmuşdur.

Eyni zamanda sahibkarlıq fəaliyyətinin inkişafının əsas amillərindən olan idarəetmə orqanı iqtisadi zonada yerləşdiyi müəssisəyə sistemli yanaşma əsasında şərtlənməlidir. Bu baxımdan Respublikamızın sosial-iqtisadi inkişafında mərkəzlə yanaşı, iqtisadi zonaların da rolunun yüksəldilməsi, ən mühüm şərtdir. Bu ümumi iqtisadi inkişafda Naxçıvan Muxtar Respublikası özünəməxsusluğu ilə seçilir [5] .

Naxçıvan MR Azərbaycanın əsas quru sərhədlərindən ayrı düşərək iqtisadi və nəqliyyat əlaqələri baxımından blokada şəraitində yaşayır. Bütün çətinliklərə baxmayaraq, həyata keçirilən geniş miqyaslı quruculuq işlərində fəal iştirak edir [2] .

Naxçıvan MR-in blokada şəraitində olması onun özünün müəyyən tabeçilik prinsipi əsasında maliyyə sisteminin formalaşmasını zəruri etmişdir və ölkə ərazisində mövcud nazirliklərin və komitələrin bölmələri burada yaradılmışdır. Məqsəd iqtisadi inkişafın digər regionlarla müqayisədə tarazlı inkişafı təmin etmək mövcud potensialdan və resurslardan səmərəli istifadə etməkdir. Muxtar respublikada büdcədənkənar fondları Dövlət Sosial Müdafiə Fondu, Sığorta Fondu, Sahibkarlığa Kömək Fondu, Məşğulluq Fondu və s. Eyni zamanda dövlət krediti, sığorta, bələdiyyələrin maliyyəsi, müəssisələrin maliyyəsi, regionun sosial və iqtisadi fəaliyyətində rolu əvəzsizdir. Belə ki, sosial və iqtisadi inkişaf vergi və digər ödənişlərin büdcəyə artımını sürətləndirir [4].

Muxtar respublika əhalisinin etibarlı ərzaq təminatında sahibkarlıq fəaliyyəti mühüm rol oynayır. İşgüzarlıq və biznes mühitinin davamlı yaxşılaşdırılması, sahibkarlığın inkişafına maliyyə dəstəyinin göstərilməsi, dövlətin iqtisadi siyasətinin mühüm istiqamətlərindən birini təşkil edir. Sahibkarlara daim dövlət dəstəyi nəticəsində əhalinin istehlak tələbatının əsas hissəsi yerli məhsullar hesabına ödənir. Bunu yüksək qiymətləndirən ölkə başçısı demişdir: "Naxçıvanda ərzaq təhlükəsizliyi məsələləri demək olar ki, tam şəkildə öz həllini tapmışdır. Bu da böyük nailiyyətdir, böyük uğurdur" [7].

Sahibkarlıq fəaliyyəti üçün investisiya və biznes mühitinin yaranması və sahibkarlıq fəaliyyətinin daim olaraq dövlət tərəfindən dəstəklənməsi bu sahənin formalaşması və inkişafına geniş imkanlar açmışdır. Özəl bölməyə diqqət və qaygının artırılmasının nəticəsidir ki, istehsal olunan ümumi daxili məhsulun 88-%-i sahibkarların payına düşür.

Belə ki, regional təkrar istehsal şəraitində regionların ixrac potensialının inkişaf etdirilməsi, xarici ticarət, sosial-iqtisadi inkişafa təsir göstərən əsas amillərdən biridir. Odur ki, ümumi iqtisadi inkişafda xarici ticarətin həcminin davamlı olaraq artırılmasının və genişləndirilməsinin xüsusi əhəmiyyəti vardır. Yerli istehsal məhsullarının ixracyönümlülüyünün və rəqabətqabiliyyətini artırmaqla yüksək keyfiyyətli, beynəlxalq standartlara cavab verən məhsulların ixracının gücləndirilməsidir .

Xarici ticarət dövriyyəsinin müsbət qalıqla olması maliyyə ehtiyatlarının artmasına və bölgənin iqtisadi təhlükəsizliyin etibarlı şəkildə nail olunmasına şərait yaradır.

Naxçıvan Muxtar Respublikasının mövcud potensialı və daxili resursları blokadanın və panidemiyanın yaratdığı çətinliklərə baxmayaraq, iqtisadiyyatının genişləndirilməsini və ixracın şaxələndirilməsini artırmışdır. Qeyd etmək lazimdır ki, Naxçıvan MR-da sahibkarlıq fəaliyyəti üçün investisiya mühiti və potensial imkanlar movcuddur. Mövcud imkanlardan düzgün və səmərəli istifadə etməklə istehsal və xidmət sahələri yaradılmalıdır. Fikrimizcə, muxtar respublikada sahibkarlıq fəaliyyətinin başlıca məsələləri aşağıdakılar ola bilər:

- menecer informasiyaları əsasında daxili bazarın tələbatını təhlil etməklə ixracyönümlü və rəqabətqabiliyyətli məhsullar istehsal edən müəssisələr yaradılmalıdır;
- sahibkarlıq müəssisələrində istehsal olunan məhsulların keyfiyyətinin dünya standartlarına uyğunluğu təmin edilməli;
- sahibkarların istehsal etdiyi ixracyönümlü məhsulların sertifikatlaşdırılması və gömrük keçid məntəqələrində keçidi sadələşdirilməli;
- sahibkarlar marketinq araşdırmaları əsasında aqrar-sənaye məhsulları istehsalı və ixracına ciddi fikir verməli, ixrac olunan məhsulların satışına çalışmalıdır;

Sahibkarlıq fəaliyyəti muxtar respublika rəhbərliyinin daim diqqət vəqayğısı ilə əhatə olunmasının nəticəsidir ki, yeni istehsal müəssisələri yaradılmış və ya genişləndirilməklə sürətli inkişafa zəmin yaratmışdır. Son nəticədə muxtar respublikada ixracyönümlülü və rəqabətqabiliyyətli, alıcıların arzu və zövqünə uyğun gələn məhsullar istehsal olunur.

Bu illər ərzində bir çox qərar və sərəncamlar qəbul edilmişdir. İmzalanan qərarlarlada qarşıda duran əsas vəzifələrdən biri muxtar respubilkada istehsal olunan ixracyönümlü məhsul və xidmətlərin xarici bazarlarda təşviqini gücləndirməklə ixracatçıların imkanlarını daha da artırmaqdır. Bu məqsədlə ötən dövr ərzində müxtəlif ölkələrdə keçirilən tədbirlərdə muxtar respublikadan bir çox sahibkarlıq subyektinin iştirakı təmin edilmişdir.

Dünya təcrübəsində nailiyyətlərin ixracyönümlü məhsulların təşviqi yollarından biri də beynəlxalq sərgilərin kecirilməsidir. Ötən il ərzində "Made in Azerbaijan" vahid stendi çərçivəsində Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində, "Prod Expo-2020" və Birləşmiş Ərəb Əmirliyinin Dubay şəhərində təşkil olunan "Gulfood 2019" beynəlxalq qida sərgisində muxtar respublikadan,, "Ləzzət qida Sənaye" MMC tərəfindən istehsal olunan 133 çeşidə (vafli, peçenye, lokum, partladılmış qarğıdalı, "Tea Nati" limonadlar qazlı və qazsız , "Sirab" və s.) məhsullar nümayiş olunmuşdur. Bu sərgidə, Naxçıvan mənşəli məhsul və xidmətləri xarici bazarlarda təşviqedən 1-i ailə təsərrüfatı olmaqla 14 sahibkarlıq subyekti 27 nümayəndədən ibarət heyətlə iştirak etmişdir.

Ötən dövr ərzində yerli istehsal və emal müəssisələri tərəfindən istehsal edilmiş məhsullar ABŞ, Belarusiya, Latviya, litva, Liviya, Belçika, BƏƏ, Oman, Rusiya, Tacikistan, Çin, Gürcüstan, İran, iraq, Türkiyə,Türkmənistan ,Ukrayna və Yəmən olmaqla plastik tikinti materialları, sement, sianit, məsaməli beton, elektrik enerjisi, mineral sular, mebel və mebel məmulatları meyvə-tərəvəz və s.ixrac olunmuşdur.

Muxtar respublika əhalisini keyfiyyətli qida məhsulları ilə təmin edilmək məqsədi ilə beynəlxalq akkreditasiyadan keçmiş İSO 17025-2005 tələblərinə cavab verən laboratoriya istifadəyə verilmişdir. İxrac əməliyyatları üçün tələb olunan sertifikatlar da laboratoriyadan verilir.Verilən bu sertifikatlarla ərzaq məhsullarını maneəsiz şəkildə xarici bazarlara çıxarılmasına şərait yaradılır.

Sahibkarlıq fəaliyyətinin inkişafında başlıca məsələlərdən biri də sosil iqtisadi xarakter

daşımasıdır. Sahibkarlıq fəaliyyəti ilə bağlı yaradılan şərait iqtsadiyyatın inkişafını təmin etməklə yeni iş yerləri açılmış,əhalinin məşğulluğu təmin edilmiş,yoxsulluğun səviyyəsi aşağı salınmış maddi rifah halı xeyli yüksəlmişdir.

Muxtar respublikada əmək qabiliyyətli əhalinin 85-%-dən coxu özəl müəssisələrində çalışır. Sənaye məhsulunun 93 % özəl sektor tərəfindən istehsal olunur. Naxçıvan iqtisadi rayonu aqrar-sənaye rayonudur. Muxtar respublikada aqrar sahəni inkişaf etdirmədən nə sahibkarlığı, nə də iqtisadi təhlükəsizliyimizi təmin etmək olmaz (9).

Muxtar respublikamızda iqtisadiyyatın ikinci ən böyük sahəsi olan kənd təsərrüfatında istehsalın stimullaşdırılması, məhsulun rəqabət qabiliyyətliliyinin artırılması, əhalini keyfiyyətli ərzaq məhsullarına sənayenin isə xammala olan tələbatının ödənilməsinə istiqamətlənmiş dövlət dəstəyi aqrar sferada mühüm nailiyyətlərin əldə edilməsinə imkan verib.

İcrası uğurla başa çatdırılmış proqramlar və qəbul edilmiş qərarlar muxtar respublika iqtisadiyyatını gücləndirib, kənd təsərrüfatının kompleks inkişafını təmin edib.

Naxçıvan MR inkişafda olan çoxsahəli sənaye və aqrar-sənaye respublikasıdır. Sənayedə elektronika, dolomit və duz məhsulları, mineral sular, metal emalı və tikinti materialları, tütün məmulatlar,vafli-peçenyelər və yüngül sənayesi xüsusi yer tutur. Kənd təsərrüfatı, əsasən, taxılçılıq, tərəvəzçilik, meyvəçilik, üzümçülük, yemçilik, heyvandarlıqda isə maldarlıq, qoyunçuluq, quşçuluq balıqçılıq, arıçılıq inkişaf etdirilir [7].

Muxtar respublikanın iqtisadiyyatının başlıca xüsusiyyəti hər bir rayonun ayrılıqda əmək və təbii ehtiyatlarından səmərəli istifadə etməklə yeni istehsal müəssisələrinin yaradılmasından əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsindən, yoxsulluğun azaldılmasından, rifah halının yaxşılaşdırılmasından ibarətdir.

Naxçıvan Muxtar Respublikasında 2020-ci ildə 2.9 milyard manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, buda 2019-cu ilin müvafiq dövrünə nisbətən (2839650 -2907810) müqayisədə 2,4 % çoxdur. Bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə (6310-6201)1,7 % artaraq 6310 manata çatmışdır [8].

Muxtar respublikada istehsal olunan məhsulun tərkibində ilk yeri sənaye tutur. Bununla yanaşı, aqrar sahədə getdikcə inkişaf etdirilir belə ki, 2020-ci il ərzində 537.6 milyon manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə (507641) müqayisədə 5,8 % çoxdur.

Müasir şəraitdə ərzaq təhlükəsizliyinin təmin edilməsinin maddi əsasını təşkil edən kənd təsərrüfatı və emal sənayesi məhsulları cəmiyyət üzvlərinin təbii ehtiyaclarının və təbii tələbatlarının ödənilməsində mühüm əhəmiyyətə malikdir. Bu baxımdan muxtar respublikada sahibkarlıq fəaliyyətinə davamlı dövlət dəstəyi, nəticəsində yeni istehsal və xidmət sahələri yaradılmışdır. Bu gün istehsal müəssisəsi 429-a çatmışdır bu müəssisələr tərəfindən 384 növdə məhsul istehsal olunur ki, bunun da 127 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 350 növdə məhsula olan tələbatı yerli məhsullar hesabına ödənilir.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatının inkişafı xarici ticarət dövriyyəsinə də öz müsbət təsirini göstərmişdir. Belə ki, 2020-ci ildə 510.5 milyon ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın dəyəri 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə (425539-428520) artaraq 2.9 milyon ABŞ dolları təşkil etmiş, 340.4 milyon müsbət qalıq yaranmışdır [3].

Muxtar respublikada sahibkarların mütəmadi dəstəklənməsi əhalinin etibarlı şəkildə ərzaq təminatının yaradılması dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biridir.

Aparılan araşdırmalar göstərir ki, nəticə etibarilə əhalinin işlə təmin edilməsində, kənd təsərrüfatı əsas məşğulluq sahəsi olaraq qalmaqdadır.

Sahibkarlıq fəaliyyətinin başlıca qayələrindən biri də əmək qabiliyyətli əhalinin məşğulluq səviyyəsinin artırılması, real gəlirlərin yüksəldilməsi maddi rifah halının yaxşılaşdırılmasından ibarətdir. Bu məqsədlə aqrar sferqda maşın və mexanizmlərin sayının tələbata uyğun olaraq, artırılması, torpaq sahələrinin əkin normalarına uyğun suvarma suyu ilə təmin edilməsi üçün irriqasiya meliorasiya tədbirləri daim yeniləşdirilir, mineral kübrələrlə təchiz edilməsi, soyuducu

anbarların və infrastrukturun yaradılması prosesi bazar tələbinin ilin istənilən vaxtında yerli məhsullarla ödənilməsinə imkan verir.

Muxtar respublikada sahibkarlığın inkişafına təkan verməklə heyvandarlıqda baş sayının artırılması və əsas növ heyvandarlıq məhsullarının istehsalının artırılmasına imkan yaradır. Hazırda muxtar respublikada 2021-ci ilin yanvarin 01 vəziyyətinə 2020- ci ilin həmin dövrü ilə müqayisədə iri buynuzlu mal-qaranın baş sayı 2 min 069 baş və ya keçən ilin müfafiq dövründən 1.7 %, xırda buynuzlu heyvanların sayı 13 min 823 baş və ya 1.9 % çox, quş (min başla), 16 min 891 baş və ya 1.3 % çox, 137 baş arı ailəsi və ya 0. 1% çox olmuşdur. Aparılan məqsədyönlü işlərin nəticəsidir ki, 2020 -ci ildə 394 ton kəsilmiş çəkidə ət 2.5 % çox, 1695 ton süd 1.9% çox ,2135 ton yun və ya 2.3 % çox, 434 ton diri çəkidə ət istehsalı 2.7 % çox, 18 ton bal istehsalı və ya 1.2 % çox olmuşdur [3].

Sahibkarlıq subyektlərini stmullaşdıran amillərdən biri də maliyyə resurslarına əlçatanlığın təmin edilməsindən ibarətdir. Bu gün komersiya bangları tərəfindən təsərrüfat subyektlərinə verilən kreditlərin ən aşağı faiz dərəcəsi muxtar respublikadadır. Belə ki, 2020-ci ildə sahibkarlara 37 milyondan artıq vəsait vüerilib ki,bunun da nəticəsində 138 yeni məhsul istehsalı və xidmət sahəsi yaradılmişdır. Ötən il ərzində sahibkarlıq subyektlərinə bang və kredit təşkilatları tərəfindən yeni istehsal və xidmət sahələrinin yaradılmasına 16 milyon 860 min manat fərdi sahibkarlığın inkişafı məqsədi ilə 20 milyon 816 min manat kredit verilmiş 2404 fiziki şəxs 37 hüquqi şəxs qeydiyyata alınmışdır.

Müasir şəraitdə muxtar respublikanın mərkəzdən uzaq və blokada şəraitində olmasını nəzərə alaraq sosial və istehsal infrastruktunun kiçik və orta müəssisələrinin inkişafına xüsusi əhəmiyyət vermək lazımdır. Naxçıvan MR-də özünü məşğuluq tədbirləri çərçivəsində sosial yardıma ehtiyacı olan əhalinin ictimai əməyə cəlb edilməsi və gələcəkdə onların kicik sahibkara çevirilməsi sahibkarlığın formalaşmasında və inkişafında xüsusi əhəmiyyət kəsb edir.

Naxçıvan MR-də özünü məşğuluq tədbirləri çərçivəsində 2017-ci ildən ötən dövr ərzində 622 ailəyə 2.3 milyon manat vəsait xərclənmişdir ki, bu vəsaitdən 555 ailə heyvandarlıq ,67 ailə isə digər xidmət növlərinin yaradılması üçün aktivlər almışdır [9].

Muxtar respublikanın istehsal sektoru ilə yanaşı, xidmət, komersiya, turizm sahəsində də sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə səbəb olmuşdur. Ölkə prezidenti demişdir: "Bizim fəaliyyətimizin əsas istiqamətləri daxili tələbatı daxili istehsal hesabına ödəməkdən və ixrac potensialımızı artırmaqdan ibarətdir".

Naxçıvan MR-də sahibkarlıq fəaliyyətinin bütün sahələrdə inkişafı yerli resurslardan istifadə etməklə istehsalın artırılmasına istelakın yerli məhsullar hesabına ödənilməsinə idxaldan asılılığın azaldılmasına xarici ticarət əlaqələrinin genişləndirilməsinə, ixracyönümlü və rəqabətqabiliyyətli məhsulların istehsalına nail olunmaq üçün istiqamətlənmişdir.

Müasir şəraitdə muxtar respublikada ixracyönümlü iqtisadiyyatı formalaşdıran sahibkarlıq sahələrinə dövlət dəstəyi iqtisadiyyatı gücləndirib və onun kompleks dinamik inkişafını təmin edib. Bu gün daxili bazarı ərzaq və zəruri qida məhsulları ilə təmin edən ixracyönümlü iqtisadiyyatı formalaşdıran güclü sahibkarlıq subyektləri mövcuddur [8].

Tədqiqat, əsasən, aşağıdakı istiqamətlərdə realaşmanı nəzərdə tutur :

- iqtisadi təhlükəsizliyinin təmin edilməsində yerli istehsal müüəssisələrinin rolunun artırılması, ixracyönümlü və rəqabətədavamlı istehsal sahələrinin təşkili;
- ərzaq təhlükəsizliyinin təminatına mənfi təsir göstərən əsas amillərlə mübarizə və əsasən, yerli istehsal malları ilə öz tələbatını qarşılaya bilməsi;
- sahibkarlıq subyektləri tərəfindən məhsullarının mövcud resurs mənbələrinin real vəziyyətinin qiymətləndirilməsi;
- muxtar respublikada ixracyönümlü iqtisadiyyatın formalaşması və inkişafı üçün düzgün təkliflərin hazırlanması.

Müqayisəli təhlillərdən aşağıdakı nəticəyə gəlmək olar:

- muxtar respublikada, sahibkarlıq və investisiya mühitinin yaxşılaşdırılması və inkişafı üçün kompleks işlərin həyata keçirilməsi;

• sahibkarlığın formalaşmasında və inkişafında əmək qabiliyyətli əhalinin iqtisadi fəallığının maksimum artırılması, sosial yardım alan əhalinin ictimai əməyə cəlb edilməsi və gələcəkdə onların kiçik sahibkara çevrilməsinə imkanların yaradılması ;

• əhalinin rifah halının yaxşılaşdırılması, yeni böyük müsissələrin yaradılması, məşğulluğun tam təmin olunması;

• yeni böyük təsərrüfatların və xidmət sahələrinin təsis edilməsinə dövlət yardımının birbaşa olaraq təmin edilməsi;

• idxal və ixrac balansında əsaslı formada müsbət dəyişikliklərin baş verməsinə əsas meyar seçilməsi;

• mövcud olan avadanlıqlardan səmərəli şəkildə istifadə edilməsi və innovativ sahibkarlığa nail olmaq üçün yenilikçi sahibkar olmağa çalışılması;

Muxtar respublikada önümüzdəki dövrdə nəqliyat vasitələri və komunikasiya xətləri bərpa olunduqdan sonra həyata keçirilən tədbirlər daha da gücləndiriləcəkdir.

Muxtar respublikanın bugünkü inkişafı onu deməyə əsas verir ki, qloballaşma meyarlarına və modernləşməyə əsaslanan məqsədyönlü tədbirlər nəticəsində iqtisadiyyat şaxələndiriləcək, innovasiyalı iqtisadiyyata keçid təmin edilməklə iqtisadiyyatın bütün sahələrində dinamik artım əldə olunması üçün geniş imkanlar yaranacaqdır.

## ƏDƏBİYYAT

1.B.Ataşov. Aqrar sahədə struktur və səmərəlilik problemləri. Bakı: “Kooperasiya” nəşriyyatı, 2017
2.A.A.Rüstəmov, D.Q.Qasımov.Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Dərs vəsaiti. Bakı: “Avropa” nəşriyyatı, 2013, 406 s.
3.https www.statistka.nmr
4.Ə. Ə. Mahmudov. Azərbaycan iqtisadiyyatının aktual problemləri, Bakı: 2008, 912 səh.
5.Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər, 2009-2013-cü illər, 2014-2018-ci illər, 2019-2023-cü illər), Bakı
6.https://azertag.az/xeber. 01.11.2019
7.Azərbaycan Dövlət İqtisad Universiteti - Azərbaycanda ərzaq təhlükəsizliyi və qida təminatının iqtisadi tənzimlənməsi. Bakı: 2019
8.Copyright © 2011 Naxçıvan MR Ali Məclisi. Allrightsreserved
9. “Şərq qapısı” qəzeti, 21 mart 2021, 41 saylı

## SUMMARY

**Abdulgusein Zamanov**

## STATE SUPPORT FOR EXPORT-BUSINESS ENTREPRENEURS IN NAKHCHIVAN AR.

The scientific article has extensively studied entrepreneurship and entrepreneurial activity, which is a necessary condition for the economy of the Nakhchivan Autonomous Republic. The main goal of the research is to increase the modern level of production development in the Nakhchivan region, reduce dependence on imports while ensuring self-sufficiency and reliable supply of the domestic market with local products, accelerate the development of the private sector as a result of complex and systematic measures. It consists of studying the issues of creating favorable conditions, business environment, competitiveness and export-orientation, identifying ways to effectively use local resources and opportunities to further improve this system, and economic evaluation.

***Key words:*** *Nakhchivan AR, food supply, entrepreneurship, entrepreneurial activity, state support, export orientation, employment increase, etc.*

## РЕЗЮМЕ

**Абдулгусейн Заманов**

**ГОСУДАРСТВЕННАЯ ПОДДЕРЖКА ОТРАСЛЕЙ ПРЕДПРИНИМАТЕЛЬСТВА ОРИЕНТИРОВАННЫХ НА ЭКСПОРТ В НАХЧИВАНСКОЙ АР.**

В научной статье подробно исследованы предпринимательство и предпринимательская деятельность, являющиеся необходимым условием экономики Нахчыванской Автономной Республики.

Основная цель исследования - повышение современного уровня развития производства в Нахчыванском регионе, снижение зависимости от импорта, при обеспечении самодостаточности и надежного снабжения внутреннего рынка местной продукцией, в результате ускорения развития частного сектора, комплексных и систематических мер, которые состоят из изучения вопросов создания благоприятных условий, деловой среды, конкурентоспособности и экспортной ориентации, определения способов эффективного использования местных ресурсов и возможностей для дальнейшего совершенствования этой системы, а также экономической оценки.

***Ключевые слова:*** *Нахчыванская АР, продовольственное обеспечение, предпринимательство, предпринимательская деятельность, государственная поддержка, ориентирование на экспорт, повышение занятости и т.д.*

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*
***Məqalə daxil olmuşdur:*** *4 noyabr 2021-ci il*
***Çapa qəbul edilmişdir:*** *2 dekabr 2021-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2021, № 2 (111), 203-208
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2021, № 2 (111), 203-208
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2021, № 2 (111), 203-208

**HƏBİB ZEYNALOV**
*Naxçıvan Dövlət Universiteti*
*habib.zeynalov085@gmail.com*

**UOT: 338.48**

# EKSTREMAL İDMAN TURİZMİNİN NÖV MÜXTƏLİFLİYİ VƏ XÜSUSİYYƏTLƏRİ

*Məqalədə idman turizmi, onun xüsusiyyətlərindən və səyahətin məqsədinə görə bu sahənin növ müxtəlifliyindən bəhs olunur. Bununla yanaşı, turizm perspektivliyi məqsədilə təbiətdən istifadənin zəruliyindən söz açılmışdır. Eyni zamanda, idman turizmin növləri haqqında anlayışlar, həmçinin bu sahə üzrə ekstremal idman turizmin mahiyyəti və xüsusiyyətləri barəsində araşdırmalar yer almışdır. Ekstremal idman turizmin növləri, onların funksiyaları və növ xüsusiyyətləri haqqında məlumatlar əks olunur .*

***Açar sözlər:*** *idman turizmi, turizmin növləri, ekstremal idman turizmi, turizm perspektləri, sağlam turizmçilər.*

**İdman turizmi.** İdman turizmi – səyahətin məqsədindən asılı olaraq, 2 növə: aktiv və passiv ayrılır. Aktiv turizm növündə turist səyahətdə idmanın müxtəlif növləri ilə məşğul olur. Burada əsas şərt idman bazasının olmasıdır. Passiv turizm növündə isə səyahətin məqsədi ondan ibarətdir ki, turist tamaşaçı qismində idman yarışlarında iştirak edir. Xarici mütəxəssislər o cümlədən fan-turizm növünü də ayırır. Fan-turizm – bu və ya digər idman komandasının fanatlarının idman yarışları keçirilən yerlərə səyahətidir.

Qeyri-mütəşəkkil (özfəaliyyət) və mütəşəkkil turizm növləri ayrılır. Qeyri-mütəşəkkil (özfəaliyyət) turizmi könüllü şəkildə həyata keçirilir. Burada turist qrupunun tərkibi, marşrut, təchizat, qida məhsulları ilə təminat turistin özü tərəfindən müəyyən olunur. Qeyri-mütəşəkkil (özfəaliyyət) turizm tədbirlərinin əsas formalarına – yürüş, ekspedisiya, turist yığıncağı, turizm-idman yarışları aiddir. Yürüş – müəyyən məqsəddən asılı olaraq səyahətdir. Yürüş – sağlamlıq, macəra, ekzotik, elmi-dərketmə, piyada, xizək, dağ, su və s. növlərə ayrılır. Turist yığıncağı – turizm növləri (turist-velosipedçilər, speleo-turistlər, dağ-turistləri) üzrə həyata keçirilir. Turizm-idman yarışları – müəyyən turizm növünün (xizək, dağ, su, idman yönümlü) texnikası üzrə tədbirlərdir.

Hal-hazırda idman turizmi dünyada xüsusilə seçilir. İdman turizmində qış dövründə dağ-xizəkçilik kurortlarına səyahət və xüsusi idman tədbirləri turizmi inkişaf etmişdir. Qış və Yay Olimpiya oyunları, Beynəlxalq Olimpiya Komitəsinin sessiyaları, eləcə də futbol və xokkey üzrə dünya çempionatları nəhəng turizm tədbirləri olmaqla, idman turizmində vacib rol oynayır. Həmçinin müxtəlif idman növləri üzrə dünya, Avropa, Amerika və Asiya çempionatları keçirilir. Bu idman növlərinin azarkeşləri böyük məbləğ sərf edərək, yarışların keçirildiyi ərazilərə səyahət edirlər və turist-azarkeşlər öz komandalarını dəstəkləmək üçün seçim etmək hüququna malik oldular. Olimpiya oyunları və digər idman tədbirləri müxtəlif ölkə vətəndaşlarının həmin ərazilərə marağının artmasına səbəb olmuş, evsahibliyi edən dövlət turizmdən böyük gəlir əldə etmişdir.

**Turizmdə təbiətdən istifadənin növləri.** Təbiət – turizmin həyata keçirilməsi üçün əsas obyekt hesab olunur. Lakin təbiətdən müxtəlif məqsədlərlə istifadə etmək olar:

- *Təbiətdən turizmdə müalicə məqsədləri ilə istifadə* - insanın fiziki və psixoloji qüvvələrinin bərpasına olan tələbatın ödənilməsinə yönəlmişdir;
- *Təbiətdən turizmdə idman məqsədləri ilə istifadə* – insanın fiziki qüvvələrinin daha geniş mənada bərpasına olan tələbatın ödənilməsinə yönəlmişdir;
- *Təbiətdən turizmdə dərketmə məqsədi ilə istifadə* – insanın intellektual səviyyəsinin yüksəlməsinə və mənəvi potensialının yüksəlməsinə olan tələbatın ödənilməsinə yönəlmişdir.

**Ekstremal idman turizmi və onun növləri**

Son illər turizmin macəra turizm növü - əsas məqsədi yeni duyğular, təəssüratlar, turistin fiziki formasının yaxşılaşdırılması və idman nəticələrinin əldə olunması olan, aktiv hərəkət vasitələrindən istifadəni nəzərdə tutaraq, təbiətdə istirahətlə əlaqədar olan növü inkişaf etmişdir. Xüsusi növlərə macəra turizminin ayrıca bir növü, daha dəqiq desək – ekstremal turizm aiddir ki, o da hal-hazırda yüksək templərlə inkişaf edir. Aktiv istirahət növləri adi turistlər arasında daha çox tərəfdar toplamaqdadır. Bu və ya digər idman turizmi növünün keçirilmə yerindən asılı olaraq, onu aşağıdakı kateqoriyalara bölmək lazımdır:

- Ekstremal turizmin su növləri
- Eksremal turizmin yerüstü növləri
- Ekstremal turizmin dağ növləri
- Ekstremal turizmin hava növləri
- Ekstremal turizmin ekzotik növləri

**Ekstremal turizmin su növləri.**

***Su turizmi*** – idman turizminin bir növü olub, marşrutun su səthi ilə dəf olunmasından ibarətdir. Su turizmin bir sıra növlərini ayırırlar: raftinq, yelkən turizmi, dayvinq, veykbordinq, su xizəyi, vindsörfinq, kayakinq və s.

***Dayvinq -*** akvalanqla su altına enmə (sualtı dalma, dalğıclıq)bütün dünyada çox məhşurdur. Bu, ekstremal turizmin kifayət qədər bahalı növüdür.

***Veykbordinq*** su xizəyi, snoubord, skeyt və sörfinqin kombinasiyasıdır. Motorlu qayıq qısa və enli sörfinq taxtası üzərində duran reyderi dartıb aparır. Veykbordinqin iki əsas istiqaməti vardır:veykbord-qayıq və veykbord-elektrodartma (kabel veykbordinqi). Qayıqlı veykbordinqdə idmançı qayığın dalınca gedərək fal adlanan kəndirdən tutur və müxtəlif fəndlər yerinə yetirir. Kabelli veykbordinqdə idmançının su üzərində hərəkəti qayıq əvəzinə mexanikləşdirilmiş kanat-buksir qurğusu vasitəsilə həyata keçirilir.

***Su xizəyi*** aktiv idman növləri içərisində ən məhşurlarındandır. Su xizəkləri ilk dəfə 1922-ci ildə Minnesota ştatının sakini, amerikalı Ralf Samuelson tərəfindən icad olunmuşdur. O, ilk dəfə olaraq, adi qış xizəyi ilə eksperiment apararaq, onları su üzərində istifadə etmək qərarına gəlir. O, iki enli küknar taxtasına bərkidici birləşdirərək onları ilk dəfə Leyk-Siti gölündə sınaqdan keçirilmişdir. Daha sonra 1925-ci ildə daha bir amerikalı Fred Uoller, 1928-ci ildə isə Don İbsen də bir-birlərindən xəbərsiz su xizəkləri icad etmişlər.

***Sörfinq*** qeyri-sürüşkən səthə malik olan plastik oval taxta üzərində üzmədir. Sörfinqin yaranması sonradan vinsörfinqin formalaşmasına gətirib çıxarmışdır. Sörfinqin hələ eramızdan əvvə cənub yarımkürəsi dənizlərində (xüsusilə Sakit Okean) həyata keçirildiyi güman edilir. Polineziya sakinləri olan dənizçilər sahilə qayıtmaq üçün məcburi olaraq sörfinqdən istifadə edirdilər. Sörfinqin bu ilk forması geniş bir taxta ilə həyata keçirilirdi. Ceyms Kuk Taiti və Oahuya çatanda (1777-1778) uzun bir taxta kano istifadə edərək əyləncəyə yönəlmiş sörfinqlə məşğul olanları gördüyünü bildirirdi.

***Vindsörfinq*** bu idman növü təxminən 1968-ci ildə ABŞ-da meydana gəlmişdir, yelkənli idman növlərinə aid olub, tarazlıq üçün qeyri-sürüşkən səthə malik olan plastik oval taxta üzərində yerdəyişmədir.

***Kayakinq*** su turizm növünün ən sürətlə inkişaf edən növlərindən biridir. Kayakinqlə həm tək halda, həm də neçə nəfərlik kayaklardan istifadə etməklə məşğul olmaq mümkündür. Bu turizm növü kifayət qədər baha hesab olunur.

Müasir kayakinqdə 3 əsas istiqamət inkişaf edir – *avarlı slalom, rodeo* və *axım.*

*Slalom* kayakı və suyu hiss edərək kayak üzərində manevr etmək bacarığına əsaslanır. *Rodeo,* slalomdan fərqli olaraq, yalnız yüksək səviyyəli texnikası ilə seçilmir, eyni zamanda rəqabətin tərkib hissəsidir. Kayak üzərində fristayl çay relyefinin fərqli xüsusiyyətlərindən istifadə edərək müxtəlif fəndlərin yerinə yetirilməsidir.

***Raftinq*** kanoe və ya xüsusi bərələr vasitəsilə dağ çayı üzrə maraqlı və çox vaxt sürətli enişdir. Raftinq turlar içərisində ən çox müraciət olunan və hətta ən gənc turistlər üçün belə təhlükəsiz ola

bilən turizm növüdür.

***Flaybordinq*** (ing. dilindən tərcümədə fly – uçuş, board – taxta)həyatı boyu uçmağı öyrənmək istəyən insanlar üçün ideal idman növüdür. Lakin bu fəaliyyət növü tərkibində bunu bərk səth üzərində deyil, su səthi üzərində həyata keçirmək tələb olunur. Bunun üçün idmançı-flayborçular xüsusi su körükçüsünə (hava mühərriki), suyun ötürülməsi üçün şlanqa və reaktiv su botinkalarına malik olmalıdırlar.

**Ekstremal turizmin yerüstü növləri.**

***Mauntinbaykinq*** - Mauntinbaykinq ekstremal idman növü kimi populyarlığı hələ XX əsrin 90-cı illərində Avropa ölkələrində qazanmışdır. Hal-hazırda mauntinbaykinqlə məşğul olmaq üçün ilkin mərhələdə şosse velosipedindən istifadə olunur. Mauntinbaykinqin iki əsas istiqaməti fərqləndirilir: *daunhill* və *trial.*

*Daunhill* daha çətin və ekzotik olub dağlardan sürətli enişdir. Bu növlə məşğul olmaq üçün çılpaq yamaclı qayalar və ya bulaq, çay, daş və odun qalaqlarından ibarət olan xüsusi marşrutlar seçilir. Daunhilldən əlavə gənclər arasında mauntinbaykinqin *trial* növü də son illər populyarlıq qazanmağa başlamışdır. Bu zaman idmançılar beton plitələri və metal qırıntılarından xüsusi konstruksiyalar hazırlayaraq, onlar üzərində müxtəlif fəndlər yerinə yetirirlər. Daunhill və trial ən travmatik idman növlərindən hesab olunur.

***Speleoturizm*** mağaralara həyata keçirilən səyahətlərdir. Speleoturizmlə məşğul olmaq üçün ciddi fiziki, texniki və psixoloji hazırlığa malik olmaq lazımdır.

***Spelestologiya*** turizmlə elmin qarşılıqlı əlaqəsi olub, süni, antropogen mənşəli mağaralara həyata keçirilən turizm növüdür. Geniş anlamda spelestologiya süni yeraltı qurğular haqqında elmdir. Bu növə müraciət edən turistlər yeraltı şəhər strukturlarını, katakombalara səyahət edirlər.

***X-yarışlar*** xüsusi idman növüdür ki, onunla məşğul olan turistlər fiziki baxımdan o qədər yaxşı hazırlıqlı olur ki, eyni zamanda qayalara dırmanmağı, at belində çapmağı, çay boyu kayak və bərələrdə səyahət etməyi, dağ velosipedi sürməyi və kəndir vasitəsilə şəlalələr boyu düşməyi bacarırlar. Bu insanlar müxtəlif komandalarda birləşərək 300-400 km-ə qədər məsafələri bacardıqları qədər sürətli keçmək məqsədi güdürlər. Buna bəzən multi idman və ya ekstremal (bəzən də macəra) yarışlar adı da verirlər.

**Ekstremal turizmin dağ növləri**.

***Alpinizm-*** ən ekstremal istirahət növlərindən biri hesab olunur. Bu gün alpinizm artıq sürətlə inkişaf edən və məhşurlaşan bir sənayeyə çevrilmişdir. Alpinizmin əsasının qoyulması həkim Mişel Qabriel Pakkardın və dağ bələdçisi Jak Balmın adı ilə bağlıdır. Onlar 1786-cı il avqustun 8-də dünyada ilk dəfə olaraq, Alp dağlarının ən uca nöqtəsinə - dəniz səviyyəsindən 4.810 metr yüksəklikdə yerləşən Monblan zirvəsinə qalxıblar.Bir qayda olaraq bu idman növü ilə məşğul olmaq və arzulanan zirvəni minimum itkilərlə fəth etmək üçün yay mövsümü seçilir. Lakin bəzi həyəcansevərlər qışda da alpinizmlə məşğul olurlar, mürəkkəb hava şəraiti və qar uçqunları isə səyahətə daha da həyəcan qatır.

***Dağ xizəyi*** aktiv istirahətin ən qədim növlərindən biridir. İllər ötdükcə dağ xizəklərində sürüşmək istəyənlərin sayı sürətlə artmışdır. Onu da qeyd etmək lazımdır ki, dağ-xizəkçilik servisi bu gün 10 il bundan əvvəlkinə nisbətən daha keyfiyyətli və rəngarəngdir. Demək olar ki, hər bir dağ-xizəkçilik kurortunda həm professionallar, həm də yeni başlayanlar üçün nəzərdə tutulmuş yamaclar mövcuddur. Dağ-xizəkçilik zamanı istifadə olunan avadanlıqlar bunlardır: xizəklər, bərkidicilər, dirəklər, botinkalar, geyim dəsti, dəbilqə, maska, əlcəklər.

***Snoubordinq*** xüsusi təhciz olunmuş taxta üzərində dağ yamaclarından enmədir. Bu növ, dağ-xizəkçiliyinə nisbətən daha aqressiv, aktiv və ekstremal hesab olunur. Snoubordinq ayrıca idman növü kimi XX əsrin 60-cı illərində ABŞ-da təşəkkül tapmışdır. Yeni idman növünün əsas tərəfdarları – yay aylarının intizarında olar sörfinqistlər olmuşlar. Rusiyada snoubord kütləvi şəkildə 1990-cı illərdən inkişaf etməyə başlamışdır.

***Heliski*** (ing. Heliskiing) - dağ-xizəkçiliyin ayrıca bir növü kimi təxminən XX əsrin 60-cı illərindən populyarlaşmağa başlamışdı , friraydın tərkib hissələrindən biridir. Onun əsas məğzini

xüsusi hazırlanmış yamaclardan kənarda yerləşən, əl dəyilməmiş dağ yamaclarına vertolyotla gətirilərək, ordan yamac boyu sürüşmə təşkil edir .Vertolyotun tipindən, yük qaldırma qabiliyyətindən asılı olaraq, xizəkçi qrupunda bir neçə nəfər ola bilər. Qrupu adətən bu və ya digər yamaclarda enmə xüsusiyyətlərinə yaxşı bələd olan bələdçi müşayət edir. Təhlükəsizliyin təmin olunması məqsədilə hər bir xizəkçi uçqun sensorları, uçqun zondu lazımi avadanlıqlarla (uçqun təhlükəsi olduqda axtarış üçün) təhciz olunur.

**Ekstremal turizmin hava növləri.**

## ISSUES OF LOGISTICS STRATEGY IN GLOBAL INTEGRATION

You may often hear the word "global integration" in news feeds or newsletters in the context of an economic or political event or situation. Here the answer to the question of what is integration is based on strict adherence to our vocabulary understood by all. This article will answer the question of what is integration. You will also be able to fill knowledge gaps and better understand what is happening in the political and economic Olympiads.In the era of globalization, the processes of internationalization and integration of economic life have become more complex. As the American economist Martin Shaw put it: "Understanding the major historical changes of our time depends on our understanding of economic, cultural and political change, as well as the relationship between markets, government institutions and social movements."

***Key words:*** *global integration, logistics, strategy, European Union, internationalization*

## РЕЗЮМЕ

**Наджаф Алиев**

## ВОПРОСЫ ЛОГИСТИЧЕСКОЙ СТРАТЕГИИ В ГЛОБАЛЬНОЙ ИНТЕГРАЦИИ

Вы можете часто слышать слово «глобальная интеграция» в новостных лентах или информационных бюллетенях в контексте экономического или политического события или ситуации. Ответ на вопрос,что здесь за интеграция,основан на строгом соблюдении нашего словаря,который понятен каждому. Вы также сможете заполнить пробелы в знаниях и лучше понять, что происходит на политических и экономических олимпиадах.В эпоху глобализации процессы интернационализации и интеграции экономической жизни усложнились. Как выразился американский экономист Мартин Шоу: «Понимание основных исторических изменений нашего времени зависит от нашего понимания экономических, культурных и политических изменений, а также отношений между рынками, государственными учреждениями и социальными движениями».

***Ключевые слова:*** *глобальная интеграция, логистика, стратегия. Европейский Союз, интернационализация*

---

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*
***Məqalə daxil olmuşdur:*** *4 noyabr 2021-ci il*
***Çapa qəbul edilmişdir:*** *2 dekabr 2021-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2021, № 2 (111), 220-224
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2021, № 2 (111), 220-224
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2021, № 2 (111), 220-224

**NƏSRİN ƏLİYEVA**
*Naxçıvan Dövlət Universiteti*
*nesrin.lyv06@gmail.com*

**UOT: 33**

# İSTEHSALIN TƏŞKİLİ VƏ İDARƏ EDİLMƏSİ

*Məqalədə istehsalın mahiyyəti və məzmunu, istehsalın düzgün təşkili və idarə olunması yollarından bəhs olunur. Məqalədə istehsalın ölkə və cəmiyyət üçün əhəmiyyəti, onun iqtisadiyyatın inkişafına təsiri, mənfəət əldə olunmasında istehsalın rolu, istehsal fəaliyyətində istifadə olunan istehsal amillərinin rolu, istehsala başlamazdan əvvəl istehsalın həyata keçiriləcəyi müəssisənin yerinin düzgün seçilməsi kimi əsas məsələlər qeyd olunmuşdur.*

***Açar sözlər:*** *istehsal, idarəetmə, müəssisə, istehlakçı, keyfiyyət, istehsal amilləri, tələbat, mənfəət,ehtiyac, sahibkar*

İngilis dilində istehsal "manufacture" sözündən götürülmüşdür. İstehsal malların və xidmətlərin istehsal olunmasından bazara çıxarılmasına qədər bütün fəaliyyətləri əhatə edən fəaliyyətdir. İnsanlar mövcud olduqları gündən həyatlarını davam etdirmək üçün müəyyən məhsullar istehsal etməli olublar. İlk istehsal fəaliyyəti ümumiyyətlə insanların öz ehtiyaclarını ödəməyə yönəldilmişdir.

Bir fəaliyyətin istehsal kimi qəbul edilməsi üçün o, insan ehtiyaclarını ödəməli, ehtiyacları qarşılama kimi bir məqsədə xidmət etməlidir. İstehsalın idarə edilməsi müəssisənin mövcud sistemində olan materiallardan, insan gücündən, maşın-avadanlıq ehtiyatlarından ən məqsədəuyğun şəkildə istifadə etməklə tələb olunan məhsulun istənilən vaxt və maya dəyəri ilə istehsal edilməsi deməkdir. Maşın və işçi qüvvəsi kimi mövcud qaynaqlardan ən qənaətli şəkildə istifadə edərək istənilən məhsul və xidməti istənilən keyfiyyətdə və istənilən zamanda istehsal etmək üçün müəssisələrin istehsal idarəçiliyi üzərində işləmək çox vacibdir.

İstehsal iqtisadiyyatın can damarıdır. Müəssisələr baxımından, istehsal həm malların, həm də xidmətlərin istehsalı kimi qəbul edilir. Müəssisələr mənfəət yönümlüdür və bu məqsədə çatarkən hər cür fayda yaratmağa çalışan bir qurumdur. Müəssisə mənfəət əldə etmək məqsədi ilə yaradılaraq müştəri ehtiyaclarını ödəmək üçün mal və xidmətlərin istehsalı və satışı ilə fəaliyyət göstərən bir təşkilatdır.

İstehsal işçi qüvvəsi və digər resurslarından səmərəli istifadə etməklə xammaldan hazır məhsul alınması prosesidir. İnsanlarla bağlı hər bir iqtisadi və həyati şey istehsaldan başlayır. İnsan həyatını təmin etmək ancaq istehsalla mümkün ola bilər. Məsələn, ət, süd, çörək kimi qida məhsulları istehsal olunmazsa, insanların qidalanmaması nəticəsində aclıqdan ölməsi mümkündür. Eynilə, inək, qoyun, keçi və toyuq kimi insanların bəslədiyi heyvanlar da yem bitkiləri yetişdirilməsə ac qalacaqlar. Bundan əlavə, təbiətdə qar və yağışın olmaması nəticəsində ot və digər bitkilərin olmaması nəticəsində quraqlıqdan bütün canlılar yaşaya bilməyəcək. Buna görə də istehsal çox mühümdür. Məsələn, çörək istehsalı insanların qida ehtiyaclarını ödəmək üçün buğdanın fabrikdə una və sobada çörəyə çevrilməsi prosesidir. İnsanların müxtəlif tələbatlarını ödəmək üçün əmtəə və xidmətlərin istehsalı istehsalın predmetidir. İstehsal fabrikdən və ya biznesdən kənarda da ola bilər. Məsələn, o həmçinin toxum, gübrə və əmək kimi resurslarla və tarlanın suvarılması və şumlanması kimi digər proseslərin istifadəsi nəticəsində təbiətdə kənd təsərrüfatı bitkilərinin becərilməsi və istehsalı şəklində də ola bilər. Misal üçün, buğda, arpa, mərci, günəbaxan, zeytun, pambıq istehsalı kimi. Lakin bu yolla istehsal olunan kənd təsərrüfatı məhsullarının bir qismi insan ehtiyaclarını ödəmək üçün istifadə oluna bilər. Bu məhsulların insanların ehtiyaclarını ödəmək üçün istifadə edilməsi üçün müəssisədə

müxtəlif proseslərə məruz qalmalıdır. Məsələn, günəbaxandan günəbaxan yağı istehsal etmək üçün günəbaxan müəssisədə müxtəlif proseslərdən keçərək, məhsula çevrilməlidir (4).

İstehsal prosesləri nəticəsində insan tələbatını ödəyəcək əmtəə və xidmətlər istehsal etmək üçün müəssisə (zavod, obyekt, emalatxana) yaradılmalıdır. Ona görə də biznes olmasa, istehsal da olmaz. İstehsal da istehlakla (tələblə) bağlıdır. Əgər istehlak yoxdursa, istehsalda da olmayacaq. İstehsal, istehlak və idarəetmə arasında sıx əlaqə vardır. İstehsal bir növ iqtisadi fəaliyyətin və biznesin başlanğıcını təşkil edir. Bu fəaliyyətlərin davamı da istehlakdan asılıdır. İqtisadi fəaliyyət və biznes istehsalla başlayır və istehlakla davam edir. Bu dövr təkrar istehsal və istehlakla davam edir.

Şübhəsiz ki, iqtisadiyyatın gücü istehsaldan qaynaqlanır. İstehsalçı iqtisadiyyatın gücü də istehsal edən müəssisələrdən gəlir. Məhsuldar iqtisadiyyat tələb olduğu müddətcə ölkənin və cəmiyyətin davamlı dinamizmlə inkişafını və firavan yaşamasını təmin edir. Bu gün dünyada istehsalda lider ölkələr dünya iqtisadiyyatında mühüm paylar alaraq qlobal gücə çevrilirlər. İstehsal edə bilməyən və yetərincə istehsal edə bilməyən ölkələrin iqtisadi qüdrəti zəif olduğu üçün onlar ancaq ehtiyac içində yaşayırlar. İstehsal gücü ölkənin gələcəyini təyin edən ən mühüm gücdür.

Bu gün istehsal anlayışı əhatə dairəsini genişləndirməklə istehsal amillərinin təklifindən tutmuş əmtəə və xidmətlərin bazara çıxarılmasına qədər də daxil olmaqla bütün fəaliyyətləri əhatə edən əsas biznes fəaliyyətinə çevrilmişdir. Sadə dillə desək, daxilolmaları mal və xidmətlərə çevirən sistem istehsal sistemi adlanır. İstehsal sistemini daha yaxşı başa düşmək üçün ilk növbədə sistem anlayışı üzərində dayanmaq lazımdır.

Sistemlər əvvəlcədən müəyyən edilmiş məqsədə çatmaq üçün nəzərdə tutulmuş və plana uyğun olaraq bir-biri ilə əlaqəli və müstəqil bölmələrlə mütəşəkkil və ya mürəkkəb bir bütöv təşkil edən hissələrdir. Sistemdə işçilər dəyər yaratmağa çalışırlar ki, sistem öz məqsədinə çata bilsin.

Menecerlər biznesin fəaliyyətində kiçik və ya böyük bir çox qərar qəbul etmə fəaliyyətləri ilə məşğul olurlar. Bu qərar vermə prosesində, iş daxilində sistemli yanaşma ilə bütün müəssisəni nəzərə alaraq hərəkət etmək əvəzinə, komponentlərin bir-biri ilə əlaqələri nəzərə alınaraq veriləcək qərarlar daha təsirli və effektiv olur. Müəssisə daxilində, eləcə də istehsalatda bütün bölmələrin qərarlarında sistem yanaşmasından istifadə olunur. Bu yanaşma biznes üçün vacibdir. Müəssisənin istehsal sistemi müəssisənin mal və xidmətlər istehsal edən hissəsidir (5).

Bu gün daim inkişaf edən texnologiya və qloballaşma biznesləri keyfiyyət və çevikliyə aparır. Bu da, istehsal üsullarında və idarəetmədə sürətlə rəqabət aparmağa güclü təkan verməyə başlamışdır. Nəticədə istehsalın idarə edilməsində yeni prinsiplər və üsullar meydana çıxmışdır. Sürətlə dəyişən müştəri tələblərinə cavab vermək üçün müəssisələr geniş çeşiddə məhsullar istehsal edirlər. İstehsal sistemləri bu günə qədər bir çox dəyişikliklərə məruz qalmışdır. Bu dəyişikliyin əsası dəyişən və inkişaf edən mühit amilləridir. Dəyişən və inkişaf edən mühitlə yanaşı müştəri tələbləri də dəyişir. Bu gün sənaye lideri ən yaxşı vəziyyətdə olan şirkətlər araşdırıldıqda, yeni istehsal yanaşmalarını tətbiq edən şirkətlər görünürlər .

1980-ci illərdə ümumi keyfiyyət idarəetməsi ilə ön plana çıxan keyfiyyət anlayışı müəssisələrin əmtəə və xidmət istehsalında dəyişikliyə səbəb olmuşdur. Bundan əvvəl istehsalda keyfiyyətə nəzarət deyildikdə, yalnız hazır məhsulların və qüsurlu məhsulların yoxlanılması nəzərdə tutulurdu. Lakin bu idarəetmə tərzində məqsəd keyfiyyətdir. Keyfiyyət təminatı sistemləri ilə keyfiyyətli məhsullar istehsal olunur, məhsulun standartlara uyğun istehsal edilməsi hədəflənir. Ümumi keyfiyyət idarəetməsinin həyata keçirilməsində tələb olunan əsas prinsiplər var. Müştəri yönümlü olmaq, liderliyi ön plana çıxararaq yol göstərmək, müasir standartlara və tələblərə cavab verən məhsul və xidmətlər istehsal etmək, sistem yanaşmasından istifadə etmək, insanlara önəm vermək və onların bilik və bacarıqlarının daim inkişaf etdirilməsi üçün yollar açmaq, treninqlər təşkil etmək vacib olanlardandır (4).

İstehsalın idarə edilməsinin məqsədləri nələrdir? “Hansı mallar? Xidmətlər? Nə qədər? Hansı xüsusiyyətlərdə? Harada və kim tərəfindən?” Ən aşağı xərc və ya ən yüksək qazanc kimi suallara cavab tapmağa çalışan bu iş funksiyasının bir çox məqsədi var. Bu məqsədlər dizayndan məhsulun inkişafına, resurslardan paylamaya, marketinqdən satışa qədər hər sahəyə təsir göstərir. İstehsalın

idarə edilməsində ən əsas məqsədlərdən biri də istehlakçıların qiymət, zaman, kəmiyyət və keyfiyyət baxımından tələblərini ən yaxşı şəkildə qarşılamaqdır. İstehsalın idarə edilməsi sayəsində müəssisənin işçi qüvvəsi və texnika kimi ehtiyatlarından istifadə dərəcəsi səmərəli şəkildə artırılacaqdır.

İstehsalın idarə edilməsi biznes üçün bir çox üstünlüklərə malikdir. Onlardan biri hesabat verməkdir. Yəni istehsal rəhbərliyi əmtəə və resurslardan ən səmərəli şəkildə istifadə edilib-edilmədiyini bildirir və mümkün hallarda təkmilləşdirmə imkanlarını təmin etməklə məhsulun və xidmətin səmərəli olmasını təmin edir. İstehsalın idarə edilməsi həm də səmərəliliyə müsbət təsir göstərir, çünki bu, qıt resurslardan səmərəli və həlli yönümlü şəkildə istifadə etməyə kömək edir.

İstehlakçının istəklərinə uyğun olaraq malların və xidmətlərin istehsalını müəyyən etmək üçün lazımi təhlillər və planlaşdırmalara imkan verən istehsal idarəçiliyi, müəssisədəki mövcud maşın və avadanlıqların necə və necə düzgün istifadə olunacağını, onlara texniki qulluq göstərilməsinin də faydasını təmin edir. Bu üstünlüklər sayəsində keyfiyyət və stoka nəzarət kimi mühüm mərhələlərin əməliyyatının planlı şəkildə həyata keçirilməsinə kömək edən, həm sifarişlərin, həm də ehtiyatların sağlam qaydada həyata keçirilməsini təmin edən istehsalın idarə edilməsi proqramı əvəzedilməz bir hissəyə çevrilir.

Beləliklə, biznesin istehsalının idarə edilməsi nələri əhatə edir? İlk növbədə, məhsulun dizaynını və inkişafını göstərmək olar. Daha sonra tədarük zəncirinin idarə edilməsi, istehsalın planlaşdırılması, tətbiqi və nəzarəti, keyfiyyətin idarə edilməsi, texnologiyanın idarə edilməsi kimi istehsal prosesləri də istehsalın idarə edilməsi sahəsinə daxildir. Son məhsulun saxlanması və bazara hazırlanması, logistikanın idarə edilməsi və satış sonrası xidmətlərlə yanaşı, təkrar emala əsaslanan, etik və ekoloji cəhətdən təmiz istehsalın təfərrüatları da istehsalın idarə edilməsi çərçivəsindədir (1).

Müasir dövrdə istehsal konsepsiyasının əhatə dairəsi genişlənmiş, istehsal amilləri genişlənmişdir. İstehsal prosesində istifadə olunan resurslar istehsal resursları adlanır. Onlar həmdə müəssisənin iqtisadi əsasları hesab olunur. İstehsal resurslarına torpaq, əmək, kapital və sahibkarlıq qabiliyyəti daxildir.

İstehsal müddətində bütün təbii resurslar torpaq içərisində ifadə olunur. Yəni, bir istehsal faktoru dediyimiz zaman ağlımıza sadəcə kənd təsərrüfatı üçün nəzərdə tutulan torpaqlar yox, mineral resurslar, atmosferdəki qazlar, meşələr, okeanlar gəlməlidir. Torpağın istifadəsi qarşılığın edilən ödəməyə renta deyilir.

Əmək dedikdə, əmtəə və xidmət istehsalına təsir edən insanların fiziki və zehni fəaliyyətləri başa düşülür. Əmək xidmətlərinin əvəzində edilən ödəmələrə əmək haqqı deyilir.

Kapital istehsal üçün resurs olaraq istifadə olunan istehsal malları ilə istehlakçıların əllərində olmayan malları, istehlak mallarını ifadə edir. Əmtəə və xidmət istehsalında istifadə olunan resurslar, dəzgah və işçi kimi ünsürlər kapital hesab olunur. Kapitalın istifadəsi qarşılığında edilən ödəməyə faiz deyilir.

Sahibkar torpaq, əmək, kapital kimi resursları, malları istehsal etmək məqsədilə bir yerə gətirməklə yeni iş imkanları yaradır və biznes fəaliyyətini həyata keçirir.

Hər ölkə xalqının iqtisadi ehtiyaclarını ödəməyi, qarşılanan iqtisadi ehtiyaclarla sosial və mədəni inkişaf etməyi, gözləntiləri və həyat dövrünü xoşbəxt və həssas şəkildə formalaşdırmağı hədəfləyir. Dövlətlər hər bir vətəndaşın layiqli həyat sürməsi üçün bütün ehtiyaclarını təmin etməyə borcludurlar. İşə ehtiyac, iqtisadi və sosial ehtiyaclar, qanuna ehtiyac, təhlükəsizlik ehtiyacı, sığınacaq ehtiyacı, bərabərlik və ədalət ehtiyacı ...

Bütün bu ehtiyacların təmin edilməsi dövlət tərəfindən həyata keçirilir. Xidmətlər mühafizə təşkilatı ilə mühafizə, səhiyyə təşkilatı ilə sağlamlıq, təhsil təşkilatı ilə təhsil və digər bütün ehtiyaclarla bağlı bölmələr tərəfindən həyata keçirilir (2).

İstehsal insanın ehtiyaclarının ödənildiyi bir fəaliyyətdir. İstehsalsız cəmiyyət yoxdur. Daha yaxşı yaşamaq bugünkü "istehsal" fəlsəfəsinin əsas mövzusudur. Daha çox qazanc əldə etmək üçün edilən istehsal neqativ istehsaldır və faydadan kənara çıxan israfçılıqdır. Gələcək nəsillərin resurslarının istehlakıdır. Lakin pozitiv istehsal qıt resursları bəşəriyyətə təqdim etməyin ən yaxşı

yoludur. Neqativ istehsal qıt resurslardan amansızcasına istifadə etmək, bəşəriyyətin gələcəkdə istifadə edəcəyi sərvətləri aşındırmaq, pul və güc qazanmaq üçün israf etməkdir.

Kapitalist sisteminin istehsal baxımından kritik tərəfi yoxdur. Sistem kapital əsaslı sistemdir, texnoloji inkişaflarla böyük istehsal qrupları yaratmaqla ehtiyacları genişləndirmək, pulun alıcılıq qabiliyyətini dəyər kimi yaratmaqla daxili və xarici ehtiyacları qarşılıqlı təmin etmək, iqtisadiyyatı əmanət və istehlak siyasəti ilə tarazlaşdırmaq, şəxsi sahibkarlıq, mülkiyyət və imkan əldə etmək hüququ bərabərliyi təmin etmək baxımından faydalı sistemdir. İstehsalın artırılması və istehsalın səfərbər edilməsi fərdlərin təkbaşına görə biləcəyi bir fəaliyyət deyil. İstehsal təşkilati fəaliyyətdir.

Dünya sistemli olaraq bütün ölkələr və bəşəriyyət pozitiv istehsal fəaliyyətlərinə diqqət yetirməlidir. Ölkələr insanların məşğul olacağı iş və istehsal fəaliyyətlərini artırmalı və əməyi müqabilində müəyyən gəlir əldə etməklə ehtiyaclarını ödəməlidirlər. Həmçinin fərdi bacarıqları olan insanların öz işlərini görmək təşəbbüslərini dəstəkləmək üçün fəaliyyətləri artırmaq lazımdır. Mərkəzsizləşdirməyə önəm verilməli, mikro müəssisələr inkişaf etdirilməlidir. Ancaq resursların istehlakı nöqtəsində tədbirlər görülməli və qənaət edilməlidir (5).

Yeni bir işə başladıqda şirkətinin yerinin düzgün seçilməsi məsələsi də çox vacibdir. İş yerinin düzgün yerini seçmək gələcəkdə baş verə biləcək və əlçatanlığa təsir edəcək lazımsız xərclərin qarşısını almağa kömək edir. Müəssisə qurularkən istehsalda istifadə ediləcək olan xammala çox daha asan və tez çata biləcəyiniz yeri təyin etmək lazımdır. Bu yolla həm nəqliyyat xərclərini minimuma endirməyə və bəlkə də aradan qaldırağa nail olmaq olar. Bununla yanaşı hər bir müəssisənin yerləşdirilməsi üçün xammal mənbəyinin, yolun və nəqliyyatın, enerji mənbəyinin, işçi qüvvəsinin, satış bazarının olması, su mənbəyinin olması və s. kimi tələbatlar da nəzərə alınmalıdır.

Müəssisənin yerləşdirilməsində şəhər, şəhər ətrafı və şəhərdən kənar ərazisinin münasibliyini nəzərə almaq lazımdır. Şəhərin içində müəssisəni yerləşdirmək bütün amillərə görə əlverişlidir, lakin torpaq və icarə haqqı çox bahadır. Həm də ekoloji cəhətdən təmiz olmayan istehsal obyektlərini şəhərin mərkəzi hissəsində yerləşdirmək düzgün deyil. Şəhərin ətrafında müəssisə yerləşdirmək ən əlverişli yerdir. Çünki orada bütün amillər ödənilir və həm də torpaq ucuz olur. Şəhərdən kənarda, xüsusən rayon və kənd yerlərində müəssisə salmaq isə həm üstün, həm də çatışmayan xüsusiyyətlərə malikdir. Çünki işçi qüvvəsi bol olduğu halda, nəqliyyat üçün rahat yollar yoxdur, enerji qıtlığı mövcuddur, həm də torpaq haqqı ucuz olsa da, daşıma xərcləri çox baha olur.

İstehsalın idarə olunmasının ən mühüm şərtlərindən biri də müəssisənin özünün rəqabətə davamlı olması ilə yanaşı, istehsal olunmuş məhsulların da rəqabət qabiliyyətli olmasını təmin etməkdir. Rəqabətə dözümlülük ilk növbədə istehsal edilən məhsulun keyfiyyət göstəriciləri ilə bağlıdır. Məhsulun öz təyinatına müvafiq olması, nisbətən ucuz olması, qüsursuz istehsalı, dizaynı, satışdan sonrakı xidmət, tələbatları ödəməsi və sair amillər məhz bu göstəricilərlə bağlıdır (3).

## ƏDƏBİYYAT

1. Ə.H. Ələkbərov, M.Ə.Vəliyev, S.H.Purhani. Menecment. Bakı: 2013.
2. Anar Bayramov. Biznes və menecmentin əsasları. Bakı: Nurlan, 2011.
3. Ağasəf Məmməd oğlu İmran, iqtisad elmləri namizədi, dosent Menecment (dərslik). Bakı: Nurlan, 2007.
4. Arthur M. Blank, Good company, William Morrow, 2020.
5. Rosemary Varley, Retail Product Management, Routledge, 2014.

## SUMMARY

**Nasrin Aliyeva**

**ORGANIZATION AND MANAGEMENT OF PRODUCTION**

The article deals with the essence and content of production, ways of its proper organization and management. The article highlights such key issues as the importance of production for the country and society, its impact on the development of the economy, the role of production in making a profit, the role of production factors used in production activities, the right choice of the place of the enterprise where production will be carried out before the start of production.

***Key words:*** *external debt, public debt, Azerbaijan, management, commitment, regulation.*



## РЕЗЮМЕ

**Насрин Алиева**

**ОРГАНИЗАЦИЯ И УПРАВЛЕНИЕ ПРОИЗВОДСТВОМ**

В статье рассказывается о сущности и содержании производства, о способах правильной организации и управления производством. В статье освещаются такие ключевые вопросы, как значение производства для страны и общества, его влияние на развитие экономики, роль производства в получении прибыли, роль факторов производства, используемых в производственной деятельности, правильный выбор места предприятия, где будет осуществляться производство, до начала производства.

***Ключевые слова:*** *производство, управление, предприятие, потребитель, качество, факторы производства, спрос, прибыль, потребность, предприниматель.*


***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*
***Məqalə daxil olmuşdur:*** *4 noyabr 2021-ci il*
***Çapa qəbul edilmişdir:*** *2 dekabr 2021-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2021, № 2 (111), 225-231
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2021, № 2 (111), 225-231
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2021, № 2 (111), 225-231

**ALTUN YASİNLİ**
*Naxçıvan Dövlət Universiteti*
*altunsektorel@gmail.com*

**UOT: 33**

# KİÇİK VƏ ORTA MÜƏSSİSƏLƏRİN İQTİSADİ POTENSİALININ ARTIRILMASININ ƏSAS İSTİQAMƏTLƏRİ

*Azərbaycan cəmiyyətində iqtisadi islahatların strateji istiqamətlərindən biri kiçik və orta müəssisələrin fəaliyyətinin formalaşdırılmasıdır. Bunun da səbəbi ölkə iqtisadiyyatının strukturunun yenidən qurulmasında, mülkiyyətin müxtəlif formalarının meydana gəlməsində, yeni ideya və səmərəli təkliflərin istehsalatda reallaşmasında, inhisarlaşmanın və sosial gərginliyin aradan qaldırılmasında kiçik və orta müəssisələrin əhəmiyyətli rol oynamasıdır.*

*Kiçik və orta müəssisələrin fəaliyyəti həm daxili bazarların əmtəə və xidmətlərlə təmin edilməsində, sahə və regional inhisarçılığın ləğv edilməsində, rəqabətin bütün sahələrdə genişləndirilməsində, həm də təşəbbüskar insanların yaradıcılığının üzə çıxmasına və həyata keçirilməsinə geniş imkanlar açılmasında, mövcud əmək və material ehtiyatlarının istehsala cəlb olunmasında və əhalinin tələbatının hərtərəfli təmin olunmasında mühüm rol oynayır. Kiçik və orta müəssisələr istehsalçılarla istehlakçılar arasında birbaşa iqtisadi əlaqələrin yaranmasında, əhalinin gəlirlərinin və alıcılıq qabiliyyətinin yüksəlməsində böyük əhəmiyyət kəsb edir.*

*Bazar münasibətləri şəraitində kiçik və orta müəssisələrin fəaliyyətinə normal şərait yaratmadan iqtisadi yüksəlişi təmin etməyin, yeni iş yerlərinin açılmasına nail olmağın, eləcə də sosial xarakterli problemləri həll etməyin mümkün olmadığını son dərəcə düzgün qiymətləndirən Prezident cənab İlham Əliyev sahibkarlığın (kiçik və orta müəssisələrin) formalaşdırılması və inkişaf etdirilməsini dövlətin iqtisadi siyasətinin əsas prioritetlərindən biri kimi dəyərləndirmiş və bildirmişdir ki, kiçik və orta müəssisələr sosial təbəqələşməni aradan qaldıraraq ümumi inkişafda harmoniya yaradır.*

*Bu baxımdan, qeyd edə bilərik ki, məqaləmizin tədqiqat obyekti kimi kiçik və orta müəssisələrin formalaşdırılması və inkişafı problemlərinin kompleks şəkildə öyrənilməsinə, onların iqtisadi potensialının dəyərləndirilməsinə böyük ehtiyac vardır.*

***Açar sözlər:** kiçik və orta müəssisələr, iqtisadi potensial, maddi-texniki potensial, maliyyə potensialı, elmi-texniki potensial.*

Qlobal iqtisadiyyatda kiçik və orta müəssisələrin (bundan sonra- KOM) yaratdığı əmək potensialı, bazar iqtisadiyyatının dəyişkən qanunlarına çevik uyğunlaşması, iqtisadi və sosial inkişafa verdikləri müsbət töhfələr dövlətlər üçün onun əhəmiyyətini artırmaqdadır. Dünya Bankının məlumatına görə inkişaf edən bazarlarda yaradılan hər on iş yerindən yeddisini məhz KOM-lar yaratmaqdadır [8].

KOM-ların inkişafı üçün əsas göstəricilərdən biri məhz onların mövcud potensialının artırılması olacaqdır. Qurulması böyük vəsait tələb etməyən və kiçik heyətə malik olan KOM-lar fəaliyyətə başladığı ilk illərdə kiçik müştəri kütləsinə xitab etdiyi üçün gələcək inkişaf perspektivlərinə adekvat potensialın formalaşdırılması onların inkişafı üçün əsas şərtlərdəndir. KOM-ların inkişafının təmin edilməsi, istehsal gücünün artırılması, daha geniş bazarlara inteqrasiyası onun iqtisadi potensialının artılmasında birbaşa olaraq asılı olmaqdadır. İşlədiyimiz elmi məqalədə müəssisənin iqtisadi potensialının əhəmiyyəti, onun iqtisadi potensialının əsas göstəriciləri və bu göstəricilərin müəssisənin inkişafında roluna dair məlumatlar verilmişdir.

# 1. KİÇİK VƏ ORTA MÜƏSSİSƏLƏR ANLAYIŞI VƏ ƏHƏMİYYƏTİ

Dünyanın bütün ölkələrində mövcud olan və istifadə edilən kiçik və orta ölçülü müəssisələr (bundan sonra KOM) iqtisadi ədəbiyyatda kiçik, orta biznes və ya kiçik və orta sahibkarlıq kimi də xarakterizə edilməkdədir. Dünya ölkələrində KOM anlayışı iqtisadiyyatın sahələrinə, sənayeləşmə dərəcəsinə, bazarın böyüklüyünə, sektorlara görə fərqlilik göstərməkdədir [9, səh. 3].

İkinci Dünya müharibəsindən sonra dağılmış iqtisadiyyatların bərpası, əhalinin məşğulluğunun təmin edilməsi və mallara olan tələbin qarşılanması, müharibə nəticəsində dağıdılmış regionların bərpası kimi tədbirlərin həyata keçirilməsi zamanı KOM-ların iqtisadi və sosial əhəmiyyəti daha qabarıq olaraq hiss edilmişdir. Dünya iqtisadiyyatında 1950-ci illərdən başlayaraq 1980-ci illərin sonuna qədər davam edən dövrdə KOM-ların dəstəklənməsi üçün aktiv iqtisadi dəstəklər həyata keçirilmiş və ekosistemin inkişafı formalaşdırılmışdır. Hazırda KOM-ların bazar payının böyüdülməsi, onların istehsal imkanlarının genişləndirilməsi və istehsal etdikləri məhsulların rəqabətqabliyyətliliyinin artırılması dünya ölkələrinin iqtisadi siyasətinin əsasını təşkil etməkdədir.

Qurulması çox miqdarda investisiya tələb etməyən KOM-lar yaratdığı əmək potensialı, regionların tarazlı inkişafının təmin edilməsində zəruri rolu, istehlakın qarşılanması, idxaldan asılılığın azaldıması, əhalinin sosial rifahının təmin edilməsi baxımından ölkələrin sosial- iqtisadi inkişafının təmin edilməsi üçün ən zəruri vasitələrdəndir. Ölkələr KOM-ların iqtisadiyyata olan müsbət qatqılarını artımaq üçün müxtəlif növ iqtisadi siyasət və dəstək proqramları tətbiq edərkən təsir dairəsini və hədəf kütləsini müəyyənləşdirmək məqsədi ilə mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları anlayışı formalaşdırmışlar. Ölkələr tərəfindən KOM-ların bölgüsü meyarlarını müəyyənləşdirərkən əsasən müəssisələrin illik gəliri, işçi sayı və investisiya həcmi kimi indikatorlar müəyyən edilir.

## 1.1. Azərbaycan Respublikasında KOM anlayışı

Ölkəmizdə mikro, kiçik, orta və iri müəssisələrin bölgüsü Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 21 dekabr tarixli 556 nömrəli qərarı ilə təsdiq edilmişdir. Sözügedən qərara əsasən işçilərinin orta siyahı sayı 1-10 nəfər, illik gəliri 200 min manatadək olan sahibkarlıq subyektləri mikro, işçilərinin orta siyahı sayı 11 – 50 nəfər, illik gəliri 200 min manatadan 3 milyon manatadək olan sahibkarlıq subyektləri kiçik, işçilərinin orta siyahı sayı 51-250 nəfər, illik gəliri 30 milyon manatadək olan sahibkarlıq subyektləri orta sahibkar, işçilərinin orta siyahı sayı 251 və ondan yuxarı nəfər, illik gəliri 30 milyon manatan çox olan sahibkarlıq subyektləri iri sahibkar hesab edilməkdədir.

## 1.2. KOM-ların iqtisadiyyata təsirlər

KOM-ların istehsal etdikləri məhsullar, yaratdıqları məşğulluq imkanları və əhalinin istehlak tələbinin qarşılanması sahəsində ölkələrin iqtisadi artımına verdikləri müsbət təsirlər ilə yanaşı ölkədəki iqtisadi mühitin təkmilləşdirilməsi və inkişafına bir çox töhfələr verməkdədir ki, bunlar aşağıdakılardır.

a) Sahibkarlıq ekosistemini inkişaf etdirir;
b) Məhsuldarlığı artırır;
c) Rəqabət mühitini inkişaf etdirir;
d) İnnovasiyalı iqtisadiyyatı təşviq edir;
e) Gəlirlərin ədalətli bölgüsünü təmin edir;
f) Regionların tarazlı inkişafını təmin edir və miqrasiyanın qarşısını alır.

## 1.3. Kiçik və orta müəssisələrin üstünlükləri

İri müəssisələrə görə əsas üstünlüyü qurulması zamanı daha az investisiya tələb edən KOM-ların, eyni zamanda, sahib olduğu az işçi heyəti və operativ idarəetmə quruluşu ilə iri müəssisələrdən fərqli digər növ üstünlükləri də əldə etməkdədir.

- İri şirkətlərə nisbətən qəraralma mexanizmi daha sadə olduğu üçün bazar tələblərinə daha çevik

və operativ uyğunlaşmaqdadırlar;
- KOM-ların istehsal etdikləri məhsulun iri müəssisələrə nəzərən daha az olması təchizat zəncirinin daha səmərəli idarəolunmasını təmin edir;
- Qurulması elədə böyük vəsait tələb etməyən KOM-ların maliyyələşməsi öz vəsaitləri hesabına təmin olunduğu üçün əldə olunan mənfəətin birbaşa investora qayıtmasına şərait yaradır. İri müəssisələrdə isə qoyulan investisiyanın həcmi çox olduğuna görə investisiya qoyuluşu daha çox borclanma yolu ilə həyata keçirildiyi üçün mənfəətin bir hissəsi məhz borc öhdəliyinin ödənilməsinə cəlb edilir. Bu baxımdan KOM-ların əldə etdikləri mənfəət daha iri müəssisələrə nəzərən daha çox olmaqdadır;
- İnnovasiyanın tətbiqi asan olduğu üçün istehsalatda innovasiyaların mənimsənilməsi daha asandır [10, səh. 37].

Qeyd edilənlərlə yanaşı, KOM-ların sayısının çox olması və ölkənin hər bir regionunda fəaliyyət göstərməsi ölkələrin iqtisadi inkişafın təmin edilməsi üçün tətbiq etdikləri təşviq siyasətlərinə də daha tez müsbət reaksiya verərək ölkə iqtisadiyatının böyüməsini təmin etməkdədirlər. Eyni zamanda baş verən iqtisadi böhranlar qarşısında iri müəssisələrə nəzərən daha dayanıqlı müqavimətə malikdirlər.

### 1.4. Kiçik və orta müəssisələrin zəif tərəfləri

KOM-ların yuxarıda sadalanan güclü tərəfləri ilə yanaşı sahib olduqları quruluş onlara, eyni zamanda, bir çox problemlər ilə qarşılaşmasına şərait yaradır. Bu faktorlar aşağıdakılardır:
- İri məssisələrə nəzərən daha az məhsul istehsal etdikləri üçün istehsal olunan məhsulun maya dəyəri daha başa gəlməkdədir;
- KOM-lar fəaliyyətə başladığı zaman hədəf istehlakçı kütləsi məhdud seçildiyi üçün onların beynəlxalq bazarlara keçidi və genişlənməsi potensialı daha zəifdir;
- Müəssisənin idarəedilməsi bir şəxsə bağlı olduğu üçün qərarların ortaq müzakirəsi və kollegial qəbul edilməməsi işlərin görülməsində bir çox nöqsanların ortaya çıxmasına şərait yaradır;
- İri müəssisələrin yeritdiyi marketinq və qiymət siyasətinə qarşı istehlakçıları təşviqedici adekvat mexanizmləri məhduddur [10, səh. 40].

## 2. KİÇİK VƏ ORTA MÜƏSSİSƏLƏRİN İQTİSADİ POTENSİALI

İqtisadi ədəbiyyatda tez-tez istifadə edilən potensial sözü öz mənşəyini latıncadan götürüb geniş mənada məqsədə çatmaq, hər hansı bir tapşırığın həyata keçirilməsi üçün hərəkətə gətirilən vəsait, ehtiyat və ya mənbə mənasını verməkdədir [2]. İqtisadiyyatla yanaşı riyaziyyat, fizika, texnika, hərbi iş və biologiya kimi sahələrdə də termin kimi işlədilən bu anlayış iqtisadiyyatda hazırda istifadə edilməsədə gələcəkdə istifadə edilə bilən ünsürlər kimi başa düşülür. İqtisadi potensial anlayışına, bütövlükdə, iqtisadi resurslar və iqtisadi nəticələr daxildir [1].

İqtisadi potensial anlayışı, eyni zamanda, müəssisələr üçün də istifadə edilməkdədir. Müəssisənin iqtisadi potensialını anlamaq üçün ilkin olaraq müəssisənin nə olduğu və onun ümumi quruluşunu anlamaq lazımdır. Müasir iqtisadi nəzəriyyədə müəssisə dedikdə məhsul və xidmət istehsal edən subyektlər nəzərdə tutulmaqdadır. Müəssisələr haqqında Azərbaycan Respublikasının qanununda müəssisə mülkiyyət formasından asılı olmayaraq ictimai tələbatın ödənilməsi və mənfəət alması məqsədi ilə məhsul istehsal edən və satan, işlər görən və xidmətlər göstərən hüquqi şəxs olan müstəqil təsərrüfat subyekti olaraq qeyd edilmişdir [11].

Müəssisənin ümumi quruluşu dedikdə onun tərkibinə daxil olan həm istehsal, həm də qeyri – istehsal sahələri arasındakı kəmiyyət nisbətləri nəzərdə tutulur [4, səh. 21]. Müəssisənin fəaliyyəti onun göstəricilərindən birbaşa asılı olmaqdadır. Bu göstəricilərin əsasını isə müəssisənin potensialı təşkil etməkdədir ki, müəssisənin iqtisadi həyatdakı yeri və çəkisi məhz onun iqtisadi potensialı ilə müəyyən olunmaqdadır. Kiçik və orta müəssisələrin malik olduqları aşağıdakı iqtisadi potensiallar mövcuddur. (Sxem 1)

*Sxem 1. Kiçik və orta müəssisələrin potensialı*




Mənbə: [6, səh. 211].

### 2.1. Maddi-texniki potensial

Müəssisənin fəaliyyəti üçün ilkin olaraq onun maddi-texniki potensiala sahib olması lazımdır. Maddi- texniki potensialın düzgün formalaşdırılması müəssisənin inkişafını şərtləndirən əsas amillərdəndir. Xüsusi ilə də kiçik və orta müəssisələr elə bir maddi-texnki potensiala malik olmalıdırlar ki, onların inkişafına paralel olaraq istehsal imkanları genişləndirilə, kadr və mütəxəssislərin iş proseslərinə cəlbi asanlaşa, məhsulun istehsal həcmi və miqdarı asanlıqla artırıla bilsin. Maddi-texniki potensialın əsas göstəriciləri aşağıdakılardır;

- **Müəssisələrin illik dövriyyəsinin həcmi artırılmalıdır** - Müəssisənin əsas göstəricisi hesab edilən dövriyyə ticarət fəaliyyəti ilə məşğul olan bütün müəssisələrin müəyyən müddət ərzində təmin etdiyi toplam qazancı ifadə etməkdədir. Eyni zamanda dövriyyə müəyyən bir dövr ərzində bütün mənbələr üzrə əldə edilən vəsaitin məbləğidir. Digər bir deyişlə dövriyyə müəssisənin kassasına mədaxil olunan gəlirlərin toplamıdır. Müəssisələr üçün davamlılığın əsas göstəricilərindən biri dövriyyənin xərcləri üstələməsi şərtidir. Dövriyyənin günlük, həftəlik, aylıq, illik hesablanması metodları mövcuddur ki, ən çox istifadə edilən göstərici məhz illlik dövriyyə olmaqdadır. İllik dövriyyənin hesablanması eyni zamanda müəssisənin nə qədər böyüdüyünü təqib etməyə imkan verməkdədir. Bu hesablama metodu ilə müəssisələr bir əvvəlki ilə görə nə qədər inkişaf etdiyini və ya zəiflədiyini hesablayaraq inkişaf strategiyasının qurulmasını təmin edir. Müəssisə tərəfindən qurulan strategiya məhz onun illik dövriyyə potensialı ilə birbaşa əlaqədardır. İllik dövriyyə potensialı isə müəssisənin müştəri kütləsi, istehsal miqdarı, məhsulların bir əvvəlki ildə satış həcmi ilə müəyyən edilməkdədir.
- **Əsas məhsul istehsalının miqdarı və həcmi artırılmalıdır -** İqtisadi ədəbiyyatda istehsal dedikdə, ümumi mənada bəşəri və maddi faktorların mal və xidmətlərə çevrilməsi nəzərdə tutulmaqdadır. İstehsalın məqsədi insanların tələbinə uyğun olaraq mal və xidmətlərin təmin edilməsidir. İstehsalın əsas aktoru hesab edilən müəssisədə istehsal müxtəlif resursların sistematik, planlı və məqsədli şəkildə bir yerə gətirələrək yeni bir mal və xidmətin ortaya çıxması şəklində ifadə edilir. Müəssisənin istehsal potensialı onun istehsal həcmi və ya istehsal gücü ilə birbaşa bağlıdır. İstehsal gücü müəssisənin bütün istehsal faktorlarından istifadə edərək malik olduğu ən yüksək səviyyədə məhsul buraxılışını ifadə edir. Müəssisənin istehsal gücü onun avadalıqları, əmək resurları kimi amillərlə birbaşa bağlı olmaqdadır. Qeyd olunan amillərin keyfiyyətinin yüksəldilməsi istehsal potensialı ilə mütənasiblik təşkil etməkdədir.
- **İstehsal sahəsi inkişaf strategiyasına adekvat olmalıdır** - Qısaca olaraq məhsulun və ya xidmətin hazırlandığı yer mənasını verən istehsalat sahələri əsasən əşya və texnoloji priinsip əsasında qurulur [4, səh. 27]. İstehsal sahəsinin müəssisənin düzgün və planlı qurulması müəsssisənin uğurlu fəaliyyətinin əsas göstəricilərindəndir. İstehsal sahəsi elə bir sahə olaraq seçilməlidir ki, müəssisənin gələcək inkişafına uyğun olmalıdır. Kiçik və orta müəssisələr üçün istehsalat sahəsi yaradıldığı və ya seçildiyi zaman nəqliyyat, iş gücü, əhali, enerji, kommunal, vergi təşviqləri faktorları nəzərə alınaraq ən uyğun seçim edilməlidir. İstehsalat sahəsi müəssisənin maddi-texniki potensialına birbaşa olaraq təsir etməkdədir. Müəssisənin satış imkanlarının artırılması üçün onun istehsalat sahəsi bu tələbi qarşılaya bilməlidir. Buna görə də istehsal sahəsinin həcmi elə olmalıdır ki, müəssisənin inkişaf hədəflərinə və perspektivinə adekvat olsun.
- **Əmək resurslarının səmərəliliyi arıtılmalıdır** - Müəssisənin istehsal prosesində məhsulun xam maddə vəziyyətindən son məhsula çevrilməsinə qədər olan prosesdə işçi heyətinin

iştirakı ilə başa gəlməkdədir. Müəssisələrdə məhsul istehsalı üçün kapitalın şərt olduğu qədər əmək də eyni dərəcədə mühim amildir. Məhsuldar və səmərəli istehsal üçün sağlam və səmərəli işçi qüvvəsinə ehtiyac duyulmaqdadır [5]. Eyni zamanda müəssisənin əmək resurslarının müəssisənin istehsal prosesindəki rolu müəssisənin sahib olduğu avadanlıqların məhsuldarlığı, yeni texnologiyadan istifadə kimi amillərdən də asılıdır.

### 2.2. Maliyyə potensialı

Müəssisənin fəaliyyəti və inkişafı onun maliyyə potensialı ilə birbaşa asılıdır. Müəssisə tərəfindən qarşıya qoyulan məqsədlərə nail olunması, yüksək keyfiyyətli məhsulların istehsalı, təchizat zəncirinin səmərəli qurulması qazanclı investisiya siyasətinin tətbiqi, istehsal olunan məhsulların təşviqatının aparılması, səmərəli əmək resurslarının istehsal proseslərinə cəlbi birbaşa olaraq maliyyə potensialından asılıdır. Kiçik və orta müəssisələr hər nə qədər maliyyə əlçatanlığı iri müəssisələrlə müqayisədə məhdud olsa da, onların uğurlu fəaliyyəti nəticəsində maliyyə potensialı artırıla bilər. Maliyyə potensialının artırılması və inkişafı birbaşa olaraq aşağıdakı göstəricilərdən asılıdır.

- **Aktivlərin həcmi artırılmalı və öhdəliklər azaldılmalıdır** - Müəssisənin aktivi dedikdə, təsərrüfat subyektinə məxsus olan xüsusi əmlak, debitor hesabların cəmi, binalar, istehsal ehtiyatları, müəssisənin pul və kassa hesabındakı pul məbləği başa düşülür [7]. Müəssisənin uğurlu fəaliyyəti üçün onun aktivlərinin cəmi onun öhdəliklərinin cəminə bərabər olmalıdır. Aktivlərinin həcminin artırılması və öhdəliklərin azaldılması müəsssisənin maliyyə potensialına öz müsbət töhfəsini verəcəkdir.
- **Xalis gəlirin həcmi çoxaldılmalıdır** – Müəssisələrin xalis gəliri onun vergi ödənişləri, sığorta haqları, pensiya fonduna olan öhdəlikləri ödənildikdən sonra yerdə qalan gəlir mənasını verməkdədir [1, səh. 417]. Xalis gəlir müəssisənin fəaliyyətinin davam etdirilməsini təmin edən ən mühim qaynaqdır. Təbii olaraq müəssisələr varlıqlarını davam etdirmək və təsisçilərin gəlirini artırmaq üçün müəyyən edilmiş vaxtda gəlir əldə etməyi hədəfləməkdədir. Buna görə də müəssisələr öz xərclərini minimum satışdan əldə etdiyi gəliri maksimum səviyyəyə çatdırmaq üçün ən uyğun investisiyanı və istehsal olunacaq məhsulların tapılması üçün ən müvafiq stategiyanı mənimsəməkdədirlər. Yeni investisiya imkanlarının yaradılması və müəssisənin böyüməsi tədbirlərinin icrası üçün, xalis gəlirin həcminin artırılması üçün strategiya müəyyən edilməli və müəssisə resurslarından səmərəli istifadə edilməlidir.
- **Firma öz kapitalının həcmini artırmalıdır**– bir müəssisə sahibinin öz istifadəsinə ayırdığı kapitalı başa düşülməkdədir. Bir başqa sözlə, müəssisənin öz kapitalı müəssisənin sahibinin müəssisədəki payı və ya müəssisədəki varlıqları üzərində haqlarının pul ilə ifadəsi olaraq başa düşülməkdədir. Müəssisənin öz kapitalını düsturla ifadə edildiyində;

*Öz kapital = real aktivlər - borclar*

Öz kapitalın artırılması müəssisənin maliyyə potensialına birbaşa olaraq müsbət töhfəsini verməkdədir.

### 2.3. Elmi-texniki potensial

İqtisadi ədəbiyyatda elmi-texniki potensial anlayışı innovasiya elmi, əqli, yaradıcı anlayışları ilə eyniləşdirilir. Elmi-texniki potensialın əsas meyarlarından hesab edilən tədqiqat və inkişafın KOM-lar üçün rəqabətqabliyyətli və innovativ məhsulların istehsal edilməsindəki rolu əvəzsiz hesab edilməkdədir. Elmi-texniki potensialı güclü olan müəssisə gələcək istehlakçı tələblərini asanlıqla qarşılaya, istehsal etdiyi məhsulun xərclərini aşağı sala və əlavə dəyərini yüksəldə bilər. Müəssisənin elmi-texniki potensialı məhsuldar qüvvələrin və istehsal münasibətlərinin qarşılıqlı əlaqəsinin mürəkkəb mexanizmi ilə müəyyən edilir [3, səh. 9]. Elmi-texniki potensialın arıtılması üçün aşağıdakı göstəricilərin yaxşılaşdırılmasına ehtiyac vardır.

- Elmi-tədqiqat və təcrübə - konstruktor işlərinə xərclənən vəsaitin həcmi artırılmalı;
- Tədqiqat mərkəzlərinin sayı çoxaldılmalı;
- Ölkədə və xaricdə qeydə alınmış patentlər yaradılmalıdır.

## NƏTİCƏ

Aparılan tədqiqat işindən aydın olmuşdur ki, müəssisənin inkişafı onun iqtisadi potensialından birbaşa olaraq asılı olmaqdadır. Fikrimizcə, iqtisadi potensialın artırılması üçün iqtisadi potensiala təsir edən göstəricilərin müsbət inkişafına nail olunmalıdır. Kiçik və orta müəssisələr qurulmağa başladığı zaman yığcam maddi-texniki, maliyyə və elmi-texniki potensialına malik olsalar da, daha sonraki inkişafları üçün bu potensialların həcminin artırılmasına ehtiyac duyulur. Sözü gedən potensialların artırılması üçün ilk olaraq bu potensialın göstəriciləri təhlil edilməli və artırılması üçün müəyyən tədbirlər görülməlidir. İlkin olaraq müəssisə üçün fərqli əhəmiyyətə malik olan maddi-texniki, maliyyə və elmi-texniki potensiallar, eyni zamanda, müəssisənin gələcək inkişafı üçün eyni zərurəti daşımaqdadır. Son olaraq qeyd edək ki, müəssisələr dayanıqlı inkişafa malik olmaları üçün qeyd edilən potensialların hər birinin göstəriciləri üzrə müsbət dinamika əldə edilməlidir.

## ƏDƏBİYYAT


1. Böyük iqtisadi ensiklopediya. II cild, Bakı: 2012, 630 səh.
2. Böyük iqtisadi ensiklopediya. IV cild, Bakı: 2012, 590 səh.
3. Hüseynova A.D. Azərbaycanda innovasiya potensialının təhlili. Bakı: Elm və təhsil, 2013.
4. Hüseynova İ.M. Müəssisənin iqtisadiyyatı. Dərs vəsaiti, Bakı: 2013.
5. Karl E. Keys, Ray C.Feyr, Şaron M.Oster. Mikroiqtisadiyyatın əsasları. Bakı: 2008, 431 səh.
6. Kərimov E.N., Osmanov B.O. İqtisadi nəzəriyyə. Bakı: 2010, 634 səh.
7. Vergi ensiklopediyası. Bakı, 2013.
8. https://www.worldbank.org/en/topic/smefinance
9. https://sbb.gov.tr/wp-content/uploads/2018/11/MehmetCansiz
10. https://www.mmo.org.tr/sites/default/files/KOBI%20oda%20raporu_677.pdf
11. http://www.e-qanun.az/framework/9081


## SUMMARY

**Altun Yasinli**

### THE MAIN DIRECTIONS OF INCREASING THE ECONOMIC POTENTIAL OF SMALL AND MEDIUM-SIZED ENTERPRISES


One of the strategic directions of economic reforms in the Azerbaijani society is the formation of small and medium-sized enterprises. This is also due to the fact that small and medium-sized enterprises play an important role in the reconstruction of the structure of the country's economy, forming various forms of ownership, implementing new ideas and effective proposals in production, overcoming monopolization and social tension.

The activities of small and medium-sized enterprises play an important role both in providing the domestic market with goods and services, eliminating sectoral and regional monopolies, expanding competition in all spheres, and in opening up wide opportunities for identifying and implementing the creativity of enterprising people, involving available labor and material resources in production, and comprehensively ensuring the needs of the population. Small and medium-sized enterprises are of great importance in the formation of direct economic relations between producers and consumers, in increasing incomes and purchasing power of the population.

The President of the Republic of Azerbaijan Ilham Aliyev highly appreciates the formation and development of entrepreneurship (small and medium enterprises) as one of the main priorities of the economic policy of the state and notes that small and medium enterprises create harmony in the overall development by eliminating social stratification. Mr. I.Aliyev also stresses that in the condition of market relations it is impossible to ensure economic growth without creating normal

conditions for the activities of small and medium-sized enterprises, to create new jobs, as well as to solve social problems.

In this regard, we can note that as an object of study of our article, there is a great need for a comprehensive study of the problems of the formation and development of small and medium-sized enterprises assessing their economic potential.

***Key words:*** *small and medium enterprises, economic potential, material and technical potential, financial potential, scientific and technical potential.*

## РЕЗЮМЕ

**Алтун Ясинли**

## ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ПОВЫШЕНИЯ ЭКОНОМИЧЕСКОГО ПОТЕНЦИАЛА МАЛЫХ И СРЕДНИХ ПРЕДПРИЯТИЙ

Одним из стратегических направлений экономических реформ в азербайджанском обществе является формирование ответственности малых и средних предприятий. Это также связано с тем, что малые и средние предприятия играют важную роль в реструктуризации структуры экономики страны, формировании различных форм собственности, реализации новых идей и эффективных предложений в производстве, преодолении монополизации и социальной напряженности.

Деятельность малых и средних предприятий играет важную роль как в обеспечении внутреннего рынка товарами и услугами, ликвидации отраслевой и региональной монополии, расширении конкуренции во всех сферах, так и в открытии широких возможностей для выявления и реализации творчества предприимчивых людей, вовлечения в производство имеющихся трудовых и материальных ресурсов, всестороннего удовлетворения потребностей населения. Малые и средние предприятия имеют большое значение в формировании прямых экономических связей между производителями и потребителями, в повышении доходов и покупательной способности населения.

Высоко оценив, что без создания нормальных условий для деятельности малых и средних предприятий в условиях рыночных отношений невозможно обеспечить экономический подъем, добиться создания новых рабочих мест, а также решить проблемы социального характера, президент Республики Ильхам Алиев расценил формирование и развитие предпринимательства (малых и средних предприятий) как один из главных приоритетов экономической политики государства и отметил, что, малые и средние предприятия создают гармонию в общем развитии, преодолевая социальную стратификацию.

В связи с этим можно отметить, что существует большая потребность в комплексном изучении проблем формирования и развития малых и средних предприятий как объекта исследования нашей статьи, оценке их экономического потенциала.

***Ключевые слова:*** *малые и средние предприятия, экономический потенциал, материально-технический потенциал, финансовый потенциал, научно-технический потенциал.*

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*
***Məqalə daxil olmuşdur:*** *4 noyabr 2021-ci il*
***Çapa qəbul edilmişdir:*** *2 dekabr 2021-ci il*

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2021, № 2 (111), 232-238**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2021, № 2 (111), 232-238**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2021, № 2 (111), 232-238**

**САМИДДИН КАСУМОВ**
*Сумгаитский Государственный Университет*
*qsamiddin@mail.ru*

**UOT: 338**

# ФОРМЫ И МЕХАНИЗМЫ ГОСУДАРСТВЕННОЙ ПОДДЕРЖКИ ДОМАШНИХ (СЕМЕЙНЫХ) СЕЛЬСКИХ ХОЗЯЙСТВ В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ

*В статье основным объектом исследования выбраны домашние (семейные) сельскохозяйственные единицы. Их системное изучение и освоивание специфичных характеристик проводится в масштабе Нахчыванской Автономной Республики Азербайджана. Эта форма хозяйствования является одной из простейших среди форм хозяйствования по аграрной сфере.*

